ŞİRİN XANIM KƏRİMBƏYLİ ŞADİMAN

ÖMÜR YÜKÜ

BAKI-2021

Kitaba maddi və mənəvi dəstək göstərdiyinə görə
həyat yoldaşım Əli Abdulla Əli oğluna minnətdaram.

Redaktoru və Korrektoru: Əli Abdulla

Şirin Xanım Kərimbəyli Şadiman
ÖMÜR YÜKÜ

Bakı. Qanun Nəşriyatı. 2021. 624 səh. 300 tiraj
Çapa imzalanmışdır: 01.02.2021

Şirin xanım Kərimbəyli Şadiman Azərbaycan ədəbiyyatında öz dəsti xətti olan sənətkarlardan biridir. Onun yaradacılığı təkcə Vətən məhdudiyyətində qalmır. O, öz ürəklər fəth edən yaradıcılığı ilə çoxdan Azərbaycan sərhədlərini aşıb. Dünyanın harasında bir ağrı-acı varsa, Şirin xanımın ilhamlı qələmi orda olur və o ağrıları nəzmə çəkir. Şair istər şeiriyyəti, istərsə də publisist düşüncələri ilə oxucu ürəyini riqqətə gətirən sənətkardır. Nəşriyyatımız adından müəllifə yeni-yeni yaradıclıqlıq zirvələri arzulayırıq.

ISBN 978-9952-36-917-5

© Qanun Nəşriyyatı, 2021
© Şirin Xanım Kərimbəyli Şadiman, 2021
www.shirinxanim-shadiman.net

ÖMRÜN QANADLARI

ÖN SÖZ ƏVƏZİ

Ömrün qanadları üstündə uçuruq, bizlər elə zənn edirik ki, qanadlarımız yoxdur, hərdən quşlara qibtə hissiylə baxırıq. Əslində, biz də qanadlıyıq. Bu qanadlar ömür qanadlarıdır, bizi bir ömür boyu uçurur. Bir də gözümüzü açıb-yumub görürük ki, artıq ömrün payızındayıq...Ömür ağacının yarpaqları bir-bir tökülməyə başlayır. Saralan yarpaqlar bizi tərk edən acılı-şirinli həyat dolu günlərimizdir.

Ümid edirəm ki, ötən illərimi boşuna keçirmədim. Yazdıqlarımın ağrısını dada-dada, ünyetməz boşluqlar içində çox çırpındım. Hər baxışdan, hər yerişdən, hər pıçıltıdan misralar axdı doldu könlümə, gah məhəbbət nəğməsi oldu, gah ilahi sevgisi, gah da günümüzün gerçəklikləri...

Hər dəfə yeni kitabımı araya-ərsəyə gətirəndə çox sevinmişəm sağlığıma, yazdıqlarımın kitab içində özünə yuva tapmasından böyük xoşbəxtlik nə ola bilər ki...Şükür Yaradana indi bu xoşbəxtliyin şirinliyin dada-dada barmaqlarımı bilgisayağın düymələri üsütündə gəzdirirəm, sanki piano dilləri kimi...Bilsəniz bu anlar necə mənim üçün valehedicidir və ürək ovundurucudur. Sözlər könlümdə çağladıqca mən də ana dilimin şirinliyindən doğan cümlələrə, misralara sarılıram. Onları bənd-bənd söz ovqatıma kökləyirəm.

Həyatdan bir ömür nə daddımsa sözlərimin boyuna biçildi, əynində allı-güllü don oldu. Bayatı, dördlük, heca, əruz məni ağuşuna aldı, ana körpəsinə sarılan kimi sarıldam gecə-gündüz yazdıqlarıma. Dərdimi bölüşdüm onlarla! Ətrafdan gördüyüm biganəlik, soyuqluq, görməməzlik məni yazmaqdan uzaqlaşdırmadı, əksinə cuşa gətirdi, çünki, gənclik çağlarımdan qələm mənə, mən qələmə vuruldum, hər ikimiz sözün aşiqi olduq! Bu aşiqlik bugünə kimi mənimlə yol yoldaşı oldu, nə yorulmadı, nə tənimədi...Uzun yolların eniş-yoxuşunu birgə adladıq, bir-birini sevə-sevə. Bu Məcnun sevgisi bir an belə bizi tərk etmədi.Hələ də söz məni sevir, mən sözü...Bir də yazdıqlarımın ağrı-acısını mənimlə birgə çəkən ömür-gün yoldaşım Əli Abdulla var həyatımda. Kitabın redaktə və korrektə işini, necə deyərlər mənəvi və maddi yükünü o çəkir. Allah hamının sevdiklərini qorsun. Kitabda bayatılar, dördlüklər, qəzəllər, poemalar, dediklərim, fecebookda paylaşdıqlarım, ədəbi və günümzü əks etdirən məqalələr toplanmışdır.

Dəyərli oxucu, “Ömür yükü” kitabımla görüşünüzə gəlirəm, ömrün elə bir çağındayam ki, bəlkə də bu görüş sizinlə son görüş oldu. Qismət İlahidəndir deyirlər, mən də İlahi eşqə tapınıb bənd-bənd, misra-misra boylanacam yollarınıza, göyərçintək uçub qonacam çiyninizə, əllərinizin hərarətində, gözlərinizin nurda qalacam. “Ömür yükü”mü götürüb söz karvanımla yola çıxmışam. O yolun enişinə, yoxuşuna bələdəm, özüm-özümə bələdçiyəm bir ömür boyu...Rica edirəm, “Ömür yükü” tutmuş bələdçinizə azacıq da olsa nəfəslik açın. O nəfəslikdən misralarım ruhunuza axsın dağ çeşməsi təki, acışan könlünüzə bir damla ümid, bir içim su olum...islansın çatlamış dodaqlarınız misralarımın yağmuruna...Çünki hər bir yazarın ruhunun dairəsi oxucu gerçəkliyi, oxucu baxışıdır. Baxışlarınız yazılan kitablara yönəlsin, mütaliyə eşqiniz günbəgün artsın. Özümüzün, sözümüzün dəyəri azalmasın, diqqətimiz yadlara yönəlməsin, ruhumuz ucalıqdan enməsin. Bir siz olun, bir yazan əlimiz, bir parlayan elimiz, bir də sözümüzə misra tutan dilimiz...Sözə gəlin...

13.04.2020 Müəllif

KÖNLÜMƏ DÜŞƏN TANRI

BAĞLI QAPILARI AÇAN İLAHİ

Ələ, göydən yerə nurlar tökülsün,
Bütün pisliklərin bağrı sökülsün,
Ürəkdən dikələn ağrı çökülsün,
Qopar yer üzündən kədəri, ahı,
Bağlı qapıları açan İlahi.

Sənə sevdalıyıq doğulan gündən,
Lap ana bətnində yoğrulan gündən,
Dünya var olandan, doğrulan gündən,
Xəlq etdin gecədən sonra sabahı,
Bağlı qapıları açan İlahi.

Bir damla nurundu vicdan insanda,
Kimliyin dolaşır hər ruhda, canda,
Sevginə sevdalar vardır hicranda,
Can eşq şərbətiylə dolu sürahi,
Bağlı qapıları açan İlahi.

Götür bu dünyadan möhnət yükünü,
Adamın adama zillət yükünü,
Ağıllı başlara alət yükünü,
Yerlərin, göylərin ey ümidgahı,
Bağlı qapıları açan İlahi.

Günbəgün yolunu azır bəndələr,
Səni dil-dodağa, ancaq bənd elər,
Hiyləyə əyilər, xeyrə fənd elər,
Ömür xurcunuyla dolu günahı,
Bağlı qapıları açan İlahi.

Bir ömür yoluna dikilir gözlər,
Qəlblərdən oduna əkilir közlər,
Dillərdə dolaşır dualı sözlər...
Hər dinin özünün var qibləgahı,
Bağlı qapıları açan İlahi.

17.04.2020

HAQQA SƏCDƏ EDİRƏM

Etməyin məni qınaq,
Ruh dalınca gedirəm.
Bulduğum ömür sınaq,
Haqqa səcdə edirəm.

Keçirin könlü oddan,
Daha keçmişəm addan,
Çıxarın məni yaddan,
Haqqa səcdə edirəm.

Məni yazıq sanmayın,
Yolumda dayanmayın,
İstəmirsiz, anmayın,
Haqqa səcdə edirəm.

Çox yaxşı-yaman gördüm,
Ağlayan iman gördüm,
Düz sözü dərman gördüm,
Haqqa səcdə edirəm.

Hey yanıb-yaxılsam da,
Büdrəyib yıxılsam da,
Gülləyə taxılsam da,
Haqqa səcdə edirəm.

Şadiman sözə bağlı,
Heç kəs azdırmaz ağlı,
Bu bir ömür nağılı,
Haqqa səcdə edirəm.

30.12.2016

ENDİRƏ BİLMƏM

Ruhumu göylərdən endirə bilməm,
Səmalar içində cövlana gedib.
Küsüb ürəyimdən dindirə bilməm,
Sanki Rəbb önünə mövlana gedib.

05.12.2017

GÖYLƏRƏ APAR

İlahi, canımı göylərə apar,
Məni insanların əlindən qopar.

Elə istəyirəm yaxşı olmağa,
Göründüyüm kimi yerdə qalmağa.

Amma ürəyimi yıxıb sökürlər,
Çəkdiyim ağrıdan bostan əkirlər.

Məni mən olmağa qoymayır bəndə,
Dözə bilməyirəm hər fe`lə, fəndə.

İçimin tufanı canla öcəşir,
Bilmirəm, İlahi, nədir bu həşir?!

Dünyanın sahibi sənsənsə, Rəbbim,
Sənin işığına üz tutub təbim.

Səninin hüzuruna doğru qoy gəlim,
Uzalı qalıbdır göylərə əlim.

25.08.2018

YARANMIŞIQ BİZ

Kainat nurundan yaranmışıq biz,
Hər canın içində bir ruh gizlənir.
İşığa bağlanıb dayanmışıq biz,
İnsanın tənində nur əzizlənir.

Həmən ruh deyilən bir parça oddur,
Onun enerjisi gəzdirir bizi.
İnsan nur xəzinə, bir neçə qatdır,
Bə`zən bu xəzinə azdırır bizi.

Adam öz nuruna etsə xəyanət,
Nur onu yandırar ocaqda köztək.
Əgər vicdanlarda olsa dəyanət,
Dondurmaz qanları açılmaz buztək.

Göylər harmonyanı bəslər min illər,
Uzaq kainatlar qoynunda yaşar.
Canı göylə bağlar qırılmaz tellər,
Beynimizdə sirli səslər dolaşar.

Biz də kainatın zərrələriyik,
Zərrədən xəlq olub bətinə düşdük.
Uzaq ulduzlardan ötüb gəlirik,
Yerə pərçim olub lap çox dəyişdik.

Zərrənin qədrini bilməyən insan,
Nəfsinə qul olub, közü azaltdı.
Vicdanla haqq yola gəlməyən insan,
Cana zərbə vurdu, ömrü qocaltdı.

Tapındı dinlərin əfsanəsinə,
Biri digərinə silah tuşladı.
Qulaqlar kar oldu haqqın səsinə,
Adam vicdanına biclik aşladı.

Zərrədən yaranıb xaliqə döndük,
Bilmədik ki, vicdan Tanrı özüdür.
İki ayaq üstə çox vaxt öyündük,
Canı anlamadıq – haqqın közüdür.

Minlərlə kainat işıq selitək,
Yol alır asiman sərinliyinə.
Biz də yapışmışıq yerdən dəlitək,
Getmirik kimliyin dərinliyinə.

Nədən yaranıbdı, niyə var insan?!
Bu sual ağıllı başda dolaşır,
Axır işıq seli can içrə leysan,
İnsanın beyninə düşüb suvaşır.

İçində pisliyi gəzdirən kimsə,
Özü öz nurunu içdən küsdürür.
Yoluna əngəllər düzdürən kimsə,
İşığın sönməyə çox tələsdirir.

Hər kəs yamanlığa eyləsə meyil,
Kainat işığı qəlbdə azalar.
Heç kim yaranışdan kənarda deyil,
Şərə qol qoyanın nuru azalar.

Sağlamlıq nur demək, xəstəlik sitəm,
Nurun qaçmasına rəvac verməyək.
İşıq sozaldıqca, bədənə matəm,
Dərdlə ömrü kəsib can sürüməyək.

Biz də kainatın zərrələriyik,
Zərrənin işığı bir ömrə bəsdi.
Sümüyü gizləyən zəif dəriyik,
Ölən günahkardı qəbrə tələsdi.

Gəlin nurumuzu çox xərcləməyək,
Onun atəşiylə közü oyadaq.
Gəl öz-özümüzə şair deməyək,
Yatan ruhumuzda sözü oyadaq!

Şadiman ruhuna bir can borcludu,
Qopub bədənindən uçub gedəcək.
Yerdə qalan ömrə hicran borcludu,
Bir gün bu dünyadan qaçıb gedəcək...

20.10.2018

YENİ İL DUASI

Ey canın işığı, ey Yaradanım,
Vaxtın təkərini fırladır anım.
Saniyələr ömrü çəkib aparır,
İçimə min ağrı töküb aparır.
Sənə ünvanlanıb dildə sözümüz,
Sənin şimşəyini alır közümüz.
Yenə köhnə ili yola salırıq,
Yenə intizara möhtac qalırıq.
Nə olar sındırma ümidimizi,
İşğal sınağıyla öldürmə bizi.
Sənin əlindədir düşmənə sitəm,
Sal onun evinə bir qanlı matəm.
Bizi xar edənlər batıb yox olsun,
Vətəni sevənlər artıb çox olsun!
Özün çətinə sal talançıları,
Ölkəyə zülm edən yalançıları!...
Milləti aclıqla sınağa çəkmə,
Sərvəti nankorun başına tökmə.
Bir tikə çörəyə möhtac olanlar,
Ağrıya, acıya əlac olanlar,
Sabaha ümidi səndə arayır,
Keçir ələyindən, iblisi ayır.
Bizi də bəxtiyar xalqlardan elə,
Sənə ümidimiz dönməsin yelə.
Qarabağ adında ağrı-acımız,
Neylək sənə qalıb tək əlacımız!
Düşmənin ağlını qəfildən çaşdır,
İçində ağrını sellərtək daşdır.
Özünə qarışsın başı daima,
Axsın gözlərindən yaşı daima.
Yağıya əyilən qoy batsın yerə,
Udsun bədənini ən dərin dərə.
Qapıb qılıncını hayqırsın ərlər,
Dillərin əzbəri olsun hünərlər...
Heç boyun əyməsin işğala Ölkəm,
Kəs xainin ömrün, eylə bəxti kəm!
Ulat içimizdə o yatmış Qurdu,
QƏLƏBƏ xəbərin gətirsin ORDU!

25.12.2018

SƏNƏ ÜRƏYİMLƏ SƏCDƏ EDİRƏM

Sənə ürəyimlə səcdə edirəm,
Ürəyin işini əl görə bilməz.
Hər gün dərgahına min yol gedirəm,
Canın səcdəsini dil görə bilməz.

Bütün kainatlar əlində çıraq,
Söndürüb yandıran sənsən çırağı.
Sənin varlığından ruh verir soraq,
Səni duymayanlar görmür irağı.

Vicdanı dinlədib danışdıran sən,
Vicdan dediyimiz Rəbbin özüdür.
Xeyiri şər ilə yarışdıran sən,
Canda kainatın yaşam közüdür.

Dinlərlə insana ağıl verənlər,
Beyin sandığına yerləşib ağıl.
Dini siyasətə ölçü görənlər,
Əsarət artıqca kütləşib ağıl.

Biz ki, Yaradanın zərrələriyik,
Zərrə çoxaldıqca enerji artır.
Zaman oyununda ömrün zəriyik,
Udan zirvələrdə, uduzan batır.

Bizi mövhümatla yatızdıranlar,
Hiylənin ipini kəsər Yaradan.
Adama səcdəyə otuzduranlar,
Yalana son verin, küsər Yaradan.

Təbiət Yaradan özü deyilmi?
Onun varlığına çirkab atmayaq.
Canda İlahinin izi deyilmi?
Yalanı, fitnəni ona çatmayaq.

Hər varlıq içində yaşayan Tanrı,
Səni dərk edəndə aliləşirik.
Canda kimliyini daşıyan Tanrı,
Səni duymayanda aha düşürük.

Sənə ürəyimlə səcdə edirəm,
Ürəyin işini əl görə bilməz.
Hər gün dərgahına min yol gedirəm,
Canın səcdəsini dil görə bilməz.

03.01.2019

İLAHİ, MƏNƏ BİR YOL AÇ

İlahi, mənə bir yol aç,
Ürək odun üstündə sac…
Alım ağrıyan başımı
Çıxım-gedim bu dünyadan.
Atım-qaçım göz yaşımı,
Qurtulum daha röyadan.
Qəmli gözlərin tə`nəsi,
Yalanların ənənəsi,
Ruhumu talan eyləyir,
Könlümə kədər bələyir.
İçimdə hicran mələyir…

***

İlahi, mənə bir yol aç,
Canım deyil kimsəyə bac.
Dincliyimi tapım bir dəm,
Onu şərdən qapım bir dəm…
Məni də bir ana doğdu,
Bəsdir qəlbə həsrət yağdı,
Çəkdiklərim uca dağdı,
Qalxıb düşə bilməyirəm,
Bu dünyanın gərdişinə
İnsanının səhv işinə,
Mən öyrəşə bilməyirəm…
Heç dəyişə bilməyirəm…

***

İlahi, mənə bir yol aç,
Tək səndədir qəlbə əlac.
Talan olmuş ürəyimi
Qapım-gəlim ayağına!
Doğulandan bu günədək
çox düşmüşəm sorağına.
Bilirəm ki, ruhumdasan,
Fərəhimdə, ahımdasan.
Buludunun göz yaşına
Damla-damla bələ məni,
Götür yerdən səmalara,
Kainata ələ məni.

***

İlahi, mənə bir yol aç,
İstəmirəm başıma tac,
Götür yerdən apar məni,
Xətalardan qopar məni.
Hər bir şeyin düzü səndə,
Adamının gözü səndə!
Bilirəm ki, canımdasan,
Hər dəqiqə yanımdasan…
Gözlərimin içindəsən,
Hər gün niyə, neçindəsən?!
Mən ki, sənə sadiq bəndə,
Salıb könlü kədər bəndə.
Sığmır ürək, misra bəndə,
Düşüb ruhuma qaçaqaç,
İlahi mənə bir yol aç…
İlahi, mənə bir yol aç…

05.02.2019

ÖZÜMDƏN QOPARAN

Özümdən bir mən qoparan,
Alma məndən sən mənimi.
Ver canımı can aparan,
Bacarırsan ud çənimi.

Çıraq tutma gözlərimə,
Öz işığım yetər mənə.
Kölgən düşüb izlərimə,
Özündən də betər mənə.

Yığışıb gəl qəlb içinə,
Bir gör orda nə bəslənir.
Sənsiz necə bəs keçinə,
Ürək sənətək səslənir.

Yağış olub dam könlümə,
Batıb qalım sellərində.
Nolar yaşat kam könlümə,
Ağrısı bol illərin də!

26.05.2019

YERİM YOX DAHA

İlahi, yerlərdə yerim yox daha,
Götür apar məni qurbanın olum.
Dönüm gecələrdən gələn sabaha,
İstəmirəm vallah insanın olum.

Bilirəm sonsuzdur kainatların,
Onların birində yer elə mənə.
Hər yandan parlayır xoş büsatların,
Nə olar bir zərrə sən dilə mənə.

Yoruldum, əzildim hiylədən, şərdən,
Acizəm, dəf edə bilməyirəm mən.
Canım çıxıb məndən baxır qənşərdən,
Ümumi məxrəcə gəlməyirəm mən.

Bəs mən hardan gəlib, hara gedirəm?!
Adamın kimliyin agah et mənə.
Alışır varlığım, qora gedirəm,
Ruhumun pənahı, nolar yet mənə...

Qoymayırlar bizi insan olmağa,
Təhlükədə qalıb insanlığımız!
Min bir faciə var yerdə qalmağa,
Müşkülə düşübdü peymanlığımız.

Canlılar içində ağlımız uca,
Uca ağlımızda şeytanlar gəzir.
Qoyulur vicdanlar hər gün hərraca,
Düşünən başları zülüm, şər əzir.

İdrak caniləri ağlı kül edir,
Hissi düşüncədən önə çəkirlər.
Dini gəlir sayan hər gün gül edir,
Yalandan səcdəyə, dinə çəkirlər.

İlahi, yerlərdə yerim yox daha,
Götür apar məni qurbanın olum.

Dönüm gecələrdən gələn sabaha,
İstəmirəm vallah insanın olum...

18.05.2019

MƏNİ ÇAĞIR GÖYƏ

Tanrı, məni çağır göyə,
Yerdə qalmaq istəmirəm.
Dünya içi günah dolu,
Suçlu olmaq istəmirəm.

Götür yerdən apar məni,
Hissimə qul olmayım qoy.
Dərdi-sərdən qopar məni,
Payız təki solmayım qoy.

Al canımı ruhum uçsun,
Qanadına qonum gəlim.
Kainata cığır açsın,
Ulduzlara çatsın əlim.

Tanrı, məni çağır göyə,
Göylər mənə eşq eyləyir.
Sığınıbdı bağır göyə,
Taleyimlə məşq eyləyir.

Yox bu eşqə çarə yerdə,
Şadimanı apar daha.
Qəlbim min bir yarə yerdə,
Min biri də tapar daha.

09.06.2019

MƏNƏ BİR TƏSƏLLİ VER

Mənə bir təsəlli ver,
Ayağımın altında qəfil titrəməsin yer.
Ürəyimin içində yansın ümid şamları,
Nurlara qərq eyləsin gündüzü, axşamları.
Dərdimi yelə versin,
Könlümdəki nəğməni sızlayan telə versin.
Qəmin sinəsin gərsin,
Yollarıma ağrımın payız xəzəlin sərsin.
İçimdəki fırtına az da olsa səngisin,
Qulağımdan sozaltsın əzabların cəngisin…

***

Mənə bir təsəlli ver,
Görürsən ki getməyə nə yerim, nə yuvam var,
Fəqət dodaqlarımdan əngin göylərə sarı
bir qopacaq duam var…
Eşitdinmi, İlahi, harayımı bilmirəm,
Canımla bir məxrəcə doğulandan gəlmirəm.
Kainatın bağrından qopub düşdüyüm yerə
qayıtmaq istəyirəm.
Ruhum canımda yatıb, ayılmaq istəyirəm,
Dözə bilmədiyimçin tək sənə üz tutmuşam,
İlahi, dərgahına misradan söz tutmuşam,
Qapını aç gəlim mən,
Qəlbi dilim-dilim mən,
Al canımı olum mən…

***

Mənə bir təsəlli ver,
Qan qoxuyan dünyanın harasında qalım mən?!
De nə qədər könlümü ah - fəryada salım mən?!
Gecənə, gündüzünə qurban olum, İlahi,
Qanadlanıb gəlirəm, kainata sal məni,
Bu dünyadan al məni…
Yerlər ikibaşlıdır,
Haqqın gözü yaşlıdır!
Könlümün sızıltısı əridir diləyimi,
Gəzdirə bilməyirəm mən daha ürəyimi…
Dərdim sənə əyandır,

Zülmət çöküb qəlbimə,
İçimdə çıraq yandır…
Bədəndə gəzdirdiyim sənin verdiyin candır!
Onu qul etmədim mən,
Ayaqlara endirib çirkli pul etmədim mən…
Dünya çətin düsturdu, hesabın de, həlli ver,
Mənə bir təsəlli ver…
Mənə bir təsəlli ver…

28.05.2019

BURAX MƏNİ

Burax məni gedim, Allah,
Bu canla qala bilmirəm.
Səcdə göydə edim, Allah,
Yerdən təb ala bilmirəm.

Yer çəkir özünə məni,
Durdurur üzünə məni,
Yandırır közünə məni,
Onunki ola bilmirəm.

Burax məni, gedim, Allah,
Ovqatına yem olmayım.
Sənə pənah dedim, Allah,
Kimliyimə kəm olmayım.

Varım-yoxum içimdədi,
Yükü idrak biçimdədi,
Hər ana min seçimdədi,
Mehrimi sala bilmirəm.

Hər günüm ağrıdan keçir.
Bilmirəm nə edim, Allah.
Çəkdiyim bağırdan keçir,
Burax məni gedim, Allah...

26.06.2019

NƏ BAŞ VERİR

Nə baş verir, ey Yaradan,
Yalan qonub söz üstünə.
Bədənində canı dadan
Günah yığır öz üstünə.

Gecələrdən gündüz doğan,
Göylərindən nuru yağan,
Günbatanı öc gündoğan,
Günəş çıxır köz üstünə.

Dünya keçib var-yoxundan,
Yox ümidi bir çoxundan,
Qorxuram çıxa oxundan,
Çöküb qala diz üstünə.

Ağrı-acı içə təkan,
Yıxmaq üçün gəzir imkan,
Tanımayır heç bir məkan,
Nəm yüklənir göz üstünə.

Yalan dini üstələyir,
Dilə qonub üst eləyir,
Düşünəni süst eləyir,
Qan tökülür iz üstünə.

Fələk də baş çıxartmayır,
Hamı özün haqlı sayır,
Çox içləri basır çayır,
Şər tökülür düz üstünə.

Ey Şadiman, qələm donur,
Hər qəm üstə misra qonur,
Ürəyini hicran yonur,
Düşüb qalır buz üstünə...

23.07.2019

NƏSİB OLMAYIR

Müdriklik hər kəsə nəsib olmayır,
O da İlahinin haqq vergisidir.
Yer üzü belədir gələn qalmayır,
Haqqın dəryasında can üzgüsüdür.

Çoxu bu dünyaya say üçün gəlir,
Özü ağrı olur özcə başına.
Şeytan xislətlilər vay üçün gəlir,
Çevrilir hiylənin can sirdaşına.

Yamana eşq edən, yaxşını əyir,
Yaxşı da əriyir yaman içində.
Gündə min bir dəfə xətirə dəyir,
Heç kəs eyləməyir səhman içində.

Hamı etdiyinə çarə düşünür,
Çarədən əvvəli düşünmək gərək.
Qəlblər buz bağlayır, adam üşünür,
Kimsə büdrəyəndə tapmayır dirək.

Hamı Yaradandan pənah istəyir,
Ağlından özünə pənah aramır.
Haqq yolda olanı Allah istəyir,
Amma heç bir kəsi Allah aramır...

31.08.2019

İNCİTDİM RUHUM

Arzularım çiçək-çiçək açdı töküldü,
Çox acıdan min bir dəfə bağrım söküldü,
Kədər gəzib ətrafımda, qəh-qəhə çəkdi,
Sənə bol-bol göz yaşını içirtdim, ruhum,
Səni daim ağrılarla incitdim, ruhum.

Necə könül gülzarlığın soldu saraldı,
Min bir dəfə gözün doldu, için qaraldı,
Şaxta gəldi, başın üstün çovğun, qar aldı,
Səni candan uçurdaraq qaçırtdım, ruhum,
Səni daim ağrılarla incitdim, ruhum.

01.08.2019

İLAHİ, RUHUMU ÇAĞIR GÖYLƏRƏ

Yerlərin fəğanı üstümə gəlir,
İblisin zülümü qəsdimə gəlir,
Od vurur ürəyə, tüstümə gəlir,
Dözə bilməyirəm bu gileylərə,
İlahi, ruhumu çağır göylərə.

Daha heç bir yerdə qala bilmirəm,
Cahanın zövqünü ala bilmirəm,
Ruhun nəğməsini çala bilmirəm
Yüklənib harayım, qəmim neylərə,
İlahi, ruhumu çağır göylərə.

Acı qəhqəhəyə yem oldum, bəsti,
Dolan bəbəklərə nəm oldum, bəsti,
Canın çəkdiyinə dəm oldum, bəsti,
Doldum qədəhlərə, axdım meylərə,
İlahi, ruhumu çağır göylərə.

Sovrulan ömrümə an verirəm, an,
Donan damarıma qan verirəm, qan.
Al apar nə olar, can verirəm, can!...
Üyülüb düşürəm mən ələylərə,
İlahi, ruhumu çağır göylərə.

Göylə yer arası çırpınır ruhum,
Gəldiyi yerindən sapınır ruhum,
Bilirsən, tək sənə tapınır ruhum,
Məni öc eləmə sən diləylərə,
İlahi, ruhumu çağır göylərə.

Şadiman biçarə günün sovurur,
Ələm ocaq üstə canı qovurur,
Hələ ki, heyim var, ürəyim vurur,
Al apar, ruhumu ver mələylərə,
İlahi, ruhumu çağır göylərə.

03.08.2019

ÇƏKİLMƏK İSTƏYİR

Çəkilmək istəyir ruhum göylərə,
Onun bu məkanda qalacağı yox.
Sancılıb nə vaxtdı ahım göylərə,
Ürəyim çırpınır duracağı yox.

Sevda yuxusuna batıb qalmışam,
Yuxum çin olsaydı nə dərdim vardı.
Zaman qatarında yatıb qalmışam,
Mənə qaranlıqdı ömrümün ardı.

Daha xəyallarım uçub gedirlər,
Durna qatarıtək sıralanıblar.
Günlər ömrümdən qaçıb gedirlər,
Onlar da mənimtək yaralanıblar.

Əlimi gözümün üstünə qoyub
Baxıram uzanıb gedən yollara.
Canım da bədəni qəsdinə qoyub,
Düşürür yazığı min bir hallara.

Yorulub, üzülüb, düşmüşəm əldən,
Özümdə, sözümdə deyiləm artıq.
Sözlərim tökülür misraya dildən,
Ona bənd olmaram əyiləm artıq.

Sanki ruhum tənə minnətçi düşüb,
Qurtarsın dünyadan sürgün ömrümü.
Əlim ətəyinə yaman ilişib
Ala bilmir məndən gərgin ömrümü.

Canım bədənimdən çırpınır çıxır,
Bənzəyir uçuşan ağ göyərçinə.
Göylər sevdalıtək üzümə baxır,
Qaçışan ruhumu çəkir içinə.

24.10.2019

YORULDUM, ALLAH

Hamının dərdini qəlbimə tökdüm,
Könül sarayını min yerdən sökdüm,
Əzaba qul olub önündə çökdüm,
Zənn etdim bulaqtək duruldum, Allah.
Ağıllı olmaqdan yoruldum, Allah.

Asıldı ürəkdən hər gün qəm yükü,
Kipriyim bəbəkdən çəkdi nəm yükü,
Dağlardan ağırmış bu aləm yükü,
Yolunda təntiyib, darıldım, Allah,
Ağıllı olmaqdan yoruldum, Allah.

Dərd də məni sevən sevgili yarmış,
Onun da canıma vəfası varmış,
Damağında qəlbim dadlı nübarmış,
Dilinə bal kimi soruldum, Allah,
Ağıllı olmaqdan yoruldum, Allah.

Getdikcə dərinə acım çoxaldı,
Başımın üstünü ələm çox aldı,
Hamıya uşaqtək könlüm yuxaldı,
Hamını qəlbinə vuruldum, Allah,
Ağıllı olmaqdan yoruldum, Allah.

Bilmədim çoxunun içində şeytan,
Fitnəyə, fəsada hər gün dəm tutan,
Ara qarışdırıb, aləmi qatan,
Yağlı dillərinə sarıldım, Allah,
Ağıllı olmaqdan yoruldum, Allah.

Sevdim ömürləri, sevdim dilləri,
Xərclədim boş yerə ötən illəri,
Çevrildi yağıma pis əməlləri,
Düşüb büllur təki qırıldım, Allah,
Ağıllı olmaqdan yoruldum, Allah.

İçləri iblisdi, üzləri mələk,
Adamdan baş tapa bilməyir fələk,
Daha əldən düşüb, yorulub ürək,
Yaxşı ki, çoxundan qırıldım, Allah...
Ağıllı olmaqdan yoruldum, Allah.

Şadiman, diqqət et, gün güdür məni,
Yaşımı xərcləyir böyüdür məni,
Vaxtın dəyirmanı üyüdür məni,
Bəsdir ona-buna quruldum, Allah,
Ağıllı olmaqdan yoruldum, Allah.
Ağıllı olmaqdan yoruldum, Allah.

26.09.2019

HƏQİQƏTDİR HAQQ AÇARI

Həqiqətdir haqq açarı,
Onu başa ürcah elə.
Ömür əldən tez uçarı,
Gecəni qov, sabah elə.

Kimsə bilməz heç sonunu,
Soyunan az üz donunu,
Haqqa çevir öz yönünü,
Bir qədər az günah elə.

Zaman qaçır, biz qovuruq,
Günü aya sovururuq,
Qəlbi odda qovururuq,
Hesab açma Allah ilə.

Dillər göyə dua edir,
Haqqı qova-qova edir,
Başda min bir hava edir,
Düşüb qalır can ah ilə.

Ağıl qəlblə savaşmada,
Əsəb coşub qan daşmada,
Əcəl canla yarışmada,
Günü Rəbbə pənah elə.

Ey Şadiman söz dəmidir,
Yazan könül qələmidir,
Yer-göy Tanrı aləmidir,
Bilməyənə agah elə!

30.12.2019

İNSAN ENERJİSİ

İnsan enerjisi bədən qidası,
Odur materyanın varlıq ölçüsü.
Tükədib etməyin ürəkdən asi,
Bəlli, Yaradanın həyat elçisi!

Onu şər işlərə xərcləməyin siz,
Cana şərdən gəlir bütün bəlalar.
İtirmin sağ ikən Rəbb əməyin siz,
İtərkən böyüyür çox qalmaqallar.

Hislər çoxaltdıqca mənfilikləri,
Ağıl da kütləşir geridə qalır.
Pisliyə öc etmin siz ilikləri,
Yanlışlıq insanı ağrıya salır.

Bədən enerjisi çox xərclənəndə,
Xəstəlik mənbəyi ağrıdan gəlir.
Dərdə yüklənəndə, şərə enəndə,
Ruhun hayqırtısı bağırdan gəlir.

Enerji güc demək-ömür qaynağı,
Onu tükətməyə çalışan çökür.
Kainatdan töfhə canın sınağı,
Pislik edənlərin gözündən tökür.

Çalışıb verməyin ölmə rəvacı,
Biz də kainatın zərrələriyik.
Xeyirdir insanın yaşam əlacı,
Onu işığına gülmüsəyirik.

Canın enerjisi ömür açarı,
Onun qapısını pisliyə açma.
Bədən yerə qida, ruhdur uçarı,
Yamanlıq eləyib haqqa əl açma.

27.12.2019

GÖYLƏR ÇAĞIRIR MƏNİ

Döyüntüsü ürəkdə,
Sevgi dolu diləkdə,
Könlüm uçur fələkdə,
Haqla doğurur məni,
Göylər çağırır məni.

Adamlardan qaçıram,
Qanadlanıb uçuram,
Aləmə nur saçıram,
Sirlə yoğurur məni,
Göylər çağırır məni.

İşıq dolub könlümə,
İlahi, gəlmə demə,
Sığmıram bu aləmə,
Buraxım gedim təni,
Göylər çağırır məni.

Bağlı qapından keçim,
Həyat suyundan içim,
Sözlə doludur içim...
Görməyə gəlim səni,
Göylər çağırır məni.

Ey Şadiman, qalx gedək,
Səmanı yuva edək,
Yetənə olma yedək-
Ayaqlamasın Məni!
Göylər çağırır məni...

20.01.2020

AZAN SƏSİ

Milyonları harayından keçirdirsən,
Dodaqlara zəmzəm suyu içirdirsən,
Möcüzəni sinələrə köçürdürsən?
Fəğanınla uçurdursan dar qəfəsi,
Azan səsi.

Bu hikmətin açmasını bilən varmı?!
Bu sədanın avazını bölən varmı?!
Qəh-qəh çəkib çağrışına gülən varmı?!
İsindirir Allah eşqi hər nəfəsi,
Azan səsi.

Həqiqəti qulaqlara saldırırsan,
Möminləri yerdən göyə qaldırırsan,
Vəhşiliyin, qarşısını aldırırsan,
Vicdanları çalxalayan Rəbb həvəsi,
Azan səsi.

Sən səcdəyə çağırırsan milyonları,
Dağıdırsan hiylə torlu oyunları,
Avazınla soldurursan yayınları...
Neçə-neçə kainatın haqq civəsi,
Azan səsi.

Nə hikmətdi avazında içə dəyir,
Qulaqların qapısını Tanrı döyür,
Səs dağılır səmalara, Rəbbi öyür,
Düşündürür ruhu olan hər bir kəsi!
Azan səsi.

Məscidlərdən, camilərdən ucalırsan,
Allahdanmı sən bu sayaq öc alırsan?!
İlahinin varlığından güc alırsan,
Hər bədənə hakim olan canın bəsi,
Azan səsi.

Nə deyirlər qoy desinlər bu dünyada,
Bitib qalıb hər zəngulən bir havada,
Bədən ölür, yaşam üçün can davada,
Neynəyəcək İlahiyə insan nəhsi?!...
Azan səsi.

Təriqətlər başın üstə çalxalandı,
Satqınların əldə Kitab yaxalandı,
Adın üstən xətt çəkildi, ovxalandı,
İlahinin dərdi ahla yazan səsi,
Azan səsi.

Şadimanı dualara eylə qonaq,
Can bədənə əmanətdir, ömür sınaq,
Boya ruhu avazına qoyma sınaq,
Beyinləri çalxalayan Rəbb nüvəsi,
Azan səsi.
Azan səsi.

26.10.2019

BİLİRSƏN Kİ

Bilirsən ki, can üşüyür,
Canımı al apar, Tanrı,
Ögeyəm mən bu dünyaya,
Buralardan qopar, Tanrı.

Hiylə alıb Yer üzünü,
Gəlim görüm gül üzünü,
Göstər cana öz izini,
Sənə doğru çapar, Tanrı.

Göydən yerə qoy nərdivan,
Burda qalmaq ruha divan,
Dildə bitib qalıb duan,
Qalsa yoldan sapar, Tanrı.

Şadimana can öyütdü,
Dəyirmanda gün üyütdü,
Misqal-misqal dərd böyütdü,
Dərd də məni qapar, Tanrı.

25.01.2020

İLAHİNİN MAHİYYƏTİ SEVGİDİR

Ürəklərdə həyat eşqin coşduran,
Diləkləri zirvələrə qoşduran,
Ümid dolu sinələrdə ev quran,
Yerin, göyün ülviyyəti, sevgidir.
İlahinin mahiyyəti, sevgidir.

Odur canı bədənlərlə bağlayan,
Aləmlərdə hikmətlərlə çağlayan,
Gah sevinən, gah həsrətdən ağlayan,
İnsanlığın səadəti sevgidir,
İlahinin mahiyyəti, sevgidir.

Ondan başlar bu dünyada dirçəliş,
Könül dolu hər sevdada dirçəliş,
Dildən qopan mübtədada dirçəliş,
Beyinlərin ədaləti sevgidir,
İlahinin mahiyyəti, sevgidir.

Onsuz yoxdur, bu dünyanın mənası,
Ürək verdi fələk bizə yanası,
Ömrə güzgü, zərbələrdən sınası,
Canın haqqa itaəti sevgidir,
İlahinin mahiyyəti, sevgidir.

Onu qəlbdə bəsləməyən kəs deyil,
Ona necə eşq eyləsən bəs deyil,
Ona canı fəda etsən qəsd deyil,
Rəbbin tənə əmanəti – sevgidir,
İlahinin mahiyyəti, sevgidir.

Etmə könlü xəbisliyin köləsi,
Hər doğulan bir gün düşüb öləsi...
Nədir eşqlə aramızda böləsi?!
İnsanlığın hər zinəti, sev xdsgidir,
İlahinin mahiyyəti, sevgidir.

Ey Şadiman, gəlib getmək boş deyil,
Baş içində vicdan yoxsa, baş deyil,
Eşqi olan ürək, könül daş deyil,
Təbin coşan şeriyyəti sevgidir,
İlahinin mahiyyəti, sevgidir.

25.01.2020

KİMSƏYƏ YAŞATMA

Kimsəyə yaşatma mən yaşayanı,
Başının üstünü dərd ala, Allah.
İçində dağ boyda qəm daşıyanı,
Necə qıydın düşə bu hala, Allah?!

Gözümə pərçimdir dərdin eynəyi,
Geyinib əyninə yağmur köynəyi,
Ürəyim gəzdirə bilmir göynəyi,
Güman yox məlaldan sağ qala, Allah.

Asılıb könüldən hicran qəndili,
Hıçqırtım qəlbimin danışan dili,
Kələ-kötür keçir ömrümün ili,
Çıxa bilməyirəm düz yola, Allah.

Bulud çöhrəsini biçib üzümə,
Dağların dumanı köçüb üzümə,
Yüklədim üsbəüst ağrı özümə,
Heyranam bu boyda vüsala, Allah.

Şadiman içində kədər qaynatdı,
Canını kədərin içinə atdı,
Necə rəva buldun?! Bu nə həyatdı.–
Boynum kəndirindən asıla, Allah.

18.02.2020

GEDİRƏM GÖYƏ

Yenə köklənibdi duyğu qatarım,
Yerin əzabından bir an qurtarım,
Vic-vicəyə düşüb bu can yatarım,
Ağlımın duasın edirəm göyə,
Götürüb qəlbimi gedirəm göyə.

Torpağın üstündə insan yeriyir,
Buludlar çaxnaşır leysan yeriyir,
Ruhun ocağında hissim əriyir,
Asiman başımı gurşadla döyə,
Götürüb qəlbimi gedirəm göyə.

Təntimim, yığışım bu darmacalda,
Ruhu kainata fələk ucalda,
Qala bilməyirəm heç belə halda,
Məni səma özü çağırıb deyə,
Götürüb qəlbimi gedirəm göyə.

Dünyada nə varsa, neyimə lazım?
Uzaq qütblərdə dolaşım, azım,
Kainat içindən gəlsin avazım,
Niyə bəndə əhli yolumu əyə?!
Götürüb qəlbimi gedirəm göyə.

Yerin əfsanəsi yordu könlümü,
Min bir ağrısıyla sardı könlümü,
Qovub ürəyimə saldı ölümü,
Ölümün özü də sərxoşdu meyə,
Götürüb qəlbimi gedirəm göyə.

Qaçıram bir yolluq yaxından, yaddan,
Taxmışam İlahi verən qanaddan,
Qələm-kağızımı yığıb həyatdan,
Ruhum kainatın libasın geyə,
Götürüb qəlbimi gedirəm göyə.

Baxın, mələklərtək mən də uçuram,
Uzaq üfüqlərə qanad açıram,
Riyadan, yalandan, dindən qaçıram,
Canım Yaradanın varlığın öyə,
Götürüb qəlbimi gedirəm göyə.

Sormun, Şadimandan yerini daha,
Yerlər sağ saxlamır dirini daha,
Faş edir aləmə sirini daha,
Burda qalmağıma hacət yox səyə,
Götürüb qəlbimi gedirəm göyə.

03.02.2020

KAİNATIN ZƏRRƏLƏRİYİK

Biz də kainatın zərrələriyik,
Zərrə ömrümüzün üstə köklənib.
Üzü göyə tutub haqq diləyirik,
Hər can bədən içrə düşüb təklənib.

Eşqliyik ömürün saniyələrinə,
Saniyələr günləri zamana bağlar.
Əlimiz yapışıb Rəbb dirəyinə,
Bizi İlahiylə bağlayır bağlar...

Kimi öz ömrünü azıb yaşayır,
Fitrəti yamanlıq, addımı fəna.
Kimi Yaradanı içdə daşıyır,
Saflıq ölçüsüylə məşhur hər yana.

Beləcə xeyir-şər ölçüsü insan,
Kainat zərrəsi içdə canıdı.
Tanrının bir ömür elçisi insan,
İçini titrədən həyəcanıdı.

Uca kainatın zərrələriyik,
Zərrədən yaranıb adam olmuşuq.
Haqqın ayağına biz gələriyik,
Sağ ikən bədənə tək şam olmuşuq.

Yanıb tükənəndə şamımız bizim,
Bədəndən qoparaq uçuruq göyə.
Sirli kainatlar xilas evimiz...
Cana işıq yolu açırıq göyə.

13.04.2020

BİLMİRƏM, ALLAH

Varsansa, yoxsansa bilmirəm, Allah,
Sənə inanclıyam hər axşam, sabah.
Ruhumu tək sənə yönəltmişəm mən,
Dilimi eşqinlə dinlətmişəm mən.
Eşqindən canımda yuva tikmişəm,
İçinə ilahi sevgi tökmüşəm.
Bizi bu dünyadan çıxdaş eyləmə,
Ağrıya, acıya sirdaş eyləmə.
Artırma düşmənin qol-budağını,
Göstərmə bizlərə sinə dağını.
Qaytar özümüzə kimliyimizi,
Yağıya çökdürmə, İlahi, bizi...
Ərlərin nərəsi yurdları sarsın,
Önümüzdə duran sədlər yarılsın.
Qalxsın kişilərin yerdən papağı,
Qurtulsun işğaldan Vətən torpağı!...

***

Sil, xain qəlblərdən kin-küdurəti,
Qoy xeyrə köklənsin insan niyyəti.
Yerin yer dərdi var, göyün göy dərdi,
İlahi, xeyrə cız sərhəddi, səddi.
Düşmən qoymayıbdı daş üstə daşı,
Qaldıra bilmirik sinədən başı!
Qurtar işğal altdan torpağımızı,
Qaldıraq ayaqdan papağımızı!
Otuz il işğalda, yurdlar, yuvalar,
Sənə köklənibdi dildə dualar.
Bizə açar eylə nicatımızı,
Yağıya qul etmə həyatımızı.
Bağla yaltaqların sən əl-qolunu,
Açıq et, mərdlərin haqqa yolunu!
Xaini, satqını qov içimizdən,
Düşmənin hiyləsi böyükdü bizdən...
Sal düşmən hiyləsin böyüklüyündən,
Çək fitnə-fəsadı sən iliyindən.
Yurdlar işğal olsa, Vətən də olmaz,
Kökünün, soyunun izi də qalmaz.

Əriyib gedərik yadlar içində,
Adımız yox olar adlar içində.
Soydaşlar qaçmasın qarın dalınca...
Atmasın başını rahat balınca!
Rəbbim,əlimizdə sənin ətəyin,
Könlümüzdə daşdır Vətən istəyin.
İçdə, çöldə olan düşməni çökdür,
İçlərdə kök salmış hiyləni sökdür.
Qırılsın hökmünlə adam hiddəti,
Sənin əlindədir yer-göy qüdrəti!
Yatmış vicdanları ayılt yuxudan,
Qurtar yer üzünü qara-qorxudan!
Sən düz yola qaytar bəndən adəmi,
Uçub tökülməsin insanlıq damı!...
Yerlər də, göylər də bağlıdır sənə,
Bizi yazıq etmə yoldan ötənə!
Bizdən uca etmə düşmənimizi,
Qaldır ayaqlardan sən mənimizi!
İnsanın içindən nifrət püskürür,
Adam cahilliklə ömürün sürür.
Gedir zehinlərdə vicdan edamı,
Çökür günbəgündən zehniyyət damı!..
Bəndənin qalmayıb dinə inamı,
Tanrını axtarır göylərdə hamı.
Kilsələr, məscidlər terroru doğur,
İnsan öz içində insanlıq boğur!
Qisasa əl atıb sənin uğrunda,
İnsan faciəsi gəzir ağrında!
Dünyanın sərvəti gedir silaha,
Dil pərçim yalana, qəlblər günaha.
Silahlar artıqca, nifrət çoxalır,
Cahanın üstünü qan-qada alır.
Rəbbim, düşmənlərə bizi qul etmə,
Bizim içimizdə manqurt böyütmə!
İlahİ, sındırma ürəyimizi,
Sənə kökləmişik diləyimizi,
Döst-düşmən içində xar etmə bizi,
Qaytar özümüzə sən özümüzü!..

16.02.2020

DÜNYANI BELƏ GÖRDÜM

KİMƏ DEYƏK DƏRDİ BİZ?

Ürəklər çəkir sitəm,
Dünyanı üzür matəm,
Tablar tükənib daha,
Ümid qalıb Allaha,
O da bəndədən bezib,
Əlini bizdən üzüb.
Qırğına alışıb göz,
Kimə deyək dərdi biz?!

***

Zalımın zülümü çox,
Məzlumun hünəri yox.
Bu qədər ölüm-qırğın,
Üzlərdə həyat solğun,
Metroda, yolda, izdə,
Hər bir yerdə təhlükə,
İnsanlığa bu ləkə!
Yox olub sevgi, istək,
Tələşda vuran ürək.
Cəzası yox zalımın,
İnsan ölüm-qalımın,
Dağda, düzdə, dənizdə,
Arasında çapalar,
Öz-özünə qapılar.
Böylə utanmayır üz,
Kimə deyək dərdi biz?!

***

Ümidlər çaxnaşmada,
Qəzəb dolub daşmada,
Hakim məhkumu əzir,
İçlərdə hiylə gəzir.
Torpaq üstə savaşlar,
Tökülən qanlı yaşlar.
Bu körpəcə yavrular,
Qan içində qovrular.
Hər zülmə rəvac verən,

Layiqsizə tac verən,
Bu günah sənin, mənim,
Söylə kimə güvənim?
Dağılan yurdlaramı?
Hiyləgər yadlaramı?
Qopan fəryadlaramı?!
Sənə tutub üzümü,
Qatlayıram dizimi,
Söyləyirəm, ay Allah,
Nə vaxt gələr xoş sabah?
Gülər insanlıq daha,
Son qoyular günaha.
Sən varkən yerdə, göydə,
Dil dolaşır gileydə.
İnsanlıq sən qoyan iz,
Bu dəhşəti özün çöz,
Eşitmirsənsə səsi,
Kəsirsənsə nəfəsi,
Bükülür bel, çökür diz,
Kimə deyək dərdi biz?
Kimə deyək dərdi biz?

14.01.2016

DÜNYANI BELƏ GÖRDÜM

Gah şirindi, gah acı,
Tapılmayır əlacı,
Əllərdə şahlıq tacı,
Ömür atını sürdüm,
Dünyanı belə gördüm.

Ağrısından qovruldum,
Göz yaşına soruldum,
Yenə ona vuruldum,
Dərdinə süfrə sərdim,
Dünyanı belə gördüm

13.01.2017

NİYƏ GƏLİB, NİYƏ GEDİR?

Əzabları içdə coşan küləkdi,
Dindirməsən zənn edərsən mələkdi,
Dəyirmantək ağrı çəkən ürəkdi,
Kainatdan enib nədir, bu insan?
Niyə gəlib, niyə gedir bu insan?

Gözlərinin yaşlarıyla gün yudu,
Gecə-gündüz sızıldayır can udu,
Zülüm verdi, zülüm çəkdi, qan uddu,
Öz-özünə sitəm edir bu insan,
Niyə gəlib, niyə gedir bu insan?

Yaradanın möcüzəsi özüdü,
Can bəslədib, can üzəsi özüdü,
Etdikləri bu dunyanın üzüdü,
Hər bir işdə özün güdür bu insan,
Niyə gəlib, niyə gedir bu insan?

Ağılıyla aləmləri məst edir,
Əməliylə öz-özünə qəsd edir,
Gah şər işdə, gah xeyirdə üst edir,
Varlığına bilmir qədir bu insan,
Niyə gəlib, niyə gedir bu insan?

Zülmə salıb bu dünyanı gələndən,
Eşqə düşüb, yox səhmanı gələndən,
Möcüzədir, doğulandan, öləndən…
Yaranannan özü sirdir, bu insan!
Niyə gəlib, niyə gedir bu insan?

12.01.2017

ÖMÜR YÜKÜMDÜR

Dünya ömür yükümdür,
Dərdi ömür çəkimdir,
Nə hakim, nə həkimdir,
Yükün daşımaq olmur.
Bu cür yaşamaq olmur.

Girir cana ağrısı,
Canı üzür doğrusu,
Zaman ömür oğrusu,
Yükün daşımaq olmur.
Bu cür yaşamaq olmur.

Ha çəkdikcə yükünü,
O boşaldır tərkini,
Verir cana təpkini,
Yükün daşımaq olmur.
Bu cür yaşamaq olmur.

Atılıb-düşdükcə biz,
Canla döyüşdükcə biz,
Günlə əyişdikcə biz,
Yükün daşımaq olmur.
Bu cür yaşamaq olmur.

Dünya örüş yerimiz,
Eşqlə görüş yerimiz,
Canla döyüş yerimiz,
Yükün daşımaq olmur.
Onsuz yaşamaq olmur.

06.04.2017

TERROR

Gəzirsən hər yerdə bir kabus kimi,
Canında qorxunu hiss edir insan.
Canımız əlində bir məhbus kimi,
Ölü bədənlərdən verirsən ehsan.
Dünyaya sağalmaz illətsən terror,
Səni kəşf edənə lənətsən terror.

Gəzirsən havalı başlarda hər gün,
Dünyaya davalı başlarda hər gün,
Canları bədəndən edirsən sürgün,
Fitnəli dillərə alətsən terror,
Səni kəşf edənə lənətsən terror.

Xaincə, ibliscə ölüm saçırsan,
Oğrutək səssizcə qapı açırsan,
Harda sakitlik var ora qaçırsan,
Ölümün özünə zillətsən terror,
Səni kəşf edənə lənətsən terror.

Çaxnaşma salırsan aləm içinə,
Girib çıxmayırsan fitnə içinə,
Doldurub şeytanlıq hər gün içinə,
Zülmə rəvac verən qələtsən terror,
Səni kəşf edənə lənətsən terror.

Günahsız insanlar qətlinə məruz,
Sənincün eynidir həm əyri, həm düz,
Tökdüyün qanlarla boyandı dağ-düz,
Amansız başlara sənətsən terror,
Səni kəşf edənə lənətsən terror.

Bax gör nə qan uddu dünya üzündən,
Cahanı keçirtdin iti gözündən,
Hesabın sordunmu zülmün, özündən?!
Səvabdır özünü yox etsən terror,
Səni kəşf edənə lənətsən terror.

14.04.2019

ÖZ SÖZÜ VAR

Hər addımın hər əməli, öz sözü var,
Addımların iştahası sərt üzü var.
Dünya özü gəldi-gedər yuvasıdı,
Kimə qarğış, kimə Tanrı duasıdı.
Yalan-palan girər könlə cövlan edər,
Öz ruhunu hiylələrlə viran edər.
Dinlər ilə öz kimliyin isbat edən,
İnsan adın çirkablara batır nədən?!
Tapılsaydı bu sualın düz cavabı,
Qazanardı günahı yox, can savabı…

12.06.2017

O DÜNYAYA

Hələ gələn olmayıbdı,
O dünyadan, bu dünyaya.
De, kim ölmüb sağ qalıbdı,
Bu dünyadan, o dünyaya.

Zaman uçur, an aparır,
Ömrü təndən tez qoparır,
Günah dolu can aparır,
Bu dünyadan, o dünyaya.

Doğulandan suç edərlər,
Ömürlərin puç edərlər,
Axır bir gün köç edərlər,
Bu dünyadan, o dünyaya.

Yolun sonu görünməyir,
Kəfən geyib bürünməyir,
Kim ölümlə sürünməyir,
Bu dünyadan, o dünyaya?!

Zamanına gün yetmədi,
Harayladım ün yetmədi,
Ey Şadiman, kim getmədi,
Bu dünyadan, o dünyaya?!

11.01.2019

HEÇ BİLMİRƏM

Heç bilmirəm neçə dəfə
doğulmuşam bu dünyaya.
İnci könlüm gir sədəfə,
Çox düşmüsən aha, vaya.

Gün ələdim yollarına,
Dözdüm qeylü-qallarına,
Ölüb düşdüm qollarına,
Gələn varmı söylə haya?!

Aç qapını, Tanrı, mənə,
Dönüm daha mən yerimə.
Can yorğundu daha tənə,
Canım sığmır heç dərimə.

Aç qapını çıxım gedim,
Sularına axım gedim,
Ruhu göyə taxım gedim,
Bənzəri var günəş aya.

Hansı dində neçə dəfə
Gəlib getdim bilmədim ki,
Ancaq dəyir ruh hədəfə
Rəbb olmağa gəlmədim ki...

Şadimanın çəkir əzab,
Qalmayıbdı bədəndə tab,
Titrəyir yer, çatlayır qab,
Az qalır ki, uça qaya...

06.06.2019

DÜNYANIN TƏRS SİLLƏSİ

Bu dünyanın tərs silləsi,
Dəydi üzümə-üzümə.
Yıxdı piləkan pilləsi,
Vurdum dizimə-dizimə.

Canım düşdü köz içinə,
Çəkdi ocaq öz içinə,
Ələndim hər söz içinə,
Yandım sözümə-sözümə.

Misralar canın sarayı,
Ərşə dirəndi harayı,
Sözüm dəryaya qağayı,
Vurdu üzümə-üzümə.

Canım sığmayır bucağa,
Dönüb bədəndən qaçağa,
Atdanıb düşür ocağa,
Düşür közümə-közümə.

Yox Şadimanı duyanı,
Tək İlahidi həyanı,
Tənimə canı qoyanı
Çəkdim özümə-özümə...

06.07.2019

DÜŞÜB VƏLVƏLƏ

Nədir məkanına düşüb vəlvələ?
Bir xilas yolu tap əzabdan, dünya.
Sənə qəlbi yanan tapılmır hələ,
Siliblər adını hesabdan, dünya.

Qədir, qiymətini boşa sayanlar,
Susmuş tarixini daşa sayanlar,
Dadıb baharını qışa sayanlar,
Qanmırlar yeyirik bir qabdan, dünya.

26.08.2020

A YAZIQ DÜNYA

İnsanın min üzü, sənin bir üzün...
Çəkdiyin bəyandı, a yazıq dünya.
Bəndəyə ərmağan olub od-közün,
Aləmə əyandı, a yazıq dünya.

Canından, qanından bəhrələnirlər,
Artıb günbəgündən pöhrələnirlər,
Öləndə köksünə tez bələnirlər
Halına kim yandı, a yazıq dünya?!

Hər gün silahlarla dolur varlığın,
Ölüm püskürənmi məgər yarlığın?!
Ruhuma ağrıdır bil qubarlığın,
Naləni duyandı, a yazıq dünya.

Necə daşıyırsan bu ağır yükü?!
Bürüyüb ərzini çox qorxu-hürkü,
Havan da azalıb, hökm edir bürkü,
De kimlər həyandı, a yazıq dünya?!

Min illər sərvətin bəndəyə həyat,
Amma varlığını tutdular bayat,
Yatma, içindəki vulkanı oyat,
Adəm pozub andı, a yazıq dünya.

Buludlar çaxnaşır, göylər titrəyir,
Hər gün sütununu qansızlar əyir,
İnsanın xətası könlünə dəyir,
Cana həyəcandı, a yazıq dünya.

Yaralar köksünü bürüyüb tamam,
Adəm səni yıxıb, sürüyüb tamam,
Susma qaldır səsi, de ərzə, tamam!
Haqq səni duyandı, a yazıq dünya.

Çölün qan qoxuyur, için zəlalət,
İnsanın əlində olmusan alət,1

Sənə çəkdirənə verirsən illət,
Bu da qana qandı, a yazıq dünya.

Şadiman ruhundan alır qidanı,
Necə uzaq etsin səndən qadanı?!
Dilimdə bitirdin sən mübtədanı,
Səndə də bir candı, a yazıq dünya!

17.09.2019

ÇIXIM GEDİM

Çıxıb gedim qoy dünyadan,
Dünya mənə ağır gəlir.
Qopub düşüm mən röyadan,
Can bədənə fağır gəlir.
Dünya mənə ağır gəlir.

Gözüm çaşır, qəlb savaşır,
Hər əzabım doğur gəlir.
İçəridən dərdim daşır,
Selə dönüb başdan aşır,
Harayıma bağır gəlir.
Dünya mənə ağır gəlir.

Nə itirdim, nə qazandım,
Qəm ruhumu boğur gəlir.
Ömrümün boyu uzandım,
Dikəldi göylərə andım,
Hicran gözün sağır gəlir,
Dünya mənə ağır gəlir.

Yetişmədim arzu-kama,
Zənn elədim uğur gəlir.
Vurulmam heç bir ehkama,
Döndüm hər yetənə şama,
Vəsvəsəsi boğur gəlir,
Dünya mənə ağır gəlir.

01.08.2019

QUL OLMAQ DÜNYADA ƏN AĞIR CƏZA

Qul olmaq dünyada ən ağır cəza,
Başından ötüşməz heç zaman qəza.
Unutmaz ağanı çıxsa da canı,
Dolaşar bağrında qul həyəcanı.
Hər qul ağasına endirər başın,
Artırar içində daim təlaşın.
Üzündən, gözündən çaşqınlıq yağar,
Qorxu hissi onu dəmbədəm boğar.
Beyninə həkk olar ağanın əmri,
Qorxudan çıxarda bilməz səs-səmri.
Qəlbində saraylar tikər hakimə,
Əzilmək, kiçilmək yarlıq məhkuma.
Ağanın dilinə qoşar dilini,
Onun ətəyindən çəkməz əlini.
Kökünü, soyunu silər yaddaşdan,
Kimliyin itirər, o, əzəl başdan.
Heç ağanın hökmü başından getməz,
Bir addım sağ-sola ağasız yetməz.
Qul olmaq ram edər tez ağlı-huşu,
Qəfəsə eşq edən bir tutuquşu.
Qul olmaq yarlığı – yaxasına gül,
Bağa eşqə gələr vəfalı bülbül.
Ağanı mədh edər gecəbəgündüz,
Utanmaz, çəkinməz, qızarmaz heç üz.
Ağa qarşısında ölər, dirilər,
Anasız quzutək önündə mələr,
Ağa da hərdən bir qulu təriflər,
Kimliyin alçaldar, soyun həriflər.
Tərifi artıqca qulun şellənər,
Sahibi önündə batıb lillənər.
Ağa bağladıqca qulun dilini,
Qul da sürükləyər dərdə elini.
Mukafat eyləyər yurd-yuvasını,
Cəhd edər enməyə dil duvasını.
Quldan uzaq düşər mənlik, ləyaqət,
Ona bayraq olar yalnız həqarət!
Eşq ilə mədh edər əsirliyini,

Alçadar, endirər öz mənliyini.
Başına tac olar ağanın soyu,
Batar onu əkib doğanın soyu!
Quyusu qazılar qul ömrün dərin,
Səcdəyə qaldırar şərə əllərin.
Endirər önündə oğul-uşağın,
Ağaya səcdədə görər xoş çağın.
Ağa sevindirər təltiflə qulu,
Ona kimliyi yox, əyilmək yolu.
O da qul ömrünə şükürlər edər,
Sanar alçalmağı getməyib hədər.
Çıxarmaz başından qorxu hissini,
Ağlına gətirməz umu-küsünü.
Edər ağasına dua minnəti,
Önündə alçalmaq həyat zinəti.
Qulun müşkül olur başçı olmağı,
İnsantək dünyada xoş sayılmağı.
Cahanda var olan qula dönməsin,
Alçalıb, enməklə heç öyünməsin.
Ondan ağır bəla yoxdu dünyada,
Qul oldun yetişməz kimsə fəryada.
İstər ölkə olsun, istərsə insan,
Qul olan ağaya edilir ehsan!
Heç zaman bu addan qopa bilməyir,
Kimliyin, varlığın tapa bilməyir.
Tutsa da üstünü bərə-bəzəyə,
Vücudu oxşayar quru təzəyə.
Dünya qarşısında enib alçalar,
Yalnız enməyinə ağa əl çalar.
Bu minvalla keçər ömrü həyatı,
Sanar bu onunçın Tanrı büsatı.
Tapar alçalmaqla xoşbəxtliyini,
Zatən dərk eləməz bədbəxtliyini.
Soyuna pay edər bədbəxtliyindən,
Çox vaxt vəcdə gələr təlxəkliyindən!
Qul olmaq heç kəsə qismət olmasın,
Tarixə bu adla soyun salmasın!
Heç zaman qulların olmur vəfası,
Fəqət yurd-yuvaya çoxdur cəfası.

Dərdə ürcah edər məmləkətini,
Vətənə geydirər fəlakətini.
Çünki ağa yazır qula həyatı,
Onun əmrindədir günü, saatı.
Qulun əyilməkdən aynımaz başı,
Heç yurdun olmasın qul vətəndaşı!..

***

Zənn etmin qul olub orta əsrdə,
Naləsi boğulub min bir qəsirdə!
Hər dövürün qulu olub, olacaq,
Mənliyin qoruyan hakim qalacaq...
Həyatda belədir hər zaman qayda,
Qulun yeri-yurdu yoxdur dünyada!!!

24.11.2019

GÖYLƏRƏ UÇDU

Könlümün fəğanı göylərə uçdu,
Cana doğma oldu, yar kimi qucdu,
Bəlkə də savabdı, bəlkə də suçdu,
Bir ömür yaşadım ağrım içində,
Gəzdirdim dünyanı bağrım içində,

Sorğusu, sualı canda dolaşdı,
Bə`zən məndən qaçdı, bə`zən yollaşdı,
Yapışdı ürəkdən, buztək sallaşdı,
Haqqımı aradım doğrum içində,
Gəzdirdim dünyanı bağrım içində.

Yaşamaq nə ağır imtahan imiş,
Cənnət, cəhənnəm də bu cahan imiş,
O biri dünyanı deyən səhv demiş,
Sözlərim dolaşdı sorğum içində,
Gəzdirdim dünyanı bağrım içində.

Ürək cızdığına ağıl müntəzir,
İçimdə bir ömür qəm, kədər gəzir,
Eylədim canımı vaxtıma nəzir,

Vaxtım çapaladı qurğum içində,
Gəzdirdim dünyanı bağrım içində.

Heç nəyə biganə qala bilmədim,
Niyə hamı kimi ola bilmədim?!,
Ürəyi yerinə sala bilmədim,
Diləyin ələyim yoğrum içində,
Gəzdirdim dünyanı bağrım içində.

Yandı, sona yetdi ruhun şamları,
Çəkdim ürəyimə bu adamları,
Başıma uçuldu hiylə damları,
Demə kənarda yox, oğrum içimdə,
Gəzdirdim dünyanı bağrım içində.

Şadiman, ay ilə qovuşdu getdi,
Zamana qoşulub sovuşdu, getdi,
Bir gün də görərsən, can uçdu getdi...
Kimim var, köməyə çağrım içimdə?!
Gəzdirdim dünyanı bağrım içində.

08.01.2020

GƏZİR HİYLƏLƏR

Toqquşur beyinlər, gəzir hiylələr,
Silahlar üstünə qalanır hər gün.
Sənin varlığını əzir hiylələr,
Bəlalar belinə dolanır hər gün.

Anatək qoynuna sığınan insan,
Həm özün öldürür, həm səni dünya.
Buludlar hönkürür, axıdır leysan,
Şəhid bil canından keçəni dünya.

Çünki can, göylərin ruh beşiyidir,
Bədənin sənincin torpaq eyləyir.
Cisimdən ayrılan ah beşiyidir,
Budağın yarpağa saplaq eyləyir.

26.08.2020

DÜNYANIN NİZAMINI POZANLAR

Dünyanın nizamını pozanlar,
Hamıya və özlərinə quyu qazanlar,
Hamımızın inancı gündən keçir,
Hər kəsin inandığı dindən keçir.
Hamı tapındığına səcdəyə bağlı,
Bir gün kainatdan
gələcək bəlaya əsir edib ağlı!
Sevgilər tükəndimi?
İstəklər ayaq altına endimi?
Hər kəs sevgi hekayəsinin qulu,
Özünün anladığı yolu
ram edib bilməcələrinə,
Əsir edib ürəyini gecələrinə.
Kim bətində yaşatdı Koronavirusu?
Doğdu virus kabusu!
Gəlir dünyadan ölüm qoxusu,
Çəkilib gözlərin yuxusu!
Hamı qısılıb ümidinə,
Gümanını bağlayıb inandığı dinə.
Şükür edir sağ qalacağı günə.
Bəlkə hansısa iblisin ağlının məhsuludu bu,
İndi onu öldürə bilmir nə inanc, nə ilac, nə su...
Qaçıb dünyamızın yuxusu!
Gözlərin ovuşdura-ovuşdura,
Əl-ayağın yığışdıra-yığışdıra,
Ölmüş insanların cəsədlərinə ağı deyir...

***

Dünyanın nizamını pozanlar,
Haqq yolunu azanlar,
İnsanlığa quyu qazanlar,
Öz taleyini tərsinə yazanlar.
Virus var – dövlət, sərvət tanımaz,
Şan-şöhrətə inanmaz,
Güman etməyin hamını qanmaz.
Qalxdığınız zirvələrdən vurar sizi yerə,
Udar sizi dərə!
Qayıdın haqq yoluna,
Bir azca vicdanınız varsa
yanın bu dünyanın halına...
Sevginizi hiylərlə tükətməyin,
Şər yoluyla getməyin,
Şeytanı məmnun etməyin...

***

Dünyanın nizamını pozanlar,
Haqq, ədalətlə ölçülür ömürə anlar,

Hər dövürdə olub qanla dolu zamanlar,
Yalana, fitnəyə uyub imanlar,
Bədənlərdə tir-tir əsir canlar,
İmdad diləyən dilləri düşünün
Beyin qazanında qaynatdığınız hiylə biş-düşünün,
Təamı sizlərində dilinizə dəyəcək,
Sizləri də vaxtın dəyirmanı üyəcək.
Nə qədər gec deyil qayıdın haqqa,
Dürüstlüyü qurban verməyin nahaqqa!
Baxın hamımızı Korona hədələyir,
İçimizdə ümid mələyir!
İndi anladınızmı bəla yoxsul, varlı tanımaz?
Yapışdı boğazdan heç kəsin halına yanmaz.
Bir azca ağlınızı cibinizə yox,
vicdanınıza işlədin,
Haqqın yoluyla gedin....
İndi Koronavirus şah olub, hamımız qul,
Hamımız cəhd edirik tapaq xilasa yol!...
Bu yol insana sevgidən keçir,
Hamı nizam-tərəzidən keçir.
Gəlin təkcə zahiri yox, daxili insan olaq,
Vurmayaq bir-birimizə badalaq.

***

Dünyanın nizamını pozanlar,
Haqqa quyu qazanlar,
Qardaşlaşmaq vaxtıdır,
Çökən insanlıq taxtıdır!
Gəlin sevgilərimizi qoruyaq,
İçimizə xoş duyğular sarıyaq.
Can verən vicdanımızı arayaq.
Çöldə quşların cəh-cəhi,
Koronavirusun qəh-qəhi,
Bir də günəşin gülmüsəməsi var.
Təbiət bizi qorumağa çalışır,
Virusla vuruşur...
Könlümüzdə Novruz havası aşıb daşır!
Bu günə köklənmiş duyğularımız yaşasın,
İnsanlığı sağ-salamat gələcəyə daşısın.
Amin...Amin...

21.03.2020

SƏNİN AĞRINI

Dünya sənin hər ağrını,
Çəkə-çəkə yaralandım,
Ayaqladı şər doğrunu,
O üzdən çox paralandım.

Yuva bilib sığınmışam,
Yuvana nə şeytan dolub?
Məngənəndə sıxılmışam,
Demə mənə olan olub.

Ağlım quştək qanadlanıb,
Yeri göyə qonaq edir.
Suvaritək can atlanıb,
Nə var ruha sınaq edir.

Dünya, görsən bu içimi,
Yanan da o, yaman da o.
Yoxdur onun heç seçimi,
Qalıb oxda, kamanda o.

Sən də üzə baxıb gülmə,
Qəhqəhələr qulaq deşir.
Çıxmır dildən bir xoş kəlmə,
Göreşənin məzar eşir.

Şadimana ülfətin bu,
Nəyi verdin götür apar.
Sənin boyun, qamətin bu,
Gizlənsən də yetən tapar.

25.01.2020

NƏYİN ÇATMIR, EY ADƏM

Nəyin çatmır, ey adəm, niyə kinin qurtarmır?!
İlahinin sevgisi niyə içinə varmır?!
Tükənmir didişmələr, içdən kinin püskürür,
Dilində Allah gəzir, qəlbinə şeytan girir!

Bu tökülən qanların ahı səni oyatmır,
Bir ömür həyatın var, niyə ağlına batmır?!
Canlıların içində hamıdan uca oldun,
Yaradanı aradın, haqqına baca oldun!
Bacadan dualar yox, kin-küdurət ucaldı,
Dilin haqqı aradı, qəlbin haqdan bac aldı.
Bütün canlılar qorxur sənin addım səsindən,
Törətdiyin hiylənin hər dəm vəsvəsəsindən.
İlahiyə səcdəyçin tikdin ibadətgahlar,
İbadətin içindən qopartdın min bir ahlar!
Bir-birinin qanını axıtdıqca doymadın,
Yer titrədi qəzəbdən, onda sağ yer qoymadın!
Doldurdun silahlarla dünyanın hər güşəsin,
Yandırdın kainatın həyat dolu sinəsin!
O səni canlıların şahı seçdi, sən isə,
Tikdin Rəbbin yolunda sinaqoq, məscid, kilsə.
Çevirdin sən onları sonra qan çanağına,
Düşdün Rəbb sevdasına, tuş oldun qınağına.
Coşdu dualarında Haqqa inayətlərin,
Çoxaldı Yer üzündə hər gün cinayətlərin!
O dünyanı və`d etdin, bu dünyada qan tökdün,
Döydü ölüm qapını, bir gün ölümə çökdün.
İlahi verən başı işlətmədin xeyirə,
İçindən vicdan qaçıb, şeytan çıxıb seyirə.
Tamahın boğdu səni, nəfsin harama yetdi,
Acgözlüyün yürüdü, özündən öndə getdi.
Nəyin çatmır, ey adəm, niyə haqqa gəlmirsən?!
Könlə qonan nurunun haqq qapısın bilmirsən.
O nur canın özüdür, Yaradanın bəxşişi,
Başına bəla olub şeytanın tamah dişi.
İlahi verən canın möcüzəsin açmadın,
Keçdin iblis cənginə, heç zaman nur saçmadın.
Ey cənnət həvəskarı, tökülən qanı yala,
Fəqət bil ki, heç zaman başından getməz bəla.
Nə qədər ki, vicdanın yatıb, ayılmayacaq,
Belə getsə dünyada varlığın qalmayacaq!
Nəyin çatmır, ey adəm, bir özünə gəlsənə,
İçdə Can adlı nurun çəkisini bilsənə...

04.03.2020

XİLASA APARIN BİZİ

Bütün dünyamızın gözü sizdədir,
İnsanın taleyi nəbzinizdədir,
Loğmanlıq, təbiblik təbinizdədir,
Allahım qorusun sizi, həkimlər,
Xilasa aparın bizi, həkimlər.

Bilmirəm dünyada nədir baş verən?!
Könüllər çalxadan, ürəklər gərən,
Tapılmaz əlacın nüvəsin görən,
Səpin ürəklərə közü, həkimlər,
Xilasa aparın bizi, həkimlər.

Dəyişib cahanın daha havası,
Hər kəsin loğmanı olub yuvası...
Gedir hər can içrə yaşam davası,
Bir damla ümidin özü, həkimlər,
Xilasa aparın bizi, həkimlər.

Tibbə həyatını fəda edənlər,
İnsanlıq eşqinə sevda edənlər,
Ömrə loğmanlığın qida edənlər,
Hər canda yaşamın izi həkimlər,
Xilasa aparın bizi, həkimlər.

Canımız düşəndə dərdü-bəlaya,
Yetirsiz haraya, çatırsız haya,
Şahidsiz ağrıdan dikələn vaya,
Həyatın şəfqətli üzü həkimlər.
Xilasa aparın bizi, həkimlər.

Uhandan sıçradı Koronavirus,
Yapışdı yolunda durana virus,
Yapışa tələni qurana virus,
Oldu dilinizin sözü həkimlər,
Xilasa aparın bizi, həkimlər.

Bu virus zəhərmar Çindən yayıldı,
Gözlər alcalandı, qəlblər oyuldu,
Evdən çıxmamıza qadağa oldu...
Sizdədir bu sirrin düzü, həkimlər...
Xilasa aparın bizi, həkimlər.

Həyat yağmalanıb, qaralıb günü,
Koronavirus salıb bəxtə düyünü,
Əfsus ölü sayı ötüb yüz mini...
Sağaldın minləri, yüzü, həkimlər,
Xilasa aparın bizi həkimlər.

Kürə elan etdi Pandemiyanı,
Dolaşdı virusun sözü hər yanı,
Götürdü ağzına mərəz dünyanı,
Qatlanıb dünyanın dizi, həkimlər,
Xilasa aparın bizi, həkimlər.

Şadiman canına sığınıb qalıb,
Canı qəh-qəh çəkir uğunub qalıb,
Fikirin qoşunu dağınıb qalıb,
Dolaşır dərəni, düzü həkimlər,
Xilasa aparın bizi, həkimlər.

10.04.2020

DƏYİŞƏ İNSANIN AĞLI

Dəyişə insanın ağlı, ədası,
Çölündə laləzar bitirə, dünya.
Dilinin sülh ola ilk mübtədası,
Səni xöşbəxtliyə yetirə, dünya.

Torpağın içməyə insan qanını,
Boşa sərf etməyə əziz canını,
Çıxara əynindən hiylə donunu,
Sənə yalnız fərəh gətirə, dünya.

26.08.2020

CAN, VƏTƏN

SƏHƏRİN MÜJDƏYLƏ AÇILSIN

Qurtar işğal altdan yurdu, torpağı,
Səhərin müjdəylə açılsın, əsgər.
Şuşa qalasına get sanc bayrağı,
Düşmənin yuvası uçulsun, əsgər.

Qurtar intizardan ürəkləri sən,
Çalxat asimanı, fələkləri sən,
Coşdur sinələrdə diləkləri sən,
Atəşin aləmə saçılsın, əsgər.

Bu dərdi daşıdı çoxu məzara...
Dönsün iradənlə Vətən gülzara,
Son qoyaq əbədi dərdə, ah-zara,
Məğlub düşüncədən qaçılsın, əsgər.

Əsir yurdlarımız səsləyir səni,
Boğ o əllərinlə qanlar içəni,
Buraxma yuvana haqqı biçəni,
Bağlı yollarımız açılsın, əsgər.

Səni doğan ana yetsin şərəfə,
Qapımız ağzına gəlib ərəfə,
Yetiş əsirlikdə qalan tərəfə,
Yağının əl-qolu qurusun, əsgər.

Parlat günəş təki ümidimizi,
Qalib ol, bu eşqlə sevindir bizi,
Xainlər önündə qatlama dizi,
Adın zirvələrdə bulunsun, əsgər!

Yenən şərəfimiz qalxsın ayaqdan,
Qələbə qoxusu gəlir torpaqdan...
Əllərin qopmasın şanlı bayraqdan,
Axı fateh olub ulusun, əsgər!

26.08.2020

ŞİRVANŞAHLAR SARAYI

Şirvanşahlar Sarayı,
Keçmişinin bal ayı,
Bügününün sükutu,
Bir tarixdir hər qatı,
Ruhların məzar evi,
Zamanın yazar evi.
Sirr dolu divanxana,
Səsi düşüb hər yana.
Şah babamın məscidi
Azanına tac idi.
Şövqlü saray hamamı,
İçində şahın kamı.
Cəlb eləyən ovdanı,
Su udardı qadanı.
Bakuvinin türbəsi,
Xaliqinə gur səsi.
Keyqubadın məscidi,
Allahına yol dedi...
İşğallardan sağ çıxan,
Haqqa üzüağ çıxan,
Tariximin güşəsi,
Dərinlərə işləyib
əsrlərdi rişəsi.
Dünəninin nağlı,
Ram eləyir ağılı.
Gəldim ziyarətinə,
Düşdüm haqq zinətinə.
Ruhların pıçıltısı
qulağımdan getməyir.
Zamanın zehinində
Nə olubsa ötməyir.
Yaddaşından köçürtdü
Yaddaşıma harayı,
Şirvanşahlar Sarayı,
Şirvanşahlar Sarayı.

27.03.2017

QALDIRIN QİYMƏTİ

Qaldırın qiyməti ceyran belinə,
Necə istəyirsiz yıxın milləti.
Verin qansızların fürsət əlinə,
Künclərə, bucağa sıxın milləti.

25.12.2016

DİNMƏ, DANIŞMA, BALA

Qoy edək kef-damağı,
Sürək firavan çağı,
Görməyirik sol-sağı,
Dözmüsən döz, hər hala.
Dinmə, danışma, bala.

İşıq-qaz bahalaşıb,
Hər şey həddini aşıb,
Deyəsən səbrin daşıb,
Gətirərik biz yola,
Dinmə, danışma, bala.

Varımız-sərvətimiz,
Hər cürə hörmətimiz,
Sizdən əziz itimiz,
Yol vermə qeylü-qala,
Dinmə, danışma, bala.

Keçərlidi sözümüz,
Heç nə görmür gözümüz,
Haram yolda özümüz,
Talarıq bala-bala,
Dinmə, danışma, bala.

Qurub yurdun vayını,
Batırmışıq hayını,
Artırıb var sayını,
Daha çıxdıq ağ yola,
Dinmə, danışma, bala.

Sərvətdən havalandıq,
Milləti dəxi dandıq,

Keflə yatıb oyandıq,
Tikdik min yerdə qala,
Dinmə, danışma, bala.

Suyumuz, havamız bol,
Bahalı yuvamız bol,
Millət top, vururuq qol,
Fırladırıq sağ-sola,
Dinmə, danışma, bala.

Şadiman, tut dilini,
Misradan çək əlini,
Qırma ürək telini,
Sözünü döndər bala,
Dinmə, danışma, bala.
Dinmə, danışma, bala.

08.01.2017

BİR OVUC HARAM YEYƏN

Bir ovuc haram yeyən yükləyir dərdi Vətənə,
Qoymurlar çarə edə heç zaman mərdi Vətənə.

Zalımın nəfsə yatan mədəsinə yoxdu nicat,
Çəkib çirkabı üzə kirini sərdi Vətənə.

Bir yığın kütbeyinin hiyləsinə mübtəlayıq,
Bunca nicat yolunu hər cürə gərdi Vətənə..

Ağ günün eşqi ilə sevmişik öz yurdumuzu,
Ağ günü binəva xalq yuxuda gördü Vətənə.

Boş qalan təknələrin çarəsin oğru aramaz,
Talayıb hər nə ki var, cibini gördü, "Vətənə".

Qanunlar dilin qısıb ac-yalavac insanına,
Girib illət bağına kədəri dərdi Vətənə.

Şadiman, üzünün heç gülməyini görməmişəm,
Bilirsən nadan olan hər dərdi sərdi Vətənə.

10.01.2017

FƏLAKƏTƏ ÇƏKƏNLƏR

İnsanları fəlakətə çəkənlər,
İntihara açar oldu bu millət.
Qəlbə dərdi toxum təki əkənlər,
Niyə belə naçar oldu bu millət?!

Kreditlər boğazlardan yapışır,
Yalan, hiylə şeytanlarla tapışır,
Çarəsizlər hər günüylə çarpışır,
Fitnələrə düçar oldu bu millət.

Çıxış yolu yoxmu nalan insana?
Gözlər daha güc veribdi leysana,
Qismət olsun haram pullar ehsana,
Yuvasından qaçar oldu bu millət.

Hər metroya girəndə can ağlayır,
Gözlərdəki dərd sinəmi dağlayır,
Yalan dillər bülbül təki çağlayır,
Qəm qapısın açar oldu bu millət.

İnsanların ciblərini soyanlar,
Qazanları sobada boş qoyanlar,
Özlərini xalqdan üstün sayanlar,
Yad ellərə uçar oldu bu millət.

Banklar durub camaatın qəsdinə,
Faizləri yükləyirlər üstünə,
Çevriliblər haramxorlar üstünə,
İntiharla nə car oldu bu millət.

Tapılmayır yazıq xalqın əlacı,
Rüşvət yeyən hər bir işdə əlaçı,
Ömür keçir, para qıtdı, gün acı,
Cana qəsdi, qucar oldu bu millət.

Şadimanın sınsın dedim qələmi,
Harayları ayıltmayır aləmi,
Qoy misralar bəyan etsin naləmi,
Ölümə dil açar oldu bu millət...

27.01.2017

ÇÖKMƏ GEDİR ÖLKƏDƏ

Yavaş-yavaş çökmə gedir ölkədə,
Qayıdarıq xoş günlərə bəlkə də.
Ağlımızı cəm eyləsək bir yerə,
Qovuşarıq çox qayğısız illərə.
Rüşvətxorun varlığına tüpürək,
Zibil təki bu ölkədən süpürək.
Təmizliyi şüar edək hər kəsə,
Nəfsimizi tutub salaq qəfəsə.
Hamı görsün xoş gününü zəhmətdə,
Həyat eşqi cilvələnsin millətdə.
Bahalaşan ağıl olsun, ərzaq yox,
Belə olsa mədəmiz də olar tox.
Öndə gedən millətlərdi nümunə,
İradəylə onlar çatıb xoş günə.
Qoy qanunlar insanlara işləsin,
Vətən əhli halal tikə dişləsin.
Haramxorun qapısını bağlayaq,
Daha bəsdi, günümüzə ağlayaq.
Rüşvətxoru yetişdirən özümüz,
Qudurduruq sonra yetmir sözümüz.
Qınamayın məni Vətən insanı,
Vətən deyil oğru, quldur ehsanı.
Yavaş-yavaş çökmə gedir ölkədə,
Qayıdarıq xoş günlərə bəlkə də...

07.02.2017

TÜRKÜM MƏNİM

Vətənin adı kimliyi olan,
Əsrlərlə aralıqda qalan,
Yurdları talan,
Ürəyini düşmənə süfrə salan,
Dərdi kalan,
Ərkim mənim,
Türküm mənim.

***

Qərbdən Şərqə,
Güneydən Quzeyə,
Qılınclarının səsi göy titrədən,
Öz şanlı keçmişi ilə bizi bihuş edən,
Təklənmisən nədən?
Ərkim mənim,
Türküm mənim.

***

Sən ruhum içindən
boylanan güman yerim,
Sən haqqıma veriləcək fərman yerim,
Sən yurdlarımı isidəcək səhman yerim,
Sən Tanrıma qovuşacaq iman yerim,
Sən ruhumun duyacağı can yerim,
Ərkim mənim,
Türküm mənim.

***

Şəhidlər məzarstanında anaların göz yaşı,
Mən də sənin torpağının bir məzar daşı,
Sızlayır, inləyir işğallarda Vətən daşı,
Səni duya bilməz haqqına qənim kəsilmiş naşı,
Sil ürəyindən tələşı,
Duman alan dağlarının başı,
Göylərin şəbnəm savaşı...
Ərkim mənim,
Türküm mənim.

***

Sənin adın tarixdən silinməz,
Sənin çırağın heç zaman sönməz,

Oturub qalma dinməz,
Qartala dönüb şığısan yağı yuvana sinməz,
Basılmasan əcdadlarının ruhu ahla döyünməz,
Basılsan tariximiz bir daha öyünməz,
Ərkim mənim,
Türküm mənim.

***

İçində Qurdunu səslə,
Atıl dünyaya yeni həvəslə,
Barışma işğalla, qəfəslə,
Yaşama, boğulan nəfəslə,
Dünya hesablaşmır məğlub kəslə,
Ərkim mənim,
Türküm mənim.

***

Sən qalib olacaqsan,
Sən tarixdə qalib kimi qalacaqsan,
Sən yağıdan qisasını alacaqsan,
Sən dağılmış yurdlarında yuva salacaqsan,
Sən üç rəngli bayrağınla zəfər çalacaqsan!
Sən sən olacaqsan,
Ərkim mənim,
Türküm mənim.

06.04.2017

CAN QURBAN EYLƏDİ

Can qurban eylədi igid Vətənə,
Vətəndən heç zaman bir pay ummadı.
Məmləkət anadır qəlbdə bitənə,
Ona eşq etməyən könlə dammadı.

Ata-anamıza məzar yeridi,
Biz ölüb gedərik, osa diridi,
O cənnət quşudu, ruhun dürüdü,
Onun dilimizdə VƏTƏNdi adı!...

26.08.2020

AY DƏMİR ALAN

Elə bu küçəni var-gəl edirsən,
Bu necə həyatdı, ay dəmir alan?!
Evlərdə, küçədə dəmir tükənib,
Səsin hara çatdı, ay dəmir alan?

Yüz dəfə keçirsən eyni küçədən,
Yüz dəfə səsinlə fəryad edirsən.
Ömür-gün boylanır acı necədən?
Ağrı-acıları həyat edirsən!

Dərdli hislərinə qarışıb ömrün,
Bir parça çörəyin acısısan sən.
Həyat kitabına kiliddi dəmrin,
Dünyanın dərd dolu sancısısan sən.

Hər səhər harayın dolaşır burda,
Alan kim, satan kim? Cahan dərd dolu.
Boğazın ilişib kəndirə harda?
Cızılıb gününə müsibət yolu...

Artıq uşaqlar da adını bilir,
Onlar "Dəmiralan" deyirlər sənə.
Dünya qəhqəhəylə ağrına gülür,
Yaşanacaq günü buraxır sənə...

Səsin sınıb qalır qulağımızda,
Sonra gubultuyla ürəyə düşür.
Haqqın nalə çəkir sorağımızda,
Sanki vücudumuz buz kimi üşür.

Sənin dəmir təki möhkəm iradən
Həyat yaşamını öyrədir bizə.
Gündəlik çıxarın dəmiri didən –
Bizim insaf salmır heç qəlbimizə...

Bir parça çörəyin möhtacısan sən,
Çörəklər zibillik içində gəzir.

Dərdini misraya bənd elədim mən,
Bu həyat hekəyən haqqa müntəzir...

Gündən yanan dərin bəxtintək qara,
Yaşadığın günə üzqarasıdı.
Çəkiblər burda ümidi dara,
Hələ də deyirlər bu harasıdı?!

Sən dəmir yığmaqla məşğul olarkən,
Havaya sovurur bir çoxu pulu.
Zavallı aclığa meyil salarkən,
Artır haramyeyən, tapdayır qulu...

Elə bu küçəni var-gəl edirsən,
Bu necə həyatdı ay dəmir alan?!
Evlərdə, küçədə dəmir tükənib,
Səsin hara çatdı, ay dəmir alan?

10.06.2017

AYILIR TORPAQ

Sübhün nəfəsinə ayılır torpaq,
Quşlar civildəyir öz yuvasında.
Hər budaq üstündə titrəşir yarpaq,
Vətənin şahanə saf havasında.

Ocağın tüstüsü burum-burumdu,
Evlər qapısını aşır səhərə.
Günəş gülmüsəyir, nə xoş durumdu?
Yer yoxdu köksümdə qəmə, qəhərə.

Quşların səsası nəğməyə dönür,
Bir canlama salır yurda, yuvaya.
Yağının ümidi günbəgün sönür,
Qələbə qoxusu çöküb havaya.

26.08.2020

OD TUTUB YANIR

Od tutub yanır yenə dükan, bazar,
Məzlumu soyanları tutsun azar...
Eyləyir ahu-fəğan ürəyimiz,
Yetməyir məqsədinə diləyimiz.
Bürünüb əzablara millətimiz,
Artır, azalmayır heç zillətimiz.
Məmurlar azıb yolu haqqı danır,
Binəva insanımız dərdlə yanır.
Artır gündən-günə xalqın borcu,
Görünmür bu işlərin xeyrə ucu.
Ümidsiz gözləri qəsb edir kədər,
Gedir əldən ilmiz, ömür hədər.
Edirik cəhdi sabah yaxşı olar,
Müstəqillik Vətənin naxşı olar.
Amma ki, günlərimiz zəhər olub,
Gözümüzdə boğulan qəhər olub.
Kasıbın ümidi sönüb sabaha,
Yoldan azmışlara yox çarə daha.
Haram pullar qudurdub özlərini,
Bürüyüblər yalana sözlərini.
Ölkədən baş götürüb qaçanları,
Yad ölkələrə yolu açanları,
Qalanlar bəxti gülüb deyir hələ,
Vətəndən gedənləri öyür hələ.
Qarabağ işğala düçar olunub,
Məzlumu əzməyə açar olunub.
Bankların cummağı var üstümüzə,
Durub talançıları qəsdimizə.
Olub intiharlar həyat amalı,
Acizdir şeytana insan kamalı.
Şadiman, bu dərdləri çək nəzmə,
Bəlkə qulaq verən oldu sözümə.
Zalımın bir adı var mərdüməzar,
Əlim dinc durmayıb dərdləri yazar.
Od tutub yanır yenə dükan, bazar,
Məzlumu soyanları tutsun azar...

17.02.2017

VƏTƏN DEDİLƏR

Vətən, səni tikə-tikə, parça-parça yedilər,
Utanmadan, çəkinmədən sənə Vətən dedilər...

Çalxatdılar içindəki göz yaşını nəhrtək,
Boğazlarda kilidləndin hönkürməyən qəhərtək...

Araz boyda kədər oldun bağrımızda nə vaxtdı,
İçi ulusun qarışıq qara elədik baxtı.

İndi sənə barmağını silkələyir gədələr,
Səni udmaq diləyiylə eşqə düşüb mədələr.

Torpağının ortasında xain yuva saldılar,
Bu minvalla hissə-hissə hər neyin var aldılar.

Buludlardan axan yaşdan çoxdu gözün yaşları,
Məzar-məzar şəhid etdin igid vətəndaşları.

Xəritənə boylananda utanıram özümdən,
Tapdağlarda qalan yurdlar boylanırlar sözümdən.

Vətən, səni tikə-tikə, parça-parça yedilər,
Utanmadan, çəkinmədən sənə Vətən dedilər...

06.05.2017

CƏNGİ HAVASI

Dolur qulağıma cəngi havası,
Əsgər çəkməsinin səsası gəlir.
Qonub dodaqlara qalib duası,
Yaxından-uzaqdan nidası gəlir.

Halaldı Vətənin çörəyi ərə,
Ürəyin sərhədə şam edən odur.
Əlində acizdir sıldırım, dərə,
Yağılar üstünə mərd gedən odur.

26.08.2020

PULU PULLA TUTAN KİŞİ

Pulu pulla tutan kişi,
Dünəninə diqqət yetir.
Tanrı görür bu gedişi,
Saray uçur, məzar bitir.

Başa getməz böylə bu hal,
Bir ətrafa nəzəri sal,
Keçmişlərdən ibrəti al,
Əməlinə ölçü götür.

Gəl doğrama ke`fə soğan,
Göydən enmib səni doğan,
Başına pul-para yağan,
Haram işlər bir gün bitir.

Bax güzgüyə içini gör,
Vicdanında biçini gör,
Bircə dəfə suçunu gör,
Anla, boşa deyil sətir.

Pulu pulla tutan kişi,
Uğur sanma pis vərdişi,
Zalım zaman əzir dişi,
Heç bir kəsə qoymur xətir.

Əzəl-axır sonun gələr,
Hay salarsan dilin mələr,
Hər doğulan, bir gün ölər,
Əməlindən hesab götür.

06.05.2017

ŞƏHİD ZƏHRA

Alxanlının ey körpəcə şəhid qızı,
Səmalardan qopub gələn Dan ulduzu,
Dodağında donub qaldı körpə nazı,

Qəfil köksün qanla doldu, şəhid Zəhra,
Təslimçilik qana yoldu, şəhid Zəhra.

Söndü məsum gözlərində həyat eşqi,
Azğın düşmən cocuqlarla edir məşqi,
Bizə “dözün” deyənlərin nədir məşqi?!
Ocaq üstə qəlb dağ oldu, şəhid Zəhra,
Təslimçilik qana yoldu, şəhid Zəhra.

Yazıq dünya haqsızlara əyilibdi,
Həqiqətin başına çox döyülübdü,
Ruhumuzun səbir daşı üyülübdü,
Xeyir şərə çoxdan quldu, şəhid Zəhra,
Təslimçilik qana yoldu, şəhid Zəhra.

Düşmən atan güllələrdən bağrın para,
Yağıların əməlinə Qisas çara!
Axan qanın könlümüzdə açdı yara,
Qarabağla bir oyuldu, şəhid Zəhra,
Təslimçilik qana yoldu, şəhid Zəhra.

Mələk bala, torpaq tənə qucaq açdı,
Ruhun cənnət quşu idi, yerdən qaçdı!
Qaysaqlanmış yaraları yaran açdı,
Şəhid nənən sənlə soldu, şəhid Zəhra,
Təslimçilik qana yoldu, şəhid Zəhra.

Şəhid olmuş yavruları tapsın ruhun,
Buludların bağırından qopsun ahın,
Yerdə, göydə fəryad təki çapsın ahın,
Daha bəsdi, can oyuldu, şəhid Zəhra,
Təslimçilik qana yoldu, şəhid Zəhra

Yağılara həyan olan şərdən doğur,
İçimizi məğlubçılıq hissi boğur,
Ey Şadiman, biz susduqca yoxdu uğur...!
Qatillərə qan sayıldı şəhid Zəhra!
Təslimçilik qana yoldu, şəhid Zəhra.

06.07.2017

GƏLİR SORAĞIN

Xarıbülbül, Qarabağın
qalıb yağı, şər əlində.
Qusar eldə var sorağın,
Şəbnəm ağlar hər telində.

Sən Vətənin o başından
bu başına niyə gəldin?
Hayların qan savaşından,
Şuşa nalan – deyə gəldin!

Xarıbülbül, düşməndənmi
sən də düşdün qaçaqaça?
Fəryad doğub sinəndənmi
Yaradandan imdad quca?!

Bənövşəyi üzündədir,
Avazlanan yürd həsrəti,
Əsir Cıdır düzündədir,
Yağıların həqarəti! –

nə vaxt bitər bilməyirik,
Nə sən, nə biz, xarıbülbül.
Bir məxrəcə gəlməyirik,
Demək olmur göz yaşın sil!

Gəl ağlama, düşmən gülər,
Şehlərini qurut üzdən.
Ah-ufundan can sökülər,
Bir səda yox Cıdır düzdən.

Xarıbülbül, gözəlliyin
Parlaq ulduz aləm bəzər.
Fəqət fərqli özəlliyin,
Qarabağla adın gəzər.

Xarıbülbül, dik tut başı,
Yurd yağıya heç vaxt qalmaz.

Sel olmasın qoy göz yaşı,
Dəyərindən düşməz almaz.

Harda bitsən Vətən gülü,
Harayısan Qarabağın.
Gəl oyatma sən bülbülü,
Köz eyləyər sinə dağın!

Xarıbülbül, bu Şadiman
Səni gördü bağrı yandı.
Bir Şuşana ola dərman,
Dildə bitib Vətən andı!!!

24.05.2018

VƏTƏN TƏRƏFƏ

Qərib yurd-yuva seçənlər,
Gedəyin Vətən tərəfə.
Nə olar bir yol boylanaq
Ruhumuz ötən tərəfə...

O yurdlar axı bizimdi,
Yorğun bükülən dizimdi,
Hər talasında izimdi,
Baxaq dil yetən tərəfə.

Əyinə geydik qürbəti,
Ağladıq küncdə xəlvəti,
Hər yurd tanıdır milləti,
Gedək qəlb bitən tərəfə.

10.06.2017

YURDUMUN CƏSUR QIZI

Bəzz qalasına üçrəngli bayrağımızı çəkən Raymonda Əliyevə

Üçrəngli bayrağmızı Bəzz qalasına çəkən,
Güneyin bağırında qartallar təki səkən,
Vətən kiçildənlərə dərmandı o dərrakən,
Misralar haray salıb təzim edir bu ada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Düzlüklə, təmizliklə, saflıqla peyman etdin,
Haqq deyib haray saldın, sən haqqa iman etdin,
Azərbaycan eşqini ürəyə fərman etdin,
Biz hamımız gedəri şərəf qalar dünyada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Adının mənasını vallah bilmirəm xanım,
Sənin o qeyrətinə qurban olsun bu canım,
Əldə tutduğun bayraq mənim şərəf ünvanım,
Güney-Quzey Qarabağ deyib yanır fəryada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Içində Vətən eşqi Güneyə işıq salıb,
Bütöv Azərbaycanın ürəyində ucalıb,
Bəzz qalası eşqinə özü heyrətdə qalıb,
Bir ocaq cat yığılsın o tay, bu tay bu oda,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Qürurunun önündə qartallar səcdə edir,
Vətənin bütövlüyün dünyaya müjdə edir,
Ürəklər bir vurarkən bəs bu ayrılıq nədir?
Birləşsin yurd-yuvalar dəf olsun bu qan-qada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Bəzz qalası Babəkin ruhun bağrında gizlər,
Bütöv Vətən eşqini daş-dıvarda əzizlər,
Dilimiz kilidlənib, hələ susuruq bizlər...
Sənin dəli harayın yatmışları oyada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

Şadiman cəsurluğun önündə qəhərlənir,
Köləlik havasıyla bir çoxu zəhərlənir,
Düşmənə əyilməklə xainlər bəhərlənir,
Dillər ayrı havada, baxışları boyada,
Yurdumun cəsur qızı, mərd ürəkli Raymonda!

21.06.2018

ŞƏHİDLƏR

Düzülüb qəbirlərə,
Susub baxır şəhidlər.
Sancılıb səbirlərə,
Canı yaxır şəhidlər.

Göz yaşına diləkdi,
Qəmimizə dirəkdi,
Bir ağlayan ürəkdi,
Bulud sıxır şəhidlər.

Məzarlar ah içinidə,
Dərdi sabah içində,
Dünya günah içində,
Düşmən yıxır şəhidlər.

Hər qəbir bir oğuldu,
Ahı ərşə dağıldı,
Dilə dastan, nağıldı,
Göydə çaxır Şəhidlər.

Döyünür könlümüzdə,
Qeyrət daşdırır bizdə
Adları dilimizdə,
Qana axır Şəhidlər.

Şəhidsiz Vətənmi var?
Bu ada heç tənmi var?
Məzarları daş-divar...
Ruh darıxır Şəhidlər...

28.09.2018

"DEYİRLƏR"Ə DEYİRLƏR

"Güneydə gündəm olmuş rəqs ritmində yazılmış"Deyirlər" mahnısına çağrış

"Deyirlər"ə ağız büzən,
Yoxdu səndə Vətən eşqi!
Pozulacaq bir gün düzən,
Çox çəkməz zülmün məşqi.

Silkələn manqurt deyirlər,
Kimliyi arıt deyirlər,
Bizlərə Bozqurt deyirlər.

Niyə susub çağlamırsan?
Bağrımı yandıran, Araz?!
Biz yanırıq ağlamırsan,
Haqqı dayandıran, Araz!

Bütövləş Vətən deyirlər,
Ürəkdə bitən deyirlər,
Azərbaycan tən deyirlər.

Qol götürüb oyna, millət,
Rəqs özü birlik sədası.
Dərd üzünə ayna, millət,
Bitmir Vətənin qadası!

Qarabağ darda deyirlər,
İgidlik harda deyirlər?!...
Yurdlar ah-zarda deyirlər.

Urmu yurdumun gözüdür,
Dəryası suya həsrətdi...
Təbriz canımın özüdür,
Doğma yurdda nə qürbətdi?!

Qalxın birləşək deyirlər,
Haqq içdə şimşək deyirlər.
Bəzzdə görüşək deyirlər!...

Canımız, gözümüz gənclik,
Ümidimiz sizdən keçir.

Dünyaya sözümüz gənclik,
Sizə səhvlər bizdən keçir...

Sizə aslanlar deyirlər,
Yurda qalanlar deyirlər,
Basılmaz canlar deyirlər.

Əsgərimiz, qalxın gedək,
Düşmənin bağrı yaxılsın.
Yurda axın-axın gedək,
Zülümün evi yıxılsın!

Bu hiyləyə don deyirlər,
İşğallara son deyirlər,
Qarabağa qon deyirlər...!

Göyçə gölü qanlı əldə,
Ellər yurdlardan köç edib,
Biz varıq deyirik dildə,
Lovğalıq bizi heç edib.

İrəvan bizim deyirlər,
Ağlayır gözüm deyirlər,
İtməsin izim deyirlər..

Birləşin Türklük eşqinə,
Üçrəngli bayraq yar olsun!
Basılmaz birlik eşqinə,
Ay-ulduza dildar olsun!

Güney-Quzey can deyirlər,
Bu dərdə hicran deyirlər,
Qalx Azərbaycan deyirlər!

Şadimanı boğur qəhər,
Ö tay, bu tay nə deməkdi?!
Görüm düşmən udsun zəhər,
Yağıdan gələn əməkdi!

Ayırma, Araz, deyirlər,
Rəqsə xoş avaz deyirlər,
Gəl bu dərdi yaz deyirlər...

14.09.2018

YURDU YADA SATANLARA

Yurdu yada satanlara
Bazar oldun yaman, Vətən.
Səni ucuz tutanlara,
Nəsib deyil iman,Vətən.

Məmurların tamahı çox,
Çəkinəcək Allahı yox,
Zənn eləyir günahı yox,
Tanımayır fərman, Vətən...

Yurdlar qalıb işğal altda,
Sirlər yatır neçə qatda,
Qürurumuz yox həyatda,
Haçan olar səhman, Vətən?

Şəhid ruhu fəryad edir,
Məzarları dərd yad edir,
Yer də, göy də imdad edir,
Təbib bulmaz dərman, Vətən!

Yağı nazı bitən deyil,
Şər arxalı, itən deyil,
Qorumasaq Vətən deyil...
Çox ötürdük zaman, Vətən.

Tərifimiz başdan aşır,
Yaltaqların salıb həşir,
Ürək yanır, can savaşır,
Tapılmazmı loğman, Vətən?!

Şuşana bax, bağrı yanır,
Oğru kefdə, doğru yanır,
Köksüz, soysuz, yurd nə qanır?!
Bağır, qopar aman, Vətən!

Şadimanın dili susmaz,
Qanmaz sözə qulaq asmaz,
Can yanmasa, əlim yazmaz,
Könlüm sızlar kaman, Vətən...

23.11.2018

YOL BAĞLI ŞUŞAYA

Sən də İrəvantək yağıya ocaq,
Elin pərərn-pərən düşüb nə vaxtdı.
Dilimiz olubdu ağıya ocaq,
Nə zaman uçular bəs şərin taxtı?!

Yol bağlı Şuşaya əsir, Qarabağ,
Həsrət bıçaq təki kəsir, Qarabağ,
Könül vüsalınçın əsir, Qarabağ…
Qorxaqdan Allah da küsür,Qarabağ!

Leşə döndərdilər torpağı, daşı,
Quzğuntək tökülüb yadlar üstünə.
Bizim qismətimiz elə göz yaşı,
Durdu için-çölün, durdu qəsdinə.

Ahı könlümüzdə donan, Qarabağ,
Elə özümüztək yanan, Qarabağ,
Susur Azərbaycan anan, Qarabağ!
Azalır artmayır qanan, Qarabağ.

Yağılar sülh deyib bağlayır ağzı,
Bizə sülh deyənlər talana gəlir.
Görüm yoxa çıxsın, qələm-kağızı,
Möhürlər, imzalar yalana gəlir.

Dərdi qəlbimizə dolan, Qarabağ,
Bizimtək lallığı olan, Qarabağ,
İblislər əlində qalan, Qarabağ!
Var-yoxu əllərdə talan, Qarabağ.

Niyə silkələnmir daşın, torpağın?
Gələnlər yurdunu taladı, çapdı.
Nə vaxt sona yetər bu qanlı çağın?!
Düşmənlər, xainlər haqqını qapdı.

Susma, fəryadını bağır, Qarabağ,
Vətəni haraya çağır, Qarabağ,

İşğal hər bir dərddən ağır, Qarabağ!
Partlayır dözməyir bağır, Qarabağ.

İşğala savaşla verilər cavab,
Cavab verilməsə qurban çoxalar.
Ürəklər partlayır, eyləməyir tab,
Qələbə olmasa yağı çox olar!

Bunu qorxaqların qana, Qarabağ,
Doymuşuq hicrandan cana, Qarabağ,
Qarşında yağılar sına, Qarabağ…
Gələsən yenidən cana, Qarabağ.

Çağır harayına, çağır Ordunu,
Düşməni qorxusu silahdan keçir.
Ayılt içindəki yatmış Qurdunu,
Qalib olmağımız sabahdan keçir.

Bunu qananların duyur, Qarabağ,
Əmrə qadirlər uyur, Qarabağ,
İçində göyərir çayır, Qarabağ...
Dostunu düşməndən ayır, Qarabağ!

04.12.2018

DURUN GEDƏK QARABAĞA

Nə sızlayıb ağlaşırıq,
Ah-ələmlə bağlaşırıq,
Dillə neçə dağ aşırıq-
Könlə hicran yağa-yağa,
Durun gedək Qarabağa!

Inlər, sızlar hər sözümüz,
Göz yaşına yar gözümüz,
Açılmayır heç üzümüz,
Bəsdir dözdük daha dağa,
Durun gedək Qarabağa!

Möhür, imza torpaq almaz,
Qorumasaq Vətən olmaz,
Heç bir zülüm sona qalmaz,
Qonub yağı çox oylağa,
Durun gedək Qarabağa!

Bəsdir qaçqın, köçkün olduq,
Bəxtimizdən küskün olduq,
Bu dünyada miskin olduq,
Düşmənlərə dağ vurmağa,
Durun gedək Qarabağa!

Yağı dolu hər yanımız,
Məğlub qalıb ünvanımız,
Nə vaxt olar fərmanımız?
Son qoyağın ağlamağa,
Durun gedək Qarabağa!

Şəhid ruhu fəğan edir,
Bu susqunluq içdə nədir?
Namərd heç vaxt bilməz qədir,
Yağı külün sovurmağa,
Durun gedək Qarabağa!

Düşmənlərə dil verdilər,
Əllərinə əl verdilər,
Əsir düşmüş el verdilər,
Kimliyini doğurmağa,
Durun gedək Qarabağa!

Dərdimizin qədəriyik,
Biz savaşı edəriyik!
Bu dünyadan gedəriyik...
Varlığını bağırmağa,
Durun gedək Qarabağa!

Dil-ağıza olduq qınaq,
Yurd işğalda bu bir sınaq,
Təhdid böyük, birgə qanaq,
Verək şərəf, şan bayrağa,
Durun gedək Qarabağa!

Atilladan yetib səda,
Şadimana çatıb nida,
Sözlərimdə yoxdur əda,
Yurdu şərdən qorumağa,
Durun gedək Qarabağa,
Durun gedək Qarabağa.

07.12.2018

BU İL DƏ KÖÇÜB GEDİR

Bu il də köçüb gedir,
Qarabağ yağı əldə.
Düşmən bildiyin edir,
Cəh-cəh vururuq dildə!

Sözdə biz birinciyik,
Heç bir xalq bizə çatmaz.
Yatmağa sevincliyik,
Kimsə bizi oyatmaz.

Torpaqlar işğal altda,
Dil boğaza qoymuruq.
Bəxtimiz bata-batda,
Talamaqdan doymuruq.

İşğalçının dostuna,
Dostumuzdur deyirik,
Durub yurdun qəsdinə-
Boy-buxunun öyürük...

Bizdən olmaz dünyada,
Başımıza bəlayıq.
Mürgüləyib röyada,
Zirvə udan qalayıq.

Nə edək biz də belə,
İşğala əyilirik.
Veririk ömrü yelə,
Təslimçi deyilirik.

Yığılıb dərd ürəyə,
Ölüm gəlmir öləsən.
Düşüb Vətən kələyə,
Necə deyib güləsən?!

Bürüyüb şoular bizi
Şouyuq başdan ayağa.

Tikiblər dilimizi,
Dözmək olmur bu dağa!

Bu ildə gəlib keçir,
Qarabağ işğaldadı...
Ömrümüzü gün biçir,
Düşmənlər vüsaldadı.

Şəhidə hədyan deyən,
Artmadadı ölkədə.
Belələrini öyən-
Şou oluruq bəlkə də...

Ey Şadiman, qəlb nalan,
Gördüyümü yazıram.
Sözümdə varsa yalan,
Ölməyə də hazıram...

24.12.2018

CANDAN SEVƏNLƏR

Vətəni ürəkdən, candan sevənlər,
Onu öz nəfsinə qurban etməyir.
Əcdadı, ulusu qandan sevənlər,
Heç zaman xainlə yola getməyir.

Tarixlər adlayan məzar daşları,
Yurdun kimliyinin danışan dili.
Zaman arxivinə sızar daşları,
Ötən əsrlərlə yarışan dili.

Vətən dildən keçib canda birləşir,
Onun bu dünyada yoxdur əvəzi.
Ürəyin içinə girib yerləşir,
O vicdan güzgüsü, haqqa tərəzi!

Əyib tərəzini haqqı dananlar,
Yurd-yuva qədrini haradan bilsin?!
Candan məmləkətə yanan insanlar,
Firon xislətlərə niyə əyilsin?!

26.08.2020

YORULDUQ OYNAMAQDAN

Havanı dəyişməyin vaxtı çoxdan çatıbdı,
Zili, bəmi nə vaxtdı biri-birinə qatıbdı,
Baxma ki, bir çoxunun səs-sədası batıbdı,
Bu hava yordu bizi, qırıldıq oynamaqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Əllər dikəlib göyə fələyə yalvarırıq,
Hər ağrıdan yorulan ürəyə yalvarırıq,
İçimizdə ağlayan diləyə yalvarırıq,
Parasız cibimizə sarıldıq oynamaqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Yerdə əsəbləşibdi nərə çəkib hayqırır,
Kimi qapıb qılıncın nəfəs kəsir, vay qırır,
Allah verən ömürdən, il qoparır, ay qırır,
Öz-özünün dərdinə vurulduq oynamaqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Hamı dönüb yağıya bir-birinə daraşır,
Oğru, əyri çoxalıb, ev soyur, barı aşır,
İlan təki sürünmək bəlkə bizə yaraşır?!
Qazılan məzarlara sorulduq oynamaqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Əsir düşən yurdların sədası qanda gəzir,
Həyatdan doymamışlar canını veirir nəzir,
Məğlub olan tərəfik məyusluq eli əzir,
Ümid gurşad olanda durulduq oynamqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Bəsdir, vicdan hönkürür, kəs bu havanın səsin,
Bu hava söndürübdü vallah həyat həvəsin,
Əzrayılı çoxalıb bir udumluq nəfəsin!...
Saat təki zamana qurulduq oynamaqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

Zənn etməyin, sözlərim pıçıldayır pəstədi,
Misralar haray salıb ağrıma əhəstədi,
Şadimanın ruhunu qırmağa həvəsdədi,
Dərdimizlə sevişib yar olduq oynamqdan,
Bu çalınan havaya yorulduq oynamaqdan.

10.02.2019

BU DƏRDİ DEMƏYƏ DİLİM GƏLMƏYİR

Bu dərdi deməyə dilim gəlməyir,
Götürüb yazmağa əlim gəlməyir.

Qanı torpağında batan Xocalı,
Qanların içində yatan Xocalı.

Bu dünya kar olub ağrına sənin,
Şəhidlər döşənib bağrına sənin.

İlləri tarixə köçürdürük biz,
Ürəyə kədəri içirdirik biz.

Ey yurdun övladı, dəhşətə susdun,
Bəsdir qanun pozan vəhşətə susdun!

Xocalı harayın bağır dünyaya,
Allahı göylərdən çağır dünyaya!

Silsin caniləri bu yer üzündən,
Qalmasın cahana qanlı izindən.

Hayların vəhşəti səngiyən deyil,
İçdə xəyanəti təngiyən deyil.

Düşmənin kimliyi bəlli, susuruq,
Qəzəblə bir-birin kindən asırıq.

Yağı torpaqlardan çəkilən deyil,
Şərin beli heç vaxt bükülən deyil.

Bəs kimi gözləyib dururq bu gün,
Yalançı xəyallar qururuq bu gün.

Qisasın zamanı yetişməyibmi?
Ürəyi yumşaqlıq ötüşməyibmi?!

Nə zaman bitəcək işğalın sonu,
Vətəndə hər bir kəs gözləyir onu!!!

Nəsillər dəyişir, yara közlənir,
Düşmən elə düşmən, bəs nə gözlənir?!

Qarabağ işğalda, qız-gəlin əsir,
Susub dayanmışıq, nə möhlət, nə sir?

Yağı danışıqla çəkilib getməz,
Bu elə bəladı sülh ilə ötməz.

Üstən götürməsək məğlub adını,
Vətən xoşbəxt görməz öz övladını.

Yeni işğallara düçar olarıq,
Yadların əlində naçar olarıq.

Xocalının qanın almalıyıq biz,
Bahadur adıyla qalmalıyıq biz.

Sonu olacaqmı bu atəşkəsin,
Ordu kəsməlidir, düşmən nəfəsin!

İşğalla barışmaq, şərə qol qoyur,
Yeni işğallara açıq yol qoyur!

Gəlin qorxaqlığı içdə ovlayaq,
Yağını yurdlardan, haydı, qovlayaq!

Milli danışanım, Milli Məclisim,
Yetişirmi sənə harayım, səsim!

Ehey, Milli Ordum, qap silahını,
Düşmənin içində qopar ahını.

Ali Baş Komandan, əmri bəyan et,
Savaşın gününü durma əyan et!

Xocalı, Malıbəyli, Quşçu ağlayır,
Şuşanın harayı sinə dağlayır.

Sönmüş ocaqların ahından qopaq,
Nə olar qoy biz də rahatlıq tapaq.

Bu dərdi deməyə dilim gəlməyir,
Götürüb yazmağa əlim gəlməyir.

24.02.2019

ŞƏHİD SORAĞI

Yenə şəhid sorağı döydü qapını bu gecə,
Qara xəbər tələsib oydu qapını bu gecə.
Ötüşür hər günümüz, işğala adət edirik,
Yağnın bəd əməli öydü qapını bu gecə.
Niyə bu ağrı-acı bitməyir illərlə, fələk?!
Düşmənim qan-yaş ilə qoydu qapını, bu gecə.
Pozulub növrağımız işğala düçar olalı,
Bağlayaq bəd xəbərə haydı, qapını bu gecə.
Vətənin hər qarışı varlığımızdan yuxarı,
Yandıran ahla dolu vaydı qapını bu gecə...

27.03.2019

DEYƏN OLMADI

Prezidentin mədəniyyət xadimləri ilə görüşünü izlədim və bu şeir doğuldu…

Hamı güzəranın söylədi o gün,
Kimliyin necə faş eylədi o gün,
Özləri bilmədi neylədi o gün,
Vətən, niyə sənin yiyən olmadı?!
İşğala dözmürük deyən olmadı...

Qələmim başıma qəm daşı tökür,
Ağlım ürəyimə təlaşı tökür,
Gözüm bulud olub gurşadı tökür,
Səbir deyiləsi bir şey qalmadı...
İşğala dözmürük deyən olmadı...

Başımızdan getsə qorxu havası,
Başlar düşmənlərlə qisas davası,
Vətənin çiçəklər hər yurd-yuvası,
Hayqırıb şərəfi öyən olmadı,
İşğala dözmürük deyən olmadı...

Məğlubluq acısı yaşayırıq biz,
Bu dərdi hər günə daşıyırıq biz,
Axı niyə belə yaşayırıq biz?!
Yağının şər yolun əyən olmadı,
İşğala dözmürük deyən olmadı...

Hönkürür içimdə ziyalı adım,
Vətənin namusu, əyalı adım,
Bağrıma sığınıb həyalı adım,
Vətən, qələmimdən həyan olmadı,
İşğala dözmürük deyən olmadı...

İçdə ziyamızı məhbus eylədik,
Hayqırtı salanda sən sus, sus dedik!...
Qolun qandallayıb biz həbs eylədik,
Pas atan qılınca bəyan olmadı,
İşğala dözmürük deyən olmadı...

Hamı öz dərdini ələdi bir-bir,
Demədilər, Başçı, tükənib səbir,
Hamıya dünyada qalacaq qəbir...
Məğlubluq əzabın sayan olmadı,
İşğala dözmürük deyən olmadı...

Bu nə ziyalılıq havası, Qələm,
Qışqıran səbrimin davası, Qələm,
Mən qula çevrildim, sən ası, Qələm,
Səhv getdiyin yolu əyən olmadı,
İşğala dözmürük deyən olmadı...

Böylə kiçilərimi, ey Tanrım, şərəf,
Çoxu eşq eləyir yağıya tərəf,
Nəsilər deyəcək bizə bişərəf,
Vətən, hıçqırtını duyan olmadı,
İşğala dözmürük deyən olmadı...

Vətən işğaldasa nə ev, nə para?
Dərinə işləyir getdikcə yara,
Yazıb yaratmağa ürəkdir çara,
Qorxunun başına yüyən olmadı,
İşğala dözmürük deyən olmadı...

Biz niyə kiçilib ölürük, Vətən,
Bu dərdi misrayla bölürük, Vətən,
Hansı günümüzə gülürük, Vətən?!
Heç qorxu-hürkünü oyan olmadı,
İşğala dözmürük deyən olmadı...

Deməyin faş etdim Şadimanlığı,
Itirib tapmıram heç səhmanlığı,
Ruhum alıb qaçır məndən canlığı,
Qaytarıb yerinə qoyan olmadı,
İşğala dözmürük deyən olmadı...
İşğala dözmürük deyən olmadı...

04.03.2019

ƏSGƏRƏ MƏKTUB

İndi məktublar da yazılmır daha,
İnternet mesajlar işə düşəndən.
Ümidim bağlıdır uca Allaha,
Ötür günlər, aylar biz görüşəndən.

Əzizim, bilirsən ürəyim səndə,
Sənsən bu dünyada həyat işığım.
Eşqə bağlı olan diləyim səndə,
Sənsən gözüm nuru, qəlb yaraşığım.

Hər yerdə gözümə görünürsən sən,
İgidim, Vətənə dayaq əsgərim.
Qəlbimin oduna bürünürsən sən,
Səngərlər içində oyaq əskərim.

Bilirsən necə mən həsrətindəyəm,
Günləri sayıram, ötüşsün aylar.
Səninlə qovuşmaq niyyətindəyəm,
Axır kirpiklərdən qəm dolu çaylar.

Hərbə qışda getdin, artıq yaz indi,
Ağaclar çiçəyə bürünüb bağda.
Bir cavab məktubu mənə yaz indi,
Sözlərim həsrətlə yanır varağda!...

Hər gün duaçıyam yoluna əskər,
Tanrım qoy ömrünə nurlar ələsin.
Düşmənin qandal vur qoluna Əsgər,
Ayağın altına düşüb mələsin.

Sevgilim, bilirəm qolunda qüvvət,
Bu yurdlar Ordunun əmanətidir.
Vətən namus, şərəf, əvəzsiz sərvət,
Qurd ürəklilərin zəmanətidir!

Söylə, yadındamı sən gedən günü?
Kəndə gəlmişdilər sənlə görüşə.

Bir qoç da qurbanlıq sən gələn günü,
Nişanlım, gəlişin bayrama düşə...

Bu Novruz bayramı sənsiz keçirtdik,
Gözüm qapınızda qaldı, əsgərim.
Keçən il çərşənbə biz and içirdik,
Andımız ruhuma baldı, əsgərim.

Qapımız yan-yana, axı qonşuyuq,
Hər gün anan-bacın mənlə görüşür.
Bu eşqlə Allahın cənnət quşuyuq,
Ruhum uyğularda sənlə görüşür.

Vətən işğaldadı, işğala çarə
Sizin əlinizdə, ey vətən oğlu.
Bu dərd sinəmizi eyləyib yarə,
Düşmənlə bir yerdə məhv olsun nağlı!...

Sənin uğuruna amin deyirəm,
Yağıya qələbə çalsın Ordumuz.
Vətən igidlərə zamin deyirəm,
İşğaldan qurtulsun daha yurdumuz!

Yoluna həsrətli nişanlın baxır,
Salamat dönəsən evinə, əsgər.
Eşqin ürəyimi yandırıb yaxır,
Gələsən, el-oban sevinə, əsgər.

Mən rica eylədim şairimizdən,
Nəzimlə söyləsin ürək sözümü.
Bəndlər haray salıb bəhs etdi bizdən,
Sən də yolda qoyma daha gözümü.

Saf eşqi misraya düzdü Şadiman,
Məktubum yetişə əlinə, əsgər.
Olaq bir-birinə daim mehriban,
Xoş xəbər yayısın elinə, əsgər.

20.04.2019

RUHUMU OYNATDIN

Gəlmişəm, izn ver çıxım qarşına,
Ruhumu oynatdın sən, Həsənqala.
Qonum buludunun axan yaşına,
Göyündən çəkilsin çən, Həsənqala.

İnan, xiffətini illə çəkmişəm,
Ayrılıq acısın qəlbə tökmişəm,
Eşqini gizlicə könlə bükmüşəm,
Dərdindən Məcnunam mən, Həsənqala.

Yaşıldan don geyib yenə bəzəndin,
Nolar yanılmasın sevgimə zəndin,
Alıbdı ağlımı feilin, fəndin,
Ürəyim sevdana dən Həsənqala.

Ağaclar başına çətirin tutub,
Güllərin bağlarda ətirin tutub,
Könlüm görüşünə xətirin tutub,
Əyilir önündə mən, Həsənqala!

Çayın zümzüməsi bəstəkar kimi,
Bunu duymayanlar, sanki kar kimi,
Oxşarsan qəlbimi eşqə yar kimi,
Alışar oduna tən Həsənqala...

Hər səni görəndə vəcdə gəlirəm,
Sənə misra-misra müjdə gəlirəm,
Dindir Şadimanı, deyər bilirəm,
Ürəyim səninlə tən Həsənqala...

02.06.2019

GÖRÜŞÜNƏ GƏLDİM

Görüşünə gəldim yenə,
Könlə qida, Həsənqala.
Ürəyimdə həsrətim var,
Sənsən, o da Həsənqala.

Məkanısan nəsillərin,
Ovqatısan fəsillərin,
Bağlarına bülbüllərin
Salıb səda, Həsənqala.

Şahdağına bələnmisən,
Dumanına ələnmisən,
Tovuz təki bəzənmisən,
Bu nə sevda, Həsənqala.

Söyüdlərin saçaq-saçaq,
Günəş göydə qurub ocaq,
Soydaşına dur aç qucaq,
Yanaq oda, Həsənqala.

Şadimanla qur ülfəti,
Ey ruhumun şux afəti,
Bu yamyaşıl qiyafətin
Yox dünyada, Həsənqala.

08.06.2019

BİR İGİD TAPŞIRDI VƏTƏN MƏZARA

"MİQ-29 təyyarəsinin pilotu, şəhid polkovnik-leytenant Rəşad Atakişiyevin ruhuna ithaf

Bir igid tapşırdı Vətən məzara,
Ruhunu Yaradan çəkdi göylərə.
Görüm ölüm düşsün özü azara,
Buludlar göz yaşın əkdi göylərə.

Tabut şahid oldu insan selinə,
Tutuldu məzarı gül yağışına.
Ananın yurd saldı ağı dilinə,
Axdı gürşad dolu sel baxışına.

İki körpə oğul atasız qaldı,
Atalı günləri xəyala döndü.
Göylər şahin oğlu yerlərdən aldı,
Etdiyi dəhşətə sanki öyündü.

O gecə Xəzər də hıçqırdı bəmdə,
Dalğalar Rəşada İgid vay dedi!
O gecə hönkürdü dərdə aləm də,
Tanrıya üz tutub, ay haray dedi!

İgid ər itirdi, xanım qızımız,
Könülün könlünə sığmadı kədər.
İnlədi matəmə kaman, sazımız,
Qoşunun içinə yığmadı kədər.

Hərbə həyatını həsr edən igid,
Vətən səmasında nağıla döndü.
Ər təki böyüyüb yol gedən igid,
Bütöv Vətən üçün oğula döndü!

Ruhuna baş əyir Vətən insanı,
Səni ürəklərə köçürtdü ölüm!
Tökür gözlərimiz kədər leysanı,
Bizlərə çox acı içirtdi ölüm...

Yurdun şahin oğlu, ruhun şad olsun,
Düşdüyün qəzaya ağlayır Vətən.
Görüm o gecənin gözü oyulsun,
Şərəfinə tarix bağlayır Vətən...!

Bu qara xəbərin özü müəmma,
Zülmət yol olarmı gecə quşlara?!
Hər sualın özü doğur min əmma...
Qarışır gözləri boğan yaşlara.

Yazdı Rəşad adın rəşadətini,
Hər kəs öz adına çəkər deyirlər.
Göy duydu şəhidlik ibadətini,
Ruhun asimanda səkər deyirlər!..

Şadiman, bağrından qopan fəryadın,
Gəzir söz içində, misra içində.
Qoy haqqa yetişsin daim imdadın,
Dilin dolaşmasın niyə, neçində?!...

26.08.2019

MƏZAR DAŞI

Susub dinməyirsən lal məzar daşı,
Hansı qərinədən keçib gedirsən?
İçində yatanın neçədir yaşı?
Onun göz yaşını içib gedirsən.

Üstündən yazın da pozulub gedib,
Sən köklü tarixsən vətənə, yurda.
Varlığın min kərə yozulub gedib,
Gün vurub, solmusan şaxtada, qarda.

Dinib nəql edəsən sahibin kimdi?
Neçə min illəri aşıb gəlirsən?
Bəlkə cəllad olub, bəlkə həkimdi,
Sənə sığınanı özün bilirsən.

26.08.2020

BİZ NİYƏ TƏSLİMÇİ OLDUQ

Qarabağ ah deyir, Vətən oylanır,
Naxçıvan uzaqdan dərdlə boylanır,
Qüzeyli-Güneyli yurdlar vaylanır,
Dərdi dəyər bilib aldıq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Söz oynu edirik işğalçılarla,
Təslimə gedirik işğalçılarla,
Bağrımız yüklənir bu acılarla,
Bir-birin ilantək çaldıq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Qaçqinlar yerləşir daş qutulara,
Enir təslim olan baş qutulara,
Yurdunu dəyişir çaş qutulara,
Necə şər əlində qaldıq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Düşməndən imdadmı gözləyirik biz?!
İçimiz od tutur, kozləyirik biz,
Ancaq bir-birini bizləyirik biz,
Qolumuza qandal saldıq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Gedib yurd-yuvalar, dəyişir zaman,
Bizə qalan elə kədər, ah, aman,
Savaşa bəs nə vaxt verilər fərman???
Bəsdir, saçımızı yolduq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Yurdlar əldən gedib, keflər kökəlir,
Xalqı soyanların cibi yekəlir,
Yağı şirniklənir, təbi yekəlir,
Elə bulud təki dolduq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

İşğal uzandıqca unuduruq biz,
Əsirlər ah yeyir, qan uduruq biz,
İlləri ötürüb, an uduruq biz,

Qırıldıq, çatıldıq, solduq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Göydə nalə çəkir şəhid ruhları,
Ötürdük boşuna biz sabahları,
Yığdıq üstümüzə çox günahları,
Dərdi içimizə aldıq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!

Niyə şadlanırıq, niyə gülürük?
Millətdən qoparıb sərvət bölürük,
Yaman-yaxşı onsuz bir gün ölürük...
Bəs nədən bu günə qaldıq, İlahi?
Biz niyə təslimçi olduq, İlahi?!

Varsansa, sən bizi düz yola qaytar,
Yoxsa yurd-yuvamız tamamən batar,
Qarabağ yüklənən – yol gedir qatar...
Bu necə xəyaldı daldıq, İlahi?
Biz niyə təslimçi olduq, İlahi?!

Şadiman bu dərdi ah ilə yazır,
Deməyin kafirdi, yolunu azır,
Düşmən bizə dərin bir quyu qazır,
Bəlkə haqqın yolun bulduq, İlahi,
Biz niyə təslimçi olduq, İlahi?!
Biz niyə təslimçi olduq, İlahi?!

10.09.2019

YUXUMA GƏLMİŞDİ VƏTƏN

Göyündə buludlar, üzü pərişan,
Verirdi kədərdən baxışı nişan,
Deyirdi, de, nədi ucuz şöhrət-şan?!
Gözündən göz yaşı axırdı necə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Yaman qarğıyırdı atəşkəsi də,
Boğulub çıxmırdı batan səsi də,
Gedib gəlməyirdi heç nəfəsi də,
Qısılıb qalmışdı qəribtək küncə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Deyirdi atəşkəs mənim yağımdı,
Şəhid məzarları sinə dağımdı,
Kimlər ki, zənn edir xoş növrağımdı,
Yatan ağılların qoyublar dincə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Qurumuş ağactək budanmışdı o,
Düşmənə uduzub aldanmışdı o,
Qarşımda sualtək dayanmışdı o,
Bu uyğu izləyər məni ölüncə...
Yuxuma gəlmişdi Vətən bu gecə.

Şəhid məzarına qoyurdu başın,
Tökürdü qəbirə acı göz yaşın,
Tutmuşdu laylaya öz vətəndaşın,
Sanmayın göy dələn harayı becə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Deyirdi uymayın yalan vədlərə,
Torpağı pay etmin siz namərdlərə,
Əyilmin təslimdən doğan dərdlərə,
Mən sizə yuvayam, saymayın heçə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

İlahi, Vətənin dili olarmış,
İnsantək gözləri yaşla dolarmış,
Vətəntək dünyada bir canlı varmış...
Dərdini xalıtək toxurdu incə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Qarabağ deyərək bağırırdı o,
Tanrını haraya çağırırdı o,
Torpağı gurşadla yoğururdu o,
Boyu oxşayırdı bir yetkin gəncə...
Yuxuma gəlmişdi Vətən bu gecə.

Deyirdi igidlər yağı vurmayır?!
O İrəvan xanı yatıb durmayır?!
Əskərim düşmənin yasın qurmayır,
Qananlar sualdan sualı seçə,
Yuxuma gəlmişdi Vətən bu gecə.

Mən heyrət içində susub baxırdım,
Canımı boğazdan asıb baxırdım,
Yaşanan ömrümə küsüb baxırdım,
Demin Şadimana röya boş keçə...
Yuxuma gəlmişdi Vətən bu gecə.
Yuxuma gəlmişdi Vətən bu gecə.

23.09.2019

ÜRƏK TUTMAYIR

Vətənin əzizidir daşı, torpağı,
Onun sevdasına sevda çatmayır.
Qopmasın heç kəsin yurddan saplağı,
Onun eşqi dərya, ürək tutmayır.

Yaşadıb min illər ulusu, eli,
Biz də ona sadiq əskər olmalı.
Elə qurulubdur onun təməli,
Ürəyin içində yeri qalmalı.

26.08.2020

İŞĞAL ALTDA YURDUMUZ

Hanı Vətən, qılınc çəkən mərd ulun?!
Biz susuruq, düşmən atır əl-qolun,
Hamı bilir, azıb yağı haqq yolun,
Tapdalayaq ayaq altda şər qulun,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Sözlər daha misralardan yan qaçır,
Səbir daşır, bədənindən can qaçır,
Zaman gedir, vaxt dəyişir, an qaçır,
Kişilikmi bu bəladan can qaçır?!
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Bu nə həyat, ağrılarla dolur qəlb,
Ürək dözmür, infarktla yol olur qəlb,
Həqarətdən xəzan təki solur qəlb,
Ölüm-qalım arasında qalır qəlb,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Dözümümüz daha tüktək nazilir,
Bəsdir Vətən təhqirlərlə əzilir,
Ümidimiz cuna kimi süzülür,
Yavaş-yavaş yurdlardan əl üzülür,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Tevelərmiz işğal deyib bağırır,
Ermənidən qorxulu şir doğurur,
Qorxaqlığı içimizdə yoğurur,
Qulaq nalan, gözlər talan, yox uğur,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Rus tulasın üstümüzə qısqırdır,
İçindəki şər-şeytanın asqırdır,
Ermənini tirbunadan qışqırdır,

Soydan gələn fəsadını hayqırdır,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Biz nə qədər susmalıyıq vəhşətə?!
Şəhid ruhlar ah-vay edir dəhşətə,
Harınların ağlı qızıb işrətə,
Qan uddurur bu müsibət millətə,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Can ürəyi çəkir dara kökündən,
Çoxu qaçır bahadurluq kökündən,
Nalə qopur yerin-göyün tərkindən,
Azğın yağı ayrılarmı heç kindən?!
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Biz nə qədər sızıldayıb ağlayaq,
Ümidləri sabahlara bağlayaq,
Aramızda asıb-kəsib çağlayaq,
Şərə uyan dil-ağızı yağlayaq,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Ürəyimiz yerbəyerdən çatlayır,
Can dözməyir bu fərağa partlayır,
Ermənini ağaları atlayır,
Şər həmişə haqqın dizin qatlayır,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

Şadimanı səbir kəsir bıçaqtək,
Yoxdu bizdən bu dünyada qaçaqtək...
Hiddət yanır sinələrdə ocaqtək,
Vətən bizə isti, doğma qucaqtək,
Ay həzarat, işğal altda yurdumuz,
Niyə susur, tərpənməyir Ordumuz?!

09.10.2019

LAZIM GƏLİB ÇIXMAYIR

Gözlərimiz dikilibdi yoluna,
Can yandırmır heç millətin halına,
Şələləyib ümidmizi dalına,
Üz döndərib bizə tərəf baxmayır.
Gözləyirik lazım gəlib çıxmayır.

İşğal altda yurdlarımız dağılır,
İçimizdə qisas hissi boğulur,
Təslimçilik qanımızda doğulur,
Səsləyirik, gəlib bizi yolxmayır,
Gözləyirik, lazım gəlib çıxmayır.

Bu lazımın ürəyinə ox batsın,
Yatıbsa da yuxudan ah oyatsın,
Çağırırıq dadımıza qoy çatsın,
Könlümüzdən qorxu hissin yıxmayır,
Gözləyirik lazım gəlib çıxmayır.

O da bizə niyə belə kəc baxır?!
Məktubumuz çatıb ona gec baxır,
Bəlkə o da dərdimizə bic baxır,
Fəryadımız ərşə çıxıb qorxmayır,
Gözləyirik lazım gəlib çıxmayır.

Yəqin bizdən üz döndərib niyə bəs?!
Sözüm çata nişangaha dəyə bəs,
Boy-buxunun dilim necə öyə bəs?!
Od tuturuq atəş onu yaxmayır,
Gözləyirik lazım gəlib çıxmayır.

Saraldıb qəm gözümüzün kökünü,
Unutmuşuq özümüzün kökünü,
Cana yovuq bildik qorxu-hürkünü,
Su axdığı yerdən daha axmayır,
Gözləyirik lazım gəlib çıxmayır.

Dünya əhli, bu lazımı görsəniz,
Vicdan atın ona tərəf sürsəniz,
Süfrənizi onla birgə sərsəniz,
Sorun ondan, niyə bizə baxmayır?!
Gözləyirik lazım gəlib çıxmayır.

Şadimanın haqq düşməyir dilindən,
Haray qopur könlünün hər telindən,
Soraq verin nolar lazım elindən?
Deyin ona söz qılınctək çaxmayır,
Gözləyirik lazım gəlib çıxmayır.
Gözləyirik lazım gəlib çıxmayır.

09.10.2019

QALX AYAĞA

Nə yatmısan, qalx ayağa, torpağın işğal altında,
İlantəki səssiz yatan ağrılar var hər qatında.
Harınlaşıb haramxorlar öz kefində, büsatında,
Yurd-yuvası paramparça, qolları vurulan Vətən!
Göz yaşında batıb çıxan, haqqına sarılan Vətən!

Məğlubluğun tarixini çalxalayıb vurdu yerə,
İçimizdə haray salan qurdu tapıb çırpdı yerə,
Şəhidimin qanı axdı, ah-nalələr sardı yerə,
Məğlubluğu çox çeynənib, yurdları sorulan Vətən
Göz yaşında batıb çıxan, haqqına sarılan Vətən!

Ciyərimiz dağlanıbdı, tüstüsündən göy bulanır,
Sığındığım isti yuvam, adın qəmlə bir hallanır,
Ağrılar əzaba dönüb ürəklərdən yük salanır,
Gah gümana, gah ümidə göl olub durulan Vətən,
Göz yaşında batıb çıxan, haqqına sarılan Vətən!

Paramparça yurdlarını yadellilər qapıb tutdu,
Ya biz döndük öz yolundan, ya onlar el çapıb tutdu,
Hiylə gəzdi hər qarışda haqq yolunu sapıb tutdu,
Yurddaşının fənasından üzülüb yorulan Vətən,
Göz yaşında batıb çıxan, haqqına sarılan Vətən!

Şadimanın hıçqırtısı boğazına qısılıbdı,
Dilimdə hayqıran sözüm misralardan asılıbdı,
Yurdlarımız pərən-pərən, zaman-zaman susulubdu,
Tarixinə üsyan deyib saattək qurulan Vətən,
Göz yaşında batıb çıxan, haqqına sarılan Vətən!

10.09.2019

GÖZÜMÜZ YOLUNDA “ BARIŞ PİNARI” *

Dönəsən gələsən bizim ölkəyə,
Bəxtimiz qalıbdı bəlkə-bəlkəyə...
Neçə il düçarıq min mərəkəyə,
Qurtar bəlalardan sən bu diyarı,
Gözümüz yolunda, “Barış Pınarı”.

İşğaldan qəlbimiz bağlayıb qubar,
Dərd dərdin üstünə yüklənən anbar,
Biz də qələbəni gəl edək nübar,
Budur yaşammıza həyat meyarı,
Gözümüz yolunda, “Barış Pınarı”.

İşğalın hər üzün görənlərdənik,
İşğalla bir ömür sürənlərdənik,
Ağrı meyvəsini dərənlərdənik,
Axtarmaq olarmı düşməndə arı?!
Gözümüz yolunda, “Barış Pınarı”.

Terroru eşq ilə öyür yağılar,
Haqqı dəyirmanda üyür yağılar,
Şər irşə atdıqca dünya dağılar...
Tükənib xeyirin yəqin ki, barı,
Gözümüz yolunda, “Barış Pınarı”.

Ucalsın göylərə Türkün bayrağı,
Yansın üfüqlərdə haqqın çırağı,
Dilə dastan olsun zəfər sorağı,
Müjdə sevindirsin qoy dostu-yarı,
Gözümüz yolunda, “Barış Pınarı”.

Ədalət yox etsin siyasətləri,
Canilər əlində can alətləri,
Qan töküb, ev yıxan ədavətləri,
Ürəklərin buzu, dağların qarı,
Gözümüz yolunda, “Barış Pınarı”.

Şeytan ürəklərin savaşı artır,
Fitvalar çoxalır, göz yaşı artır,
Hər hiylə kökündə, min qəzəb yatır,
Həmişə təklərlər haqqa yanarı,
Gözümüz yolunda, “Barış Pınarı”.

Allahım qorusun Ərdoğanmızı,
Dualar hifz etsin şər boğanmızı,
Ataq başımızdan qoy yorğanmızı,
Ürəyim cığırın bitən çinarı...
Gözümüz yolunda “Barış Pınarı”.

Zaman insafsızdı, Şadiman xəstə,
Çoxdan düşüb qalıb haqqı diz üstə?
Yaradan susqunmu bu qədər qəsdə?!
Bürüyüb cahanı çocuq ah-zarı...
Gözümüz yolunda, “Barış Pınarı”.
Gözümüz yolunda, “Barış Pınarı”.

15.10.2019

***Pınar sözünün mənası çeşmə deməkdir.**

BÜTÖVLƏŞ AZƏRBAYCAN

Bü gün Dirçəliş günündür,
kaş bütöv Dirçəlişini görəydim, VƏTƏN...

Sənin yarımçıqlığın qəlbimizə yaradır,
Əldən getmiş yurdların bil ki, hardan haradır...
Haqqını almayanın daim üzü qaradır,
Yalnız bütövləşməyin yaralara çaradır,
Bəsdir qaldın yarımcan diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövəş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Kimliyimiz illərdi adımızdan silindi,
Dostun, düşmənin kimdi, aşkar olub bilindi,
Türkliyinə yiyə çıx, çağlayan Türk dilindi,
Min illərdi yağıya qılınc vuran əlindi,
Bəsdir qaldın yarımcan diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövəş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Sərvətin yağıların cibində pula döndü,
Qulbeçələr çoxladı, əyilməklə öyündü,
Dərdin ürək yerinə sinəmizdə döyündü,
Söylə kor taleyinə vurulan nə düyündü?!
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövəş, Azərbaycan!
Haqsızlığı qandalla bütövləş, Azərbaycan!

Dədəm Oğuz bəyinə yaraşarmı bu illət?
Cəllad fitvası ilə adın unudub millət,
Öz Vətəni içində qaçqın olmaq həqarət,
Həqarəti daşımaq dünya boyda zəlalət,
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövəş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Sənin övladlarının özü döndümü səndən?!
O üzdən qurtulmağın müşküldü duman, çəndən,

Hönkürür misralarım, sözlər üzülür dən-dən,
Üzüdönük oldumsa qalx qısası al məndən...
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövəş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Qulaq ver Güneyinin Türkəm deyən səsinə!
Al Quzeyin harayın nəfəs qoş nəfəsinə,
İlahi şüvən qursun zülümün qəfəsinə,
Qalx pərvazlan, Vətənim, Babəklər həvəsinə,
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövəş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Ey sevgisi tükənməz, canımın yarı Vətən,
Soy-kökümün məkanı, əhdi-ilqarı, Vətən,
Qəlbimin sığındığı könül nübarı Vətən,
Xərcləmə xainlərə bağından barı, Vətən,
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövəş, Azərbaycan!
Haqsızlığı qandalla, bütövləş, Azərbaycan!

Şadimanın ruhuna ağrılarla dolma, gəl,
Düşmənlərin önündə qolu bağlı olma, gəl,
Xainə can söyləyib, qol boynuna salma, gəl,
Məğlubluğa eşq edib, yağıya alçalma, gəl,
Bəsdir qaldın yarımcan, diriləş, Azərbaycan!
Çal Xətai havanı, bülövəş, Azərbaycan!
Haqsızlığı qandalla bütövləş, Azərbaycan!

17.11.2019

YOXLUĞUNA ÜRƏYİMİZ YANACAQ

Almaniyada haqq dünyasına qovuşmuş qeyrətli Vətən oğlu Mirzə Xəzərin ruhuna

Doxsanıncı ilin soyuq qış günü...
Yurdumuzun gözdən axan yaş günü,
Xalqımızın köməksiz, çaş-baş günü,
Mirzə Xəzər, səsin oldu ox-bıçaq,
Yoxluğuna ürəyimiz yanacaq.

Səsimizi aləmə car eylədin,
Vətən eşqin qəlbinə yar eylədin,
İşğalçının əməlin xar eylədin,
Mirzə Xəzər, Vətən səni anacaq,
Yoxluğuna ürəyimiz yanacaq.

Azərbaycan həqiqətin hayqırdın,
Düşmənləri sözlə candan çox vurdun,
Haqq səsinlə qəfəsmizi tez qırdın,
Mirzə Xəzər, çatdın qəlbdə gur ocaq,
Yoxluğuna ürəyimiz yanacaq.

Hara getdin, Vətən eşqin yaşatdın,
Düşmənlərə qələminlə daş atdın,
Dildən qopan haqq sözünlə yaşıtdın,
Radioda səsin səni sanacaq,
Yoxluğuna ürəyimiz yanacaq.

Yer üzünə Azərbaycan çağlatdın,
İblislərin yolun kəsdin, ağlatdın.
Harayınla yağı yolun bağlatdın,
Hər səsini eşidəndə sınacaq,
Yoxluğuna ürəyimiz yanacaq.

Sən Vətənə haqqı öyən dil idin,
Avropada şəri vuran əl idin,
Qürbətlərdə şan-şərəfli el idin,
Mühacirlik ürəyinə oldu dağ,
Yoxluğuna ürəyimiz yanacaq.

Boğulurdu nəfəsimiz, səsimiz,
Oynanırdı fitvalarla hissimiz,
Yazılmışdı şər əlində qəsdimiz,
Boyanmışdı çirkablara üstümüz,
O günlərdə sənin üzü oldu ağ...
Yoxluğuna ürəyimiz yanacaq.

Mirzə Xəzər, ölümündən sarsıldım,
Qara Yanvar ağrısından asıldım,
O günlərdən qopan vaya qısıldım,
Nə yaxşı ki, sən var idin, sən ancaq!...
Yoxluğuna ürəyimiz yanacaq.
Yoxluğuna ürəyimiz yanacaq.

02.02.2020

TÜKƏNMƏZ EŞQİ VAR

Bir parça ümiddir, bir loğma çörək,
Atadan, anadan əzizidir Vətən.
Onun sevdasına can atır ürək,
Tükənməz eşqi var, dənizdir Vətən.

O qanda sellənir, canda doğulur,
Onun əvəzini heç nə verməyir.
Vətənsiz qürbətdə kimlik boğulur,
Ayrılıq dərd verir, bir gün görməyir.

Vətənin qürbətdə bilinir yeri,
Ürəkdə qəm gəzir, dildə ah bitir.
Yadlaşır, əridir boşa illəri,
Varlığı yadların içində itir.

Könüldə gizlədir qərib hissini,
Yadlar qoltuğuna sığınıb qalır.
Özgə havasından dərib hissini,
Yadlaşır özünə, dağınıb qalır.

26.08.2020

DƏRDİN ÇƏKİLMƏZDİR

Vətən, dərdin çəkilməzdir,
Ölüm düşüm ayağına,
Ürəyimi paramparça
Bölüm, düşüm ayağına.

Şəhidlərin tabutlanır,
Bağır çökür, diz qatlanır,
Min bir yerdən qəlb çatlanır,
Qəm yazılır varağına.

İşğallarda ahar oldun,
Yağılara nahar oldun,
Bağrımızda qəhər oldun,
Qan ələndi çırağına.

Söylə, necə atəşkəsdi?
Hər addımı ölüm, nəhsdi!
Olan-qalan səbri kəsdi,
Bir boylan bax sol-sağına.

Talayanlar kef içində,
Hər addımı səhv içində,
Qəlb inləyir, dil neçində?
Alışıbdı söz ağına!

Bu zülümə son olarmı?,
İşğala min don olarmı?
Nicatına yön olarmı?
Ölüm olsun qoy yağına!

Əzdi səni yoldan ötən,
Yolunda çox ölüb-itən,
Dözək olmur, vallah, Vətən,
Hər gün şəhid sorağına?!

Şadimana öyüd eylə,
Öyüdünlə igid eylə,
Gəl məni son şəhid eylə,
Ölüm düşüm torpağına!!!

07.03.2020

SƏNSƏN VƏTƏN

Adın andımdı,
Yel qanadımdı,
Sönməz odumdu,
Ürəkdə bitən,
Can sənsən, Vətən.

Həyat işığım,
Könlə aşığım,
Qəlb yaraşığım,
Ruha bağlı tən,
Can sənsən, Vətən.

Ən xoş çağımda,
Qoşma, ağımda,
Duyğu bağımda,
Bülbültək ötən,
Can sənsən, Vətən.

Doldun ürəyə,
Qondun diləyə,
Taysan mələyə,
Çaşmasın yetən,
Can sənsən, Vətən.

Sən ümid yeri,
Qürurla yeri,
Ram et göy-yeri,
Parlasın qitən,
Can sənsən Vətən!

Yurd bəzək cana,
Azərbaycana,
Son qoy hicrana,
Boş həyəcana,
Çatsın xoş ana,
Sabahın, ertən,
Can sənsən, Vətən.

11.03.2020

VƏTƏNƏ QURBAN OLSUN

Vətənə qurban olsun tən içində canımız,
Çünki Vətəndir bizim, əzəl-son ünvanımız!

O ruhumuza beşik, dilimizin duası,
Ondan cilalanıbdır damarlarda qanımız.

Düşmənə tapdaq olsa, şərəfimiz alçalar,
Hörmətimiz sozalar, pozular səhmanımız.

Dilimiz qısa olar dost-düşmənin içində,
Haqqımız dərdə düşsə, yurd özü loğmanımız.

Vətən ata yuvamız, anamızın dilidir,
Yağı əlinə keçsə tapılmaz dərmanımız.

Özgə yurdda haçansa ömür sürə bilərik,
Həsrət çalxar ürəyi, qopar ah-amanımız.

Ata-ana ölümün pəncəsinə keçəndə
İtgiyə əcəl deyib baş əyir imanımız.

Torpaq itirəndəsə bədəndə can hönkürür,
Gecə-gündüz bağırır içdəki vicdanımız!

Namus-şərəf ölçüsü Vətənin çəkisində,
Onun adına bağlı həmişə ad-sanımız.

Vətənə qurban olsun tən içində canımız,
Çünki Vətəndir bizim, əzəl-son ünvanımız!

23.07.2020

GÜL EY ŞEYDA GÜLÜSTANIM

Gül ey şeyda gülüstanım,
Açıl bağın gözəl olsun.
Vətən adlı var cahanım,
Hər bir işi özəl olsun!

Səni candan sevməyənlər,
Kimliyini dansın gərək.
Tarixini səhv deyənlər,
Od tutuban yansın gərək.

Sən ruhumun məkanısan,
Ömür səndə dinclik tapır.
Sən can içrə eşq canısan,
Odur ruhum gənclik tapır.

Vətən, səndən doymaq olmur,
Dərya içrə dürr-incimsən.
Yad diyara uymaq olmur,
Dar məqamda sevincimsən.

Şəhidinin qanı lalə,
Bir bax açıb çöllərində.
Əz yağnı, çat vüsalə,
Toy-büsat qur ellərində!

Qarabağın işğal altda.
İnildəyir dağın, düzün.
Yurdlarımız bata-batda,
Qələbə çal, gülsün üzün!

İgidlərin savaş eşqi
Qəlblərində ocaq çatır.
Qalx, ruhunla eylə məşqi,
Düşmənin bəxtin yatır.

Çalacağın qələbənin
Sədasını çatdır elə.
Doğsun günəş, ötsün çənin,
Uğura get, düşsün dilə.

Vətən, savaş olsun niyyət,
Nəfəsimiz boğulmasın.
Elə qazan qalibiyyət,
Düşmən bir də doğulmasın!

10.08.2020

YALAN AYAQ TUTUB

Yalan ayaq tutub oynayır burda,
Onu alqışlayan əllər çəpikdə.
Kimi harda idi, oturub harda?
Kimi ayaq altda qalıb təpikdə.

Dildə hiylələrə plan qurulur,
Qanun yalanlardan asılı qalıb.
Dillər riyalara, sanki vurulur,
Həqiqət künclərə qısılı qalıb.

Maskalar taxılıb, sözlər boyalı,
Abırdan, həyadan dəm vurur hamı.
Batıbdı kiminin əhli-əyalı,
Kiminin bəxtindən fışqırır kamı!

Yerindən, yurdundan qaçanlar artıb,
Vətənin varlığı sözdə görünür.
Nəfsin qulları aləmi qatıb,
Çoxu yavanlığın tapmır, sürünür.

Kimi haram pulu göyə sovurur,
Kiminin daxması başına uçur.
Kimi ürəyində dərdi qovurur,
Kimi də zirvəni parayla qucur.

Tarazlıq pozulur haqq əyiləndə,
Hər işin gedişi olur baş-ayaq.
Günah axtarmadıq heç məndə, səndə,
Vurduq günümüzü başa bir sayaq.

Meydan sulayanda yalan ortada,
Ölkəni, milləti çökdürər nifaq.
Övladın xətası ana-atada,
Yalanla çatmayır başa ittifaq.

01.02.2020

ÖZÜMDƏ ÖZÜM GƏZİRƏM

ŞIDIRĞI YAĞIŞLAR YAĞIR

Könlümə şıdırğı yağışlar yağır,
Ürəyim boğulur, gözüm neyləsin?!
Zamanın yükü də olduqca ağır,
Üşüyən qəlbimə közüm neyləsin?!

Hamı öz havasın çalıb oynayır,
Dünya qazan kimi yenə qaynayır,
Başlar niskillərdən nə vaxt aynayır?
Dərdlərə qızaran üzüm neyləsin?

Ətrafda havalı baxışlar gəzir,
Cahan qan gölünə düşərək üzür,
Kainat bizləri qıyğacı süzür,
Aləmi yaxacaq izim neyləsin?

Başlar əyilibdi ruhlara doğru,
Yandırır içləri duyduqca ağrı,
Açıb göstərmək də olmayır bağrı,
Misraya ah deyən sözüm neyləsin?

Əzablar içində çox var-gəl etdim,
Bə`zən müsibətin özünü ötdüm,
Çalışıb-vuruşub diləyə yetdim,
Yorulub bükülən dizim neyləsin?

Şadiman ruhuna çox qınaq etdi,
Ömrünü qəlbinə bir sınaq etdi,
Haqq qapısı açıq, gələni getdi,
Ayağa enməyən əzm neyləsin?

22.12.2016

YENİ İL

Yeni il, son ola qana, qirğına,
Ağıl sahibiyik, axı insanız.
Kimsə tuş olmasın sinə dağına,
Qapılar döyülsün xeyirə yalnız,

Hamının üzündən gülüş boylansın,
Bütün üzüntülər arxada qalsın.
Şərə rəvac verən qana boyansın,
Tanrı ürəklərə mərhəmət salsın…

31.12.2016

HAQQI YAZAN

Haqdan deyib haqqı yazan,
Mənliyinə salam olsun.
Həqiqətə quyu qazan
Sənə dünya haram olsun!!!

19.02.2017

İŞIĞIMIZ SOZALMASIN

Həyat hər kəsə işıqdı,
İşığımız sozalmasın,
Sevmək könlə yaraşıqdı,
Ürəklərdən azalmasın.

Öc verməyək qaranlığa.
Can atmayaq viranlığa,
Eşq lazımdır insanlığa,
Nifrət qəlbləri almasın.

Bir-birinə can deyəyin,
Köklənsin ülfətə beyin,
Zinətiyik yerin-göyün,
Can yürüməkdən qalmasın.

Tələsməyək ölümmüzə,
Şəkər qataq dilimizə,
İşıq saçaq könlümüzə,
Qəm orda yuva salmasın.

Sevgimiz dərdə enməsin,
Dil dediyindən dönməsin,
Həyat şamımız sönməsin,
Zamandan dala qalmasın.

Arzumuza açar olaq,
Amalımızla car olaq,
Ömürlə birgə var olaq,
Heç kəs vaxtsız qocalmasın!

Şadimanın ruhu çıraq,
Aləmlərdən veirir soraq,
Sözə qucaq açır varaq,
Ruhum necə ucalmasın?!

01.04.2017

UÇUB GEDƏN GƏNCLİYİM

Səni qaytarmağa eh böylə bir həvəsim yox.
Səni xatırlayanda təngişir nəfəsim çox.
Səni tutub saxlayan ilahi qəfəsim yox,
Cəhd eləmə xatirən bolluğunda inciyim,
Həyatımdan əbədi uçub gedən gəncliyim.

O tənha gecələrin təkliyində itmisən,
İllər öncə ömrümün günlərindən getmisən,
Tale dolaylarında qazancına yetmisən,
Yorğun düşdüm yolunda, heç olmadı dincliyim,
Həyatımdan əbədi uçub gedən gəncliyim.

04.08.2017

FACEBOOK

Fcebook günümüzdü,
Səsimiz, ünümüzdü.
Canı üzən qeybətlər,
yaman-yaxşı söhbətlər...
Kimliyi bəlli edir...
Virtuala gün gedir...
Xəstəsi olan burda,
Ürəyi talan burda.
Ad günü, toy büsatlar.
Dəbdəbəli həyatlar...
Mesaj mesaja bağlı,
Olub həyat nağılı..
Küsən kim, barışan kim,
Lap həddini aşan kim...
Ölüsün ağlayanlar
Ürəyi dağlayanlar.
Reallıqdan qopanlar,
Özün burda tapanlar,
Can deyir, can eşidir,
Bu da Markın işidir!...

25.04.2017

ARASINDA QALMIŞAM

Həynən yoxun arasında qalmışam,
Hə deyəndə yox ağlayır içimdə.
Min bir dərdin sorağını almışam,
Könlüm dolub, ah ağlayır içimdə.

Yenə ürək yaz buluda dəm tutur,
Gözlər dolur kirpiyimi nəm tutur,
Hissim coşub ağlı-huşu kəm tutur,
Söz körpətək çox ağlayır içimdə.

Haqsızlığı dolu təki vuran yox,
Məzlum batır, arxasında duran yox,
Yazıq dilim, yaltaqlıqla aran yox,
Kaman sınıb ox ağlayır içimdə.

17.05.2017

YOXDU HAMAR HƏYAT

Yoxdu hamar həyat, ağrısız insan,
Çox vaxt ağıl bizi səhvdən qurtarır.
Dünyada nə var ki, adama asan?
Ömür çəkib bizi sona aparır.

Fikirlər qolların sallayıb durur,
Dil gah hissə gülür, gah da ağıla.
İnsan arzularla zamanın qurur,
Addımın atanda tuş gəlir dağla.

Hamı haqlı sayır özün dünyada,
Haqqı dar ağacı gözləyir hər gün.
Arzunun sevincin dadan röyada,
Yapışır ümidlə anlara gərgin.

Xiffəti içinə kökləyirik biz,
Günlər boynubükük yola düzülür.
Bir anın fərəhin umur qəlbimiz,
Bə`zən bir anın da bağrı üzülür.

Biz də öz kökünün üstündə bitən
Ağactək qol-budaq açıb gedirik.
Az adam tapılar haqqına yetən,
Ömür qanadında uçub gedirik.

Yoxdu hamar həyat, ağrısız insan,
Hər kəz öz-özünü yaxşı tanıyır.
Biri günahına can verir ehsan,
Biri də günahla ömrün sınayır.

08.06.2017

BİR ÖMÜRDÜR

Bir ömürdür yol gedirəm,
Günlərim keçilib gedir...
Damla-damla yaşam suyu
Nə vaxtdı içilib gedir.

Dərya dərdimə baş vurdum,
Ürəkdən gözə yaş vurdum,
Sözlə ağzıma daş vurdum,
Misrama biçilib gedir.

Haqq tərəzim öz işində,
Ağrımı əzir dişində,
Zaman da düz gedişində,
Ruhuma ölçülüb gedir.

Dünya hər kəsin yuvası,
Başında həsrət havası,
Hamıya yetmir duası,
Kim isə seçilib gedir.

22.05.2017

GƏL İÇƏRİ DOĞUM GÜNÜM

Ötüb keçən günlərimi üyütmüşəm,
Ağrıları yaşımdan çox böyütmüşəm
Ötənlərə canın özün şam etmişəm,
Sükutunu geyinmişəm, yoxdu ünüm,
Qapım açıq, gəl içəri doğum günüm...

Bir az kövrək, bir az şıltaq uşağam mən,
Könül telim himə bəndi, aşığam mən,
Ötüb keçən illərimə işığam mən,
Gəlişinə dolu təki yağım günüm,
Qapım açıq, gəl içəri doğum günüm...

Ayaqlarım yorğun düşüb zamanına,
Bir ömürdü sığınıram imkanına,
Məni atdın dünya adlı məkanına,
Acıların zirvə dələn dağım günüm,
Qapım açıq, gəl içəri doğum günüm...

Zaman qovur, qaça-qaçda ömür ilə,
Kainatdan qopub gələn əmir ilə,
Calayıram Tanrı verən ili-ilə,
Yavaş-yavaş solur bağçam, bağım günüm,
Qapım açıq, gəl içəri doğum günüm...

Sevməyənlər sevənimdən çox olubdu,
Bə`zən ruhum qopub candan yox olubdu,
Ətrafımın dərdi cana ox olubdu,
Gecələrdə qalxıb ərşə ağım günüm,
Qapım açıq, gəl içəri doğum günüm...

Çəkdiyimi qulağına oxuyacam,
Dərdlərimdən sənə xalı toxuyacam,
Sən pıçılda, hənirtini mən duyacam,
Gah fərəhdi, gah kədərdi çağım günüm,
Qapım açıq, gəl içəri doğum günüm...

Şadimanın hönkürtüsü dolu təki,
Varmı çətin, söylə, ömür yolu təki?!
Gir içəri, sən gələsən hər il təki...
Payızüzlüm, tök çiçəyi, yığım günüm,
Qapım açıq, gəl içəri doğum günüm...
Qapım açıq, gəl içəri doğum günüm...

02.09.2017

NƏ QANIRSAN

Qafiyəyə dodaq büzən
Qafiyəni nə qanırsan?!
İçində ilhamın yoxdu,
Özünü şair sanırsan.

Kopyələyib qərb şeirini,
Sanma ki, nəsə yaratdın.
Düşünmə ötdün dərini
Söz belinə şələ çatdın.

Şeirin ahəngi olar,
Bulaqtək qaynayıb çıxar.
Hava təki könlə dolar,
Çay təki qıvrılıb axar.

Yazaram, deyən yekəbaş,
Ədəbiyyat nə qanırsan?!
Şeirdən eyləmə daşbaş,
Özünü zorba sanırsan?!

Sözün başından yekədi,
Nə ruhun var, nə kimliyin!
Adın millətə ləkədi,
Yadlara quldu mənliyin!

18.10.2017

HƏR GÜNÜM

Hər günüm zamanın qismət əlidir,
Başımı tumarlar ruha yar kimi.
İlləri ömrümün ötən dilidir,
Bülbülü çağlayan xoş bahar kimi.

Anları zərgərtək vaxta calayır,
Vaxt da sükutuma bürünüb gedir.
İçimdə məzarın qurdu ulayır,
Canım arxasınca sürünüb gedir.

26.08.2020

"NİSYƏ DƏFTƏRİ"

Sənə üz tutanlar artır günbəgün,
Millətin əlacı "nisyə dəftəri".
Açılmır atılan bəxtlərə düyün,
Sağ saxlarsan acı, "nisyə dəftəri".

Banklardan asılan ciblər soyulur,
Gözlər buludlayır, qəlblər oyulur,
Ölən ümidlərə imza qoyulur,
Qəlbə düşən sancı "nisyə dəftəri".

Gecə yuxulara gələrsən qəfil,
Şeytan qəhqəhəylə gülərsən qəfil,
Acından ölənlə ölərsən qəfil,
Kasıbın amacı "nisyə dəftəri".

Saralıb solarsan piştaxta üstə,
Qiymətlər artıqca ey pula xəstə,
Utanmaz-utanmaz durarsan qəsdə,
Sən özün dərd ucu "nisyə dəftəri".

Kasıb da həyadan saralıb solar,
Gurşadtək hönkürər, buludtək dolar,
Çırpınar, vurnuxar çarəsiz qalar,
Qovurar qəm sacı "nisyə dəftəri".

Hər kəs doğulandan ömürə bağlı,
Ehtiyac güc gələr sümürər ağlı,
Bugünkü həyatın real nağılı,
Ölkənin baş tacı "nisyə dəftəri".

Şadiman dilini tutmaz ağızda,
Qəlbi haray çəkər min bir avazda,
Hönkürər dövranın dərdi kağızda,
Getməz qəlbdən acı "nisyə dəftəri".

15.01.2018

DOSTA MƏKTUB

Nə var, nə yox oralarda,
Dostum, əhvalın necədir?!
Ruhum batır buralarda,
İnan, gündüzüm gecədir!

Nankorlar yıxdı könlümü,
Ürəyim yara bağlayıb.
Küncləre sıxdı könlümü,
Bəxtimi dərd duvaqlayıb.

Telefon, mobil, qapı zəngi,
Eşidəndə titrəyirəm.
Pozulubdu can ahəngi,
Qəm soyunub, dərd geyirəm.

Hıçqırıram taleyimə,
Göz yaşım içimə axır.
Batmışam can gileyimə,
Dərdlərimə yoxmu axır?!

Etdiyim səhv yağım olub,
Qaçmağa yer axtarıram.
Düşmənlər sol-sağım olub,
Dərd əyirib, ah sarıram.

Bu yaz mənə heç düşmədi,
Ömrümlə çox əlləşirəm.
Xasiyyətim dəyişmədi,
İndi canla güləşirəm.

Dostum, bilsən çəkdiyimi,
Dözməyib özün çəkərsən.
Gözlərimdən tökdüyümü
Göz yaşı yox, qan görərsən.

Ağaclar ağ libas geyib,
Mənsə qara bağlayıram.

Ürəyim ahdan yas geyib,
Taleyimə ağlayıram...

Evim zindan öz gözümdə,
Sıxır məni qapı-baca.
Sevinc yox olub üzümdə,
Güman qalmayıb əlaca.

Dərdlərimi bir-bir yazdım,
Yazdığımı üzürlü say.
Kor bəxtimə qəbir qazdım,
Ruhum gedib hüzürlü say.

Şadiman bir dərd köşəsi,
Can batırıb, ruhu gəzir.
Talanıbdı qəlb guşəsi,
Ölməyimə düşür nəzir.

Nə var, nə yox oralarda,
Dostum, əhvalın necədir?!
Ruhum batır buralarda,
İnan, gündüzüm gecədir!

01.05.2018

İLİN UZUN GECƏSİ

İlin uzun gecəsi döyür yenə qapını,
Pəncərənin şüşəsi tər tökür puçur-puçur.
Silkələyir bərk külək çöldən alaqapını,
Ağac alta tökülən xəzanlar göyə uçur.

Yarpaqlar titrəşirlər mənim ürəyim təki,
Mən dünyadan köçəcəm hansı fəsildə bilməm?!
Mısralar pıçıldayır vücudda heyim təki,
Ömrümün sonu yetər bəs hansı ildə bilməm?!

Bu suallar içində canla söhbət edirəm,
Canım sükut içində üzümə durub baxır.
Yaşadığım günlərlə lap ədavət edirəm,
Ötənlər bir kinotək qəlbi yandırıb yaxır.

Vücudumda ikilik çarpışır nə zamandı,
Bir-biriylə dil tapıb dolana bilməyirlər.
Biri şərin sahibi, o birisə imandı,
Heç zaman bir araya heç gələ bilməyirlər.

Niyə iki yaratdı bizi ilkdə Yaradan?!
İçimizdə ikilik daim çarpışmadadı.
Bir can verib Tanrımız, o da hər an qəm udan,
İlahi ətəyindən bərk-bərk yapışmadadı.

Əsən küləklərəmi qoşulmaq istəyirsən,
Ey içimdə mənimlə daim didişən canım?!
Pıçıltıyla qulağa söylə nəyi deyirsən?
Tutur qulaqlarımı baş döyən həyəcanım...

Qışın uzun gecəsi lal sükuta bürünür,
Göylərin dumanından başına örtük örtüb.
Ömrümün arxasınca bir canım var, sürünür,
Dünyanın qan-qadası qanadlarını ütüb.

Şadimanı ikilik ağrısında yoğuran,
Kündələyib ömrümü yapdı zaman təndirə.

İçimdə bir Qurdum var gecə-gündüz bağıran,
Qopub çıxa vücuddan məni göyə endirə...
21.12.2018

BU GÜN SƏNİN DOĞUM GÜNÜN

Gülmüsəyir sabah mənə,
Küləklərlə gəlir ünün.
Küsməyi atdım dünənə,
Bu gün sənin doğum günün.

Sözləri düzdüm kağıza,
Adını saldım ağıza,
Qoyma könlüm qəmdə aza,
Bu gün sənin doğum günün.

Sevda dolu bir gün gəlir,
Gülüşün, şuxluğun gəlir,
Deyirlər şadlığın gəlir,
Bu gün sənin doğum günün.

Aç gözünü batım qalım,
Bəbəyində yatım qalım,
Eşqi ora atım qalım,
Bu gün sənin doğum günün.

Qoy başına dönüm sənin,
Ürəyinə enim sənin,
Həsrətini yenim sənin,
Bu gün sənin doğum günün.

Şadimandan söz ərmağan,
Atəş ilə könlə yağan,
Həsrətlərdə məni boğan,
Bu gün sənin doğum günün.
Bu gün sənin doğum günün.
04.08.2018

AY ƏZAZİL QAYNANA

Ay əzazil qaynana,
Girmə yar arasına.
Ol gəlinə pak ana,
Deyinmə qarasına.

Oğlun ailə qurub,
Ailə kiçik dövlətdi.
Gəlinlə ara vurub
Ev yıxmaq nə adətdi?!

Analıq məhəbbətin
gəlinə də aşıla.
Kin dolu can səbətin,
Oynama gözlə, qaşla.

Gəlinin ağlı kəsmir,
Sən dünyanı görmüsən.
Hardan gəlibdi əmir,
Üzünü bürümüsən?!

Evə dığdığı salıb,
Əri, oğlu bezdirmə.
İçinə hiylə alıb
İllər ilə gəzdürmə...

Sən idin bu gəlinə
Üzük taxıb, toy edən,
Keçib fürsət əlinə,
Ey ailəni vay edən!

Kişilər dedi-qodu,
Söz-söhbəti sevmirlər.
Sönsün kininin odu,
Artıq evə gəlmirlər...

Şər atıb gəlininə
Salma onu dil-dişə.

Bal qat zəhər dilinə,
Çevir onu vərdişə.

Can deməklə gəlinə
Canın əskilməyəcək,
Əlini ver əlinə,
Canına can deyəcək.

Axı sən də bir zaman
gəlin oldun, unutma!
Dili etmə ox-kaman,
Kin-küdurət yaratma.

Sənə edilənləri
Gəlinə tətbiq etmə.
Vur başa xoş günləri,
Dünyadan kinlə getmə.

Ay əzazil qaynana,
Gəlnini öz qızın bil.
Ol ona doğma ana,
Onu könül arzun bil.

Gəlinə ana olan
Qaynanalar var olsun.
Olmasın qəlblər talan,
Candan sevən yar olsun!

Ey Şadiman, qaynana,
Elə ana deməkdir!
Dünyada qalan ona,
Ömür yükün çəkməkdir...

06.02.2019

TELEFONDAN YAPIŞAN GƏLİN

Mobil telefondan yapışan gəlin,
Evində iş-gücün tökülüb qalıb.
Qeybətlə, yalanla çarpışan gəlin,
Qəlbin talan olub, sökülüb qalıb.

Mətbəxdə qab-qacaq yuyulmayıbdı,
Beşikdə körpən də haray qoparır.
Qonum- qonşulardan, Vallah ayıbdı,
Telefon azarın səni aparır.

Qazanın nahara xörək gözləyir,
Bir azdan gələcək ərini düşün.
Səni sevgi dolu ürək gözləyir...
Ayıl, özünə gəl, dərini düşün!

Hazırla biş-düşü, üzə sığal ver,
Əyninə ən yaxşı donunu geyin.
Ərin gələn kimi göstər başda yer,
Sonra deyə-gülə olandan yeyin.

Evin dərdi-sərin tökmə üstünə,
Dodaqdan gülüşün əskilməsin heç.
Qurduğun həyatın durma qəsdinə,
Süfrəndən bərəkət kəsilməsin heç.

Körpə balalara insanlıq aşla,
Analıq adınla aləmə nur ol.
İçindən boylanan şeytanı daşla,
Xəyanət tapmasın qoy ailənə yol...

Mobil telefondan yapışan gəlin,
Telefon azarın sağaltmaq olmur.
Hər dedi-qoduyla çarpışan gəlin,
Sonra pis vərdişə heç batmaq olmur.

Qaynata, qaynana əzizin olsun,
Onlara hörməti heç vaxt unutma.

Ərin, balaların sağ gözün olsun,
Ev söz-söhbətinə qonşunu qatma...

Baldızın, qayının varsa, əziz tut,
Bil ki, öz yarının doğmalarıdı.
Ruhunu, qəlbini daim təmiz tut,
Etdiyin nədirsə o qalarıdı...

Sən başqa bir evə ocaq gəlmisən,
Qoyma o ocağın közü azalsın.
Sevdiyin oğlana çıraq gəlmisən,
Qoyma vaxtsız çöküb, vaxtsız qocalsın.

Unutmaq çətindir ata evini,
Amma doğma yuvan köçdüyün evdir.
Qoyma şər-şeytanlar tuta evini,
Bu ev, eşq andını içdiyin evdir!

Mobil telefondan yapışan gəlin,
Ərin mobil deyil, yekə kişidi!
Kimliyin unudub həddi aşan gəlin,
Boşasa, demə ki, tale işidi!...

Nə bir təhsilin var, nə bir sənətin,
Ərə getməyini önə çəkmisən.
Getdiyin aylədə xoşsa niyyətin,
Demək yar könlündə güllər əkmisən.

Sən bu Şadimanı qınama, gəlin,
Demə ki, söz əhli boşboğaz olur.
Mobil telefondan vaz keçsin əlin,
Bil, bədbəxt olanda doğma az olur...

06.02.2019

ATAM EVİ

Atam evi, səni daha dəyişmişəm həsrətlərə,
Qürbət kimi görünürsən neçə ildi gözlərimə.
Gedib gələn yollarımda nə vaxtdır ki, ot göyərib,
Bulud-bulud hönkürürlər xatirələr izlərimə.

Uşaqlığın xoş sədası qulağımda bitib qalıb,
Tez-tez küsüb barışmağım yaddaşımdan getmib hələ.
Ata-ana məhəbbəti xəyalımda yatıb qalıb,
Ötənlərin şirinliyi göz önümdən ötmüb hələ.

Atam evi, yadımdadı ötənlərin xatirəsi,
Özün kimi qərib olub əzizlərin indi mənə.
Qulağıma pıçıldayan gilavarın həzin səsi,
Ürəyimin həsrətini söyləyirmi hər gün sənə?!

Qoşa çinar çəpərlərin o tayından boylanırmı?
Şor bulağın üstün ələf, ot basıbmı nə zamandı?
Qız-gəlinlər dövrəsində halay çəkib haylanırmı?!
Xatirələr ocaq çatıb, içim dolu ah-amandı.

Atam evi, kəndarından xəyallarım durub baxır,
Atam, anam məzarlıqda neçə ildi uyuyurlar...
İçimdəki həsrət yükü göz yaşına dönüb axır,
Lap ağlımın dərinində xatirələr ah duyurlar...

Daha anam həsrət ilə yollarıma boylanmayır,
Dildən qopan xoş kəlməsi qulağımda donub qalıb.
Atam qızım deyib mənə ətrafımda haylanmayır,
O atalıq eşqi ilə ürəyimə qonub qalıb...

Atam evi, sən qızları yolladın yad ocaqlara,
Qızlar daim həsrət çəkər doğma ata yuvasına...
Xatirəmi dibçək kimi bəsləmişəm o çağlara,
İndi necə sussuzam mən gül anamın duasına...

Eyvah, ora mən gedəndə yetimliyi hiss edirəm,
Ata-ana yerin vermir indi orda dolaşanlar...

Sanki düşüb qürbətlərə ürəyimə qəsd edirəm,
Deyirlər ki, qəriblikdə uzun çəkir ötən anlar...

Atam evi, daha səni xəyallarda yaşadıram,
Xəyallarım bə`zən məni yuxularla görüşdürür.
Atam, anam yada düşür qəhərlənib qəm uduram,
Əminəm ki, ön planda onlar ilə görüş durur...

Tağayımın daş-torpağı həyatımın məhək daşı,
El-obamın çıraqları gecələrə nur ələsin.
Nisgilinin çiskinidi gözlərimin hicran yaşı,
Ruhum uçub gəlsin ora, içimdəki can mələsin...

Atam evi, Şadimanın həsrətinlə qol-boyundu,
Ocağının odu-közü nəsil-nəsil şölələnsin.
Doğulandan bu günədək İlahiyə can boyundu,
Bərəkətin tükənməsin, qoy süfrənə bol ələnsin!...

06.02.2019

HƏYATA GÜLMÜSƏYİN

Həyata gülmüsəyin, o da sizi sevəcək,
Könlünüzə eşq dolu sevdasın gətirəcək.
İçinizə bir ömür duyğuları düzəcək,
Qəlbinizdə təzə-tər fidanlar bitirəcək.

Böyüdükcə fidanlar arzuları doğacaq,
Arzular körpə kimi boy atıb yetişəcək.
İçdə ömür eşqiylə çatdığınız hər ocaq,
Günəşin atəşilə hər zaman ötüşəcək.

Həyata gülmüsəyin, diləklər şaxələnsin,
Arzular qoşa-qoşa könül qapısın döysün.
Üzünüzə sabahın qoy nurları ələnsin,
Ömrünüzün hər günü ağlınızla öyünsün.

06.02.2019

YORMA MƏNİ, EY HƏYAT

Mən səni kürəyimdə daşıyıram nə vaxtdı,
Bir az insafın olsun, yorma məni, ey həyat.
Hər günü əmrinlə yaşayıram nə vaxtdı,
Bir gün çəkilsəm göyə, sorma məni, ey həyat!

Çıxdığım zirvələrin başına qar ələnir,
Ürəyim bəyazlığın saflığına bələnir,
Kimin isə gözləri ovladımı belə nur?!
Nurundan kama çəkdim, qırma məni, ey həyat.

Görürsən ki, içimdə fırtınalar dolaşır,
Eniş-yoxuş bilmədən hər günümlə yollaşır,
Zaman üzün turşudur, könlümə qəm bulaşır,
Acı qəhqəhələrlə sarma məni, ey həyat.

Ömür tale kəndirin boğazıma keçirir,
Göz yaşını şərabtək hər gün mənə içirir,
Qazandığım fərəhi zəmi təki biçirir,
Onunla dilbir olub, vurma məni, ey həyat.

Şadimanı acizmi sanıb düşdün üstünə?
Çatdığın ocaq bəlli, bəs burulan tüstü nə?
Tüfənginin səsinə durub gəldim üstünə
Yaraladı min yerdən, qırma məni, ey həyat!...

17.02.2019

ZAMAN HƏR ŞEYİ HƏLL EDİR

Darılma bugünki günə,
Ömür düşür yas-düyünə,
Vaxtı geyinir əyinə,
Diləklərimiz zil edir,
Zaman hər şeyi həll edir.

Göz də işıqdan su içir,
Ürək yaşamçın can seçir,
Yaxşı-yaman ömür keçir,

Günü uzadıb il edir,
Zaman hər şeyi həll edir.

Gün həyatın xəbərçisi,
Ağıl ümidin elçisi,
Tanrı ruhun bilicisi,
Vaxtın qanadın yel edir,
Zaman hər şeyi həll edir.

Ömür deyil özbaşına,
Tale biçilib yaşına,
Hər kəs vicdandan yaşına,
Yaşınmasa göz sel edir,
Zaman hər şeyi həll edir.

Doğruya biç amalını,
Günəş sayma camalını,
Ağlından keçir halını,
Diləklər könlə əl edir,
Zaman hər şeyi həll edir.

Bir içim sudu ömrümüz,
Batıb çıxır səs-səmrimiz,
Allah əlində əmrimiz,
Qəlbdə arzumuz gül edir,
Zaman hər şeyi həll edir.

Şadimanı sanmın naçar,
Bir canı var haqqa düçar,
Yığışıb dünyadan qaçar,
İlahi ona gəl edir...
Zaman hər şeyi həll edir.
Zaman hər şeyi həll edir...

20.05.2019

QƏLBİNİ BULAŞDIRMISAN

Qəlbini tozlara bulaşdırmısan,
Qoruya bilmirsən ürək neyləsin?!
İçinə ağrılar suvaşdırmısan,
Ağrını bəsləyən kələk neyləsin?!

Əzabı çəkirsən özünə sarı,
Zamanı doyduran ömürün darı,
Dünyanın əlində dünyanın varı,
Tamaha güc verən dilək neyləsin?!

Yıxıb sürüyürsən sözünü hər gün,
Nahaq sovurursan közünü hər gün,
Dayan, güzgüdə gör özünü hər gün,
Ömrünü ələyən ələk neyləsin?!

Hər gülə eşq edən kəpənək olma,
Əllərə keçəcək dəyənək olma,
Dəryayla çarpışan siyənək olma,
Qapıb daşa çırpan külək neyləsin?!

Sözünə yiyə çıx, özünə ağa,
Çalış həyatına halal gün doğa,
Qocalan vaxtında gedəndə yorğa,
Dilində qopacaq neylək neyləsin?!

Ağıl da insana pulla verilmir,
Bağçada bitməyir əllə dərilmir,
Xonçatək bəzənib önə sərilmir,
Başda olmayana fələk neyləsin?!

Şadiman sözünü söylədi kəsə,
Sağ ikən ruhunu salma qəfəsə,
Gələndə pis gözə, düşəndə nəsə,
Çiynindən boylanan mələk neyləsin?!

26.05.2019

HƏYAT GÜLÜR

Bahar gəlir, üzlər gülür,
Göydən yerə nur tökülür,
Aləmdə ki, büsat gülür,
Hər dərdin beli bükülür.

Göz işıqdan nübar alır,
Göydə günəş, yerdə həyat.
Xöşbəxtlikdən sevinc qalır,
Bir məlhəmdir dərdə həyat.

Acılara eşq etməyək,
Eşq ürəyi yaşatmaqçın.
Ömrümüzlə məşq etməyək
Ağrımızı oyatmaqçın.

Gün qovuşur sabahlara,
Sabahımız xoş açılsın.
Son qoyağın günahlara,
Şərin evi qoy uçulsun!

Həyat gülür, ey adamlar,
Gülüşlərə sığal çəkək.
Baş qaldırsın qəlbdən kamlar,
Bir-birinin əlin öpək.

26.05.2019

SEHİRİ VAR

Sükutumun sehiri var aləmdə,
Həm mən ona, həm o mənə möhtacdır.
İdrakımın izi gəzir naləmdə,
Doğulandan o ruhuma əlacdır.

Yaşam eşqi tükənəndə diksinir,
İçdən qopan harayıma bürünür.
Canın özü sükutumla isinir,
Hərdən gözə mələk kimi görünür.

27.08.2020

QAMIŞ EVİM

Qamış evim, sətirlərim boylanırlar künc-bucaqdan,
Misralarım şiddət edir, kasıb-köhnə dar ocaqdan.

Dəyişmərəm səni heç vaxt göz oxşayan villalara,
Yerə-göyə sığışmayan şair hara, villa hara?!

Sən ki, mənim uçuq-sökük, söz qoxuyan sarayımsan,
İki dünya padışahı içdən qopan harayımsan.

Künc-bucağı siçan qoxan divarların ağı deyir,
Divarının o tayında qonşu özün yaman öyür...

Qazandığım misralarım, bəndlər üstə haray salır,
Dörd divarlar arasında sözlər məni satın-alır.

Bapbalaca güllü bağçam səhər-səhər oxşar məni,
Misraların sehirinə yavaş-yavaş qoşar məni.

Qamış evim, səndə keçdi saf ömrümün şeiriyyəti,
Boş divarlar ovsunladı səhər-axşam zehniyyəti.

İçimdə ki, ağrılarım qopdu düşdü söz üstünə,
Otağında ocaq çatdım, çəkdim səni köz üstünə.

Səninlə mən səhərədək pıçıllaşdıq sakit-səssiz,
Şeirlərin axarından divarında boylandı iz.

O izləri daşıyırsan tavanında illər ilə,
Mən də səni tumarlayıb oxşamışam əllər ilə.

Sən də mənə keçmişdəki sakinləri nəql etmisən,
Məni də öz qismətinə götürməkdə əql etmisən.

Nəfəsim var divarının, kağızının rəsimində,
Sənin adın həkk olunub dopdoğmaca isimimdə.

Su keçirən tavanında illərimin əksi qalıb,
Uçub getsəm buralardan xoş təbimin köksü qalıb.

Döşəməndə, tavanında gəzişəcək ruhum mənim,
Hasarında dolaşacaq həsrət dolu ahım mənim.

Qamış evim, göz yaşıma, həsrətimə bulaşmısan,
Mənimlə bir yeri-göyü səyyah kimi dolaşmısan.

Gözlərimdən uçub gedən yuxulara çıraq oldun,
Vərəqləri söz oxlayan gecələrə soraq oldun.

Kitab-kitab qalandıqca söz üstünə şeirlərim,
Divarlardan boylandılar həyat dolu seyirlərim.

Qamış evim, ovqatıma köklənmisən nə müddətdi,
Səni mənə hücrə edən şan-şöhrət yox, ülviyyətdi.

Hasarımın o tayından görünməyir boyun sənin,
Sözlərimə qucaq açan, qəlb titrədən oyun sənin.

Gizləyirsən künc-bucaqda ötənlərin sirrin, sözün,
Sığındığım məkanımsan axır könlə odun, közün.

Qamış evim, həyatımın məhək daşı oldun mənə,
Kitabıma sehirləyən can sirdaşı oldun mənə.

Zəhmətimin, əməyimin qazancısan köhnə komam,
Yaratdığım müsbət-mənfi surətlərə səhnə komam.

Səndən necə əli üzüm?! Çıxım gedim buralardan...
Həsrət qəlbə tikan olar, qəlb sağalmaz yaralardan.

Bu küçənin adamları ruhuma yad olsalar da,
Nəzərimdən, diqqətimdən çox kənarda qalsalar da,

Eyni yolu paylaşmışıq, addımımız qoşalaşıb,
Onlar mənə yad ünsürlər, yuvan canda doğmalaşıb.

Arvadların küçə boyu deyişməsi qulaqdadı,
Uşaqların qışğırığı, söyüşməsi qulaqdadı.

Amma sənin sükut dolu divarların çəkir məni,
Hönkürtüyə dönür həyat, girib içə sökür məni.

Burda həyat yoldaşımla doğma, isti günlərim var...
Kağızlarla üsyan edən cana yaxın hünərim var.

Uçuq-sökük divarlara çəkdiyimiz zəhmətimiz,
Bir-birinə illər boyu boy göstərən hörmətimiz.

Qamış evim, bilmirsənmi ayrılığın fəsadın sən?!
Sözlərimi ovqatında cərgələyən ustadı sən.

Şadimanın can bir olub sığındığı yuvasısan,
Dodağından asimana ismarlanmış duasısan.

Yuvam mənim, ayrılığa ürcah olsam bir gün əgər,
Məkanında yazdıqlarım kitablarda özün öyər.

Könül açan sakinintək xatirənə köçürt məni,
Sözlərimə göyərçin et, səmalara uçurt məni.

08.07.2019

BU KÜÇƏNİN QADINLARI

Bu küçənin qadınları sığmayır heç bir kağıza,
Qələmim də aciz qalır etdiklərin durub yaza.

Hər gün qapılar ağzına yığışarlar pıça-pıçla,
Qeybətləri qulaq yırtar, ev dağıdar qaça-qaçla.

Evlərində iş-gücləri, kirli-çirkli pal-paltarlar,
Saatlarla qapıların ağzına hey can atarlar.

Uşaqları dolaşarlar isti-soyuq küçələrdə,
Gündüz hələ az eyləyər, yığışarlar gecələr də.

Ağızlarda saqqızları, köpük atar dodaqları,
Yuyulmayar qab-qaşıqlar, çirkli qalar otaqları.

Qazanları ocaqlara qoymağı da unudarlar,
Kişiləri qadınlardan hikkələnib qan udarlar.

Hələ mobil telefonlar düşməyir heç əllərindən,
Ərləriylə keçirdiyi gecə düşməz dillərindən...

Bu küçənin qadınları ev yıxmağa həvəslidi,
Bir-birinin taleyinə xor baxmağa həvəslidi.

Bə`zən olur qaqqıltılar küçə boyu dingildəyir,
İtlər qorxub zəncirində bir nəfəsə zingildəyir.

Ərlər çapır işə-gücə, azadlığa çıxır onlar,
Bir-birinin həyatını iftirayla yıxır onlar.

Bu küçənin qadınları başdan-başa mərəkədi,
Günahları başdan aşır, adlarına bir ləkədi!

Seryallara vurğundurlar, özləri lap serialdı,
Zənn edirlər qeybətləri ağzılarda nabat, baldı.

Yaşları az olsa belə küpəgirən qarıdılar,
Ömrü boyu yamanlığı bəxtlərinə sarıdılar.

Doğduqları övladlar da toz-torpaqda böyüyürlər,
O körpəcə talelərin dallarıyca sürüyürlər.

Daş atarlar onun-bunun bostanına min həfəslə,
Hərdən-birdən söyüşərlər, vuruşarlar iyrənc səslə.

Bu küçənin qadınları yığışmırlar ev-eşiyə,
Özləri lap cəhənnəmə gün vermirlər heç kişiyə...

Deməyin ki, bu Şadiman qadınlara hiddət edir,
Yazdıqları misralarla onlara çox şiddət edir.

Qələm haqqı, gördüyümü misralara gətirdim mən,
Bu kiçikcik hekayəni bu minvalla yetirdim mən.

Əlbəttə ki, qadın ana, qadın evin bəzəyidir,
İnsanlığın yaranışdan, baş-binadan özəyidir.

Mən qadınam, qadınlığı uca görmək istəyirəm,
Ona gələn yamanlığın yolun gərmək istəyirəm!

Qadınların dillərində elm-bilik aşıb daşsın,
Ana adı təhsil ilə ömrü boyu qoşalaşsın!

Analardır uşaqların taleyinə çıraq olan,
Dillərində çağlamasın, ömrü boyu, qeybət, filan.

Zərif məhluq, gəl ucaldaq zaman-zaman qadınlığı,
Bürüməsin çirkablara məkir, yalan qadınlığı.

Ağlımızı, şüurmuzu hislər ilə aldatmayaq,
Qadınlığın əl çatmayan ucalığın unutmayaq.

08.07.2019

HİCRAN ODUNA

Üşüdüm hicran oduna,
Avazım qışa tutuldu.
Doğuldum insan adına,
Gözlərim yaşa tutuldu.

Çəkildim məhək daşına,
Ölçüldüm üç-beş arşına,
Haqdan yaşına-yaşına,
Taleyim daşa tutuldu.

Dost saydım ürək zalımı
Artırdı qeylü-qalımı,
Dişə çəkdilər halımı,
Ömrüm qarqışa tutuldu.

Gözlərə düşmən göründüm,
İlantək haqqa süründüm,
Çəkdiyim qəmə büründüm,
Dərdim alqışa tutuldu.

Şadiman candan əzildi,
Canı boğazdan üzüldü,
Qədəhinə ah süzüldü,
Bircə baxışa tutuldu.

06.07.2019

OLUM BULUDUN GÖZ YAŞI

Olum buludun göz yaşı,
Məni buludlar ağlasın.
Axan sellərin çay daşı
daşıb üstümü bağlasın.

Qaya içindən çatlayım,
Eniş-yoxuşu adlayım,
Darıtək dərdi artlayım,
Dərdi dərd özü dağlasın.

Zirvələrdən bol axışım,
Dünyaya min bir baxışım,
Sözə çəkdiyim naxışım,
Misralar üstə çağlasın.

Can qurub təndə bardaşı,
Ölüb-dirilmək vərdişi,
Ömürlə qovğa gərdişi,
Allah sabahdan saxlasın.

06.07.2019

ÖMRƏ QISILIB QALMIŞAM

Ömrə qısılıb qalmışam
Yetən, adamı daşlayır.
Gündən asılı qalmışam,
Gözümü həsrət yaşlayır.

Gün vurur ahım üstünə,
Gələn sabahım üstünə,
Allah, günahım üstünə,
Ürək ağrını aşlayır...

Ürəyim necə ürəkdi?!
Canıma, sanki, kələkdi,
Könlü sovuran küləkdi,
Girib sinəmdə qışlayır.

Səbrim qalmayıb nazına,
Dönmüşəm sınıq sazına,
Can buna necə qızına?
Ağrısı candan başlayır...

06.07.2019

VARLIĞINA SIĞINDIĞIM

Varlığına sığındığım
Vurdu yaman yerə məni
Şadlığına uğunduğum,
Atdı, uddu dərə məni.

Etibara dönük çıxdı,
Əməlinə üsyan etdim.
Həm özün, həm məni yıxdı,
Gözdə yaşı leysan etdim.

Ağılımda üşüb qalıb,
Qovlayıram, çıxıb getmir.
Gözlərimə düşüb qalıb,
Ümidimi yıxıb, getmir.

Bu nə zaman ölçüsüdür,
Pərgarıyla səhv buraxır.
Taleyimin elçisidir,
Pisliyinə varmı axır?!

Yoxdu daha güman yeri,
Gümanımı heç eləyib.
Qoymub qala aman yeri,
Həyatımı puç eyləyib...

04.07.2019

SƏNİN HARAN ANADI ?

Iddan lap bir aləm,
Aciz yazmağa qələm,
Hikkən saçır qəm-ələm,
Dilində qan-qanadı,
Sənin haran anadı?!

Doğduğuna qail ol,
Baş işlədib nail ol,
Rəbb verənə mail ol,
Özgələr bir yanadı,
Sənin haran anadı?!

Dişini qıcıtma, gəl,
Söz-sovu ucaltma, gəl,
Səsi başa atma, gəl,
Dilin handan-hanadı?
Sənin haran anadı?!

Övlad barın deyilmi?
Könül varın deyilmi?
Ərin yarın deyilmi?
Hicran ürək qanadır,
Sənin haran anadı?!

30.07.2019

ƏGƏR DƏRDƏ ƏYİLSƏN

Əgər dərdə əyilsən dərd səni əyəcəkdir,
Əlinə fürsət düşdü başına döyəcəkdir...

Bacarırsan qaç ondan, yuvasına girmə heç,
Uyub acı eşqinə əl-qolunu gərmə heç,
Meyvəsini bol görüb, tez əl atıb dərmə heç,
Dərdinlə əhd eyləsən hər yerdə deyəcəkdir,
Əlinə fürsət düşdü başına döyəcəkdir...

Ucuz tutma canını, o bədənə bahadır,
Buludlanan ürəyin yolu dərdə, ahadır,
Hər gecənin qapısı açılan sabahadır,
Kədərdən doğan günəş özünü öyəcəkdir,
Əlinə fürsət düşdü başına döyəcəkdir...

Bax necə də üfüqlər al şəfəqə bürünür,
Sübhün gözü açılıb, qaranlıqlar sürünür,
Uzaqdan dan ulduzu ocaq təki görünür,
Ümidin meyvəsin dər, yoxsa qəm yeyəcəkdir,
Əlinə fürsət düşdü başına döyəcəkdir...

Uç, ey sevdalı təbim, səmalarda parla, yan,
Qoy alışım oduna, ürəyim olsun büryan
Ocağımın oduna yığılıb gəlsin hər yan,
Əgər dərdə enməsən sənə neyləyəcəkdir?!
Əlinə fürsət versən başına döyəcəkdir.

Şadimanın avazı göyü-yeri tutmayır,
İlahi verən eşqi heç zaman unutmayır,
İçində bir sevgi var, heç bir şeyə qatmayır,
Toplayaraq gücünü dərdi əyləyəcəkdir,
Əlinə fürsət versə başına döyəcəkdir...

Əgər dərdə əyilsən dərd səni əyəcəkdir,
Əlinə fürsət düşdü başına döyəcəkdir...

11.09.2019

DİLDƏN DÜŞMÜR

Dildən düşmür ağrılarım,
Gəzir canda dilək kimi.
Keçir başdan sorğularım,
Fəğan edir külək kimi.

Gün qırılır, ümid qalır,
Baş yorulur, fikrə dalır,
Yenə cana mehir salır,
Ələnirəm ələk kimi.

Sevdiyinə qəlb qovuşmur,
Bu dünyaya can yovuşmur,
Dərd gələndə heç sovuşmur,
Girir qəlbə mələk kimi.

Dil duada, əllər göydə,
Ürəyimdə qalmıb heydə,
Sərxoş ömür keçir meydə,
Cana girir kələk kimi.

Göy içində düşüb qaldım,
Buza dönüb üşüb qaldım,
Dərd-bəlaya düşüb qaldım,
Bükdü canı bələk kimi.

Gün ağladır Şadimanı,
Başında var, sis-dumanı,
Gedir əldən din-imanı,
Can bədəndə həlak kimi.

11.09.2019

ÖMÜR, MƏNİ GÖTÜR QAÇIR

Yenə könül çəpərlənib qəm ilən,
Kipriklərim oynaşırlar nəm ilən,
Gün dil tapmır mən taleyi kəm ilən,
Kədər mənə yolun açır bu yerdən,
Ömür, məni götür qaçır bu yerdən.

Yorğun düşüb yollarım da mənimtək,
Dağ yüklənmib içimdəki çənimtək,
Can görməyib ahlar dolu tənimtək,
Könlüm quşu daha uçur bu yerdən,
Ömür, məni götür qaçır bu yerdən.

Zaman özü yorğun düşüb halıma,
Gün dolanır simtək kədər zalıma,
Vaxt sərf etmək vallah hədər zalıma...
Günəş təki zülüm saçır bu yerdən,
Ömür, məni götür qaçır bu yerdən.

Baş yorulur, qəlbim dərddən incəlir,
Qəmlər çıxıb ürək üstə dincəlir,
Həyatımla durub qəsdə dincəlir,
Ruhum məni qoyub qaçır bu yerdən,
Ömür, məni götür qaçır bu yerdən.

Şadimanı yordu həyat nağılı,
Hisdən uca tutub başda ağılı,
Kim dedi ki, ürək, daşda ağılı –
Binə salmış ruhu uçur bu yerdən?!
Ömür, məni götür qaçır bu yerdən.

13.09.2019

KİMƏ İNANDIMSA

Kimə inandımsa, kimə can dedim,
Vurdu ürəyimdən torpağa düşdüm.
Dəyən zərbələrə həyəcan dedim,
Bir xoş iltifatçın sorağa düşdüm.

Taleyin oyunu sardı sinəmi,
Qəlbin göynərtisi ömrümə dəydi.
Çəkilib getmədi gözümdən nəmi,
Gələn dərd-bəlalar başıma döydü.

Ya mən sadəlövhəm, ya ətraf nankor,
Hər iki səbəbdən əzabım artdı.
Qəlbi dönüklərə niyə oldum kor?!
Hər yetən tənimi məzara dartdı.

Qurduğum dünyamı uçurdanları,
Canımın evindən qova bilmədim.
Canı bu cahandan qaçırdanları,
Ağlın kitabından nədən silmədim?!

Suallar önündə çaşbaş qalmışam,
Sıraya düzülüb cavab gözləyir.
Bəlkə özüm boyda mən sualmışam?
Qəlbdə ocaq çatan dərdim közləyir.

Başıma bəlaymış cana can sevgim,
Cəhənnəm əzabı yaşadır mənə.
Ocağa kül üçün alış, yan sevgim,
Eşqin ağrı yükü daşıdır mənə!

Əriyir şam kimi Şadiman tifil,
Onun qəm yükünü fil çəkə bilməz.
Qədrini bilməyən ürəyi səfil,
Gəldiyi dünyaya bir daha gəlməz.

19.09.2019

BOYLANAN MƏNİM

Ey mənim içimdən boylanan mənim,
Gah qəhqəhə çəkib, gah ağlayırsan.
Sənin əmirinə bağlıdır tənim,
Məni haralarda soraqlayırsan?!

Mənimdən mənimi qoparıb atdın,
Özümdən, sözümdən qaçırsan hara?
Könlümü çalxatdın, vülkan oyatdın,
Çəkilir əlinlə vücudum dara.

Səhəri axşama calayıram mən,
Ömrümün günlərin sözə batırım.
Qurd təki ağrıma ulayıram mən,
Yanan ürəyimi közə batırım.

Mən sənə bağladım ibadətimi,
Ağlımın məbədi, ey könül odam.
Vurduqca üzümə qəbahətimi,
Nə qədər doğmanam, o qədər yadam.

Bəlkə yaranışdan mənim deyildin,
Hardansa canımda yuva salmısan.
Ömrüm üyüldükcə özün üyüldün,
Mənimdə nəyim var məndən almısan!

Çıxıb varlığımdan qaçsan nə yaxşı,
Qurtula bilərdik bir-birimizdən.
Salmısan könlümə min cürə naxşı,
Baş açа bilmirik heç sirrimizdən.

Dünyanı ruhuna köçürən mənim,
Yediyin qəmlərin şahidiyəm mən.
Cana qəm badəsin içirən mənim,
Sənin inamının zahidiyəm mən!

Burax bədənimi, çıx get, nə olar?
Qurtulum əzabdan, ağrıdan tamam.

Üzünə bağlıdır getdiyin yollar...
Qurtar ümidimi sorğudan tamam.

Taleyin yükünü daşıyan mənəm,
Mənimdən mən doğub, mən yetirirsən,
Sənin vəsvəsənlə yaşıyan mənəm,
Yorulub çökəndə köks ötürürsən.

İdrak qapısından boylanan mənim,
Ağlın yazdığıyla can girləyirsən.
Ahın harayına oylanan mənim,
Suçsuzam, xətrimə nahaq dəyirsən.

Bilirsən əzəldən üzüyumşağam,
Məni haldan-hala salırsan nədən?!
Səndən kömək uman körpə uşağam,
Ay mənimə gələn, ay məndən gedən!

Bir gör Şadimanın nə çəkdiyini,
Onun çəkdiyinə tabın çatmayır.
Xışlayır dən səpir sözə beyini,
Ömür gethagetdə, gün qayıtmayır.

01.10.2019

GÜNƏŞİ BATIR

Tutmasın sərvətin gözünü zalım,
Hamının yığıdığı yer altda yatır.
Demə ki, pozulmaz heç zaman halım,
Dərya çalxalanır çirkabı atır.
Ömrün qürubunda günəşi batır.

Kimsə ola bilməz haqdan irəli,
Onun tərəzisi hamına çatar.
Başları döyəclər taleyin əli,
Özündən çıxanda aləmi qatar.
Nəfsinə qulları oduna atar.

27.08.2020

GİZLİCƏ

Dünən tarixə qovuşur,
Bu gün adama yovuşur,
İçimdə bir duyğu coşur,
Çaşdırır məni gizlicə,
Coşdurur məni gizlicə.

Bayırda payız küləyi,
Alıb aparır diləyi,
Qovur bədəndən ürəyi,
Ağrıdır təni gizlicə,
Coşdurur məni gizlicə.

Günəşin üzü tutulur,
Bulud üstünə atılır,
Səmanın qaşı çatılır,
Gətirir çəni gizlicə,
Coşdurur məni gizlicə.

Ağaclar yarpaq ələyir,
Könlümdə sevda mələyir,
Ruhuma sevgi diləyir,
Çağırır səni gizlicə,
Coşdurur məni gizlicə.

Saat da tıqqıltı salır,
Durnalar qaqıltı salır,
Aləmə şaqıltı salır,
Arayır dəni gizlicə,
Coşdurur məni gizlicə.

Xəzanın üzü sarıdı,
Kimsə könlümün yarıdı,
Vaxt keçir, ömürüm yarıdı,
Gözlər gələni gizlicə,
Coşdurur məni gizlicə.

06.10.2019

ÜZÜNÜN DONU

Min yol dəyişirsə üzünün donu,
Hiyləyə, fitnəyə mail olmusan.
Əgər görünmürsə pisliyin sonu,
Doğulan günündən zail olmusan.

Bəsirət gözünü aç ətrafa bax,
Etdiyin şər işin başını burax,
Qəlbinin kinini özün yandır, yax,
Deməsinlər şərə qail olmusan.

Heç kəs bu dünyadan heçnə aparmır,
Vaxtdan bircə gündə artıq qoparmır,
Əgər can evini xoş duyğu sarmır,
Deməli iblisə sail olmusan.

Düzlük hər ürəkdən yolunu salmır,
Hər bəndə boynuna qolunu salmır,
Yaradan ayağa qulunu salmır,
Demək ayaqlara hail olmusan.

Zaman yığıb qaçır ömür köçünü,
Gedir günlərinin zəmi biçini,
Haqq imtahanından keçir içini,
Gör hansı qiymətə nail olmusan?!

Bu dünya dəryadır, toruna düşmə,
Alışdır ocağın qoruna düşmə,
Yamanlıq eyləyib goruna düşmə,
Deməli bir ömür qafil olmusan!

Şadiman, sözünü qıfıla salma,
Ona qəlb yerinə qəfəsi alma,
Dilin şər öyərsə, nəfəsi alma,
Desinlər köçəndə kamil olmusan.

08.10. 2019

BURAXMA ƏLDƏN

Həyat sükanını buraxma əldən,
Dəryalar gəmini batıra bilər.
Dünyanın qanunu budur təməldən,
Büdrədin bəxtini yatıra bilər.

Ömür teatırı yorucu olsa,
Səhnəni göz yaşı bürüyəcəkdir.
Ümidin əl tutan bir ucu olsa,
Bütün çətinliyi sürüyəcəkdir.

Odur ki, zamanı boşa buraxma,
Bacardığın işin qulpundan yapış.
Ürəyi boşuna yandırıb yaxma,
Zirvəyə çatmaqçın yoxuşla çarpış.

Öz səadətini özündə ara,
Qolundan yapışan işini əyər.
Çəkdiyin zəhmətə düşəcək para –
Özgədən gələcək daş-qaşa dəyər.

Həyat imtahanı çətindən çətin,
Hər kəs yaxşı qiymət ala bilməyir.
Tənbəlik bəlası bəşəriyyətin,
Hamı olduğutək qala bilməyir.

Ömür ötüb keçən surət qatarı,
Cavanlıq həmişə qalmayacaqdır.
İnsanın başında ağıl yatırı,
Ondan yaxın dostun olmayacaqdır!

10.10.2019

TABLAŞIRAM SƏNİN ÜÇÜN

Ürək, sənin hər ağrına,
Tablaşıram sənin üçün.
Məni dərdin bas bağrına,
Qablaşıram sənin üçün.

Canımdakı tapmacanın,
Həyat dolu açması sən.
Ruh evimə göy açanın,
Günəş kimi saçması sən...

Döyüntülər tən dağıdır,
Aç mücrünü görüm səni.
İçindəki nə ağıdır?
Silkələyir yaman təni.

Üfüqündən boylan baxım,
İstəyinə qaçım çatım.
Fərəh tutum, qəm buraxım,
Qucaqlayıb səni yatım.

Ürək, dön bax Şadimana,
Yorğun canı yolda qalıb.
Ehtiyacı var səhmana,
Ağrısı hər qolda qalıb...

19.10.2019

EDAM AXTARIR

Üşüyür içim çölümdən,
Getməyə güman yerim yox.
Gəlməyir heçnə əlimdən.
Atmağa nərdi zərim yox.

Kədəri boldu gözümün,
Eyləyib anbar ürəyi.
Mübtədası can sözümün,
Verməyir nübar ürəyi.

Düşübdü qəlbim tələyə,
Köməyə adam axtarır.
Adamdan gələn kələyə,
Düşünmür, edam axtarır.

19.10.2019

YAŞ TÖKÜLÜR ÜRƏYƏ

Çəkdiyini aparacaq yeri yox,
Candan kədər qoparacaq yeri yox,
Bədənlərdə çox duracaq yeri yox,
Ağrı-acı bərk bükülür ürəyə,
Gözdən axan yaş tökülür ürəyə.

Əzəl gündən tən içində təklənir,
Hər bir işin əzabına yüklənir,
Dildən çıxan xəta ona diklənir,
Toxunanda sınır, büllur ürəyə,
Gözdən axan yaş tökülür ürəyə.

O sevgiyə bağlayıbdı hər hissi,
Sevdasıyla cilalayır nəfəsi,
Bə`zən cana sultan edir nəfisi,
İdrak özü eşqlə ölür ürəyə,
Gözdən axan yaş tökülür ürəyə.

Kim deyir ki, yoxdu qəlbdə hissiyat?!
Varlığına köklənibdi xoş həyat,
İdrak başda taxtın quran bir səyyad,
Gah ağlayır, gah da gülür ürəyə,
Gözdən axan yaş tökülür ürəyə.

Şadimanın ağrısına dözmədə,
Tükənəndə öz-özündən bezmədə,
Misralara çəkdiyini düzmədə,
Sözlər özü axıb gəlir ürəyə,
Gözdən axan yaş tökülür ürəyə.

21.10.2019

BAŞ AÇMAQ OLMUR

Könül bağla dosta, şada,
Salacaqlar çox fəryada,
Can desən də yaxın, yada,
Əzabından qaçmaq olmur,
İnsandan baş açmaq olmur.

Can deyirsən, canın gedir,
Günün ötür, anın gedir,
Haqqı desən qanın gedir...
Əzabından qaçmaq olmur,
İnsandan baş açmaq olmur.

Şər-xətadır hər bir işi,
Yaman kəsir tamah dişi,
Qurtarmayır heç biş-düşü,
Əzabından qaçmaq olmur,
İnsandan baş açmaq olmur.

Dərd-bəlası getmir candan,
Xətası çoxdu hər yandan,
Şirinliyi getməz qandan,
Əzabından qaçmaq olmur,
İnsandan baş açmaq olmur.

Beynində min fikir gəzir,
Özün-sözün kədər əzir,
Tanrısından ömrü nəzir,
Əzabından qaçmaq olmur,
İnsandan baş açmaq olmur.

Şadimana edər qubar,
Arzusu bol, qəmi anbar,
Özünə yük, dünyaya bar,
Əzabından qaçmaq olmur,
İnsandan baş açmaq olmur.

25.10.2019

ÇOX ÇALIŞDIM

Çox çalışdım, çox vuruşdum həyatda,
Arzuların üçdən biri olmadı.
Sanki mənə yağı çıxdı həyat da,
Sığınmağa güman yeri olmadı.

Dərya könlün səadəti min imiş,
Bəxtə düşən sevinc-kədər gün imiş,
İnancımız Allah gəzən din imiş,
Gedənlərin üzü bəri olmadı.

Varın yığan qoydu getdi cahanda,
Sərvətinə uydu getdi cahan da,
Deyən varmı doydu getdi cahandan –
Şad yaşadı, dərdi-səri olmadı?!

Gözü qaldı əcəl barın yeyənlər,
Onun-bunun həyat yolun əyənlər,
Şahid varmı dedi-qodu deyənlər,
Dili dedi, söz əyəri olmadı?!

Göz yoruldu əl yığana baxmağa,
Baş ulaşdı zirvələrə çıxmağa,
Məcbur oldu can bədəndən qorxmağa...
Görən desin alın təri olmadı.

Ayaqları yordu ömür cığırı,
Çox mətləblər alışdırdı bağırı,
Üzdü zaman baş açmayan fağırı,
Axır günə heç hünəri olmadı.

Şadimanı gün qovurdu, ah uddu,
Sinəsində qəlb inləyən bir uddu,
Kim deyər ki, olanları unutdu?!,
Adı qaldı, heç dəyəri olmadı.

25.10.2019

YAXŞILIĞI ASDILAR

Yaxşılığı güllələyib asdılar,
Yer qazıyıb torpaq altda basdılar.

Yaxşı-yaxşı ağladılar üstündə,
Suçlamadı heç kim özün qəsdində.

Hamı onun ölümünə sevindi,
Şər adamı əməliylə öyündü.

Şər-şeytana ürcah oldu aləmlər,
Ayaq tutub gəzdi el-el ələmlər.

Hər gün şərin boy-buxunun öydülər,
Yaxşılığın arxasınca söydülər.

Xətalara büründükcə yer üzü,
Tapdaladı hər addımda şər düzü.

Fitvalara qucaq açdı beyinlər,
Haram yolla zər geyindi əyinlər.

Xalqın malın talayanlar varlandı,
Yaxşılığı dairəsi darlandı.

İnsan əhli Yaradanı unutdu,
Öz-özünə savaş açdı, qan uddu.

Sonda çökdü Allah sayan özünü,
Pünhan tutan xalqdan əsil üzünü.

Əl əyildi, tamah artdı, göz qızdı,
Bu hikməti unudanlar uduzdu.

Bir zərrə də qoparmayır dünyadan,
Heç kim heçnə aparmayır dünyadan.

Bəs nədəndi yaxşılığı asdılar,
Dillənəndə ağzına daş basdılar.

27.10.2019

BİR ÖMÜR YAŞADIM

Bir ömür yaşadım yoruldum artıq,
Gəlməyim olmasın, getməyim olsun.
Sellərtək bulanıb duruldum artıq,
Tanrıma şükürlər etməyim olsun.

Coşsun diləyimin dəli inadı,
İtirmim öyüdü, unutmum andı,
Qartaltək zirvədə çalım qanadı,
Əngin səmalarda ötməyim olsun.

Əynimə don biçdim dünya üzünü,
Çəkdim ürəyimə mən od-közünü,
Çalışdım yazmağa sözün düzünü,
Haqqın səvabına yetməyim olsun.

Zirvədən yıxılan yaltağı gördüm,
Alağa suvanmış sağ tağı gördüm,
Misrayla alışan varağı gördüm,
Sözün yuvasında bitməyim olsun.

Bə`zən gecələri gündüzə qatdım,
Yatmış ulduzları göydə oyatdım,
Sözün şələsini bəndlərə çatdım,
Bəndin ormanında itməyim olsun.

Gündüzün gecəyə yol alır suçu,
Tanrı ətəyinə pərçimdi ucu,
Həyat teatrdı, mənsə oyunçu,
Hər bir çətinliyi ötməyim olsun.

Deməyin Şadiman boşuna gəldi,
Ömür boşa getdi, qışına gəldi,
Doğulmaq hər kəsin başına gəldi...
Məndən sözə qalan əməyim olsun!...

30.11.2019

NƏYİ PİS EYLƏDİM

Nəyi pis eylədim, Allah?!
Sarıbdı acılar məni.
İçimi bürüyübdü ah,
Darıbdı acılar məni.

Gözlərim yaxşı aradı,
Xoş baxan baxşı aradı,
Çoxunun içi qaradı,
Anbaan acılar məni.

Nə etdim şərə calandı,
İçimə ağrı qalandı,
Baxışlar, dillər yalandı,
Min yerə haçalar məni.

03.01.2020

ÜZÜLÜB QALIB

Üzülüb qalıb ürəyim,
Keçir iynənin gözündən.
Bilmirəm ona nə deyim,
Dərdi boylanır özündən.

Varlığı bəxtin elçisi,
Harayı vaxtın elçisi,
Can adlı taxtın elçisi,
Qaçır dünyanın üzündən.

Günəşə atəş aparır,
Sinəmdə tufan qoparır,
Başımdan ürfan aparır,
Alışıb yanır közündən.

03.01.2020

İDRAKI VER YUXUYA

İdrakı ver yuxuya,
Qoy yuxusu gülləsin.
Səni yelləçəyində,
Ömrün boyu yelləsin.

İşlətmə başını heç,
Niyə lazım baş sənə?!
Könül sirdaşını seç,
Salma özünü çənə.

Ağıl - elm, düşüncə,
Bil, ayrı bir dünyadı.
Sənin dünyana incə,
Alabəzək röyadı.

Tükənəndə röyalar,
Gec olacaq o zaman.
Yox olacaq xülyalar,
Edəcəksən ah-aman!

Yat yuxun şirin olsun,
Heç nə vecinə alma.
Vicdanın kirin olsun,
Qoy ürək sirin olsun,
Özünü dərdə salma.

Amma bir gün gələcək,
Keçəcək cavanlığın.
Güc tükənib öləcək,
Ümidin qalmayacaq,
Süfrəndə olmayacaq,
Bir tikə yavanlığın.

05.01.2020

ÖZÜNDƏN DEYƏN ADAMLAR

Öz sözü özünə qənim,
Gördüyü gözünə qənim,
Əyrisi düzünə qənim,

İçini yeyən adamlar,
Özündən deyən adamlar.

Yaxıb yandırar ürəyi,
Alovlandırar ürəyi,
Hər gün sındırar ürəyi,
Öz-özün öyən adamlar,
Özündən deyən adamlar.

Aləmə bir mərəz olar,
Hər əməli qərəz olar,
Damağına çərəz olar,
Haqq yolu əyən adamlar,
Özündən deyən adamlar.

Pisliyi sevər, oxşayar,
Yamanlığa baxışı yar,
Şərə canı bağışlayar,
Xeyri sürüyən adamlar,
Özündən deyən adamlar.

Etdiyi aləmə əyan,
Ətrafına deyər hədyan,
Gözdən tökər yaşı giryan,
Üzün bürüyən adamlar,
Özündən deyən adamlar.

Yaradar şərlə ittifaq,
Salar araya min nifaq,
Fitvası saçar al şəfəq,
Küylə yeriyən adamlar,
Özündən deyən adamlar.

Şadiman fikir etməsin,
Şər-şeytan üstə getməsin,
Könlün boşa üyütməsin,
Çoxdu baş yeyən adamlar...
Özündən deyən adamlar.

03.01.2020

GƏLDİYİM KİMİ

Nə çox ürəyimi üzürsən, həyat,
Ölüb gedəcəyəm gəldiyim kimi,
Varımda, yoxumda gəzirsən, həyat,
Qoy özüm yaşayım bildiyim kimi.

Ürəkdən sükutum üzə çəkilir,
Rəngli yuxularım gözə çəkilir,
Qəlbimi yandıran sözə çəkilir,
Ağlamağım ola, güldüyüm kimi.

Yazmısan səhvəmə doğulan günü,
Ana bətinində yoğrulan günü,
Özüm özüm təki doğrulan günü,
Kimsə silə bilməz sildiyim kimi.

Çox acı yükünü çəkib gedirəm,
Zənn etmə, əyilib çöküb gedirəm,
Ağrımı canıma töküb gedirəm,
Ölüm də öləcək öldüyüm kimi.

Şadiman baharın qoydu geridə,
Heç qayıdıb gəlməz daha geri də,
Zaman həvəskardı vaxtı əridə,
Dəlir ürəyimi dəldiyim kimi...

13.01.2020

YÜKLƏMƏ QƏMİ ÜRƏYƏ

Yükləmə qəmi ürəyə,
Yüklədin çəkə bilməzsən.
Çağlayan qüssə selini
Qəlbindən tökə bilməzsən.

Bir nəzər yetir ətrafa,
Saf-çürük edən sərrafa,
Gəlməz karına boş qafa,
Elm evin tikə bilməzsən.

Yığışdır içdən kinini,
Qaraya bükmə gününü,
Oyuncaq etmə dinini,
Yurdunu ölkə bilməzsən.

Sev Vətəni cani-dildən,
Sevməsən gedəcək əldən,
Çıxartma sevgini dildən,
Qəlbinə bükə bilməzsən.

Əl-qolu bağlar namərdlər,
Tanımaz şeytan sərhədlər
Çəkilsə önünə sədlər,
Güc yoxsa, sökə bilməzsən.

Coşanda könül aləmi,
Vərəqdə gəzdir qələmi,
Şadiman, misralar zəmi,
Biçməsən, əkə bilməzsən.

25.01.2020

DAŞIYIRAM İÇİMDƏ

Yaşadığım dərdləri daşyıram içimdə,
Dərdlərlə öz canımtək yaşayıram içimdə.

Bu tale yazısına bülbültək oxuyuram,
Qurmuşam bəxt hanamı, xalılar toxuyuram.

Toxuduğum xalılar bağçada güllər təki,
Ürəyim simə bənddi "Şur" deyən tellər təki.

Ələnir gözümdəki yaşım xalı üstünə,
Ömrün ədədi düşür can əmsalı üstünə.

Vurma-çıxma başlayır günlərin arasında,
Özüm də boylanıram onların sırasında.

Zaman mənə güc gəlir, mən zamandan qaçıram,
Qalxıb haqq dərgahına mələklərtək uçuram.

Qanadlarım qırılır ordan yerə düşürəm,
Yenə çəkdiklərimlə yar təki görüşürəm.

Sıxıram göz yaşıma, isladıram anları,
Gah zəhərtək, gah baltək mən dadıram anları.

Sürürəm Allah verən yerdəki həyatımı,
Unuduram yenə də göydə kainatımı.

Yaşadığım dərdləri daşyıram içimdə,
Dərdlərlə öz canımtək yaşayıram içimdə.

26.01.2020

İÇİMDƏ HÖNKÜRƏN

İçimdə hey hönkürən
Dünya məni öldürür.
Şəri gözüylə görən,
Gündə min yol öl, diril!

Döz çəkdiyin naləyə,
Zülüm eylə ürəyə,
Keçir ömrü kələyə,
Sındır özünü, gəril.

Cahan özü müəmma,
Doğduğun bilməz amma,
Yaxşısı budur qanma,
Şər ayağına səril.

Düzlükdən yoxdur fayda,
Belədir qanun-qayda,
Deyirsən yaxşı vayda,
Onda sən yerdə sürül!

03.01.2020

GƏZİB ARADIM

Özümdə özümü gəzib aradım,
Gördüm dizim üstə başını qoyub.
Mən özüm özümə belə yaradım,
Tanrının verdiyi ömürə uyub.

Ömür də usanıb qaçacaq bir gün,
Tənimi məzara tutub atacaq.
Ruhum səmalara uçacaq bir gün,
Canımı asiman rəfi tutacaq.

27.08.2020

GÜNƏ DÜŞDÜM

Gündən keçib günə düşdüm,
Bilməm hansı yönə döşdüm,
Zənn elədim önə düşdüm,
Yetən ömrü uddu keçdi,
Ağılımdan daddı keçdi.

Sərhədimi heç bilmədi,
Pis əməli suç bilmədi,
Yamanlığı puç bilmədi,
Qəlbimə qəm qatdı keçdi,
Ağılımdan daddı keçdi.

Vaxt əritdim, an üyütdüm,
Ürəyimdə eşq böyütdüm,
Qaça-qaça zaman ötdüm,
Könlümə qəm çatdı keçdi,
Ağılımdan daddı keçdi.

Ömür aldı köynəyim var,
Üşüdəndə göynəyim var,
Qəlbdən başa gileyim var,
Məni oda atdı keçdi,
Ağılımdan daddı keçdi.

27.01.2020

BOŞ OLANDA

Başın içi boş olanda,
İçindən bir xeyir olmaz.
Adamda qəlb daş olanda,
Bir kimsəyə meyil salmaz.

Yaşamağa cövhər ürək,
İçindədir hər bir dilək,
Gah iblisdi, gah da mələk,
İblis solar, mələk solmaz.

İnsanlığı əlləşdirər,
Vicdanıyla güləşdirər,
Tanrısıyla birləşdirər,
Hər bədəndən gedər, qalmaz.

Nə gəlirsə başdan gəlir,
Pillə-pillə o yüksəlir,
Zirvələri idrak dəlir,
Qiymətinə çatmaz almaz.

Əymə başı, dönmə qula,
Tut üzünü, gəl haqq yola,
Hər şey almaq olar pula,
Heç bir kimsə ağıl almaz.

Ey Şadiman, pak tut adı,
Zənn eləmə vicdan adi,
Kainatdır pak ustadı,
Oyatmasan zəngin çalmaz!

08.01.2020

APARIR MƏNİ BOŞLUĞA

Gecəni qaraya bürünən üzü,
Dartır can evimdən çıxarır sözü.
Duyğular aparır məni boşluğa,
Salır hislərimi yenə daşlığa.
Daşlığın içində əzilirəm mən,
Haqqım darmacalda, üzülürəm mən.
Ömrümə düşən gün, üzümə gülür,
Son əlvida deyib yıxılıb ölür.
Sabahdan yeni gün başlayacaqdır,
Mənimsə ürəyim dibsiz ocaqdır.
Yandıqca acışır tüstüdən gözüm,
Onun yanmağına öyrəşib üzüm.
Yanmağı canımı qarsıdır hər gün,
Kimliyin özümə yansıdır hər gün.
Tökür gözlərimdən şübhələrimi,
Həyat kitabımda səhvələrimi
Oxuya-oxuya peşman oluram,
Şişirdir acımı şişman oluram.
Gözümdən sıxıram qorxularımı,
Yenə azdırıram yuxularımı...
Gecəylə "Gizlənpaç" oynayırıq biz,
Hərdən bir-birini qınayırıq biz.
Sükut da öyrəşib yalqızlığına,
Girə bilməyirəm heç qılığına.
Qaçıb otağımdan gizlənir o da,
Özünü atmayır yandığım oda.

28.01.2020

YANDIRIR MƏNİ

İçimdə yığılıb qalan,
Sözlərim yandırır məni,
Ətrafda şeytanlar görən,
Gözlərim yandırır məni.

Qəlbimi edib min şaqqa,
Harayım çatmayır Haqqa,

Dünya qul olub nahaqqa,
İzlərim yandırır məni.

Bulaşdım qeylü-qallara,
Can düşdü haldan-hallara,
Yoruldum yorğun yollara...
Dizlərim yandırır məni.

Şadiman gününə kölə,
Gəlməyir ömrü heç ələ,
Ocağımı verdim yelə,
Közlərim yandırır məni.

30.01.2020

ÜRƏYİMƏ BURAXMIŞAM

Hikmət dolu sabahları,
Ürəyimə buraxmışam.
Eşq içimdə qubar edib,
Qəlb yandırıb, can yaxmışam.

Sözə min bir don biçmişəm,
Bulağından su içmişəm,
Haqqın yolun düz seçmişəm
El içinə saf çıxmışam.

Kimsə məni qınamasın,
Yalanlarla sınamasın,
Yaram közdü, qanamasın,
Mən dişimə can sıxmışam.

Gün günümü əzizlədi,
Tikanlardan təmizlədi,
Xoş məramım gündüzlədi,
Yaxasına gül taxmışam.

Ey ürəyim bir nur idin,
Mənə haqqın yerin dedin,
Şadimana xəbər edin,
Həsrətin evin yıxmışam.

30.01.2020

XOŞ OLMALI OVQATIM

Yaşadığım günlərin ağrısına dalıram,
Yenə xəyallarımla düşüb birgə qalıram.
Dikilir gözüm göyə, seyir edirəm ulduzu,
Qəlbimdən qar əriyir, açılır könlün buzu.
Danın yeri ağarıb, yenə səhər gələcək,
Ruhumu parçalayan qəm-kədərim öləcək.
İçimdən boylanacaq diləklərim birbəbir,
Mənə qalan bir ümid, bir dözüm, bir də səbir.
Durum başımı atım yastığıma, mən yatım,
Sabahı yaşamaqçın xoş olmalı ovqatım!

31.01.2020

DÜŞMƏYƏ İNSAN

Yalana, böhtana düşməyə insan,
Düşdü ki, qurtara bilməyəcəkdir.
Gözündən tökülən göz yaşı leysan,
Dünyada heç üzü gülməyəcəkdir.

Həyat da boşuna keçib getməyir,
O da ömürləri yuyub aparır.
Yaxşılıq, yamanlıq heç nə itməyir,
Ağıl kəsdiyini duyub aparır.

Yaxşılıq zirvədi, yamanlıq dərə,
Hər yetən zirvəyə çata bilməyir.
Cılızlar əyilir gündə min kərə,
İçindən şərini ata bilməyir.

Dünyanın cövhəri yaxşı olanlar,
Hələ bu cahanı yaşadacaqdır.
Bütün kainatın naxşı olanlar,
Duyan könüllərə isti qucaqdır.

Yalandan, böhtandan gen gəzə insan,
Onun zərbəsinə dözmək çətindir.

Qorxudur gecəyə, gündüzə insan,
Niyyətin anlamaq, çözmək çətindir.

Biz niyə doğulduq, niyə varıq biz?
Sualın içindən sual yaratdıq.
Elə bu dünyaya necə darıq biz,
O biri dünyaya xəyal yaratdıq.

31.01.2020

CANLI HEYKƏLLƏR

Dilləri söz bilməz, ürəkləri köz,
Sinədə yerləşən qəlbləri bumbuz,
Baxışları soyuq, sifətləri boz,
Öz varlıqlarına qanlı heykəllər.
Sağ ikən, var ikən canlı heykəllər.

Hara daşısalar səssiz gedərlər,
Səslərin batırıb, izsiz gedərlər,
Dillərin lal edib, sözsüz gedərlər,
Özü-özlərinə şanlı heykəllər,
Sağ ikən, var ikən canlı heykəllər.

Çevrilər hər zaman buyruq quluna,
Gəlməz ömrü boyu haqqın yoluna,
İtaət yazılıb, sanki alnına,
Əyilər başları, çəpikdə əllər,
Sağ ikən, var ikən canlı heykəllər.

Özündən ucaya calar fikrini,
Yaltaqlıq oduyla qalar fikrini,
Cibindən keçirər hər gün məkrini,
Həyat nərdivanı hər ömrü yellər,
Sağ ikən, var ikən canlı heykəllər.

04.02.2020

BURAX MƏNİ ÇIXIM GEDİM

Burax məni çıxım gedim,
Ürəyimi geyən qadın.
Səni necə özüm edim?!
Canı ahla döyən qadın.

Kainatın içindəydim,
Haqqın keçə-keçindəydim,
Mən İlahi seçindəydim,
Rəbb yolumu əyən qadın.

Aldın canı bədən etdin,
Həyata eşq edən etdin,
Sən bunları nədən etdin?!
Boy-buxunun öyən qadın.

Ver canımı, tənin deyil,
Məndən keçən mənin deyil,
Dünya üzü sənin deyil,
Necə varam bəyən qadın.

Vurulmusan ömürünə,
Tabe oldum əmirinə,
Can qoydum səs-səmrinə,
Canı tutub öyən qadın.

Burax məni, yorulmuşam,
Lap boğaza yığılmışam,
Göy dibinə, vurulmuşam,
Göy yolumu əyən qadın.

Burax məni çıxım gedim,
Cildinə baxım gedim,
Göz yaşımı sıxım gedim,
Əlinə tut ləyən qadın.

Bəsdir, bitir öz vaxtını,
Başda yozma söz vaxtını,

Məzarında qur taxtını,
Canı bilmə yiyən qadın...

04.02.2020

TƏRƏZİ ƏYİLDİ

Tərəzi əyildi, çəkilər itdi,
Vicdanlar sozaldı, iman azaldı.
Üzlərdən boylanan şəkillər itdi,
Dildən qaçaq düşən peyman azaldı.

Baxışlar aldatdı, ürəklər dandı,
Yerin hekayəsin dərd göyə çəkdi.
Allah deyə-deyə pozdular andı,
İnsan hiyləsini yer-göy bir çəkdi.

Hamı zəmanədən etdi şikayət,
Günahı özündə görməyən artdı.
Çirkaba endikcə insanda niyyət,
Vicdanlar ən dərin quyuya batdı.

Dünyanın içində kef eyləyənlər,
Kasıba o dünya kefin aşladı...
Bir tale ömrünü səhv eyləyənlər,
Kipriyin islatdı, gözün yaşladı.

Cibin parasına Allah qoşanlar,
Parasız ciblərə dodaq büzdülər.
Nəfsinə qul olub həddi aşanlar,
Pulu dərya bilib orda üzdülər.

Fəqət dərdə düşüb çökəndə yerə,
Dillərin lənəti, dodaqda bitdi!
Məzar ağzın açan bir dibsiz dərə,
Canları uçurtdu, təni əritdi.

Sən bu deyilsənmi?! Ey Fani insan,
Bəs nədən özünü, sözünü dandın?!
Öləndə iştahla yeyilən ehsan,
Yəqin ki, kainat udacaq andın!...

04.02.2020

ATALI, ANALI GÜNLƏRİM

Dünyadan köçən ata-anaların ruhuna sonsuz sayğılarımla!

Atalı, analı günlərim haray,
Sizi kimsə ilə əvəz etmirəm.
Siz vardız, yuvamız eşq dolu saray,
Yoxluğunuz olan yerə getmirəm.

Sizin xatirəniz xoş həyat dolu,
Könlümdən, gözümdən silinən deyil.
Bağlanıb duyğumun min qat əl-qolu,
O yurd siz olantək bilinən deyil.

Hər gecə yuxuma gəlib gedirsiz,
Röyamın yolları gərilməz daha.
Mənə həyat verib, gümrah edirsiz,
Keçən yaşantılar dirilməz daha.

Anam qazan asıb ocaq üstünə,
Analıq eşqini qaytardı ora.
Necə ötənlərin gedim üstünə?
Ayrılıq basıbdı könlümə yara!

Atamçın boylanıb baxardıq yola,
İşdən gəlişini bayram edərdik.
Könül intizarın yaxardıq yola,
Uşaq fərəhiylə biz kam edərdik.

İndi yuxularda qucaqlaşırıq,
Qəlbimin içinə alov tökürsüz.
Röyalar içində ocaqlaşırıq,
Mənim ürəyimi oda bükürsüz.

Sizi ölü təki qəbul etmirəm,
Dərdimi sizinlə mən bölüşürəm,
Daha məzarınız üstə getmirəm,
Yaşamaq eşqindən o an düşürəm...

Həyata eşqimi sizdən alıram,
Ey baş tacı atam, istəkli anam.
Sizin ruhunuza mehr salıram,
Ömrümə güc atam, ürəkli anam.

Günləri ağ olsun bacı-qardaşın,
Evləri sərvətlə, nemətlə dolsun.
Bəxtləri xoş gəlsin dostun, sirdaşın,
Bütün ömürləri hörmətli olsun.

Həsrət güvənc yeri gözdə yaşımın,
Sizi udan məzar qəlbimi çapdı.
Hıçqıran, hönkürən qəlb təlaşımın,
Fəryadı canımdan fərəhi qapdı.

Ata-ana yerin verməz heç bir kəs,
Onlar canımızın dayaq nöqtəsi.
Onlar verdi bizə can dolu nəfəs,
Onlar ruhumuzun dörd bir qitəsi!

Gecələr xəfifcə səcdəyə gəlir,
Canım önünüzdə, can ana-ata,
Ruhunuz evimə müjdəyə gəlir,
Odur ki, işığı düşür həyata...

09.02.2020

AĞRIYAN BAŞIM

Hər şeyə ağrıyan başım,
Zəkanı necə yatırım?!
Dərdi-sər doğruyan başım,
Varını niyə batırım?

Çıxartdın məni önünə,
Cəhd etdin haqqın yönünə,
İşlətdin ağıl günümə,
Ağılın mənə yatırım!

Hər zaman ağrıyan başım,
Hökmündən artır tələşim,
Dərdini çəkməyir yaşım,
Ver onu içə batırım.

Ömrümə qoydun sərhəddi,
Öhdənə düşdü can həddi,
Çalışıb keçmədin səddi,
Qazandın dünyada otrum!...

10.02.2020

ÜŞÜYÜRƏM SOYUQDAN

Üşüyürəm soyuqdan,
Könlümü qurtara bilmirəm oyuqdan,
Düşür duyğularım batır orda,
Arzularım qalır yarıda...
Artırır gözümün leysanların,
Bu soyuqluq insanların,
Söz soyuqluğu,
Köz söyuqluğu,
Döz soyuqluğu,
Öz soyuqluğu.

***

Ürəyimə dəyənləri,
Ömür yolumu əyənləri,
Arxamca deyinənləri,

Əməlləriylə öyünənləri,
Daşıya bilmirəm həyat nağılımda,
Özgürlük heykəli yonmuşam ağlımda,
Hər gün o heykəlin önünə
könlümün çiçəklərini düzürəm,
Qarşısında qürurla gəzirəm.
Ürəymi vurmasın,
Təki qəlbimi qırmasın,
Söz soyuqluğu,
Köz soyuqluğu,
Döz soyuqluğu,
Öz soyuqluğum...

***

Tanrının damına çıxanlar,
Ordan adamlara yuxardan
aşağı baxanlar,
İçinə fitnə-fəsad buraxanlar,
Qəlb sındırıb, ev yıxanlar,
Ürək yandırıb yaxanlar,
Bais olur ələmə,
Yayır aləmə,
Söz soyuqluğu,
Köz soyuqluğu,
Döz soyuqluğu,
Öz soyuqluğu...

18.02.2020

XƏTRİMƏ DƏYMƏYİN

Siz mənim xətrimə dəyməyin dostlar,
Xətrimə dəyəndə xətrim ağlayır.
Yığışmır içimdən heç çənim dostlar,
Ürəyim sizlərə ümid bağlayır.

Bu da bir ovqatdı, bu da bir ömür,
Dəmri də əzəndə olmayır dəmir,
Hələ ki, göylərdən gəlməyib əmir,
Hələ əlim yazır, ürək çağlayır.

02.05.2020

PUÇ OLANDA

Vicdanlar puç olanda,
Ürək dönüb daş olur.
Hər addım, suç olanda,
Əməllər çaş-baş olur.

Haram pula əl həris,
Göz öyrəndi ondan pis,
Adam endirən nəfs,
Yalanla sirdaş olur.

Düşürür qəlb çirkaba,
Sözlər dönük, dil qaba,
Gəlməyir haqq-hesaba,
Üzündə tələş olur.

Çapıb talayanların,
Quyruq bulayanların,
Yalaq yalayanların,
Sonda gözü yaş olur!

Halal ömür sürənlər,
Çətinliklər görənlər,
Ağayanasa genlər...
Yurda vətəndaş olur!

Şadiman, duy ömürü,
Batırma səs-səmiri,
İlahinin əmiri,
Düz sözə qardaş olur.

20.02.2020

XƏBƏR GƏLMƏDİ MƏNƏ

Bağladım göylərə ümidimi mən,
Göylərdən bir xəbər gəlmədi mənə,
Gerçəkliklə qurdum həyat eşqimi,
Diləklər canlandı, ölmədi mənə.

Sevdi istəklərim məni can kimi,
Bağrımda çalxandı min bir bilməcə.
Sardı varlığımı həyəcan kimi,
Onlara yar oldum hər gündüz-gecə.

Çıxsa da yoluma ilan-qurbağa,
Dəf edib keçməyi bacardım hər vaxt.
Göz bələdçi oldu görünən dağa,
Sürüdü dalıyca məni zalım baxt.

Haçansa ruhumun keçdiyi izi...
Doğulub yenidən keçməli oldum.
Dalğaya baş vurdum, uddum dənizi,
Onun şor suyundan içməli oldum.

Kələ-kötür yollar apardı məni,
Bəzən yorulsam da usanmadım heç.
Həqiqət canımdan qopardı məni,
Büdrəyib, yıxılıb, dayanmadım heç.

Göylərə əl açıb dilənməkdənsə,
Ağıl dərslərinin şagirdi oldum.
Göy nərdivanında yellənməkdənsə,
Mən necə vardımsa elə duyuldum.

Götürə bilmərəm göy minnətini,
Ömrümə diqtədir yolun davamı.
Xərcində deyiləm, qoy can zinətin –
İşığı parlatsın könül yuvamı!

26.02.2020

HƏQİQƏT ÖZ YERİN TAPINCA

Həqiqət öz yerin tapınca bəzən...
Neçə nəsil köçür haqq dünyasına.
Əlini yerlərdən, göylərdən üzən,
Köçürür ümidi öz xülyasına.

Diləklər şam olur gecələr ona,
Ümidlər içində çaş-baş qalır baş.
Ağrılar işləyir iliyə, qana,
Bulud yağmuruna dönür gözdə yaş!

Haqq dilllər əzbəri, əməldə yoxdu,
Hamı göy içindən səda gözləyir.
Sözlərin bəzəyi təməldə yoxdu,
Hamı İlahidən sevda gözləyir.

Ölümlü-itimli dünya yüklüdü,
Yükünü çəkməyə gücü çatmayır.
Kainat önündə boynu büklüdü,
Cahanın hikməti ağla batmayır.

Hamı arşınıyla ölçür aləmi,
Arşını başından, boyundan yekə.
Qədəhə süzülür dünyanın qəmi,
Boğaza ilişmir hər haram tikə.

Çəkisi bilinmir dilin sözüylə,
Yaxından uzağı göz görə bilmir.
Adamlar çarpışır özü özüylə,
Hamı da ömrünü xoş sürə bilmir.

Həqiqət öz yerin tapmayır çox vaxt,
Süpürür dünyadan yurdu, milləti.
An dəyirmanında üyüdülən vaxt,
Olmayır hər kəsə könül zinəti.

Dəmirdən geyinsən həyat zirehin,
Şimşəyə, sazağa sinə gərərsən.

Tale cibinə qoy ömrünün behin,
Yəqin ki, həyatda bir gün görərsən...

Demin Şadimana ucuzdu sözü,
Hər söz ürəyimdən rişə qopartdı.
Gözlərim oxşadı gecə-gündüzü,
Məni alovların içinə atdı.

27.02.2020

UNUDULMUŞ KİMİYƏM

Bir az unudulmuş kimiyəm,
Qanadı qırılmış quş kimiyəm.
İnciməyim an işidir,
Bədənimin harasındasa
gizlənən can işidir.
Canım gözlərimə buludlar doğur,
Buludlar leysanında məni boğur.
Batıb çıxıram,
Ümidimi sulara atıb çıxıram.
Sularda köpüklər öpücüklərə bənzər,
İçimdə ölmüş sevdanın kabusu gəzər.
Özümü ataram göz yaşımın dəryasına,
Boğularam ötüb keçənlərin xülyasına.
Qapımda toz-dumana bürünmüş
keçmişim boylanar,
Halıma gizli-gizli yanar.
Ötənlərimin başına sığal çəkərəm,
Ürəyimin ən dərin guşəsinə bükərəm.
Sonra qopar, canımdan baş götürüb qaçar,
Qalaram naçar…
Bir az unudulmuş kimiyəm,
Qanadı qırılmış quş kimiyəm.

02.03.2020

YADIMA DÜŞDÜ

Yadıma düşdü xatirə,
Nəğməsi doldu qulağa.
Sığışmadı heç sətirə,
Döndü qaynayan bulağa.

Sel təki axdı qəlbimə,
Apardı məni uzağa.
Şimşəktək çaxdı qəlbimə,
Gurşadı saldı sazağa.

Öpdü yağmuru yanağdan,
Ötənlər ömür kitabı.
Xəyaltək baxdı otaqdan,
Vurdu çıxdı haqq-hesabı.

Yadıma düşdü xatirə,
Gözdə tüstütək buruldu.
Mən qucaq açdım xətirə,
Çəkilib göyə duruldu.

28.03.2020

GEDİR MƏHVƏ

Vicdanlar gedir məhvə,
Adam çevrilir divə,
Verir iblisə töhfə,
Şeytanı sevə-sevə,
Özü də şeytan olur,
Aləmi qatan olur.

Allah dilində bayraq,
Ürəyi verməz soraq,
Hiyləsi min bir yaraq,
Quduz gözləri çıraq,
Mırıqda yatan olur,
Aləmi qatan olur.

Bəlkə də klonmuş adam,
Kainat yonmuş adam,
Edir öz-özün edam,
Tökür qanı, alır kam,
Əyri yol tutan olur,
Aləmi qatan olur.

Yaratdığı dinləri,
Savaş doğur günləri,
Bəxtinin düyünləri,
Şər dolu beyinləri,
Sonda şarlatan olur,
Aləmi qatan olur.

Yer gəlib cana ondan,
Geydiyi min bir dondan,
Keçir hiyləsi qandan,
Fitnə doğur hər yandan,
Şərə dəmtutan olur,
Aləmi qatan olur.

Özünü saf göstərir,
Haqqa sərraf göstərir,
Sözdə insaf göstərir,
Haqqın qolların gərir,
Yalanı tutan olur,
Aləmi qatan olur.

28.02.2020

İLHAM VƏCDƏ GƏLƏNDƏ

BAXAN TƏBİM

Ay uzaqdan baxan təbim,
Bir dön bizim tərəfə bax.
Sözlə aləm yaxan təbim,
Tonqal qala, ürəyi yax...

İçimdəki söz göyərir,
Ocağında köz göyərir,
Bu sevgidə döz göyərir,
Bax bu hala, diləyi yax.

Sözü sehir bilən də sən,
Ruhla seyrə gələn də sən,
Könlümlə bir gülən də sən,
Yap eşq qala, mələyi yax.

Şadimanda hal qalmadı,
Qəlb bölünmüş bir almadı,
Sənsiz günüm xoş olmadı,
Çıx bir yola, küləyi yax.

06.04.2017

İNCƏ-İNCƏ

Arzular incə-incə,
Səbəb olur sevincə,
Boylanır gündüz-gecə,
Ruhumuzun içindən,
Keçir niyə, neçindən.

Keçilən ömür yolu,
İnsanın yaşam halı,
Duyğular vuran qolu,
Çıxır min bir seçimdən,
Keçir niyə, neçindən.

Arzusuz həyat heçdi,
Keçilən ömür puçdu,
Gah günahdı, gah suçdu,
Ömür bir su içimdən,
Keçir niyə, neçindən.

06.04.2017

BİR DƏRİN QUYUYAM

Vallah, bir dərin quyuyam,
Söz desən batıb gedəcək.
Yol ver təbimlə uyuyam,
Yatmasam atıb gedəcək.

İlhamla uçan bir quşam,
Heyif, qanmaza quruşam,
Qoy öz-özümlə vuruşam,
Can təbi tutub gedəcək.

Bədən ruhuyla əlləşir,
Gözdəki yaşım selləşir,
Ürək eşqiylə dilləşir,
Kor bəxtim yatıb gedəcək.

Mən çox çəkdikcə ağrını,
Cavabsız qoydum sorğunu,
Tutmasam bəxtdən oğrunu,
Aləmi qatıb gedəcək.

Çox Şadimanı çalxatma,
Ürəyim yara, ox atma,
Gəl can evimi laxlatma,
Ömrümü satıb gedəcək.

06.04.2017

İLHAM VƏCDƏ GƏLƏNDƏ

Misra nağıla dönür,
Sözlər səcdə gələndə.
Ürək eşqlə döyünür,
İlham vəcdə gələndə.

Duyğular dağlar aşır,
Zirvəylə qoşalaşır,
Qələm-sətir ulaşır,
İlham vəcdə gələndə.

Ürək bədəndən qaçır,
Yerə-göyə yol açır,
Aləmlər işıq saçır,
İlham vəcdə gələndə.

Kağız-qələm titrəyir,
Hər söz ürəyə dəyir,
Təb şahtək özün öyür,
İlham vəcdə gələndə.

Bu Allah möcüzəsi,
Bu İlahi nəfəsi,
Qırır ruhum qəfəsi,
İlham vəcdə gələndə.

Asılmışam kamından,
Düşməyirəm damından,
Mən qaçıram hamından...
İlham vəcdə gələndə.

Şadiman, təb çeşməsi,
Az-çox kimə düşəsi,
Düşür ruhuma səsi,
İlham vəcdə gələndə.
İlham vəcdə gələndə.

06.04.2017

AĞLA ŞEİR

Sənə qara cox yaxdılar,
Cana atəş buraxdılar.
Avazına çəp baxdılar,
Ürəkləri dağla şeir,
Özünə gün ağla şeir.

Qafiyən lağ-lağa oldu,
Söz yığını ağa oldu,
Qulağında sırğa oldu,
Dur qapını bağla şeir,
Özünə gün ağla şeir.

Lal olmusan dili qafil,
Dur üsyan et daha tifil,
Olmayasan bunca səfil,
Qafiyənlə çağla şeir.
Özünə gün ağla şeir.

10.04.2017

AĞRILARIN TELLƏRİNDƏN

Ağrıların tellərindən öz-özünü asasan,
İlğım-ilğım od tökülə ürəyinin içinə.
Ölüb-ölüb dirildikcə dərdin özün pusasan,
Dərd də sənin nəriltindən qorxusundan keçinə.

Yığışdırıb hər neyin var yükləyəsən belinə,
Yükün altda əyilərək qatdalaya qıçların.
Qəmin özün batırasan göz yaşının selinə,
Əllərini ata yola çəngə-çəngə saçların.

Ağlayaraq için-için diz çökərək qarşında,
Yalvararaq deyə qəlbə, aç qapını mən gedim.
Nifrət hissi qövr eləyə, aşıb-daşa başında,
Dərd əyilə, dərd yıxıla deyə sənə nə edim?

Ürəyinin qapısının kilidini açasan,
Qaça səndən uzaqlaşa birdəfəlik qəm, kədər.
Qanad açıb sən də, könül, göyərçintək uçasan,
Mən də bilim mənə düşüb xöşbəxtliyin nə qədər...

29.05.2017

ÜMİD BULUDLARI

Ümid buludları əlçim-əlçim
Könlümün göylərinə çəkilib,
Mən hər şeydən,
hər kəsdən üz çevirmiş ağlımı
ümidimlə yollaşmağa çağırıram.
İçimdən intəhasız gümanlar doğururam.
Həyatın acılarına boyun əyməmək üçün,
Zamanın xətrinə dəyməmək üçün
Onsuz da ömür dartıb gedir köçün...

24.06.2017

İÇİMDƏ YAZ KÜLƏYİ

İçimdə yaz küləyidir,
Əsir o yana, bu yana.
Sanki şeytan kələyidir,
Candan oyana-oyana.

Yenə eşqimi çağladır,
Misraları varaqladır,
Bilməm hankı soraqladır?
Dərdə boyana-boyana.

Ürəkdə közü çoxaldır,
Canımı dərdlə yuxaldır,
Nə həsrətdir, nə vüsaldır,
Gedim hayana-hayana?

Bu nə bəxtdir, can qəsdində,
Bir ömür verdim üstündə,
Durub yolumun üstündə
Özüm dayana-dayana.

29.04.2017

EŞQ ADAMI YAŞADIR

Alışdırır bağırı,
Çıxardır candan ağrı,
Qazandırır uğuru,
Sanki ömrə bal dadır,
Eşq adamı yaşadır.

Bitmir heç hekayəsi,
Qısqanclıq kinayəsi,
Xoş həyatdı qayəsi,
Qəlbdə kamı yaşadır,
Eşq adamı yaşadır.

Bu həyatın sevgisi,
İnsanlığın güzgüsü,
Sevdirir cana hissi,
Dərdi qəmi aldadır,
Eşq adamı yaşadır.

Təbin vuran ürəyi,
Coşğun edir diləyi,
O ilahi mələyi,
Həyata tamaşadır,
Eşq adamı yaşadır.

24.06.2017

ŞAİRİ QINAQ ETMƏYİN

Cibi boşdu, könlü dolu,
Şairi qınaq etməyin.
Bir ürək verib Allahı,
Təcürbə, sınaq etməyin.

Onsuzda yanıb köz olur,
Hər addımı bir söz olur,
Dilindən cana döz olur,
Dözməyə qonaq etməyin.

O dünyanın aynasıdır,
Ömrü boyu yanasıdır,
İsitməsəz – donasıdır,
Kinlə üstünə getməyin...

24.06.2017

SÜKUTA NƏĞMƏM

Yenə də sükutun içindəyəm mən,
Hər tərəf sakitlik, ruhumu dinlər.
Qəlbin pərvazlanan köçündəyəm mən,
Göylərin qübbəsi ahımı dinlər.

Ağrını canımdan qoparıb atdım,
Körpə quşcağaztək qanadlanıram.
Göylərin içinə düşüb qayıtdım,
İndi öz-özümə mən yadlanıram.

Qəlbimə bükmüşəm diləklərimi,
Yarısı suçludu, yarısı suçsuz.
Fələk qandallayıb biləklərimi,
Qərarı qətidir, hökmü hüdudsuz.

Mən neyin eşqində, ürək nə eşqdə,
Doğulan günümdən çarpışmadayıq.
Həyatın hər üzü bizimlə məşqdə,
Günün ağrısıyla tapışmadayıq.

Sükuta nəğməmi oxuyuram mən,
Süküt da dillənib qəh-qəhə çəkir.
Nəğməmə sözləri toxuyuram mən,
Misralar ruhumu özünə çəkir.

25.06.2017

SƏNƏ QURBAN OLUM

Təbim, sənə qurban olum,
Məni göyə sən qaldırdın...
Qoy səninlə bir can olum,
İçdə sevgi oyandırdın.

Hara getsəm içimdəsən,
Mənimlə bir seçimdəsən,
Min yol öçü-biçimdəsən,
Ürəyimdə od yandırdın.

Hönkürdükcə uşaq sayaq,
Mən yatdım, sən qaldın oyaq,
Ruha, cana oldun dayaq,
Ağlı min yol çox qandırdın.

Mənlə çıxdın göy içinə,
Tökdün şimşək can içinə,
Çəkdin məni öz içinə,
Ürəyimi dayandırdın.

Təbim, səndən doğulmuşam,
Hislərinlə yoğrulmuşam,
Hər misradan doğrulmuşam,
Demə, məni usandırdın!

Şadimandan çəkmə əli,
Özün atdın can təməli,
Bu birliyə eşq deməli!
Onu cana boyandırdın.

06.05.2017

YAMAN İNCİYİRSƏN

Yaman inciyirsən özü-özündən,
Ağrıya-acıya alışan könlüm.
Ruhum alovlanır düşən közündən,
Fərəhə çatmaqçın çalışan könlüm.

Gündüzün gəlişi gecə gətirir,
Ümid meyvələrin sabah bitirir,
Canın hər əzabı necə götürür?
Düşüb əzablara qarışan könlüm.

Başın əmirləri sənə tikandı,
Ağıl dincələndə hissə imkandı,
Yenə aranızda ədəb-ərkandı,
Ağılla, hislərlə yollaşan könlüm.

Hər bahar ömründə payızı varmış,
Ən uca dağların başında qarmış,
Ruhumun içini xəzanı sarmış,
Payız niskilinə sarışan könlüm.

Sənin əhvalınla dolar Şadiman,
Heç kəsi bəxtəvər etmib ah-aman,
Fərəhli anların ömrümə dərman,
Mənə xoş günlərdən ver nişan könlüm...

21.05.2017

BULUD GƏLİBSƏ

Göylərin üzünə bulud gəlibsə,
Göylər yağışını saxlamayacaq.
Şairin özünə ilham gülübsə,
Coşğun duyğuları yuxlamayacaq.

Həyat özbaşına çıxıb getməyir,
Onun da gedişi zamana bağlı.
Deyirlər yaxşılıq heç vaxt itməyir,
İtəndə çalxadır ürəyi, ağlı.

07.11.2018

SÖZƏ QAÇMA

Hər deyilən sözə qaçma,
Səni alıb söz satacaq.
Yeri qoyub göyə uçma,
Səni yerə göy atacaq.

Ağlın varsa yığ başına,
Çevril canın sirdaşına,
Ömür deyil özbaşına,
Ölüb getsən kim tutacaq?!

Biz bir ömür yaşayırıq,
İnsan adı daşıyırıq,
Günah yığıb daşıyırıq,
Kim çıxacaq, kim batacaq?!

Bəlli deyil günün sonu,
Gün soyunub qalıb donu,
Görən varmı qaçan onu,
Başın atıb tez yatacaq.

Doğulanı böyüdəcək,
Kim qalacaq, kim gedəcək,
Bizi bir-bir üyüdəcək,
Hər kəsə bir yer tutacaq.

11.01.2019

DƏLİ YEL KİMİ

Ağlamaq eşqinə düşmüşəm yenə,
Axıdım gözümdən yaşı sel kimi.
Çıxıb əzablarım canımdan önə,
Əsir qəfil qopan dəli yel kimi.

Qaçmaq istəyirəm yerlərdən göyə,
Buraxım tənimi qoy yerin olsun.
Ruhum haray salıb bu səsə-küyə,
Deyir məzar qazı lap dərin olsun!

Bu bədən neyinə lazımdır deyir,
Yapışıb qalmısan qopa bilmirsən.
Doğulduğun gündən şər yolu əyir,
Özünü dünyada tapa bilmirsən.

Gəl yığışıb gedək ömürdən daha,
İçinin işığın zülmət udmasın.
Məni şərik etmə qəm doğan aha,
Sənin ürəyini alıb dadmasın.

Mən sənin eşqinəm bədən yiyəsi,
Bu eşq kainatın işıq selidir.
Ruhun sözü bitib mənə deyəsi,
Başımdakı ağıl yaşam dilidir.

Ruhun fəryadını eşidib bir dəm,
Bədəni tərk edib çıxıb gedirəm.
Nə edir eləsin yerlərdə adəm,
Çırpınma, ey canım, sənə qədirəm.

Məni dinlər ilə qorxudanların,
İçində Allahın xofun görmədim.
Qulağa mövhumat oxudanların,
Yalana tuşlanmış oxun görmədim.

Gəl, ey məni məndən alıb aparan,
Mənimdən içəri bir mənim də var.
İçdə üsyan edib tufan qoparan,
Canımdan yuxarı dinənim də var.

Şadiman dünyada doğulan gündən
Vicdan ağrısına nicat aradı.
Bəlkə də boylanır ruhu köksündən,
Onun göz yaşından ürək yaradı.

17.01.2019

MƏN KÖNÜL VERMİŞDİM

Mən könül vermişdim səadət üçün,
Səadət qanıma buladı getdi.
Canımtək sevdiyim, can dediklərim,
Gəlib ürəyimi taladı getdi.

Aldığım yaralar döndü gileyə,
Qulaqdan getmədi hənirtiləri...
Ağlayan ruhumu bükdüm bələyə,
Qəlbi çalxalatdı iniltiləri.

Elə daşladılar ümidlərimi,
Onlar zərbə aldı, mən asiləşdim.
Ömrə xərclədikcə mən illərimi,
Saata əyilən vaxtla güləşdim. **18.01.2019**

SORUŞMA HALIMI

Soruşma halımı, demə, necəsən?
Könlümü qaralar alıbdı, dostum.
Qəlbimin telləri rüzgartək əsir,
Qəfil fırtınaya salıbdı, dostum.

Neylim faciyədən talanam, inan,
Ruhum təndən uçub yalanam, inan,
Dərdimlə baş-başa qalanam, inan,
Dərd mənə qələbə çalıbdı, dostum.

Bu nə fəlakətdi kəsib qapımı,
Xəlvəti fitnəylə pusub qapımı,
Tutub dar ağacdan asıb qapımı,
Ağrılar canıma qalibdi, dostum.

25.06.2018

ZAMANIMLA QOYUB ÜZ-ÜZƏ

Məni zamanımla qoyub üz-üzə,
Gözümə yaşları dolduran tale.
Bölüb həyatımı gecə-gündüzə,
Hər fəsli payıztək solduran tale.

Doğum ağrı imiş, dünya qarışıq,
Günümə dolanan yolum sarmaşıq,
Tök ver zəhərini içim bir qaşıq,
Cismimə dərd verib, can vuran tale.

Mən məsum uşaqtək səni səslədim,
İçimdə ümidi doğub bəslədim,
Şərdən uzaq qaçdım, kini həslədim,
Dərdimə ağ bayraq qaldıran tale.

Söylə, nə həvəsdi qaçırsan qəmə,
Yalvardım ürəyə eşqi bələmə,
Sevgimi faş edib yaydın aləmə,
Qəlbimi savaşa saldıran tale.

Mənə öhdəliyin dərd, kədər imiş,
Sənə ümidlərim puç, hədər imiş,
Mənim də ömürüm bu qədər imiş,
Əzrayıl havasın çaldıran tale.

Qapında müntəzir durub dayandım,
Bir xoş ümidinlə yatdım oyandım,
Sorsan Şadimandan, deyər sən andım,
Andımı bəs niyə tez qıran tale?!...

11.03. 2019

BU ADAM

Geyinib həsrət əyninə,
Evindən çıxır bu adam.
Heç gəlmir bir an eyninə,
Evini yıxır bu adam.

Ürəyinə ümid edir
Ürəyi aldatmaz onu.
Sevdiyinə sarı gedir,
İstədiyi atmaz onu.

Özündən çıxıb bu adam,
Özünü qaytarmır geri.
Evini yıxıb bu adam.
Budurmu bir evin əri?!...

21.12.2018

NƏ VAR Kİ

Yazma üzə gözlərinin qəmini,
Qəm gələndə ağlamağa nə var ki.
Kipriklərə uddurursan nəmini,
Canı dərdlə dağlamağa nə var ki.

Tale yolun cızmasan kim cızacaq?
Hislərinin qulu olan azacaq,
Eşq dəryadı ürəyinə sızacaq,
Hopsa cana, çağlamağa nə var ki.

Qəlb nazikdir, sındırsalar sınacaq,
Təmiz olsa ona-buna yanacaq,
Soyuq olan baxışlardan donacaq,
Odu közə bağlamağa nə var ki.

10.01.2019

ZAMAN OTURUB ÇİYİNİMƏ

Zaman oturub çiynimə,
Gərək boşaldam yükünü.
Qəmini geydim əynimə,
Oxuram həyat türkünü.

Biganəlikdən yoruldum,
Ağrı-acıya soruldum,
Saattək dərdə quruldum,
Ciyərim tutmur bürkünü.

Vicdanı xeyrə tutdurdum,
Əzabımla çox yatdırdım,
Canıma hicran qatdırdım,
Götürə bilməm ərkini.

Sığınıb haqqa qalmışam,
Yuvasında yurd salmışam,
Ömrümə rüsxət almışam,
Neylərəm qorxu-hürkünü?!

Şadimanın söz davası,
Başdan getməyir havası,
Olanda candan dil ası,
Başa vurmasın sərkini...

17.02.2019

VAR OLANDAN

Var olandan ürəyimdə,
Deyilməmiş söz üyütdüm.
Ocağıma od qalayıb
Misqal-misqal köz üyütdüm.

Tale uddu atəşimi,
Doğdum candan günəşimi,
Pozdu yetən hər işimi,
Ağılımda döz üyütdüm.

Özüm bəxtə işıq oldum,
Çətinliyə aşiq oldum,
Mən ömrümə aşıq oldum,
Eniş-yoxuş, iz üyütdüm.

Gəl bul, tanı Şadimanı,
Onun haqdır din-imanı,
Ömrə düşən hər bir anı,
Payız bilib yaz üyütdüm.

08.06.2019

DİK DURMAĞI BACAR ÜRƏK

Dik durmağı bacar ürək,
Səni yıxmaq istəyirlər.
Ahı etmə sən car ürək,
Ahda sıxmaq istəyirlər.

Əl donduran buza dönmə,
Buz əriyir selə dönür.
Qaçıb gedən yaza dönmə,
Gəlişi bir ilə dönür.

Od-alovla qarsma məni,
Köz sönəndə külü qalır.
Dar guşəndən asma məni,
Ağırlığım səni salır.

Dost-düşməni etmə qınaq,
Suç səndədir, aldanırsan.
Bəsdir məni etdin sınaq,
Yoxsa məni sən danırsan?!

Dik durmağı öyrən ürək,
Əyilərsən çatladarlar.
Sanma hamın təmiz mələk,
İnfakrkt edib partladarlar...

Şadimanı bilmə qulun,
Sənə özün əyməz ürək.
Sağkən onla gəl xoş bulun,
Ömür cana dəyməz ürək...

25.05.2019

NƏ GƏZİRSƏN ŞAİR OLAN

Nə gəzirsiz şair olan,
O təqdimat, bu təqdimat.
Başınızda olan-qalan,
Yazılana qalıbdı mat.

Yığışırsız bir araya,
Girir dildə kir araya,
Qoyursunuz tir araya,
Düşür çox vaxt ürəyə çat.

Dil əl deyil, misra qaval,
Təb bol olsa, yoxdu zaval,
Ürək sözlə dolu çuval,
İçdə barı bir neçə qat.

Söz boşaldın kağızlara,
Qoy düşsün dil, ağızlara,
Odu qonsun avazlara,
Şeir təbdən bir amanat.

Söz misraya hopdurular,
Kəlmələrə bənd vurular,
Dərya coşar, göl durular,
Bir-birinə nə təqdimat?!

Söz şərabdan doğulmayır,
Çalxalanıb dağılmayır,
İlham varsa, boğulmayır,
İncəliklə dolu həyat.

Yazılanlar xalqa çatsın,
Yatanları qoy oyatsın,
Şər yazanın sözü batsın,
Dursun candan gen bata-bat.

Şadimanı qınamayın,
Yolu üstə dayanmayın,

Sözün fəna heç sanmayın,
Bu nə təqdim, ucuz-boyat?!...

30.07.2019

ENƏNLƏRDƏN

Dad, boşluğa enənlərdən,
Dərd qapısın nalə açır.
Qopub düşən dünənlərdən,
Gecə doğur, sabah qaçır.

Həyat acı bir bilməcə,
Çatıb tutmaq çətin necə?
Günlərimi vurub heçə,
Candan çıxıb günah qaçır.

Ömrü sevib bel bağlayan,
Gözlərində sel bağlayan,
Günümüzü varaqlayan,
Bəndəsindən Allah qaçır.

Hiyləsiylə evlər yıxan,
İçə şeytan, cin buraxan,
Yer üzünü odla yaxan,
Göy üzünə silah qaçır.

Düşmüşəm can kilidinə,
Ruhum, üsyan etmə dinə,
Şadimanı qoyma dinə,
Söz üstünə hey ah qaçır.

11.08.2019

BAŞ İŞLƏYİR, ƏL YAZIR

Baş işləyir, əl yazır,
Misralar yoldan azır,
Ürəyi ilham qazır,
Qopuram dindən, dondan,
Ölürəm həyəcandan.

İşığım gözdən gəlir,
İlhamım közdən gəlir,
Misralar sözdən gəlir,
Bal dadır təbim andan,
Ölürəm həyəcandan.

Bəbək düşür röyaya,
Baş vururam dəryaya,
Dərya içində qaya,
Dalğa vurur hər yandan,
Ölürəm həyəcandan.

Bəndlər çuxura bənzər,
Ləpə vurar, gün bəzər,
İçində könlüm üzər,
Səda gəlir cahandan,
Ölürəm həyəcandan.

Bu nə təbin xatası,
Qaçıb göydən tutası,
Kainata çatası...
Bədən üzülür candan,
Ölürəm həyəcandan.

Şadimanın sözü bol,
Tutubdu Rəbbinə yol,
Atmasın ruhu əl-qol,
Misralar axır qandan,
Ölürəm həyəcandan.

30.07.2019

QƏLBİM OYANA

Gəl ey ruhum, canım, qəlbim oyana,
Dünya bir yanadı, sənsə bir yana.

İşıqlat bir qədər könlüm evini,
Açılsın oradan həsrət düyünü,
Şad etsin ömrümü qəlb toy-düyünü,
Üz tutub getsəm də sənsiz hayana,
Dünya bir yanadı, sənsə bir yana.

Gedək eşqimizin işığına biz,
Dönək sazlı-sözlü aşığına biz,
Tökək dildən balı qaşığına biz,
Canım keşiyində hər an dayana,
Dünya bir yanadı, sənsə bir yana.

Bax bir şəfəqlərin sərib al günəş,
Göylərin sevdasın dərib al günəş,
Ürəyim olmasın qərib al günəş,
Canım fəda olsun, eşqi sayana,
Dünya bir yanadı, sənsə bir yana.

Nolar bir gələsən könlümə yovuq,
İçimi qəm ovub, can ovuq-ovuq,
Aləmə yayılan acılar qovuq,
Yatmış duyğuların qalxıb oyana,
Dünya bir yanadı, sənsə bir yana.

Olmayaq heç zaman həsrətə ocaq,
Daim bir-birinə can deyək sıcaq,
Sənə səlamlarım vardır bir qucaq,
Dönməsin eşqimiz hicran qayana,
Dünya bir yanadı, sənsə bir yana.

Sən gələn yolları basıb ot-ələf,
Sözü dönük çıxıb olma naxələf,
Sənsiz ömür-günüm olacaq tələf,
Qoyma həyatıma qüssə boyana,
Dünya bir yanadı, sənsə bir yana.

Gəl ey ruhum, canım, qəlbim oyana,
Dünya bir yanadı, sənsə bir yana.

20.08.2019

DƏRDİMİ SÖZƏ DEYİRƏM

Dərdimi sözə deyirəm,
Sözüm də məni ağrıdır.
Yükün daşıyıb üyürəm,
Yükü nə yaman ağırdır.

Yandırır məni atəşi,
İsidir qəlbi günəşi,
Tale oynudur hər işi,
İçimdə tufan doğurdur.

Tutdu ruhumu apardı,
Məni dünyadan qopardı,
Bir ömür mənlə çapardı,
Zənn etdim yolu doğrudur.

Söz məni verir güdaza,
Ömürdən gələn gün aza,
Qail olmadı heç aza,
Canıma çoxdan oğrudur.

Dilimi tutub söz ovur,
Ocağın çatıb köz ovur,
Təntiməyir ki, bir hovur,
Kəlməmdən misra yoğurdur.

Unudub özün Şadiman,
Yoxdu ömrünə xoş zaman,
Bəlkə çıxardıb haqq fərman,
İlahi verən uğurdur!...

19.09.2019

BOŞA UÇURTDUM

Mən tale quşunu boşa uçurtdum,
İlləri illərə caladım getdi.
Vaxtı yatızdırıb, günü qaçırtdım,
Ürəyə od-atəş qaladım, getdi.

Hər gün ürəyimlə döyüşə çıxdım,
Onun diləyinə hərcayi baxdım,
Sevdim, sevdiyimi qəlbə buraxdım,
Ürək xəstə düşdü, bal adım getdi.

Hislər duyğuların qəsdinə gəldi,
Hər iksi könlümün üstünə gəldi,
Yandın, ey Şadiman, tüstünə gəldi,
Düşdüm tufanlara – qanadım getdi.

09.10.2019

YUVA QURMUŞAM

Bir dünya sözümə yuva qurmuşam,
Tufana düşəndə yuvam dağılır.
Hərdən ürəyimlə ara vurmuşam,
Dilimə yığılan duam dağılır.

İlahi, səsimi dinlə nə olar,
Üzümə bağlama ümid qapısın.
Başımın üstünü kədər, qəm alar,
Qurar həyatımla isti təmasın.

Şadiman nə çəkir biləni varmı?
Ürəkdə bir dünya sözü gəzişir.
Qapı açıq qalıb gələni varmı?
Özünün içində özü gəzişir.

24.10.2019

SÖZLƏR AXIR KÖNLÜMƏ

Sözlər axır könlümə,
Dağıdır bənd-bərəni.
Gəlir misra dilimə,
Ovub gedir dərəni.

Ruhum ulduzlar doğur,
Parlayır, göz qamaşır.
Fərəhim hicran boğur,
Eşq içimə sarmaşır.

Dodağımda gülüşlər,
Gözlərimdən tökülür.
Sübh göndərir öpüşlər,
Al dan yeri sökülür.

Gecənin ayaz üzü,
Səhəri cilalayır.
Təbimin keçmir közü,
Yenə ocaq qalayır.

Bu nə sevda, İlahi,
Alıb yenə ürəyi.
Udub ruhum qəm-ahı,
Gəlib ilham mələyi.

Yaşantılar varaqda
Misralara düzülür.
Canım göyü soraqda,
Yenə yerdən üzülür.

Şadimana kəc baxan,
Gəl könlümə, gör nə var?!
Ruhu yandırıb yaxan,
Canı dünyadan qovar...

03.01.2020

TƏLƏSMƏ ÜRƏK

Hələ deyilməmiş sözlərim qalıb,
Sinəmdə alışan közlərim qalıb,
Hələ də cahanda gözlərim qalıb...
İçimdə çağlayır min arzu, dilək.
Məni tərk etməyə tələsmə ürək.

Yollarım uzanır haqq aramağa,
Dünyadan kam alıb, çox yarımağa,
Heç vaxt can atmadım, can qorumağa,
Sən özün dünyadan doymayan mələk,
Məni tərk etməyə tələsmə ürək.

Ruhumu çıxarıb qovma tənimdən,
Torpağa yem etmə bu bədənimdən,
Qoparıb aparma canı mənimdən,
Tufana əl etmə, qoparma külək,
Məni tərk etməyə tələsmə ürək.

Həyat başdan-başa gülür könlümə,
Yaratmaq həvəsi gəlir könlümə,
Etmə qəbir evi – gəlir könlümə,
Etsən fırtınadı, adısa kələk,
Məni tərk etməyə tələsmə ürək.

Mən nələr çəkirəm bilirsən özün,
Qəlbə axan yaşı silirsən özün,
Canla razılığa gəlirsən özün,
Ələnir günlərim, saxlamır ələk,
Məni tərk etməyə tələsmə ürək.

Bilirsən Şadiman acı içində,
Bağrı paralanır sancı içində,
Yazmağa kitablar yatır içində,
Sözlər amadədi, barmaqlar həlak...
Məni tərk etməyə tələsmə ürək.

03.01.2020

ÇƏKİLİB DƏRDİM İÇİMƏ

Çəkilib dərdim içimə,
İçim alışa-alışa.
Ürəyim gedir seçimə,
Canla yarışa-yarışa.

Aləmə haray salıram,
Yaradannan gün alıram,
Yenə özümlə qalıram,
Vaxtlla çalışa-çalışa.

Ömürdən qaçıb gedirəm,
Göylərə uçub gedirəm,
Haqqa yol açıb gedirəm,
Şərlə vuruşa-vuruşa.

İlahi məni səsləyir,
Bədəndə canı bəsləyir,
Amacım vaxtı üstləyir,
Günə qarışa-qarışa.

Kainat məni alaydı,
Alıb qoynuna salaydı,
Canım orada qalaydı,
Oda sarışa-sarışa.

Söz Şadimanı ağlaya,
Qıfıl-bəndini bağlaya,
Ürəyi coşub çağlaya,
Bəxtlə barışa-barışa.

06.01.2020

APARIR MƏNİ UZAĞA

Bəxt tutub aparır canı uzağa,
Mənə dərd verdikcə düşdüm fərağa,
Heç dönüb baxmadı bir dəm sorağa,
Əlində çırpınan quşa dönmüşəm.
Min il yağış döyən daşa dönmüşəm.

Boğdu məni zaman, tüstümdən keçdi,
Qarsıdı üzünü, istimdən keçdi,
Həyat fırtınası üstümdən keçdi,
Ayazlı, şaxtalı qışa dönmüşəm,
Min il yağış döyən daşa dönmüşəm.

Hicran küləkləri əsdi içimdə,
Zənnim yalan çıxdı hər bir seçimdə,
Dərddən don geydirdi min bir biçimdə,
Gözdə tüğyan edən yaşa dönmüşəm,
Min il yağış döyən daşa dönmüşəm.

Gizli yer gəzirəm ağlamaq üçün...
Ruhumu göylərə bağlamaq üçün,
Göz yaşımı yuyub çağlamaq üçün,
Dərdi dastan olan başa dönmüşəm,
Min il yağış döyən daşa dönmüşəm.

Axtarıb aramın siz Şadimanı,
Onun haqdan gəlib kədər fərmanı,
Düzlüyə səcdədir dini-imanı,
Ömrə eşq eyləyən yaşa dönmüşəm,
Min il yağış döyən daşa dönmüşəm.

07.01.2020

QUBAR TUTUB

Qubar tutub ürəyimi
Bulud təki yaş tökürəm.
Yaralanmış diləyimi,
Tutub könlümə əkirəm.

Gecəm gündüzüm içində,
Şimşək var gözüm içində,
Yanıram özüm içində,
Kim bilir ki, nə çəkirəm?!

Can yolum işıqdan keçir,
Xörəyim qaşıqdan keçir,
İstəyim aşiqdən keçir,
Özüm özümdən hürkürəm.

İçim xəbərsiz çölümdən,
Canım gizlənir ölümdən,
Heç nə gəlməyir əlimdən,
Qəm yükün özüm çəkirəm.

Şadimanı qubar edən,
Dərdlə için anbar edən,
Ağrıların nübar edən,
Önündə quştək səkirəm...

04.01.2020

SÖZÜN YOLU

İnsanlığın tərcümanı sözdür ulu,
Keşməkeşli, əzablıdır sözün yolu.

O ağrıdan, o acıdan keçib gedir,
Göz yaşını hərflərlə içib gedir.

Yaltalığa qul olanda fəryad edir,
Yaradana min bir dəfə imdad edir.

Daş-kəsəkli, çınqıllıdır keçmək çətin,
O döyünən ürəyidir sədaqətin.

27.10.2019

ALIB ÜSTÜMÜ

Yenə dərd alıb üstümü,
Gəlib tellənə-tellənə.
Axır göz yaşı yanağa,
Bəbək sellənə-sellənə.

Fikirlər azır beyində,
Qəbrimi qazır beyində,
Asılıb haqqın göyündə,
Əlim yellənə-yellənə.

Saatlar anlar divanı,
Dəyişik salıb ünvanı,
Dilimdən qopan duanı,
Udur gillənə-gillənə.

Ömür-gün baxmır sözümə,
Yağıyam özüm-özümə,
Məzarım durur üzümə,
Yeri bəllənə-bəllənə.

Qəlbimin açsın baharı,
Canımla etsin naharı,
Udsun qüssəni, qəhəri,
Sözüm güllənə-güllənə.

Şadiman burax qübarı,
Ürəyin misra anbarı,
Barmaqlar atıb qabarı,
Ruhun dillənə-dillənə.

05.01.2020

QURMA ÜRƏYİMDƏ

Qurma ürəyimdə ağrılara yas,
Min fikir, bir dərdi ödəmir, canım.
Üşüdür nədənsə ruhumu ayaz,
Hissimə dəm tutur hər həyəcanım.

Dünyada nə çoxdu üzü dönmüşlər,
Sözdən söz çıxarıb sözü öldürür.
Dünyaya ağrıdı hiyləgər işlər,
Sanki yer yaradıb, yeri böldürür.

Aləm ah-vay edir fitnə içində,
Kiminin cibində, kiminin əli.
Doğulub ölən də köçə-köçündə,
Hər kəsə bəllidir özcə əməli.

Hamı İlahidən yapışıb durub,
Tanrının adına yazır etdiyin...
Yer göyə bağlıdır, tərəzi qurub,
Özü də kiçildir, öz böyütdüyün.

Kimsənin haqqına girməz kainat,
Fəqət, kimsə girir onun haqqına.
Hər bir doğulana bəs edər həyat,
Dünya qurban verməz özün satqına.

Cahanın sərvətin heç-puç edənlər,
Axırda özləri heç-puç olacaq.
Dünya doğulanı üyüdüb dənlər,
Sonunda özüylə özü qalacaq.

Hamı Yer üzünə tökür kinini,
Yerində ürəyi çat-çat olubdu.
Qəzəbdən doğurur yetən dinini,
Güya Yaradana sovqat olubdu.

Silahla doldurub kürəmizi biz,
Başqa səyyarədə iz axtarırıq.

Batırıq Yer adlı gəmimizi biz,
Hardasa həyata köz axtarırıq.

Bütün bəlalardan can gizləyərək,
Bütün canlılara bəla olmuşuq.
Ölümçün cənnəti əzizləyərək,
Sağkən cəhənnəmdə düşüb qalmışıq.

Şadiman ömrünə mübtəla, canım,
Doğulan günündən çəkir yükünü.
Könlümün sevdalı yarı hicranım,
Itrib ölçünü, udub çəkini.

27.01.2020

SÖZÜN RƏSMİNİ

Çəkirəm bir ömür sözün rəsmini,
Misralar içində naxışlarım var.
Fələyim əsdirir tale nəsmini,
Həyat camisinə baxışlarım var.

Min bir ağrılara dözən ürəyim,
Dərdinə əl çalıb, bəzən ürəyim,
Səndən də bezirəm bə`zən ürəyim,
Gözümü doldurma, yağışlarım var.

Mən də sözlə çəkdim zaman yükünü,
Qovdum öz-özümdən qorxu-hürkünü,
Əynimə geyindim ömrün kürkünü,
Həmişə yaz olmur, sərt qışlarım var.

Şadiman olmadı ömrə biganə,
Mən ömürə aşiq, ömrüm yeganə,
Gəldi saatlarım, anım fəğanə,
Can sözə hamilə, doğuşlarım var...

27.02.2020

UZUN YOLUN YOLÇUSUYAM

Uzun yolun yolçusuyam,
İlhamımın ovçusuyam.
Xəyal atın hey çapıram,
Xurcunumu aparıram.
İçi sözlə dopdoludu,
Getdiyim yol haqq yoludu.
Nə yazdımsa – vicdan qulu,
Min il sözüm məndən ulu!
Ürəyimdə çaxnaşması,
Yerlə, göylə yarışması.
Hissim sözə sevgilidir,
Qəlbdə közə sevgilidir.
Könlü qovur uzaqlara,
Can üşüdən sazaqlara.
Gah donuram, gah yanıram,
Gah misrayla oyanıram,
Min illərdən keçib gəldim,
"Zəm-zəm" suyun içib gəldim.
Uzun yola çıxan gündən,
Sözüm məndən baxan gündən,
Adamlardan qaçar oldum,
Yerdə, göydə uçar oldum.
Sükutumun ağasıyam,
Sözə boylu, doğasıyam,
Nə qədər ki, sağam hələ,
Rəbbim verib məqam hələ.
O məqamı çözməliyəm,
Damarımdan süzməliyəm.
Misra-misra yaşamalı,
Çiyinimdə daşımalı.
Yazacağım sözüm boldu,
Bu yol Rəbbə gedən yoldu!..
Yol gedirəm işıq ili,
Sızıldayır ruhun teli.
Sızıltılar bəndlə dolur,
Qıfılbəndi min bir olur.
Sözüm təki gəriləcəm,

Ölüb yenə diriləcəm.
Cığırımda kol-kosları,
Savaşları, qisasları,
Ah-vayımla üfürəcəm,
Haqsızlığa tüpürəcəm.
Min illəri qocaldacam,
Sözlərimi ucaldacam.
Tənim torpaq, ruhum göylər,
Mənə şeytan, iblis neylər?!
Mən ilhamın ovçusuyam,
Uzun yolun yolçusuyam...

29.01.2020

BÜK MƏNİ SÖZƏ

Bük məni sözə, Allahım,
Sözündə gizlənim sənin.
Gəlməyim gözə, Allahım,
Təbinlə üzlənim sənin.

Günəşə tax ürəyimi,
Yandırıb yax ürəyimi,
Göyə burax ürəyimi,
Qapında gözlənim sənin.

Aç dərgahına yolumu,
Tutub bağlama qolumu,
Bilirəm ölüm olumu,
Gözünlə izlənim sənin.

Yer-yığış vaxtına çəkib,
Yer məni baxtına çəkib,
Aldadıb taxtına çəkib,
Göyünə düzlənim sənin.

Şadiman açıq duana,
Burax qoy gəlim yuvana,
Bir az oynayım havana,
Odunda közlənim sənin.

27.02.2020

SÖZÜM SƏNİ ÜZƏ ÇƏKDİM

Saf eşqinə qul olmuşam,
Təb atına çul olmuşam,
Hara getsən yol olmuşam,
Ocaq çatdın, közə çəkdim,
Sözüm səni üzə çəkdim.

Dildən düşüb yorulanda,
Ürəyimə sarılanda,
Hərdən qanım qaralanda,
İşığını gözə çəkdim,
Sözüm səni üzə çəkdim.

Məcnun sevgin aldı məni,
Dağa, daşa saldı məni,
Sardı canı duman, çəni,
Yükü dözə-dözə çəkdim,
Sözüm səni üzə çəkdim.

Haqqa sədan dolaylarda,
Bitib qaldın haraylarda,
Can hürkütdün saraylarda,
İstəyini izə çəkdim,
Sözüm səni üzə çəkdim.

Gecə-gündüz içimdəsən,
Yamanlığı biçimdəsən,
Xeyir-şəri seçimdəsən,
Üstünə ox, nizə çəkdim,
Sözüm səni üzə çəkdim.

Eyləmədin bəndi tabu,
Misralarım can hesabı,
Kəsiləndə könlün tabı,
Bir dərdini yüzə çəkdim,
Sözüm səni üzə çəkdim.

Şadimanın eşq ortağı,
Qoyma solsun qəlbin tağı,
Açdım könlə qəlb varağı,
Hər məqamda təzə çəkdim,
Sözüm səni üzə çəkdim.

01.02.2020

ÇARPIŞIRIQ HƏYATLA

Neçə ildi çarpışırıq həyatla,
Mən canımdan, canım məndən yorulur.
Pəhləvantək qapışırıq həyatla,
Tən ruhumdan, ruhum təndən yorulur.

Təntiyəndə, ömür axsaq yabıdır,
Hər əzaba dözən könlün tabıdır,
Kədərə eşq İlahidən tabudur,
Təbiət də hərdən çəndən yorulur.

İnsan canın həyat adlı eşqidir,
Bə`zən dadlı, bə`zən dadsız eşqidir,
Yaradanın doğulanla məşqidir,
Çox öyəndə Allah dindən yorulur.

Suallarla könlü vurma necəyə,
Günəş batır, zaman qaçır gecəyə,
Pıçıltıyla qəlbin açır gecəyə...
Ay zülmətdən, günəş gündən yorulur.

Hər misranın imtahanı ağırdır,
İçdən doğan hiss-həyəcan bağırdır,
Sözlər məni körpə kimi çığırdır,
Demə təbim, ürək səndən yorulur.

Şadimana ömür çəkir tətiyin,
Səhər-axşam canda gəzir itiyin,
Çəkir kama ürəkdən söz bitiyin,
Mağar qurur, toy-düyündən yorulur.

01.02.2020

ÖMÜR YÜKÜ

Çəkdi ağır ömür yükü,
Baş beyini ovaladı.
Gəzdi qəlbdə qorxu-hürkü,
Taleyimi dualadı.

Çox çalışdım qaçam dərddən,
Üz döndərim mən namərddən,
Çox vaxt zərbə aldım mərddən,
Zərbə məni havaladı.

Gün sovurdum, vaxtım üçün,
Bir gün xoşbəxt baxtım üçün,
Canı yordum taxtım üçün,
Dərd canımda yuvaladı.

Ümidlərim çaş-baş düşdü,
Ürəyimə tələş düşdü,
Kiprik üstə qan-yaş düşdü,
Can bədəndən qovaladı.

Şadimandı, əsir təbə,
Söz özü ruh, uymaz dəbə,
Misraları yetir Rəbbə,
Təb ocağın Rəbb qaladı.

20.02.2020

AĞRILARIMA DÖZƏNİM

Ağrılarıma dözənim,
Ruhumda canımtək gəzənim,
Sən ürəksən, ürək,
Mənə həmişə,
hər yerdə,
gərəksən!
Məni tərk edib gedəndə

xəbər elə vidalaşım sənlə,
Oyun oynama mənimlə ürək,
Yaşamım sənlə...

25.04.2020

DAHA GƏTİRMƏ

Məni bu dunyaya verən Allahım,
Bir dəfə gətirdin, daha gətirmə.
İçimdə ağrını görən Allahım,
Əlini üstümdən nolar, götürmə.

Bir ömür yaşadım can öyünmədi,
Könül damarımı tutub ağladı.
Mən haray qopartdım, aləm dinmədi,
Tale kitabımı ah varaqladı.

Gördüyüm gözümdən asılı qaldı,
Kipriklər yükünü çəkə bilmədi.
Ruhum göy içinə qısılı qaldı,
Məni bələyinə bükə bilmədi.

Könlüm dilə aşiq, dil söz dəlisi,
Sözlərim özümə nərdivan oldu.
Ömrüm ocaq oldu, can köz dəlisi,
Göylər ümid yerim, yer divan oldu.

Məni bu dünyaya köç edən Allah,
Köçünə çadırı qura bilmirəm.
Könlə qərib gəlir hər gecə, sabah,
Dünya mənlik deyil, dura bilmirəm.

27.02.2020

YERİ VAR

Yenə daşır ürəyimdə sözlərim,
Bulud təki yağmağımın yeri var.
Qəlbin için alışdırır közlərim,
Qəmi küncə sığmağımın yeri var.

Bulud sayaq hikkələnib doluram,
Həmən anda göy içində oluram,
Can coşmasa gücdən düşüb soluram,
Şimşəklərtək çaxmağımın yeri var.

Bulaqların gözlərindən sızıram,
Dəryalara cığırları cızıram,
Enişlərdə, yoxuşlarda azıram,
Çətinliyi yıxmağımın yeri var.

Qaçır canım bədənimin içindən,
Çıxa bilmir ağrı-acı içindən,
Baxan deyir uru olub içindən,
Küləşimi yığmağımın yeri var.

Ağır-ağır ləngər vuran ömrümə,
Həyatımla tufan quran ömrümə,
Ürəyimlə ara vuran ömrümə,
Savaşlara çıxmağımın yeri var.

Zaman qaçır nəbizində vururam,
Sanyələri tez ömrümlə qururam,
Hər əzaba sinə gəlib dururam,
Günəş təki doğmağımın yeri var...

Şadimanı çox çəkdilər sınağa,
Sınağları tuş gəldilər qınağa,
Ağrılarım gözdən axır yanağa,
Göz yaşımı boğmağımın yeri var.

10.01.2019

ÖMÜR-GÜNÜ AĞLATDILAR

Ömür-günü ağlatdılar, ağladım,
Ümidimi Yaradana bağladım,
Ürək coşdu, sellər təki çağladım,
Əməklərim zay olmadı, çin oldu,
Mən bir oldum, qələm mənə min oldu.

Mən çəkəni heç bir kimsə çəkməsin,
Ürəyinə ağrı-acı əkməsin,
Dərd adamı sayıb dərdə çəkməsin,
Ömür keçdi, çoxu qara gün oldu,
Mən bir oldum, qələm mənə min oldu.

Dünya üzü sınaqlarla baş-başa,
Can özünü yar eyləyir tələşa,
Sonra o da vurub çıxır lap başa,
Zənn eləyir xəta edən cin oldu,
Mən bir oldum, qələm mənə min oldu.

Hamı Tanrı deyib tutur göyləri,
Hiyləsiylə tamam qatır göyləri,
Körpə kimi tutur atır göyləri,
İlahini çəpərləyən din oldu,
Mən bir oldum, qələm mənə min oldu.

Dil fənaya, baş yalana öyrəşir,
İçimizdə höküm verən əyləşir,
Doğulandan o da canla diləşir,
Yollar uzun, kəsib keçən tin oldu,
Mən bir oldum, qələm mənə min oldu.

Bir çoxları özün-sözün unudur,
Su yerinə damarından qan udur,
Bu dünyada kim uduzur, kim udur,
Beyinlərə yolun tapan kin oldu,
Mən bir oldum, qələm mənə min oldu.

Şadimana dedim olma cana yad,
Eşq eyləməz heç bir zaman cana yad,
Kim görüb ki, ürəyinə yana yad,
Haqdan nida mənə danış, din oldu,
Mən bir oldum, qələm mənə min oldu.

13.09.2019

MƏHƏBBƏT RUHUN ÇIRAĞI

MƏNİ GÖRMƏK ÜÇÜN

Məni görmək üçün yuxulara gəl,
Yuxuda könlümü açacam sənə.
Ürəyi titrədən qoxulara gəl,
Dönüb bir quş olub uçacam sənə.

21.12.2016

PEYMAN BAĞLAMIŞIQ

Əhdü-peyman bağlamışıq,
Açar sənsən, qıfıl mənəm.
Həsrətlərdən ağlamışıq,
Naçar sənsən, tifil mənəm.

Yarpaq kimi titrəşirik,
Sevgimizlə ötüşürük,
Tanrı eşqə yetişirik,
Qaçar sənsən, səfil mənəm.

Cəhd edirik qovuşmağa,
Ayrılıqdan sovuşmağa,
Bir-birinə yovuşmağa,
Uçar sənsən, qafil mənəm.

2016

ÖMÜR SÜRÜRSƏN

Sənin öz evin var, öz eşiyin var,
İçində neçə cür arzu-istəyin.
Ağılın nəvaxtsa ruhunu qovar,
Qayıdar komana yenə ürəyin.

Bilirəm, gözündə yuva salmışam,
Hara gedirsənsə məni görürsən.
Mən özüm hissimə çox mat qalmışam,
Niyə xəyalımla ömür sürürsən?!

21.12.2016

DOĞURUM SƏNİ

Şirin-şirin yuxudasan,
Yuxuma çağırım səni.
Ruhum ilə qoxudasan,
Ruhumdan doğurum səni.

Ürəyinə dilək deyim,
Varlığına ürək deyim,
Can evimə mələk deyim,
Eşqimlə yoğurum səni.

Duyğulara alqış edim,
Ayrılığa qarqış edim,
Könlü uçan bir quş edim,
Zənn eləyim bağrım səni.

Sevgin nədən əlçatmazdı?
Dilindəki xoş avazdı,
Səndə hiylə, məndə nazdı,
Necə sanım doğrum səni?!

Şadiman bu diləkçəni,
Yazdı əyan etsin səni,
Həsrət talan etdi məni,
İndi bildim, oğrum səni.

31.12.2016

SƏNSİZ DÖYÜNMƏDİ

Səni ürəkdə bəslədim,
Ürəyim eşqdən dönmədi.
Duyğularımla səslədim,
Heç iztirabın sönmədi.

Xəyalın gözdə taxt qurdu,
Gözlərim önündə durdu,
Ruhum mənlə ara vurdu,
Könül sənsiz döyünmədi.

02.01.2017

QIRILDI NƏSƏ...

Bu gecə içimdə qırıldı nəsə...
Ahımın harayı özümü tutdu.
Yerlər-göylər gəldi qırılan səsə,
Bütün varlığımı sevinc unutdu.

Bu gecə gecəni oyaq keçirtdim,
Dolaşdı içimdə acı fəğanlar.
Bu gecə ruhuma qan-yaş içirtdim,
Oldu varlığımın tacı fəğanlar.

Hıçqırdı ümidim içimdə mənlə,
Gözlərim yollardan yığıldı daha.
Elə üsyan etdi ürəyim tənlə,
Qopdu bədənimdən, getdi Allaha.

Bədən yerdə qaldı, ürək göylərdə,
Gəlmək istəmədi öz yuvasına,
Dolaşdı yaşamaq eşqi səylərdə,
Döndü dodaqların haqq duasına.

Bu gecə hər şeyi uçurdub tökdün,
Yenə də əvvəlki günlərə döndüm.
O eşq sarayını əlinlə sökdün,
Axan ulduzumla bir yerdə söndüm.

Elə öz-özümə qəh-qəhə çəkdim,
Gülüşlər içində diksinib qalxdım.
Mən səndən ömürlük əlimi çəkdim,
Açıb ürəyimdən eşqi buraxdım.

Bu gecə Şadiman kim idi bildi,
Min dəfə qəhr etdi özü-özünü.
Bu gecə adını ürəkdən sildi,
Çalışır söndürsün içdən közünü...

11.01.2017

YAMAN TƏLƏSDİM

Mən səni sevməyə yaman tələsdim,
Səhvimi özümə necə uddurum?!
Sənin xəyalların önündə əsdim,
Xəyalı ruhuma necə daddırım?!

Əzab candan keçir belədən-belə,
Canımı əzabdan qoruya bilməm.
Vururam özümü gözdəki selə,
Batıram, çıxıram yarıya bilməm.

Özünü hər şeydə haqlı sanırsan,
Haqqıma ağlıyan eşqim neyləsin?
Ruhumsan deyirsən, eşqə yanırsan,
Amma eşitmədin ruhumun səsin.

Mən sənin olmağa tələsdim hər gün,
Tələsib özümü quyuya saldım.
Vurdun ürəyimə dərd dolu düyün,
Dərdlərlə vuruşa-vuruşa qaldım.

Könlümə öyrətdim peşman olmağı,
Könlüm də ağlıma tabe olmadı.
Sənin həsrətindən duydum solmağı,
Dönüb xəzan oldum, tabım qalmadı.

Mən səni sevməyə yaman tələsdim,
Tələsik eşqlərin səhmanı olmur.
Ürəyə etdiyim bu zalım qəsdim,
Göynəyir, sızlayır – dərmanı olmur.

12.01.2017

GƏL UNUDAQ

Gəl unudaq bu eşqi.
Unudaq nağıl kimi.
Sevgi həyatın məşqi,
Bar vermir ağıl kimi.

O göz yaşa rəvacdır,
Mə`dəsi aha acdır,
Ruhu yandıran sacdır,
Dadı var noğul kimi.

12.01.2017

ÖZÜN YANACAQSAN

Çəpəri uçuran külək olacam,
Sənincün əlçatmaz mələk olacam,
Bu eşqim deyil ki, bir qalmaqallıq,
Unutmaq istərəm səni bir yolluq.
Əgər bu qərara gücüm çatarsa,
Əgər ayrılığın ruha yatarsa,
Səni ürəymdən silib atacam,
Səni yox, eşqimi uca tutacam.
Məni həyatında hiss edəcəksən,
Bütün varlığını süst edəcəksən,
Gecələr yuxunda axtaracaqsan,
Özünə xəyallar səf quracaqsan,
Könlünlə aranı çox vuracaqsan,
Məni axtaracaq gözün hər yerdə,
Özün yanacaqsan düşdüyün dərdə.

12.01.2017

MEHRIBAN BAXIŞ

Yenə ürəyimdə mehriban baxış,
Yenə gözlərimdə yol gözləyirsən.
Yenə atəşində donub qalacam,
Düşüb xəyalına sənin olacam.
Hisslərim bulanıq, qarmaqarışıq,
Gözündən könlümə düşəcək işıq.
Həsrətli baxışın üzəcək məni,
Dillində sözlərin gəzəcək məni.
Mənsə kor istəyin burulğanında,
İffət axtaracam hər an canında.
Dilim lal olacaq məhbus eşqimdən,
Özüm utanacam dəli məşqimdən.
Göylərə uçacam xəyallarımla,
Ağrımla yatacam, röyalarımla.
Göylərdən ulduzlar dərəcəm sənə,
Eşqin süfrəsini sərəcəm sənə.
Yenə ürəyimə mehriban baxış,
Gizli pıçıltınla düşəcək naxış.
Bəzəkli kəpənək – mənim diləklər,
Qapının ağzına düşüb imələr.
Sən də qəhqəylə durub baxarsan,
Arzumu dişinə vurub baxarsan.
Gözündən sevdalar yağar üstümə,
İşığın günəştək doğar üstümə.
Mən dolmuş buluddan tökülən yağış,
Yenə ürəyimdə mehriban baxış...

13.01.2017

RUHUMU OĞURLAMISAN

Hara baş götürüb gedirsən belə?
Gəl yığış könlümün içinə daha.
Eşqini uzaqdan bildirsən belə,
Heç kömək eləmir həsrətə, aha.

Səhərim soyuqdu, gecəm sıxıntı,
Üşüyən qəlbimi basıb qəm küncə.
Yatıram, yuxumdan gəlir qımıltı,
Qımıltı səsinə bənzəyir necə.

Göydə ulduz qədər ağrımın sayı,
Onu gözlərinlə görəsən gərək.
İçimi göynədir bağrımın vayı,
Tək sənin havana döyünür ürək.

Başın işə-gücə qarışıq hər gün,
Yadına düşmürəm yəqin o qədər.
Vurmusan sinəmə açılmaz düyün,
Cəhd edirəm açım, cəhd olur hədər.

Sən mənim ruhumu oğurlamısan,
Mən ruhsuz yaşaya bilmirəm axı.
Həsrət yalanını doğrulamısan,
Ruhsuz tən daşıya bilmirəm axı.

Gəl gör Şadiman yazıq halını,
Hər yerdən xəyalın üstümə gəlir.
Gizli saxlamışam mən vüsalını,
Dönüb ayrılığa qəsdimə gəlir.

24.01.2017

NƏ EDİM

Hey deyirəm uzaq gəzim bu eşqdən
Göz önündə gəlib durur, nə edim?
Mən nə qədər qəlbi üzüm bu eşqdən,
Ürək mənə tə`nə vurur, nə edim?

Salır məni əzablara həsrəti,
Ötüşməyir ayla, illə zilləti,
Başdan-başa möcüzədi hikməti,
Saat təki vaxtı qurur, nə edim?

Gecələri yuxulardan boylanır,
Pərvanətək dövrə vurub haylanır,
Ürəklə bir həsrətimə oylanır,
Məsum-məsud boynun burur, nə edim?

Çox eylədim ürəyimlə söhbəti,
Sevmə dedim ona min yol xəlvəti,
Dedi: Sevgi İlahinin sərvəti,
Yollaşmayır eşqlə qürur, nə edim?

Şadimanı salıb dərdin içinə,
Bu ağrıyla canım necə keçinə?
Düçar oldum məhəbbətin suçuna,
Düşüb qəlbə, başa vurur, nə edim?

31.01.2017

SƏN ORDA YAN, MƏN BURDA

Sən orda yan, mən burda,
Alışaq ocaq təki.
Yanan ürəklər darda,
Sanaq olacaq təki.

Çıxsın ahımız göyə,
Şimşəkləri oynatsın.
Sevgini öyə-öyə,
Qan damarı qaynatsın.

Əlimiz yetişməsin
illərlə bir-birinə,
Candan eşq ötüşməsin
qoy işləsin dərinə.

Diləklər aha dönsün,
Gözümüzlə ağlasın.
Ürək eşqlə döyünsün,
Ümidə qəlb bağlasın.

Sən orda yan, mən burda,
Xəyallar ovalansın.
Sörağın gəlsə harda,
Ürəyim orda yansın...

03.02.2017

CANDAN ƏZİZ YARIMSAN

Sualları cavablara kökləmə,
Yol üstündə məni belə təkləmə.

Görürsən ki, yığışıram getməyə,
Başlayırsan mənlə savaş etməyə.

İnsafını çağır gəlsin köməyə,
Ürəyinə insafli ol deməyə.

Axı sənsən ürəyimin qidası,
Yenə vurma aramızı, qadası.

Sənsiz mənə talan olur ayrılıq,
Baş tovlayıb onla olma xoşqılıq.

İnan mənə bir dünyalıq varımsan,
Hamı bilir, candan əziz yarımsan.

03.02.2017

DEYİRSƏN Kİ, BAŞLAYAQ

Deyirsən ki, başlayaq,
Başlayaq lap indidən.
Ürəymizi daşlayaq,
Ağrımız olsun dən-dən.

İtirək sözümüzü,
Hansı ki, eşqdən deyib.
Döndərək gedək üzü,
Utanmasaq nə eyib?!
Nə bağlayırdı bizi?

İçimizdən qovlayaq,
Daha əhdü-peymanı.
Hiçranı alovlayaq,
Pozulsun eşq səhmanı,
Gözü qəmlə yaşlayaq.

Haçansa ruh ortağım
Demişdin axı mənə.
Qəmə çıraq yatağım
geyib dərdi əyninə.
Deyirsən ki, dostluğa
məkan edək ürəyi,
Belə sevdin mələyi.

Bəlkə təzədən gəlim
qəlbi çıraqban edim.
Onsuz da çatmır əlim,
Ya çıxım tamam gedim
Həyatından ömürlük.
Başlamağa hacət yox,
Bu sevgiyə nicat yox.

Səndən dost olmaz mənə,
Yardan necə dost olar...?
Dost kimi baxsam sənə,
Bu eşqimə qəsd olar!
Tutub söz atəşinə,
Gəl könlümü daşlama,
Heç təzədən başlama...

12.02.2017

GƏLİRSƏNSƏ

Gəlirsənsə elə gəl,
yol səndən inciməsin.
Görənlər pıçıldayıb
Arxanca söz deməsin.

Tut yolunu könlümə,
Qanadlanıb quş kimi.
Məni unutdun demə,
Donaram sərt qış kimi.

Pəncərədən gözümü
çəkmirəm heç səhərdən.
Alışdır od-közümü
kül olmayım qəhərdən.

Sən qəlbimə sevdalı,
Mənsə solan bir güləm.
Ərz edim sənə halı,
Eşqin yolu yox gələm...

Pıçıldayır dodaqlar
adını hey bayaqdan.
Ömrüm qopmuş budaqlar,
düşüb daha ayaqdan...

Mən intizar çəkənəm,
Sənsə onu daşıyan.
Sənə qəlb bağışladım,
Həsrətinlə yaşayan.

14.02.2017

GƏL GEDƏK

Gəl gedək tənhalığa,
Yad baxışlar yolumuz
üstə çəpər salmasın,
Eşq gəlməsin qınağa.
Ruhumuz ağrılara
daha sipər olmasın.
Gözümüzdə bir ömür
kədərimiz yığışıb,
Bilmirəm onlar necə
qəlbimizə sığışıb?

***

Gəl gedək tənhalığa
kimsə bizi tapmasın.
Çox çəkildik sınağa
sınaq könlü çapmasın.
Bardaş qurub oturaq
gecə qaranlığında,
almasın bizdən soraq
ömrün bir anlığı da.
Soyunaq canımızı
bədənin libasından
Qurtulaq birdəfəlik
vicdanın əbasından.

***

Gəl gedək tənhalığa
qoy ruhumuz qovuşsun,
Son qoyaq yamanlığa,
Öc verək səhmanlığa
Eşq ürəyə yovuşsun...

15.02.2016

YUXUM QAÇIB

Yuxum gözümdən qaçıb
axtarıram küçəni.
Bilmirəm hara uçub?
Ruhumdan keçəni
deməmişəm ona mən.
Necə anlayıb duyub
bu könül nağılımı?!
Sənin eşqinə uyub
aparıb ağılımı.
Hisləri edib qonaq
Sənin sevda barına.
Ürəyim gedib qonaq
Heç baxmırsan yarına.
Uzaq məsafələri
qət eləyib gəlmişəm.
Adi sayma hünəri
səni yarım bilmişəm.
Aç qəlbinin qapısın
ürəyinə girim mən.
Könlüm könlünü tapsın,
Saf eşqini görüm mən.

15.02.2017

KİMDİ SƏNİN ÜRƏYİNDƏ

Könlümdən süzülüb gələn,
Eşqə dönüm diləyində,
Həsrətdən üzülüb gələn,
Kimdi sənin ürəyində?!

Ağladıb güldürdün məni,
Həsrətdən öldürdün məni,
Aləmə güldürdün məni,
Kimdi sənin ürəyində?!

Axı mələyim demişdin,
Mənə ürəyim demişdin,
Kimin sevdasına düşdün,
Kimdi sənin ürəyində?!

01.04.2017

SEVDA YERİNİ

Mən səni xəyalın sehrinə büküb
Gizli ürəyimdə ovundurmuşam.
Gecənin ağrısın gözümə töküb,
Saat əqrəbini geri qurmuşam.

Ruhumun içinə salıb eşqini,
Gizli xatirənə mehir salmışam.
Ürəklə etdiyin həsrət məşqinin,
Yorulub bezəndə könlün almışam.

Mən səni könlümün doğması sandım,
Heç kəs tuta bilmir sənin yerini.
Eşqinlə gizlicə alışıb yandım,
Qəlbində tapmışam sevda yerini.

06.04.2017

YA MƏN GƏLİM, YA SƏN GƏL

Qəlbi üzür intizar,
Əlim bir məktub yazar,
Eşqim yorulub azar,
Çatsa, oxu əlbəəl.
Ya mən gəlim, ya sən gəl.

Bilirsən bahar gəlir,
Bağ-bağça üzə gülür,
Ürəyim sənsiz ölür,
Yorulub misrada əl,
Ya mən gəlim, ya sən gəl.

Həyat özü bilməcə,
Açmasın açam necə?
Candasan gündüz-gecə,
Aradakı səddi dəl,
Ya mən gəlim, ya sən gəl.

Aldın ürəyi qaçdın,
İçində yuva açdın,
Quş olub hara uçdun?
Hər çətinliyə var həll...
Ya mən gəlim, ya sən gəl.

06.04.2017

SƏNİ DUYMAQ ÜÇÜN

Səni duymaq üçün çalışdı başım,
Gizli həsrətimin sehir çırağı.
Candasan, qəlbdəsən könül sırdaşım,
Sənsiz ağlar körpə sinədə ağı.

Sənlə olanda ruhum ovunur,
Yeni güc toplayır sabahkı günə.
Sənsizlik içində ürəyim dönür,
Şaxta, buz içində necə döyünə?

Bir ümid işığı yandır ömrümə,
Heç vaxt qamaşmasın gözümüz ondan.
Məni sevdiyini söz ilə demə,
Çünki boylanırsan ürəkdən, candan.

06.04.2017

QONAQ ETMİŞƏM

Səni həsrətimə qonaq etmişəm,
Könül qədəhimdə göz yaşı daşır.
Bu eşqi könlümə qınaq etmişəm,
Xəyalın eşqimlə nə pıçıldaşır?!

Misralar ruhumda pərən-pərəndi,
Ağlayır, sızlayır ilhamım kimi.
Ürəyim səninlə ömür sürəndi,
Könlümdə yanırsan bəxt şamım kimi.

Eşqini könlümə bükdüm uşaqtək,
Ovutmaq olmayır heç gecə-gündüz.
Çata bilməyirəm mən sənə dağtək,
Əlini əlimdən birdəfəlik üz.

06.04.2017

TÖKƏRƏM YAŞI

Dindirmə tökərəm yaşı,
Batarsan selimdə mənim.
Olmusan canım sirdaşı,
Bitmisən dilimdə mənim.

Hər yerdən gözlərin baxır,
Könlümü yandırıb yaxır,
Olmazmı həsrətə axır?!
İmkan yox əlimdə mənim...

Xəyalın yuxudu mənə,
Xoş nəğmə oxudu mənə,
Dərd özün toxudu mənə,
Ağ cığır telimdə mənim.

15.04.2017

ÜRƏYİMİ BİLƏSƏN KAŞ

Sevgin ağrı verir mənə,
Necə izah edim sənə?
Ağrıya qul olub sinə,
Gəlib özün görəsən kaş,
Ürəyimi biləsən kaş.

Gecə-gündüz xəyal qurdum,
Çıxıb yolda günlə durdum,
Həsrətinlə gün sovurdum,
Gilələnib gözümdə yaş,
Ürəyimi biləsən kaş.

Bu nə hicran qıydın könlə,
Yanan qəlbin ahın dinlə,
Eşqə saldın, dedin inlə!
Qəmin qurub canda bardaş,
Ürəyimi biləsən kaş.

Yerdən göyə ahım çıxır,
Xəyalların gözdən baxır,
Həyat məni hər gün sıxır,
De olarmı belə sirdaş?!
Ürəyimi biləsən kaş.

Şadimanı çox çalxatma,
Sevirsənsə, oda atma,
Hislərimdə ah oyatma,
Ağrına qul olubdu baş,
Ürəyimi biləsən kaş.

20.04.2017

QƏLBİN GƏZİR MƏNİ

Hər gün qəlbin gəzir məni,
Xəyalıma köklənirsən.
Həsrətim çox üzür səni,
Öz içində təklənirsən.

Hönkürdürsən ürəyini,
Getməyirəm yaddaşından.
Coşan sevgi diləyini,
Yağdırırsan göz yaşından.

Mən gəlirəm yuxulara,
Gizli-gizli sevişirik.
Son qoyub can qorxulara,
İç dünyaya biz düşürük.

Mən də qurub xəyal evin,
Sənlə birgə yaşayıram,
Baş tutmayan vüsal evin,
Yukun canda daşıyıram.

Belə keçir günlərimiz,
Ümüdlə gün üyüdürük.
Uşaq eşqə uyduqca biz,
Hər gün onu böyüdürük...

06.04.2017

GƏLƏSƏN ÜZ-ÜZƏ

Gələsən üz-üzə belə
Saymayasan heç görəndə.
Üzünü yan tutub elə
Baxa-baxa qalsın gendə.

İllə küsüb, barışasan,
Eşqi ilə yarışasan,
Hicranıyla dağ aşasan,
Ruhu sevib, qala səndə.

Xəyalıyla sevişəsən,
Can yana, işə düşəsən,
Ağlayasan, gülüşəsən,
Dəli könül düşə bəndə.

06.05.2017

GƏLƏN KİŞİ

Sevdiyinə gələn kişi,
Gedək birgə bu yolları.
Məni yarı bilən kişi,
Ürəyə dağ qəm halları.

Atma xəyal tilovunu,
Tutma burax eşq ovunu,
Çəkmək çətin söz-sovunu,
Həsrət üzür vüsalları.

Mən hislərin dəlisiyəm,
Saf eşqinçin öləsiyəm,
Harda olsan gələsiyəm,
Dur boynuma sal qolları...

06.05.2017

KÖNÜL XOŞLUĞUM

Ürək intizarım, könül xoşluğum
Gəlib çıxmağına müntəzirəm, gəl.
Sənsiz artır hər gün qəlb naxoşluğum,
Sənsizlik içində can gəzirəm, gəl.

Gecə yuxularda dolaşan sənsən,
Yuxular küsüşüb gözümdən qaçır.
Mənim ruhum ilə yollaşan sənsən,
Ürək baş götürüb özümdən qaçır.

Bu gecə yenə də yuxuya gəldin,
Ayrılıq gölündə çimdi göz yaşın.
Gözümdə zirvəyə qalxıb yüksəldin,
Anladım, tək mənəm ürək sirdaşın.

Əlin saçlarımda gəzdikcə pünhan,
Yel qovan yarpaqtək əsib töküldüm.
Sanki eşq içində göründü cahan,
Girib qoltuğuna gültək büküldüm.

Qolların boynuma dolanıb qaldı,
Şəbnəmlər dolaşdı kirpiklərimdə.
Gördüyüm yuxunun adı vüsaldı,
Həsrətə bulaşdı kirpiklərimdə.

15.05.2017

MƏNİ YANDIRIR

Həsrət məni yandırır,
Külüm göyə sovrulur.
İçimdə bir sevgi var
Mənlə birgə qovrulur.

Ağrısı gecə yatmır,
Ahım eşqimə çatmır,
Bu dərd onu oyatmır,
Qəlbsə ona vurulur.

Gecəm gündüzə əsir,
Yolumu hicran kəsir,
Anlamıram, bu nə sirr?
Can eşqinə qurulur.

Dolanır uzaqlarda,
Vüsalı sazaqlarda,
Ağrısı varaqlarda,
Ürəyimdən vurulur.

28.03.2017

UNUDAQ BİR-BİRİMİZİ

Əlini əlimdən uzaq tut nolar,
Bunun da düşəri, düşməzi olar,
Sənə də, mənə də xatirə qalar,
Zamanın sınağı udacaq bizi,
İndidən unudaq bir-birimizi.

Götür rəsmini apar üzümdən,
Dur gəl surətini qopar gözümdən,
Çıx get axşamımdan, süd gündüzümdən,
Könlümdə çalxansın xəyal dənizi,
İndidən unudaq bir-birimizi.

Ayrılıq onsuz da qoşa sim kimi,
Gəzir dövrəmizdə bir tilsim kimi,
Adın dilimdədir xoş isim kimi,

Gec-tez həyat özü pozacaq izi...
İndidən unudaq bir-birimizi.

20.05.2017

BOY GÖSTƏRƏ DİLƏKLƏR

Baxışımda pərdə-pərdə boy göstərə diləklər,
Gecəgözlü qovam səni ürəyimdən uzağa.
Ulduz-ulduz göydən yerə uçuşduqca küləklər,
Mən də həsrət məktubunu yazım düşüm fərağa.

Küçəmizin o başında gəlişini izləyəm,
Baxışımız toqquşanda qaçam girəm dalana.
Səni hər gün sən bilmədən elə burda gözləyəm,
Ürək sevə, dil-dodaqsa rəvac verə yalana.

Toxunmadan əllərimiz, ürəyimiz titrəyə,
Pəncərəndən işıq düşə baxım yanam, odlanam.
Pıçıldayan dodaqlarım sənin adını deyə.
Göz yaşımın yağışında yavaş-yavaş islanam.

Əlçatmazlıq havasıyla öz başını qatarkən,
Mən də gəlim evinizin qənşərində fırlanım.
Əl uzadım xəyalını kölgə kimi tutarkən,
Tənbəl-təbəl yatağımdan səsdən qalxım oyanım.

Tavandakı çilçırağın üstə uçan pərvanə,
Bəlkə sənin ruhun idi, qanad açıb orada.
Mən dəlicə eşqə düşən, sənsə dəli-divanə,
Oda düşən ömrümüz də xəzan olur arada.

29.05.2017

QURBAN OLUM

Ay uzaqdan baxan yarım,
Baxışına qurban olum.
Qəlbdən qəlbə atəşinin
Axışına qurban olum.

Gah küsüb, gah barışırsan,
Hər işimə qarışırsan,
Hislərimlə yarışırsan,
Naxışına qurban olum.

Çıx çəmənə çiçək gətir,
Eşqlə dolu dilək gətir,
Mənə sevən ürək gətir,
Gəlişinə qurban olum.

15.05.2017

GETMƏK İSTƏDİN

Məni tərk eləyib getmək istədin,
Qapını-bacanı bağladım bərk-bərk.
Qaçıb ayrılığı ötmək istədin,
Yalvarıb mən sənə çox eylədim ərk.

Ayrılıq havası çaldın sən mənə,
Oynaya bilmədim mən bu havaya.
Əl açdım Allaha, dil tökdüm sənə,
Çıxdım ürəyinlə qanlı davaya.

Günün ağrısına dolaşdın teltək,
Mən səni ağrıdan qoparıb aldım.
Uçdu ağrıların başında yeltək,
Onların ilantək bağrından çaldım.

Əbədi tərk edib getmək istədin,
Səni ürəyimə salıb gizlətdim.
Ayılıb ağrıdan mənə can dedin,
Sənin can sözünə ibadət etdim.

15.05.2017

QƏRİB GECƏ

Yenə qaranlıq çökür,
Qərib gecənin üstünə.
Buludlar göz yaşın tökür,
Sıxılan qəlbin qəsdi nə?
İçimdə sənsizlik acısı,
Könlümdə həsrət sancısı,
Başımı atıb yatacam,
Səni könlümdə tutacam.
Heç utanıb çəkinmədən
Durub yuxuma gələrsən,
Kirpiklər üstə ələnən
Kədər şəbnəmin görərsən.
Halımdan xəbər tutarsan,
Sən də yuxunu qatarsan,
Məni qəlbə yar tutarsan.
Mən də sənə dərdlərimi,
Birər-birər danışaram.
Ürəyinin atəşinə
alov olub qarışaram.
Sən gələndə yandırdığım
Şamın şöləsi tükənər,
Masa üstə işıqlanan
Şamdanıma mum ələnər.
Divar boyu kölgələnən
Nəfəsinə dolaşaram,
Ürəyindən keçənləri
Yuxumdaca soruşaram.
Bir hörümçək toru kimi
Gülüşlərin tor toxuyar,
Qulağıma pıçıltıyla
Həzin sevgisin oxuyar...
Dolab üstə boynubükük,
məsum baxan tablo dinər,
Yuxum gecədən diksinər...
Zaman qaçar, vaxt daralar...
Sən də yuxumdan gedərsən,
Belə eşqə nə deyərsən?!
Həsrətinə dözüm necə,
Tənha könül, qərib gecə...?!

20.05.2017

CAN DEYƏK

Gəl can deyək, can eşidək,
Qaraltmayaq qanımızı.
Qəlbdə dərd-qəmi üşüdək,
Fərəh alsın anımızı.

Biz ki, sevgidən doğulduq,
Qəmdə, sevincdə boğulduq,
İki qəlbdə bir can olduq,
Eşqə tutaq canımızı.

Hamı bir ömür yaşayır,
İnsan adını daşıyır,
Kinlə ürək, can üşüyür,
Bürüsün dost yanımızı.

22.05.2017

OXU EŞQİMİ

İnanmırsan sözlərimə
Könlümdən oxu eşqimi.
Doldur sevgi gözlərimə
Kipriyə toxu eşqimi.

Məndə ümidin dərmanı,
Gələrəm, gözlə zamanı,
Çəkmisən hicran kamanı,
Yandırır oxu eşqimi.

Ayağım üzülüb yerdən,
Dolanıb gəlmirsən hərdən,
Xəbərin varmı xəbərdən?
Qınayır çoxu eşqimi.

O dərd verdi, mən qocaldım,
Min yol qadasını aldım,
Yarıb ürəyimə saldım,
Bir şirin yuxu eşqimi.

23.05.2017

SƏNİN ADINI DEYİR

Necə açım qəlbimdə olanları mən sənə?
Çəkilib künc-bucağa doluram həsrətindən.
Sən olmasan yanımda batıram duman, çənə,
Necə xilas olum mən ayrılıq zillətindən?

Qol götürüb oynayır ağrılar içərimdə,
Tökə bilməm gözümdən baxışını mən yerə.
Həsrətinin yeri var bu ötən illərimdə,
Fərəhli günlərimi unutdum sənə görə...

Bir dəyirman daşıtək günlər ağrı üyüdür,
Gəlişin gedişinin həsrət toblusun çəkir.
İntizarın günümün ağrısını böyüdür,
Sənin ruhun hər saniyə məni yanına çəkir.

Qollarım heykəl kimi asılıb çiyinimdən,
Donmuş barmaqlarımla zamanımı sayıram.
Gəlirsən yuxulara qəm qaçır beyinimdən,
Bu dibsiz yuxulardan səni necə ayırım?

Nə ayrıla bilmirik, nə də birləşmək müşkül,
Boşuna ötən günlər qatar təki şütüyür.
Sönür könül ocağım, çoxalır orada kül,
Qəlbimsə qulağıma səni adını deyir.

02.06.2017

SƏNSİZ GÜNÜM QARA

Sənsiz günüm qara, çörəyim para,
Sənə sevgilərim bitmir neyləyim?!
Ürəyim bağlanıb əhdü-ilqara,
Əllərim əlinə yetmir neyləyim?!

Hər yandan üstümə baxışın gəlir,
Gözdə buludlanan yağışın gəlir,
Ürəkdə cızdığın naxışın gəlir,
Saldığın naxışlar itmir neyləyim?!

Bu necə taledi yazılıb mənə?
Ömrüm həsrətindən nazilib mənə,
Həyatım bağlanıb bunu edənə,
Düşüb taleyimə getmir neyləyim?!

Bu da bir ömürdü yaşayıram mən,
Ayrılıq yükünü daşıyıram mən,
Sənsizlik içində üşüyürəm mən,
Xəyalın gözümdən ötmür, neyləyim?!

Gəl bu Şadimanın könlünü yoxla,
Həsrət yara vurub zəhərli oxla,
Sən də xiffətimi eşqinlə oxla,
Eşqin mənə vəfa etmir neyləyim?!

05.06.2017

MƏNƏ LALƏ YOLLAYAN

Səhər-səhər mənə lalə yollayan,
Lalələrtək qana dönüb ürəyim.
Həsrətimin məktubunu qollayan,
Ulduz təki yanıb sönüb ürəyim.

Nə dil töksən, çarə yoxdu xoşluğa,
Qovub məni saldın yenə daşlığa,
Səbəb oldun gözlərimdən yaş yağa,
Cəhd eləmə, səndən dönüb ürəyim.

Sübh çağının şəbnəmitək göz dolub,
Qəlbim yanır, ocağına köz dolub,
Vərəqlərə həsrət səpən söz dolub,
Misra-misra ahla dinib ürəyim.

Göndərdiyin lalələrin qan izi,
Baxışında fəğan edən can izi,
Həsrətinlə büküb bələr gündüzü,
Qaçıb səndən evə dönüb ürəyim.

Bir sevdadır düşüb qaldıq nə vaxtsa,
Bir-birinə mehir saldıq nə vaxtsa,
Həsrət bizdən daha gümrah, xoşbaxtsa,
Sevgiyə yox, dərdə yenib ürəyim...

Eşqimizi qınayanlar çox olar,
Qınaqları hər gün cana ox olar,
Gün gələr ki, Şadiman da yox olar,
Şükür, hələ çox döyünüb ürəyim...

12.06.2017

GƏL KÖNLÜMƏ

Gizli-gizli gəl könlümə
Ürəyimin dolan vaxtı.
Gəzdir isti əl könlümə
Günəş batıb solan vaxtı.

Daş da olsa əriyərdi,
Ayaq açıb yeriyərdi,
Gözdə yaşı sürüyərdi,
Qəlbi bulud alan vaxtı.

Bəs nədir ki, susub durdun,
Qəlbi dərddən asıb durdun,
Məni gendən pusub durdun,
Ürək sənin olan vaxtı.

12.06.2017

BIR-BIRIN

Sən məni yamanla, mən səni hər gün,
Beləcə unudub, gedək bir-birin.
Düşsün eşqimizə açılmaz düyün,
Edək ağrılara yedək bir-birin.

Yükləyək ürəyi hər gün əzabla,
Keçirək ömürü çox iztirabla,
Ürək nə qazanar bəs bu hesabla?!
Həsrətə səcdəgah edək bir-birin.

Hər şeydən soyuyub qapılaq evə,
Səni ayrılığım, məni dərd sevə,
Qısqanclıq içləri dalayan güvə,
Buraxaq iş-gücü, güdək bir-birin...

14.06.2017

SƏN DEYƏN TƏRƏFƏ

Bağlanıbdı nə zamandı yollarım,
Necə gəlim mən sən deyən tərəfə.
Həsrətini daşıyandı qollarım,
Könül gəlmir hicran öyən tərəfə.

Günlərimi soğan təki dadıram,
Acıları gözlərimdə yaş doğur.
Səhərimi zəhər kimi uduram,
Sənsiz keçən həyatımda yox uğur.

22.06.2017

AXI NECƏ BİRİK BİZ?

Axı necə birik biz
Heç çatmır əllərimiz?!
Sevgi salıb qəlbə köz,
Qovuşmur dillərimiz.

Gecə-gündüz yanırıq,
Ağrı içimizdə daş.

Ah ilə oyanırıq,
Gilələnir gözdə yaş.

Əl-qolumuz ayrılır,
Ürəklər ayrılmayır.
Qəlb eşqə səcdə qılır,
Ümid yerində sayır.

Öldürər bu eşq bizi,
Uçar ruhumuz göyə.
Ağlayır bu eşq özü,
Başına döyə-döyə...

08.10.2017

NİYƏ SEVDİN SƏN MƏNİ

Mən ki, xəzanı gəlmiş yarpaq tökən ağacam,
Dolduqca qəlbə acı mən yenə dərdə acam,
Ürək ağrı beşiyi yelləməyə möhtacam,
Ağrıyan ürəyimdə necə gizlədim səni?
Niyə sevdin sən məni?!

Ötüb keçən illərin acısına qısıldım,
Bəxtin dar ağacından neçə kərə asıldım,
Bəlkə də o kəndirə özüm boynumu saldım,
Eşqinə bir çarə yox neçin gözlədim səni?
Niyə sevdin sən məni?!

Diqqət etsən əgər ki, ayrılığa məkanam,
Vüsalın yarı yolda, mən həsrətə təkanam,
Göz yaşım bulud doğur, özüm ona imkanam,
Mümkünsüz bir sevdayla necə közlədim səni?
Niyə sevdin sən məni?!

Bir diqqət et hönkürən ürəyimin səsinə,
Baş vursan əgər ora düşərsən qəfəsinə,
Eşq elə bir tələtüm qarsıtma nəfəsinə,
Bəxtim yollar yorğunu niyə izlədim səni?
Niyə sevdin sən məni?!

21.08.2017

ÜRƏYİMƏ DEDİM Kİ

Ürəyimə dedim ki,uzaq dur bu adamdan,
Mənə yalnız qəm, kədər qalacaqdır bu kamdan,
Zülmətə də gur işıq düşməz közərən şamdan,
Şam sönər, zülmət çökər qəlb evinin içinə,

Niyə səbəb olursan qalan ömrün suçuna?!
Ürək könül qapımı açdı xəbərsiz ona,
Qoydu həsrət içində könlümü yana-yana,
Niyə verdi qərarı? Niyə qıydı bu cana?

12.10.2017

ÖZÜN YAZ İNDİ

Könlümün simlərin çalma demişdim,
Çaldın sözlərini özün yaz indi.
Qəlbimi əlimdən alma demişdim,
Aldın, sənə qalan hər gün naz indi.

Qoxla həsrətimi qızıl gül kimi,
Nalə çək gizlincə bir bülbül kimi,
Süzül pəncərəmə əsən tül kimi,
Acı vüsalına məzar qaz indi.

Səhər də zülmətdən qaçır, bilirsən,
Ayrılıq qapını açır, bilirsən,
Ruhum sənə sarı uçur, bilirsən,
Arada hökm edir sərt ayaz indi.

Sevginin özü də Tanrı icadı,
Dərdi çox olsa da məhəbbət adı,
Düşdü ki, ürəyə getməyir dadı,
Vüsalın həsrətdən olub az indi.

Arada uçrumlar, keçilməzlər var,
Gəzir içimizdə hər gün ahu-zar,
Tutub könlümüzü sağalmaz azar,
Olub ürəyimiz sınıq saz indi.

Şadiman eşqini bəxş etdi sənə,
İndi seyirçidi hicran səhnənə,
Tuş oldun araya çökən sis-çənə,
Dumana düşmüsən, canım az indi...

14.10.2017

GƏLƏM SABAH GÖRÜŞƏ

Gələm sabah görüşünə
Hicran qapımı çalmaya.
Qaçım qonam öpüşünə,
Sənin xəbərin olmaya.

Qolun boynuma sarıla,
Həsrətin bağrı yarıla,
Arada yollar qırıla,
Gözlər xiffətdən dolmaya.

Uzanıb gedə cığırlar,
Alışıb yana bağırlar,
Sola ürəkdən ağrılar,
Heç bir qırıqlıq qalmaya.

28.10.2017

KABUSTƏK İZLƏYİR MƏNİ

Ayrılıq kabustək izləyir məni,
Gəl girək sevginin ağuşuna biz.
Candan artıq bilib sevirəm səni,
Onsuz da bir vurur billəm qəlbimiz.

Gerçək sevdamızı qoy bilsin hamı,
Göz yaşım dənizə dönməsin, tez gəl.
Sevənə şərbətdir saf eşqin kamı,
Ümid işığımız sönməsin, tez gəl.

Kövrək ürəyimə yaman düşmüsən,
Bahar çiçəkləri istəyən təki.
Yuxuda mənimlə çox görüşmüsən,
Ağlaram gecəmə yar deyən təki.

Qalmişam yenə də soyuq otaqda,
Uçuşur xəyalın pərvanə kimi.
Ümidlər çırpınır mənlə yataqda,
Mən də hıçqırıram divanə kimi.

04.11.2017

GƏL GÖRÜŞƏK

Gəl görüşək, kim nə deyir desin bizə,
Ürəyimiz eşqimizdən qanadlansın.
Həyat eşqi axıb dolsun qəlbimizə,
Könül şamın alışdıraq oda yansın...

Lap son görüş olsa da bu, gəl görüşək,
Ruhumuzu isindirək bir ocaqda.
Qoy vüsalın ayağına birgə düşək,
Həm xeyir var, həm də ki, şər olacaqda!

Kaş əvvəldən görməyəydik bir-birini,
Sən yanırsan, mən yanıram məsafə çox.
Faş etsək də biz dünyaya eşq sirrini,
Ömür adlı qovuşmayan səhifə çox.

Ayrılığa oc veririk dəhşətə bax,
Gözlərimiz baxır, susur dillərimiz.
İllər ötür, ürək çəkən zillətə bax,
Allah, nədən qovuşmayır əllərimiz...

Bəs ayrılıb gedəcəkdin, niyə gəldin?
Bulud təki yağış tökür gözlərimiz.
Bu son görüş ayrılıqmı deyə gəldin?
Qan ağlayır həsrət dolu sözlərimiz.

Biz əzaba ürəkləri qonaq etdik,
Bu sevdanın sonu heçdi mən bilirəm.
Ömrümüzü ayrılığa sınaq etdik,
Harda olsan çağır məni, yar gəlirəm...

Şadimanın ruhu sənə bağlanıbdı,
Yer-göy dönsə, mən dönmərəm heç vaxt səndən.
Eşq yolunda atəşlərə can yanıbdı,
Sən də, yarım, aləm dönsə dönmə məndən.

05.11.2017

BU GECƏ SƏNDƏN YAZACAM

Bu gecə səndən yazacam,
Bir azca yolumu azacam…
***
Misralarım axacaq yoxluğuna,
Ruhum girəcək qılığına,
Səni ürəyimə çəkmək üçün,
Könlünə sevgimi tökmək üçün.
Hamı yatacaq,
İşıqlar sönəcək,
Gecə öz evinə dönəcək,
Ay göy qübbəsindən boylanacaq,
Həsrət içində yanan
ruhumun başına haylanacaq.
Gözlərim yumulacaq,
Kirpiklərim qapanacaq,
Dərin yuxuya gedəcəm,
Sənin könlünə səyahət edəcəm,
Eşqinin hayqırtısını duyacam,
Qolların arasında uyacam
səndən xəbərsiz,
Nəfəsim könlündə qoyacaq iz.
Sən ayılmaq istəyəcəksən hərarətdən,
Mən doymayacam bu səyahətdən.
Ruhum səni ayılmağa qoymayacaq,
Ətrafdakılar mənim gəlməyimi duymayacaq.
Canım canına qovuşacaq,
Mənə əzab verən ayrılıq sovuşacaq.
Biz bu gecənin roya xoşbəxtliyin duymaqda ikən,
Eşqimizin şirinliyinə uymaqda ikən,
Sabah açılacaq,
Ruhum yenidən bədənimə sarı qaçacaq.
Mən gecənin röyasına sarılacam,
Sabahın gözü açılmamış sənsizlikdən qırılacam…
***
Gecəki röyamı yozacam,
Yenə növbəti gecə yolumu azacam…

08.11.2017

AĞRI VURUB GETDİN

Ağrı vurub getdin mənə,
Qəlb yarası çox göynəyir.
Dərdlə cəfa etdin mənə,
Ruhsuz bədən sağ neyləyir?!

Tökülürəm yarpaq kimi,
Ələnirəm torpaq kimi,
Qopub düşdüm saplaq kimi,
Payız ömrüm bağ neyləyir?!

Dəli eşqdən ürək azıb,
Taleyimə quyu qazıb,
Bəxti yazan qara yazıb,
Qara bəxtim ağ neyləyir?!

Şadimanı çək sınağa,
Tuş eylə min bir qınağa,
Fələyin vurduğu dağa,
Həsrət vuran dağ neyləyir?!

17.11.2017

AĞRINA QURBAN OLUM

Ey mənə ağrı verən
Ağrına qurban olum.
Eşqimlə ömür sürən
Bağrına qurban olum.

Bu nə həyəcan imiş,
Eşq dolu hicran imiş,
Yorğun düşən can imiş,
Yorğuna qurban olum.

Döyürsən könül qapın,
Qırırsan ürək sapın,
Gəlmisən qəlbə tapın,
Sorğuna qurban olum.

Şadimana xoş adın,
Çıxar həsrətin dadın,
Könlümü oğurladın,
Oğruna qurban olum.

29.11.2017

OTAQDA NƏFƏSİN QALIB

Getmisən, otaqda nəfəsin qalıb,
Üfürüb könlümə sala bilmirəm.
Qəlbimdə dəli bir həvəsin qalıb,
Sənsiz heç bir yerdə qala bilmirəm.

Gecələr yuxumu udur xəyalın,
Ürəkdən kənara qovmaq olmayır.
Qəlbimdə körpətək uyur məlalın,
Tükənir səbirim halım qalmayır.

Niskilli gözümü bürüyür qan-yaş,
Hər kirpik üstündən bir ah boylanır.
Mənimlə dost olub ömürlük tələş,
İndi taleyimi qəm varaqlayır.

30.11.2017

XƏYALINDA YAŞAYACAM MƏN

Daha xəyalında yaşayacam mən,
Xəyalın yadına salarsa məni.
Sənsizlik yükünü daşıyacam mən,
Ürək mücrüsünə salacam səni...

Qalasan mücrüdə mənimçin hər vaxt,
Hərdən qonaq olum gülüstanına,
Coşub qanadlana sənə tərəf baxt,
Alasan məni də özün yanına.

02.01.2018

YANDIRSIN SƏNİ

Həsrət qoy yandırsın səni,
Baxım tüstünə-tüstünə.
Eşqə boyandırsın səni,
Gəlim üstünə-üstünə.

Vüsalına qapı açım,
Günəştək qarşında saçım,
Hicran olsun yalnız suçum,
Durum qəsdinə-qəsdinə.

Bir ömürlük canım vardı,
Bir nağılmış yoxdu ardı,
Sevənimin adı yardı,
Desin bəsdi, nə bəsdi, nə?

01.12.2017

ÜRƏYİMƏ KÖÇÜRTDÜM DAHA

Səni ürəyimə köçürtdüm daha,
Ürəkdən bir kimsə qopara bilməz.
Cana eşq şərbəti içirtdim daha,
Sevgimi ayrılıq apara bilməz.

Sən harda olsan da yuxulara gəl,
Qoyma əlvidaya sarılım qalım.
Toxunsun ruhuna qoy azacıq əl,
Eşqinə sarılsın həsrətli halım.

Qovum ağılımdan qadağaları,
Hislər dolu təki yağsın üstümə.
Ahımdan çatlasın hicran dağları,
Durmasın ayrılıq daha qəsdimə.

Sən allah sovutma arzu-kamımı,
Sənə köklənibdi duyğum, diləyim.
Qoparıb könlümdən bu ilhamımı,
Sən olan yerlərdə gəzir ürəyim.

07.12.2017

AĞLADIRAM DÖZÜMÜ

Arzular ürəyimdə coşub daşan sel olur,
Yanır ürək həsrətdən gecə-gündüz kül olur,
Adını haraylayıb fəryad çəkən dil olur,
Gəlirsən göz önünə itirirəm özümü,
Məzarlayıb içimdə ağladıram dözümü.

Sənin də istəklərin yorulub gözləməkdən,
Ruhumu könlə çəkib onu əzizləməkdən,
Yandırıb duyğuları içində közləməkdən,
Küləklər qanadında yollayıram sözümü,
Məzarlayıb içimdə ağladıram dözümü.

Yığışıb getməyirsən ürəyimdən nə sirdi?!
Hara getdimsə, eyvah, gözlərim səni gördü,
Bəlkə ruhum neçə yol səninlə ömür sürdü,
Odur ki, mən eşqindən götürürəm közümü,
Məzarlayıb içimdə ağladıram dözümü.

Bu alışan duyğular mənə səndən söyləyir,
Həsrət dumantək çökür, bilsən ürək neyləyir?
Xəyalın eşqin ilə eşqimi sirr eyləyir,
Gecələr yastığıma sürtükcə mən üzümü,
Məzarlayıb içimdə ağladıram dözümü.

Yatağı isitməyir ayrılığın sərt üzü,
Çöhrəmə həkk olunub göz yaşımın dərd üzü,
Vusala qovuşmağın var imiş sərhəd üzü,
Xəyal qırıqlığına uğrayan Eşq özümü?!
Məzarlayıb içimdə ağladıram dözümü.

Min yol səndən qaçmağı özümə and içirəm,
Nə qədər qadağa var, hər birindən keçirəm,
Yenə sənə yetməyin yollarını seçirəm,
Göndərirəm könlünə sevda dolu izimi,
Məzarlayıb içimdə ağladıram dözümü.

Bir dəstə çiçək kimi saralıb soluram mən,
Adın dodaqlarımda hönkürüb doluram mən,
Ağlımı həbs eyləyib tək sənin oluram mən,
Allahımdan min kərə istəyirəm çözümü,
Məzarlayıb içimdə ağladıram dözümü…

Şadimanı atmısan ağrıların içinə,
Köksündə ürəyimdi sən boylan bax içinə,
Zamanımız ötüşür, ömür gedir biçinə,
Dikmişəm yollarına həsrət ilə gözümü,
Məzarlayıb içimdə ağladıram dözümü.

29.11.2017

KÜLƏK KİMİ

Dəli-dolu külək kimi
Əsəndə yaman əsirsən.
Ürəyimin tellərini
Qırmağa çox tələsirsən.

Onsuz da çəkə bilirəm
İllərlə mən qəlb yükünü.
Doldurma canım içinə
Gah sazağı, gah bürkünü.

Yaşadığım günlərimi
Canıma zalım sayıram.
Açılmaz düyünlərimi
Düşdüyüm halım sayıram.

Düz basıb yaram üstünə
Sonra da onu qanatma.
Aləm duran can qəsdinə,
Sən də uzaqdan daş atma.

Şadimanın həyatını
Puç edənə gücüm yetmir.
Sən sür-get hicran atını
Onsuz sənə əlim yetmir...

18.02.2018

VÜSALDAN UCADI

Həsrət vüsaldan ucadı,
Vüsala canı yandırır.
Tüstü çəkən bir bacadı,
Qəlbi odla oyandırır.

Ürək eşqə can atdıqca,
Ahından hicran doğulur.
Hissi canla qaynatdıqca,
Sevgi ağrıdan yoğrulur.

Həsrət vüsalı gizləyir,
Axtarsan tapa bilmirsən.
Ayrılıqla əziziləyir,
Odun ürəkdən silmirsən.

Həsrət eşqin ölçüsüdü,
Tərəzisin düz eyləyir.
O sevdanın elçisidi,
Düşüb qəlbə köz eyləyir.

Sevməyənə qapı açmır,
Sevən qəlbi ocaq edir.
Qovlasan da candan qaçmır,
Qəfil gəlir, qəfil gedir.

Şadimandan sorma halı,
Həsrət cana eşq eləyir.
Qovub qapımdan vüsalı,
Həyatımla məşq eləyir.

01.02.2018

NİYƏ SEVDİN...

Açılan səhərimi
Kədərə boyamısan?
Hər gecə qəhərimi
Yatıran röyamısan?!

Töküb könlümə çəni,
Niyə sevdin sən məni?!

Zülmət də qaranlıqdan
Sapmaqçın Ayı sevir.
Onda gəl viranlıqdan
Al könlü, qəmi devir...

Töküb könlümə çəni,
Niyə sevdin sən məni?!

Gecə işıldaquşu
Deyiləm ki, yatmayım.
Bu könül uçulmuşu
Al həsrətdən, batmayım...

Töküb könlümə çəni,
Niyə sevdin sən məni?!

Gecələr kabus kimi
Üstümə cumur həsrət.
Bir divanə hiss kimi
Qonub canıma illət.

Töküb könlümə çəni,
Niyə sevdin sən məni?!

Bu sevgini eşq ilə
Ovutmayacaq idin,
Ayrılıq çəkir ilə,
Qayıtmayacaq idin...

Töküb könlümə çəni,
Niyə sevdin sən məni?!

Şadimanın ruhunu
Ah ilə oynadırsan.
İki qəlb günahını
Ocaqda qaynadırsan...

Töküb könlümə çəni,
Niyə sevdin sən məni?!

07.01.2018

İŞIĞINA SIĞINMIŞAM

İşığına sığınmışam,
İşığın yaman kəsilib.
Hər ümidimdə yanmışam,
Ümidimi canım bilib.

Doğdun könlə günəş kimi,
Atəşinə bürünmüşəm.
Ey həyatımın həkimi,
Gözlərində görünmüşəm.

Gözlərindən ürəyinə
Köçürmüsən məni yəqin.
Çevrilmişəm diləyinə,
Canım olub indi sevgin...

21.02.2018

ADSIZ MƏKTUB

Görüşdük, ayrıldıq, yenə də getdin,
Yenə içərimdə sıçrayış etdin!
Yenə də könlümü gəlib ram etdin.
Hisləri coşdurdun, birgə kam etdin.
Yenə də əqlimi, ruhumu aldın,
Qəlbi parçalayan ahımı aldın,
Bir körpə çocuqtək köksünə saldın,
Ovutdun eşqinlə, ehtirasınla,
İsitdin ruhumu xoş təmasınla.
Qəlbimdən şaxtanı, buzu əritdin,
Qovdun soyuqluğu, canı isitdin,
Könlündən könlümə günəş boylandı,
Yenə də başıma dünya haylandı.
Sən demə ucada məhəbbət imiş,
Bu ülvi sevgiyə ibadət imiş!

***

Getmisən yenə də, mən darıxıram,
Sənə öz canımtək, sanki baxıram,
Sənsiz yerdə, göydə mən heçəm bilsən,
Gəlib göz yaşımı əlinlə silsən.
Gecələr üstümə zülmətin sərir,
Eşqimin bağından könlüm qəm dərir.
Ayrılıb gedəndə göz buludlayır,
Ürək qopur candan, təndən adlayır.
Həsrətin yaşına bükülür gözlər,
Canım ancaq səni, səni əzizlər.
Sənin gəlişinə dünya gülmüsər,
Unutsan həyatım ömürdən küsər.

***

Dün gecə yuxuma gəlmişdin yenə,
Sənin eşqin ilə alışdı sinə.
Qolların boynumda dolaşdı qaldı,
Canım canın ilə ulaşdı qaldı.
Qəfil gəlişinə nitqim tutuldu,
Ürəyim üstünə bir boy atıldı.
Tənim yana-yana baxdı könlümə,
Sənin atəşini yaxdı könlümə.

***

İlk görüş gününü xatırlayıram,
Canımdan canını necə ayıram?!
Heç adın dilimdən qopmur neyləyim?
Ürək istəyindən sapmayır neylim?!
Sənsiz günlərimi heç sayıram mən,
Ötüb gedən ömrü puç sayıram mən.

***

Hərdən qəfil gəlir adın dilimə,
Gizlicə salıram onu könlümə.
Bir körpə uşaqtək əzizləyirəm,
Sənə pıçıltıyla canım deyirəm.
Bəlkə doğrudan da canımsan mənim,
O üzdən həsrətdən uçunur tənim.
Sənin iltifatın ömrümə günəş,
Axdı ürəyindən qəlbimə atəş.
Bilmədim bu günah, ya bir müjdəmi?
Ruhuma köç etdi o görüş dəmi.
Unutdum hardayam, ömrüm kiminlə?
Mən oturub-durdum yalnız əmrinlə.
Birdə ayıldım ki, artıq səninəm,
Sənincün çağlayır ömrümdə hər dəm.
Sənə doğru uçur bütün diləklər,
Şükür ki, bir-birin tapdı ürəklər.
Bəlkə ömrüm boyu səni gəzmişəm,
Sənsizlik içində canı üzmüşəm.
Qəhər boğub məni illərlə demə,
Mən boyun əymişəm qul kimi qəmə.
Mənə möhnət verib ömrün ayları,
İçimdə hıçqırtı salıb vayları.

***

Səni itirməkdən qorxuram ancaq,
Sönməsin ruhunda alışan ocaq.
Bir körpə uşaqtək sığınım sənə,
Sevdir qalan ömrün illərin mənə.
Fırlanıb küləktək başına yarım,
Sənsən ilahidən dünyada varım.

***

Səndən gələn eşqi çözməyə dəyər,
Nə yaxşı sən varsan dözməyə dəyər.

05.02.2018

KÜSÜB GEDİB ÜRƏYİM

Çıxıb candan, küsüb-gedib ürəyim,
Səsləyirəm gedən gündən, gəlməyir.
Qaytaraydı onu mənə fələyim,
Nə müddətdi kimsə yerin bilməyir.

Çox hayladım, çox səslədim onu mən,
Sonra bildim, gedib sənin dalınca.
Bilmədim ki, bu sevgidə yönü mən,
Gecə oldu yaşı tökdüm balınca...

Zalım fələk niyə ömrü uzatdı?
Həsrət məni yar elədi özünə.
Sənə sarı can atanda daş atdı,
Uşaq kimi durub baxdım sözünə.

Ürəyimdə xəyallara yer etdim,
Körpə kimi ağladılar gecələr.
İçimdəki ağrıları böyütdüm,
İndi mənlə bir yataqda gecələr...

Şadimanı çəkir tale sınağa,
İmtahanı qiymətindən bilinir.
Bir gün olar tuş gələrəm qınağa,
Bu sevdanın illətindən bilinir.

03.03. 2018

GƏL SİL ÖZÜN

Gəl sil özün gözlərimdən əksini,
Hər tərəfdən boylanırsan üzümə.
Bilirsənmi ürəyimin çəksini?
Ocaq tapmır dünya boyda közümə.

Atəşlərə yaxacaqdın məni sən,
Niyə tökdün ürəyimə çəni sən?
Yaxdın ağrı, acılara təni sən,
Ona görə gələ bilməm özümə.

Ağrı ürək atəşində bişirmiş,
Pak sevgidən ürəyə od düşürmüş,
İndi bildim, qəlbim niyə üşürmüş?!
Sevmə dedim, o baxmadı sözümə.

Danlayıram xeyli vaxtdı hissimi,
Qəlbim yanır, heç görmürsən tüstümü?
Bu odumdan söylə sənə istimi?
Çox təsəlli verdin bəsdir dözümə.

Şadimana dil tökürsən bülbültək,
Qopartmısan öz kolundan bir gültək,
Saralmışam boynubükük sünbültək,
Surətinlə əzab vermə gözümə...

03.03.2018

QONAQ GƏLİB XƏYALIN

Qonaq gəlib xəyalın,
Onunla dərdləşirəm...
Demə, müdhiş vüsalın,
Gözlərindən düşürəm.

Pıçıltılar içində
Sevgisindən danışır.
Bir ümid var içində
Arzularla yarışır.

Qorxa-qorxa əlimi
Uzatdım ona sarı.
Qucaqladı belimi
Unutdurdu ah-zarı.

Kölgə kimii süründü
Sakitcə pəncərəyə.
Günəş təki göründü
Atəş düşdü ürəyə.

Pıçıltıyla həsrəti
Lənətlədi min kərə.
Öpmək idi niyyəti,
Utandı baxdı yerə.

Alıb candan diləyi
Bir gül təki qoxladı.
Oxşayaraq ürəyi
Qollarımda yuxladı.

Nə vaxtdı yatıb-qalıb
Ayıltmağa qorxuram.
Mən də ondan kam alıb
Gizli-gizli baxıram.

03. 03.2018

BOYLANIM XƏZƏRƏ SARI

Deyirsən boylanım Xəzərə sarı,
Boylanıb baxıram, görmürəm səni.
Həsrət könlə doğur min bir ah-zarı,
Beləmi bəxtəvər edirsən məni?!

Mənim ruhum çaşqın dəlilər kimi,
Hönkürür sükuta bürünən qəlbə...
Yadından çıxmışam ölülər kimi,
Nə deyim arxanca sürünən qəlbə....?!

Səhərim gecəmə qəhqəhə çəkir,
Sükuta bürünmüş saniyələr ağlar.
Məni sənə tərəf bilməm nə çəkir,
Əgər bu eşqdirsə neçin qəlb dağlar?!

Xəzər şahə qalxır, xəzri göynəyir,
O da həsrətimə ağlayır sanki.
Soruşsan, ürəyim sənsiz neyləyir?
Ruhuma qar yağır göydən inanki...

Buzların içində donub qalmışam,
Yazın qoxusu var, könlüm üşüyür.
Canım zülmətimə alışdırır şam,
Kirpiklər gözümdən acı yaş üyür.

Deyirsən boylanım baxım Xəzərə,
Dalğalar sözünü gətirsin mənə.
Bəlkə dönüm selə axım Xəzərə,
Üşüyən tənimi yetirsin sənə.

Şadiman qəlbiylə qanlı davada,
Eşqini canımdan qoparmaq istər.
Uzanı əllərim qalıb havada,
Ruhumu Tanrıya aparmaq istər...

09.03.2018

DEYİRSƏN DARIXMIRSAN

Deyirsən darıxmırsan? Darıxmayım neyləyim?
Aylarla bir-birinə yetişməyir dilimiz.
İçimdə könlü didən dərdi kimə söyləyim?!
Həsrətə misra düzüb, dastan yazır əlimiz.

Ağrıdan gecələri alışıram, yanıram,
Sən yuxuma gəlirsən, diksinib oyanıram,
Hövlanak yatağımda çırpınıb oylanıram,
Beləcə ötüb keçir həsrət dolu ilimiz.

Yenə sabah açılır, baş qarışır iş-gücə,
Tələsən adamlarla dolub daşır bu küçə,
Taleyin uğuruna saniyələr seçə-seçə,
Sızıldayır, inləyir məsum könül telimiz.

Bax yenə də baharın iyi gəlir havadan,
Qaranquşlar, sərçələr boylanırlar yuvadan,
Eşqinə səcdə edən dilim düşmür duadan!...
Gizli ocaq çatmışıq, tüstülənir külümüz...!

Bilmirəm bu ağılın, ya hislərin diqtəsi,
Bəlkə nə vaxt tükənib qoyulacaq nöqtəsi,
Amma etiraf edim, sən ruhumun qitəsi,
O qitənin dörd yanı ətir saçır gülümüz.

Hər gecənin sükutu ağrıma şərqi oxur,
Segah iniltisitək dolub qulağa axır,
Sükut da canlı kimi durub üzümə baxır...
Qarışır bir-birinə gözdən axan selimiz.

Niyə ünvanlayırsan Şadimana sualı?!
Həbs etmisən içimdə əzab dolu vüsalı,
Kimə söyləyim axı tabı qalmayan halı?!
Birləşə bilməyirik, bir olsa da elimiz!...

15. 03.2018

GÖR NƏLƏR EDİRSƏN

Sən gör nələr edirsən,
Alırsan əqli başdan.
Aralanıb gedirsən,
Gözüm qurumur yaşdan.

Girirsən ürəyimə
Onu odlandırırsan.
Can deyib diləyimə,
Orda eşq yandırırsan.

Məhəbbət özü canlı,
Ürəyə girdi çıxmır.
Gün keçir həyəcanlı,
Qəlbim sözümə baxmır.

Yalvarıram unutsun,
Birdəfəlik sevgini.
Səni ürəkdən atsın,
Açılsın qəm düyünü.

Ürəyim baxmır sözə,
Çırpınır sənə doğru.
Çıxıb qəm seli düzə,
Harda gizlədim bağrı?

Sən gör nələr edirsən,
Öldürürsən Şirini.
Canla eşqə gedirsən,
Açım deyim sirrini...?!

10.04.2018

BİR İŞIĞAM MƏN SƏNƏ

Bir işığam mən sənə,
İşığını söndürmə.
Salıb ürəyi çənə
Ora gürşad göndərmə.

Həyatında mən varkən,
Kiminlə ömrün, anın?
Həsrətlə qəlb oyarkən,
Necə isinir canın?!

Yıxmısan könlüm evin
Daşları bir-bir çökür.
Yoxam ürəkdə sevin,
Gözüm indi yaş tökür.

Ayrılıq odu məni
Yandırıb kül eylədi.
Sildim qəlbimdən səni
Bir gör könlün neylədi?!

Ruhum alıb eşqimi
Apardı kainata.
Gözdən salıb eşqimi
Qoymadın kama çata...

03.03.2018

SƏN MƏNİ NİYƏ SEVDİN

Sən məni niyə sevdin?
Eşqə zülüm deyirlər.
Bu sevdaya can dedin,
Zülmü necə öyürlər?!

Düşmüşəm ağrısına,
Nə edim ağrı sına?

Dost ol, ürəyi sına,
Qəlbi qəmlə döyürlər.

Etmə Şirinə peyman,
Bu eşq eləməz dərman,
Haqdan gəlsə də fərman,
Haqq yolunu əyirlər.

10.04.2018

BU EŞQƏ İNANDIRMA

Sən məni bu eşqə inandırma gəl,
Eşqimi əlinlə dəfn eləmisən.
Ölən hislərimi oyandırma gəl,
İçimə ah dolu qəm bələmisən...

Hər şeyi puç etdin əməllərinlə,
Qapartdın necə bəs eşq yuvamızı?!
Hördün hicran toru öz əllərinlə,
Göylər də unutdu can duamızı.

Səni öz canımdan əziz bilirdim,
Əziz əzizini belə sayarmı?!
Sevgini sevgimdən təmiz bilirdim,
Sevən cəllad olub qəlbi oyarmı?!

Qəlbim çilik-çilik büllur qab kimi,
Əl vursan dağılar, toxunma ona.
Bağrıma dolmusan iztirab kimi,
Bir qığılcım yetər alışıb yana.

İçimə səpmisən qısqanclıq tumu,
Zəmisi boy atıb biçimə hazır.
Dadıram dilimi yandırır tamı,
Gözüm buludlayıb, əlim dərd yazır.

Arama heç yerdə sən Şadimanı,
Sevən öz eşqinə xəyanət etməz.
Uçurdub can mülkün, pozub səhmanı,
Vurulub özgəyə cinayət etməz.

25.04.2018

ŞƏKİLİNƏ BAXIRAM

Göndərdiyin şəkilinə baxıram,
Baxışından həsrət, hicran tökülür.
Günlər ötür, mən də ürək yaxıram,
İnan sənsiz bağrım içi sökülür.

Bilirəm ki, darıxırsan mənimçin,
Mən də vallah yandırıram qəlb için,
Gəlməyirsən söyləsənə bəs neçin?!
Kipriklərim göz yaşıyla bükülür.

Küləklərlə yollayıram səsimi,
Susmağımla bildirirəm küsümü,
Dilimdədi sevdiyimin isimi,
Duman təki röyalara çəkilir.

Şadimana sevgi dolu can dedin,
Sonra canı alıb məndən yan dedin,
Ayrılıqla dilbir olub qan dedin,
Nədən gözüm yollarına dikilir...?!

12.04.2018

APAR MƏNİ BURALARDAN

Həyat qəlbə acı çəkir,
Necə çıxım qaralardan?!
Könlə dərdi sellə tökür,
Apar məni buralardan.

Canım qaçır bədənimdən,
Bir xəbər yox gedənimdən,
Qurtar qanım içənimdən,
Apar məni buralardan.

Nəfəsimə hicran qonub,
Ağlım çaşıb, könül donub,
Ürəyimi dərdin yonub,
Apar məni buralardan.

Şadimandan gedib canı,
Ona üsyan edib canı,
Gəl özün ol onun canı,
Apar məni buralardan.

20.04.2018

KÜL ÜFÜRMƏ

Kül üfürmə gözlərimə,
Odun gedib külün qalıb.
Hicran tökdün izlərimə,
Boş danışan dilin qalıb.

O ürəkdən bu ürəyə
Köçməklə nə qazanırsan?!
Könlün dönüb bir xəlbirə,
Hər yetənə çox yanırsan.

Mən daha unutdum səni,
Cəhdi boşa heç xərcləmə.
Ürəyimdən atdım səni,
Bəxtim ilə mərc eləmə.

Çox qaçırsan ora-bura,
Eşq hislərə daim bağlı,
Vurdun bağra min bir yara,
Vaxt yetişib bitir nağlı.

Şadiman can xəstəsidir,
Dərmanını göydə arar.
Gedib gələn nəfəsidir,
Yerə-göyə özün vurar.

18.06.2018

NƏ VAXTSA AYRILARIQ BİZ

Bilirdim nə vaxtsa ayrılarıq biz,
Ayrılıq qapımı kəsdi, neyləyim?!
Həsrət əzabından oylarıq biz,
Arada tufanlar əsdi, neyləyim?!

Vallah göz yaşıma düzdüm məktubu,
Ağrılar içində üzdüm məktubu,
Könlümün qanından süzdüm məktubu,
İki sevən qəlbə qəsdi, neyləyim?!

Misralar hönkürür kağızın üstə,
Hicran sillə vurur ağızın üstə,
Aşıq dastan etsin qoy sazın üstə,
Dilim sənə deyir bəsdi, neyləyim?!

Bu da bir ömürdü yaşayırıq biz,
Hicran əzabını daşıyırıq biz,
Yara köz bağlayır, qaşıyırıq biz,
Ömrüm başdan-başa nəhsdi, neyləyim?!

Şadiman içindən yanıb tökülür,
Səni düşünəndə canım sökülür,
Yumaqtək ürəyim dərdə bükülür,
Harayın can didən səsdi, neyləyim?!

17.05.2018

SƏN DƏ ÜRƏYİMƏ ÇƏKİRSƏN DAĞI

Ey mənim könlümü ovlayan ovçu,
Vurdun ürəyimə, yaralı oldum.
Bu dərddən Tanrıya mən ki, duaçı,
Atdığın nişanın maralı oldum.

Sən də ürəyimə çəkirsən dağı,
Həsrətin dodağda, dilimdə ağı,
Gəlmir nə zamandı eşqin sorağı,
Dərdindən heyvatək saralı oldum...

Bir könül vermişdin düşdüm əlindən,
Büllur çilçıraqtək saldın əlindən,
Batarsan gözümün həsrət selindən,
Bəxtin gətiribdi, aralı oldum.

Gedib dağda, düzdə gəzirsən kimlə,
Eşqin dəryasında üzürsən kimlə,
Mən özüm-özümə dərdəm çəkimlə,
Ağrımın hökm edən mən kralı oldum.

Bilirsən, ömrümdən qırıla bilməm,
İlhamım gəlməsə vurula bilməm,
Axan sellər təki durula bilməm,
Sel ağzına düşüb, haralı oldum?

Ölümüm gəlmədə, çıx bax yollara,
Götür uşaq kimi məni qollara,
Düşmüşəm çarəsiz haldan-hallara,
Bəlkə də ömrünün vüsalı oldum.

01.05.2018

"MƏNİM EVİM SƏNSƏN" DEMİŞDİN

"Mənim evim sənsən" demişdin mənə,
Evin çönmədədi xəbərin varmı?!
Həyatda nə varsa sevmişdin mənə,
Həqiqi sevənlər xəyal qovarmı?!

07.05.2018

ÜRƏYİMƏ SALMIŞAM SƏNİ

Sən özün qısqanclıq toxumu səpdin içimə,
Bir yer qoymadın seçimə...
İndi onlar cücərib sünbül kimi boy atıb,
Göz yaşımla sulayıram hərdən bir.
Yenə başı batmış bəxtim başını atıb-yatıb.
Yenə həsrətin könlümü bıçaq təki kəsir.
Səni ürəyimdən qovmaq istədim kənarə,
Xəyalın hər gecə yapdı mənə minarə.
Hər gün minarədən ucaldı fəğan səsi,
Kəsdi nəfəsi...
Bu səs mənim sənə olan eşqimin fəryadı,
Özün qoy adı,
Sevginin adı olmalıdı,
O öz adınla birgə qalmalıdı.
Səpdiyin qısqanclıq toxumunun zəmiləri saralıb,
Gözlərim yoluna baxmaqdan qaralıb.
Telləri tarıma çəkilmiş ürəyimdən bir simi qırdın,
Heç bilirsən nəyi qırdın?
Qırdığın səni sevən ürəyim,
Mənə güvən, Ürəyim...
Nə olar tərk etmə məni...
Ürəyimə salmışam səni...

29.05.2018

GÜNÜN NECƏ KEÇİR

Mənsiz günün necə keçir?
Nə edirsən oralarda?
Mənim günüm gecə keçir,
Ruhum batır qaralarda.

Ağrı çəkən ürəyimi
Axı necə mən ovudum?
Sənə bağlı diləyimi,
Göz yaşıma atıb yudum.

Ruhum məndən küsüb gedib,
Hönkürürəm uşaq kimi.
Ümidimi kəsib gedib,
Dərdin olub can həkimi.

Həkim dərdə əlac edər,
Sənin eşqin sürgün olub.
Qəminə yox ölçü, qədər,
Damla-damla könlə dolub.

Şadimanın gəl al canın,
Canım daha ağrı olub.
Nə yamanmış bu hicranın,
O eşqindən doğru olub...

06.06.2018

İNANMIŞDIM

Sənə yaman inanmışdım,
Inamımı vurdun yerə.
Qəlbimə sevdam anmışdım,
Aldı uddu bir boş dərə.

Könlümü ocaq etmişdin,
Ocaq sönüb külü qalıb.
Sən ki ruhuma yetmişdin,
Ruh uçub, tən ölü qalıb.

Könül bağımı soldurdun,
Xəzan düşüb gülzarına.
Həsrətlə məni doydurdun,
Canım uçur məzarına.

Günlərlə evdən qaçırsan,
Sevdiyinlə kefinə bax.
Haçansa mənə acırsan,
Mən axmağı yandırıb yax...

25.07.2018

ƏLİMDƏN DÜŞÜB QƏLƏMİM

Əlimdən düşüb qələmim,
Vərəqlər ağlar halıma,
Pıçıldayır söz aləmim,
Buludlayır əhvalıma.

Misralar cana bələnir,
Hər biri min avazdadı.
Içimə sevgi ələnir,
Möhləti əcəb bal dadır.

Nəfəsimdə bülbül oxur,
Yazmağa əl tapmayıram.
Könlümdə qazılıb çuxur,
Günləri bir-bir sayıram.

Mən ki, halımı ərz etdim,
Sən də yetir fələklərə.

Demə ki dərdi böyütdüm,
Möhnət verdim ürəklərə.

Şadimana etmə cəfa,
Cəfa canda yara açar.
Dil sənə deyir bivəfa,
Ürəyim yanına qaçır...

07.07.2018

YOLLARA ÇOX BAXDIM

Durub yollara çox baxdım,
Yollar ağladı, gəlmədin.
Ürəyi yandırıb-yaxdım,
Sinəm dağlandı, gəlmədin.

Göy doldu, bulud qaraldı,
Gözümün kökü saraldı,
Dağları yenə qar aldı,
Yolmu bağlandı, gəlmədin?!

23.02.2019

BİLSƏN NECƏ SƏNSİZƏM

Eşqin candan boylanır, bilsən necə sənsizəm,
Heç sabahı demirəm, mən hər gecə sənsizəm.
Dolaşır otağımda balaca pərvanələr,
Onlar da mənim kimi eşqinə divanələr.
Lampanın dövrəsində tutuşublar əl-ələ,
Külə dönüb yanmağın acısın bilə-bilə.
Mən də pərvanələrtək gecəyə şam oluram,
Zülmətə layla çalan xəfif axşam oluram.
Həsrətin otağıma kabus kimi boylanır,
Gözümdə yaşı boğur, kirpiyimdə oylanır.
Hardasan? ?Neynəyirsən? Canım, soraq et mənə,
Bu həsrətli könlümü götürüb gəlim sənə!
Unudum umküsünü bir az sorum halını,
Bir ətirli çiçəktək qoxlayım vüsalını.

21.10.2018

SEVGİ YÜKÜNÜ

Bir sevgi yükünü daşıyıram mən,
Ağlımdan aləmə heyrət qışqırır.
Bilməm, sənsiz necə yaşayıram mən?
Ağrım gurşadlartək göyə fışqırır.

Nə sən necə varsan ola bilmirsən,
Nə mən əvvəlkitək qala bilmirəm.
Könlümə izini sala bilmirsən,
Mənsə ürəyini ala bilmirəm.

Dönüklük uçruma dönüb arada,
Dolan gözlərimin buludu susmur.
Hərdən şimal buzu olur ara da,
Qəlbin harayıma heç qulaq asmır.

Kətantək süzülür sevgi köynəyim,
Get-gedə ürəyim lüt-üryan olur.
Yəqin ki, bezdirir səni göynəyim,
Amma yanan qəlbim lap büryan olur.

Bu nə bilməcədir, bu nə tapmaca?
Cavabı tapılmaz sirdi içimdə.
Bil ki, Tanrım təki sevgin də uca
Qiyməti bilinməz dürdü içimdə.

Çəkirik gizlicə sevgi yükünü,
Yorulub qalmışıq ömür yolunda.
Qopart ürəyindən qorxu-hürkünü,
Uyuyum bir anlıq mən də qolunda.

Bir sevgi yükünü daşıyıram mən
Ağlımdan aləmə heyrət qışqırır.
Bilməm, sənsiz necə yaşayıram mən?
Ağrım gurşadlartək göyə fışqırır.

23.07.2018

OD VURURSAN MƏNƏ

Yaman od vurursan mənə,
Odun canda köz eyləyir.
Üz çevirib getdin yenə,
Bütün aləm söz eyləyir.

Ürəkdən həsrət süzülür,
Yollarıma ah düzülür,
Vallah bu canım üzülür,
Daha mənə üz eyləyir.

Ölüm düşmüşəm qoluna,
Ruhum əlində buluna,
Gözüm sürünür yoluna,
Eşqim deyir düz eyləyir.

Ora -bura qaça-qaça,
Başıma dərd aça-aça,
Az qalıb ümidim uça,
Sevgin qəlbdə iz eyləyir.

Şadiman aha çevirilib,
Eşqi günaha çevrilib,
Gözümdə dünya devrilib,
Dilim mənə döz eyləyir...

03.08.2018

HƏSRƏT DOLU GÜNLƏRİM

Həsrət dolu günlərim şığıyır üzərimə,
Bir yerdə ola-ola bir-birindən ayrıyıq.
Məsafələr uzanır ilğım dolur dərimə...
İçimin ağrıları könlümə qazıb oyuq...

Gözlərinin hicranı gözümdə yatıb durur,
Səsin qulaqlarımı oxşayır mehlər təki.
Otaqda gəzən ruhun ruhuma mağar qurur,
Gözümdən süzülən ah oylanır şehlər təki.

Necə deyə bilərəm sənsiz yaxşıdır halım?
Bil ki, bunu desəm də dilim yalan söyləyir.
Bilirəm ovsunlayır səni məsum vüsalım,
Sənsiz olan hər günüm məni məndən aralır.

Bircə anlıq görüşün atəşi ilə yanırıq,
Baxışlar toqquşduqca alov çıxır başımdan.
Bir yerdə olmamızı ümidlərlə anırıq,
Gündə min yol keçirsən həsrət ilə qarşımdan.

Bilirəm ki, arada dərin bir uçurum var,
Onu adlayıb keçmək hər bəxtə yazılmayıb.
Ilahidən bəxtimə yazılmamısansa yar,
Özün yaxşı bilirsən bunu el sayır ayıb.

Şadimanın içində bilsən necə çaxnaşma?!
Canım səni istəyər, ağlım səndən yan qaçar.
Sən də ağlına tapın belə qaynayıb daşma,
Bəlkə bəxt üzə gülər bağlı qapını açar...

15.08.2018

EH, BİLMİRSƏN

Eh, bilmirsən necə də sənə sevgim böyükdür.
Ürəyimdə həsrətin qəlbimə ağır yükdür.
Yuxumdan gülmüsəyib boylanırsan hər axşam,
Güman etmə səbirli, lala dönmüş bir daşam.

Bax səbrimin ağrısı ciyərimi ovxalar,
Gözlərimdən yol alıb gözlərinə yuxular.
Qapının kəndarında ayaq izim boylanır,
Ruhum kabusa dönüb gecələrdən oylanır.
Yüklənib kirpiyimə yaş dolu qəm-kədərin,
İnanmaq çətin olur insafına qədərin.

***

Dünən görüş demişdin, görüşümə gəlmədin,
Mənim nə çəkdiyimi yəqin ki, heç bilmədin.
Bir anlıq daş-divarım buza döndü üzümə,
Ürək elə hönkürdü, heç baxmadı sözümə.
Dedim, yəqin unutdun varlığımı əbədi,
Sənin sevgin var ikən içdə şübhələr nədi?!
Qaçdın verdiyin sözdən, dedin hava soyuqdu,
Bilmədin ki, ayrılıq aramızda duyuqdu.
Dilin uydurub tökdü qalmadı sözü daha,
Həsrətin izin qoydun gəlməmişdən sabaha.

***

İşlərini sevgidən üstün tutdun bəs niyə?!
Dildə yüz kərə mənə mələyim deyə-deyə...
O gün görüş yerimiz ağladı hönkür-hönkür,
Gözümdə qaynadı yaş, sanki coşdu Araz-Kür...
Biməm niyə dəyişib, niyə başqalaşmısan?!
Bəlkə ayrısın tapıb onunla ulaşmısan?
Eləsə hali elə ürəyinin mətləbin,
Mən bəxtsizin üzünə qapısı bağlı qəlbin.
Axı sənə yetməkçin ürəyim tələsirdi,
Payız yarpağı təki titrəyirdi, əsirdi.

***

Bu titrəyiş könlünün tellərin əsdirmədi,
Səni görüş yerinə heç də tələsdirmədi.
Nədən baş verdi bilməm aramızda uçurum?
Endi ayaqlarına tapdalandı qürurum.
Ürəyimin bir simi qırıldı düşdü köksə,
Eşqim candan ayrıldı, hər anda hissə-hissə.
İndi sınan qəlbimə yamaq salmaq çətindir,
Tərk edilmiş ürəyim sənin cinayətindir!
Şadimana bir daha mələk deyib tovlama,
Ürək uçan quş deyil, tutub onu ovlama...

21.10.2018

GÖRƏ BİLMİRƏM

Dünya neyləsin ki, yalanlar artıb,
Gəlir mənə sarı gərə bilmirəm.
Qəlbə zəhər vuran ilanlar artıb,
Allah verən ömrü sürə bilmirəm.

Deyirsən sevirsən dildə, ağızda,
Mənə yazdıqların yatır kağızda,
Hərdən səslənirsən min bir avazda,
Amma ürəyini görə bilmirəm.

Çox vaxt itirirəm sənə inamı,
Ümidim məzarda yatırır kamı,
Sevgi də könlümün həyat ehkamı!
Onu çəkər kama dərə, bilmirəm.

Cana hopan eşqdən qaçılan deyil,
Özülü möhkəmsə uçulan deyil,
Qəlbim qonaqlığa açılan deyil,
Ürək süfrə deyil, sərə bilmirəm.

Şadiman həsrətə edib könlü şam,
Alışıb yanıram hər səhər-axşam,
Söylə bu eşq ilə necə barışam?!
Bağından bir çiçək dərə bilmirəm.

11.10.2018

KAM ETMİŞƏM EŞQİNİ

Məni sevən ruhuma kam etmişəm eşqini,
Gecələrdə xəyalın yuxumda gerçəkləşir.
Ürəyin zülmətinə şam etmişəm eşqini,
Həsrətin gəlişləri könlümdə seyrəkləşir.

Ya Tanrının yazısı, ya tale zarafatı,
Hansı yönə əxz edim, hələ duya bilmirəm.
İlahimi yollayıb kainatdan urvatı?
Qəlbim sevginə açıq, candan silə bilmirəm.

Əlinin hərarəti qanımda məskən salıb,
Saralan payızıma baharı qonaq edib.
Ürəyimdən izinsiz gözüm yolunda qalıb,
Bu qəfil məhəbbəti bəxtimə sınaq edib.

Sısqa yağış damlası döyəcləyir şüşəni,
Pəncərəmin önündə xəyalın bardaş qurub.
Bu xəyal qəhqəhəsi artırdıqca nəşəni,
Fərəhdən bəbəklərim gözlərimdə yaş qurub.

Gəl həsrətlə çarpışıb öpüşək gizli-gizli,
Əzilən ruhumuza dinclik olsun bu görüş!
Mənim səadətimə, sən ey bəxti dənizli,
Eşqi udar dalğalar, şahə qalxıb titrəyiş!

Ovcumda əllərinin istisi atəş doğur,
Neçə il görüşməsək bu ruhuma bəs edər.
İki sevən ürəyi nə vaxt tapar bəs uğur?
Tələs eşqə sahib ol, yoxsa duyan nəhs edər.

Şadimanın Tanrıdan təmənnası bil budur,
İncidilən qəlbimin dəvası sən olasan.
Doğulanı dünyada bir gün bu torpaq udur,
Ruhumun yaddaşında əbədi sən qalasan…

08.11.2018

EŞQ DOLU ÜRƏK VERMİŞƏM

Mən sənə eşq dolu ürək vermişəm
Sənsə baş götürüb evdən qaçırsan.
Sevdamı nazlayan dilək vermişəm
Diləyin başına oyun açırsan...

Məndən baş götürüb qaçmaqmı eşqin
Həsrət heç bir zaman vüsal gətirmir.
Gözümdən uzağa uçmaqmı eşqin
Tənlik düz olmsa əmsal gətirmir.

23.08.2018

SƏNƏ DİKİLMİŞ YOLLAR

Sənə dikilmiş yollar,
ürəyimi aparır.
İçimdə ümid dolı
fırtınalar qoparır.

Sükut dolu otağım
Gözümdən yaş axıdır.
Buza dönmüş yatağım,
Həsrətin qəm ahıdır.

Nəfəsinin atəşi
divarlara hopubdur,
Ruhum yuxularında
Yenə səni tapıbdır.

Ümidliyəm bir səhər
Uyğularım çin olar.
Boğmaz boğazı qəhər,
Səni gətirər yollar...

25.11.2018

NƏ UZAQ DÜŞMÜSƏN

Nə uzaq düşmüsən dərdimi bilən,
Dərd məni sovurdu göyə gəlmədin.
Axan göz yaşımı yanaqdan silən,
Çağırdım, səslədim, niyə gəlmədin?!

Harayım gecədən səhərə düşdü,
Min dəfə kədərlə günüm görüşdü,
Taleyim ömürdən sürüşdü düşdü,
Məni ölmüş bildin deyə gəlmədin.

İndi uzaqlarda səsin dolaşır,
Günüm həsrətinə düşüb bulaşır,
Aylar bir-biriylə əhdlə yollaşır,
Yandım, tüstüləndim iyə gəmədin.

Sən gedəli gündən hicrana qulam,
Qoymursan məni də hamıtək olam,
Ümidim var idi sorağın alam,
Ürəyim özünü öyə gəmədin.

Mən ülfət süfrəsi açdım gözlədim,
Əqrəbin sədasın çox əzizlədim,
Saat yol aldıqca vaxtı izlədim,
Qədəhə süzülmüş meyə gəlmədin.

Çıx get, gedəsisən dönmə geriyə,
Qoyma ürəyimin yağı əriyə,
Sığmayır vücudum daha dəriyə,
Nə qədər cəhd etdim səyə gəlmədin.

Bəxti kəm gördünmü, Şadiman kimi?!
Üyüdür qəm ömrü dəyirman kimi,
Rastına çıxdımı bu peyman kimi?
Canda olub qalan heyə gəlmədin.

03.12.2018

HƏLƏ Kİ, BİRLƏŞƏ BİLMƏYİRİK BİZ

Hələ ki, birləşə bilməyirik biz,
Birləşmək ayrılıq havası çalır.
Gülmək istəyirik, gülməyirik biz,
Gülmək də ağlamaq davası salır.

Elə cəhd edirik görüş yerinə,
Cəhdimiz boşuna gedir nə edək?
Axır gözdən yaşım öpüş yerinə...
Aparır ümidi boynunda yedək.

Mən daha ümidə bel bağlamıram,
O da bizim kimi çarəsiz olub.
Ötən günlərimi varaqlamıram,
Batıb tufanlarda, bərəsiz olub.

Sən də ürəyindən çıxart eşqimi,
Onun yolu bağlı, özün bilirsən.
Qurmuşam hicranla könül məşqimi,
Niyə hicran olan yerə gəlirsən?!

Mən özüm bilirəm nə çəkdiyimi,
Onu vərəqlərin ahı söyləyir.
Kağıza sözlərlə qəm əkdiyimi-
Mənə sinəmdəki ürək mələyir...

11.12.2018

ÇAĞIRMA MƏNİ GÖRÜŞƏ

Çağırma məni görüşə,
Vicdanım yaman ağrıyır.
Yol görünmür bu gedişə,
İçimdə iman ağrıyır.

Gəl ürəyə öyüd verək,
Hislərin boynunu gərək,
Bir-birini dosttək görək,
Səhvlər ömrü çox dağlayır.

04.12.2018

KÖNÜL SƏNDƏN QAÇA BİLMƏZ

Sən ey könlü fəğan edən, könül səndən qaça bilməz,
Sən olmasan həyatımda qanad açıb uça bilməz.
Bilirsənmi nə çəkirəm məndən bir az gen gəzəndə?
Qəlbim alışır tənimdə ayrılıq canı üzəndə.
Sən kimsənsə elə osan, ruhuma doğma birisən,
Nə yaxşı ki mənimləsən, mən sağ ikən sən dirisən.
Səsin gəlsin səhərlərdən, ya hirsli, ya mülayim ol,
Zülmətlərə düşsəm əgər, başım üstə nur Ayım ol.
Günəş yoxsa qon göylərə, ordan ruhuma şəfəq saç!
Bağlı qapım açılmasa, qıfıl salıb sən özün aç!
Tənhalığın acıları çoxların yeksan eləyib,
Sevmək, eşqə dəyər vermək, adamı insan eləyib.
Al səhərin bağçasına qon bülbültək səsin gəlsin,
Ruhum pərvaz açsın sənə, asimana can yüksəlsin.
Bilirsənmi sənin üçün könlüm necə tir-tir əsir?!
Sən xəstəhal olan zaman ümidsizlik ruhu kəsir.
Gəl ey ruha şəfəq saçan, sənsiz yoxdu mənə həyat,
Bəzən yatan arzu-kamı nəfəsinlə özün oyat!
Evimizin işığını azaltmağa tələsmə, gəl,
Xəstəliyin boyun ölçmə, onun üçün heç əsmə, gəl.
Bir ömürdü işığının pərvanəsi mən özüməm,
Kürləyəndə Araz olub lal biçimdə bir dözüməm.
Gözüm səhəri açanda səsin mənə dayaq olsun,
Ruhunu sarsın şəfqətlər, hər biçimdə oyaq olsun!
Şadimanın həyatına gələn gündən ömrüm coşqun,
Qurban olum, qoyma məni bu dünyada tənha,çaşqın!

11.12.2018

BU SEVGİMİ?

Ümidlərim saralmış xəzan təki tökülür,
Can evimin küncünə acı həsrət bükülür,
Sənsiz keçir hər gecə, dan yeri də sökülür,
Yenə də buludlayır gözümün hicran yaşı,
Bu sevgimi? Yoxsa de, hislərin aldanışı!

Vallah, dözüm qalmadı bu yükü daşımağa,
Məzarlayıb sevgimi sakitcə yaşamağa,
Köz bağlamış yaramı nə lazım qaşımağa,
Daha sevmə sən məni, tök ətəyindən daşı,
Bu sevgimi? Yoxsa de, hislərin aldanışı!

Bu yükün ağırlığı könlümüzü əzəcək,
Sözümüz, söhbətimiz çox dillərdə gəzəcək,
Vaxt əzaba dönəcək, hər gün bizi üzəcək,
Bilirsən keçilməzdir, uçrumlardır qarşı,
Bu sevgimi? Yoxsa de, hislərin aldanışı!

Gəl qovaq, aramızda doğulan iltifatı,
Gəl təzədən yaşayaq ömrə qalan həyatı,
Hesab elə bu sevgi qəlbə dolan bayatı,
Alma dilinə bir də, olsun eşqə başdaşı,
Bu sevgimi? Yoxsa de, hislərin aldanışı!

Əzəldən sevməməyi özümə inanc bildim,
Sevib yetişməməyi ruhuma utanc bildim,
Ürəyimi qovuran ayrılığı sac bildim,
O sacın atəşləri qurub qəlbdə bardaşı,
Bu sevgimi? Yoxsa de hislərin aldanışı!

29.01.2019

BƏS NEYLƏYİM?

Gün keçdi, gecə düşdü,
Ay işığın bürün, gəl.
Gəlməyirsən nə işdi?
Kimsə görməz sürün, gəl.

Gözümdə duzlu yağış,
Yandırıb yaxır baxış,
Salıb könlümə naxış.
Sevməyim bəs neyləyim?

Könlümü aldın ələ,
Aldığını gəl apar.
Salmısan dildən-dilə,
Sevən sevəni tapar.

Ürəyi salma çənə,
Yarımsan dedin mənə,
Mən də yar dedim sənə,
Sevməyim bəs neyləyim?!

21.12.2018

MƏNDƏN İNCİMİSƏN

Niyə məndən incimisən?
Yan gəzirsən bilə-bilə.
Bir dünyalıq sevincimsən,
Can üzürsən bilə-bilə.

Heç sevgi olarmı safsız?
Saf eşqinlə qəlbimə sız,
Ürəyimə, ay insafsız
Qəm düzürsən bilə-bilə.

Bir sormursan halımı sən,
Artırma məlalımı sən,
Eşq çiçəyin əkmişəm mən,
Nə əzirsən bilə-bilə.

16.02.2019

BİR YÜK OLUB

Bir yük olub xəyalların,
Daşıyıram özüm ilə.
Ocağıma düşüb yanır,
Ah-uf edir közüm ilə.

Bu nə dəhşət, bu nə zülüm,
Ağı deyir hər gün dilim,
İşə-gücə yatmır əlim,
Ağlaşıram sözüm ilə.

Hara getsəm ruhumdasan,
Ah çəkirəm, ahımdasan,
Hicran yükü deyil asan,
Güləşirəm dözüm ilə.

Sevgimizin üzü qara,
Çəkdi bizi atdı hara?
Min bir yerdən vurdu yara,
Dil tapmadı bizim ilə.

İnsaflı ol, etmə tə`nə,
Axı könül verdim sənə,
Qoyma kiprik yaşa enə,
Sellər axa dizim ilə...

Şadimana sənsiz çətin,
Bu eşqidə olaq mətin,
Hər addımı pis həsrətin,
Düşüb gələr izim ilə.

01.02.2019

SAXLA MƏNİ

At könül də dərinliyə,
Ürəyintək saxla məni.
As qəlbindən sırğa təki,
Zərgərim ol, yoxla məni.

Həsrətinə açar olsam,
Taleyindən qaçar olsam,
Əllərindən uçar olsam,
Çək yayını oxla məni.

Bilirsən ki, qəlbimdəsən,
Qulağıma qəlbim desən...
Yanağımda bitib büsən,
Tər çiçəktək qoxla məni.

Şadimanın kədəri bol,
Sənə tərəf bağlıdı yol,
Ya tərk elə, ya mənim ol,
Harda olsam haxla məni.

11.01.2019

ÜRƏKLƏR BİR OLARSA

Ürəklər bir olarsa,
Heç kəs ayıra bilməz.
Can sevgisiz qalarsa,
Heçnə doyura bilməz.

Sevgi yanan atəşdi,
Yaradana yolu var.
Ruh içində günəşdi,
İçdən niskili qovar.

O canda əzizlənir,
Həyata eşq yaradır.
Nurunda təmizlənir,
Onsuz ömür yaradır!

O həyatın neməti,
Səadətin özüdür.
Gözün könlə izzəti,
İnsanlığın közüdür!

Sevgi ömrün bəzəyi,
Ürəyin yaşamıdır.
Canda vardır özəyi,
Sevən qəlbin kamıdır.

Ey Şadiman, sabahın
nur qıdası sevgidir.
O əlçatmaz Allahın
can sevdası sevgidir!

01.01.2019

YAMAN DARIXMIŞAM

Yaman darıxmışam, səninçin, yaman,
Darıxmaq əlində dəf tutub mənə.
Sıyırıb xəncərin gəlib ah-aman,
Qəfil qoşununu səf tutub mənə.

Gəlir qulağıma pıçıltıların,
Ayrılıq nəğməsin oxuyur, sanki.
Qəlbimdən yüksələn sızıltıların
Dərdi qəm xalısı toxuyur, sanki.

Bir körpə uşaqtək könlümə düşdün,
Alım dizim üstə başını sənin.
Sən belə deyildin, niyə dəyişdin?
Kim kəsib durubdu qarşını sənin?!

Yenə yollarına baxıb dururam,
Bilirəm, gecəmə gələn deyilsən.
Özümə xəyaldan saray qururam,
Sarayım uçsa da bilən deyilsən.

Yaman darıxmışam səninçin, yaman,
Daha darıxmağın yolun bilirəm.
Ayrılıq dərdinə tapmışam dərman,
Çarəsi ölümdü, gəlmə ölürəm...

04.01.2019

BİLSƏN NECƏ SƏNSİZƏM

Bilsən necə sənsizəm.
Od tökülür içimə.
Kədərim baş qaldırır,
Fərəhimi biçimə...

Gecələr yuxumdasan,
Yuxularım hönkürür.
Sən də hicran dadasan,
Hicran mənlə gün sürür.

Hər gecə uyğulara
Durub gəlir xəyalın.
Batıram qayğılara,
Xoş arzudu vüsalın.

Dodağım qulağına
Pıçıldayır nə isə.
Düşürəm sorağına,
Oyanıram xoş səsə.

Ayılanda görürəm
Nə sən varsan, nə xəyal.
Sənsiz ömür sürürəm,
Yuxumdan qaçır vüsal...

Bəlkə elə məhəbbət
Budurmu? Mən bilmirəm...
Nə qədər çəksəm xiffət,
Səni qəlbdən silmirəm...

04.01.2019

ALIŞIRAM ODUNA

Görürsən ki, alışıram oduna,
Bu inciklik, bu küskünlük nədəndi?
Mən dünyaya gəldim sənin adına,
Bilməyən yox, gələn bir gün gedəndi.

Yar köksümü bax orada istəyə,
Səndən başqa yoxdur doğma ürəyə,
Uçub qondun min bir dəfə diləyə,
Baxışların taleyimi güdəndi.

Bir an belə uzaq olsan bükülləm,
Dönüb yaşa gözlərindən tökülləm,
Bulud təki göy üzünə çəkilləm,
Ayrılığın könlün için didəndi.

Cəfasına dözən bilir sevdanın,
Ürəklərdən qopub düşən nidanın,
Günahına batıb çoxu ədanın,
Baxışların kipriyimdə dən-dəndi.

Təmasına ovunuram hər səhər,
Sənsiz boğar həyatımı qəm-qəhər,
Verməz günüm həyatıma heç bəhər,
Bu dünyada xöşbəxtliyim səndəndi.

Bir bax günəş pəncərədən boylanır,
Evimizin dövrəsinə haylanır,
Həsrət düşüb ayağına vaylanır,
Uğurlarım sənlə olan gündəndi.

Şadimanı tutub salma qəmlərə,
Kipriklərim alışmasın nəmlərə,
Xoş ahəng qat Tanrı verən dəmlərə,
Tut əlimi səadətin məndəndi.

27.08.2020

ÜRƏYİMƏ DÜŞMÜSƏN

Nə müddətdi ürəyimə düşmüsən,
Ürəyimdən çıxıb-getsən nə olar.
Canda gəzir həsrətinin acısı ,
Onu candan uzaq etsən, nə olar?

Çox sevdalar qaçırmışam yolumdan,
Göyərçintək uçurmuşam yolumdan,
Gəlib xəbər tutmursansa halımdan,
Həsrətimə çatıb yetsən, nə olar?

10.01.2019

ZƏNG ELƏ

Hanı mobil? Dur zəng elə,
Səsini qoy qəlbə sıxım.
Hislərimlə lap cəng elə,
Can yandırım, ürək yaxım.

Zil oxusun səsin mənə,
Bu sevdanın sabahını.
Xoş nəfəsim çarə sənə,
Ovut qəlbin sən ahını.

Anımızın səadəti
Səpələnsin gecəmizə.
Unudulsun qəm adəti,
Sevgi dinclik versin bizə.

Gecə keçir, hamı yatır,
Bir xəyalın, bir də mənəm.
Nisgillərin qəm oyadır,
Ahı atıb tutur sinəm.

Pıçıldasın dodaqların,
Şadimana ahəng ilə.
Titrət ümid budaqların,
Götür mənə bir zəng elə.

05.02.2019

BU NECƏ EŞQİDİR

Ağladır gözümü yaz buludutək,
Düşüb gurşadına üşmüşəm, Allah.
Sızlayır ürəyim elin udutək,
Bu necə eşqidir düşmüşəm, Allah?

Nə əlim çatmayır, nə ünüm yetmir,
Bu eşqin yarası sinədə bitmir,
Xəyalı gözümdən bir anda getmir,
Bu necə eşqidir düşmüşəm, Allah?

Yanıb alışıram, oduma gəlmir,
Eyləyib rəhmini, adıma gəlmir,
Kimisə sevdiyim, yadıma gəlmir,
Bu necə eşqidir düşmüşəm, Allah?

Gecəni-gündüzü alıb əlimdən,
Ona ürək verdim, salıb əlindən,
Bilməm hara qaçım gedim əlindən?!
Bu necə eşqidir düşmüşəm, Allah?

Açılan sabahım ağrı içində,
Ruhumu gəzdirir bağrı içində,
Qoyubdur könlümü sorğu içində,
Bu necə eşqidir düşmüşəm, Allah?

Bu necə sevgidir? Dəli olmuşam,
Ruhumun ağlayan dili olmuşam,
Eşqə namə yazan əli olmuşam,
Bu necə eşqidir düşmüşəm, Allah?

İndi qınaq olub Şadiman özü,
Yandırır içini qəlbinin közü,
Baş açа bilmirəm mən ondan düzü.
Bu necə eşqidir düşmüşəm, Allah?

03.05.2019

ÖMRÜNƏ SIĞINDIĞIM

Ömrünə sığındığım,
İçin-için oduna yandığım,
Hər səhər səsinə oyandığım,
Heç bilirsənmi sənsizlik nə demək?!
Xərc etmə ayrılığa əmək,
Könlüm evini yıxma,
Məni tənhalığa buraxma…
Tənhalığın acısını dadanlar,
Onun havasını udanlar,
Ondan yaxşı heçnə demirlər,
Nədən bəhs etsin tənhalığa
urcah ömürlər?!
Qoyma çırağımız sönsün,
Taleyin bizdən üzü dönsün.
Ümidimi qırmağa tələsmə,
Məni tərk etməyə tələsmə.
Dilimdən qopan dualarım
Tanrıya duaçıdır,
Əzrayıl ovçudur,
Kaş qapımızdan yan keçə,
Təkliyimə xatir bir can keçə…
Səni məndən almaya,
Qalan ömrümü tənhalığa salmaya…
Əllərim göylərə ürcahdır,
Ümidlər göyərən sabahdır!
Artan təzyiqin, soyuyan əllərin
Ürəyimi bıçaqtək kəsir,
Tikmisən ürəyimdə qəsir,
Qəsirimi boş qoyma,
Gözlərimə yaş qoyma,
Amandır…
Amandır…

16.03.2019

GÖZÜMƏ GÖRÜNÜR ƏKSİN

Hər yerdən gözümə görünür əksin,
Gecələr yuxumdan çəkilməyirsən.
Ürəyim içində döyünür köksün,
Mən sənsiz ölürəm, sən bilməyirsən.

Sənինlə ruhuma dinclik tapıram,
Dünya gözəlləşir biz bir olanda.
Sənin varlığında gənclik tapıram,
Eşq də dahiləşir eşq sirr olanda.

Hicranın göy dolu yağış könlümə,
Axır bəbəklərdən sellərə dönür.
Gəzmə aralıqda, yığış könlümə,
Həsrət ay dolanır illərə dönür.

Əllərin əlimə toxunan zaman,
Ruhum çixib məndən ruhuna gedir.
Pozulur canımda səliqə, səhman,
Bilmirəm içimdə titrəmə nədir?!

Yetənə çatmayır eşqin ağrısı,
Büsbütün bədəni sürgün eyləyir.
Ağlını itirir insan doğrusu,
Bütün ömür-günü gərgin eyləyir.

Bilirsən, Şadiman eşqinə dəli,
Onu ürəyindən qovma kənara.
Qəlbə tumar çəkir ruhunun əli,
Bundan böyük barat nədir ki, yara?!

27.03.2019

MƏNİ ELƏ SEVƏRSƏN

Bilirsən necə sənsiz dolur canıma sancı,
Axı mən necə tapım sənsizlikdə əlacı?
Gecələrim ruhumu cilovlayır fələktək,
Dolanıram yer-göyü o ünyetməz küləktək.
Ahımdan Ay üzünü gizlədir zülmət ilə,
Gecə boyu qol-boyun oluram zillət ilə.
Bu necə işgəncədir, İlahi, bu yaşımda,
Sənin kölgən boylanır, səhər-axşam qarşımda!
Artıq olduğum kimi görünə bilmirəm mən,
Riallıq acısına bürünə bilmirəm mən.
Səhərin gəlişindən özümü gizlədirəm,
Bağrımda ocaq çatan közümü gizlədirəm.
Gizlədirəm hər kəsdən eşqimin ağrısını,
Misralardan boylanır sözlərim doğrusunu.
Durum gəlib köksünə sığınım izin versən,
Necə bacarırsansa məni elə sevərsən!..

28.03.2019

MƏNİ EŞQƏ QULUN ETDİN

Məni eşqə qulun etdin,
Bir açılmaz yolun etdin,
Zəncirlən qolun etdin,
Dərd məzara atar məni,
Bu bəladan qurtar məni.

Nə müddətdir iztirabda,
Qalmayıbdı qəlbdə tab da,
Mürvət ara haqq-hesabda,
Ağrı zülmə çatar məni,
Bu bəladan qurtar məni.

Müşkülümü çözmürsən heç,
Ürəyimdə gəzmirsən heç,
Həsrətimə dözmürsən heç,
Gəl qəlbinə qaytar məni,
Bu bəladan qurtar məni.

Şadimana divan etdin,
Könül evin eyvan etdin,
Ordan yadı seyran etdin,
De, ağlasın qoy tar məni,
Bu bəladan qurtar məni.

07.04.2019

SEVGİNİN ƏTRİ

Yaman darıxmışam sənli günlərə,
Ürəyi bilmirəm harda gizləyim?
Gəlir nəfəsimə sevginin ətri,
Yayım ciyərimə qoy əzizləyim.

İşıq da günəşdən hərarət alır,
Mənim hərarətim sənsən onu bil.
Dünyada bir-birin saf sevmək qalır,
Mən olmayan yerdə mənsən onu bil.

Ürək sıxıntısı həsrətə bağlı,
Onu alışdıran, söndürən odu
Almısan özümdən nə zaman ağlı,
Oduna köklənib ruhumun odu. **10.04.2019**

MƏHƏBBƏT DEYİL

Əgər düşməyibsə qəlbə, ürəyə,
Dilə uçub qonan, məhəbbət deyil.
Çox günah yaxanlar bəxtə, fələyə,
Hər xətadan sınan, məhəbbət deyil.

Günəştək saçmırsa sevda günəşi,
Tökmürsə sinəyə odu, atəşi,
Ortaya düşmürsə həsrətin nəşi,
Canda buztək donan məhəbbət deyil.

O bağlar qəlbləri biri-birinə,
Çevrilər ömrün həyat sirinə,
Şeytan keçə bilməz onun yerinə,
Gah sönən, gah yanan, məhəbbət deyil.

27.08.2020

EŞQİNİ QUCAQLAYIRAM

Gecələr eşqini qucaqlayıram,
Eşqim həsrətinə sarılıb qalıb.
Sənsiz gizli-gizli çox ağlayıram,
Ürəyim hicrandan yarılıb qalıb.

Yenə ümidimin peşindəyəm mən,
Onunla gecəni sabah edirəm.
Ayrılıq çəkməyin işindəyəm mən,
Sevginə can deyib günah edirəm.

Bir körpə uşağa dönmüşəm artıq,
Ağlayıb özümü ovundururam.
Mən sənin dünyana dönmüşəm artıq,
Eşqinlə özümə sevda qururam.

Mənə həyat verir təsəllilərin,
Həyata söykənib yolun davamı.
Köynəyin tikmişəm ömrə illərin,
Söylə necə alım həsrətdən kamı?!

26.05.2019

SƏN MƏNİM NEYİMƏ AŞİQ OLMUSAN

Tükədib zamanə bahar eşqimi,
Səndəmi ağrıma meyil salmısan?!
Tale bitirməyir dərdlə məşqimi,
Sən mənim neyimə aşiq olmusan?!

Gözümdən qəm axır, dilimdən ağı,
Bitmir ürəyimin ahu-fəraği,
Qan damır könlümün kədər varağı,
Sən mənim neyimə aşiq olmusan?!

Keçir ömür-günüm ağrı içində,
Kədər can bəsləyir bağrı içində,
Ümid arayıram şeytanda, cində,
Sən mənim neyimə aşiq olmusan?!

Artıq istəmirəm tənimdə canı,
Doğurur içimdə hiss-həyəcanı,
Mən özüm yoğurdum canda hicranı,
Sən mənim neyimə aşiq olmusan?!

Unuda bilirsən, unut sən məni,
Onsuz da udacaq bir gün çən məni,
Bölüb acılarım daha tən məni,
Sən mənim neyimə aşiq olmusan?!

Qınama, əzizim, sən Şadimanı,
Div təki qalıbdı şüşədə canı,
Gəzdirə bilmirəm hiss-həyəcanı,
Sən mənim neyimə aşiq olmusan?!

20.05.2019

DƏRDİMİ BÖYÜTDÜN MƏNƏ

Məni özündən küsdürən,
Küsməyi öyrətdin mənə.
Eşqi ruhuna geydirib
Əsməyi öyrətdin mənə.

Sanma ki, səndən keçərəm,
Könlə başqasın seçərəm,
Həsrət zəhərin içərəm,
Eşqinlə öyütdün mənə.

Bil ki, səni can sanıram,
Hicran odunda yanıram,
Yollarında dayanıram,
Sən Tanrını ötdün mənə.

Gəl Şadimanın adına,
Yetiş onun imdadına,
Sal vüsalını yadına,
Dərdimi böyütdün mənə.

26.05.2019

BİR YUXUSAN

Bir yuxusan gözlərimdə,
Yatsam yenə gələcəksən.
Axtar məni izlərində
Kimliyimi biləcəksən.

Gecəm çıraq olar sənə,
Həsrət gözüm dolar sənə,
Xatirələr qalar sənə,
Yada salıb güləcəksən.

Zaman ötüb keçəcəkdir,
Ömrüm bitib keçəcəkdir,
Baxışın yad seçəcəkdir,
Məni yaddan siləcəksən.

20.04.2019

BƏLKƏ YARIN MƏNƏM

Bəlkə elə yarın mənəm,
Mənə yar demək istədin.
Ürəyində ürəyimə
sevgin var demək istədin.

İşıq dolu gözlərini
Gözlərimə tuşlamısan.
Ruhuma eşqin varlığın
Hansı yolla aşlamısan?!

Həsrətin də gözəl mənə
Onu qəlbimə çəkirəm.
Hər neyin var özəl mənə,
Çiçəktək könlə əkirəm.

Dodağının şərqisiyəm,
Deməsən də, mən bilirəm.
Mənsiz keçən hər gün sənə,
Həm duman, həm çən, bilirəm.

Boylan uzaqdan könlümə,
Gör orada nələrin var.
Qoynuma sığalın çəkən
Doğma, isti əllərin var...

Şadimanı sev beləcə
Qəlbimdə yatırım səni.
Dəryalartək ləpə verən
Eşqimə batırım səni...

22.06.2019

ÜRƏYİMƏ KÖÇÜRMÜŞƏM MƏN

Səni ürəyimə köçürmüşəm mən,
Ordakı yerini kimsə bilməyir.
Sənə eşq şərabı içirmişəm mən,
Könül duyan eşqi ağıl silməyir.

Sənin ruhun ilə var oluram mən,
Sənsiz çay daşıtək ovuluram mən,
Dumantək göylərə sovruluram mən,
Səndən gen düşəndə üzüm gülməyir.

Könlümdə qurduğum taxtıma şahım,
Yoluma çıxardıb səni Allahım,
Sənsiz qaranlıqdı sübhü-sabahım,
Ürək məndən qaçır, yola gəlməyir...

Çəksəmdə yolunda həsrət zülümü,
Sənsiz sağ görmərəm bir an könlümü,
Sənsizlik çarəsin biləm ölümü,
Eşqinə sadiqlər ruhən ölməyir.

Sən bu Şadimandan çəkmə əlini,
Canımın qidası sanam dilini,
Verəm qurban sənə ömrün ilini,
Sənlə olan günüm bir ömrə dəyir...

29.06.2019

MƏNİ SEVİRSƏN

Sən məni sevirsən, mən isə səni,
Birlikdə sevginin dəlisiyik biz.
Bürümə anlara dumanı, çəni,
Bürünsək dumana ölәsiyik biz.

Görürsən günümüz xoş avazlıdır,
Canımda eşqin var, bir az nazlıdır,
Sən də bu sevdaya, nolar, nazlı dur,
Olmasa hicranla bölәsiyik biz.

Vermə zamanını kin-küdurәtә,
Könlündə yuva qur sən səadәtә,
Çevir ömründə bunu adәtә,
Bil ortaq məxrəcə gәlәsiyik biz.

Buraxaq uçruma hicranımızı,
Qoruyaq əzabdan gəl canımızı,
Qoy birlikdə quraq dövranımızı,
Bu eşqin yolunu biləsiyik biz...

Baxma Şadimana yazıq biritək,
Sənsən ürəyimin uca sirritək,
Xəyalın qarşımda hər an dirirtək,
Yolumuzdan dərdi siləsiyik biz...

01.07.2019

ÜRƏYİMİN OĞRUSU

Könül qapım bağlı idi hər kəsə,
Kimsə girə bilməz idi qəfəsə,
Hardan gəldin, hardan doldun nəfəsə,
Anlamıram bunu vallah doğrusu,
Bu nə əfsun, ürəyimin oğrusu.

İşıq təki gözlərimə dolmusan,
Heç bilmədim haçan mənim olmusan,
Taleyimə hicran dolu yolmusan?

Çəkilməyir qəlb içindən ağrısı,
Bu nə əfsun,ürəyimin oğrusu.

Ayrılıqdan qəm bitirib ürəyim,
Səni tapıb, can itirib ürəyim,
Yara alıb, dərd yetirib ürəyim,
Eşqinlədir köz bağlayan sarğısı,
Bu nə əfsun,ürəyimin oğrusu.

Şadimanı əzablara tuş etmə,
Sevirsənsə ürəyini daş etmə,
Həsrətinlə gözlərini yaş etmə,
Yoxmu eşqin haqq önündə sorğusu?
Bu nə əfsun, ürəyimin oğrusu.
Bu nə əfsun, ürəyimin oğrusu.

02.07.2019

QALDIR ÖZÜNÜ GÖZÜMDƏ

Yaman gözümdən düşmüsən,
Gəzmə özünü özümdə.
Niyə belə dəyişmisən?
Qaldır özünü gözümdə.

Elə məndən yan gəzirsən,
Həsrətinlə can üzürsən,
Necə istərsən üzür sən?
Məhtələm buna özüm də.

Etdin eşqi yara mənə,
Qoymadın yol, ara mənə,
Ötənləri ara mənə,
Batıb qalmayım dözümdə.

Getmisən, qayıt könlümə,
Sevgini ayılt könlümə,
Eşqi etmə qıt könlümə,
Oxşayım səni dizimdə.

02.07.2019

NECƏ OLACAQ

Sən də ümidsizsən, mən də ümidsiz,
Solmuş ümidlərdən gecə olacaq.
Çökür xəyalımız gün önündə diz,
Bəbəklər yaş udub, gözlər dolacaq,
Bu eşqin axırı necə olacaq?!

Səadət bağımız solur vüsalsız,
Gəzirəm gün boyu hicrində halsız,
Keçmədi bir günüm heç qeylü-qalsız,
Qeylü-qal böyüyüb könlü alacaq,
Bu eşqin axırı necə olacaq?!

Yenə qoşalaşıb qəm uduruq biz,
Düşüb od-atəşə yanır qəlbimiz,
Özü-özümüzü aldadırıq biz,
Canım yollarında düşüb qalacaq,
Bu eşqin axırı necə olacaq?!

Qəmli baxışından üzülürəm mən,
Kədər qədəhinə süzülürəm mən,
Dərdin zindanında əzilirəm mən,
Həsrət içimizdə açıbdı ocaq,
Bu eşqin axırı necə olacaq?!

31.07.2019

YUXUMDAN ÇIXMAYIRSAN

Gecələr yuxumdan heç çıxmayırsan,
Gecələr yuxuma kədər səpirsən.
Ruhumu əlindən buraxmayırsan,
Buzlaşmış içimə düşən ləpirsən.

Hərdən buz əriyir, günəş kövrəlir,
Mənə özün boyda həyat olursan.
Yatan xəyalların üstümə gəlir,
Kükrəyən sellərtək könlə dolursan.

İtirib başımı enirəm hissə,
Mən onun lal olan qulu oluram.
Dərdindən illərlə çəkirəm qüssə,
Sevdanın keçilməz yolu oluram.

Payıztək saralıb tökülürəm mən,
İllər yola salan ağac oluram.
O dəli eşqinə bükülürəm mən,
Baharın başına min tac oluram.

Xöşbəxtlik içimdə süfrəsin qurur,
Bağrıma basıram məhəbbətini.
Bəlkə istəyinçin ürəyim vurur,
Qəlbdə gizləyirəm səadətini.

Şadiman könlünə var edib səni,
Ruhumun yarısan bunu bilirsən.
Gətirmə ömrümə dumanı, çəni,
Baharla birgə gəl əgər gəlirsən.

07.08.2019

KÖÇÜRMÜŞƏM MƏN

Səni ürəyimə köçürmüşəm mən,
Ürəkdə yerini bilən olarmı?!
Könlə eşq şərbəti içirmişəm mən,
Səndən qeyri qəlbə gələn olarmı?!

Gəl ey sevdiciyim, gəl gör qəlbimi,
Orda nə ağrılar, acılar yatır.
Eşqinə çələngtək lap hör qəlbimi,
Canım aha düşüb aləmi qatır.

18.08.2019

GÖZÜMDƏN YAŞ DAMIR

Gözümdən yaş damır, qəlbimdən kədər,
Mən sənin nəyinə lazımam axı.
Sənin öz yolun var, mənim öz yolum,
Mən sənin yolunu qazımam axı.

Çıxart ürəyindən nəyim var daha,
Orda qalmağıma bir yer qoymadın.
Məni dərd-ələmə satmısan baha,
Etdiyin sitəmdən bir dəm doymadın.

Qopart gözlərimdən baxışlarını,
Onlar bir başqasın sevdaya tutub.
Axıtdın qəlbimə göz yaşlarımı,
Eşqimi, sevgimi necə unudub?

20.08.2019

GƏLƏSƏN GƏRƏK

Başa sərki etmə qısqanclığımı,
Bu sevgi özüdür, biləsən gərək.
Mənim atəşimə alışmaq üçün,
Könlümün evinə gələsən gərək.

Sevda yolçuları qanan olurlar,
Sevdiyi yolunda yanan olurlar,
Eşqi bir baxışdan anan olurlar,
Eşqin cəfasına öləsən gərək.

Bu nə um-küsüdü, bu nə şiddətdi,
Döğurdanmı qəlbdən doğan hiddətdi?!
Məhəbbət özü də cana zillətdi,
Dözməsən, ürəkdən siləsən gərək.

Səni candan artıq sevirəm axı,
Yaramı qanadır həsrətin oxu,
Sanma ki, sevgilim, bu şirin yuxu,
Hicranın üzünə güləsən gərək.

Bu necə basqıdı gecə yarısı,
Qopartdın, göynəyir könlün yarası,
Oldu qısqanclığım bir üz qarası,
Belə qıymayaydın gülə sən gərək.

Şadiman can bilib canına səni,
Buraxıb ruhuna, qanına səni,
Götürüb ürəyim yanına səni,
Eşqi salmayasan dilə sən gərək.

21.08.2019

AYRI SAYMIRAM

Səni öz canımdan ayrı saymıram,
Canımın bahası canındı elə.
Sənin eşqin baldı, ondan doymuram,
Qanımda dolaşan qanındı elə.

Bax gör pərvazlanır könüldə dilək,
Bütün duyğularım sənə köklənir.
Tək sənin eşqinlə alışır ürək,
Həsrət qoşun çəkir, çənə köklənir.

Bilsən nə çəkirəm mən taleyi kəm,
Özündə tutuşub yanarsan dərddən.
Sənsiz ruzgar qopur, qəm gətirir dəm,
Aşa bilməyirəm səddən, sərhəddən.

Könlümün doğması bilirəm səni,
Doğmana vəfalı olasan gərək.
Almısan ruhumdan nə vaxtdan məni,
Aldığın yerdə də qalasan gərək.

Göz qora bişirir, ürəyim kədər,
Ayrıllıq odundan gəl qopar məni.
Sənin açdığın yol ömrümə qədər,
Əzizim, hardasan?! Gəl apar məni...

21.08.2019

SƏSSİZ SEVƏCƏYƏM

Səssiz sevəcəyəm səni ürəkdə,
Xəbər tutmayacaq heç kəs, bu eşqdən...
Xəyalım gəzəcək əsən küləkdə,
Alacaq ciyərin nəfəs, bu eşqdən.

Yatıb duracaqsan mənim havamla,
Mənsiz dünya sənə dar görünəcək.
Səni isədəcəm könül yuvamla,
Bu aləm gözünə yar görünəcək!

Adım dolaşacaq dodaqlarında,
Bahar təbəssümü olacam sənə.
Canımın titrəşən budaqlarında,
Büllur şəbnəmlərtək dolacam sənə.

Ayrılıq havası çaldıqca zaman,
Əllərim uzalı qalacaq sənə.
Mənim ruhum verir ömrünə səhman,
Könlüm eşq ocağı olacaq sənə.

Səssiz gəzdirəcəm səni ürəkdə,
Könül laylasına canın uyacaq.
Ara Şadimanı əsən küləkdə,
Həzin pıçıltını ruhum duyacaq!

02.09.2019

O GÜNLƏR HARDA QALDI

İsti-isti görüşüb əhvalımı sorardın,
Könlümün tellərini sən kökləyib qurardın,
Yananda həsrətimdən bağrını qovurardın,
Hansı könül ovçusu səni kəməndə saldı?!
Bahar ətiri verən o günlər harda qaldı?!

Gecələr ürəyinin düyməsini basmırsan,
Pıçıltım ərşə çıxır sənsə qulaq asmırsan,

Həsrət girib araya tutub onu asmırsan,
Kimlər sənə yar oldu, mənim əlimdən aldı,
Qəlbi eşqə səsləyən o günlər harda qaldı?!

Aradakı soyuqluq ürəyimi buz edir,
Əli işdən soyudur, canımı yalqız edir,
Hicranı çəkib başa aləmə ulduz edir,
Bu necə yara vəfa, bəs bu necə vüsaldı?
Məni sənə bağlayan o günlər harda qaldı?!

Hiss edirəm, mən sənə adidən adi oldum,
Gözümdən axan yaşa ən dərin vadi oldum,
Ayrılığın dillərdə dolaşan adı oldum,
Bir dinib danışsana aramızda nə haldı?
Mənsiz keçirmədiyin o günlər harda qaldı?!..

04.09.2019

YANDIR ÜRƏYİMİ

Yandır ürəyimi, yandır doyunca,
Çatılıb həsrətə qalıb gün boyu.
Ruhumun ağrısı olsun boyunca,
Dolaşsın bağırım qoy düyün boyu.

Çıx xəbər-ətərsiz qapıl yuxuna,
Mən səni arayım, sən röyaları.
Uçub ruhum gəlsin sevgi qoxuna,
Tutsun eşqim dolu çən röyaları.

Sənin yuxuların məndən irəli,
Qucaqlaş, gözünün acısını al.
Yuxuna gələcəm, nolar, ver əli,
Eşqinin odunu ovucuma sal.

Axsın ovcumdan ürəyimə od,
Tutuşsun bağırım qoy atəşinə.
Nə olar, ürəyim, olma mənə yad,
Çıx hərdənbir boylan öz günəşinə.

11.09.2019

AYRILIQ BİR TİKANDIR

Ayrılıq bir tikandır, batır ürəyə, gözə,
Yaşayıram ömrümü ağrıya dözə-dözə.

***

Kim bilir nə çəkirəm həsrətinin üzündən,
Ürəyimə od saldın, alışıram közündən,
Gör nə günlərə düşdüm, aslıyam hər sözündən,
Səndən çəkdiklərimi vurmayıram heç üzə,
Yaşayıram ömrümü ağrıya dözə-dözə.

***

A bəxtəvər, mən çəkən dərdi necə çəkəsən?
Varmı bu eşqə yolun ürəyinə bükəsən?!
Etdin ümidlərimi neçə parça, tikə sən?!
Deyirdim bu eşqimiz, Allah, gəlməsin gözə,
Yaşayıram ömrümü ağrıya dözə-dözə.

***

Bu məhəbbət verilmib, boş-boşuna xərc elə,
Ürəkdən saf eşqini demədim ki, kəc elə?
Atəşə tut qəlb için, eşqim üçün sac elə,
Tap bahanə, nə olar qoşalaşaq göz-gözə,
Yaşayıram ömrümü ağrıya dözə-dözə.

***

Həsrətinin acısı vurub çıxıbdı üzə,
Yaşayıram ömrümü ağrıya dözə-dözə.

03.09.2019

LƏZƏT ETMİR

Həyatımdan qaçıb gedən,
Can bədənə izzət etmir.
Məni dərdə munis edən,
Dünya sənsiz ləzət etmir.

Görmürsənmi ömür qısa?
Gəl batırma onu yasa,
Həsrət qəlbi küncə qısa,
Sevən qəlbi alət etmir.

11.09.2019

TƏSƏLLİSƏN ÜRƏYİMƏ

Qəlb bağımın bülbülüsən,
Ömür günə sevgilisən,
Bas bağrına şux gülü sən,
Uçub qondun diləyimə,
Təsəllisən ürəyimə.

Könlüm sənsiz qərarsızdır,
Demə əhdsiz, ilqarsızdır,
Sənlə həyat qubarsızdır,
Eşqin dönüb gərəyimə,
Təsəllisən ürəyimə.

Əritmisən şam ömrünü,
Al ruhumdan kam ömrünü,
Edək birgə tam ömrünü,
Qanad ver eşq mələyimə,
Təsəllisən ürəyimə.

Günlərimə fərəh doldur,
Al şərbəti, qədəh doldur,
Sevən qəlbdən eşqə yoldur...
Dönmə həsrət küləyimə,
Təsəllisən ürəyimə.

Bilirsən ki, sənsiz çətin,
Mənə dəva sədaqətin,
Canımla bir ibadətin,
Hər an çatır köməyimə,
Təsəllisən ürəyimə.

Şadimanın hələ diri,
Həyatına şadlıq bürü,
Ayrılığın üstə yürü,
Qoru eşqi, könlə dəymə,
Təsəllisən ürəyimə.

14.09.2019

BİZ NİYƏ SEVİRİK

Araya ayrılıq çəkib çəpəri,
Hayqırıb aşkarmı edim sirrini?!
Qalmayıb könlümün daha təpəri,
Açıb ağartma gəl sən də dərini,
Biz niyə sevirik biri-birini?!

Əlim əllərinə yetməyəcəksə,
Ruhum nəfəsində ötməyəcəksə,
Həsrətin azarı bitməyəcəksə,
De gəlim, sevdiyim, mənə yerini,
Biz niyə sevirik biri-birini?!

Məgər bilməyirsən nə çəkdiyimi,
Könlümə çuvalla dərd tökdüyümü,
Qəlbin boğçasına eşq bükdüyümü,
Axı heç kim vermir sənin yerini...
Biz niyə sevirik biri-birini?!

Çatmayır əlimə əlin nə vaxtdı,
Batırdın ağrıya, acıya baxtı,
Görüş günümüzün bilinmir vaxtı,
Bəlkə xəbərsizəm tapdın birini...
Biz niyə sevirik biri-birini?!

Şadiman içindən köpürür daşır,
Ürəyi hönkürür, yolları çaşır,
Gözündən göylərin buludu aşır,
Göndər o dağlardan gələ sərini...
Biz niyə sevirik biri-birini?!

15.09.2019

DOLANIRSAN QARŞIMDA

Səhər-səhər dolanırsan qarşımda,
Şükür olsun Allahıma, sevdiyim.
Ayrılığın səbəbi göz yaşımda,
Qoyma girsin sabahıma, sevdiyim.

Yaxşı bilir möhnət yükün çəkənlər,
Bağırında qəm dirriyi əkənlər,
Ömrü günü dərd-bəlaya bükənlər,
Uçub qonur can ahıma, sevdiyim.

Dön günəşə isit donan nəfəsi,
Artıb çoşsun canda həyat həvəsi,
Bir ürək var səni candan sevəsi,
Rəbb yazmasın günahıma, sevdiyim.

Dodağma uçub qonan adındı,
Mənə həyat eşqi verən dadındı,
Səni qəlbə yovuq salan qadındı,
Qəm dönməsin silahıma, sevdiyim.

Qəlb bağımın gül-çiçəyi, tər inci,
Aç könlümü qopart ordan, dər inci,
Bəxşiş eylə həyatıma sevinci,
Yar deyim can pənahıma, sevdiyim.

Ömür yolu eniş-yoxuş cığırlar,
Yorulmasın, pöhrələnsin bağırlar,
Bizdən uzaq heç qaçmasın uğurlar,
Dön eşq dolu səyyahıma, sevdiyim.

Şadimanı çəkmə sorğu-suala,
Gözlərini gürşad vura, su ala,
Tanrı özü rəvac verib vüsala,
Səbəb oldun nigahıma, sevdiyim.

18.09.2019

DOLDUR NƏFƏSİMƏ

Doldur nəfəsimə eşqin havasın,
Qoy sənli dünyanın əsiri olum.
Dinlə, yollayıram eşqin duasın,
Qoru, qoy könlünün can sirri olum.

Bilirəm könlündə həsrətim gəzir,
Onu heç özündən qova bilmirsən.
Sənin gözlərində surətim gəzir,
Qəlbimdən bir qeyri yuva bilmirsən.

Doldur ürəyimə sevda yükünü,
Onu ömrüm boyu çəkəsiyəm mən.
Qəlbdən sürgün etdim qorxu-hürkünü,
Olmasan binadan çökəsiyəm mən.

21.09.2019

BU SEVGİ HARDAN GƏLDİ

Kimsəyə baxmaz idim,
Qəlbə buraxmaz idim,
Su olub axmaz idim,
Bağçadan, bardan gəldi,
Bu sevgi hardan gəldi?!

Doldurub ürəyimi,
Fəth edib diləyimi,
Mənim eşq mələyimi,
Qoparıb dardan gəldi,
Bu sevgi hardan gəldi?!

Oldu gözüm işığı,
Evimin yaraşığı,
Könlüm onun aşığı,
Adı nübardan gəldi,
Bu sevgi hardan gəldi?!

Ona yox deyə bilməm,
Səbəbi niyə bilməm,

Qəlbinə dəyə bilməm,
Ayrı dünyadan gəldi,
Bu sevgi hardan gəldi?!

Sən baharlı Novruzum,
Bir parlayan ulduzum,
Eşqindən misra düzüm,
De, nə var yardan gəldi,
Bu sevgi hardan gəldi?!

Şadimanı şad etdin,
Könlünü abad etdin,
Qəlbi duyub yad etdin,
Eşq yaradannan gəldi,
Bu sevgi hardan gəldi?!

19.09.2019

QƏLBİMƏ GİRMİŞDİN MƏNİM

Bir zaman qəlbimə girmişdin mənim,
Gözümdən yuxutək tökülüb getdin.
Könlümdə sevdanı görmüşdün mənim,
Bürünüb dumana çəkilib getdin.

Ruhumun qışında açan yazıydın,
Bəlkə də bəxtimə alın yazıydın,
Sanki səhər çıxan dan ulduzuydun,
Günəş doğan kimi yox olub getdin.

Sevda yolçuları qəmə eşq edər,
Ümidlə pıçıldar, canla məşq edər,
Gün günə qoşulub ömürdən gedər...
Günün nəfəsinə bükülüb getdin.

İllərlə yolunda can üyütmüşəm,
Özümü ümidlə bir böyütmüşəm,
Sənincün ölmüşəm, bir meyitmişəm,
Üzümə parçatək çəkilib-getdin.

09.10.2019

DUMAN BÜRÜYÜB

Dağları, daşları duman bürüyüb,
Həsrət ürəyimi yaman bürüyüb,
Dilimin ucunu aman bürüyüb,
Yollar keçilməzsə sürün, gəl ey yar.
Dumana, çiskinə bürün, gəl ey yar.

Bilmirsən nə çəkir həyatım sənsiz,
Diləklərə necə mən çatım sənsiz?!
Düzəlmir heç zaman ovqatım sənsiz,
Görünür könlümdə yerin, gəl ey yar.
Dumana, çiskinə bürün, gəl ey yar.

Çəkirəm nə vaxtdı intizarını,
Niyə unutmusan sən öz yarını?!
Yağdırdın qəlbimə dağlar qarını,
Hər yerdə gözümə görün, gəl ey yar,
Dumana, çiskinə bürün, gəl ey yar.

Düşüb bəxtimizə yolun çətini,
Özgəyə xərcləmə səadətini,
Məndən əsirgəmə sədaqətini,
Eşqin ürəyimdə dərin, gəl ey yar,
Dumana, çiskinə bürün, gəl ey yar.

Şadiman yollardan çəkmir gözünü,
Eşqinə qurbanlıq edib özünü,
Nə vaxt qismət olar görüm üzünü?!
Sevdan bağırımda dürün, gəl ey yar,
Dumana, çiskinə bürün, gəl ey yar.

23.10.2019

ŞƏKİLLƏRDƏN BAXACAM SƏNƏ

Daha şəkillərdən baxacam sənə,
Əllərim əlinə dəyməyəcək heç.
Uzaqdan-uzağa eşq oxu mənə.
Dilim bu sevdanı öyməyəcək heç.

Baxışın gözümdə donub qalacaq,
Gözlərin yollardan çəkilməyəcək.
Ürəyin könlümə qonub qalacaq,
Kipriklər həsrətdən bükülməyəcək.

Yuxular gözündən uçacaq gecə,
Gözlərin tavanda gəzəcək məni.
Xəyalım yuxuna qaçacaq gecə,
Həsrətim sübhədək üzəcək səni.

22.10.2019

BAŞ AÇA BİLMİRƏM

Səndən baş aça bilmirəm,
Min il də birlikdə qalaq.
Nə də ki, qaça bilmirəm,
Rəbb bizi eyləyib calaq.

Könlünə düşüb, çıxıram,
Orda çox qala bilmirəm.
Sənə özümtək baxıram,
Özümdən ala bilmirəm.

Sən cənnətin nişanəsi,
Canın bənzəyir mələyə.
Kipriyin hicran şanəsi,
Salır ruhumu kələyə.

Çıx qaç könlümdən nə olar,
Qayıdım insan ömrümə.
Uzanıb izinə yollar...
Tabe olmayır əmrimə.

19.10.2019

DÜŞÜRSƏN YADIMA

Düşürsən yadıma həzin xəyaltək,
Xəyalın heç həyan olmayır mənə.
Gəlirsən yuxuma şirin vüsaltək,
Vüsalın yuxutək qalmayır mənə.

Kədərin dolaşır kiprik üstündə,
Kipriklər yük olur gözümə mənim.
Dil oldum ürəyə sənin üstündə,
Ürək durur daha üzümə mənim.

Yorulub yalançı səadətindən,
Səni düşünürəm haray qoparır.
Bezib dırnaq içi ədalətindən,
Ürək məni səndən alıb aparır.

23.10.2019

NƏ MÜDDƏTDİ

Nə müddətdi gözlərimə dolmusan,
Gözlərimdən çıxıb getsən, nə olar?
Misra nədir, sözlərimə dolmusan,
Sözlərimdən çıxıb getsən, nə olar?

Qoşul payız küləyinə uçub get,
Ürəyimin qapısını açıb get,
Mənə tərəf gəlməyirsən qaçıb get,
Xahişimə əməl etsən, nə olar?

Şadimanı saldın yaman möhnətə,
Dözüm qalmıb sən verdiyin möhlətə,
Ayrılığı çevirmə gəl adətə,
Harayıma gəlib yetsın, nə olar?

23.10.2019

YÜKLƏ ÜRƏYİMƏ

Yüklə ürəyimə ağrılarını,
Çəkim dərd yükünü belədən-belə.
Asım qulağımdan sorğularını,
Qonsun ürəyimə, düşməsin dilə.

Dolaş sarmaşıqtək ürək telimə,
Könlümün simləri haray qoparsın.
Keçsin nə zamansa əlin əlimə,
Götürüb yanına məni aparsın.

23.10.2019

GETDİN ÜRƏYİMDƏN

Getdin ürəyimdən, yerin boş qalıb,
Ürəyim ən ağır yük olub mənə.
Sözlərim dolaşır, dil çaş-baş qalıb,
Ömrüm qırılacaq tük olub mənə.

Zamanım dolaşır hicran içində,
Bilmirəm günlərim hayana gedir?
Hönkürür ümidim bu can içində,
Mənə nə edirsə sənsizlik edir.

Mənsiz necə keçir günlərin, bilməm,
Sənsiz xəzan olub tökülürəm mən.
Bəlkə kədər içir günlərin, bilməm,
Sənin hicranına bükülürəm mən.

Əgər yandırsaydın ümid işığın,
Zülmət gecəni də gündüz görərdim.
Bilmədin, mən idim sənin aşiqin,
Bunu bilməməyin ən ağır dərdim.

Etdin əzablara tuş Şadimanı,
Ağrısı göylərə, yerlərə sığmır.
Boğur gözdən axan yaş Şadimanı,
Tək mənim bəxtimə heç günəş doğmur!...

23.10.2019

BAŞIN QARIŞIB

Yenə də hardasa başın qarışıb,
Yenə də hardasa günün xoş keçir.
İçinə kiminsə eşqi sarışıb,
Bilmirsən gözümdən acı yaş keçir.

Axı nə biləsən həsrət acısın?
Onu heç bir zaman yaşamamısan.
Yükləyib könlünə möhnət acısın,
Qəlbində bir kərə daşımamısan.

Sənə köklədiyim duyğularımı,
Ömrümün belinə yükləmişəm mən.
Atmışam bir yana qayğılarımı,
Sənincin qəlbimi təkləmişəm mən.

Bu payız axşamı yerin boş qalıb,
Divardan əksinə baxıb gülürəm.
Ruhum qəhqəh çəkir, can sərxoş qalıb,
Mən sənin dərdindən sənsiz ölürəm.

Yenə də hardasa başın qarışıb,
Günləri günlərə cala nə dərdin?!
Mənimsə gözümdə yaşım qarışıb
Axıb ürəyimə, dola nə dərdin?!

23.10.2019

GƏLİRSƏN YUXUMA

Gəlirsən yuxuma yuxum nazlanır,
Üzümə-gözümə sevgi ələnir.
Misram haray çəkir, söz avazlanır,
İçimə eşqinin odu bələnir.

Ağrılar bədəndən çıxıb qaçırlar,
Ruhum təzələnir, baharım gəlir.
Diləklər başımın üstə uçurlar,
Canımın evinə tək yarım gəlir.

Ürəyim uçunur eşqin barından,
Əhvalım gəncləşir, gözlərim gülür.
Dadıram könlünün can nübarından,
Üstümə göylərin nuru tökülür.

Gəlirsən yuxuma, havalanıram,
Dilimin ucunda dolaşır adın.
Yuxudan ayılıb sənsiz yanıram,
Getmir otağımdan nəfəsin dadın.

Beləcə gecəni yola salıram,
Fikrim haray çəkir ötən gecədə.
Özümü min cürə hala salıram,
Qulağım ilişib qalır küçədə.

23.10.2019

BU NAĞILI BİTİRMƏYƏK

Bu nağılı bitirməyək,
Səpsin sevgi izlər yola.
Cana hicran yetirməyək,
Düşsün ürək haldan-hala.

Dilimizdə sözümüz bal,
Uzaq olsun hər qeylü-qal,
Gəl qolunu boynuma sal,
Qapı açaq qoy vüsala.

Ömür qısa, zaman qaçır,
Hər əzaba min yol açır,
Gözlər qəlbə işıq saçır,
Salmasın dərd bizi dala.

04.01.2020

GÜNÜ QƏLBDƏ KEÇƏNİM

Günü qəlbdə keçənim,
Qəlbdən sənə yar olmaz.
Ürək tutmayır çənim,
Bu qədər qubar olmaz.

Yaşatdığın günlərin
Acısı zəhər dadır.
Açılmır düyünlərin,
Gün də məni aldadır.

Aç ürəyin qapısın,
Gör orda nə sehr var.
Qurma könlümün yasın,
Axı sənə mehr var.

Günü qəlbdə keçənim,
Qəlb sənə eşq eyləməz...
Bədəndə canım mənim,
Can canla məşq eyləməz.

Şadimanın ürəyin
Almısan, götür apar.
Xoş olarsa diləyin
Qəlbin sevdiyin tapar.

23.10.2019

QİSQANIRSAN SƏN MƏNİ

Qısqanırsan sən məni,
Qısqan, başına dönüm.
Tökmə qəlbimə çəni,
Gözün yaşına dönüm.

Ürəkdəki sözünü,
Dilindən ötür mənə.
Dağıt içdən közünü,
Küləklə yetir məni.

Payız xəzani təki,
Saraltma diləyimi,
Çıx yoluma sən təki,
İncitmə ürəyimi.

Könlümdə duyğularım,
İncitək sıralanıb.
Gecələr uyğularım
Həsrətdən yaralanıb.

Bilirəm ki, gəlməyin
Çox çətin bir iş oldu.
Ayrılığa əməyin
Əbədi gediş oldu.

26.10.2019

KİLİDLƏDİM ÜRƏYİMİ

Kilidlədim ürəyimi,
Qapısını açmayacam.
Getməyinə yoxdu sorum,
Heç arxanca qaçmayacam.

Sənə dikdim gözlərimi,
Ayaqladın izlərim
Boşa verdin sözlərimi,
Açmasını açmayacam.

Qanadımı qırıb saldın,
Ürəyimdən vurub saldın,
Vurdun məni, ilham aldın,
Gözün aydın, uçmayacam.

Şadimana etdin zülüm,
İtəcəyəm ilim-ilim,
Daha mənə demə gülüm,
Qəlb bağında açmayacam.

11.11.2019

NİYƏ QISQANIRSAN

Artıq sevən vaxtım keçib
Zaman ömrü ottək biçib,
Gənclik başdan çoxdan uçub,
Nə düşünüb, nə anırsan?
Məni niyə qısqanırsan?

Ömrü atma qeylü-qala,
Getməyirsən mənlə yola,
Salırsan hər işi dala,
Bunları nədən danırsan?
Məni niyə qısqanırsan?

Günüm keçir ah-amanda,
Etibar yox heç zamanda,
Sözün gəzir ox kamanda,
Yolum üstə dayanırsan,
Məni niyə qısqanırsan?

Sabah gəlir, deyək şükür,
Həyat ömrü dərdə bükür,
İçə min bir ağrı bükür,
Dediyimdən usanırsan,
Məni niyə qısqanırsan?

Şadimana etmə sitəm,
Çölüm fərəh, içim matəm,
Qoy könlündə dil-dil ötəm,
Əgər eşqlə sən yanırsan,
Məni niyə qısqanırsan?

25.10.2019

KÜL ETDİ MƏNİ

Həsrətin yandırıb kül etdi məni,
Külümü göylərə sovurmağa gəl.
Harayım aləmə dil etdi məni,
Könlü qəm sacında qovurmağa gəl.

Niyə ürəyimdə ocağı çatdın?
Canımı büsbütün odlara atdın,
Eşqim yatmış vulkan, neçin oyatdın?
Onun varlığını doğurmağa gəl.

Kədərə batmışam, qəm güdür məni,
Ağrı ayağına qul edir məni,
Hicran dəyirmanı üyüdür məni,
Ələndim təknəyə, yoğurmağa gəl.

Söylə Şadimanın nə imiş suçu?!,
Ürəyim sənindir, sök uçulmuşu,
Əldən uçur-gedir ömrümün quşu...
Eşqimin evini sən qurmağa gəl...

30.11.2019

SƏN NƏ BİLƏSƏN

Sən necə biləsən nə çəkdiyimi,
Çəkdiyim könlünə toxunmur sənin.
Dilimə gəlməyir sevgi deyimi,
Çünki gözlərindən oxunmur sənin.

Onsuz da könlümə yad olub getdin,
Özün öz boyuna biçdin beləcə.
Həsrəti içimdə yaman böyütdün,
Sındırıb qəlbimi getdin eləcə.

11.11.2019

ÜRƏYİMİN SAHİBİ SƏNSƏN

Mənim ürəyimin sahibi sənsən,
Bunu necə etdin, deyə bilmirəm.
İnan ki, hələ də heyrətdəyəm mən,
Eşqinə rahibəm, niyə bilmirəm.

Hər gün ürəyimdən keçib gedirsən,
Sənin ümidinə qapı açıram.
Gəlib yuxulara, uçub gedirsən,
Dalınca uşaqtək düşüb qaçıram.

Əsəbin vulkantək püskürür bəzən,
Mənim gözlərimə külü üfürür.
Ey mənim canımda, ruhumda gəzən,
Həsrətin ömrümlə gününü sürür.

Necə oturmusan qəlbin içində?!
Nə çıxıb-gedirsən, nə gəlirsən sən.
Eşqin haray salır təbin içində,
Mənə misraları yazdıran sənsən.

Canımın sultanı, bu nə sevdadı,
Qaçıram dalınca, çata bilmirəm.
Dilindən qopacaq bir əlvidadı...
Mənsə ürəyimdən ata bilmirəm.

Niyə suçlayırsan bu Şadimanı,
Adam da ürəyə dönük çıxarmı?!
Sənsən varlığımın dini, imanı,
Qəlb səcdə evinə heç yad baxarmı?!...

27.11.2019

GƏLDİM ÜZÜNÜ GÖRMƏYƏ

Gəldim üzünü görməyə,
Üzündən keçə bilmirəm.
Qəlbimə dilin məlhəmdi,
Sözündən keçə bilmirəm.

Salmısan qəlbi kələyə,
Yolunda illə mələyə,
Közün od salır ürəyə,
Közündən keçə bilmirəm.

Baxışların nə sehirdi,
Olmaya cana mehirdi,
Can ovlamaqda mahirdi,
Gözündən keçə bilmirəm.

Şadimanla etmə nifaq,
Eşqimizə əlac tapaq,
Dağılmasın, nolar, tifaq,
Özündən keçə bilmirəm.

29.12.2019

SİRR ETMİŞƏM MƏN

Səni sevməyimi sirr etmişəm mən,
Açım bu aləmə deyim, deməyim?
Eşqini könlümdə dür etmişəm mən,
Parladım incini öyüm, öyməyim?

Bu tale gəmsi üzdürür bizi,
Sındırır ürəyi, pozdurur izi,
Sınaqdan keçirir hey qəlbimizi,
Dəryada yönünü əyim, əyməyim?

Məni yaman əyib vəfasızlığın,
Qəlbində həsrətlə bu xoşqılığın,
İçimə yığmısan dərdi bir yığın,
Bilmirəm qəlbinə dəyim, dəyməyim?

30.12.2019

SEVİRSƏN AXI

Sən ömrü bahara, mən ömrü qışa,
Sən mənim nəyimi sevirsən axı?
Uzaqdan könlümü tutmusan daşa,
Yaxşı olar gəlib devirsən axı.

Sən çiçəyi açan yaz sevdalısan,
Ruhuna eşq tökən naz sevdalısan,
Görürəm ki, mənə az sevdalısan,
Mən köhnə, sən təzə dövürsən axı.

Hər gün günüm keçir ahu-fəğanla,
Mənim gərdişim yox heç bu dövranla,
Çox dedim çarə qıl, könlümü anla,
Eşqi niyə belə öyürsən axı?!

Mən qova bilmirəm ağrımı candan,
Sən də, bəhs edirsən hər gün hicrannan,
Hara gedəcəyəm mən bu cahannan?
Əlac yox üzünü çevirsən axı.

Şadiman dərdinə olubdu sail,
Arzusu, istəyi bu yolda zail,
Sənsə öz-özünə olmusan mail,
İçimə yüklənən qövrsən axı.

03.01.2020

ÜRƏYİM SƏNİ İSTƏYİR

Baxışlarımdan payız xəzanı tökülür,
Yenə dan yeri sökülür.
Zamanım təsəlli içində üzümə gülür.
Sənin gəlişinə günüm çiçəklənir,
Ümidlərim ürəklənir.
Ayrılıq təklənir...
Hər söz, hər təmas xətirimə dəyir,
Ürəyim səni istəyir.

***

Yollar uzanıb gedir,
Ağrımı qazanıb gedir,
Bilmirəm içimdə titrətmə nədir?
Məni səndən edir,
Toz dumanına bənzər anım,
Boş taxtım, sönmüş çırağım ünvanım,
Sənsizlik istiot dadı veirir,
Acılığını izlərimə sərir.
İşığa bağlanmış dirəyəm,
Göy üzündən sənə baxan mələyəm,
Bilirsən ki, sənə gərəyəm,
Bu duyğu bütün dünyaya dəyir,
Ürəyim səni istəyir.

04.01.2020

YAMAN YERDƏ HAXLADI

Həsrət bizi yaman yerdə haxladı,
İstəyirəm güləm, gülə bilmirəm.
Qopdu tufan, diləklərim laxladı,
Düşdüm haçan dildən-dilə bimirəm.

Zalım fələk ovxalayır günümü,
Od üstünə od qalayır günümü,
Göz yaşımla yuyur sərir günümü,
Nə vaxt düşər vüsal ələ, bilmirəm.

Nə xəbər var, nə məktub var, nə gələn,
Nə çəkirəm, çəkdiyimi yox bilən,
Bəlkə gələ, deyin ona var ölən...
Düşsün sədam eldən-elə, bilmirəm.

Ümidlərim xəzan təki ələnir,
Yerə düşür torpaq altda bellənir,
Xəyallarım yellənçəktək yellənir,
Nə gözləyir məni hələ, bilmirəm.

Ürəyimi çək sınağa, özün bil,
Ağızlar da sal qınağa, özün bil,
Göz yaşımı süz yanağa, özün bil,
Bəlkə fələk yazıb belə, bilmirəm.

05.01.2020

DEMƏK SƏNİ SEVİRƏM

Bürüməsin könlün için duman-çən,
Bürünmüşəm saf eşqinə inan mən,
Oda düşüb, atəşinə yanan mən,
Gəlmişəm ki, qəm-qüssəni devirəm,
Qısqanıram, demək səni sevirəm.

Ayın günün ovqatına büründüm,
İlan təki izlərində süründüm,
Harda oldun, mən də orda göründüm,
Gəlmişəm ki, qəm-qüssəni devirəm,
Qısqanıram, demək səni sevirəm.

Ürəyimin səadəti səndədir,
Canı eşqə ibadəti səndədir,
Bir ömürlük ədaləti səndədir,
Gəlmişəm ki, qəm-qüssəni devirəm,
Qısqanıram, demək səni sevirəm.

Üz döndərsən dodaq büzər çevirə,
Şadimanı gəl salma çək-çevirə,
Könlüm küsüb, üzün səndən çevirə?
Gəlmişəm ki, qəm-qüssəni devirəm,
Qısqanıram, demək səni sevirəm.

05.01.2020

UCALT MƏNİMÇÜN

Ruhumun göyünə ucalt mənimçün,
Allah, bu sevdanı yaşat mənimçün.

Ayrıla bilmirəm baxışlarından,
Uzaq et həsrətin sərt qışlarından-
Ürəyimə axan göz yaşlarından,
Çək könül çevrəmə naxışlarından.

Həsrətin yolunu qısalt mənimçün,
Allah, bu sevdanı yaşat mənimçün.

Dilindən tökülsün könlümə şəkər,
Olmasın arada kədər ziyankar,
Sevənim sevdiyin etməsin inkar,
Nə var ürəyində eyləsin aşkar.

Dərdim yükə dönüb, azalt mənimçün,
Allah, bu sevdanı yaşat mənimçün.

İçimdə nə qədər arzu-kam yatır,
Hicran aramıza çox lağım atır,
Həsrətdən könlümün günəşi batır,
Ayrılıq hər zaman şərə əl atır...

Bilirsən, tək odur həyat mənimçün,
Allah bu sevdanı yaşat mənimçün.

Dilimdən düşməyən dilək kimidir,
Sinəmdə döyünən ürək kimidir,
Telimi oxşayan külək kimidir,
Tənimə can verən fələk kimidir!

Eşqimin ömrünü uzat mənimçün...
Allah, bu sevdanı yaşat mənimçün.

06.01.2020

ÇOX YARAŞIR

Gülmək sənə çox yaraşır.
Məhəbbətin aşıb daşır.
Həyatımla pıçıldaşır,
Gül, ömrümün gərəyi gül,
Ürəyimin ürəyi gül.

Fərəhlənsin qoy sabahım,
Həyatımdan getsin ahım,
Axı sənsən tək pənahım,
Gül, ömrümün gərəyi gül,
Ürəyimin ürəyi gül.

Məhəbbətin könlə işıq,
Tök bağrıma qaşıq-qaşıq,
Aç sabahtək, ver yaraşıq,
Gül, ömrümün gərəyi gül,
Ürəyimin ürəyi gül.

06.01.2020

ÇİÇƏKLƏRİ KÖNLÜMÜN

Eşqlə açıb çiçəkləri könlümün,
Gəl bağına narın ələ, narın üz.
Ruha gülür diləkləri könlümün,
Qəlbimə gir, yarı mənim, yarın üz.

Zülmət köçün dala çatıb qaçmada,
Xəyallarım göy üzünə uçmada,
Gəlib məni aşiq kimi qucmada,
Qəlbimə gir, yarı mənim, yarın üz.

Sevda dolu günlərimlə baş-başa,
Ürək verdim, can qızdırdım sirdaşa,
Səbəb olma, dolub daşan göz yaşa,
Qəlbimə gir, yarı mənim, yarın üz.

Buz eyləmə könül evin qar kimi,
İlahidən göndərildin bar kimi,
Şadimanla eylə ülfət yar kimi,
Qəlbimə gir, yarı mənim, yarın üz.

08.01.2020

MİNNƏTDARAM

Minnətdaram bu sevgiyə, ülfətə,
Vurulmusan səni sevən afətə,
Rəbb salmasın eşqimizi zillətə,
Sən məni sev, mən də səni, ey yarım,
Sənə bağlı, çünki, həyat gülzarım.

Bu sevdanın üzü gülər sənlə,
Başımıza nurun ələr sənlə,
Canım, ruhum eşqə gələr sənlə,
Al könlünə, götür məni, ey yarım,
Sənə bağlı, çünki, həyat gülzarım.

Bilirmirsənmi ürəyimdə nələr var?!
Eşqimizin həsrətindən ölər var,
Yollarında quzu kimi mələr var,
Apar qəlbdən çiskin-çəni, ey yarım,
Sənə bağlı, çünki, həyat gülzarım.

Dünya üzü atəşinə bürünür,
Gözlərimə yalnız eşqin görünür,
Bu Şadiman yollarında sürünür,
Qoyma könlə hər yetəni, ey yarım,
Sənə bağlı, çünki, həyat gülzarım.

09.01.2020

YOLLARINDA QALMIŞAM

Bilirsən ki, yollarında qalmışam,
Gözüm nuru, qəlb istəyim, gəl mənə.
Sorağını buralarda almışam,
Ötüb keçmə, dayan eylə əl mənə.

Nə müddətdi aramızda həsrət var,
Bir-birindən ayıran pis niyyət var,
Dərd püskürən, qəlb əridən illət var,
Gözüm yaşı xatırladır sel mənə.

Günü-günə calayıram, nə xeyri?
Ürəyə od qalayıram, nə xeyri?
Canı eşqlə bulayıram, nə xeyri?
Olub daha könlüm sızlar tel mənə.

Şadimanı çəkdin ahın üstünə,
Dərdin yıxdın min günahın üstünə,
Ruhum uçdu al sabahın üstünə,
Canım çıxdı, qınaq etdi el mənə.

14.01.2020

MƏNİM ÜRƏYİMDƏ

Niyə mənim ürəyimdə
Gizlənirsən, sevən adam?!
Düşüb ora, ocaq olub
Közlənirsən, sevən adam.

Duyğuları oyadırsan,
Min bir rəngə boyadırsan,
Ovqatımda bal dadırsan,
İzlənirsən, sevən adam.

Ağzımdasan dilim kimi,
Gün nazilir telim kimi,
Sən də ayım, ilim kimi,
Gözlənirsən, sevən adam.

Eşq ruhumun – Rəbb bəzəyi,
Axtar qəlbdə, tap özəyi,
İcra edir söz istəyi,
Üzlənirsən, sevən adam.

26.01.2020

SEVİRİKSƏ

Seviriksə bir-birini.
Heç kim bizə çəpər olmaz.
Açmarıq heç qəlb sirrini,
Həsrət eşqə sipər olmaz.

Eşq gəlibdi Allahımdan,
Nurla dolu sabahımdan,
Fərəhimdən, ya ahımdan,
Onsuz canda təpər olmaz.

Eşq İlahi duasıdı,
Rəbbimizin havasıdı,
Ürək onun yuvasıdı,
Dünyada bir nəfər olmaz.

Gəl sevdalım, qəlbimə gir,
İki olaq nədir ki, bir?
Hicran ağzı açıq qəbir,
Belə vaxtsız səfər olmaz.

Biz göylərdə görüşmüşük,
Ordan yerə bir düşmüşük!
Min illərdi sevişmişik...
Sənsiz qəlbdə təpər olmaz.

Ağrı veirir yönsüz həyat,
Yara basıb könlə min qat,
Ürək təşnə, dodaqlar çat,
Onu kimsə öpər olmaz.

Şadimanın əhvalın sor,
Ömür-günüm əzizim zor,
Ürəyini yandırır qor,
Yad gəlib su səpər olmaz.

18.01.2020

ŞİMAL KÜLƏYİTƏK SOYUQSAN

Sən də şimal küləyitək soyuqsan,
Soyuqluğa şaxtalartək duyuqsan.

Bilmək olmur mətləbini heç zaman,
Ürəyimə doldurmusan ah-aman.

Hardan gəlib, hara gedir xəyalın?!
Haralara köklənibdi amalın?!

Bayırdakı sazaqlardan betərsən,
Varlığımı aramayıb ötərsən.

Röyaları boş-boşuna buraxdın,
Ürəyimi həsrətinlə çox yaxdın.

Heç omasa yuxulara gəlmirsən,
Əhvalımı soruşmursan, bilmirsən.

Dağıtmırsan aramızda divarı,
Hərdən-birdən aşa bilmirsən barı.

Xəzri təki üşüdürsən canımı,
Dərd yollayıb dondurursan qanımı.

Xəyallardan soyuq buzlar asılıb,
Xatirələr ürəyimə qısılıb.

Sən də şimal küləyitək soyuqsan,
Soyuqluğa şaxtalartək duyuqsan.

22.01.2020

MƏFTUNUN OLMUŞAM

Məftunun olmuşam, ey gülüzlü yar,
Sənə ürəyimdə sevgilərim var.
Açsın zamanımız çiçəklər kimi,
Qovuşaq göylərdə mələklər kimi.
Yandıraq vüsalla həsrətimizi,
Artıraq gün-gündən ülfətimizi.
Sarışsın duyğular biri-birinə,
Sevgimiz döyünsün ürək yerinə.
Dözümü bu qədər çəkmə sınağa,
Yox demə, qapına gələn qonağa!
O ki, qapındaca durub boylanır,
Sanki pərvanədir, başa haylanır.
Yığış gəl ömrümə, ey gülüzlü yar,
Sən gəlsən, gələcək ömrümə bahar.

26.01.2020

ZALIM HƏSRƏT

Zalım həsrət ürəyimə,
Ağrı verir, qurban olum.
Uçur qonur diləyimə,
Açılarmı bağlı yolum?!

Gözlərindən kədəri qov,
Yazı yazan qədəri qov,
Hicran məni eyləyib ov,
Tələdədi əlim, qolum.

Məktubların solub daha,
Bizə olan olub daha,
Basıb könlü qəmin aha,
Bəyan olsun sənə halım.

Göz yaşımı bükdüm günə,
Duman təki çökdüm günə,
Sürətini çəkdim günə,
O da olsun qoy vüsalım.

27.01.2020

NƏ GƏZİRSƏN ÜRƏYİMDƏ

Nə gəzirsən ürəyimdə,
Ay könlümə girən adam.
Eşqlə dolu varlığımı,
Məndən betər görən adam.

Səadətin bağlı qapı,
Süründürür qapı-qapı,
Üzmə bağrı, kəsmə tabı,
Haqqıma ər, ərən adam.

Sevda bağçam güllə dolu,
Sənə doğru açıq yolu,
Gəlmirsən, get üzüsulu,
Bağrıma od sərən adam.

Gün dolaşıb saatıma,
Hicran verir ovqatıma,
Sən gələndən həyatıma.
Olub pərən-pərən, adam.

Eşqin yolu asan deyil,
Yorulana usan deyir,
Bağ gül açıb, sübhün xeyir,
Bağçamdan gül dərən adam.

Şadimanın yolu sənə,
Gör nə söylər halı sənə,
Gözüm yolda bir gəlsənə,
Canla ömür sürən adam.

30.01.2020

TAPINMIŞAM MƏN

Sənin varlığına tapınmışam mən,
Baxışın könlümü sac eyləyibdi.
Sən varsan, kədərdən sapınmışam mən,
Həsrətin ruhumu ac eyləyibdi.

Getmə gözlərimdən, ölərəm sənsiz,
Anasız quzutək mələrəm sənsiz,
Özümə məzarı dilərəm sənsiz,
Vüsalın bu hisdən qaç eyləyibdi.

Arxamda dağımsan, gözümdə nurum,
Mənim yaşam boyda ömür qürurum,
Min ili qulluğunda beləcə durum,
Dilin könlümə yol aç eyləyibdi.

Şadiman kədərə bulaşar qalar,
İçində acılar ulaşar qalar,
Ürəyin könlümlə yollaşar qalar,
Eşqini başıma tac eyləyibdi.

01.02.2020

BÜKMƏ ÜRƏYİMİ

Bükmə ürəyimi həsrətinə sən,
Könlünə əkməsən yetişən deyil.
Bağlama eşqimi xislətinə sən,
Qəlbimə çat salsan bitişən deyil.

Ömrü gəldi-gedər verib Yaradan,
İçinə sevgisin sərib Yaradan,
Bizi ki, bir yerdə görüb Yaradan,
Gördüyü gözündən ötüşən deyil.

Qovub xəyalları salma didərgin,
Hər iki ürəkdə açılıb sərgin,
Qəlbimi etmisən bədəndən sürgün,
Sürgün olan yerə gün düşən deyil.

01.02.2020

AL KÖNLÜNƏ

Götür məni, al könlünə,
Ürəyində közə gəlim.
Hər neyim var, sal könlünə,
Can dediyin sözə gəlim.

Səadətin bəxtin yarı,
Qoyma olsun qəlb qubarı,
Əsirgəmə eşq nübarı,
Çağır çölə, düzə gəlim.

Gedək çölün cığırına,
Yüklə məni bağırına,
Düşmüm dərdin ağırına –
Onunla üz-üzə gəlim.

Aç qəlbini, qaçım sənə,
Qanad açım, uçum sənə,
Dəryaları qucum sənə,
Eşqlə üzə-üzə gəlim.

01.02.2020

ÇƏK MƏNİ ÖZ KÖNLÜNƏ

Çək məni öz könlünə,
Könlün mənə yaraşıq.
Damcıladım qəlbinə
Eşqimi qaşıq-qaşıq.

Həyat özü tapmaca,
Kim bağlaya, kim açа,
Gəldim yol qaça-qaça,
Dur ol qəlbimə aşiq.

Ömür qısa, gün gödək,
Eşqi canla bir edək,
Bu yolu birgə gedək,
Ol qəlbimə sarmaşıq.

01.02.2020

CAN EVİNƏ GƏLMİŞƏM

Nə baxırsan məzlum-məzlum üzümə,
Bilirsən ki, can evinə gəlmişəm.
Bir yer göstər, yer tapmıram özümə,
Gəlişimi qabaqcadan demişəm.

Soruş məndən necə keçir günlərin?
Mənsizliyə nədən dözür ürəyin?!
Kipriyimlə həsrət biçir günlərim,
Bu ağrını necə yozur ürəyin?!

Eşqin daşır gözlərimdən sel təki,
Dinməz-dinməz boylanırsan kənardan.
Baxışların əsib keçir yel təki,
Çətir tutub haylanırsan kənardan.

Gəldiyimtək qayıdaram, gedərəm,
Can evinə yiyə çıxan tapılar.
Öz cızdığım cığırıma qədərəm,
Çək əlini qoy bağlansın qapılar.

04.02.2020

PIÇILDA QƏLBİNİ

Pıçılda qəlbini ürəyimə sən,
Ürəyim qəlbinin qulu olacaq.
Məni can mülkünün sahibi etsən,
Bu sevgim ömrünün yolu olacaq.

Könlünün eyhamın o dəm anladım,
Duydum, sənsizliyə çəpərəm özüm.
Pozuldu əhvalım, getdi can dadım,
Bildim, qəm toxumun səpərəm özüm.

Sənin pıçıltınla ayaq üstəyəm,
Alnımın qırışı ömür yolumdur.
Sənsiz yatağımda mən can üstəyəm,
Sənin yaxşı halın mənim halımdır.

Gəzirsən qarşımda səssiz-səmirsiz,
Nəfəsin ruhuma həyat çiləyir.
İtaətindəyəm, daim əmirsiz,
Baxışın ruhuma gün gülmüsəyir.

Kipriklər üstündə yatıb şəbnəmim,
Oyatma, gözümü bürüyər leysan.
Bəbəklər içində dolaşır nəmim,
Getsən olacaqdır həsrətə ehsan.

Pıçılda qəlbini ürək dinləsin,
Pıçıltın könlümə xoş ovqat verir.
Ayrılıq azara düşüb inləsin,
Könül birliyimiz ona çat verir.

05.02.2020

GƏL OLAQ NƏFƏS

Dərin boşluqdayam, havam çatmayır,
Əllərim dərgahda duam çatmayır,
Daha həsrətinə səbrim batmayır,
Sıxır ürəyimi hər yandan qəfəs,
Hardasan, sevdiyim, gəl olaq nəfəs.

Kipriklər yaş tutub, gözlər sellənir,
Tale qəndilləri göydə yellənir,
Sənə can atıram hicran dillənir,
İstəyim deyildir quruca həvəs,
Hardasan, sevdiyim, gəl olaq nəfəs.

Bir ümid bəslədim, yüz kədər doğdu,
Sənsizlik acısı ruhumu boğdu,
Aşiqinəm dedin, bu nə uğurdu?
Necə və`dlər verdin, hara getdi bəs?
Hardasan, sevdiyim, gəl olaq nəfəs.

Ömür yol üstündə dörd ayaq çapır,
Quduztək könlümü qəm, kədər qapır,
İntizarın gəlib canımı tapır,
Yolları ot basıb, səndən gəlmir səs,
Hardasan, sevdiyim, gəl olaq nəfəs.

Bir tənha yuva tap, qoy olsun uçuq,
Qızınsın oduna ora azacıq,
Bağlama, qoy qalsın qapısı açıq,
Bil, sənin yerini verməz heç bir kəs,
Hardasan, sevdiyim, gəl olaq nəfəs.

Şadiman boyuna biçib ağrını,
Tutdurub oduna yanan bağrını,
Burax can evinə könül oğrunu...
Ayrılığın yolun bacarırsan kəs,
Hardasan, sevdiyim, gəl olaq nəfəs.

06.02.2020

BİLDİYİN KİMİ

Yüklə həsrətini könlüm içinə,
Get ömrümə gələn, gəldiyin kimi.
Onsuz da həyatım düşüb biçinə,
Yandır ürəyimi bildiyin kimi.

Etibar yükünü illə çəkirəm,
Mən özüm bilirəm nələr çəkirəm,
Hicranı gözümdən yaşla tökürəm,
Yandır ürəyimi bildiyin kimi.

Səni də, məni də yaratdı Allah,
Qəlbdə sevgimizi ucaltdı Allah,
Yatmış duyğuları oyatdı Allah,
Yandır ürəyimi bildiyin kimi.

18.01.2020

ÜRƏYİMİN SAHİBİ

Mənim ürəyimin sahibi sənsən,
Ol mənim könlümə bir udum nəfəs.
Ruhuma hakimsən, qəlbimə mənsən,
İnan ki, deyildir ötəri həvəs.

Can bədən içində qövr eləyəndə,
Bil ki, həyatımdan uzaq düşmüsən.
Eşqin varlığımda dövr eləyəndə,
Sevdalı istəktək könlə düşmüsən.

Qoru içindəki bilməcələri,
Yoxdan var oluram hər gün sənincün.
Xəyalım dolaşar tək gecələri,
Olam can evimdən sürgün sənincün...

Ürəyim çarpışır həsrətin ilə,
Hissimdən, duyğumdan kənar deyilsən.
Sevgimi gətirə bilmirəm dilə,
Deyirəm sev məni, əsla, əyil sən...

10.02.2020

QISQANIRAM MƏN

Səni yerə-göyə qısqanıram mən,
Bu hiss ağılımdan itib getməyir.
Hərdən öz-özümdən usanıram mən,
Qısqanclıq azarım qəlbdən itməyir.

Dilimin duası, can həyəcanım,
Sənin varlığına köklənib canım,
Ruhumun getdiyi könül ünvanım,
Xəyal gedən yerə əlim yetməyir.

Ayrılıq rəvacdı qısqanclığıma,
Girir şeytan kimi hey qılığıma,
Qənim kəsilibdi, o varlığıma,
Dərdi şiddət edir, başdan ötməyir.

Bu necə sevgidi, necə intizar?!
Salır, gündən-günə ruhuma azar,
Qısqanclığım mənə bir dibsiz məzar,
Sonu görünməyən əzab bitməyir.

Son qoyaq ayrılıq zülmünə birgə,
Könlümüz düşməsin bu qədər bərkə,
Baş götürüb qaçaq dünyadan bəlkə...
Daha ümidlər də eşq böyütməyir..

Qısqanclıq misramı ağıyla biçir,
Kiprik çənə batıb, gözüm yaş içir,
Özün yox, yuxumdan həsrətin keçir,
Şadiman boşuna söz üyütməyir.

07.02.2020

QOXLA KÖNLÜMÜ

Mən də sənin kimi həsrətə naşı,
Al sinən üstünə qoxla könlümü.
Qovla qəlb evindən bir az təlaşı,
Özün imtahan et, yoxla könlümü.

Sınaqlar içində itir ürəyi,
Dərdimə ortaq et, bitir ürəyi,
Qəlbimin dadına yetir ürəyi,
Qoymasam, uzaqdan oxla könlümü.

Bu dünya evinə gəldi-gedərik,
Yalnız bir-birini xoşbəxt edərik,
Canın qapısında hicran güdərik,
Çək ürək içinə, saxla könlümü.

Ələ misqal-misqal cana eşqini,
Keçirt damarlardan qana eşqini,
Eylə ruhu ocaq, yana eşqini,
Çatdır istəyinə çoxla könlümü...

Sən bu Şadimana, demə, çırağım,
Yetib payızına bu ömür çağım,
Çatsa qulağına ölüm sorağım,
Yad etmə nə üçlə, qırxla könlümü.

10.02.2020

ÜRƏYİMİ BƏZƏMİRSƏN

Nə olub, kəsilib daha görüşlər?
Girib aralığa min cürə işlər,
Düşür aramıza hər gün döyüşlər,
Donub dodağıma qonan gülüşlər,
Əvvəlki adama bənzəmirsən sən,
Daha ürəyimi bəzəmirsən sən.

10.01.2020

KÖNLÜMÜN QAPISI AÇIQ

Könlümün qapısı açıq həsrətə,
Daha vüsalından yan qaçıram mən.
Özüm də verirəm qıcıq həsrətə,
İçdə öz halıma çox acıram mən.

Gələn sabahların günün saymıram,
Ötən günlərimi tabutlayıram.
Sənin xəyalını yaxın qoymuram,
Dərdin zəmisində qəm artlayıram.

Pəncərə şüşəsi kabusa dönub
Tək sənin əksinə güzgünü tutub.
Hönkürən ruhumun işığı sönüb,
Kabus əcəb edib düzgünü tutub.

Şəkilin asılıb pəncərə boyu,
Mən də gizli-gizli qan-yaş tökürəm.
Sən öz yatağında rahatca uyu...
Mən səni şəklini könlə bükürəm.

Gizli gəlişinə səbəb bilmirəm,
Tez nağıl uydurub yuxulara gəl.
Eşqə əlac edən bir həb bilmirəm,
Ruhum ətir saçır qoxulara gəl.

Könlümün qapısı açıq həsrətə,
Həsrət də çox zaman vüsal gətirir.
Gəl birlikdə verək acıq həsrətə,
Ömrüm tərsə dönüb, günü bitirir.

05.03.2020

SEVİRƏM SƏNİ

Bilirsən, sevirəm səni,
Üzünə deyə bilmirəm.
Tökmüsən qəlbimə odu,
Közünə dəyə bilmirəm.

Baxışın könlümü didir,
Gözümə düşüb nə edir?
Günlərim həsrətə gedir,
Yolunu əyə bilmirəm.

Gün gəlib günü ələyir,
İçimdə hicran mələyir,
Ürəyim səni diləyir,
Xətrinə dəyə bilmirəm.

20.02.2020

SÜKUT SƏSİNƏ

Bu gecə ayıldım sükut səsinə,
Qarşımda dayanıb boylanan xəyal.
Oyandım kölgənin xoş nəfəsinə,
Ruhumun başına haylanan xəyal.

Bu nə bilməcəydi, bu nə tapmaca,
Divar hənirtisi təsəllim imiş.
Xəyalım göylərə açılan baca,
Ona tumar verən öz əlim imiş...

Sakit pıçıltılar doldu qulağa,
Könlüm qanadlandı quştək bu səsə.
Gözdən axan yaşım döndü bulağa,
Verdim pıçıltıyla nəfəs-nəfəsə.

Bu gecə süküt da fəryad qopartdı,
Təndən hay-harayla ayrıldı canım.
Zülmət karvanına ruhumu çatdı,
Xəyal boşluğunda itdi ünvanım...

05.02.2020

YADA DÜŞƏR XATİRƏLƏR

ASTA-ASTA DÖYÜR

Həyat yoldaşım Əli Abdulovun 70 illik yubleyi münasibəti ilə

Asta-asta döyür ömür qapını,
Qürur dolu sevdalıdır yetmişin.
Illər uda bilməyibdir tabını,
Atəş dolu nidalıdır yetmişin.

Zalım zaman gəlib keçir yel təki,
An qırılır saçımızda tel təki,
Arzu-istək içdə daşır sel təki,
Uğura yetib ədalıdır yetmişin.

Saflığına tay tapmıram dünyada,
Ömrüm günüm varmı səntək həyatda?
Çoxu gəzir içi min bir boyada,
Ətrafına sədalıdır yetmişin.

Ürəyimdə deyiləsi sözüm var,
Aramızda sevgi, istək, dözüm var,
Yollarında bitib duran gözüm var,
Ötən ömrə qidalıdır yetmişin.

Heç görmədim sənin kimi vəfalı,
Birgə həyat, bilən bilir cəfalı,
Acı sözün vallah mənə səfalı,
Zənn eləmə qadalıdır yetmişin.

Şadimanın illə çəkdin nazını,
Havalıyam, dindir könül sazını,
Gedib ömür, bizə qalan azını
Çəkək kama, dağ balıdır yetmişin!

03.08.2018

XURAMAN

İllər keçir, görmürük bir-birini,
Bu nə həsrət, bu nə hicran, Xuraman.
Ürəklərə köçürdük qəlb sirrini,
O illərə can atır can, Xuraman.

Ömür keçir zaman uçur yel kimi,
Sən əzizsən ağzımdakı dil kimi,
Qəlb bağlanıb bir-birinə tel kimi,
Sözüm doğur min həyəcan, Xuraman.

Sinifmizin bir nazəndə qızıydın,
Gözəlliyin ürək açan yazıydın,
Doğmaların göz oxşayan nazıydın,
Saçı uzun, gözü mərcan, Xuraman.

Unutmadım heç bir zaman sizləri,
Ürəyimdə o illərin közləri,
Məllimlərin uğrumuzda izləri,
Yaddaşımda qurubdu an, Xuraman.

Dağ gözəli, əqidən dağ havası,
Üz-gözündən tökülür haqq duası,
Məktəb bizim savad-bilik yuvası,
Ondan doğur qəlbə iman, Xuraman.

İllər sonra aramısan sən məni,
Qərib düşdüm, işğal edib çən məni,
Qismət olsun, basım bağra mən səni,
Məktəb ömrə can dostu can, Xuraman.

Şadimanın ürəyinə əzizsən,
Sən güllərdən, çiçəklərdən təmizsən,
Məşrif yurdda silinməyən bir izsən,
Kitabxana elmə səhman, Xuraman.

02.07.2019

TƏLƏBƏ YOLDAŞLARIM

Tələbə yoldaşlarıma ərmağan

Ötüb keçən illəri zamanla sığalladıq,
Sabahlara yetməkçin ümidə bel bağladıq,
Bəzən qəh-qəhə çəkib, bəzən gizli ağladıq,
Heç də zənn eləmədik bir-birinə biz yadıq,
Sizlər mənə doğmasız, ey bacı-qardaşlarım,
Tələbə yoldaşlarım.

Mən unutqan deyiləm, bunu həyat öyrətdi,
Unutqanlıq özü də dünya boyda bir dərddi,
İçinizdən boylanan vicdanınız çox mərddi,
Ömrü dartıb aparan vaxt deyilən namərddi,
Sizlər mənə doğmasız, ey bilik sirdaşlarım,
Tələbə yoldaşlarım.

Otuz altı il keçib o təhsil illərindən,
Mehribanlıq hələ də düşməyir dillərindən,
Gəncliyin hərarəti tökülür əllərindən,
Xoş sədaları gəlir şükür ki, ellərindən,
Dünənki görüş vaxtı boğuldu göz yaşlarım,
Tələbə yoldaşlarım.

Bizim görüş yerimiz Qız qalasının yanı,
Qız qalası gizlədib orda hiss-həyəcanı,
Hərə öz sevdasının ən qiymətli mərcanı,
İsidir yuvasında uşaq, nəvəylə canı,
Siz dəyəri bilinməz qiymətli daş-qaşlarım,
Tələbə yoldaşlarım.

Mən o görüş yerinə gəlmədim neçə illər,
Necə etdiyim suçdan dolanıb keçə illər?!
Çəkdiyim acıları mənimlə biçə illər,
Ünversitet təhsilin yenidən seçə illər...
Çatılır həsrət ilən ötənlərə qaşlarım,
Tələbə yoldaşlarım.

Başladı müharibə, ağır keçdi günümüz,
Bağlandı yol-irizlər, içdə batdı ünümüz,
Göz yaşına büründü neçə toy-düyünümüz,
İşğala düçar olduq, yol tapmayır beynimiz!...
İnlədir bizi dövran beləcə soydaşlarım,
Tələbə yoldaşlarım.

Əziz müəllimlərin çəkdiyi cəfaları,
Bizlərə bala deyib, etdiyi vəfaları,
Təhsildən bulduğumuz uğurlar- səfaları,
Həyat silir yaddaşdan vallah bivəfaları,
Tələbəlik illəri ömrümə sal daşlarım,
Tələbə yoldaşlarım.

Sizlər gənclik xatirəm heç unuda bilmədim,
Bilik elə gövhərdi başdan ata bilmədim,
Biliksiz ömür sürüb başı qata bilmədim,
Gündüzü xoş keçirib rahat yata bilmədim,
Bitməyir bu ömürlə hələ də savaşlarım,
Tələbə yoldaşlarım.

Dünənki görüş günü yaddaşıma həkk oldu,
Deyib, gülüb, danışdıq ömrümüzə rəng oldu,
Ötürdüyüm görüşlər öz-özümə sərk oldu,
Silkələndi yaddaşım zəlzələsi bərk oldu,
Ey könlümün evində qalan amal daşlarım,
Tələbə yoldaşlarım.

Şadimanı siz dünən xoş mərama çatdırdız,
Ürəkdə yuva qurmuş qəmi içdən atdırdız,
Ötən xatirələrlə başın yaxşı qatdırdız,
İçində haray salan təbini ucaltdırdız,
Ömrün gənclik çağına getdik yol yoldaşlarım,
Tələbə yoldaşlarım.
Tələbə yoldaşlarım.

11.05.2019

NİYƏ DÜZƏLMİR

Hafiz Rüstəmə

Qurtarmır dünyanın ağrı-acısı,
Deyirlər düzələr, niyə düzəlmir?!
Çoxunun qarnında sərvət sancısı,
Haqq qoyduğu yola gəlmir ki, gəlmir.

Sən də Hafiz Rustəm, Rəbbə üz tutdun,
Onun səcdəsinə gedən iz tutdun,
Misralar içində sözü köz tutdun,
Qanmaza sərf etmir, əriyir dəmir.

Qardaşım, çox atdım sözlə kəməndi,
Xırsızın tükənmir, feili-fəndi,
Hiyləylə bağlayır bərəni, bəndi,
Odur ki, düzlükdən çıxmır səs-səmir.

Deyirsən, arada görünmürəm mən,
Heç çağrılan yerə ərinmirəm mən,
Heç zaman ayaqda sürünmürəm mən,
Suyu çox aparır deyirlər xəmir.

Söz əhli olmağın cəfası ağır,
İçimə dünyanın ağrısı yağır,
Hər gün cahan boyda könlüm qəm doğur,
Nə çəkdiyimizi çox adam bilmir.

Düz sözün çarmıxa çəkilən vaxtı,
Gözlərdən qan-yaşın tökülən vaxtı,
Yaradan tərpədir Yer adlı taxtı,
Haqqın dəyirmanı verilən ömür!

Çəkilib hücrəmə, baxdım sabaha,
Yazdığım bəllidir onsuz Allaha,
Kiminə ucuzdur, kiminə baha,
Ucuz sananların duyğusu kömür.

Qardaş, söz ağrısı çəkdik dünyada,
Onu misralara əkdik dünyada,
Hər gün ağır yükün çəkdik dünyda,
Yükü çəkənlərin üzləri gülmür.

Bu məktub ərmağan Hafiz Rüstəmə,
Qardaşım, bacına unutqan demə,
Sənə ismarlanıb söz dolu kəlmə,
Könlü titrətməsə heç misra gəlmir…

12.12.2017

ƏSKİK OLMAYIR

Təbrizli qızı Pərvinə ithaf

Üzündən gülüşü əskik olmayır,
Günəşə məlhəmdi közü Pərvinin.
Qəlbimdə istəyi heç vaxt solmayır,
Hamıdan göyçəkdi özü Pərvinin.

O güney elindən istək gətirdi,
Bizi candan sevən ürək gətirdi,
Sanki Rəbbim göydən mələk gətirdi,
Getmir baxışımdan üzü Pərvinin.

O şirin ləhcəli dili ahəstə,
Olmayır belə xoş duyğu hər kəsdə,
Gəzir Güneyimin eşqi nəfəsdə,
Dilində çağlayır sözü Pərvinin.

Gəlişi ürəkdə yerin eyləyib,
Dostluğun bağların dərin eyləyib,
Həsrət aramızı sərin eyləyib,
Dikilib yollara gözü Pərvinin.

Şadiman gəzdirir qəlbdə dost adı,
Getmir damağımdan görüşün dadı,
O da Vətənimin güney övladı,
Düşdü ürəyimə izi Pərvinin.

27.08.2020

ZÜLÜM OLDU NƏRMİNƏ

Tovuz rayon Quşçu kənd sakini,
2010-cu il təvəllüdlü
Quliyeva Nərmin Şərif qızının
dəhşətli qətlinə ağı

Ömür adlı həyat yükün çəkənlər,
İtkin düşən qıza qəlbin sökənlər,
Bu vəhşətə göz yaşını tökənlər,
Yer titrədən zülüm oldu Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

Ay şərəfsiz, baxan gözün çıxaydı,
El içində bəbəyin kor baxaydı,
Ürəyini dərd yandırıb yaxaydı,
Qəlblər dilim-dilim oldu, Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

Öldürdüyün, yandırdığın, qızcağaz,
Büllur təki sındırdığın, qızcağaz,
İnsansanmı, necə udur su boğaz?!
Gözdən qəlbə selim oldu Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

Bu məktəbli evin körpə qızıydı,
Tər ömrünün təzə açan yazıydı,
Anasının laylasının nazıydı,
Ürək bölüm-bölüm oldu Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

Cani, qorxaq, çıx millətin üzünə,
Qatilliyin çəkdirəcək özünə,
Vuracaqsan bundan sonra dizinə!
Həyat ilim-ilim oldu Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

Necə qıydın bu körpəcə mələyə?
Rəzilliyin yük deyilmi ürəyə?!

İp keçilsin boğazından dirəyə,
Qara torpaq kilim oldu Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

Çantasında kitabları ağlayır,
Yaşıdları sinələrin dağlayır,
Oxuduğu məktəb qara bağlayır,
Beşcə sinif bilim oldu Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

Bu qatilin ömürlükdü cəzası,
Parça-parça olmalı hər əzası,
Tutsun onu İlahinin qəzası!
Könlüm sınıq telim oldu Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

Necə qıydın bu körpəcə balaya?!
Yer titrəyir, göy hönkürür olaya,
Nəş`in düşə qanını it yalaya,
Təbim ağlar elim oldu Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

Ey körpəni şikar edən manyaklar,
Tutulub heç yeriməsin ayaqlar,
Söz hönkürər, üsyan edər varaqlar...
Dərdi yazar əlim oldu Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

Ey Şadiman, bu vəhşəti yaz indi,
Ölsün cani, özün məzar qaz indi,
Dünya çökür, vicdanlılar az indi,
Sözü ağlar dilim oldu, Nərminə,
Nə dəhşətli ölüm oldu Nərminə?!

09.01.2020

BAĞA SIĞINAN ÖMÜR

Həyat yoldaşımın dostu
Arif Quliyeva ithaf

İllər ömür köçün aparıb gedir,
Adamdan zamanı qoparıb gedir.
Gözlər dünəninə boylanıb baxır,
Olanlar adamı yandırıb yaxır...
Yaş üstə yaş gəlir, seyrəlir ətraf,
Fələyin ələyi ələyən sərraf.
Hamının xurcunun atır çiyninə,
Geydirir günahın canın əyninə.
Bir ömür yaşarıq – öz ömrümüzü,
Ümidə səsləyər, döz ömrümüzü.
Arif, xoş yaşadın ömrün baharın,
Daddın övladların həyat nübarın.
Çıxdın təqaüdə sığındın bağa,
Döndü könlündəki ümidlər dağa.
Bağladın ömrünü əkib-biçməyə,
Torpağa qəlb odun töküb biçməyə.
Bağ sənin ömrünün diləyi oldu,
Ömrə gələn günün ürəyi oldu.

***

Xaşaxuna bağına köç etdiyin gün,
Bunu taleyinə saymadın sürgün.
Orada səliqə-səhman yaratdın,
Qəlbinin odunu torpağa qatdın.
Ənciri, üzümü, narı, gilası,
Bellədin bağçanı, əkdin şitili.
Hər ağac könlünə bir munis oldu,
Meyvə bar verəndə gözəl hiss oldu.
Saymadın özünü tənha bu bağda,
Titrədi gilavar açan yarpaqda.
Yarpaq pıçıltısı aldı könlünü,
Dolaşdı xəzrinin sədası, ünü,
Qumlar narın-narın tirtədi, əsdi,
Ağaclar boy atdı, yaza tələsdi.
Tikdin öz əlinlə hini, tövləni,
Bugün ümid doğdu, qovdu dünəni.
Alıb saldın ora toyuq-cücəni,
Gecənin zülməti, səhərin çəni,
Təzə ovqat oldu açan sabaha,

Ümidi bağladın yalnız Allaha.
Buraxdın tövləyə qoyun-keçini,
Günə növraq etdin əkin-biçini.
Torpaqdır insanın xilası yalnız,
Torpaqdan boylanır sədası yalnız.
Ayağı torpaqda olmayanların,
Tənbəllik azara salır canların.
Əlini zəhmətə alışdırdın sən,
Zəhməti ürəklə yarışdırdın sən.
Gündüz işə-gücə saldın mehrini,
Gecələr təkliyin çəkdin qəhrini.
Xəyallar karvantək yeridi gəldi,
Dəvətək yedəkdə süründü gəldi.
Sənin qorxutmadı yaşın ağrısı,
Hər dərdə çalışan başın ağrısı.
Göz dikdin bağının bəhərinə sən,
Büründün təkliyin qəhərinə sən.

***

Əkdiyin bağın da su həsrəti var,
Suya hər ağacın bir ülfəti var.
Sussuzluq qurudur ağaclarını,
Görmək müşkül olur bağ nübarını.
Nə qədər xərc qoyub zəhmət çəkirsən,
Qəlbinin odunu bağa tökürsən,
Ürəyin istəyən hasil olmayır,
Bağın bağlığına ümid qalmayır.

***

Xaşaxuna bağları illərdi sussuz,
Su deyib çığıran dillərdi sussuz.
Buranın su dərdi bitməyir hələ,
Harayı yuxarı yetməyir hələ.
Maşınla su alır burda sakinlər,
Qonublar bu sussuz yurda sakinlər.
Su çəkilən günü gözləyir hamı,
Adamların qalıb gözündə kamı.
Su dərdinə dərman Xaşaxunanın,
Bağrı paramparça torpaq ananın.
Su deyib aləmə sədasın salır,
Qıvrılan ilanlar bağrını çalır.
Yetsin yuxarıya kaş ki, sədası,
Qoy həyata keçsin suya sevdası.

***

Arifin diləyi gözdə qalmasın,
Bağın su həsrəti sözdə qalmasın.
Çəkilsin kəmərlər, su aşıb daşsın,
Suya həsrətlilər sevincdən çaşsın,
Tapılsın çarəsi əlacın bağın,
Alsın Xaşaxuna suyun sorağın.
Cibi soyulmasın kasıb-küsübün,
Qəlbi oyulmasın kasıb-küsübün.
Arif telefon açıb versin şad xəbər,
Olsun ürəklərə bu abad xəbər.
Biz də dostumuzu təbrik eləyək,
Onun xəbərinə alqış söyləyək.
Xoş xəbər yayacaq sabahım, amin,
Bizi xəlq eləyən Allahım, amin!...

***

Arif, ümidə bük sən öz ömrünü,
Çəkdi misralara xoş söz ömrünü.
Mən qələmə aldım hekayətini,
Qəbul eylə sözün xoş niyyətini.
Ömür sığışmayır heç haqq-hesaba,
Hər yetən düşməyir bil ki, kitaba.

17.04.2020

TƏBİƏT SEHRİNƏ GƏL

PAYIZ AXŞAMI

Yenə payız axşamı,
Yenə tutulubdu göy.
Ay gecənin nur şamı,
Buludlar susmuş giley.

Arabir əsən külək,
Xəzələ layla çalır.
Elə titrəyir ürək,
Ürəyimi dərd alır.

Pəncərədən boylanan
Ulduzlar susub baxır.
Hər ulduz şamdır yanan
Nuru otağa axır.

Əllərim qoltuğumda
Ulduzları süzürəm.
Gəzirlər sol-sağımda,
Nur selində üzürəm.

Yenə payız axşamı,
Göyə uçan quşam mən.
Xəyalım alır kamı,
Qəlbimlə çaş-başam mən.

28.12.2016

TƏBİƏT SEHRİNƏ GƏL

Dünya sehir möcüzə,
İşığı düşür üzə,
Alışıb oda-közə,
Aləmlər mehrinə gəl,
Təbiət sehrinə gəl.

Dikəlt içdə sevdanı,
Burax hikkə, ədanı,
Torpaq sevir qidanı,
Buludun qəhrinə gəl,
Təbiət sehrinə gəl.

Yerdə, göydə yüksəliş,
Dodağa qonsun gülüş,
Hardasan tanış-biliş?
Vadilər nəhrinə gəl,
Təbiət sehrinə gəl.

Bu bir həyat amalı,
Dünya sevir kamalı,
Dünyada dünya malı,
Yazın bər-bəhrinə gəl,
Təbiət sehrinə gəl.

Hər tərəf gül-çiçəkdi,
Gün qovlayan ləçəkdi,
Şadiman, qəm gerçəkdi,
Demirəm zəhirnə gəl,
Təbiət sehrinə gəl.

06.04.2017

ALBALI AĞACI

Bahar çiçəklər toxuyur,
Könlümə nəğmə oxuyur,
Aləm ətrinlə qoxuyur,
Başa qoymusan ağ tacı,
Bəyaz albalı ağacı....

Yaşıldan geydin yarpağı,
Düşüb bəzərsən torpağı,
Verirsən yazdan sorağı,
Günəş də baxır qıyğacı,
Bəyaz albalı ağacı.

Saldın qəlbimi atəşə,
Qalmadı heç bir əndişə,
Gülmüsəyirsən günəşə,
O da səmanın od sacı,
Bəyaz albalı ağacı.

Geydin gəlinlik libası,
Hər budağın ağ əbası,
Edim sənինlə təması...
Getsin könlümdən qoy acı,
Bəyaz albalı ağacı.

Baharın fəsli xoş dəmdi,
Ağ çiçəklərin aləmdi,
Səni vəsf edən qələmdi,
Söz Şadimanın əlacı,
Bəyaz albalı ağacı.

14.04.2017

DİLƏ GƏTİRDİN

Könlümü, ruhumu dilə gətirdin,
Dilimdə nəğmələr bitirən bahar.
Təbiət eşqini qəlbə ötürdün,
Alıb ürəyimi götürən bahar.

Boylanıb baxırsan çəmənzarından,
Süslədin təbimi xoş gülzarından,
Yanırdım qış boyu intizarından,
Şaxtanı, sazağı itirən bahar.

Elə nazlanıram sevgin içində,
Təbiət bambaşqa fərqin içində,
Yaşıla bürünmüş sərgin içində,
Hər güldən bir xalı yetirən bahar.

Quşlar zövqü olan bir nəğməkardır,
Buludlar ağ geyib, külək bekardır,
Ürəyim eşqinə yenə şikardır,
Könlümə sevgisin gətirən bahar.

Alışır Şadiman, yanır xiffətdən,
Necə üz çevirim səntək afətdən,
Ruhum pərvazlanır yenə iffətdən,
Bol-bol gül-çiçəklə ətirlən, bahar.

15.04.2017

RƏQS EDƏN YAĞIŞ

Payızın içində rəqs edən yağış,
Bütün kədərləri oyub apara.
Buludun gözündən yaş güdən yağış,
Hər yerdən çirkabı yuyub apara.

Dağıda içimdən acı-ağrını,
Girib kədərimlə sövdələşməyə.
Göstərə buludun yanan bağrını,
Əsən küləklərlə çox güləşməyə.

Payızın içində rəqs edən yağış,
Qəlbi havasıyla tutub oynada.
Sala ürəyimə büllurdan naxış,
Puhumu coşdura, sözü qaynada.

29.12.2016

YAŞIL KÖYNƏYİNİ GEYİNİB

Yaşıl köynəyini geyinib torpaq,
Ağacın, yarpağın dodağı qaçır.
Çiçəyə, bürünüb yenə bağça-bağ,
Yaz körpə uşaqtək, sanki dil açır.

Quşların cəh-cəhi nəğməyə bənzər,
Bəstəsi musiqi dilinə oxşar.
Təbiət çəmənə çiçəklər düzər,
Yerlərdə, göylərdə eşq aşıb daşar.

Gəlinlik paltarı geyər albalı,
Bəyaz ətəkləri yernən sürünər.
Günəş istisiylə sevər bu halı,
Heyva ağ-çəhrayı rəngə bürünər.

Yazın qəhqəhəsi küləklə gələr,
Qovar göy üzündə ağ buludları.
Həyat mələk kimi üzlərə gülər,
Yağışa səsləyər bağ buludları.

Gülüşə qərq olar baharın üzü,
Canlılar sevgiylə qol-qola gəzər.
Qələm sehrə düşər misrayla düzü,
Misralar bəndləri sevdayla süzər.

16.04.2017

ÜRƏYİM QAN OLDU, LALƏ

Çöllərin içində titrək əsirsən,
Mənim də ürəyim qan oldu, lalə.
Qırmızı donunla yolu kəsirsən,
Bu lap ürəyimə yan oldu lalə.

Gəl könül bağıma dolaş gizlicə,
Ruhun sevdasıyla ulaş gizlicə,
Qəlbin atəşinə bulaş gizlicə,
Bağrı oda salan can oldu, lalə.

Titrək dodağınla öp dodağımı,
Ərit atəşinlə könül dağımı,
Xoş etdin bu səhər sən növrağımı,
Ömrümə şahanə an oldu, lalə.

Bir sevda əsiri olmuşam mən də,
Ey Rəbbin gözəli, xoş camal səndə,
Səni şikar sanır özünə bəndə,
Zənn edər yarına şan oldu lalə.

Qorxma toxunmaram ləçəklərinə,
Ürəyim eşq səpər çiçəklərinə,
Məni də götür qat diləklərinə,
Dilimdən qopan söz can oldu, lalə.

Şadiman qolunu dolar boynuna,
Qoparıb ürəyin yollar qoynuna,
Dolanıb dolanbac yollar qoynuna,
Təbiət taxtında xan oldun, lalə....

12.06.2017

ƏN UZUN GECƏ...

Ruhumu qoparıb gedir,
Ömrümə qəsd edir necə?
Zülm ilə aparıb gedir,
Qaçıb payızdan indicə,
Keçir qışa uzun gecə

21.12.2017

RUHUMU SILKƏLƏYƏN PAYIZ

Ruhumu silkələyən,
varlığımı ələkləyən,
könlümə qəm ələyən payız,
Canıma niskilini bələyən payız.
Buludların axıtdığı göz yaşları,
Ruhumun ağrısını yuyur,
Qəlbimdə uşaq kimi hönkürən
Dəli duyğularım uyur...
Xatirələr məni göyərçin
qanadlarında uçurur,
Canımı bədənimdən alıb qaçırır.
Küləklərin bağ-bağçada pərvaz edir,
Budaqlardan qopub düşən yarpaqlar
qəlbimi ayaz edir,
İçimə qərib niskil doldurur,
Ömür qapısını döyən günlərimi soldurur.
Qızılı tellərin günəştək şəfəq saçır payız,
Mənim ruhum da sənə sarı qaçır payız...
Gurşadlarına bürü məni,
Arxanca sürü məni...
Payız,
Silkələ könlümü,
Qəlbimə ilıq nəfəsinlə sız...
Dəli sevgimə bürüyüm səni,
Özünə vurğun edirsən məni...
Həqiqətin üzü payız,
Təbiətin özü payız.
Uzun gecələrin laylası xəzrinə bələnib,
İçimə həzin qüssə ələnib...
Gəl uyu könlümdə,
Dərd dərin quyu könlümdə.
Görüşdürək təblə dolu ağlımızı,
Köçürək misralara nağlımızı...

02.11.2017

HƏSƏNQALA YAĞIŞI

Ələnir nur içində,
Haqdan qürur içində,
Həyat durur içində,
Bulud Rəbbin göz yaşı,
Həsənqala yağışı.

Novalça dolub daşır,
Torpaqla pıçıldaşır,
Çaydan keçib düz aşır,
Qovur candan tələşı,
Həsənqala yağışı.

Şimşəklər çaxnaşırlar,
Göylərlə savaşırlar,
Buludla qaynaşırlar,
Yuyur təmiz dağ-daşı,
Həsənqala yağışı.

Şimşəklər atlı təki,
Göyü qanadlı təki,
Edir könlümə ərki,
Dincəldir yorğun başı,
Həsənqala yağışı.

Yayın qızmar çağında,
Dağlar xoş növrağında,
Dincəlirik bağında,
Gürşad bəyaz qumaşı...
Həsənqala yağışı.

Şadimana can verir,
Tutub kədərin gərir,
Könlümə duyğu sərir,
Olub canın sirdaşı,
Həsənqala yağışı.
Həsənqala yağışı.

23.07.2018

BU YERİN BULUDLARI

Bu yerin buludları yaman dolub qaynaşır,
Günəşin gül üzünə səhərdən pərdə çəkir.
Şimşəklər qılınc qapıb göy içində savaşır,
Kədər könlü bürüyür, ürəyi dərdə çəkir.

Həsənqala səması – ildırımlar yuvası,
Səsindən gün daralır, zaman qaçır irəli.
Yaşıl bağça içində quşların Rəbb duası,
Başıma sığal çəkir yayın imisti əli...

Yenə də əli atıb notbooka cumuram,
Göydən yağan yağış yox, ilhamın göz yaşıdır.
Ruhumun qanadında göydən yerə damıram,
Bu yerlər ruha qida, canımın sirdaşıdır.

15.08.2018

YAYIN İSTİ GÜNLƏRİ

Heç bilmirəm haradan haraya keçdi getdi?
Hər yerə od ələyən, yayın isti günləri.
Ürəyimin atəşin şərabtək içdi getdi,
İlan təki mələyən, yayın isti günləri,

Sübh çağı ulduzları qonaq etdi nuruna,
Zülmət yığışıb qaçdı, səhər yetdi nuruna,
Yer-göy heyrətdə qaldı günəşin qürüruna,
Sübh yelpiyin yelləyən yayın isti günləri,

Geyib atəş donunu gəzdi bağlar içində,
Yığışıb getmək dərdi gizli ağlar içində,
Sabahın hay-harayı coşub çağlar içində,
Təndir salıb külləyən, yayın isti günləri,
Hər yerə od ələyən, yayın isti günləri.

Canındakı atəşi çöl-çəmənə çilədi,
Günəşin şəfəqlərin bağ-bağata ələdi,
Yır-yığışa başlayıb, bizə payız dilədi...
Buludları selləyən yayın isti günləri.

27.08.2020

KÖNLÜMƏ YAĞMA YAĞIŞ

Bu dünyanın bir qərib yolçusuyam, görürsən,
Göy üzü buludlayıb sənsə qəlbi gərirsən,
Bağrıma yerin, göyün niskilini sərirsən,
Üzür canın evini illərdi min bir baxış.
Mərhəmət et ruhuma, könlümə yağma yağış...

İsladırsan qəlbimin künc-bucağın nə vaxtdı,
Kor qoyub söndürürsən qəlb ocağın nə vaxtdı,
Görməyirsən gurşadda əl-qol atan bu baxtı,
İçimdə sellər coşur, canımı boğma yağış...
Mərhəmət et ruhuma, könlümə yağma yağış...

Mən ki, tale atıyla çapıram sola-sağa,
Ruhumun astanası mohtacdır xoş sorağa,
Yağışın qaydasıdır çölə, çəmənə yağa,
Gəl ülfətli ol bir az, ol mənə doğma yağış,
Mərhəmət et ruhuma, könlümə yağma yağış...

Payız gözün açandan sən hönkürtü salmısan,
Dəryaları doldurub ürəyimi almısan,
Canıma ələdiyin gurşadında qalmısan,
Qəlbim sakitlik tapıb, yenidən doğma yağış,
Mərhəmət et ruhuma, könlümə yağma yağış...

08.11.2018

QAP-BACADAN BOYLANIR...

Yenə gəlib qap-bacadan boylanır,
Üz-gözündən qəm tökülür payızın.
Buludları göy üçündə oylanır,
Gözlərindən nəm tökülür payızın.

Qaranquşlar köç eyləyib gedirlər,
Boş yuvalar eyvanlardan asılıb.
Bu yerləri qəribtək tərk edirlər,
Lələkləri yuvalara qısılıb.

Şimşəkləri pələnglərtək öcəşir,
Ağızından qığılcımlar tökülür.
Asimana düşüb yenə bir həşir,
Göy hayqırır, yerin bağrı sökülür.

Yay ayının atəşini söndürür,
Gurşadları sel-sulara can deyir.
Göydən yerə çeşmələri endirir,
Şimşək coşub buludlara qan deyir.

Uşaqlıqdan saf sevgim var payıza,
Sarı donu al günəşdən qoparıb.
Gəlin kimi batıb qalıb lap naza,
Yenə məni can evinə aparıb.

Dəftər-qələm haray salıb qarşımda,
Deyir mənə dur payızı nəzmə çək.
Buludunun bulağı göz yaşımda,
Tərpən ürək, sən də məni sözmə çək!...

Şadimana sərinliyi təpərdi,
Cırhacırın atəşini sonlayıb.
İzn versəm, üz-gözümü öpərdi,
Payız onu sevdiyimi anlayıb...

24.09.2018

PAYIZIN SON ANLARI

Baxıram pəncərədən payızın son anları,
Çiskin ələnir göydən, beş-on yarpaq ağacda.
Səmada qara bulud doğacaq leysanları,
Külək tökür yarpağı, çılpaq olur ağac da.

Bu an üşüyən sərçə gizlənir yarpaq altda.
Zəif əsən rüzgar titrədir budaqları.
Sanki ümid axtarır üzülən saplaq altda,
Bu kədərli əndişə üşüdür yarpaqları.

Narın ələyən yağış buludlarla dilləşir,
Titrəyən sərçə isə öz hayına bələnir.
Budaqdan qopan yarpaq külək ilə güləşir,
Sanki göyün yağışı aşsüzəndən ələnir.

Bu hüzünlü mənzərə baxdıqca üzür məni,
Payızın niskilini qış öpür sevgilitək.
Köks ötürür dərindən udur bal təki çəni,
Asılıb asimandan buludlar quran pətək.

Uzaqdan baxır məsud yaşıl zeytun ağacı,
Gözəl baharın donun keçiribdi əyninə.
Qışı vecinə almır, başında yazın tacı,
Soyuğun vay-şüvənin heç almayır eyninə.

Bahardan soraq verir bizə zeytun ağacı,
Qış yığışıb gedəcək, yenə gələcək bahar.
Büsbütün canlıların gözləməkdir əlacı…
Gedəcəkdir soyuqlar, üzə güləcək bahar.

21.12.2018

YENƏ DƏ GÖYLƏRDƏN BOYLANIR

Yenə də göylərdən boylanır bulud,
Tökür gözlərindən yaşı sel təki.
Səma sızıltısı bir yanıqlı ud,
Gəzir qulaqlarda həzin yel təki.

Səhər ağ dumanı tutub üzünə,
Yağışın əlindən özün qoruyur.
Payızın xəzanın çatıb özünə,
Yarpaq töküldükcə ağaclar uyur.

Sükut yarışına girib küçələr,
Yayın hay-harayı evlərə hopub.
Damda yer axtaran yazıq sərçələr,
Hardasa özünə bir yuva tapıb...

Arabir qarğalar qışqırtı salır,
Sükutu pozmağa həvəskar kimi.
Xəzri də hikkəli hayqırtı salır,
Səsi batıb çıxan nəğməkar kimi.

Yayılır harayı novalçaların,
Göylərin dəryasın yerə axıdır.
Sədasın gətirib bu yağış qarın...
Yarpaqsız ağacdan çomaq toxudur.

Saralmış yarpaqlar xışıltı salıb,
Hərə öz budağın tapmaq istəyir.
Mənim də könlümü niskillər alıb,
Göylərin əngində çapmaq istəyir.

Ümidin kölgəsi gəzir aləmdə,
Sirli kainatdan yerə nur yağır.
Həyat işartısı parlar hər dəmdə,
Köksümə sığmayır yenə də bağır...

22.11.2018

ÜRƏYİMƏ QAR DÜŞÜR

Qışın soyuqluğundan ürəyimə qar düşür,
Az qalıb əriyər qar, qış ilə yaz görüşür.
Qəlbimin buzlarından, şəlalələr çağlayar,
Batmaq təhlükəsindən qəm hönkürüb ağlayar.
Fərəhlənər taleyin arzuları bahartək,
Döyər könül qapısın sevdaya düşmüş yartək.
Cilvələnir ürəyim tovuz kimi bu səhər,
Alıb özümü ələ yola çıxdım bir təhər...
Dünyanın gözəlliyin seyir eləyim bir qədər,
Çıxıb getsin bağrımdan qəlbimi didən kədər.
İçimdəki diləklər dəniztək ləpələndi,
Ağ buludlar gözündən ətrafa nur ələndi.
Açıb yaxasını göy yeri könlünə sıxdı,
Günəşin şəfəqlərin yer üzünə buraxdı.

***

Biz hələ dərk etmirik Yaradan nemətini,
Yerə ərmağan olan müdhiş təbiətini.
Basıb bağrına bizi min illərdi bəsləyir,
Ruhun pəncərəsindən bizi Tanrı səsləyir.
İçimizdə hayqıran vicdanı haqq bəsləyir...

***

Bunları dərk edərək göylərə əl açıram,
Qoşulub küləklərə göy üzünə uçuram.
Səhərin saf havasın ciyərimə çəkirəm,
Körpətək bələkləyib ürəyimə bükürəm...
Qışın soyuqluğundan içərimə qar yağır,
Bir dəli şeytan deyir, baharı qəlbə çağır...

24.02.2019

BÖYÜK ÇİLLƏ

Böyük çillə-böyük qardaş deyirlər,
Təbiətlə gizli sirdaş deyirlər,
Girdi evə qurar bardaş deyirlər,
Gah payıza, gah da qışa bənzəyər,
Yağış qarı, qar yağışı bəzəyər.

Çillə girdi, gələr çillə gecəsi,
Oxşanılar gözəl dillə gecəsi,
Süfrələri bəzər əllə gecəsi,
Yağmurları gözdə yaşa bənzəyər,
Yağış qarı, qar yağışı bəzəyər.

Saxlayarlar qarpızı yay ayından,
Dilimlənir adamların sayından,
Qonşulara düşər çillə payından,
Uzun gecə lap sirdaşa bənzəyər,
Yağış qarı, qar yağışı bəzəyər.

Burum-burum tüstülənər sobalar,
Odun yanar istilənər sobalar,
Dirsəklənər mütəkkəyə babalar,
Nağıl özü müdrik yaşa bənzəyər,
Yağış qarı, qar yağışı bəzəyər.

Xəzri əsər, uğultuyla ulayar,
İtlər hürər, səsə quyruq bulayar,
Qız-gəlinlər ocaqları qalayar,
Pəncərədə tər, naxışa bənzəyər,
Yağış qarı, qar yağışı bəzəyər.

Ey Şadiman, qış təbiət neməti,
Böyük çillə çəkər uzun zəhməti,
Ürəyimin nağılvari söhbəti,
Təb coşanda dolu başa bənzəyər,
Yağış qarı, qar yağışı bəzəyər.

23.05.2020

KİÇİK ÇİLLƏ

Başının üstünü kəsib ayrılıq,
Yığışıb gedirsən, ay kiçik çilə.
Bizimlə dolandın bir az xoşqılıq,
Şıltaqlıq edirsən, ay kiçik çillə.

Hanı çiyinində əban, xurcunun?
Sən sular donduran, mən sənə cunun,
Hansı qitələrə düşəcək yönün?
Eyləmə orada vay, kiçik çillə.

Bir az dəliliyi göstərdin bizə,
Dalğalar yüklədin sakit dənizə,
Dağlarda qarını çıxartdın dizə,
Ver Alaçalpoya hay, kiçik çillə.

Niyə üz-gözündən tökülür giley?
Göyün buludunun dodağında mey,
Yağışı ələyən əlində ələy
Olmaz ələyinə tay, kiçik çillə.

Çillələrdən fərqli şaxtan, sazağın,
Soyuq küləklərdən gələr sorağın,
Üstündən əskilməz qardan yorğanın,
Buzların daşdırar çay, kiçik çillə.

Kəndlərdə oğlanlar oynar “Çilədi”,
Fərqinə varmazlar qar-buz çilədi,
Qovrulan qorğalar ciblər bələdi,
Səndən sehirləndi Ay, kiçik çillə.

Böyük çilə sənin böyük qardaşın,
Alaçalpo bacın, cana sirdaşın,
Yığış, get, yorğunsan, dincəlsin başın,
Baharın gəlişin yay, kiçik çillə.

Bu ildə qarını qıymadın bizə,
Qondun həsrətinlə sən dilimizə,
Dəymədi qarından heç əlimizə,
Dadmadı qarından ay, kiçik çillə.

Şadiman vurğundu onsuz da sənə,
Sükutun sehirin daddırdın mənə,
Ömrüm vəfa qılsa görərəm yenə,
Gətirərsən qardan pay, kiçik çillə.

20.02.2020

GÜLLÜ BAHAR GƏLİB BİZƏ

Açılıb qönçələri güllü bahar gəlib bizə,
Yenə göy-yer sevişir, gözəllik qonub bənizə.
Günəş şəfəqlərini yayıb suların üstünə,
Qızıldan don geyinib düşüb çiməyə dənizə.
Quşların cəh-cəhinə qanadlanıb uçur xəyal,
Göyərib bağçada ot boy götürüb çıxıb dizə.
Ağaclar tumrcuğun sığal çəkir baş-gözünə,
Toqquşan buludların şimşəyi od saçan nizə.
Nəhirlər dolub daşır, selləri meydan oxuyur,
Edə rəhmini fələk, dəyməyə ziyanı bizə.
Gəlir vəcdə qələmim misralara eşq eləyir,
Yar kimi munis olub ürəyə məlhəm hər sözə.
Şadiman ruhuna bir nazlı mələkdir bu bahar,
Qoşulub qonaqlara durub gəlib evimizə....

26.03.2019

ÇƏRŞƏNBƏ

Əcəb edib qapımızda durmusan,
Xoş gəlmisən bizim elə, çərşənbə.
Tonqal çatıb toy-büsatı qurmusan,
Heyran oldum özüm elə, çərşənbə.

Odun düşüb ürəyimə yenə də,
Bilmirsənmi nə alov var sinədə?!
Tonqal çatma, odum çatar sənə də,
Ocağına közüm ələ, çərşənbə.

Qış köçünü yığışdırıb getmədə,
Yaz ürəyə eşqini ərz etmədə,
Göy üzünə al günəşi yetmədə,
Aldın yenə könlü ələ, çərşənbə.

Uşaqlığım film təki dövür etdi,
O bəxtiyar çağlarımla qövr etdi,
Qış da bizlə bir fəsildə ömr etdi,
Gedən gedir, düşməz ələ, çərşənbə.

Tonqalların ərşi-kürşü ram edir,
Uşaqlar da ətrafında kam edir,
Ürəklərə fərəhlərin dam edir,
Dərd-bəlamız getsin belə, çərşənbə…

Qədəmlərin qutlu olsun yazbaşı,
Əsrlərdən əsrlərə od daşı,
Alovunla isit yenə dağ-daşı,
Ürəklərə atəş bələ, çərşənbə.

Şadimanı heyran etdin oduna,
Tonqalların şölələnir adına,
Gələn yazda düşsəm əgər yadına,
Dön gəl bizə gülə-gülə, çərşənbə.

05.03.2019

SU ÇƏRŞƏNBƏSİ

Çaxnaşdır göyləri yağsın yağışlar,
Torpağın bağrında açsın naxışlar,
Yaza yerin versin qoy qarlı qışlar,
İsinsin torpağın bumbuz nəfəsi,
“Suların Novruzu” Su çərşənbəsi.

Həyat gözəlliyə açsın qoynunu,
Uşaqlar çəməndə qursun oynunu,
Təbiət geyinsin yaşıl donunu,
Artsın insanların ömrə həvəsi,
“Suların Novruzu” Su çərşənbəsi.

Arxlar təmizlənsin, çeşmələr dolsun,
Ellərin Tanrıya inamı olsun,
Pislik, kin-küdurət suda boğulsun,
Dolaşsın bulağı qız-gəlin səsi,
“Suların Novruzu” Su çərşənbəsi.

Sənə yalançı da deyirlər hərdən,
İrmaqlar tökülsün dağdan, dərədən,
Sular buxarlansın göylərə yerdən,
Yatmış buludların bu müjdə bəsi,
“Suların Novruzu” Su çərşənbəsi.

Qız-gəlin özünə sığal etsinlər,
Hələ gün doğmamış suya getsinlər,
Çeşmələr üstündə dil-dil ötsünlər,
Üzləri çöllərin lalə pənbəsi,
“Suların Novruzu” Su çərşənbəsi.

Həyat gözəlliklə qaynayıb daşsın,
Aşıq sazı alıb nəğmələr qoşsun,
Sədası dağlardan, qayadan aşsın,
Ayıltsın yuxudan mahnı hər kəsi,
“Suların Novruzu” Su çərşənbəsi.

Şadiman yetişsin sular başına,
Çaylar dönsün onun can sirdaşına,
Təbiət son versin soyuq qışına,
Ruhu pərvazlansın, qırsın qəfəsi,
“Suların Novruzu” Su çərşənbəsi.

29.05.2020

OD ÇƏRŞƏNBƏSİ

Yenə tonqalların ərşə dirənir,
Sanki günəş özü göylərdən enir,
Ürəyim yenə də eşqinlə dinir,
Baharın sorağı Od çərşənbəsi,
Novruzun çırağı Od çərşənbəsi.

İsit el-obanı şaxtadan, buzdan,
Xəbərin gəlibdi çiçəkli yazdan,
Nəğmələr dikəlsin hər xoş avazdan,
Olarmı Novruza yad çərşənbəsi?
Novruzun çırağı Od çərşənbəsi.

Yenə tonqalların çırta-çırt salsın,
Alovun dilləri göyə ucalsın,
Uşaq gülüşləri qulağı alsın,
Versin dil-ağıza dad çərşənbəsi,
Novruzun çırağı Od çərşənbəsi.

Biz də tonqal çatıb üstdən attanaq,
Onun atəşinə eşqlə odlanaq,
Bayram sevdasıyla alışıb yanaq,
Çatılan ocaqlar ad çərşənbəsi,
Novruzun çırağı Od çərşənbəsi.

Qov şaxta-ayazı el-obamızdan,
Od əskik olmasın qoy sobamızdan,
Nənələr biş-düşdə, od babamızdan...
Min illər sorağı, Od çərşənbəsi,
Novruzun çırağı Od çərşənbəsi.

Məftilə dolansın əsgilər yenə,
Uşaqlar şamları alsın əlinə,
Çevrilsin göylərin şimşək yelinə,
Nur etsin düz-dağı Od çərşənbəsi,
Novruzun çırağı Od çərşənbəsi.

Əcəb cilaladın qəlbin tellərin,
Riqqətə gətirdin təbin tellərin,
Çıxart hövsələdən səbrin tellərin,
Yazdır ağ varağı Od çərşənbəsi,
Novruzun çırağı Od çərşənbəsi.

19.05.2020

YEL ÇƏRŞƏNBƏSİ

Gəl apar qəlblərdən qəmi, kədəri,
Açılsın ürəklər, Yel çərşənbəsi.
Taleyin könlün al, sevdir qədəri,
Sevinsin diləklər, Yel çərşənbəsi.

Boya sevdalara həyatımızı,
Çapaq yerə, göyə eşq atımızı,
Sevindir sevgiylə busatımızı,
Qoy əssin küləklər, Yel çərşənbəsi.

Şumlansın tarlalar, əkilsin buğda,
Qışın soyuqluğun basdıraq oda,
Getsin yurdumuzdan bu il qan-qada,
Yox olsun kələklər, Yel çərşənbəsi.

Yığışaq bir yerə, çataq odunu,
Əldə məş`əl təki tutaq odunu,
Buzlaşan qəlblərə qataq odunu,
Zaman gün ələklər, Yel çərşənbəsi.

Yaşıla bürünsün yerlər, yamaclar,
Ağaclar çiçəkdən bəzəsin taclar,
Zirvədən zirvəyə uçsun amaclar,
Söz dilsiz mələklər, Yel çərşənbəsi.

Gəl boy-buxununu öyüm doyunca,
Yel baba, sev məni deyim doyunca,
Əllər çiçək yığsın çöllər boyunca,
Yorulmaz biləklər, Yel çərşənbəsi.

Bahar təbiətdən süd əmən körpə,
Dodağı həsrətdi mehini öpə,
Yellərin nurunu aləmə səpə,
Uça kəpənəklər, Yel çərşənbəsi...

Boya Şadimanın könlünü nura,
Ruhu coşub yenə sözə baş vura,
Yandır ocağını, tut qəlbi qora,
Sözü söz bələklər, Yel çərşənbəsi.

10.03.2020

TORPAQ ÇƏRŞƏNBƏSİ
AXIR ÇƏRŞƏNBƏ

Ruhumun içindən boylanır yenə,
Şövqlə ürəyimi basır köksünə,
Eşqini sel təki qucaqlar sinə,
Oduyla könlümü yaxır çərşənbə,
Novruzun gözəli axır çərşənbə!

Ey güldən, çiçəkdən müjdəli xatın,
Bahar sevdasına bağlı həyatın,
Möcüzə boğçası sən kainatın,
Qapı-pəncərədən baxır çərşənbə,
Novruzun gözəli axır çərşənbə!

Torpağın dirilik sorağı səndə,
Yerlərin, göylərin marağı səndə,
Günəşin gur tonqal çırağı səndə,
Qəlbimdə şimşəktək çaxır çərşənbə,
Novruzun gözəli axır çərşənbə!

Şaxta dizin bükər düşər üz üstə,
Tonqallar qalanar, yanar köz üstə,
Şamları düzülər xonçalar üstə,
Torpağı dirildib çıxır çərşənbə,
Novruzun gözəli axır çərşənbə!

Bütün kin-küdurət əriyib gedir,
Yellər qış-sazağı sürüyüb gedir,
Quşların sədası yaza eşq edir,
Dərdi künc-bucağa sıxır çərşənbə,
Novruzun gözəli axır çərşənbə!

Dur gəl Şadimanın ruhuyla oyna,
Dolaş qəlb evində eşqiylə qayna,
Torpağın bağrından boylanan ayna,
Misrama şamların taxır çərşənbə,
Novruzun gözəli axır çərşənbə!

14.03.2017

YANDIRIRSAN

Yandırırsan yeri, göyü,
Tonqalların ərşə qalxır.
Sərxoş edir könül meyi…
Ürəyimə eşqin axır.

Çərşənbələr hər gələndə,
Uşaqlığım düşür yada.
Ay buludda yellənəndə,
Çərşənbətək düşür oda..

05.03.2019

QARA YAZ

Gözəl yazın ilk ayıdır deyirlər,
Qışın hələ öz tayıdır deyirlər,
Soyuqların son çağıdır deyirlər,
Üz turşudub tez savaşır qara yaz,
Yerlə-göylə pıçıldaşır qara yaz.

Gah gilavar, gah da xəzri əsdirir,
Buludları al günəşdən küsdürür,
Qasırğayla yol-irızı kəsdirir,
Sel-sularla dolub daşır qara yaz,
Yerlə-göylə pıçıldaşır qara yaz.

Hələ bahar ovqatından uzaqdı,
Qaş-qabağı yer süpürür, sazaqdı,
Qışı qovub az da olsa, üzağdı,
Öz yerini bilmib çaşır qara yaz,
Yerlə-göylə pıçıldaşır qara yaz.

Dəli-dolu küləklərlə sevişir,
Bulud qaçır, günəş çıxır, gün düşür,
Şimşək çaxır, göy gurlayır, yer üşür,
Hikkəsindən salır həşir qara yaz,
Yerlə-göylə pıçıldaşır qara yaz.

Dəliliyi üz-gözündən bilinir,
Soyuqluğu sərt üzündən bilinir,
Ocağların od-közündən bilinir,
Çırpınaraq yorğun düşür qara yaz,
Yerlə-göylə pıçıldaşır qara yaz.

Aləmlərin sehri, sanki əlində,
Asimanın qəhri, sanki əlində,
Olum-qalım mehri, sanki əlində,
Təbiətlə xısınlaşır qara yaz,
Yerlə-göylə pıçıldaşır qara yaz.

Nə hikmətdi, bilmək olmur istəyin?
Buraxmayır yerin-göyün ətəyin,
Dodağına pərçim edib tütəyin,
Havasıyla yer dolaşır qara yaz,
Yerlə-göylə pıçıldaşır qara yaz.

İlahinin hikmətindən yoğrulub,
Kainatın bətinindən doğrulub,
Bahar eşqi nəfəsində qurulub,
Çöldən keçib dağdan aşır qara yaz,
Yerlə-göylə pıçıldaşır qara yaz.

Küləklərlə bağ-bağçanı ayıldır,
Haray salıb tez-tez deyir ayıl, dur,
Ol möhtəşəm gül bahara qail dur,
Bağçalara yaz yaraşır qara yaz,
Yerlə-göylə pıçıldaşır qara yaz.

Təbiətin möhnət yükün çəkəndi,
Buludların nurun yerə tökəndi,
Çöl-çəməni yaşıl dona bükəndi,
Dolu düşür, yer suvaşır, qara yaz.
Yerlə-göylə pıçıldaşır qara yaz.

Şadimanın ruhun alıb əlinə,
Külәkləri daraq edib telinə,

Mən də durub qoşulmuşam yelinə,
Sanki cana can sarmaşır qara yaz,
Yerlə-göylə pıçıldaşır qara yaz.

09.05.2020

QAR İÇİNDƏ ÜŞÜYÜRSƏN

Qar içində üşüyürsən,
Alım səni qaçım, çiçək.
Ruhuma nə eşq öyürsən,
Sənə könül açım, çiçək.

Hər tərəfin dümağ qardı,
Axı indi yaz-bahardı,
İçində bir ümid vardı...
Üşüməyin – acım, çiçək.

Dur şaxtanın savaşına,
Bürü onu göz yaşına,
Donsun özü qoy qışına,
Ol bahara tacım çiçək.

Hanı isti yaz yağışı?
Qova burdan qarlı qışı,
İsindirə dağı, daşı,
Günəş ola sacım, çiçək.

Şadimanı alıb qoxun,
Girib qəlbə qalıb qoxun,
Canımda yurd salıb qoxun,
Gəl bağrıma qucum,

21.04.2019

GÜLLƏRİM

İsti-sərin əsər mehlər,
Oxşar yarpağı əllərim.
Ələnər üstünə şehlər,
Güllərim.

Ruhumu alıb aparan,
Könlümə eşq ilə varan,
Sevgisiylə can suvaran,
Güllərim.

Gözəlliyi qəlbə dəva,
Dodaqlara qonan dua,
Can evində qurar yuva,
Güllərim.

Hər toxunanda dibçəyə,
Əlllərim dəyir ləçəyə,
Şeh əllənir hər çiçəyə,
Güllərim.

Bənzərsiz yamyaşıl bağa,
Gəlsin bağçalar sorağa,
Şəbnəmin düşə yanağa,

Şadimana balasınız,
Eşqimlə bir qalasınız,
Ürəkdən qəm çalasınız,
Güllərim.

17.06.2019

YALAN NƏ SÖYLƏYİM

Yalan nə söyləyim mən qışı sevirəm,
Göyün gözlərindən axan yaşı sevirəm…
Qışın sükutu ürəyimə həzin layla çalır,
Ruhumu xəyallar alır,
Qışa sevgim qəlbimdə gizli qalır,
Utanıram bu sevgini faş etməkdən,

Çünki imkansız ailələrin ağrıları düşür ürəyimə,
Zəhər qatır çörəyimə…

***

Qış – kasıbların yanaqlarında
donan göz yaşı,
Ümidləri canlarının sirdaşı.
Daim adamlardan qaçar gözləri,
Başları əyilər sinələrinə…
Ocaqlarına od əvəzinə,
ələnər qəlblərində şölənən közləri…
Qış – ailələrinə para axtaran
kişilərin üz qarası…
Ürəklərində sızlar imkansızlıq yarası…
Pul ödəməyəndə qazları, işıqları, suları kəsilər,
Sanki həyat onları varlıqdan silər…
Künc-bucaqdan ocaqların
isitmək üçün çör-çöp arayarlar.
İçlərində arzuları qarıyarlar.
Atalar övlad üzünə baxmaqdan çəkinərlər,
Adam arasına çıxmaqdan çəkinərlər.
Qış – evsiz-eşiksizlərin ürəyinə sancı,
Qanunlar yazanların üz qarası, utancı…
Qışın soyuğundan əsənlər,
Bahara tələsənlər,
Bu qışı yola salaq deyərlər,
Yazın sorağın alaq deyərlər…
Qışdan çıxmağın fərəhin yaşarlar
novruz qapıları döyəndə,
Səmənilər göyərəndə ləyəndə,
Yamyaşıl baharın ətri gələr evlərdən,
Ümidlər adamlara qoşulub gülər evlərdən…
Qış evsiz-eşiksizlərin sitəmi,
Parasız ciblərin matəmi…
Bunları göz önünə alanda qışı sevmirəm,
Nə də ona gəlmə demirəm…
Çünki desəm də gələcək…
Dilimdən qopan duam odur ki,
Qoy xoş olsun hamıya GƏLƏCƏK…

23.02.2019

APREL QARI

Aprelin son on günündə,
Çiçəklərə ələnən qar.
Baharın toy-düyünündə,
Yamaclara bələnən qar.

Dağda-daşda ağ örtüyün,
Sarınıb kol-kos üstünə.
Güllər üstə nə itiyin?
Şaxta durub yaz qəsdinə.

Xəzri ilə eşq edirsən,
Üşüdürsən gül-çiçəyi.
Al günəşlə məşq edirsən,
Bağlamısan ağ ləçəyi...

Ağ mirvari dənəsisən,
Günəşin sıx kirpikində.
Buludun nar dənəsisən,
Külək qaçır buz tərkində.

Gözəl bahar üşər axı,
Yorğanını götür qaç get.
Bağrına qəm düşər axı,
Gül-çiçəyin yolun aç get.

Geyinmisən ağ qumaşı,
Ulduz-ulduz süzülən qar.
Bürümüsən dağı, daşı,
Çiçəklərə düzülən qar.

Günəş çıxar əriyərsən,
Süzülərsən bulaqlara.
Buz kürkünlə yürüyərsən,
Qarışarsan irmaqlara.

Bağ-bağçanı üşüdürsən,
Yaşıl bahar tir-tir əsir.

Göydən bulud düşürdürsən,
Çöl-bayırda xəzri əsir.

Mən sevdana sarılmışam,
Bakıdan niyə qaçmısan?
Deyirsən ki, qarlı qışam,
Dağlarda süfrə açmısan.

Şadimanın könlün üzmə,
Çiçəkləri üşütmə qar.
Yağmaq üçün dağlar gəzmə,
Axı sənə həsrətim var...

20.04.2019

SEHİRİNƏ DÜŞMÜŞƏM

İşıq dolu gecənin sehirinə düşmüşəm,
Ulduzlar qucaq açıb Ayın gözəlliyinə.
Ruhumla kainatın xoş mehrinə düşmüşəm,
Göylər ulduz səpələr yayın gözəlliyinə.

Qaranquşlar yuvada sakitcə büzüşərlər,
Balalar civiltiylə analara qısılar.
Gecənin sükutuna vahiməylə düşərlər,
Zülmətin gözlərindən dərin yuxu asılar.

Gilavar pıçıltıyla oxşayar budaqları,
Yarpaqlar xışıltıyla səssizliyi qovlayar.
Xəzərin ləpələri məst eləyər bağları,
Dalğaların sədası zülmət quşun ovlayar.

Hasarların üstündə pusqu qurar pişiklər,
Hansı quşun balası yem olacaq bilinmir.
Bağlı qalan qapıya keşik çəkir eşiklər,
Gecənin zülmət eşqi yerdən, göydən silinmir.

Öz damına qısılan köpək sakitcə yatır,
Hərdən bir ayılaraq mırıldanır ətrafa.

Ay da bulud içinə arabir girib batır,
Yuxumun gəlməsi də qalıb yəqin insafa.

Ürəyim qəhqəhəylə uyğuma gəl-gəl edir,
Yuxum çəkilib ərşə, pəncərədən baxıram.
Buludu yırtıb çıxan Ay da mənə gəl edir,
Sığınıb təb könlümə, bu hücrədən baxıram.

Bir gecənin nağılın səpələdim kağıza,
Kağız da Şadimanın ruhuna sığal çəkdi.
Misralarım baş əydi, göydə Aya, ulduza,
Ruhumun bağçasında körpə fidanlar əkdi.

11.06.2019

MART ÇİÇƏYİ

Ələnirsən yağış kimi,
Bəzənmisən naxış kimi,
Vurğun oldum baxış kimi,
Ürəyimin yar gerçəyi.
Nə gözəlsən, nar çiçəyi.

Ayaq altda səpələndin,
Dəryasanmı ləpələndin?
Yan-yörədə təpələndin,
Al qırımızı var çiçəyi,
Nə gözəlsən, nar çiçəyi.

Külək qovur, sən qaçırsan,
Budaq üstə gül açırsan.
Göydə, yerdə hey uçursan,
Gətirməsin qar, çiçəyi,
Nə gözəlsən, nar çiçəyi.

Sinəmdə var hicran oxu,
Şadimana eşqi oxu,
Həyat şirin, ömür yuxu,
Gətir bağa bar çiçəyi,
Nə gözəlsən, nar çiçəyi...

17.06.2019

AÇILIB GÜLLÜ BAĞÇALAR

Açılıb güllü bağçalar,
Çiçəklər gülə bənzəyir.
Ağacda daşır alçalar,
Bağları meyvə bəzəyir.

Ay baxır göyün üzündən,
Günəşdən qaçıb gizlənmir.
Şehlər tökülür gözündən,
İsti yay, yağış gözlənmir.

Meynələr yaşıl taclıdı,
Üzümdən geyib ləçəklər.
Günəş də atəş saclıdı,
Hərdən də əsər küləklər.

04.07.2019

YAĞIŞ DUASI

Ələnsin qoy yerlərə göylərin gur yağışı,
İslatsın üz-gözümü, yuyunub gurşadında.
Çəkilsin ürəyimə dəryaların naxışı,
Başdan-ayağa olum özüm yağış adında.

İlahi, bu arzumu yetir sən buludlara,
Şimşəkləri odlasın çaxnaşsın asimanlar.
Kipriyimdə dolaşan qonsun çən buludlara,
Qayaların başını qəfil sarsın dumanlar.

Mirvari dənələri ələnsin yer üzünə,
Tozu udan səmalar rahatlığa bələnsin.
Bir az sərinlik gətir gecənə, gündüzünə,
Qoy yağış damlaları aləmə səpələnsin.

Ürəyim leysanları alıb çəksin kamına,
Gölməçələr yaransın bu közərən ruhumda.
İlahi, eşit məni, imza qoy fərmanına,
Od tutub alışan yay şölələnir ahımda

30.07.2019

ÇAXDI KEÇDİ

Şimşək nə çaxdı keçdi?!
Odun buraxdı keçdi.
İzi könlümə düşdü,
Qəlbimi yaxdı keçdi.

Buludları ağlatdı,
Göy üzünü çalxatdı,
Gurşad gözdən tökdü yaş,
Özü uzanıb yatdı.

01.08.2019

ALIB KÖNLÜ

Alıb könlü bu köksümdən
Ey qoparıb alan bülbül,
Ürəyimdə vuran simdən
Sədana pay qalan bülbül.

Dil-dil ötüb çağlayırsan,
Eşqə ümid bağlayırsan,
Qəmli könlü dağlayırsan,
Qəlbimlə bir olan bülbül.

Bilmirsənmi həyat qısa,
Həsrət canı tutur yasa,
Al dodaqdan götür büsə,
Hər nə varsa yalan bülbül.

Gah zilə qalx, gah da bəmə,
Səsin düşsün qoy aləmə,
Gözümdə taxt quran nəmə,
Sən də oldun nalan bülbül.

Uçub gəldin qon çiynimə,
Eşq donunu biç əynimə,
Oxu dolsun nur beynimə,
Məni eşqə salan bülbül.

13.07.2019

GÖYÜN YAĞIŞI

Alıb ürəyimi aparır yenə,
Ruhumu oynadır göyün yağışı.
İçimdə titrətmə qoparır yenə,
Gözümə aynadır göyün yağışı.

Tökülür üzümə göllənib qalır,
Könlümdə misratək dillənib qalır,
Ələnir üstümə yellənib qalır,
Ruhumu qaynadır göyün yağışı.

Açmayır küləklər qaşqabağını,
Yaşayır payızın xoş növrağını,
Buludlar gətirir qış sorağını,
Üzü bu yanadır, göyün yağışı.

Yayın toz-torpağın yuyur doymayır,
Dolan şimşəkləri gözdən qoymayır,
Xəzanın ötüşən günlərin sayır,
Qurub göydə çadır, göyün yağışı.

Səmanın içindən Günəş qımışır,
Buludlar qol açıb ona sarmaşır,
Asiman gözündən göz yaşı daşır,
Şeirim duyandır, göyün yağışı.

Şadiman özü də dolub dayanıb,
Yatmış duyğuları yenə oyanıb,
Misralar min rənglə sözə boyanıb,
Gölünə sonadır, göyün yağışı.

04.11.2019

BU PAYIZ AXŞAMI

Bu payız axşamı düşdün yadıma,
Hər yerdən baxışın üstümə gəldi.
Zənn etdim xəyalın gəldi adıma,
Ancaq ayrılığın qəsdimə gəldi.

Baxdım göy üzünə ulduz sayrışır,
Eşqlə bir-birinə sankı sarışır,
Ay da ulduzlarla birgə yarışır,
Həsrət ağrısına qəsd demə, gəldi.

05.11.2019

XƏZRİSİ AVAZLI QAR

Necə həsrət qalmışıq,
Sorağını almışıq,
Yoluna iz salmışıq,
Gecəsi ayazlı qar,
Xəzrisi avazlı qar.

Çöllər, düzlər həsrətdi,
Gəlişin səadətdi,
Günlər keçdi, ay ötdü,
Gecəsi ayazlı qar,
Xəzrisi avazlı qar.

Ağappaq çuxa geyin,
Ağ xəzdən yaxa geyin,
Parlasın buzdan əyin,
Gecəsi ayazlı qar,
Xəzrisi avazlı qar.

Dön gəl bizim bağçaya,
Tut sallan novalçaya,
Sonra dön axan çaya,
Gecəsi ayazlı qar,
Xəzrisi avazlı qar.

Yolunu gözləyirik,
Səni əzizləyirik,
Göyləri izləyirik,
Gecəsi ayazlı qar,
Xəzrisi avazlı qar.

Ələn üst-başımıza,
Bələn dağ-daşımıza,
Dön can sirdaşımıza,
Gecəsi ayazlı qar,
Xəzrisi avazlı qar.

Şadiman həsrətində,
Var vüsal niyyətində,
Sənsən ülviyyətində,
Gecəsi ayazlı qar,
Xəzrisi avazlı qar.

29.12.2019

A QIZILGÜL

Barmağıma batdı tikan,
Sən yanasan a qızılgül.
Yoxmu səndə ədəb-ərkan,
Odlanasan a qızılgül.

Gözəlliyin bir aləmdi,
Yarpaqların şehdən nəmdi,
Yağış gəlir dəmadəmdi,
İstanasan a qızılgül.

Şeh ələnir yuyun daran,
Tikanlarla çəpər quran,
Üz-gözünə şəbnəm vuran,
Bir sonasan, a qızılgül.

03.11.2019

GƏLDİ PAYIZ, DÜŞDÜ XƏZAN

Gəldi payız, düşdü xəzan, yellər oynadı,
Xışıldadı sarı yarpaq, əllər oynadı.

Dağlar üstə atıb-getdi duman köçünü,
Göy tutuldu, dolan bulud çəkdi içini.

Xəzri əsdi, ağacların tökdü yarpağın,
Xəzəllərdən tikib geydi torpaq papağın.

Asimandan durnaların qatarı keçdi,
Uçub getdi qürbətləri, vətəni seçdi.

Əsən külək buludları qovub-gətirdi,
Şimşək çaxdı, göy içində alov bitirdi.

Gurultusu qulaqlara düşüb partladı,
Civildəşən sərçələrin bağrı çatladı.

Sarı pişik miyoldadı hasar dibində,
Sığınmağa yer axtardı tufanlı gündə!

İtlər hürdü yuvalarda, zəncir çeynədi,
Qərib-qərib susdu canım, ruhum göynədi.

Qara bulud göy içinə saldı çadrasın,
Payız xəbər verdi o dəm qışın sədasın.

Ələndi qar yamaclara, dağları örtdü,
Xəzəl özün bəyaz çulun altına dürtdü.

Yaşılbaşlı sonaların gölləri dondu,
Çanta tutan uşaqların əlləri dondu.

Məktəblərdə qış tətili gəldi yetişdi,
Günlərimiz qış uzunu belə ötüşdü.

Soyuqlar da öz köçünü yığıb gedəcək,
Şaxta kürkün qucağına sığıb gedəcək.

Qış yığışıb gedən günü, bahar gələcək,
Təbiətin, yerin, göyün üzü güləcək.

14.01.2020

ƏLƏN YAĞIŞ

Gəl könlümə ələn yağış,
Buludları haxlamısan.
Dur ağrıma bələn yağış,
Bəbəyimdə yuxlamısan.

Çaylar vurğun sellərinə,
Göyün həzin yellərinə,
Tutub qəlbi əllərinə,
Ruhu gültək qoxlamısan.

Əzabım min, sevincim az,
Gətir könlə ətirli yaz,
Etmə mənə bu qədər naz,
Göz yaşımı yoxlamısan.

Üst-başımdan süzülürsən,
Saçlarıma düzülürsən,
Tellərimdə üzülürsən,
Yolu, izi oxlamısan.

Novalçalar aşıb-daşır,
Yerin göylə pıçıldaşır,
İşim-gücüm başdan aşır,
Məni yoldan saxlamısan.

Nə salmısan dava-dalaş,
Sev könlümü, canla yollaş,
Bu qədər də olmaz tələş,
Şimşək çaxıb laxlamısan.

05.01.2020

GECƏ, YENƏ BÜRÜNMÜSƏN

Gecə, yenə bürünmüsən zülmətə,
Sükutuna qonaq eylə sən məni.
Ürəyimi çevirmisən alətə,
Təcürbənə sınaq eylə sən məni.

Qış uzunu hamı yatır, göz oyaq,
İçdə gəzən misra oyaq, söz oyaq,
Alışmağa fürsət gəzən, köz oyaq,
İştaha sal, yanıq eylə sən məni.

Xəzriyə dön, tufan qopar könlümdə,
Axşam düşdü dünya çapar könlümdə,
Nəyi gördün, götür apar könlümdə,
Belə qəlbi sınıq eylə sən məni.

Gecə sənin gəlişinə acam mən,
Pıçıldaşan zümzümənlə uçam mən,
Şam üstündə pərvanəni qucam mən,
Sübh üzünə yanaq eylə sən məni.

15.01.2020

NƏDƏN FİKİRLİSƏN

Nədən fikirlisən, ey sakit gecə,
Sükuta dalmısan sən də mənimtək.
Ay da görünməyir, qaranlıq küçə,
Göy şəbnəm ələyir qəlbdə çənimtək.

Gecənin bağrında qıvrılır bulud,
Quşlar da gizlənib dərmə-deşikdə.
Ulduzdan-ulduza qırılır bulud,
Sanki qaranlığa durub keşikdə.

Mən də sükutuma layla çalıram,
Otağın lallığı üstümə gəlir.
Yenə də xəyalla birgə qalıram,
Qəlbin tənhalığı qəsdimə gəlir.

Yanvar son günlərin üyüdür bir-bir,
Qışın da qış üzü qaçıb buradan.
Ürəyim ağrımı böyüdür bir-bir,
Hansı yox oldusa, çıxır sıradan.

Qulağım cingilti salıb nədənsə,
Sükutun şərqisin zümzümə edir.
Məni sakitliyə möhtac edənsə,
Canımsa, bu nazı bəs kimə edir?!

Barmaqlar notbook düymələrində,
Hərfdən sözlərə atmaca atır.
Könül xalısının ilmələrində,
Yenə duyğularım rəngləri qatır.

Çaxnaşır içimdə düşüncələrim,
Min fikir içindən bir ah doğulur.
Qərib idrakımla bu gecələrim,
Qatı qaranlığa düşüb boğulur.

Yenə, ey Şadiman, səhər gələcək,
Sükut da zülməttək sönüb gedəcək.
Günə can verəcək addım səsləri...
Açan sabahımın üzü güləcək.

27.01.2020

BAHAR GƏLSİN

Bahar gəlsin bağçada açılsın qızıl güllər,
Gülləri tumarlasın, oxşasın qoşa əllər.
Günəş göydən üzünü göstərib gülmüsəsin,
Yaysın yerə asiman əsən küləyin səsin.
Quşların cəh-cəhindən qəlb ehtizaza gəlsin,
Sarı bülbül bağçaya gül üçün naza gəlsin.
Dodaqlarım zümzümə etsin bu gözəlliyi,
İldırımın başına dəysin bulud çəliyi.
Şimşək çaxsın, gurşadı ələsin üz-gözümə,
Bürünüm hislərimə, gəlim bir az özümə...

02.02.2020

ƏSİR XƏZRİ KÜLƏYİ

Əsir Xəzri küləyi,
Yeri, göyü ram edir.
Düşüb ağac, kol üstə
Süfrə salıb kam edir.

Qəzəblənib buludlar,
Qaçışırlar səmada.
Baxır göyə palıdlar,
Salırlar yazı yada.

Yerdə gəzən yarpaqlar,
Künc-bucağa sıxışır.
Evə qaçır uşaqlar,
Odalara yığışır.

Çöldə yiyəsiz itlər,
Zingildəyib qaçırlar.
Baxır yerə söyüdlər,
Torpağa əl açırlar.

Fevral üzün bozardıb,
Barmağın sirkələyir.
Yanaqların qızardıb,
Çölə sazaq piləyir.

Sərçələr civildəşir,
Torpaqda yemək gəzir.
Qarğalar salıb həşir,
Şahintək göydə süzür.

Bir pişik də hasardan
Boylanır qarğalara.
Heç xəbər yoxdu qardan...
Çən ələnir bağlara.

Yerdə uçan yarpaqlar,
Xəzriylə rəqs eləyir.
Yarpaq üstə saplaqlar,
Quzu təki mələyir.

Göy qübbəsi açılır,
Günəş üzün göstərir.
Aləmə nur saçılır,
Həyat özün göstərir.

01.02.2020

YAZ HAVASI

Əsdirirsən küləkləri,
Oynadırsan ürəkləri,
Qaynadırsan diləkləri,
Bitməz boz ay kələkləri,
Təbiətin can duası,
Yaz havası!

Buludları şığırdırsan,
Qarğaları çığırdırsan,
Yeri-göyü bağırdırsan,
Bir az, nolar, ağır dursan,
Uçar quşların yuvası,
Yaz havası.

Titrədirsən şam ağacın,
Dincliyinə yox əlacın,
Heç nəyə yoxmu inancın?
Çərşənbələr başa tacın,
Dəyənəyin qış qovası,
Yaz havası.

Toz-dumana qarışırsan,
Səmalarla yarışırsan,
Gah küsüb, gah barışırsan,
Öz-özünlə vuruşursan,
Qəzəbini gün ovası,
Yaz havası.

Aç üzünü, Günəş gülsün,
Üz-gözündən nur tökülsün,
Yanağına od bükülsün,
Alaçalpo umu-küsün,
Qopsun candan qış davası,
Yaz havası.

Küləyə gəl-gəl deyirsən,
Çəkim başa əl deyirsən,

Qasırğaya yel deyirsən,
Tonqal qala el deyirsən,
Tonqalıma olma asi,
Yaz havası.

Salma cana heç vicvicə,
Dəlliyinə dözək necə?
Savaş etmə gündüz-gecə,
Dava-dalaş salma becə,
Qaçıb hara getsin küçə?!
Hikkənə qur özün yası,
Yaz havası.

Şadımanı sözə çəkdin,
Ocaq çatıb közə çəkdin,
Üstünə ox-nizə çəkdin,
Hay-küyünü üzə çəkdin,
Gəl könlümlə qur təması,
Yaz havası,
Yaz havası.

27.02.2020

QIŞLA YAZIN SAVAŞI

Külək əsir hənəklə,
Göy düşüb qaça-qaça.
Yaz əldə dəyənəklə
Qışı qovur yaxşıca.

Qış getmək istəməyir,
Qəh-qəhə çəkib gülür.
Özünü şəstlə öyür,
Yerin bağrı sökülür.

Buludlar dövrə vurub
Tutub göydə əl-ələ.
Yağmur çadırı qurub,
Gəl-gəl eyləyir yelə.

Səma qaşqabaq edir,
Göydən buludu qovur.
Günəşi tabaq edir,
Buludun burnun ovur.

Xəzri qışqırıq salıb,
Aləmi qarışdırır.
Yazın sədasın alıb,
Göy-yeri yarışdırır.

Ağaclarda tumurcuq,
Çatlayır asta-asta.
Yaz verir qışa acıq,
Baxışı usta-usta.

Qışla yazın savaşı,
Təbiət mənzərəsi.
Külək salıb çaşbaşı,
Ömrün necə sürəsi?

Qış fəsillərin şahı,
Bahara qucaq açır.

Gətirir yaz sabahı,
Novruzu qoyub qaçır.

Necə yazı sevməyək,
O həyat dirçəlişi!
Qışa yığış get deyək,
Yaz gətirir gedişi!

02.03.2020

EY BAHAR

Gəlirsən elə gəl, könüllər gülsün,
Bəzə canım evin gülnən, ey bahar.
Bağrıma İlahi eşqin tökülsün,
Yer-göy sükutdadı dillən, ey bahar.

Şimşəklər hayqırsın, buludlar dolsun,
Açan çiçək qalsın, solan qış olsun,
Çaxnaşsın asiman, bol yağış olsun,
Qon yelin çiyninə yellən, ey bahar.

Yamyaşıl donuna bürün yenə də,
Eşqin şaxələnib çoxdan sinədə,
Rəvac ver ellərdə toy-düyünə də,
Geyin baş tacını gülnən, ey bahar.

Bilməm nə azardı gəzir dünyanı,
İnsanlar çaşbaşdı, üzür dünyanı,
Eyləmə ağrıya nəzir dünyanı,
Gəl bayram keçirək elnən, ey bahar.

Üşüyən canlardan çıxar mərəzi,
Yaraşmır hüsnünə şeytan qərəzi,
Bilirəm, əyilib çoxdan tərəzi...
Yub-apar hiyləni selnən, ey bahar.

Bilirsən, Novruzun eşqi candadı,
Torpaq dirçəlişdə, həyəcandadı,
Bil sənə sevgimiz kökdə, qandadı,
Bu izah olunmur dilnən, ey bahar!

Günlər qaça-qovda, zaman axarı,
Torpaq istilənir çıxır buxarı,
Soyuq yır-yığışda, gəl qalx yuxarı,
Dilləndir qəlbləri telnən, ey bahar.

Günəşin şəfəqi yerlərə enir,
Yer-göy təmas edir, eşqlə öyünür,
Qış ömrün bitirib ocağı sönür,
Oynama sovrulan külnən, ey bahar.

İsindir sevginlə buz ürəkləri,
Gətir ehtizaza sən diləkləri,
Darasın saçımı yaz küləkləri,
Oxşa üz-gözümü əlnən, ey bahar.

Şadiman hövlanak baxır yoluna,
Bitir gül-çiçəkdən gəl sağ-soluna,
Sən gələn yerlərdə könlüm buluna,
Gətir müjdələri yelnən, ey bahar.

15.03.2020

BÜRÜYÜBDÜ BAĞÇANI

Qızılgüllər bürüyübdü bağçanı,
Sarı günəş, səmada göy qurşağı.
Kəpənəklər könlə qapı açanı,
Güllər üstə uçurlar baş aşağı.

Yer-göy, sanki, gözəlliyə uyubdu,
Gül kölları başa tacın qoyubdu,
Gün ətrafa şəfəqlərin yayıbdı,
Gəlib yazın ruhu oxşar son çağı.

Gülüstanı xatırladır bu görnüş,
Dodaqlara qonub qaçır xoş gülüş,
Ağ buludlar edir sanki son yürüş,
Açıb göylər yerə sarı qucağı.

Qızılgüllər bəzək verib üzünə,
Bülbülləri cəlb etməkçin özünə,
Batıb çıxır al günəşin közünə,
Səma onun sözə baxan uşağı.

Xəzri qovub gilavarı, atlanır,
Bağ-bağçanın əl-ayağı qatlanır,
Qızılgüllər ləçək töküb çatlanır,
Göy tutulur, gizlənir gün işığı.

Elə bu an qaranquşlar qaçışır,
Səmalarda həlqə vurur, uçuşur,
Aralanır qara bulud, acışır,
Günəş yerin, yer günəşin aşiqi.

Şadiman da vəcdə gəlir seyirdən,
İlham atın minib çapır sehirdən,
Yaz xəbərçi olsun bizə xeyirdən...
Könlüm yazın dəli-dolu aşığı. **23.05.2020**

RUHDAN, CANDAN DOĞAN QƏZƏL

RUHUNA PƏRVAZ KİMİYƏM

Bilirəm hər gecəni ruhuna pərvaz kimiyəm,
Bəsləsən can evimi qışda sənə yaz kimiyəm.

Küsdürüb qəlbimi sonra eləmə ülfətə cəhd,
Eşqi simlərdə gəzən, fəryad edən saz kimiyəm.

Salıb ürəyə məni, qəlbinə yar sansan əgər,
Səni başdan ayağa eşqə tutan naz kimiyəm.

Gətirib cuşə könül dinlə muğam şöbələrin,
Agah ol ki sənə mən, tar üstə avaz kimiyəm.

Şadiman bir çoxunun ağlını başdan aparıb,
Mən ki, ağlı aparan "Şur" üstə nəvaz kimiyəm.

26.01.2017

BU KƏNDİN SƏHƏRİ

Eləyib eşqinə yar məni bu kəndin səhəri,
Doldurub boğazımı zövqünə uyğun qəhəri.

Havası cigərə dərmandı bunu hamı bilir,
Bağının, bostanın cana şəfadır bəhəri.

Bülbülün eşqi öyən sədası aləm bürüyür,
Xoş sərinlik gətirir ürəyə məlhəm nəhiri.

Adı Həsənqaladır, yayı bahara bənzəyir,
Yuyur açan sabahı qəlbin içindən zəhəri.

Şahdağının ətiri məst eləyir yeri, göyü,
Sildirim qayaları zirvələrindir yəhəri.

Yamyaşıl xalı təki yayılıb otlar çəmənə,
Hər tərəfi meşədir, göydə buludlar kəhəri.

Şadiman cəhd eləyir könlünə dost etsin onu,
Qoymasın ruha yaxın ağrıya mədən şəhəri.

14.08.2017

EY ADAM

İnsanlıqdan çıxana eyləmə ülfət, ey adam,
Verər ruhuna sənin sağlamaz illət, ey adam.

Hər kəsin beyninə çatmaz eləsin yaxşılığı,
Ağılın ziyasıdı edə mərifət, ey adam.

Çox mənəm deyənlərin təpəsi yerə çaxılıb,
Şərə eşq edənləri tapacaq zillət, ey adam.

Heç kəsə vəfasını etmədi inkar Yaradan,
Eyləmə Tanrı verən ömrünü alət, ey adam.

Ruhumuz kainatın zərrədə can işığıdı,
İşığa səcdəni qıl, etmə rəzalət, ey adam.

Yer də öz ömrünü tamam edəcək, yox əbədi,
Nəfsini Tanrı sanıb etmə ibadət, ey adam...

Vermə gəl şərə rəvac, kəsmə ədalət yolunu,
Salar gec-tez ayağa bil səni millət , ey adam.

Şadimanı qınama şərə çəkir sözlə qılınc...
Edə bilməz, çünki o, haqqa xəyanət, ey adam.

14.02.2018

GECƏ YARI

Hamı yatmış, oyağam mən gecə yarı,
Qonub kipriklərimə çən gecə yarı.

Baxıram pəncərədən göylərə üzgün,
Uçur ruhum, ürpəşir tən gecə yarı.

Dolub ulduzla səma, can olub aşiq,
Yatırsan məndən uzaq sən gecə yarı.

Agah ol çəkdiyimi vücudu-kamil,
Qəlb bölünüb ikiyə tən gecə yarı.

Şadiman quşlar təki kaş açа qanad,
Ruhuna misra ola dən gecə yarı.

17.10.2018

SƏNDƏN ÖTƏRİ AHIMI UDDUM

Bilsən necə səndən ötəri ahımı uddum,
Ahımı canıma çəkib tək səni tutdum.

Hicran əzabı hər kəsə çatmaz onu bil ki,
Mən də onu hər saniyədə min kərə daddım.

Həyat acısı eşqimə nufuz elədikcə,
Ruhuma qida sanaraq ömrümə qatdım.

Ümid elədim hər gecəmi, cövrünə yandım,
Yatmışları fəryada salıb ahla oyatdım.

Eşitsən əgər Şadimanın səsü-sədasın,
Bil ki, sənin uğrunda onu odlara atdım.

20.06.2019

İLAHİ, EYLƏ MƏNƏ EŞQÜVÜ İZHAR

İlahi, eylə mənə eşqüvü izhar, gəlirəm,
Bil ki, səcdə evinə aşiq olan var, gəlirəm.

Pak odunla alışıb yanmağa hazırdı könül,
İstəsən eyləyərəm eşqimi mən car, gəlirəm.

Bu həyat aləminə olmadı amadə ürək,
Eləyib dilimi lal, qulağımı kar, gəlirəm.

Sənin atəşini çox hifz eləyib cövr edirəm,
Elə bu aşqini hücrənə dildar, gəlirəm.

Axıdıb gözlərimin yaşını bu dövrü-cahan,
Elədim ömrü boyu haqqına ilqar, gəlirəm.

Can deyib canıma düşmən elədim aləmi mən,
Günümü aha büküb eylədilər dar, gəlirəm.

İlahi, mən çəkəni çəkməsin heç bəndələrin,
Hörülüb yollarıma sədd dolu duvar gəlirəm.

Axıdır gözlərimin yaşlarını həsrət odu,
Çoxalıb dərya təki aləmi suvar, gəlirəm.

Şadimana çox dedim, götürmədi ibrətini,
Ömrümü zülmə salıb daddılar min bar, gəlirəm.

04.07.2019

QURBANIN OLUM

Qurbanın olum, gəl bizə könlüm təzələnsin,
Gülsün gözümüz, üzümüzə nurlar ələnsin.

Baxsın da sevinsin bizə bağçada çiçəklər,
Bülbül oxusun cəh-cəh ilə, qəlb məzələnsin.

Yoxdu sənə tay dünyada özün bilirsən ki,
Qoy yansın sevgüvə canım, oduva bələnsin.

Qurbanın olum, iltimas et yarın eşqinə,
Ruhun uçaraq tezcə gəlib qəlbimə ensin.

Nolar insafa gəl, Şadimanı etmə mütəssir,
Ya dön könül evimə, ya könlüm sənə dönsün.

18.08.2019

EY ÜRƏK

Etmə canım evini ağrıya çox büryan, ürək,
Bağrımı tutdur alova, qoşul ona sən yan ürək.

Bilirsən çəkdiyimi, bəs nədir bu uşaqlığın,
Düşmüsən dil-ağıza, səni deyir hər yan, ürək.

Gəlib eşqin havası, cəh-cəhi bülbül sayağı,
Dözümünü bilirəm, kimsə çəkərmi, can ürək?!

Bir səbəb tapmayıram, sulayım həsrətlə səni,
Gələsən harayıma, boğur məni hicran, ürək.

Şadiman biçarəyə etmədədi yarı zülüm,
Tutuşub eşqə yanır hər gecəni bu can, ürək.

31.08. 2019

BU CAHANDA

Allah, nə qədər üzləri gördüm bu cahanda,
Ahla dolu gündüzləri gördüm bu cahanda.

Oldum necə də ömrə düşən günlərə aşiq,
Qəlbi oxudan gözləri gördüm bu cahanda.

Aləmləri candan keçirib könlə buraxdım,
Göydə yetişən izləri gördüm bu cahanda.

Haqqa ağ olub, şərə edən ömrünü qurban,
Haqqa bükülən dizləri gördüm bu cahanda.

Savaşa hərislər çoxalıb tutdu kürrəni,
Qanla suvanan düzləri gördüm bu cahanda.

Çox cəhd elədim günlərimi şadimanlığa,
Canla üzülən sözləri gördüm bu cahanda.

Saldı qınağa Şadimanı söz unudanlar,
Sözdən yayılan közləri gördüm bu cahanda!

07.09.2019

YÜKÜM AĞIRDI, EY XUDA

Çəkirəm qəm yükünü, yüküm ağırdı, ey Xuda,
Dərdimin möhnətinə yanan bağırdı, ey Xuda.

Enirəm ağrıma mən, qalxmağa yoxdu amanım,
Gəldi güc dizlərimə, göylər çağırdı ey Xuda.

Qollarım açdı qanad, uçdum səmanın ənginə,
Asimandan başıma ulduz yağırdı, ey Xuda.

Günümü göydə keçirdim, həmdəmim oldu səma,
Şığıyıb qara bulud Ayı boğurdu, ey Xuda.

Açıldı sübhü-səhər göylər geyindi ağ tülü,
Yeri odla isidən günəş doğurdu, ey Xuda.

Mən də atıb başımı getdim dərin bir yuxuya,
Gözümün acısını röyam yoğurdu, ey Xuda.

Eyləyib səyahəti döndüm yenə yer üzünə,
Sözümü öpdü qələm, bu nə uğurdu, ey Xuda.

Ərz edin Şadimana, isminə candı sevgili,
Etdi hər misraya eşq, özün doğurdu, ey Xuda!

09.09.2019

QIYDIM HƏR BİR AĞRINI

Qıydım hər bir ağrını mən taleyi kəm könlümə,
Olmadı ömrüm boyu xoş gələn bir dəm könlümə.

Tökdü gözlərim yaşı, islatdı gecə yastığı,
Vermədi rahət olam bəbəkdəki nəm könlümə.

Ağladım sübhü-sabah, gəlmədi qeyibdən kömək,
Doldu ətrafdan gələn ağrı damadəm könlümə.

Yaşamaq eşqi məni sövq elədi xoş həyata,
Yaşamaq eşqi nədən vermədi heç təm könlümə?!

Hər tərəfdən üstümə yüyürdü möhnətin qəmi,
Qurdu qara çadırın şövq ilə matəm könlümə.

Şeytanın hər üzünü gördükcə çəkdim naləni,
Tökdü dərdü-mərəzi, eylədi sitəm könlümə.

Aləmin dərdinə əydi Şadiman qələmini,
Aləmə qıydığını etdi niyə kəm könlümə?!

14.09.2019

MƏN EŞQİNƏ YAR ETMİŞƏM

Eşqə düşən könlümü mən eşqinə yar etmişəm,
Öz canımı yad bilib tənimə əğyar etmişəm.

Gecədən sübhə kimi çəkmişəm hicran yükünü,
Tikmişəm könlə qəfəs, dörd tərəfin dar etmişəm.

Kimsələr duymasını istəmədim sirrimin heç,
Odur ki, sirrimi ruhum evinə bar etmişəm.

Bəsləyib gecəbəgündüz o mübarək sevgini,
Salıb qəlbimə onu, faş etməyə ar etmişəm.

Gecələr yuxularım səndə duyub fərəhini,
Basıb bağrıma əcəb, eşqini nübar etmişəm.

Öylə zənn eyləmə sən, seçmişəm biganəliyi,
Sənsiz ötən günümə min yol ahu-zar etmişəm.

Şadiman biçarəni salma gözündən nə olar,
Sən gələn günümü mən ömrümə gülzar etmişəm.

14.09.2019

QALDIM AY AMAN

Qaldım ay aman, ah ilə aman arasında,
Bilməm nə edim bir belə yaman arasında.

Könlümə tökür hər yetən öz dərdi-sərini,
Könlüm yer arar özünə səhman arasında.

Kipriklərimin nəm yükü olub mənə sevda,
Hər qüssəyə yar, göz yaşı peyman arasında.

Olsaydı əgər bəndələrin vicdana eşqi,
Vicdan yorulub qalmazdı fərman arasında.

Hər zaman suçlu zənn elədi Şadiman özün,
Canı üzülüb, qalıbdı dərman arasında.

22.09.2019

BİRCƏ KƏRƏ YAN VƏTƏNƏ

Çıxma dönük nə olar, bircə kərə yan Vətənə,
Dodaqda kəlmələrin desin min yol can Vətənə.

Sahib ol öz yurduna, sahibliyi qalsın sənə,
Qurban et tənində yox, sığındığın can Vətənə.

Qurtaraq işğal acısında qalan yurdumuzu,
Onda alqış deyəcək vallahi hər yan Vətənə!

Qələbə sevincini daddıraq ürəyimizə,
Qoy gülsün üzlərimiz, çatsın həyəcan Vətənə.

Bir çoxu kimliyini çaş salıb yox soyu, kökü,
Nəki təndə canını, qıymaz bir fincan Vətənə.

Yığışıb dövrəsinə, cibini öz yurdu sayır,
Çoxalıb ilan təki bağrını sancan Vətənə.

Satır öz mənliyini yağılara heç neçəyə,
Soxulur künc-bucağa, sanki, soxulcan Vətənə.

Şadiman qələmini kağızına elədi dost,
Eləyə xidmətini ömrü sonacan Vətənə!

14.09.2019

ETMƏ KÖNLÜM EVİNİ AĞRIYA PÜNHAN

Etmə könlüm evini ağrıya pünhan, ey ürək,
Dözməyir hər mələla çökmədədi can, ey ürək.

Zalımın zülmü yaman, hər tərəfə püskürür od,
Qorxuram etdiyinin sonu ola qan, ey ürək.

Qalmadı taqətim heç, bir o qədər yükü çəkim,
Batıb nahaq sitəmə hər tərəf, hər yan, ey ürək.

Şeytanın hökmünə bax, etmədədi zülmünü faş,
Olur haqqı deyəni cigəri büryan, ey ürək.

Bir çoxu öz-özünü intihara etdi hədəf,
Şərə bais olanın yalanı üryan, ey ürək.

Bu qədər qəm yükünü bəs necə çözür Yaradan?
Bəlkə onnan da bizə olmadı həyan, ey ürək!

Ərz edin Şadimana, çəkdiyi qəlbinə yetər,
Bağlanıb haqq qapısı, yox sözü duyan, ey ürək!

14.09.2019

BUNU ALƏM BİLİR

Sən mənim sevgili-yarımsan, bunu aləm bilir,
Canıma güllü baharımsan, bunu aləm bilir.

Kimsələr irad etməsin, gülüzlü yarıma heç,
Hər zaman əhdü-ilqarımsan, bunu aləm bilir.

Ayrılıq çəkməsin özünü başa, yer vermərəm,
Hər dərdə çarə loğmanımsan, bunu aləm bilir.

Eşqüvü illərlə könlümə dəstü-xətt etmişəm,
Ömrə düşən xoş zamanımsan, bunu aləm bilir.

Səndən qeyrü kimsəyə etmərəm sevda, bunu bil,
Çün hər dərdimə dərmanımsan, bunu aləm bilir.

Al canımı, fəda olsun dildən çıxan əmrüvə,
Hökmə qərarlı sultanımsan, bunu aləm bilir.

Şadiman, bir kimsənin bulmadı könlünə yaxın,
Sən bədənimə tən yarımsan, bunu aləm bilir.

13.02.2020

NƏ SƏN ÇIXDIN QƏLB EVİNDƏN…

Nə sən çıxdın qəlb evindən, nə mən ruhu abad oldum,
Nə sən qopdun hiss cövründən, nə mən eşqdən bərbad oldum.

Ötüb keçən zaman gəlməz, bir dəm hali olan bilər,
Nə sən endin goy fövqündən, nə mən dərddən bidad oldum.

Hikmət dolu sabahlar var, sevdasına can əridir,
Nə sən döndün keçən gündən, nə mən ona bir yad oldum.

Fərman verdi acılara, ayrılıqlar sultan kimi,
Nə sən çıxdın bu düyündən, nə mən ondan azad oldum.

Vüsal bağın payız çaldı, xəzanları aləm tutar,
Nə sən gəldin qəlbə ündən, nə mən ondan səyyad oldum.

Sevdalılar bilər bunu, eşqə fəda olmaq müşkül,
Nə sən keçdin eşqlə dindən, nə mən bundan çox şad oldum.

Şadimana, nəzər qılsan gecə-gündüz cəfa nədir?
Nə sən qaçdın qəm divindən, nə mən qəmə ustad oldum.

28.11.2013

ƏGƏR YOXDUR QƏLBİNDƏ

Əgər yoxdur qəlbində sənin Allaha məhəbbət,
Artacaqdır günbəgün bil ki, günaha məhəbbət.

Gecələr dincliyini qurban edənlər fənaya,
Eyləməz heç bir zaman gələn sabaha məhəbbət.

Özünü ağıl evinə bənna sayanlar bilə,
Ağıl yox, ürək edir çox vaxt aha məhəbbət.

Nə çoxdu sevdaları hicranlarda arayanlar,
Qoy bilsinlər getməyibdi heç gah-gaha məhəbbət.

Şadimana deyin bilsin, eşqə düşmək xətadır,
Qəlbə gəlir hər bir zaman, çünki baha məhəbbət.

02.12.2013

BAYATILAR

Ömür ələkdən keçir,
Vaxtı diləkdən keçir.
Gün görməyən arzular,
Ancaq ürəkdən keçir...

***

Arzun çin olsun, Vətən,
Hökmün min olsun, Vətən.
Sənə qovğa çəkdirən
Tünbətün olsun, Vətən...

07.03.2017

Insan ümidə bağlı,
Odur yaşadan ağlı.
Düşür zamana elçi
Yazır ömür nağılı...

08.03.2017

Fələk ağlatdı məni,
Ahla oynatdı məni.
Əvvəl sevdi yar kimi,
Sonra da atdı məni.

29.03.2017

Əlimizdən saz düşməz,
Dilimizdən söz düşməz.
Düşüncəmiz neceydi,
Öldür bizi dəyişməz.

***

Bizə hər gün kef olsun,
Zurna, qaval, dəf olsun.
Pul-paramız sel kimi,
Kasıb-kusub dəf olsun.

13.05.2017

Neftimiz üz qarası,
Çatmır bizə parası,
Ağrı verir ürəyə
Sağalmayır yarası...

15.07.2017

Yaltaqlar meydan sulayır.
Arada quyruq bulayır.
Dözməyib canda hayqıran,
Bir ömür qurdum ulayır...

12.02.2018

Ağrı canda əzabdı,
Bədəndə inqilabdı.
Etdiyi çevrilişi
Ömürlə haqq-hesabdı.

10.03.2018

Aramızda nə varsa,
Soldu bir çiçək kimi.
Zaman yuyub apardı
Axtarma ürək kimi...

24.04.2018

Sən özün yıxdın könlümü,
Dərdə buraxdın könlümü.
Verdin əğyara eşqini,
Yandırıb yaxdın könlümü.

25.04.2018

Dərbədərəm dərbədər,
Gedir günlərim hədər.
Ürək paramparçadı,
Oyun oynayır qədər.

04.06.2018

Yaralıyam yaralı
Könlüm səndən aralı.
Gözüm yolunda qalıb
Hicran udur vüsalı...

26.06.2018

Fələk ayırdı bizi,
Qəmlə doyurdu bizi.
Edib həsrətə qonaq
Illə uyurdu bizi...

20.07.2018

Ağıla tapın,
Gəl şərdən sapın...
Qoy açıq olsun,
Xeyirə qapın...

06.09.2018

Hamı yazar,
Ölkə bazar.
Qələm susar,
Yaltaq azar...

23.07.2018

Yuxu gətirən xoş hava,
Edir ruhuma dua.
Əsəbləri oxşayır,
Siğindiğim bu yuva...

10.08.2018

Yuxum çəkilib ərşə,
Çəkir məni qəm şişə.
Bişirir manqal üstə,
Sonra da vurur dişə.

***

Gəl qadanı alım sənin,
Qol boynuna salım sənin,
Sonra gəlim otağına,
Sübh laylanı çalım sənin.

26.08.2018

Gecənin yuxusuna,
Əl atıram çatmayır.
Qaranlıq qəh-qəh çəkir,
Yarımı oyatmayır.

22.04.2019

Nə salam var, nə kəlam,
Mən də sidq ilə alam.
Taleyimə yazılıb
Elə həsrətdə qalam.

04.05.2019

Ürəyimdən daş asılıb,
Onu ordan açan ola.
Alıb məni bu dünyadan
Baş götürüb qaçan ola.

26.05.2019

Göz işığa möhtacdır,
Adam dünyaya tacdır.
Vicdanlı olmağına
Tək ağılı əlacdır...

29.05.2019

Sənin sevgin yalandı,
Mənim içim talandı.
Özün söylə kim pozdu
İçdiyimiz o andı?!

22.12.2018

Axar sudu ömrümüz,
Vaxt əlində əmrimiz.
Gələndə köçmək vaxtı...
Heç çıxmaz səs-səmrimiz..

24.12.2018

Ürək ağılla döyüşür,
Arada can dərdə düşür.
Hər doğulan bəndə ki var,
Axırda haqla görüşür...

17.02.2019

Axtarıram yuxumu,
Yatızdırım qorxumu.
Yağı əkən tarlanın
Heç bitməsin toxumu...

***

Su gəlib arxdan keçir,
Hər ağrı ahdan keçir.
Gəlir axır çərşənbə,
Eşqi sabahdan keçir...

***

Üz tutmuşam tonqala,
Odun tapıb çox qala.
Dərdimiz düşə oda,
Ağrı gedə, can qala.

***

Düşmənin özü düşmən,
Dilində sözü düşmən.
Yurdlar yağı əlində,
Yandırır bizi düşmən...

18.03.2019

Evli özgə sevməməli,
Öz yarına yar deməli,
Ululardan budur qayda,
Uçurmaq olmaz təməli...

26.03.2019

Çəkdiklərim zülümdü,
Qəlbim bölüm-bölümdü.
Ağrılar nəzmə gəlir,
Faş eləyən əlimdi...

05.04.2019

Hər bir ömür örnəkdi,
Zaman çox yüyürəkdi.
Ocaq təki alışan,
Ağıl deyil, ürəkdi...

07.04.2019

Gözlərimdən keçən dünya,
Ömrü meytək içən dünya.
Çəkilmədi ürəyimdən,
Nə çiskinin, nə çən dünya...

02.05.2019

Ruhum, harda gəzirsən?
Məni yaman üzürsən.
Həyat dolu ömrümü,
Tapdalayıb əzirsən.

10.08.2019

Günüm ömrü daşıyır,
Can içində yaşıyır...
Həyat acılarından
Bizlə birgə üşüyür...

10.08.2019

Ürəkdə közüm qalıb,
Dilimdə sözüm qalıb.
Yarım çıxıb gedəndən
Yollarda gözüm qalıb.

***

Yollar diləyin olsun,
Sevən ürəyin olsun,
Səni könüldən sevən
Təkcə mələyin olsun.

21.08.2019

Ov-yev, bizi ovlamısan,
Dilə tutub tovlamısan,
Yox edib kimliyimizi,
Dərəyə yuvarlamısan...

29.08.2019

Ümid özünə bağlı,
Ürək közünə bağlı.
Nə olur olsun, amma,
Ömür yormasın ağlı...

29.08.2019

Sən yatırsan, mən oyaq,
Tapa bilmirəm dayaq.
Ürəyim çıxıb gedib,
Sağ qalıram bir sayaq.

***

Həsrət gəzir havada,
Can çırpınır yuvada.
Gözlədiyim gəlməyir,
Dilim qalıb duada!

04.09.2019

Nəfəsimdə gəzirsən,
Gözlərimdə süzürsən.
Bir ömürlük canımı,
Həsrətinlə üzürsən.

10.09.2019

Yaman incitdin könlümü,
Aha yar etdin könlümü.
Dedin yaşadaram səni,
Sən atıb getdin könlümü.

13.09.2019

Yurdların çıxdı əlindən,
Ağılar düşmür dilindən,
Göz yaşın dəryaya dönüb
Boğulub batdıq selindən!

14.09.2019

Düşmüşük söz oynuna,
Söz də alır qoynuna.
Yığır hər suçumuzu,
Götürür öz boynuna.

17.09.2019

Dil qılınctək kəsər də,
Vaxt olar ki, küsər də.
Alar ağıldan dərsi,
Boy göstərər əsərdə...

21.09.2019

Yaltaqlar fəaliyyətdə,
Hər biri min niyyətdə.
Mənliyi aşağlıyan,
Uçrumdu zehniyyətdə...

15.10.2019

Məcnun çöllərə düşüb,
Eşqi dillərə düşüb,
Ayrılığın qəm yükü,
Yazıq illərə düşüb.

30.01.2020

Gəlmədi bizə bildiriş,
Seçkiyə bağlımı giriş?
Yalan çəkiləndə başa,
Siz deyin olarmı düz iş???

08.02.2020

Səs vermə başa çatdı,
Kimi daş-başa çatdı,
Kimi döydü dizinə,
Kimi göz yaşa çatdı...

09.02.2020

Oyun oyuna düşdü,
Dildə yayına düşdü,
Çaşbaş edildi dünya,
Can öz hayına düşdü.

09.04.2020

"Evdəqal"a düşmüşük,
Yaman hala düşmüşük.
Cəhd etdikcə irəli,
Çaşıb dala düşmüşük...

10.04.2020

Əzizim dağım, gözəl,
Xoş gələn çağım gözəl,
Sanki cənnətə bənzər,
Gül açan bağım gözəl.

***

Dildə söz şirin ola,
Hər misra dərin ola,
Düşəsən dil-ağıza,
Hər qəlbdə yerin ola.

***

Könlüm açan bənövşə,
Söz gələ bəndə düşə.
Açılıb sübhün gözü,
Baş əyirəm günəşə.

***

Ömür karvan yoludu,
Daş-kəsəklə doludu.
Əl-ayağı qanadan
Tikanların kölüdü.

***

Sal dilinə doğrunu,
Atma oda bağrını.
Saflıq özü yox edir,
Cana dolan ağrını.

27.08.2020

DÖRDÜKLƏR

Gün-günə oxşayır, sabah-sabaha,
Hamının inamı bağlı Allaha.
Diləklər göylərdən asılı qalıb,
Ümidlər üzülüb yerlərdən daha.

12.12. 2016

Sabaha ümidi sovuran zalım,
Könlü ağrılarla qovuran zalım.
Heç ömür yükünü çəkmək olmayır,
Dərdlərin üstündən dərd vuran zalım.

20.12.2016

Hər kəs öz səhvini bilsə, nə yaxşı,
Haqq qoyduğu yola gəlsə, nə yaxşı.
Ürəkdə qövr edən kin-küdurəti,
Canının evindən silsə, nə yaxşı...

11.01.2017

Kimsə gedə bilməz axına qarşı,
Gedərsə, sonunda tökər göz yaşı.
Həyat hər an başa tumar çəkməyir,
Ağılla lazımdır işlətmək başı...

13.01.2017

Dünyanı çaşdırır hiylə çoxluğu,
Hər an hiss olunur vicdan yoxluğu.
Harama uyanlar mənəvi kordur,
Hər kəsə yar olmaz nəfsin toxluğu.

14.01.2017

Xalqın ciblərini talan edənlər,
Verdiyi sözləri yalan edənlər,
Heç ağıllarına gətirirlərmi?
Udacaq onları bir gün nədənlər...

16.01.2017

Doydura bilmirsən məmur qarnını,
Soyub talayırlar hər gün varını.
Vətən, insanların ac-yalavacdı,
Səni yazıq edir yurdun harını!

***

Daxili gözəllik üzdə görünür,
İnsanın kimliyi sözdə görünür.
Kirpitək qınına çəksəndə başı,
Etdiyin əməllər düzdə görünür.

21.01.2017

Adam var qan qusur hər gün acından,
Nadanlar yalanın tutub ucundan.
Dünyada doğulan bir çox insanın,
Ümidi asılır dar ağacından!

24.01.2017

Günahın görməyir haqsız olanlar,
Odur ki, çökdürür ərzi talanlar.
Tapdanan haqqına susan insanın
Düşəcək bəxtinə yalnız dalanlar...

25.01.2017

Hər açılan sabah gün döyüşüdü,
Allahı şərliyən din döyüşüdü.
Xətasız olmayır heç ömür yolu,
Yalançı səcdələr şər yürüşüdü!...

01.02.2017

Nadan ucaldıqca zirvə alçalır,
Ağıl sahibləri ona əl çalır.
Ondan aslı olan əlacsızların,
Ömrünü ən dərin quyuya salır.

06.02.2017

Edilən yaxşılıq nankora yükdü,
Başında nə ki, var yıxıq-sökükdü.
Hamını özünə borclu sanacaq.
Çünki doğulandan içdən çürükdü.

06.02.2017

Heç aşmaq olmayır ürək dağını,
Çevirir həyatın xoş varağını.
Əzəldən belədir dünyanın işi,
Büdrədin, saxlamır yer ayağını...

09.02.2017

Keçmə caynağına sən xəbislərin,
Keçsən talanacaq hər gün hislərin.
Qəlbini ağrıdan yerdən uzaq ol,
Üzündə yazılmıb pislik pislərin.

09.02.2017

Gəlirsən sevdalar gətir, ey səhər,
Boğazdan yapışıb qalmasın qəhər.
Hər insan varlığı ömür qədərdir,
Ağılın barından qəlb görsün bəhər.

10.02.2017

Ey mənim ruhuma mehr salanım,
Qəlbimlə günboyu tənha qalanım,
Sakitcə döyürsən könül qapımı,
Gəl çat ocağını, oda qalanım...

03.03.2017

Cəhd etmə incisin könlüm həyatda,
Ruhumun ağrısı yatır hər qatda.
Zənn etmə dünyanın hökmü əlində,
Qalarsan haqqımın ayağı altda.

05.03.2017

Gözümdən getməyir xəyalın bir an,
Baş əyir eşqimlə mehribanə can.
Varlığın ruhumdan boylanır, baxır,
Dolaşır Məcnuntək qəlbdə həyəcan.

15.03.2017

Sənin ruhun ilə canda nəfəs var,
Sən olmayan yerdə könlə qəfəs var.
Həyatın mənası eşqlə ölçülür,
Bu eşq sənlə başlar, ona həvəs var.

16.03.2017

Ayrıla bilmirik bir-birindən biz,
Arzumuz ümmandı, eşqimiz dəniz.
Canda yer eləyib bu istəyimiz,
Eşqimiz önündə çökməliyik diz.

17.03.2017

Özündən doğması yoxdu özünə,
Sığın ürəyinin həyat közünə...
Ömrünün boşuna sərfindən çəkin,
Sonra fəryad ilə vurma dizinə.

03.04.2017

Hər kəsin dünyaya öz baxışı var,
Axtarsan, arasan lap az yaxşı var.
Çoxunu yolundan azdırıb, Allah,
Hərislik, xəbislik, bir də yaxşı var...

15.04.2017

Əgər ağlın varsa özünü düşün,
Başqa adamlarla sənin nə işin?
Fikrini, zikrini cəmlə bir yerə,
Gör hara aparır səni yerişin?!

17.04.2017

Bir sakitlik, bir rahatlıq yoxdu dünyada,
Doğulandan ölənədək belədir qayda.
Didişmədə, döyüşmədə insan deyilən-
Haçan anlar qan tökməkdən cana nə fayda?!

***

İlahi, hər uşaq dünya mələyi,
Axı xəstəliyə dözmür ürəyi.
Qıyma heç bir yavru yatağa düşsün,
Gözündə qalmasın arzu, diləyi...

18.04.2017

Əgər öz dəyərin bilməsə insan,
Edəcək ömrünü zamana ehsan.
Hər bəxtə nur vermir həyat çırağı,
Yaşamaq, yaşatmaq deyildir asan!

***

İnsanın beyini özütək sirli,
Xeyrə köklənəndə əməli dürlü.
Könlünü açanda şər qapısına,
Etdiyi əməllər dünyaya kirli...

***

Köhnəlik içində batıb qalanlar,
Filin qulağında yatıb qalanlar,
Gerilik açardır fəlakətlərə -
Tarix yaddaşına çökür olanlar.

19.04.2017

Harama dadanan haramxorları,
Xilas etməyəcək heç vaxt varları.
Gün gələr etdiyi əməllərçün
Göylərə yüksələr ahu-zarları!

24.04.2017

Ah, necə yüksəkdi bizim kefimiz,
Əlimizdən düşmür qaval-dəfimiz...
Gələnə-gedənə qucaq açırıq
Tükənir boş yerə para sərfimiz....

12.05.2017

Ürək xoşluq istəyir ağrıdan qopmaq üçün,
Canla ittifaq qurub ömrü uzatmaq üçün...
Yükləndikcə üstünə həyatın ağır yükü,
Çapalayır içindən ağrını atmaq üçün...

15.05.2017

Sən ey şairləri sevmirəm deyən,
Özünün varlığın şövq ilə öyən.
Şairlər Vətənin söz ovqatıdır,
İstərsən bəyənmə, istərsən bəyən...

25.05.2017

Zülmün abadlığını artıranlar çoxalıb,
Dünyanın başı üstün qorxunc fəlakət alıb...
Öz evindən kənara çıxmaq özü təhlükə,
Fitnəyə yol açanlar haqqı taxtından salıb.

03.06.2017

Sevgiyə inanıb yorma gözünü,
Ötəri hislərdən qoru özünü.
Məhəbbət hər kəsin aşiqi deyil,
Hər qəlbə salmayır, çünki közünü.

04.06.2017

Sənin sükutuna heyranam, gecə,
Mən səni bağrıma basmayım necə?
Çəkirsən sığalı gizli ruhuma,
Qaçır qəm-kədərim qısılır küncə...

***

Hamı öz içini yaxşı tanıyır,
Hamı bir-birini yaman qınayır.
Dünyaya hər gələn gedənə yoldu
Bəxtə düşən ömür canı sınayır.

05.06.2017

Min dəfə Həcc yolu qət edənlərin,
Xəstəyə dərmanlıq pulu olmayır.
Öz ziyarətini mədh edənlərin
Allah hüzuruna yolu olmayır...

18.06.2017

Özü də sirli bir dünyadı insan,
Onu kəşf eləmək deyildir asan...
Sən onun qəlbinin yolun tapmasan,
Edər göz yaşını ömrünə ehsan.

***

Daxili təmizlik nurun siması,
Üzdə cövlan edir onun təması.
O öz sahibinə dirilik verər,
Səpilər aləmə ruhun havası...

21.06.2017

Elmdən o yana cəhalət gəlir,
İnsan taleyinə zəlalət gəlir.
Məktəbdi, təhsildi hər ömrə işıq,
Ondan qaçanlara gün zillət gəlir...

02.10.2017

Hönkürür bu sabah gözü leysanın,
Kəsmir təbiətə Tanrı ehsanın.
Axa üz-gözündən dola köksünə
İçinin kirini yuya insanın...

17.10.2017

Bu gecə ruhumu güldürən dostum,
Qəfil kədərimi öldürən dostum.
Daim şad xəbərlər döysün qapını,
Könlümün bağından gül dərən dostum...

20.10.2017

Ürəyə düşəndən qopmaq olmayır,
Ağrısı dərd verir sapmaq olmayır.
Həsrət ürəyinə düşür daş kimi,
Heç yerdə rahatlıq tapmaq olmayır...

27.10.2017

Qovrulur bu dünya ağrı içində,
Çırpınır xeyir-şər bağrı içində.
Qana-qan deyənlər meydan sulayır,
Haqqı tapdalanan sorğu içində!...

27.10.2017

Dəyərin ölçülmür heç nəylə ürək,
İçini ağriya tuş edir dilək.
Sənə cəfa verən ömrün illərin,
Qatıb qabağına, aparır fələk.

27.10.2017

Qulaq cingildəyir, ürək eşidir,
Duymaq, hiss eləmək onun işidir.
Ruhun qidasını hopdurur cana,
Bəzən od qalayır, bəzən üşüdür...

28.10.2017

İnsan çəkə bilmir ağrı yükünü,
Axtarır dünənki çevikliyini.
Çökdükcə üstünə həyat ağrısı
İtirir ömrünə böyüklüyünü...

28.10.2017

Ürək istəyənə əyilir ağıl,
Hər dilək adama deyildir noğul.
Doğulan həyatla çarpışmadadı,
Hər insan taleyi bir ömür nağıl...

29.10.2017

Sərvəti başından aşan məmləkət,
Pulu yad ciblərdə daşan məmləkət.
İnsanın ehtiyac içində inlər,
Qapısı ağzında gəzər fəlakət...

30.10.2017

Doğmalar – könlünün həyat əmsalı,
Qəmi – dərd, şadlığı – ürək vüsalı.
Verdiyi ağrılar – göynəyən yara,
Həlli müşkül olan – ömür misalı...

30.10.2017

Banklardan asılı qalan millətin,
Boş ciblər ovuda bilməz zillətin.
Faizlər artıqca kasıb sürünür,
Sonu uçurumdu bu səfalətin!!

31.10.2017

Beyni yuyulanlar haqqa qayıda,
İçində vicdanı tapıb oyada.
Allahın yolunda terror törədən,
Allaha, Qurana, bundan nə fayda?!

***

Çırpınır quş kimi sinədə ürək,
Əl vursan sınacaq, büllurtək kövrək.
Ovunmaz bilməyən körpəyə bənzər
Doğurur bir anda min cürə dilək...

02.11.2017

Ağladıb içimi yandıran ürək,
Çəkdiyin ağrıya gün viran ürək.
Doğulan günümdən yükümü çəkdin,
Yorulub incidin, sağ haran ürək...?!

10.11.2017

Ağrıya, acıya əyilən həyat,
Ömrümlə bir yerdə üyülən həyat.
İçib sərxoş olub qəm qədəhindən,
Dərdimin əliylə döyülən həyat...

10.11.2017

Ürəkdə kök salır həyat duyğusu,
Acıdır, şirindir min bir qayğısı.
Bir andan sonranı bilmək olmayır,
Zamandır hər ömrün, canın oğrusu.

13.11.2017

Ey sabah, gəlirsən səadət gətir,
Hər könlə, ürəyə xoş niyyət gətir.
Bağçası gül olsun saf diləklərin,
İnsan idrakına zehniyyət gətir…

14.11.2017

Gecənin sükutu ürəyə məlhəm,
Quruyur gözlərdə kölgələnən nəm.
Haqqın kəraməti hər qəlbə dola,
İsinə sevdalar içində aləm...

03.12.2017

Şimal küləyinə bənzəyirsən sən,
Şimal küləyitək soyuğun gəlir.
Yollayır buludla ürəyimə çən,
Çən dolu buludlar könlümü dəlir.

26.12.2017

Doğulan günündən hər kəs oyunçu,
Görünmür fitnənin, hiylənin ucu.
Yaxşı da yamanın felinə gedir,
Belinə yüklənir adamın suçu...

***

Ey din aşiqləri, Yaradan başqa,
Düşmün bir-birinə səcdəyçin eşqə.
Yaradanı sevən qan-qırğın salmaz,
Şərin iltifatı öc qanlı məşqə...

***

Vara eşq etdikcə nəfs kökəlir,
Vicdan yoxsullaşır, hiylə yekəlir.
İnsan yavaş-yavaş kimlikdən enir,
İçindən heyvani hislər dikəlir…

07.01.2018

Gecənin sükutu ürəyə məlhəm,
Pıçıldar ruhumla sehirli aləm.
Səhərə can atan diləklər oyaq,
Batar qaranlığın içində naləm...

23.01.2018

Hər gün elədikcə zalıma səcdə,
Zalımın özünü gətirir vəcdə.
O səni qul bilib tapdayır, əzir,
Sən ondan gözləmə haqqına müjdə.

***

Allah yaratmayıb şərçin adamı,
Bir ömür yaşayır dünyada hamı.
Haqqın tərəzisin xeyrinə əyən,
Uçar başımıza fələyin damı

***

Ürək sındırmağa göstərmə həvəs,
Onsuz da tutulur ağrıdan nəfəs.
Başımdan boy verir həyat acısı,
Sən də rəva bulma könlümə qəfəs...

25.01.2018

Təbiət gözəli vurğunam sənə,
Canımı eşqinə bürüdün yenə.
Ürəyim vəsfindən riqqətə gəlib,
Eşqin sevda donun geyib əyinə...

27.01.2018

Həyat mənasızdı ağrı olmasa,
Bədən cansız əşya bağrı olmasa.
Dünya məhvərindən qopub dağılar,
Haqqa sadiq olan doğru olmasa...

***

Bacarsan tut qəlbi sevgidən uzaq,
Gətirər könlünə illərlə sazaq.
Bədəni əzaba mohtac eyləyər,
Calış sevdasını et ömrə yasaq.

27.02.2018

Ağrıdan, əzabdan sıxılan dünya,
Namərdlər əlində yıxılan dünya.
Sənin də ipinin ucu göylərdə,
Açılan gülləyə taxılan dünya...

05.04.2018

Əyilmə haqqını ayaqlayana,
Hasartək qarşını kəsib dayana.
Sən də doğulmusan xoş həyat üçün,
Gözləmə nankorda vicdan oyana!

07.04.2018

Ağrını ürəyə çəkdirən başım,
Səni çalxatmırmı canda tələşım?
Sən dərdə açdıqca könül qapısın,
Söylə neçə dəfə mən qarşılaşım?!

12.04.2018

Zəhmətsiz neyəsə nail olanda,
Hərislik havası oynayır canda.
Yığıb yığışdırmaq olmur istəyi,
Bulaqtək qaynayır hər zaman qanda!...

21.04.2018

Ürəyə sığınıb ağla daş atma,
Etdiyin səhvlərlə başını qatma.
Əldən uçan günlər ömürdən gedir,
Vaxtı boşa verib canı aldatma...

05.05. 2018

İnsanın daxilin bilmək olmayır,
İçindən kinini silmək olmayır.
Üz-üzə dayanıb məzlumla zalım,
Zülmün boğazına ilmək olmayır…

31.05.2018

Ömür də keçəri zaman kimidir,
Segahda inləyən kaman kimidir.
Vaxtın dəyirmanı üyüdür anı,
Onu dərk edənə dərman kimidir...

29.05.2018

İlahi, de mənə bu nə insanlıq?!
Basıb ürəkləri pislik, yamanlıq.
Hər tərəf göz yaşı, hər tərəf nalə,
Axan göz yaşlarım qanlı piyalə.

***

Məni şübhələrə salan vəfasız,
Şübhəmi ürəkdən necə silərsən?
Sevənin ömürü keçməz cəfasız,
Başına gələndə onda bilərsən.

04.05.2018

Ürəkdə qövr edir min bir duyğular,
Duyğular doğurur sonsuz qayğılar.
Ömür qaçaqaçda, dayanan deyil,
Həyatı qazanır yalnız ayığlar...

19.05.2018

Bir körpə uşaq kimi axtarıram mən səni,
Sənsə yadına belə salmayırsan heç məni.
Ağrılara sığınıb günümü qovlayıram,
Boğur canı gözündə yuvalanan qəm çəni.

01.07.2018

Gəlişin ömrümə işıqtək saçır,
Tanrım eşq qapısın üzümə açır.
Uçur bədənimdən mələklər sayaq,
Canım sevdalanıb yanına qaçır.

11.07.2018

Dörd divar arası susqun bir həyat,
Edir ürəyimi kökündən bərbad,
Baxışlar dolanır yalqız tavanı,
Dilim ah söyləyir, ürəyim imdad.

15.08.2018

Bilmədim heç hardan gəldi bu bəla,
Gəldi ki, könlümü ağrıya sala.
Bir ümid işığı uzaqdan yanır,
Uçulub tökülən qəlbimi ala...

06.07.2018

Gecənin sükutu könlümə nəzir,
Həzin pıçıltısı qulaqda gəzir.
Sığınıb zülmətə hay-küydən qəlbim,
Kəhkəşan içində ulduztək üzür...

24.06.2018

Hər kəsə inanıb etmə bağrı qan,
Ağrı-acı üçün yaranmayıb can.
Həyat kitabını ömrümüz yazır,
Yarısı vüsaldı, yarısı hicran...

22.06.2018

Yalan ayaq tutub yeriyən yerdə,
İnsanlar batarlar sağalmaz dərdə.
Üzlərdən gülüşlər çəkilər ərşə,
Namərd min bir fitnə törədər mərdə...

11.06.2018

Qoru hər bir zaman ürək sirrini,
Söyləsən uçurar dil qəsirini.
Özgələr ağzına düşüb qalarsan,
Xilas etmək olmur söz əsirini...

07.06.2018

Genində yamanlıq olan bir kəsin,
Heçnə qıra bilməz pislik həvəsin.
Çirkli hava təki dolar boğaza,
Ümidi olanın kəsər nəfəsin...

04.06.2018

Sınmış ürəyimin ağrısı keçmir.
Könlə tənə edən sorğusu keçmir.
Nə qədər cəhd etdim şəfa bulmağa,
Edilən zərbənin qurğusu keçmir.

11.05. 2018

Ürəyə sığınıb ağla daş atma,
Etdiyin səhvlərlə başını qatma.
Əldən uçan günlər ömürdən gedir,
Vaxtı boşa verib canı aldatma.

***

Ürək qələt edir ağıl yanında,
Ağıl xilas edir canı anında.
Ürəyin felinə düşən kəslərin,
Ömrü ötüb keçir ah-amanında.

***

Məcnunluq sevdasın çıxart başından,
Aləmə car olar davranışından.
Eşqin ağrısına salma ürəyi,
Qurtula bilməzsən can savaşından.

***

Ürək sınsa heç vaxt bitişməyəcək,
Başından qovğalar ötüşməyəcək.
Eşqə yollar açan, bağlayan da o,
Səsləsən haraya yetişməyəcək.

***

Eşqin vəfasına uyan uduzar,
İnsan ağılına ürəyin qızar.
Sevgi elə hissdir közdən alışar,
Sevənə ən dərin quyunu qazar.

***

Ürəyin felinə uyanlar nalan,
Onu səcdəgahtək duyanlar nalan.
Adamı elə bir duruma salar,
Cəhənnəm əzabı yanında yalan.

***

Ürək aldadandı, ağılsa dürüst,
Edir ömürləri çox zaman alt-üst.
Ağılı şah olan öndədir hər vaxt,
Ürəyə qul olan hislərə həris.

05.05.2018

Daha görüşümə çıxmırsan niyə?
Yalan söyləyirsən könlümə dəyə.
Eşqə xilaf çıxmaq səndə nədəndir?
Çalışma könlümü qəm yıxıb əyə.

27.08.2018

Dəyərin bilməyən ayaqda gəzər,
Ağılın qul edər, ürəyin üzər.
Həyat acıları alar üstünü,
Atdığı addımı daş-qəmbər əzər...

07.09.2018

Etmə, ey sadəlövh ürək, ahu-zar,
Hər qırılan dilək – qazılan məzar.
Şadlığı sərxoşdu, kədəri sonsuz,
Dünyanın içində dolaşır azar!...

11.09.2018

Xeyri yox, min dəfə səcdəyə əyil,
Ürək mərhəmətə etməsə meyil.
Əgər can deməsək biri-birinə,
Dünya heç bir kəsə can deyən deyil.

***

Özünü mərhəmət sahibi sayan,
Haqq içində yoxsa, cana kim həyan?!
Tanrı yaxşı bilir yaratdığını,
Onun nəzarəti altında hər yan.

***

Ürəklə oynamaq məharət deyil,
Ürəyin içində can alət deyil.
Allaha səcdəyə bağlıdırsa din,
Dini şüar etmək ibadət deyil.

***

Sevgi hislərə yox idraka bağlı,
Özünə ram edir idrakı, ağlı.
Vaxtın cövhərindən cana nuş edir,
Bitib tükənməyir eşq dolu nağlı.

***

Eşqini sevdiyin könlə naxışla,
Ver cana töhfəni bir xoş baxışla.
Nə varsa dünyada qoyub gedirik,
Həyat cövhərini ömrə bağışla.

12.09.2018

Ürək ağrıyanda canı incidir,
Bədənin içində can birincidir.
Dünyanı nə qədər tərsə çevirsə,
Yenə də dünyaya insan incidir...

***

Sabah xeyrə gəlsin, günlər xoş olsun,
Könüldə mərhəmət, kindən baş olsun.
Hər kəs yetsin eşqə, arzu-istəyə
Axarı ömürə can sirdaş olsun...

13.09.2018

Elə istəyirəm gələm yanına,
İzinsiz, filansız girəm anına.
Pozam qanunları, yıxam sədləri,
Edəm acı üsyan fələk oynuna...

***

Dağları, daşları keçib gələrəm,
Eşqin şərbətini içib gələrəm.
Durna qatarına yoldaş olaram,
Rəbdən qanad alıb uçub gələrəm.

***

Sən kimsən, nəçisən aldın könlümü?!
Eşqin ağuşuna saldın könlümü.
Yorğanım həsrətdi, döşəyim hicran,
Gör necə bəlaya saldın könlümü?!

***

Ruhum qapındadı durub baxsana,
Qapı açıb evə bir buraxsana.
Soyuğun altında saxlama onu,
Ona ürəyinin odun yaxsana.

***

Aldatma özünü ürək deyənə,
İdrak qarşısında özün öyənə.
Fələyin yazısın pozmaq olmayır,
Nə addım atırsan ağla de yenə.

***

Səni pak eşqimin yuxusu sandım,
Yuxudan o yana keçmədi andım.
Qəlbi bihuş etdi şirin xəyalın,
Hansı dərdə düşdüm mən onda andım.

18.09.2018

Həsrəti könlünün evimi sandın?
Düşdün sevdasına böyləmi yandın?
İllərdi oduna alışıram mən,
Onun tərəfində niyə dayandın?!

***

Əritmə ömrünü ah-vay içində,
Dünya köməkdardı insan köçündə.
Özünə güvəni əgər artırsan,
Həyatın işığı yanar içində...

19.09.2018

Canıma can verən nəfəsdi eşqin,
Amma dustaq edən qəfəsdi eşqin.
Nə bilim bəlkə də gəlib ötəri,
Bir gün sönüb gedən həvəsdi eşqin!

***

Sanma ki, fələyin işi oyundu,
Kimliyin aşkarı kökün, soyundu.
Heç zaman unutma dədə-babanı,
Unutsan deyərlər bu ki, qoyundu!...

20.09.2018

Zalımlıq heç kəsə verməyir bəhər,
Başqasının ömrün eyləmə zəhər.
Nə etdin qayıdar bir gün özünə,
Sanma ömür keçib gedər bir təhər...

21.09.2018

Yaxşılıq hər zaman haqqa işıqdır,
Varlığın evinə bir yaraşıqdır.
Mizrabtək dindirər ürək telini,
Sarı simə vuran ustad aşıqdır...

02.10.2018

Doğulduğun gündən yuyulan beyin,
Min bir cəfənglərlə doyulan beyin.
Həyatın vurduğu hər cür zərbədən,
Ömrün son anında ayılan beyin!

28.10.2018

Danışma, ey adam, xalqın adından,
Xalqın kim olmağı çıxıb yadından.
Çapırsan atını belədən-belə,
Alışıb yanarsan bir gün odundan...

29.10.2018

Ömürdən keçib gedən insanın cansağlığı,
Həyat dəyirmanında üyüdülür varlığı.
Bizdən əvvəl də belə yol alıb getdi bəşər,
Zamanın sinəsindən asılıbdı yarlığı...

30.10.2018

Hamı öz bəxtinə bürünüb gedir,
Zamanın dalınca sürünüb gedir.
Doğulan şam təki yanıb əriyir,
Bir ömür dünyada görünüb gedir...

31.10.2018

Zülmət beyinlərin işığı olmaz,
Haqqa qida verən qaşığı olmaz.
İgidlik zənn edər mütiliyini,
Qaranlıq beyində idrak doğulmaz!

03.11.2018

Xəstə cəmiyyətlər yetirən insan,
İçdə min bir hiylə bitirən insan.
Başına bəladı uydurmaların,
Bu qədər suçları götürən insan...

04.11.2018

Açma qaranlığın yaxasın, gecə,
Boyanıb zülmətə onsuz da küçə.
Həyatdan nişanə səhərə məxsus,
Keç qapı ağzından qoy canım keçə...

05.11.2018

Özümüz yazırıq taleyimizi,
Səhvlər açа bilmir heç eynimizi.
Hər gün tənə edib dilsiz dünyaya,
Tökürük üstünə gileyimizi...

06.11.2018

Tutur şər adamlar haqqın gözünü,
Gizləyir min rənglə şeytan üzünü.
Nə qədər edilsə şərə ibadət,
Dinclik tapmayacaq bu yer üzünü...

10.11.2018

İnsan zəkasında oturub kimlik,
Edir əməlinə hər an hakimlik.
Hakimin səhviylə çalışan ürək,
Dərdinin çarəsi deyil həkimlik...

13.11.2018

Sənə can deyəndən qoru özünü,
Gizlədir min rənglə çoxu üzünü.
Ürək ocağı da sönür bir zaman,
Ələmə yetənə könül közünü...

14.11.2018

Zirvəyə qaldırır daim kamalı.
Hər kəsin həyatı qoyduğu qayda,
Üzündə bərq vurur aləmə halı.
Daxili intizam həyat amalı,

15.11.2018

Hiylə pərdəsini tutma üzünə,
Bəsdir, kül üfürmə haqqın gözünə.
Yamanlıq-yaxşılıq boşuna getməz,
Nə etsən qayıdar, bir gün özünə...

18.11.2018

Dünyanın ağrısı çəkilən deyil,
Heç dərdinin bağrı sökülən deyil,
Şeytanlar nə qədər meydan sulayır,
Şər-xətanın beli bükülən deyil....

20.11.2018

Yenə dərd-bəlanı yazlayır ürək,
İçdə min bir acı sazlayır ürək.
Ağrını canından qova bilməyir,
Elə ömrü boyu sızlayır ürək...

***

Bir tale, bir ömür yaşayır insan,
Öz vicdan yükünü daşıyır insan.
Endirir hər addım mərtəbəsini,
Haqqın xurcununa daş yığır insan!

***

Yenə dərd-bəlanı yazlayır ürək,
İçdə min bir acı sazlayır ürək.
Ağrını canından qova bilməyir,
Elə ömrü boyu sızlayır ürək...

21.11.2018

Saxlama ovcunda cahan mülkünü,
Saçma ətrafına qorxu-hürkünü.
Sənin də hamıtək bir ömür payın,
Ruhun alıb qaçar o can kürkünü...

***

Özün qurmalısan öz həyatını,
Az çap ora-bura xəyal atını.
Kimsəyə əyilmə, ağlına güvən,
Çalışan tapacaq səadətini...

28.11.2018

Heç kəs görə bilmir ürək içini,
Artırır suallar niyə, neçini?...
Ömür pıçıldayır qəlbə dünəni,
Dünən də bü günə sızlar suçunu...

30.11.2018

Sayı artmadadı ev yıxanların,
İblisi könlünə buraxanların.
Etdiyi özünə qayıdar gec-tez,
Əzrayıl donunda can yaxanların...

***

Sözü min yol ölç-biç dildən çıxmamış,
Böhtansa, ud onu, evlər yıxmamış.
Dişinin altında cilala min yol,
Hələ ki, ağzından söz buraxmamış.

08.12.2018

Özünə inamı köklə içində,
Şeytan baş qaldırsa, təklə içində.
Heç kəs asan keçmir həyat yolunu,
Batırma özünü niyə - neçində?!

10.12.2018

Boşuna yanmasın könül işığın,
Gedəri qonaqdır bil yaraşığın!
Düşərsən ayağa, sayan tapılmaz,
Qapın bağlı qalar, sönər işığın...

21.12.2018

Dərinə enməyən dayazı bilməz,
Ağıldan zəiflər düz yola gəlməz...
Ömrə hesablanan günlər çox qısa,
Pisliyə yol açan zənn edir ölməz...

28.12.2018

İynə ucu boyda ümid bəs edir,
İnsan arzusunun dalınca gedir...
Ümid qırıqlığı gücü tükədir,
İstəyi zirvədən yerə endirir...

29.12.2018

Ürək gedən yerə ağıl getməyir.
Özünü ürəyə təslim etməyir.
Daim çarpışmada bir-biri ilə,
Bir ömür davadı, savaş bitməyir...

30.12.2018

Ayıq olub niyə dərdə bataq biz?!
Röyaları ön planda tutaq biz.
Ən yaxşısı reallıqdan qurtulub,
Başın atıb xorhaxorla yataq biz....

02.01.2019

Fəsillər çəkdikcə dünya yükünü,
Soyunub geyinir yer öz kürkünü.
İnsan təbiətə etməsə sevgi,
Heç sığmaz dünyaya qəzəbi, kini...

02.01.2019

Yaxşılığı bacarmırsan, pisliyi də eləmə,
Bədənini hiylə dolu çirkablara bələmə.
Nə qədər ki, günahları yığacaqsan üst-üstə,
Çevriləcək xəstəliyə, kimsədən dad diləmə.

04.01.2019

Bəxtin yatmağından şikayət etmə,
Onu qəlbə yazıb hekayət etmə.
Ağlını işə sal, tapsın sənə yol,
Kədəri qəlbinə nəhayət etmə!...

07.01.2019

Bilirəm yatırsan, yuxun xoş olsun,
Xəyal uçub getsin, can sirdaş olsun.
Dolaşaq gecəni eşqinlə birgə,
Bizi üzən həsrət dönüb daş olsun!

***

Xalq olmasa yurd olmaz, yurd olmasa xalq olmaz
Görən gözü tərəzi, hər kəsi qəlbə salmaz.
Onun məhəbbətini qazanmaq asan deyil,
Xalqa arxa çevirən, xalqın qəlbində qalmaz!!!

***

Heç kəs boğa bilməz xalqın səsini,
Xalq kəsər boğanın öz nəfəsini.
O durub hayqırsa yerindən əgər,
Dağıdar zülümün dar qəfəsini!

***

Sən də ömrüm kimi gəldi-gedərsən,
Mənim taleyimə, sanki, qədərsən.
Keçirsən önümdən səhər yelitək,
Bu gedişlə məni candan edərsən...

***

Ürəyim, sənինlə söhbətim tutur,
Döyüntün dərd qovur, əlimdən tutur.
Həyat dəryasında çalxanan ömrü
Zamanın tufanı çox atıb tutur...

08.01.2019

Tökmə, çox dərdləri sinəm üstünə,
Dərdin deməsinlər sinəm üstünə.
Ağrı vurğun olur gözün yaşına,
Axır gecə-gündüz su nəm üstünə.

09.01.2019

Haqqa girən haqq qanmayır əzəldən,
Düzəlmirsə, kimdi onu düzəldən?!
Hər bir kəsin günü yaxşı keçərdi,
Keçsə idi işi daim düz əldən...

11.01.2019

Min bir xəyalların əsiri olmaq,
Demək ki, hamıdan geridə qalmaq...
Göstər yaxın-yada pərvərişini,
Heç də asan deyil, qalxıb ucalmaq...

12.01.2019

Həyatın ağrısın çəkmək olmayır,
Yükü çox ağırdı çəkmək olmayır.
Yüklənir illərlə ürək içinə,
İçindən çıxarıb tökmək olmayır.

14.01.2019

Ömrü dərya bilib üzən adamlar,
Bir-birin ağrıyla üzən adamlar.
Hər zaman önündə haqqı qul bilib
Haqqın boğazını üzən adamlar...

15.01.2019

Coşmaq istəyirsən, deyirlər, Xəzər,
Sənin coşğunluğun canımda gəzər.
Tufanın, sükutun tanışdır mənə,
Ümidsiz canlardan eyləmə həzər!...

16.01.2019

Ürəyə düşəni çıxartmaq olmur,
Çıxarıb könüldən heç atmaq olmur...
Ürək dediyimiz canın özüdür,
Onu tən üzvünə heç qatmaq olmur...

19.01.2019

İşləməyən ağıl ürəyə yağı,
Əlində pozular həyat növrağı.
Yox fərəh gətirən ağıldan qeyri,
Ağılla bərq vurar ömrün çırağı!!!...

21.01.2019

Hamı qəhrəmandır, hamı üsyankar,
Hamının gözündə, hamı davakar.
Hamı kimliyini yaxşı bilirkən
Özü olmağını eyləyir inkar...

22.01.2019

Hərdən sən özünə kənardan da bax,
Göylərdə gəzməyi bir yolluq burax.
Bil ki, qismətində bir ömür zaman,
Şərə aşiq olub az yandırıb yax....

26.01.2019

Naləsi göy tutmur qan udanların,
Dərdin hər üzünü tanıdanların.
Yox imiş cəzası bu yer üzündə
İnsanlıq adını unudanların...

03.02.2019

Ümidlər qırılanda Tanrı soraqlayırıq,
İşimiz düz olanda haqqı ayaqlayırıq.
Ayağımız altına kimi gəldi salırıq,
Özümüz yıxılanda uşaqtək ağlayırıq...

03.02.2019

Yaxşılığı yaxşı-yaxşı satdılar,
Şələləyib belinə ah çatdılar.
Ocaq çatıb qov vurdular ocağa,
Sonra onu od içinə atdılar...

04.02.2019

Ağrı dolu ürəyimi qopara bilmədim ahdan,
Bir ömür ümid dilədim hər açılan al sabahdan.
Ümidlərim boşa çıxdı, tutdum göyün ətəyindən,
Ətəyimi burax dedi, qoru özünü günahdan...

04.02.2019

Əzabdan, fərəhdən dadıb yaşarıq,
Könlümüz bulaqtək qaynar daşarıq.
Ömür dərslərindən yaxşı-pis alıb
Gah taleylə küsüb, gah barışarıq...

15.02.2019

Həyat bizi yırğalayır gəmitək,
Vaxt çatanda biçilirik zəmitək.
Xoşbəxtliyin anlarını tutanlar,
Qəmi silir gözlərinin nəmitək..

18.02.2019

İdrak güzgüsündən baxsan özünə,
Səhvlərin ləkətək çökər üzünə.
Ağıldan qaçanlar hislərin qulu,
Hislər aldatdıqca vurar dizinə..

21.02.2019

Şöhrətçin tarixə ləkə atanlar,
Yalan kölgəsində rahat yatanlar.
Zaman ələdikcə haqq üzə çıxır,
Gec-tez qalib olur haqqı tutanlar...

23.02.2019

İnləmək, sızlamaq yaraşmır bizə,
Daha da qəm tökür ürəyimizə.
Ömür çəkə bilmir həyat şələsin,
Yükləyir yükünü kürəyimizə...

***

Həyatın acısın çəkmək olmayır,
İçdən ağrıları tökmək olmayır,
Əlimizdə deyil ömür bağçası,
Bir ömür fərəhi əkmək olmayır...

28.02.2019

Özlərinə xoş güni, xalqına zülüm,
Əllərində əsir tarixi-elm,
Yaltaqlıq donunu geyinsələr də
Adları üstündən xətt çəkdi ölüm.

01.03.2019

Xəyal yorğunluğu üzür adamı,
Gözlərə leysanı axıdır damı.
Hissi, həyəcanı filimlər kimi
Ağlın fırtınası, ürək edamı...

***

Güneyin harayı bağrımdan keçir,
Acısı hönkürən ağımdan keçir.
Uduza-uduza kiçilən Vətən,
Azadlıq istəyin ağrımdan keçir...

02.03.2019

Dərdini içindən hayqıran Güney,
Fəryadın oxlayıb hay qıran Güney.
Dilinin həbsini içdə közlədin,
Yetmədi dadına din, Quran, Güney...

***

Milçəktək gün-gündən artır yaltaqlar,
Çoxun bataqlığa dartır yaltaqlar.
Hamın özləritək görmək istərlər,
Ürəyi zalımlar, ağlı bataqlar...

***

Günlər ömrümüzün yarpaq tökümü,
Yazdan müjdə veirir qışın çökümü.
Hər kəs özü bilir nə etdiyini,
Amma vaxt əlində yaşam hökümü...

03.03.2019

Bir gözüm ağlardı, bir gözüm gülür,
Sinəmdə ürəyim min kərə ölür.
Mən belə ömürü necə yaşayım?
Ətrafım könlümü min yerə bölür.

24.03.2019

Sözlər axın-axın gəlir üstümə,
Yanıram, bir kimsə gəlmir tüstümə.

Göylər rəhm eləyir dolu yağdırır,
Yerdəki zalımlar durub qəsdimə!...

26.03.2019

Sən ki, ruhumuza bağlısan, Vətən,
Dolaşıq kəndirlə bağlısan, Vətən.
Susub dinməyirsən işğal halına,
Bəlkə eşidərlər ağlasan, Vətən...

***

Gecə ayı görüb küncə çəkilir,
Sübhün gəlməsiylə bağrı sökülür.
Hamı yuxusuna şəkər qatsa da,
Zülmətin gözündən yuxu tökülür.

***

Nə etdin çıxacaq bir gün qarşına,
Asılır sırğatək günlər yaşına.
Düzlükdən yapışıb düzə səcdə et,
Bulama ömrünü öz göz yaşına...

***

Adam bir ömürü yaşayıb gedir,
Adamlıq adını daşıyıb gedir.
Vay o gündən ki, insanlığını
Haqqın lövhəsindən qaşıyıb gedir...

***

Gəlib gedənlərin qəsiri dünya,
İnsan əməlinin əsiri dünya.
Adam sirlər ilə dolu qəfəsin,
Açıb ağartmırsan çox sirri, dünya...

29.03.2019

Ruha doğma olan yaşam əsası,
Cana ögey olan ruhun qisası.
Çox fiziki doğmalar mənfi enerji,
Doldurur içinə sözün qısası...

30.03.2019

Nankora nə qədər yaxşılıq elə,
Çəkdiyin zəhməti verəcək yelə.
Sanki doğulandan həyat amalı –
İşi düşən kəsə min qat əyilə.

01.04.2019

Dünya acizləri sevməz heç zaman,
Dolaşar içini daim ah, aman.
Təbiət acizi süpürür atır,
Belədir göylərdən yerlərə fərman!..

07.04.2019

Vətən, sənin bu halına dözməyə səbrim qalmayıb,
Sağ ikən ölmüş kimiyəm bulud da məntək dolmayıb.
Dirikən şəhidəm, Vətən, torpağına gömült məni,
Biz hamımız işğaldayıq, haqqın qələbə çalmayıb....

18.04.2019

Nağıllar nağılı əvəz eyləyir,
Artır gündən-günə həvəs eyləyir.
Yapışır ürəkdən ümidlərimiz,
Həyata həvəsçün nəfəs eyləyir...

27.04.2019

Həyat necə gözəldi, bunu duyanlar bilir,
Diləklərin uğruna imza qoyanlar bilir.
Ömür cana əmanət, sona qədər anlayıb
Onun dəqiqəsini barat sayanlar bilir...

04.05.2019

Ölümdən betərdi inamı qırmaq,
Ağrılar içində könlü qovurmaq.
Heç kəsin iç üzü bəlli deyildir,
Nə lazım yetənə ömrü sovurmaq?!...

04.05.2019

Çəkin əməlindən, şərə qol qoyan,
Tutduğu mənsəbə dəlitək uyan.
Zamanın təkəri əzəndə səni,
Vaxtın olmayacaq tapasan həyan!

05.05.2019

Dövran zalımların əlində sükan,
Harda göz yaşı var, yox haqqa təkan.
Zülmü dəstəkləyən, nahaq qan tökən,
Ayağın altından qaçacaq məkan!

08.05.2019

Dünya şər əlində hönkürür hər gün,
Açılmır bəxtlərə vurulan düyün...
Bir çarə arayır haqqa yol açsın,
Onunçün vurnuxur, yorulur beyin!

16.05.2019

Öz içində məni qışqıran kəsin,
Heç kəs boğa bilməz həyat həvəsin.

Taleylə oynadır ömür insanı...
Duyanlar az olur xoş təranəsin...
17.05.2019

Doğulanla doğulur əzablar da dünyada,
Əzabların fonunda yazıq olur dünya da.
Kimə az, kimə çoxdu yazılan ömür yaşı,
Yaşanan günlərimiz qəh-qəh çəkir röyda...
17.05.2019

Hər anın çətinliyi ürəkdə yuva qurur,
Ürək də pərvanətək özünü oda vurur.
Həyatın acıları günümüzdən boylanır,
Ümid qəlbi dikəldir, çökməyə qoymur qürur...
23.05.2019

Ümid sınanda insan gözdə yaşını udur,
Özünü hislərinin təmasıyla aldadır.
Tapınır röyaların verdiyi ip ucuna,
Zənn edir xəyalları zəhər deyil, bal dadır...
30.05.2019

Ağılda iti ol, sözündə qəti,
Ömrə pərçimlənmiş zaman sürəti.
Yoxuşu-enişi çıxıb düşdükcə,
Uğur unutdurur hər bir zilləti...
05.06.2019

Gözlədiyim yolların dəyəri sən özünsən,
Ruhumun məhək daşı, duyarı sən özünsən.
Əylədib zamanını gecikmə, vaxt gözləmir,
Ömrə həyat zinəti, meyarı sən özünsən...
06.06.2019

Hərə öz dininə bürünür qalır,
İnsan hər sifətdə görünür qalır.
Hər başdan boylanmır zəka işığı,
Vicdan ayaqlarda sürünür qalır...
08.06.2019

Ümidlər sınanda həyat sozalır,
İnsanda yaşama inam azalır.
Doğulan bir ömür yolun yolçusu,
Bəs niyə ayaqlar altı qazılır...?!
29.06.2019

Sözü eşləsən sözdən söz doğur.
Hislərə qul olub hönkürür bağır.
Çiyinə yüklənmiş bir ömrün yükü,
Adamın özündən min dəfə ağır...

30.06.2019

Xərcləmə hər kəsə ürək odunu,
Bir ömür bəs edən gərək odunu.
Tanrı bəxş eləyən günlərçün qoru,
Gərəkli işlərə yazdır adını...

02.07.2019

Hər kəsə ürəyin qapsı açılmaz,
Bağlı qapısının sehri qaçılmaz.
Həyata eşq ilə sal bünövrəsin,
Nə qədər zəlzələ olsa uçulmaz!

09.07.2019

İçmə qəm qədəhin şərab yerinə,
Tutub ürəyini çəkmə dərinə.
Bədənin varlğın can tarazlayar,
Onu saya tutma hesab yerinə.

06.08.2019

Bəzən oxuyursan paylaşmaları,
Özünə, sözünə dırmaşmaları.
Deyirsən, İlahi, səbir ver mənə,
Həzm edim bu cürə yanaşmaları...

21.08.2019

Ürəyi yaşadan xoş duyğulardı,
Onu dərdə çəkən çox qayğılardı.
Qəlbi qorumağın yolu fərəhdi,
Bir də sahibinə pak sayğılardı...

23.08.2019

Ey sabah, bilmirsən nə çəkdiyimi,
Gözümdən ağrıtək yaş tökdüyümü.
Hünərin var, tez gəl, gözlərinlə gör,
Şeir tarlasına söz əkdiyimi.

***

Ürəkdən ürəyə yol var deyirlər,
Ruhun düşəcəyi hal var deyirlər.
Eşqimi yolladım sevdiyim üçün,
O eşqin içində bal var deyirlər.

25.08.2019

Mən səni dərk etdim elə ilk gündən,
Çıxartdım kədəri o gün əyindən.
Bəzədim sevgiylə ürək odumu,
Səndən qeyrisini sildim beyindən.

***

Səbirin həddi var, səbir basılmaz,
Salıb boğazına kəndir, asılmaz.
Yurdları işğalda qalan bir millət,
Səsini batırıb küncə qısılmaz.

28.08.2019

Uzaqdan gəlişin duyulur, payız,
İstinin nəfəsi oyulur, payız.
Bilirsən, canımdan əzizsən mənə,
Havamdan boylanan, ey büllur payız!

31.08.2019

Ömür qapıların açıb üzünə,
Dəyər ver, qiymət ver özü-özünə.
Boşuna ötüşən günlər qayıtmır,
Sonra gec olanda vurma dizinə!..

05.09.2019

Ruhun sakitliyi ömrə qidadır,
Qəlbi dilləndirən ən xoş sədadır.
Hər bir xəstəliyin kökü əsəbdə,
Ətrafdan gələn dərd cana qadadır!

09.09.2019

Eyləmə taledən şikayət heç vaxt,
Ağlımız əlində qismət, tale, baxt.
Harda doğulmağdan aslı olmadan,
Çətinlik adlamaq mümkündür hər vaxt!

12.09.2019

Salam verdim almadılar salamı,
Deyirlər ki, salam Allah kəlamı.
İnildədi ürəyimin telləri,
Uçurtdular nədən könül qalamı?!

13.09.2019

Payız yarpaqlarına bürünür ümidlərim,
Taleyimin dalınca sürünür ümidlərim.
Bir ömürlük həyatı daşımaq ağır yükmüş...
Könlə təsəlli üçün ərinir ümidlərim.

13.09.2019

An saman çöpünə yapışan kimi,
Zaman adamlarla qapışan kimi.
Saat para təki xərclər hər ömrü,
Vaxt öldürən kimi, çarpışan kimi?!

18.09.2019

Zaman sükunətdə dilə gəlməyir,
Əqrəblər fırlanır dayan bilməyir.
Vaxtın dəyirmanı günü üyüdür,
Ötən gün bir daha ələ gəlməyir...

20.09.2019

Yalanlar içində əriyir dünya,
İnsanın üstünə yeriyir dünya.
Hələ səbir edir hər cəfamıza,
Bizi öz dalınca sürüyür dünya...

20.09.2019

Payız, boğazıma qüssə təpirsən,
Kirpiyim üstündə yaşı öpürsən.
Saralmış yarpaqlar ömrümə bənzər,
Ayağım altına niyə səpirsən?!

21.09.2019

Payız yarpağıtək saralıb ürək,
İçimdə hönkürür illərdi dilək.
Batırdın həsrətə ömür-günümü,
Hansı adı verim mən sənə fələk?!

26.09.2019

Ümidlər tükənəndə əllər dikilir göyə,
Dil-boğaza qoymuruq Allahı öyə-öyə.
Düşünmürük, canlılar arasında fərqliyik,
Yaradan idrak verib yaşamaqçın bəs niyə?!

03.10.2019

Düşüb söz dəyərindən, şəkillər alır qiymət,
Dünyanın axırına şahiddi bu əlamət.
Nəfsimizi ağıla qurban verməsək əgər,
Qopacaq bu cahanda, vallah, gec-tez qiyamət!

03.10.2019

Gecələr könlümü ovlayan xəyal,
Yoluna qoymayıb heç nəyi bu hal.
Durna qatarıtək uçur günlərim,
Tutub ətəyimi nədən qeylü-qal?!

07.10.2019

Enişdən yoxuşa gedən yol qısa,
Söz daim can atır dillə təmasa.
İdrakdan aslıdır həyat yaşamı,
Sağ ikən ömrünü batırma yasa...

25.10.2019

Unutma, ötəcək hər dəqiqəni,
Tənbəllik yuxuya verməsin səni.
Yerində saymayır heç kimin ömrü,
Əl atıb qaldırmır həyat yenəni....

28.10.2019

Həyat imtahanı çətindən çətin,
Fələyə bağlama can səadətin.
Addımı elə at yıxılmayasan,
Yıxılmaq olmasın heç vaxt adətin!

29.10.2019

Qəhər boğazımda ilişib qalıb,
Diləklər ürəyə tərs düşüb qalıb.
Gecənin bağrından keçən zamanım,
Cana qonaq olub, görüşüb qalıb...

09.11.2019

Sabahın xeyiri üzlərə gülsün,
Kainat nurunu dünyaya töksün.
İnsan itirməsin insanlığını,
Qəlbdən kin qəfəsin dağıdıb söksün!

19.11.2019

İnsan olmalıdır mərhəmət əhli,
Duayla açırsa Tanrıya əli.
Bəs nədən içinə doldurub kini?
Uçurur Yaradan tikən təməli !

20.11.2019

Ümid sınıqlığı heç nə vəd etmir,
İnsanın heç yerə əlləri yetmir.
Ürəyin fərəhi diləkdən keçir,
Əfsus boş diləklər adam böyütmür.

21.11.2019

Yaman bozarıbdı payızın üzü,
Soyuğa baxmaqdan doymayır gözü.
Xəzriyə gəl deyir, buludlara can,
Yağışın altında üşüyür özü...

22.11.2019

Həyatın bəzəyi insandır, insan,
Geri zehinliyə olmayaq ehsan.
Boğmasın heç kimi dünyada heç vaxt,
Buludtək gözlərdən tökülən leysan!....

27.11.2019

Gündüzün yükündən yorulan ürək,
İlantək sinədə qıvrılan ürək.
Çəkdikcə çoxalır başın ağrısı,
Ağrının sacında qovrulan ürək...

28.11.2019

İnsana Allahtək eyləyən səcdə,
Gələr etdiyindən günbəgün vəcdə.
Etdiyi səcdəyə alüdə olar,
Zənn edər bu ona İlahi müjdə!

29.11.2019

Gecənin sükutu gündüzə təşnə,
Çəkir aləmlərin sirrin dişinə.
Zaman ötüb keçir nəfəs dərmədən,
Sanki heyran olub öz yerişinə...

04.12.2019

İnsanın içini bilmək olmayır,
Çox vaxt bir məxrəcə gəlmək olmayır.
Dünyaya nə gəlir insandan gəlir,
Etdiyin ürəkdən silmək olmayır...

06.12.2019

Sən ey səhərimə yol gedən gecə,
Canım sükutuna səcdədə necə?
Muncuqtək boynuna dolanıb ulduz,
Ay səni işığa tutub indicə!

07.12.2019

Günün sehrinə düşsən qəlbi alıb aparar,
Gün qəlb sehrinə düşsə içdə tufan qoparar.
Süküt burulğanında qapandıqca özünə,
Dəli-dolu hisləri oda salıb aparar.

07.12.2019

Günün çırağını söndürən gecə,
Zülmətin pərdəsin endirən gecə.
Örtüb gizlədirsən çox mətləbləri,
Günahdan, səvabdan gen duran gecə!...

08.12.2019

İnsan oxunmayan kitab kimidir,
Məxrəcə gəlməyən hesab kimidir.
Ucaldır, endirir öz dəyərini,
Çoxu səs çıxardan boş qab kimidir...

15.12.2019

Fikirlər ələnir xəzəltək başdan,
Ağrı-acıları keçir göz yaşdan.
Zaman ömürləri dartır dalınca,
Saatın əqrəbi asılır yaşdan!...

19.12.2019

Elə yat ruhundan boylanım baxım,
Səni oda salım, yandırım yaxım.
Gözünü açanda qarşında durum,
Bəbəyin içində şimşəktək çaxım.

19.12.2019

Görüşlər tükəndi, salamlar qaçdı,
Ümidim Allaha hər gün əl açdı.
Demə yanılmışam getdiyim yolda,
Zənn etdiyim sevgi ən böyük suçdu!...

25.12.2019

Ürəyə qucaq aç, ağıldan yapış,
Onun istəyinə qaynayıb qarış.
Başa döyəcləyir zaman çələyi,
Uçruma atmasın səni aldanış!

27.12.2019

Göstərmə kimsəyə kədər yerini,
Kədərə batanlar görür dərini.
Bədənin hər yeri isti xoşlayır,
Bədən gəzdirən qəlb sevir sərini...

15.02.2020

Xəyalın gözümün nəzər nöqtəsi,
Canımın dolanan dörd bir qitəsi.
Nə gedən deyilsən könlüm evindən,
Nə də ömür boyu əlim yetəsi!..

16.02.2020

Mənəvi darlıqdan doğur yaltaqlıq,
Hər kəsin nəsibi olmaz kübarlıq...
Çəkir zəifləri öz ağuşuna,
Xilası mümkünsüz olan bataqlıq...

20.02.2020

Nəfsinə uyanı durdurmaq olmur,
Ayağın düz yola qoydurmaq olmur.
Tökülsə başına dünyanın varı,
Gözünü heç cürə doydurmaq olmur.

20.02.2020

Ürəyə yüklənir deyilməyən söz,
Çatır ocağını, köz bağlayır köz!
Bəzən pıçıltıyla qulağa deyir:-
Sığın səbirinə azacıq da döz...

22.02.2020

Dünya varidatı gedir silaha,
Hamı səcdədədi qadir Allaha.
Əzrayıl işini görən adamlar,
Bir-birin qırmaqla batır günaha...

24.02.2020

Mənlik – ləyaqətin ölçü vahidi,
Həyatda yaşamaq deyildir adi.
Uçurum öldürən, bataqlıq udan,
Zirvədən baxanda qorxuncdu vadi...

02.03.2020

Cana sevgisiylə çırpınan ürək,
Ağlın tənəsindən qırpınan ürək.
Hardansa sızılar ümid işığı,
Onunla sabaha tapınan ürək...

12.03.2020

Ala ruhumuzu könül xoşluğu,
Götürə dünyadan Rəbb naxoşluğu.
Gülə insanların üzü fərəhdən,
Adlayıb keçəydi bu yoxuşluğu!

30.03.2020

İKILİKLƏR

Zalımın üzündən görünür içi,
Nə qədər gizlətsə aşikar suçu...

***

Hamı saf sevginin əsiri olur,
Sevgisə dünyanın kəsiri olur...

12.05.2016

Mən səni sevməyə can atdım Vətən,
Sən mənim eşqimə heç olmadın tən.

21.12.2016

Dünya düşünənin əzab, dərd yeri,
Namərdlər əlinə keçib mərd yeri.

***

Vaxt əlin uzadıb ömürə doğru,
Günümüzü udan saniyə oğru.

28.12. 2016

Heç nə xilas etməz ağıldan zayı,
Getdikcə çoxalır dünyada sayı.

29.12.2016

Hamı arzulayır millətə birlik,
Birlik olmayanda olarmı dirlik?

30.12.2016

Hamı bəhs eləyir birliyimizdən,
Bir xəbər verən yox dirliyimizdən.

30.12.2016

Mərifət sahibi dünyaya nemət,
Mərifətsiz adam hər kəsə zillət...

***

Nadanın özü də sözü kimidir,
Dünyaya baxışı özü kimidir.

02.01.2017

Adam itirdikcə insanlığını,
Soyunur bədəndən haqq canlığını...

***

Dərə dərinliyi dağdan görünər,
Duman zirvələrin üstə sürünər...

09.01.2017

Ağılsız başların cəzası böyük,
Onlar həm özünə, həm dünyaya yük.

***

Əllərdə axtarma səadətini,
Bir gün puç edərlər xoş niyyətini...

11.01.2017

Ağıllı başların əzabı böyük,
Bu dünya onların çiyininə yük...

30.01.2017

Yaltaqlıq – rəzalətdi,
Ona əyilən – alətdi...

03.02.2017

Hamıya bəs edər fələyin damı,
Odur ki, ürəkdə qoymayın kamı...

***

Gözlər yaranmayıb ağlamaq üçün,
Odur ki, ürəyin yandırmın için...

***

Heç nə ovundurmur pula hərisi,
Çün günaha dartır onu nəfsi...

***

Hamı haqlı sayır özünü içdə,
Dünya oda düşüb bu seçə-seçdə...

Bütün yaşantılar gözdə görünür,
Zamanın ardınca ömür sürünür...

04.03.2017

Vicdan güzgüsündən boylan özünə,
Sənin kimliyini deyər üzünə...

12.03. 2017

Aldanan, aldadan əlində şikar,
Gözlər gördüyünü edərmi inkar?!

***

Fələkdən ümidin kəsməyən insan,
Ömrün zalımların kefinə ehsan...

***

Səni düşünəndə könlə od düşür,
Ümidim içində eşqin yerləşir...

***

Zalım ümidimi kəsib doğrayır,
Beyin düşündükcə ürək ağrıyır.

13.03.2017

Ən gözəl nemətdir dilin xoşluğu,
Yox edir adamdan hər naxoşluğu...

15.03.2017

Biz bir-birimizə verdikcə qəmi,
Xoşbəxt eləyirik hər gün ələmi...

***

Harama dadanan halaldan qaçar,
Onu düşündürməz nə haqq, nə naçar.

***

Hər kəsin bəxtinə ömür biçimi,
Vaxtın yetişməsi bir su içimi.

***

Heç də asan deyil insan həyatı,
Yorğundu yollarda hər ömrün atı…

***

İntihar doğmaya edilən sitəm,
Dağlayır qəlblərin ölüncə matəm…

16.03.2017

Şərin hər diləyi hiyləylə olmaq,
Əyrinin-üyrünün yanında qalmaq.

***

İradə çökdürür qorxu-hürkünü,
Doğulan çəkməli ömür yükünü.

***

Ümidi özündə axtarmalısan,
Yaşamaq heç kimə olmayır asan.

Vicdan ağıl ilə qursa ittifaq,
İnsanı uçruma aparmaz nifaq.

17.03.2017

Ürək qəbul etmir ağıl deyəni,
Odur ki, özündə saxlar yüyəni...

20.03.2017

Canın içindədir ruhun çırağı,
Onu dərk etmədən aslı sorağı...

27.03.2017

Vətəni adına qoyulan millət...
Adı yaddaşlardan oyulan millət...

31.03.2017

Ruhun qidasıdı insana dəyər,
Onu dadmayanın qəm könlün əyər.

01.04.2017

Hər insanı insan edən ağılıdı,
Bəxtə düşən həyat ömür nağılıdı...

15.04.2017

Edilən yaxşılıq itməyir heç vaxt,
Ürəkdə iz salır, getməyir heç vaxt.

16.04.2017

Ağıllı başlara qapılar bağlı,
Çox zaman zindanda əzirlər ağlı...

20.04.2017

Həyat saf sudu, lal axıb gedir,
Ömrümüz bizi buraxıb gedir...

25.04.2017

Uzaq tut özünü dəyərsizlərdən,
Onlardan ömrünə qalar izlərdən...

***

Zaman şaqqa-şaqla axan gur sudu,
Kimi sevinclidi, kimi asıdı.

26.04.2017

Ömür axar bir sudu,
Bizi udan da odu...

10.05.2017

Özündən varlıya baxıb alışma,
Harama baş vurub, şərə qarışma...

***

Hər ana dünyanın nazü-neməti,
Gəzdirir çiynində övlad zilləti.

***

Heç kəsin ümidi qırılmaya kaş?
Gözlərdə sevincdən rəqs eləyə yaş....

14.05.2017

Ağıl tərəzidir, ürək çəkəndir,
Ömürdən boylanan zaman imkandır...

22.05.2017

Zülmətin içindən doğsa da işıq,
O, ancaq zülmətin edəcək aşiq...

24.05.2017

Əzablar içində qalan dünyanın,
İnsan öz əliylə kəsdi həyanın.

***

Hər insan ağılı ümidə bağlı,
Çox zaman ümid də şad etmir ağlı...

***

İnsan yaranandan əzab elçisi,
Çarpışır, döyüşür ağılla hissi...

25.05.2017

Ağıl insana dirəkdi,
Hər yükü çəkən ürəkdi...

09.06.2017

Külək təki əsib keçən diləklər,
Diləklərə möhtac olan ürəklər...

09.10.2017

Ağılı qoymurlar haqqa gəlməyə,
O da vərdiş edir yalan sevməyə...

***

Ağıllı başlarda olarsa hünər,
Bütün yamanlıqlar ayağa enər...

10.06.2017

Maddah məddahı öyər,
Sonda başına döyər.

29.08.2017

Başıpozuqlara qul olub dünya,
Haqqı dananlara yol olub dünya...

19.10.2017

İnsanın daxili özünə bəlli,
Özü bir sualdır, tapılmır həlli...

24.10.2017

Zəhmət güzgüsündən baxsan özünə,
Düz deyər hardadı yerin, üzünə!...

24.10.2017

Gec-tez məzarlara döşənir bədən,
Bəs insan insana yağıdır nədən?

25.10.2017

Allahın adıyla qana susanlar,
Allahın özünə bəla insanlar...

25.10.2017

Əzabı özüylə tən olan dünya,
Hamın yola salıb “Mən” olan dünya...

27.10.2017

Ağılın gözü ilə baxsan özünə,
Sənin kimliyini deyər üzünə...

30.11.2017

Ürəyə yüklənən hər ağrı şahdır,
Verdiyi hökümlər bədənə ahdır...
01.12.2017

Gününü boşuna keçirən kəsin,
Boşuna işlər də kəsər nəfəsin...
07.12.2017

İnsan həbs etdikcə içdə doğrunu,
Artırır dünyada acı-ağrını...
11.06.2017

Həyat ağrısına əymə özünü,
Udar ocaq təki içdən közünü...
10.01.2018

İnsan doğulandan kimdirsə odur,
Ağıl da, hislər də genlərə quldur...
28.03.2018

Zərbə zərbəyə bənddi,
Dünya feildi, fənddi...
01.04.2018

Həyat hər bir kəsə yaşam kitabı,
Ömür bitənədək bol iztirabı...
26.04.2018

Sabahin ağrısı bugündən keçir,
Ömür şərbətini çox vaxt qəm içir...
03.05.2018

İnamsız yaşamaq ölümə bənzər,
İnamla yaşamaq həyatı bəzər...
07.05.2018

Həyat özü bir imtahan,
Qiymətini verir zaman...
29.07.2018

Ömür güzgüsünə bax gör üzünü,
Gizlədə bilməzsən heç vaxt özünü...
11.08.2018

Gah acı, gah şirin anların hökmü,
Yenə də ümiddi ömrün həkimi...
20.06.2018

Bu ömür ruhumdan qopan bir nida,
Qapısı ağzında durub əlvida...
22.06.2018

Bir ömürdü çarpışıram,
Yenə haqdan yapışıram...
04.09.2018

Daxildə nə varsa üzdə görünür,
Əmələin dalınca ömür sürünür...
05.09.2018

Hər kəs öz vicdanın çəksə sorğuya,
Dünya da yer qalmaz heç vaxt oğruya...
11.10.2018

Yaxşılıq, ya pislik et, qayıdacaq özünə,
Yaradan vuracaqdır etdiyini üzünə...
26.10.2018

Həyatın ağrıları başdan ürəyə keçir,
Buludtək dolur könül, gurşadın gözlər içir...

***

Ömrü boyu çırpınır insan dərdlər içində,
Özünü qərib sayır bəzən fərdlər içində.
28.10.2018

Ömür keçdiyi yerdən ruhumuz addımlayır,
Yaşanan hər bir anı həyat bizi sınayır.
13.11.2018

Heç kəs mərd saymayır əyilən başı,
Əyilən hər zaman tökür göz yaşı...
26.11.2018

Vaxt bir qızıla bənzər,
Ağıl sahibin bəzər...
27.11.2018

Qul ağanın kölgəsində sürünər,
Öz gözünə aslan kimi görünər...

15.12.2018

Dil bəyan eləyir için kirini,
Faş edir aləmə kimlik sirrini...

17.12.2018

Nə etsən çıxacaq bir gün qarşına,
Sən bu həqiqəti həkk et başına...

20.12.2018

Hər kəsin önündə əyilən başı,
Vaxt gələr batırar gözünün yaşı...

22.12.2018

Çox vaxt dil deyəni ürək söyləməz,
Ürəyi yandıran söz dilə gəlməz...

26.12.2018

Yaltaqlar artdıqca vicdan sozalır,
Düşünən başların sayı azalır...

12.01.2019

Məzlumun harayı zalıma çatmaz,
Yatmış vicdanını fəryad oyatmaz.

13.01.2019

Həyat şirin nemətdir,
Onu xoş edən zəhmətdir...

***

Ürək cana bağlıdır,
Can həyatın nağlıdır...

***

Həyatı sevmək lazım,
Çəkdikcə çəkmək nazın...

***

Dərdini cana sıxma,
Canın evini yıxma...

***

Zalıma olma vurğun,
Artacaq hər gün ağrın...

***

Novruz yığışıb getdi,
Özün bir yaş böyütdü...

***

Göylər gözündən ağlar,
Adam sözündən ağlar...

26.03.2019

Hər kəsin vicdanı Tanrı içində,
Hönkürür daima niyə, neçində...

***

Hər insan taleyi bir ömür yolu,
Ağılı şah edir, hisləri qulu...

29.03.2019

Ürək qaçır biz qovuruq
Canı umactək ovuruq...

30.03.2019

Ümid həyat açarı,
İsidir qəlb naçarı...

01.04.2019

Beyini zəhərlənmiş insanlar,
Axıdır gözlərdən leysanlar...

05.04.2019

Həyat imtahanı çox ağır sınaq,
Hər addım gözləyir bizləri qınaq...

14.05.2019

Insanın üzü mindi,
Onu gizləyən dindi...

08.06.2019

Sözüm, səni özümə çəkdim,
Sənsə məni dözümə çəkdin...

15.06.2019

Dostum ürəyimdi, bir də özümdü,
İnsanın kimliyin görən gözümdü...

16.06.2019

Ömür insan sınağı,
Qazanmayaq qınağı...

19.06.2019

Gün gündən hökmlüdür,
Hər ömrü çəkimlidir...

30.06.2019

Ağıla gəlməyən dildən keçməyir,
Ağıl işləməsə dil söz seçməyir...

08.07.2019

Ağıla gəlməyən dildən keçməyir,
Ağıl işləməsə dil söz seçməyir...

08.07.2019

Yalan ayaq tutub rəqs edir burda,
Bizimtək yalana eşq edən harda?...

14.07.2019

Sabahın gəlişin oxşayır gecə,
Sübhün gəlişiylə girəcək küncə...

24.07.2019

Ürək canı daşıyandı,
Canı içdə yaşıyandı...

10.08.2019

Cəhd etmə yüklənsin ürəyə kədər,
Eyləyər ömrünü ağrıyla hədər...

21.11.2019

Mən ağac budağında xəzan almış yarpağam,
Bugün canım bədəndə, sabah isə torpağam.

22.11.2019

Zəhmətsiz yeyilən çörəyin kamı,
Adamın başına çökdürər damı...

23.11.2019

Özünə bəllidir adamın üzü,
Kimliyin aşikar eyləyir sözü...

05.12.2019

Düşünən başlara xəta böyükdür,
Dünya bu başların üstündə yükdür.

11.12.2019

Vicdan güzgüsündən baxsan özünə...
Kimliyin görünər o dəm gözünə!...

12.12.2019

Zaman an ölçüsü, çəkisi ağır,
Ömrün gurşadları üstünə yağır.

***

Kibrit özü bilir şamın dilini,
Odur ki, üstündən çəkmir əlini.

27.08.2020

NƏZM HEKAYƏLƏR

SAHİBSİZ EV

BAŞLANQIC

Sən ey ömürlərlə baş-başa durub,
Tikəndə, sökəndə yollaşan tale.
Hər insan qəlbində bardaşın qurub,
Həyatla, zamanla hallaşan tale.

Kimini qaldırıb zirvə başına,
Kimini zirvədən aşırıb yıxdın.
Baxmadın heç zaman gözün yaşına,
Çoxunun ətəyin əldən buraxdın.

Sənin nübarını dadanlar xoşbəxt,
Dilindən tamını silə bilməyir.
Hamına qoyulan bir ömürlük bəxt,
Çox zaman məxrəcə gələ bilməyir.

Silib süpürürsən harınları sən,
Getdiyi yollarda gedir güdaza.
Doydura bilmirsən qarınları sən,
Nəğmən uyuşmayır bəzən avaza.

Hamıya bir cürə yazılmayırsan,
Fəqət gündüzün də, gecəntək qara.
Hansı ömrə düşdün pozulmayırsan,
Haqqını bağladın əhdə, ilqara.

Tale, ömürlərdən boylanıb baxdın,
Baxışın tərəzi sorağındadır.
Çəkidə azanı yandırıb-yaxdın,
Hər kəs ölçü-çəki marağındadır.

Çoxunun damını uçurtdun başa,
Ağlının ucuna salmadı səni.
Bəzən qapı açıb qaçırtdın başa,
Amma heç vecinə almadı səni.

Tamah azarına tutulanları,
Sən yıxıb-sökməklə çarə eylədin.
Haram qucağına atılanları,
Varın çölə tökdün, yarə eylədin.

Nəfsinə qul olan doymadı vardan,
Eşqi, məhəbbəti pulda aradı.
Qurtara bilmədi canını dardan,
İndi haramla bir çəkilir adı.

Göylərdən yerlərə yazılan tale,
Sənin eşqinə cur yerin adamı.
Tanrı dərgahında nazilən tale,
Tərpətsən uçacaq bu yerin damı.

Bax necə adamlar əsirdi sənə,
Sənin ovsununa düşüb diləklər.
Çox vaxt insan ağlı kəsirdi sənə,
Qorxunu-hürkünü aşır ürəklər.

Doğulan gündən biz sənə bağlıyıq,
Sənin yazdığınla çalıb oynarıq.
Ağlımız çönəndə sinə dağlarıq,
Odunla qarışıb dərdə qaynarıq.

Tale, çox ocağın külün sovurdun,
Sənin yazdığına havalı olduq.
Çoxun dərdə basıb dərdlə qovurdun,
Gəlib hüzuruna dualı olduq.

Mənəm deyənlərə dərsin ibrətli,
Verdiyin qiymətlər hamıya bəlli.
Səndən sillə yeyir min bir sifətli,
Yapışıb qalsa da vardan ikəlli.

Bugünün xoşuna havalananlar,
Sabahın havasın uda bilməyir.
Nəfsə yalvarışla dualananlar,
Sonra bir tikəsin dada bilməyir.

Sən ey ömürlərlə qapışan tale,
Çoxunu təpəndən yerə çaxmısan.
Hər günün dərdiylə çarpışan tale,
Göydən ulduz təki necə axmısan?!

Gah gözdə göründün, gah da ürəkdə,
Hələ mələk donda gəzdin ömürdə.
Ağrının sancısı doğur kürəkdə,
Min bir dilək̀ləri üzdün ömürdə.

Çoxu varlığına lənət oxuyur,
Səndən gileylilər günbəgün artır.
Bəzən xoş gəlişin ətir qoxuyur,
Bəzən də vurduğun sərt düyün artır.

Nədir bu gedişlər anlamaq çətin,
Vurduğun yaranı sağaltmaq olmur.
Necə qorxuludur sənin xislətin,
İçdəki harayı ucaltmaq olmur.

Səsini batırıb boğdun insanı,
Dəryalar içində damlası batdı.
Tökdün bəbəklərdən acı leysanı,
Yatıb qalmışları fəryad oyatdı.

Bütün ömürlərdən boylanan tale,
Hamıya bir gözlə baxmayırsan sən.
Ürəyin başına haylanan tale,
Günəştək hər qəlbdə çıxmayırsan sən.

SÜKUTA AĞI

Qonaq oldum Gün kəndinə,
Nağılına can uyurdum.
Yollaşaraq eşq dərdinə,
Harayımla söz doyurdum.

Yolum düşdü bir küçəyə,
Küçə bərkdən ağı dedi.
Bəbək döndü gölməçəyə,
Ürək mənə yağı dedi.

Ürəyimdə qəm qovurdum,
Harayıma göz bulaşdı.
Ömür qovdum, gün sovurdum,
Can hayladım, dərd ulaşdı.

Göz yaşıyla yudu məni,
Batıb qaldım dəryasında.
Göyərtdikcə qəlb səməni,
Hicran varmış mayasında.

Axıb gəldi misralarım,
Oynadı söz havasına.
Uçdu sükut hasarlarım,
Qondum təbin yuvasına.

Çıxıb düşdüm təb sarayın,
Pilləkəni yordu məni.
Faş eylədim iç harayın,
Gəlib gedən sordu məni.

Işığına göz qamaşdı,
Ürəyimdə söz ovutdum.
Misralarım coşub daşdı,
Dərdi canda atıb tutdum.

Qələm mənə yaz söylədi,
Bu sahibsiz evin dərdin.
Söz kağıza naz eylədi,
Dedi: Sözü sevin dərdin.

Bu hekayə ağı deyir,
Deyir götür yaz qələmi.
Təb gələndə olmur seyir,
Söz ovudur bu aləmi.

TƏNHALIQDA BOĞULAN EV

Hansı arzu ilə tikilmisən sən?
Diləklər bəs niyə hasil olmayıb?!
Kimsəsiz, baxımsız tökülmüsən sən,
Sahibsiz olmaqdan halın qalmayıb.

Ağrısı ətrafa açıq olan ev,
Hansı diləklərin peşində idin?
Çarəsiz ciblərə qıcıq olan ev,
Hansı sahibkarın dişində idin?!

Sənin en-uzunun öyüldü bir vaxt,
Boy-boy arzulara ürcah olmuşdun.
Şəninə təriflər deyildi bir vaxt,
Yiyənin könlünə eşqlə dolmuşdun.

Pulları tökdülər cah-cəlalına,
Cah-cəlal əbədi olmur dünyada.
Quşlar ağı deyir dərd-məlalına,
İndi yiyələrin gəlmir fəryada.

Tənhalıq içində boğulur günün,
Harayın göylərə dikəlib gedir.
Sükutun içində doğulur günün,
Gün-gündən dərd yükün yekəlib gedir.

Hörümçək asılıb tavanlarından,
Sənə sahibliyi onlar eyləyir.
Dərdin sutək axır dabanlarından,
Sükuta ismarlı anlar neyləsin?

Yiyəsiz bağ-bağça hüzün içində,
İnsan hənirtisin əl-əl axtarır.
Zamana havalı, günlər köçündə,
Ona layla deyən xoş dil axtarır.

Fələk tələsinə düşüb inləyir,
Qadına, uşağa tamarzıdı ev.

Onun naləsini göylər dinləyir,
Ocağı sovrulan bir arzudu ev.

Tikilib qoyulub oğul-uşaqçın,
Oğula, uşağa həsrəti bitmir.
Arzular, diləklər doğulur sağçın,
Bəzən yiyəsinin istəyi yetmir.

Küləklər gəzişir evin içində,
Sınmış pəncərələr nəfəs verməyir.
İnsanın alışır heyrət içində,
Yaşamaq eşqinə həvəs verməyir.

Bu sahibsiz evdən bir az kənarda,
Həyat gurha-gurla qaynayıb daşır.
Çox təhlükə varmış yığılan varda,
Tərəzi əyənlə haqq vidalaşır.

Oğulu-uşağı bol olanlara,
Balaca daxma da tapılmır bə`zən.
Haqqın dərgahına yol olanlara,
Allahı hökmüylə qurulur düzən.

O varlı kişinin pulu bir zaman,
Dolu ciblərindən daşıb töküldü.
Fələyin verdiyi qəfilcə fərman,
Göydəki ulduztək göydən töküldü...

Necə dəbdəbəli daş-divarların?
Sənin varlığına pullar tökülüb.
Ağrıya, acıya baş divarların,
Yanından keçənin bağrı sökülüb.

Yəqin sahibinin goru çatlayır,
Sınmış şüşələrdən ruhu boylanır.
Rəngsiz pəncərələr dərddən partlayır,
Evin yiyəsinin ahı boylanır.

Bağın sakitliyi qulağı dəlir,
Ağaclar sakitcə pıçıldaşırlar.
Divarlar adamın üstünə gəlir,
Kədərlə hönkürüb dolub daşırlar.

Evini tikdirən məzarda yatır,
Tikdiyi dünyanın özünə qalıb.
Soyuq divarlarda fəryadı batır,
Sahibsiz evini tənhalıq alıb.

Bəlkə haram pullar gəlmədi kara,
Ev öz yiyəsinə qucaq açmadı.
Vurdu ürəyinə sağalmaz yara,
Ölümə yol açdı, ondan qaçmadı.

Dünya özü alim, dərsi mükəmməl,
Haqqı qanmayana qiymət yazmayır.
İnsanın çiyninə yüklənir əməl,
Dürüst olan kəslər yoldan azmayır.

Sahibsiz evin də yiyəsi bir vaxt,
Hamıya qapısın açıq saxladı...
Amma ki, səhvindən olmadı sərvaxt,
Bir əlil insana qıcıq saxladı.

Cibləri dolduqca tüğyan eylədi,
Bilmədi pul gəlir hardan, haradan?!
Köməksiz adamı büryan eylədi,
Qıymadı cibinə dolan paradan.

Uçuq pilləkanlar, köhnə dam-daşı,
Xəstənin könlündə ağıya döndü,
Böğdu həyatını daim göz yaşı,
Sınıq həyatında yağıya döndü.

Sahibi yox, evin kişisi bir vaxt,
Əlil doğmasına əl yetirmədi.
Yanlış əməlindən üz döndərdi baxt,
Ölüm ayağında dil yetirmədi.

Əlil də dünyasın dəyişib getdi,
Ağrıdan, acıdan canın qurtardı.
Ömürlə çarpışıb, əlləşib getdi,
Hər can yiyəsinə ölüm yatardı...

Bu sahibsiz evə yiyə imkanlı,
İmkanın boşuna sovurub getdi.
Çoxu zənn elədi ədəb-ərkanlı,
Vicdanın günahda qovurub getdi.

Adı Ədalətə sahib çıxmadı,
Ədalət içində bağırdı, getdi.
Haramı cibindən heç buraxmadı,
İçində haramı doğurdu, getdi.

Halalla, haramla qapışan kişi,
Evində binəni sala bilmədi.
Qanmadı fələyin yaman gərdişi,
Doyunca kamını ala bilmədi.

O, öldü, evinə sahib oğullar,
Yaman fərsiz çıxdı ata malına.
Bitdi sərvətindən daşan nağıllar,
Kimsə acımadı onun halına.

Satışa çıxartdı ata mülkünü,
Alan da o evdən xeyir görmədi.
Rəbb əzrayıl etdi qorxu-hürkünü,
Evə təzə sahib ömür sürmədi.

Döydü qapısını vaxtsız əcəli,
Evin daş-divarı üstünə gəldi.
Gəzdi sinəsində günahın əli,
Əzrayıl bu evin qəsdinə gəldi.

Bəlkə o tikdiyi mülkün yerini,
Hallallıq almayıb, mənimsəmişdi.
Tamaha hərislər qanmaz dərini,
Yəqin yer sahibi haqq istəmişdi...

Haqqı tapdalayan haqqından olar,
Bunu dərk eləyən yanılmaz heç vaxt.
Yuvası dağılar, evi boş qalar,
Niyə gələn bəla anılmaz heç vaxt?!

Əlil də, pullu da dünyadan köçüb,
Heç kəs diri olub cahanda qalmır.
Doğulan məzarı tənə ev seçib,
Cahanın mülkünü can satın almır.

Eh...sahibsiz evdə dirək titrəyir,
Sütunlar içində haray ağlayır.
Kənardan baxanda ürək titrəyir,
Haram pullar uçur, saray ağlayır.

Quşların cəh-cəhi bürüyür evi,
İnsan hənirtisi bu evə yaddı.
Gün aha bürüyüb sürüyür evi,
Diləklər sovrulub, ocaq bərbaddı.

Sən də dur ey yolçu, bir ayaq saxla,
Sovrulan külünə bax bu sarayın.
Gündə min bir dəfə vicdanı yoxla,
İçində batırma haqqın harayın.

Götür öyüdünü sahibsiz evdən,
Cibindən uzaq tut haram pulları.
Kədərə baş əyən bu dibsiz evdən,
Niyə bağlı qalıb haqqın yolları...?!

Gəlimli-gedimli dünya imtahan,
Kəsiri olana imdad etməyir.
Hamına qucağın xoş açan cahan,
Hamıyla eyni cür yola getməyir.

Yox, sahibsiz evə yiyə tapılmır,
Üzünü tutubdu göylərə sarı.
Yoluna tikilən səddi çapılmır,
Kədərə sarılıb əhdi, ilqarı.

Hamıya qapısın açan kişinin,
Bir səhv əməlindən qapısı bağlı!
Haqqın dərgahına uçan kişinin,
Niyə sığışmadı səvaba ağlı?!

Dünya yaranışdan öyüd verəndi,
Saya salmayanı süpürüb atır,
Əlində milyonlar pərən-pərəndi,
Sabun köpüyütək üfürüb atır...

Eh, sahibsiz evin ocağı sönüb,
Bəxtinə vurulub açılmaz düyün.
Ölən yiyələri kabusa dönüb,
Qapı-pəncərədən boylanır hər gün.

Sınmış şüşələrdən otağa dolur,
Evi yuva seçən bəzəkli quşlar.
Bəzən boş saraylar dərdə yem olur,
Orda məskən salır gecəquşular...

Ah, sahibsiz evin qadını Gülçin,
Kənardan boylanır adamsız evə.
Qocalıq yatırır adını, Gülçin,
Göz yaşı axıtdın bu kamsız evə.

Şəhərdən hər zaman kəndə gələndə,
Qohum-əqrabada günün keçirir.
Ötən xatirəyə üzü güləndə,
Xöşbəxt günlərinə kədər içirir.

Hərdən xatırlayır o cah-cəlalı,
Keçirdiyi günlər yadına düşür.
Artır, azalmır ki, ürək məlalı,
O xoşbəxt günlərin oduna düşür.

***

Deyir: “Yuxulara gələndə ərim,
Boynu bükük olur, heç sevinməyir.
Mənim varlığımı biləndə ərim,
Susur baxır mənə, yazıq dinməyir.

Toqquşur kədərlə baxışlarımız,
Göz yaşı gillənir bəbəklərində.
Dönməyir geriyə sərt qışlarımız,
Həyat donub qalıb diləklərində.

Şəhərdə evim yox, dolub daşmayır,
Gələn qonaqların sayı azalıb.
Əllərim bəzəklə cilalaşmayır,
Gözlərim tor görür, nuru azalıb.

İndi ötənlərə boylanıram mən,
Yuxuda araram yar-yoldaşımı.
Məzarı üstündə oylanıram mən,
Oxşayıb ağlaram can sirdaşımı.

Hamıya yaxşılıq eyləyibdi o,
Bəs niyə tikdiyi ev viran oldu?!
"İlahi, nə edib, neyləyibdi o?
Bəlkə də nə vaxtsa qəlb qıran oldu!..."

***

Qarının titrəyən səsi ürəkdə,
Həyəcan doğurur, könüldə əsir.
Hönkürür ötənlər donan diləkdə,
Onun da qocalıq nəfəsin kəsir.

Əri yardımını əsirgədiyi
o evə sığınır gələndə kəndə.
Qayalar titrədir bəzən gədiyi,
Salır zirvələri bərəyə, bəndə.

Əlil dünyasını dəyişib gedib,
Qəzalı ev-eşik hələ yerində.
Hiskilli qəlbinə qəm düşüb gedib,
Dərdini bəsləyir evi dərində.

Qarı çox əyilmiş sərt piləkanla,
Ikinci qatına qalxır gələndə.
Onu qonaq edən ədəb-ərkanla,
Öz doğması kimi baxır gələndə.

Çox qonaqpərvər evin xanımı,
Tez-tez yad eyləyir əlil qaynını.
Ötən günlərinin acı anımı,
Göz önünə qoyur fələk oynunu.

Əri qıymadığı varidatından,
Sınıq-sökük evə üz tutur qadın.
Tale salıb onu zaman atından,
Könlə dadızdırır səhvinin dadın.

Bütün nəyi varsa əlindən çıxıb,
Kirayədə qalır biçarə Gülçin.
Fələk onun evin beləcə yıxıb,
Axtarır dərdinə bir çarə Gülçin.

Ərinin pulları indi röyada
Gecələr gözünə görünür hərdən.
Cənnət-cəhənnəm də, eh, bu dünyada,
Heç nə qalmayıbdı yazığa ərdən.

Günü qapılarda keçən qadının
Ötən günlərinin işığı gözdə.
Dərdin zəhərini içən qadının,
Əzabı hayqırır qəlb qıran sözdə.

Fərsiz övladlardan çəkdiklərinin,
Indi ürəyində dağ boyda şişi.
Xəyal bağçasına əkdiklərini,
Heç-puça döndərib taleyin işi.

Bir vaxt kənd-kəsəyə ərlə gələndə,
Maşınlar görüşçün yarışardılar.
Taleyin onlara üzü güləndə,
Göydə ulduzları barışardılar.

Onlar gələn evə qonaqlar dolar,
Qurban kəsilərdi ayaqlarında.
İndi bağlanıbdı ruzili yollar,
Qalıbdı baxışlar soraqlarında.

Zinətli qadının ruzisi bitib,
Cibləri parasız boş qalır indi.
Düşüb ürəyindən arzusu, itib,
Gözdə gölməçəli yaş qalır indi.

İndi kasıb evə yolun salanda,
Dolu imarəti yadına düşür.
Tutulub boğazı qəhər alanda,
Eşqili illərin oduna düşür.

Qarının ağlına gəlmir heç zaman,
Ərinin günahı boynuna düşüb.
Haqqın dərgahından zühurdu fərman,
Fələyin ibrətli oynuna düşüb.

Bağrını parçalar tale acısı,
Çəkdiyi əzablar dağ olub ona.
İçini doğrayır illət sancısı,
Sonu dərdə ocaq, imkansız ana!

Uçuq-sökük evin sahibəsinin,
Ala gözlərindən nurlar tökülür.
Könlünə saldığı haqqın səsinin,
Üzündə sevdalı baharı gülür.

Hər gələndə qarı, ona can deyir,
Öpüb qucaqlayır bağrına basır.
Ürəyin fəryadın həyəcan deyir,
Yara öz közünü ağrına basır.

İnsanın içində işıq yanırsa,
Bir ömür bəs edir onun ziyası.
Hər gedən gedişdə haqq dayanırsa,
Soydan, kökdən gəlir onun mayası.

Evin sahibəsi vəfalı Gülər,
Qonaqlı-qaralı evi qoruyur.
Etdiyi əməli yəqin haqq bilər,
Nə zamandı əri məzarda uyur...

Heç kəsə kinini püskürməyir o,
İzzəti, hörməti əvvəlki kimi.
Adamın haqqına heç girməyir o,
Kimsənin haqqının olmur hakimi.

Hər yay qarını da evdə qarşılar,
Bu şəraitsiz evin qonaqları çox.
Hər kəsə insanlıq dərsi aşılar,
Ürəyi genişdir, tamah isə yox.

Qaynana, qaynata qonaqlarını,
Özü qarşılayar vəfalı gəlin.
Həsrəti isladar yanaqlarını,
Xeyirxah işlərdən heç çəkməz əlin.

Onlar qovuşubdu haqq dünyasına,
Bu evin qonağı əskilmir heç vaxt.
Pislik girə bilməz can xülyasına,
Onunçın haqq işə köklənibdi baxt.

Uçuq-sökük evin qonaqları bol,
Hay-küyü ətrafa yayılıb gedər.
İnsanın içindən keçir haqqa yol,
Hamının ömrünə qoyulub qədər...

Üç bala böyüdür vəfalı Gülər,
Qızları köç edib başqa evlərə.
Yeganə oğlunun bəxti də gülər,
Onun səadəti düşər dillərə.

Bu şəraitsiz evdən qonaq azalmır,
Ürək açıqlığı sərvətdən uca.
Edilən yaxşılıq boş yerdə qalmır,
İnsanlıq layiqdi qiymətli taca!

Bir vaxt köhnə evə qonaq olanlar,
Çoxu haqq dünyaya qovuşub gedib.
Dünyanın evinə sınaq olanlar,
Zaman axarına uyuşub gedib.

Onlardan doğulan oğul-uşaqlar,
Uçuq-sökük evdən kəsmir ülfəti.
Yenə də alışır eşqə ocaqlar,
Əməllər qazanır can səadəti.

***

Yaman çalxalayır dünya nehrəsi,
Yağın üzə çəkir, ayranın dibə.
Əyirir zamanın ömür cəhrəsi,
Ayaqlar altında üzülür gəbə.

İtirmir heç zaman fələk başını,
Hər adama uyğun yazır yazını.
Ələdir yanağa gözün yaşını,
Heç kimin dünyada çəkmir nazını!

Varına, puluna güvənənlərin,
Torpağın altından çıxar yatarı.
Çox cah-calalıyla sevinənlərin,
Etdiyin aparır zaman qatarı.

Kabuslar hönkürür sahibsiz evdə,
Yolçular dinməzcə ötüşüb keçir.
Varıyla öyünən çapalar dibdə,
Kimi zəhər dadır, kimi bal içir...

Quşlar da narazı civildəşirlər,
Sükutdan titrəyir zərif tükləri.
Sanki evdə gəzir lap mürdəşirlər,
Üzdən damcılayır soyuq tərləri.

Kimsəsiz otaqlar adam axtarır,
İnsan hənirtisi bu evə yaddı.
Adamın içini bir kədər sarır,
Burda başdan-başa hər şey bərbaddı.

Əllərin nazına möhtac ev-eşik,
Siçan yuvasına qucaq açıbdı.
Pozur gözəlliyi hər dərmə-düşik,
İnsanın nəfəsi burdan qaçıbdı.

O köhnə ev-eşik qonaq həvəsli,
Gələnlər kəsməyir ayağın ordan.
Etdiyindən bəlli hər kəsin əsli,
Yamanlıq çıxmayır qara-quradan.

Ana necədirsə, balalar elə,
Anadan balaya keçir əməllər.
Fələk ediləni sovurmur yelə,
Hər bir soydan, kökdən keçir təməllər.

Sahibsiz ev isə köhnə dəyirman,
Bütün təmtərağı üyülüb gedir.
İçdən qışqırmırsa hər zaman iman,
Fələyin əliylə döyülüb gedir.

Dünyanın işləri pərən-pərəndi,
Onu heç səhmana salan olmadı.
Zaman özü boyda ərdi, ərəndi,
Vaxtı yetişəndə qalan olmadı.

Hasarın üstündən boylanıb baxan,
Sükutun içində dərd görər hər gün.
Ürəyi sızladıb yandırıb yaxan,
Etdiyi səhvlərli qəm sürər hər gün.

Quşlar civildəşir daş-divarında,
İnsan hənirtisi burdan yan keçir.
Ölümlə qalımın haqq civarında,
Hər ömür son olur, təndən can keçir.

Yaşamaq eşqiylə tikilən bu ev,
Heç öz sahibinə vəfa qılmadı.
Qapı-pəncərəsi tökülən bu ev,
Cəfasın çəkənə sahib olmadı.

Mən sahibsiz evin halına yandım,
Misralar içində hönkürdü qələm.
Haqqımın quluna çevrildi andım,
Sözlərin sehrinə yığışdı naləm.

NƏTİCƏ

Kimsə öyünməsin pulu, varıyla,
O heç də hər şeyi həll eləməyir.
Düşünən, qürurlu dağ vüqarıyla,
Qürur da hər kəsə gəl eləməyir.

Məzlumun ağrısın vecə almayan,
Ağrını canına yönəldər sonda.
Haqqın varlığını heçə almayan,
Görünər hamıya gündə bir donda!

İllərlə açılan xeyir qapısın,
İmkansız əlilə bağlı saxladı.
Günahı edəni haqq necə tapsın?!
İçin mərəz aldı, ürək laxladı.

Bir ömür yarıda qırıldı getdi,
Ədalət həyatın vurmadı başa.
Yığdığı pullarla çoxu kef etdi,
Dəydi taleyinin oxları daşa.

Tikdiyi nə varsa satıldı bir-bir,
Sərvəti az vaxtda göyə sovruldu.
Can bədən içində açılmayan sirr,
Fələyin vurduğu dərdə qovruldu.

Tükəndi pulları oğul-uşağın,
Əvvəlki sərvətdən heçnə qalmadı.
Sabun köpüyütək uçan xoş çağın,
Sorağın bir kimsə daha almadı.

Niskili dillərə bir dastan oldu,
Bu sahibsiz evin qıfılı paslı.
Sökülən məzarlar gülüstan oldu,
Haqqın hökümündən hamımız aslı.

Harınlar gözləmir heç vaxt nəticə,
Zaman külәkləri sovurur bəxti.

Bir sabah doğurur hər zülmət gecə,
Edilən günahlar qovurur bəxti.

Pulunu,malını bayraq edənlər,
Əzrayıl zəhərin içib gedirik.
Bir gün bu dünyadan köçüb gedənlər,
Səvabı, günahı cana edirik!

Fələyin yıxdığın heç kəs qaldırmaz,
Fələyin qəhrinə tuş gəlməyək qoy.
Allah istəməyən ayaqda durmaz,
Günaha bulaşıb pis ölməyək qoy.

Yazdım hekayəni çatdırdım başa,
Nəzmlə suvadım sahibsiz evi.
Saldım ürəyimi min bir təlaşa,
Dərdin sözlə dadım sahibsiz evin.

Əzəldən belədir dünya işləri,
Ağrını-acını canda sürüyür.
Taleyin qanlıdı iti dişləri,
Günaha qaçanı xəta bürüyür.

Oxu, ey oxucum, göz ağrıtmağa,
Yazmadım, sözü var bu dastanımın.
Kaş sənin könlünə bir hikmət yağa,
Açasan qapısın gülüstanımın.

23-26.07.2019

ACI HƏQİQƏT

Müqəddimə

İllər öncə həyatım çiçək təki açırdı,
Gözəlliyim alləmə gur şəfəqlər saçırdı.
Baxmayaraq məktəbdə oxuyurdum hələ mən,
Ömrümdən uzaq idi qəlbə çökən duman, çən.
Dərslərimin yaxşıca öhdəsindən gəlirdim,
Pillə-pillə müəllimlər gözündə yüksəlirdim.
Səkkizinci sinifi başa vururduq artıq,
Özümüzə arzudan həyat qururduq artıq.
Günlərimiz xoş keçir, həyat üzə gülürdü,
Hamımızın gözündən səadət tökülürdü.
Çal-çağırlı günlərin sevinciylə coşurduq,
Ümidləri yel edib zirvələri aşırdıq.
Mən də ata-ananın gözəl-göyçək qızıydım,
Ömrümə çələnk hörən həyatımın yazıydım.
Gələcək taleyimdən xəbərsiz yaşayırdım,
Zamanın çiyinində ömrümü daşıyırdım.
Doğulduğum Gəncənin havasıyla uçurdum,
Güllərin şahı olan qızılgültək açırdım.
Artıq oğlanlar mənə göz yetirib baxırdı,
Min bir bahanələrlə yolum üstə çıxırdı.
Mənimsə ürəyimdə arzular sayrışırdı,
Qoşulub günlərimə qaynayırdı, daşırdı.
Sovetlərin kəsəkəs vaxtı idi o zaman,
Məktəbə gəlməyənə verilmirdi heç aman.
Dərsə gəlməyənlərə, cəzalar kəsilirdi,
Təlim-təhsil üstündə yaxşıca əsilirdi.
Biz səkkizi bitirib adlamışdıq doqquza,
Arzumuz bənzəyirdi sübhdən çıxan ulduza.
Ailədə beş uşaqdıq hamımız oxuyurduq,
Diləkdən özümüzə min çələng toxuyurduq.
Beləcə günlərimiz xoş keçib ötüşürdü.
Kimə bəxtin günəşi, kimə kölgə düşürdü...

I hissə

Min doqquz yüz altımış səkkiz soyuq qış günü,
Yanvarın sərt gəlişinə duyuq qış günü.
Yollar buz bağlamışdı ələnirdi qar,
Qərb küləyi vıyıldayır, tellənirdi qar.

***

Əlimdə dərs çantam evə dönürdüm,
Döngədə qonşunun oğlunu gördüm.
Çantamı götürdü əlimdən tutdu,
Sonra da yapışıb belimdən tutdu,
Dartıb saldı məni volqa maşına,
Dedi: "Çıxmamışam nahaq qarşına.
Bürümə özünü gözün yaşına,
Səni izləyirəm bir ildən çoxdu,
Ayrılıq sinəmə dağıdan oxdu.
Səni qaçırıram səsin çıxmasın,
Yox desən quraram ömrünün yasın.
Qəndabım, ürəyim sənlə döyünür,
Sənin varlığınla günüm öyünür."
Elçin həmin günü qaçırtdı məni,
Atamın evindən uçurtdu məni.
O gündən başladı ömrümdə xəzan,
Qələmin sınaydı ay yazı yazan!...

***

Səhəri gün məktəbə yayıldı xəbər,
Oldu ömür-günüm, bəxtim dərbədər.
Məktəbdən milisə getdi şikayət,
Atam ər eviylə etdi ədavət.
Bir həftə keçməmiş Elçin tutuldu,
Səkkiz il iş iylə həbsə atıldı.
Məni qaytardılar ata evinə,
Taleyim çevrildi kədər divinə.
Qara günlərimə qapı açıldı,
Evim tikilməmiş çöklüb uçuldu!
Qaçırılan günü hamilə qaldım,
Bəxtimdən acımaz bir zərbə aldım.
Hələ on beş yaşım var idi mənim,
Bəxtimə çökmüşdü dumanım, çənim.
Atamın nifrəti aşıb daşırdı,
Cana ağrı-acı, dərd daraşırdı.

Atam düşmən kimi baxırdı mənə,
Aləmi yandırıb yaxırdı mənə.
O evə gələndə gizlənirdim mən,
Içimdən dağılıb yox olmuşdu, mən.
Aylar ötüşdükcə qarnım böyüdü,
Bu da kör fələyin mənə öyüdü.
Artıq oktyabr gəlib yetişdi,
İniltim, harayım aləmə düşdü.
Məni apardılar xəstəxanaya,
Candan qopdu körpəm gəldi dünyaya.
Bir oğlan uşağı doğuldu o gün,
Onun da diləyi boğuldu o gün.
Körpəyə Eldəniz adı qoyuldu,
Onun da, mənim də bəxtim oyuldu.
Atam bu körpəni qəbul etmədi,
O gündən anamla yola getmədi.
Körpəyə südümü verdim gizlicə,
Gözüm qan-yaş tökdü, vallah hər gecə.
Uşaq dörd ayına çatanda atam,
Qəti qərar verdi bir anda atam.
Ver "Körpələr evi" saxlasın onu,
Bu evdə qalmağı yetişib sonu.
Saxlayan deyiləm bu uşağı mən,
Ondan övlad kimi əlini üz sən.
Göz yaşım içimə axdı həmin gün,
Atam ikimizə kəsdi qara gün.
Verildi "Körpələr evinə" körpə,
Dərd verdi başımdan dəniztək ləpə!
Saxladım uşağın yaş kağızını,
Heç çəkə bilmədim onun nazını.
O gündən başladı qara həyatım,
Vurdu ürəyimə yara həyatım....

II hissə

Ey "Körpələr evi" atılmışların,
Dərdi ürəklərə çatılmışların,
Həyatın qoruyan ümid ocağı,
İçində dolaşır qəm dolu ağı.
Atasız, anasız körpə fidanlar,
Dələr daş-divarı dərd dolu anlar.

Körpə qığıltısı, körpə sevinci,
Həyata, insana, dünyaya inci.
Fəqət insanlığı ucuz tutanlar,
“Körpələr evinə” uşaq atanlar,
Bəzən yas tutarlar əməllərinə,
Sızıltı səs salar can tellərinə.
Hərə bir səbəbdən atılar bura,
Xəyanət edilər əhdə, ilqara.
Bəxtləri gətirmir bəzən qızların,
Fələk qara yazır eşq yazıların.
Qəndab da taleysiz qadına döndü,
Atıldı körpəsi həyatı soldu.
Onun da əlindən körpə alındı,
“Körpələr evinə bir gün salındı.
Heçnə dərk etməyən dörd aylıq körpə,
Ömrü yad əllərdə, bəxt qəlpə-qəlpə.
Körpəlik çağını keçirtdi burda,
Sanki Eldəniz heç yoxmuş dünyada.
Onu bu dünyaya gətirən ana,
Ondan uzaq düşdü getdi hayana?!

***

Min doqquz yüz yetmiş ikinci ildə,
Bir körpə acısı ürəkdə, dildə.
Övladı olmayan erməni ailə,
İllərlə içində gəzdirdi nalə.
Var idi imkanı, gen ev-eşiyi,
Evində yox idi körpə beşiyi,
“Körpələr evinə” gəldilər bir gün,
Oldu ailə üçün, sanki toy-düyün.
Onlar Eldənizi alıb apardı,
Hənuz, canlarına salıb apardı.
Uşağın adını Armen qoydular,
Sanki atılmışın soyun oydular.
Öz övladlarıtək sevdilər onu,
Kim bilərdi gələr sovetin sonu!
Qırğınlar başladı, aləm qarışdı,
Hayların hiyləsi həddini aşdı.
Onlar köçüb getdi Azərbaycandan,
Canı qopartdılar həmin gün candan.
Gecə üz tutdular Ermənistana,

Övladın itirdi əbədi ana...
Gün keçdi, il ötdü Armen böyüdü,
Tale sınaqları, həyat öyüdü,
Əsli həqiqəti üzə çıxartdı,
Eldənizin qəlbin kədərə atdı.
Bir gün uşaqlarla oynayarkən o,
Uşaqlıq eşqiylə qaynayarkən o,
Götrülmüş uşaqsan dedilər ona,
İçində hönkürdü o yana-yana.
Azərbaycanlıdır, atan və anan,
Fəqət ermənidir canına yanan.
Armen həqiqəti bilib ağladı,
İçində hönkürdü sinə dağladı.
Torpağı eşirdi dırnaqlarıyla,
İçini yüklədi qəm dağlarıyla.
Suallar köksündən dikəlib qalxdı,
Ağrılar içinə onu buraxdı.
Kim imiş, nəçimiş bəs atam, anam?
Od tutub alışam, sualla yanam.
Bəlkə heç həyatda yoxdular onlar,
İnsan adındanmı çıxdılar onlar?
Mən niyə atıldım yetimxanaya?,
Bu əzab deyilmi doğan anaya?!
Mən düşmən ölkəyə oğulam indi,
İlahi, yazdığın dəhşətli gündü!
Bu dərdi ömrümlə niyə daşıyım?
İndi ermənitək necə yaşayım?!
Vətənin atılmış balasıyam mən,
Düşmənin adıyla qalasıyam mən.
Mənimçün çevrildi zalıma dünya,
Yanmadı bircə an halıma dünya.
Suallar içində batdı Eldəniz,
Bu dərdlə ayılıb yatdı Eldəniz.

***

Amma onu sevən ata-anaya,
Demədi bildiyin salmadı vaya.
Onu körpəlikdən bəsləyib onlar,
Necə unudular axı o anlar?!
Uşaq bu ağrını içdə gəzdirdi,

Dedi: Açılmayan bir gizli sirdi.
Axı onlar ona yaxşı baxırdı,
Anası Alfona ürək yaxırdı.
Hamıdan yaxşıca geyinirdi o,
Uşaqlar içində öyünürdü o.
Hələ kolleci də bitirdi Armen,
Diləklər içində itirdi Armen,
Sonra əskərliyin çəkdi qayıtdı,
İçində istəyi sevgi ayıltdı.
Maşın da almışdı ona atası,
Fəqət çatmayırdı könül butası.
Könlünə buta da tapıldı bir gün,
Həsrətin sinəsi çapıldı bir gün.
Ona toy etdilər evləndi Armen,
Ailəlik çağıyla döyündü Armen.
Uç uşaq atası oldu bu illər,
Ona doğma oldu yad dil, yad ellər.
Ona baxan ana düşdü yatağa,
Çağırdı doğmasın yığdı otağa.
Dedi: Can üstəyəm, mən ölən andan,
Çıxardın Armeni Ermənistandan!
Onun türk olmağın bilsələr əgər,
Aləm bir-birinə toqquşub dəyər.
Köçün Rusiyaya güman oradı,
İndi qorunmağa zaman oradı.
Armen ailəsiylə köçdü Rastova,
Orada özünə qurdu bir yuva.
Tutuldu xərçəngə həyat yoldaşı,
Qurtara bilmədi bu dərddən başı.
Bir qız, iki oğul doğan ananın,
Xəstəlik qoparıb alırdı canın.
Yoldaşı Anjella can üstə idi,
Bilirdi sağalmaz bir xəstə idi.
Anjella götürüb uşaqlarını,
Ağrılar içində qalan canını,
Tələsik apardı Ermənistana,
Bilirdi qurtuluş yox xəstə cana.
O gündən Eldəniz qaldı tək, tənha,
O pənah apardı könlündə aha.

Türklüyün içində anlayırdı o,
Düşmənin ölkəsin yad sayırdı o.
Ona baxan ana öldü orada,
Yetişə bilmədi Armen imdada.
Aldı Anjellanın ölüm xəbərin,
Ömrünün ağrıyan yarası dərin,
O gedə bilmədi Ermənistana,
Bilsələr düşməntək baxarlar ona.
Telefonla dedi başsağlığını,
Ümidə bağladı Armen ağlını.
Uşaqlar toy edib evləndi orda,
Onlar harda qaldı, Eldəniz harda?!
Gəzdirdi içində bu müsibəti,
Həyat cana ağrı, ömür zilləti.
Onu böyüdənlər ölüb getdilər,
Atılmış uşaqdan övlad etdilər.
Üç erməni uşaq bəslədi Armen
İçindən kimliyin həslədi Armen.
Onlar Eldənizi Armen eylədi,
Atılmışın bəxti çox vaxt belədi...
Hansı ələ düşər kimsə bilməyir,
Heç kəsin əməlin fələk silməyir.
Yazdırır beyinə yazılanları,
Güldürür, ağladır tifil canları.
Eldəniz Rastovda tənha yaşayır,
Fəqət bir erməni adın daşıyır.

III hissə

Qəndabın bir dastan oldu həyatı,
Çapdı ötənlərə o xəyal atı.
Nəql etdi başına gələnləri o,
Dünyasın dəyişib ölənləri o.
Dedi: Çəkdiklərim dərd dolu ağı,
Çəkildi sinəmə bir bala dağı.
“Körpələr evinə” atılan gündən,
Bağrıma sitəmlər çatılan gündən,
Harayım içimdə boğuldu mənim,
Artdı həyatımda çiskinim, çənim.

Mən öz öğulumu tapa bilmədim,
Bu dərdi içimdən çapa bilmədim.
Oğlumun atası türmədən çıxdı,
Mənə sevdiyitək o yazıq baxdı.
Səkkiz il yatdığı zindan həyatı,
Ona da gətirdi qara saatı.
Evlilik təklifi eylədi mənə,
Atam onun ilə döndü düşmənə.
Heç razı olmadı birliyimizə,
Qadağan elədi evlənmək bizə.
Həyat yollarımız ayrıldı getdi,
Elçin başqa qızla vüsala yetdi.
“Körpələr evi”ndən uşaq götürdüm,
Zənn etdim ağrını içdə bitirdim.
Böyüdüb ev-eşik sahibi etdim,
Doğmamı itirdim, özgə böyütdüm,
Dərdim çoxaldıqca onu üyütdüm.
Dəyirman daşına döndü ürəyim,
Məndən üz döndərib çöndü ürəyim.
Kamalla ailə həyatı qurdum,
Ölmədi içimdə heç ümid qurdum.
Kamal yalvardı ki, qoy uşaq olsun,
Sənin də könlündə fərəh yurd salsın.
Nə qədər cəhd etdi razı olmadım,
Dedim Eldənizdi mənim övladım.
Ölüdü, diridi bilmirəm amma,
Nə zamansa tapsam, yetərəm kama.
Kamal çox sevirdi məni ürəkdən,
Ümid ölməyirsə, aslı fələkdən.
“Körpələr evi”ndən götürdüyümüz,
Min arzuya, kama yetirdiyimiz,
Övlada bağladıq ümidimizi,
O da, evləndirdik, saymadı bizi.
Bala candan, qandan doğulsun gərək,
Anaya, ataya, o olur dirək.
Atam da, anam da gedib rəhmətə,
Amma, qovuşmadım heç səadətə.
Getdiyim əri də xoşbəxt etmədim,
Yəqin ki, onu da çökdürdü dərdim.

O məni ürəkdən sevdiyi üçün,
Yandırdı əzabla illərlə için.
Bu yaxında o da dünyadan köçdü,
Fələk onu mənə çox gördü, seçdi.
Uf da eləmədən aldı əlimdən,
Ağ cığırlar saldı qara telimdən.
Fəqət Eldənizi unutmadım heç,
Qəlbimin içindən mən atmadım heç.
Tapmaq ümidiylə ömrü yaşadım,
Bu dərdi hər ildən-ilə daşıdım.

***

İllərlə utandım dərdi faş edim,
Bilib-bilməyənə can sirdaş edim.
Artıq əlli bir il keçib o ildən,
Yorulub düşmüşəm mən daha dildən.
Ya dərddən məzara qaçmalıyam mən,
Ya da həqiqəti açmalıyam mən.
Məktub ünvanladım ünlü yerlərə,
Mənə təsəllilər verdilər hərə.
Allah işıq salır hər bir diləyə,
Hənuz, məlhəm olur yanan ürəyə!
Səni axtarıram, dedim, ey oğul,
Ümidli eyləyir adamı ağıl.
Bir çox qəzetləri eylədim hali,
İnsanlar tapıldı vicdanı ali.
Dərdimi məktubla yazdım hər yana,
Yardım etdi mənə bir məsum ana.
Adı mələk idi, özü də mələk,
Yolun açıq etsin daima fələk.
Verdi axtarışa o beş il qabaq,
Gözlədim illərlə oğlumdan soraq.
Eldənizdən xəbər aldım bir sabah,
Dərdimə qələbə çaldım ay Allah.

***

Ey əziz oxucum, çəkməsin heç kəs,
Dünyada heç zaman bala dağını.
Ömür hər adama bir udum nəfəs,
Səhvlər uçurmasın can növrağını.

Erməni ailədə böyüyən oğlu,
Qəndab görmək üçün Rusiya getdi.
Faciyəylə dolu həyatın nağlı,
Acılı-vüsallı sonluqla bitdi.

***

Oğul anasıyla gəldi görüşə,
Onu da çəkmişdi ayrılıq dişə.
Rastovda görüşdü anayla bala,
Hönkürdü bu dərdi bilənlər hala.
Əlli bir il öncə atılan oğul,
Düşmən ailəsinə qatılan oğul,
Sarıldı anaya körpə uşaqtək,
Dolandı boyuna qollar qurşaqtək.
Ana hönkürdükcə aləm titrədi,
İçində kök salan ələm titrədi.
Rəbbim sənə şükür deyib ağladı,
Ətrafdan baxanın könlün dağladı.
Eldəniz axıtdı gözdən yaşını,
Ananın çiyninə qoydu başını.
Sanki körpəliyi ona əl açdı,
Xəyalı körpəlik dövrünə qaçdı.
Anasının əlin üzünə sürtdü,
Analı gününlərlə özün böyütdü.
Öpdü üz-gözündən ananın eşqlə,
Ovutdu analı vicdanın eşqlə.
Sanki həyatına təzə başladı,
Yaşadığı ömrü can qarqışladı.
Ana qucağına sıxdı oğlunu,
Vüsalla bitirdi həsrət nağlını.

***

Bu olmuş əhvalat, ömür acısı,
Yaşanan ürəkdən getməz sancısı.
Onunçın bərk tutun sevdiyinizi,
Məhəbbət yaşadıb yaşadır bizi.
Heç kəs itirməsin vicdan hissini,
Qorusun min cürə şərdən nəfsini.
İşlətsin hər işdə öncə ağılı,
Qoy xeyrə yozulsun həyat nağılı.

23-24.12.2019

QARSIZ GƏLDİN YENİ İL

Bu ildə yeni ili qarsız qarşıladıq biz,
Qar topu əvəzinə bir-birin daşladıq biz.
Kimi qeybət elədi, kimi alqış eylədi,
Kimi də bir-birinə çoxlu qarqış eylədi.
Kiminin süfrəsində nemətlər aşıb daşdı,
Kimi də boş süfrədə Tanrıyla pıçıllaşdı.
Yaradana şükürlə başa vurdu bu günü,
Çıxdı çölə kababın iyi tutdu köksünü.
Ağız-burnun bağlayıb tez tələsdi içəri,
Dedi: Allah yetirər, bu günlər də keçəri.

***

Uşaqlıq xatırələrim göz önündə dolaşdı,
Ürəyim o günlərin həsrətinə bulaşdı,
Yeni ilin gəlişi qar-çovğunla başlardı,
Xəzri qurdtək ulardı, gözümüzü yaşlardı.
Vecimizə almazdıq şaxtanın soyuqluğun,
Nə də ata-ananın axşamdan yorğunluğun...
Qaçışardıq küçəyə, qartopu oynayardıq,
Yeni il gecəsini biz də belə anardıq.
Anam qorğa qovurub tökərdi cibimizə,
Bu yavanlıq dünyada, sanki bal idi bizə.
Qayıdanda içəri gözümüz sulanardı,
Əllərimiz şaxtanın təmasından yanardı.
Novalçadan salnanan buzlar xışıldayardı,
Gecənin ayazına nəğmə pıçıldayardı...

***

Ötüb keçib o illər, nə şaxtalar qalıbdı,
Nə də qar öz yolunu bizə tərəf salıbdı.
Təbiət də dəyişib insanların üzündən,
Şaxta baba deyəsən qaçacaq Yer üzündən!

***

Adamların boz üzü daha da bozlaşıbdı,
Ülfət, sevgi sozalır, hər şey ayazlaşıbdı.
Yeni ilin gecəsi fişənglər atılsa da,
Səs-küyü, alovları göylərə çatılsa da,
Nə qar gəldi, nə külək, nə də göylər tutuldu,
Qış da qaçdı buradan, əlimizdən qurtuldu.

Xəbər çıxdı Qasımı öldürdü amerkanlar,
Bizimkilər o saat tutdu cana divanlar.
Göz yaşını tökdülər bizə yağı olana,
Qasım Süleymanini oturdular yalana.
Şiyə qəhrəmanıtək ona don da biçdilər,
Onu can evlərinə əziz, doğma seçdilər.
O İranlı genralı şəhidtək ağladılar,
Şəhid olmuşlarmızın ruhunu dağladılar.
Çək-çevir etmədilər o millətin yağısı,
Şəhid düşmüşlərmizin tutsun onu ağısı!
Dost-düşməni seçməyən daim qara bəxt olur,
Sığındığı Vətəni dağılır, boş taxt olur.

***

Qarabağ boyda dərdi daşıyan bir millətin,
Düşmən ölkəyə sevgi açdı, tökdü niyyətin.
Qasım cəfakeşləri Qarabağı unutdu,
İşğaldakı yurdu yox, düşmənin dostun tutdu.
Burda Mirzə Cəlilin "Ölüləri" dikəldi,
Qulağıma onların qəhqəhələri gəldi.
İndiki "Ölülərin" qohumu o "Ölülər",
Neyləsin boş başlara bu yazıq Vətən mələr...
Müsəlman olmaq məgər Vətəni unutmaqmı?!
Kor-korənə özünü oda, közə atmaqmı?!
İlahi, qaytar bizi nə olar, gəl düz yola,
Özün də görürsən ki, düşmüşük müşkül hala.

***

Əlqərəz, oxunmuşlar əlin vursun başına,
Nəyi necə edəcək salsın ölçü-arşına.
Milləti cəhalətə sürükləyən cahillər,
Sonra əzab çəkəcək təzə gələn nəsillər.
"Kəmalüddövlə" yazanda Fətəli qan ağladı,
Ümidini qələmə, yazdığına bağladı.
Dedi:"Millət nə vaxtsa ağ günlərə çıxacaq,
Amansız cəhaləti, mövhümatı yıxacaq.
Sabirin fəryadını sözlər misraya düzdü,
Düşdü ciyəri xəstə, bu dünyadan əl üzdü.

***

Yasda şivən qoparan ey çadralı bacılar,
Aşılamın doğulan balalara acılar!

Yolumuz təhsil, məktəb, elm, savaddır ancaq,
Vətənin sabahına elm imdaddır ancaq!
Qızlara təhsil verin, elm əhli çoxalsın,
Məscidin mərhəməti qoyun mollaya qalsın,
Kitablara bağlılıq – Yaradana sevgidir,
Mütaliyə insanı Allah adamı edir.
Müəllimə, məktəbə sevdamız tükənməsin,
Millət cahil olmasın, cəhalətə enməsin!
Bu dünyada özünü korluğa düçar edən,
O dünyanı özünə əbədi açar edən,
O dünyadan əl çəkib bu dünyaya köklənin,
Qurub yaratmaq eşqli sabahlara yüklənin.
Varsa mərhəmətiniz özünüzə işlədin,
Dilinizdən qopacaq sözünüzə işlədin.
Allahın ehtiyacı yoxdur sizin səcdəyə,
Yaradan izn verib həyat adlı müjdəyə.

***

Göydə niyə gəzirsən? İlahi, gəl düş yerə,
Boşluğa düşüb insan, içində uçrum, dərə!
Gəl, səhmana sal bizi, gör nə günə düşmüşük,
Niyə öz-özümüzə çətinik, müşkül işik?!
Hamı sənin səcdənə canını fəda edir,
Gəl gör bəndə əhlinin içində gəzən nədir?!
Soydular Nəsimini," haqq mənəm" dediyçün,
Bu qaraguh düzəlmir, niyə yaratdın, neçin?!
Sənə səcdə edənlər qanlar axıdır yerdə,
Gəl çarə et, İlahi, min bir çarəsiz dərdə!
Allahsız bütpərəstlər bütlərə təzim edir,
Sən qalmısan kənarda bəs bu müsibət nədir?!
Peyğəmbər aşiqləri səni unudub çoxdan,
Gəl çıxart bu dünyanı, Allah, qara-qorxudan!

***

Yeni ilin gəlişi yenə qanla başlayıb,
Yenə kor beyinlərə şeytan fitnə aşlayıb.
Hərə bir dinə bağlı, çoxalıb təriqətlər...
At oynadır dünyada hər gün qara niyyətlər.
İlahi, bilirsən ki, sığındığım tək Sənsən,
Qəlbimə girib çıxan ruhumla birgə Mənsən!
Dağıtdılar bütləri, yeni bütlər yarandı,

Bəndə içində fitnə, bir-birini qırandı.
İlahi bu səcdələr, bu dualar yalandı,
Yer dolubdu silahla, dörd bir tərəf talandı.
Sənə bağlı qəlbimi yerdə tuta bilmirəm,
Niyə gəldim axı mən, bu həyata bilmirəm?!
Apar məni buradan buluduna taxılım.
Gəl başına fırlanım, ayağına yıxılım.
Nəsiminin çəkdiyin sözümə çəkdirirlər,
Görürsən ki, gözümdən qanlı yaş tökdürürlər.
Gəl səhmana sal bizi, kainatlar Yaradan,
Ya pak eylə bizləri, ya da götür aradan!..

***

Qarsız gəldi yeni il, bu ildə qar yağmadı,
Səs-küy salan uşaqlar qar topası yığmadı.
Şaxta baba düzəldib qaş-gözdə qoyulmadı,
Bu ildə qışın üzü qış təki duyulmadı...

11.01.2020

RUHUMA MƏKTUB

Bir namə köklədim, ey ruhum, sənə,
Qınaqla qımışıb eyləmə tə`nə.
Sənin kimliyinə bağlanmışam mən,
Düşüb ocağına çox yanmışam mən.
Sağına-soluna illə dolandım,
Səni öymək oldu ən ulu andım.
Ağrından, acından çıxıb gəlirəm,
Sən olmayan günü mən də ölürəm.
İncidin bədənin əzablarından,
Usandın ömürün hesablarından.
Hər şeyi yüklədin özünə hər gün,
Alışdın Allahın közünə hər gün.
Çalışdım itirmim etibarını,
Tükətdim gücünü, kəsdim tabını.
Sənsə varlığımdan tutub yapışdın,
Həyatım uğrunda hər gün çarpışdın.
Sənin ülviliyin könlümü sardı,
Gözdən axan yaşım səni suvardı.
Çəkdin yorulmadan həyat yükünü,
Uğurumda qovdun qorxu-hürkünü.
Yaşamaq həvəsin yüklədin mənə,
Təbin ucalığın sən dedin mənə.
Hər gün pıçılladın söz-söz misranı,
Gəzdin gecə-gündüz dağı, aranı.
Ağlımı özünlə alıb apardın,
İçimə fırtına salıb apardın.
Deyəsən qazandım etibarını,
O üzdən başıma tökdün barını.
Sənin sayəndəcə şanslıyam, ruhum,
Bitib tükənməyir heç həyəcanım.
Məni misra-misra haqqa yetirdin,
İçimə İlahi sevda ötürdün.
Hiylələr üzümü qarsıyan zaman,
Ömrümə təhlükə yansıyan zaman,
Gah fırtına oldun, gah da ki, tufan,
Səndən gəldi mənə bu ədəb-ürfan.
Səndən qaynaqlanıb aldım öcümü,

Sənin təmizliyin tutdu içimi.
Hansı planetdən çıxıb gəlmisən,
Mənim bədənimi taxıb gəlmisən.
Haqqı, ədaləti etmisən bayraq,
Verirsən ilahi varlıqdan soraq.
Sənin sorağının quludu başım,
Ey bədən ovqatım, ey can sirdaşım!
Axan göz yaşımla yumuşam səni,
Etmişəm ömrümə yanan şam səni.
Alıb aparırsan şəstlə ömrümü,
Yerə salmayırsan heç bir əmrimi.
Hər gün arayıram mən sağ-solumu,
Tək haqqın boynuna saldım qolumu.
Təmizlik Tanrının vergisi sənə,
Bəllidir dünyanın sərgisi sənə.
Bütün əzablara dözüb dursan,
Yorğun ürəyimlə birgə vursan!
Yaşanan ömrümün yükün çəkənim,
Rəbdən zaman qopar, qoyma tükənim.
Hələ görüləcək işlərim çoxdur,
Əgər sən olmasan, bədənim yoxdur.

***

Səni Yaradana qurban olum mən,
Haqq doğan adına qurban olum mən.
Haçansa cismimi tərk edəcəksən,
Nəyim var hamına görk edəcəksən.
Hansısa planet alacaq səni,
Alıb öz qoynuna salacaq səni.
Daşıdığın bədən yerdə qalacaq,
Çürüyüb, qarışıb torpaq olacaq.
Məzar da haçansa uçub gedəcək,
Torpaq bədənimi gübrə edəcək.
Hansısa bağçaya ağac olacaq,
Gübrəsiz bostana əlac olacaq.
Yeyəcək cismimi dəmadəm torpaq,
Açacaq bağçalar yamyaşıl yarpaq.
Sənsə kainatda dolaşacaqsan,
Uzaq ulduzlartək sayrışacaqsan.
Amma, yalvarıram sənə, ey ruhum,

Dünyada sonuncu olsun ünvanım.
Bir də kainatdan qopub gəlmə sən,
Unut bu dünyanı, yerin bilmə sən.
Qal elə İlahi aparan yerdə,
Bir də öz-özünü gəl salma dərdə.
Hansı planetə istəsən uç get,
Uzaq ulduzlara yolları aç get.
Dolaş kainatlar içində ruhum,
Qalım bir də niyə, neçində, ruhum?!
Hiylə yuvasına dönsən birdə sən,
Yenə dözəcəksən min bir dərdə sən.
Dönmə, Rəbb verən pay, qurbanın olum,
Dərdini daşdıran anbarın olum.
Yerdəki yaşamaq yaşamaq deyil,
Haqqın buyurduğun daşımaq deyil.
Həsr et həyatını kainatlara,
Baş vur ən dərindən dərin qatlara.
Unut Yer kürəsin birdə dönmə sən,
Uca kainatdan yerə enmə sən!
Haçansa tərk edib getsən bədəni,
Məzara gözətçi etsən bədəni,
Nə vaxtsa kəsilsə ömrümün tabı,
Açıb oxuyarsan, ruhum, məktubu.
Heç qulaqardına vurma naməni,
Səni sevən kimi yad eylə məni...

***

Kainat içində özünü ovut,
Unut, Yer üzünə gəlməyi, unut!...

24-25.01.2020

ÖMRÜN RƏVAYƏTİ

NAĞIL DİLİ

Deyirlər, bir zaman Böyük Yaradan,
Bütün varlıqlara verdi həyat, can.
Sonra da onları yığıb başına,
Hədd qoydu müdrikcə ömür yaşına.
Insana, eşşəyə, itə meymuna,
Qırx il ömür verdi istəyə yetə.
Canlılar içində ən aqil olan,
İlahi varlıqdan haqqa nur alan,
İnsan Yaradana tutub üzünü,
İçindən kükrətdi həyat közünü.
Rəbdən rica etdi ömrün uzatsın,
Onun ümidinə xoşbəxtlik qatsın.
Diləyin könlünə alıb söylədi.
İçinə haqq nuru salıb söylədi.

***

Allahın verdiyi ömürə insan,
Haqqın göndərdiyi əmirə insan,
Qail olmadığın dilinə çəkdi,
Gözdən qovurğatək yaşını tökdü.
Dedi: Bu ömürlə nə edəcəyəm?
Günə sığal çəkib can güdəcəyəm.
Qısa həyatımla arzular qalar,
Dərdlər ürəyimə yaralar salar.
Çatdıra bilmərəm heç bir işimi,
Vaxtla belə qurma sən gərdişimi.
Ömrümü yüz ilə yetir nə olar,
Mənə də həyatdan bir az kam qalar.
İlahi söylədi, qaç bu fikirdən,
Qurtara bilməzsən sonra məkirdən.
Çəkdiyin əzablar aşıb-daşacaq,
Qəlbin rahatlıqla vidalaşacaq!
Ürəyin dərdlərə yer açacaqdır,
Rahatlıq ömründən tam qaçacaqdır.

Əllərin duayçın göyə qalxanda,
İçdə ağrı dolu şimşək çaxanda,
Könlün əzablara yem olacaqdır,
Gözlərin kədərdən çox dolacaqdır.
Axtarıb gəzəndə ağrına həmdəm,
Gözün yuvasında yer tutacaq nəm.
İnsan yalvarışla hönkürdü həmən,
Dedi: Ey Yaradan, ömrümü uzat,
Doymaram qırx illə, şirindi həyat!..
İlahi söylədi, dinlə, ey bəndə,
Uyma tamahınla sən feil-fəndə.
Daşın fikirindən hələ gec deyil,
Yanlış istəyinə haqdan güc deyil.
Qırx illik ömrünə göstər sevdanı,
Burax ağlındakı çürük ədanı.
Dedi: Yox, İlahi, mənə rəhm elə,
Qaynayan bulağam, ona fəhm elə.
Məni canlılardan sən fərqli etdin,
Başımda ağılı, zehni bitirdin.
Bu qısa ömrümə gəl ömür cala,
Heç dözə bilmərəm mən böylə hala.
Dedi: Yaxşı bəndəm, yaratdığımsan,
Canlılar içində ucaltdığımsan.
Həyatın uzansın yüz ilə çatsın,
Ağıl da qaynasın, sözü ucaltsın.
Yaşa həyatını, qəlbi abad ol,
Gec-tez can evindən var Rəbbinə yol!
Ora gələn günü gözləyəcəm,
Hər bir əməlini izləyəcəyəm.
İlahi insanın yalvarışını,
Qırx ilə qoyduğu ömür yaşını,
Artırıb yüz ilə çatdırdı həmən,
Dedi: Xahişinə əməl etdim mən,
Boğmasın gözünü bulud təki sel,
Qırx ilin üstünə gəl altımış il.
Götürdüm eşşəkdən, itdən, meymundan,
Uzun ömürünlə seçil hamından.

***

Heyvanlar baş əydi Rəbb verən ömrə,
Tezcə qail oldu İlahi əmrə.
Heç bir narazılıq etmədi onlar,
İlahiyə qarşı getmədi onlar.
Allah verən ömrə razı oldular,
Haqdan bəxtlərinə rəvac aldılar.
Vaxta qail olub günə vardılar,
İlləri səbirlə başa vurdular.

İNSAN ÖMRÜ

Adam tez yüz illik ömrü götürdü,
Sevinclə özünü yerə yetirdi.
Əvvəl qırx il insan ömrü başladı,
Cana qida verdi illərin dadı.
Sevinclə ev-yuva qurdu özünə,
İlahi çoxaltdı gücü dizinə.
Enişi-yoxuşu hər gün dəf etdi,
Coşqun arzuların dalınca getdi.
Xöşbəxtliklə keçdi hər günü, vaxtı,
Sanki işıq saçdı dünyaya baxtı.
Bədən sağlam idi, ruhu da yüksək,
Həyat möcüzəydi, cahan sehirtək.
Yeniyetmə çağı ağıl işlətdi,
Çox şey icad etdi, diləyə yetdi.
Öyrənib kamala, biliyə çatdı,
İçində arzudan saray ucaltdı.
Yorulmaq, təntimək bilmədi insan,
Hər iş ona gəldi olduqca asan.
Özünə peşə də qazandı zövqlə,
Keçirtdi zamanın fərəhlə, şövqlə.
On yeddı yaşının sevdasın daddı,
Könlündə duyğular sevgi oyatdı.
Durmadan evlənmək fikrinə düşdü,
Bulub can sirdaşın onla görüşdü.
Sonra tezcə qurdu aylə həyatı,

Yeni həyatından daddı büsatı.
Ailə könlünə şəfəqlər saçdı,
Çətinliyi aşıb bəxtə yol açdı.
Uşaqlar doğuldu, sayı on oldu,
Yeni arzulara tale yön oldu.
Rəbb əsirgəmədi qızı, oğulu,
Hərənin öz yeri, qəlbin noğulu.
Cana qida oldu balanın dadı,
Candan əziz saydı insan övladı.
Hər atılan adddım sıçrayış deyil,
Oğul-qız böyütmək asan iş deyil,
Gün-gündən artırdı onlar zəhməti,
Geyim, yemək-içmək doğdu zilləti.
Verdi övladlara təlim-tərbiyə,
Aşladı onlara elim-tərbiyə.
Evə qida üçün qaçdı paraya,
Qazancçın yolları açdı paraya.
Para qazanmaqla keçdi günləri,
Cavanlıq ömürün toy-düyünləri.
Yorulmaq bilmədi heç zaman işdən,
Çəkməsən zəhməti nə keçər dişdən?!
Böyük arzularla insan çalışdı,
Ağır zəhmətlərlə hər gün yarışdı.
Qovuşdu tarixə haqq verən ömür,
Zaman bağçasından güldərən ömür.
Daim uzaq oldu insan ağrıdan,
Xoş duyğular qopdu candan, bağırdan.
Şahanə günləri tarixə köçdü,
İnsan yavaş-yavaş qəm, kədər içdi.
Qapısın döyürdü, qırxın sədası,
Yer-göyü tutmurdu heç cür ədası.
İnsan asta-asta ağırlaşırdı,
Bədən yükləndikcə fağırlaşırdı.
Qayğılar içində kədər böyütdü,
İnsanın xoşbəxtlik nağılı bitdi.

EŞŞƏK ÖMRÜ

Nağılın dili də yüyürək olur,
Gün boşa verməyən kəs zirək olur.
İnsan çalışdıqca, günlər ötüşdü,
Gecə köç eylədi, gündüz yetişdi.
Zəhməti çoxaldı, iş-gücü artdı,
Bədən yorğunluğu dərdi qabartdı.
Coşqun diləklərdən gücün alırdı,
Hər bir çətinliyə zəfər çalırdı.
Qayğılar içində itib-batırdı,
Hətta yuxuda da aləm qatırdı.
Gündüzün əməyi başdan aşırdı,
Arzular könlündə aşıb-daşırdı.
Günlər qaça-qovda keçib gedirdi,
Vaxtın hər gününü biçib gedirdi.
Ondan gen düşürdü yaz-bahar ömrü,
Sanki, saralırdı gülbahar ömrü.
Artıq qırx yaşına yetişmişdi o,
Ömrə düşən vaxtla ötüşmüşdü o.
Yetkinlik yaşına çatdı uşaqlar,
Onu əzablara atdı uşaqlar,
Narahat olmağa başladı daha,
Ümidin qırmadan yetdi sabaha.
Yaş üstə yaş gəldi, dərdi-sər artdı,
Övladlar belinə qəm yükü çatdı.
Balaca olanda uşaqlar, dərd az,
Böyüdü hərədən gəldi min avaz.
İndi aşmaq lazım çətinlikləri,
Qızları köçürmək, ev dirlikləri.
Oğul evləndirmək, yurd-yuva tikmək,
Bağ-bostan bitirib, tərəvəz əkmək.
Bütün bunlar hamısı arzudur hələ,
Qərq olub fikirə, gətirmir dilə.
Bütün iş-güc düşüb boynuna onun,
Tökülüb qayğılar qoynuna onun.
Qırx ilin qayğısız ömrü ötüşüb,

İnsanın belinə ağır yük düşüb.
Yorğunluq özünü bürüzə verir,
Daxili əsəbi tez üzə verir.
İnsanın gəncliyi köç alıb gedib,
Dərin xəyallara iz salıb gedib.
Öz insan ömrünü çatdırıb başa,
Ağrı qapı açır yaş üstə yaşa!
Gəlib eşşək ömrün iyirmi ili,
İnsanın qayğıdan dincəlmir əli.
Çətin vaxtlar yetib döyür qapını,
Elçilər daş üstə öyür qapını.
Qızlara cer-cehiz hazırlayır o,
Hər işi qayğıyla nizamlayır o.
Qızlar ər evinə köçüb getdilər,
Ata yuvasından uçub getdilər.
Sonra oğlanları ev-eşik etdi,
Onlara ev tikdi, gəlin gətirdi.
Fəqət rahatlığın unutdu insan,
Özün təsəlliylə aldatdı insan.
Eşşəkdən də betər işlədi hər gün,
Dincəlmək bilmədi, yox gecə-gündüz,
Vaxtsız qırışlara qucaq açdı üz.
Sağlam bədənindən bir iz yox artıq,
Ancaq qayğıları həddən çox artıq.
Ürək-dirək verdi özünə insan,
Yandı ürəyini közünə insan.
Düşündü qayğılar arxada qalıb,
Yenə də səadət qəlbdə yurd salıb.
Yerbəyer etmişəm uşaqları mən,
Başımdan ötüşüb gedəcəkdir çən.
Daha bundan sonra heç dərdim qalmaz,
Əməksiz, zəhmətsiz heç kəs ucalmaz.
Bir az da təsəlli verdi özünə,
Xəyallar şirinlik qatdı sözünə.
Artıq iyirmi il ötüşüb getmiş,
Onu təcürbəli bir kişi etmiş,
Qalmadı gənclikdən əsər-əlamət,

Yoruldu bir az da o qəddü-qamət.
Batırdı içində çox səs-səmrini,
İnsan başa vurdu eşşək ömrünü.

İT ÖMRÜ

İnsan eşşək ömrün vurmuşdu başa,
Gəlib yetişmişdi altımış yaşa.
Fəqət adlamışdı itin ömrünə,
Can qail olmuşdi Rəbbin əmrinə.
İt ömrü çox əzab çəkdirdi ona,
Gözündən qanlı yaş tökdürdü ona.
Öncə on uşaqdı, bir ailə yükü,
Yox idi könlündə ah-nalə yükü.
Artıq on uşaqdan on ailə olub,
Dərdi vüsət alıb, can çaş-baş qalıb.
Övladlar evlənib, nəvələr artıb,
İnsanı daha da zəhmətə atıb.
Hər gün çənə vurur oğul-uşaqla,
Çoxalır səs-küylü nağıl uşaqla.
Ağrıyla gətirir gün hekayəti,
Artır günü-gündən ev söz-söhbəti.
Oğula-uşağa acıq eyləyir,
Onların hər sözü qıcıq eyləyir.
Qulaq asmayırlar sözünə onun,
Cavab qaytarırlar üzünə onun.
Hər kəsin öz fikri, öz əməli var,
Sanki hər bir işdə şeytan əli var.
Övladları hərə bir ev sahibi,
Ötənlər xəyaldı, görünmür dibi.
Onlar kişiləşir, o kiçikləşir,
Hər gün söz püskürür, sözlə əlləşir.
İt kimi çımxırır nəvələrinə,
Nəvələr boş baxır bu hünərinə.
Sözünü saya da saymayırlar heç,
Alışır hikkədən, qəzəbindən iç.
Əvvəlki böyüklük keçib övlada.

Kişi günü-gündən çevrilir yada.
Hünər də get-gedə azalır daha,
Əl-ayaq ağrıyır sozalır daha.
Nəvələr qaçışır evin içində,
Getdikcə boğulur qəzəb içində.
Hörmət azaldıqca dili gödəlir,
Bağrını fırtına, qasırğa dəlir.
Kimə qışqırırsa cavab qaytarır,
İçini büsbütün kin, qəzəb sarır.
İnsanın getdikcə hökmü tükənir,
Hər gün yavaş-yavaş zirvədən enir.
Daxili sıxıntı əsəb qaynayır,
Ömür taleyiylə yaman oynayır.
Künclərdə salınır daha yatağı,
Qəm burulğanına dönüb otağı.
Övlada dur deyir, nəvəyə dayan,
Ona heç birindən olmayır həyan.
Nəvələr böyüb nəticə artıb,
Dili söz tutmayır, qulağı batıb.
İndi nəticələr evin dirəyi,
Boş yerə yandırıb sandı ürəyi.
Hənuz söz-sovundan qaçırlar onun,
Başına dərd-bəla açırlar onun.
Hamı işdə-gücdə, o künc-bucaqda,
Çaydan pıqqıldayır yanan ocaqda.
Çay süzür pürrəngi o öz-özünə,
Zaman sillə vurdu hər gün üzünə.
Onun silləsi də necə ağırmış,
Hər sillə içində qəzəb doğurmuş.
Hikkəylə bağırır o sola, sağa,
Qəzəbin püskürür yanan çırağa.
Çəkilir qaranlıq otağına tez,
Hər gecə baş qoyur yatağına tez.
Səs-küydən başını qaçırsın erkən,
Dərdini başından uçursun erkən.
Hər gün çox istəyir gecə gəlişin,
Sevməyir sabahın onla gərdişin.

Hənuz, sabah ona dərd-acı verir,
Gecə yuxulamaq əlacı verir.
O da təsəllimiş yaşlı çağına,
Necə dövlət bağlı öz bayrağına.
Onun da bayrağı gecə sükutu,
İnsan necə saysın heçə sükutu?!
Orda həyatına təhlükə yoxdu,
Ona qaytarılan söz-hikkə yoxdu.
İnsan it illərin tez başa vurdu,
Sanki tale oxun qəm daşa vurdu.
Duydu ömür yükü daşıdığını,
Bu illər it ömrü yaşdığını.

MEYMUN ÖMRÜ

Gəldi çatdı insan səksən yaşına,
Ağ tüklər ələnmiş artıq başına.
Qapqara saçları dümağ, ağappaq,
Heç belə deyildi görkəmi qabaq.
İllər qocaldıbdı onun üz-gözün,
Bəyazlıq bürüyüb saqqalın, üzün.
İnsan qədəm qoyub meymun ömrünə,
Deyildi binəva məmnun ömrünə.
Daha haldan düşüb, gücü tükənib,
Sanki ucalıqdan dərəyə enib.
Bədənin hər yeri ağrı içində,
Dil yorulub daha niyə, neçində?!
Gözünün işığı tamam azalıb,
Ötüb keçənlərdən xatirə qalıb.
Yazıq künc-bucağa qısılır hər gün,
Ümidi qapıdan asılır hər gün.
O olan otağa kim isə varmır,
Oğulu, uşağı halını sormur.
Gecələr ağrılar sarır canını,
Kimsə kəsib durmur heç vaxt yanını.
Gah sağa fırlanır, gah da ki, sola,
Can daha dözməyir düşdüyü hala.

Azüqə daşıyan dünənki ata,
Bu gün gücdən düşür, çökür həyata.
Arvad da sözünə baxmayır daha,
Daha onun işi qalıb Allaha!...
Görür uzun ömrün faniliyini,
Vəfanın, hörmətin aniliyini.
Bükülmüş belini düzəldə bilmir,
Əvvəl etdiklərin heç edə bilmir.
Bükülən belinə əsadır dayaq,
Ağrıdan gecələr o qalır oyaq.
Özünü, sözünü unudur bəzən,
İçində can deyil ağrıdır gəzən.
Get-gedə yaddaşı tamam azalır,
Onun həyat eşqi yaman sozalır.
Hərdən bir deyinir lap öz-özünə,
Gecələr yuxu da gəlmir gözünə.
Şiddətli ağrılar tüğyan eyləyir,
Canını əzaba büryan eyləyir.
Birdən yaddaşından haray yüksəldi,
Rəbbə dedikləri yadına gəldi.
Ümidlə üzünü tutdu Allaha,
Dedi: Yaşayışa dözmürəm daha.
Mənim ümidimi qırma nə olar,
Üzümə qapanıb nə vaxtdı yollar.
Eşit, fəryad dolu yalvarışımı,
Sən insan ömrünə qaytar yaşımı!
Uzalı tutmuşam sənə əlimi,
Götür bu ömürü, göndər ölümü!...
Diz çöküb yalvardı göydə Allaha,
Səmalardan cavab gəlmədi daha.

NƏTİCƏ

Tamama yetirdim rəvayətimi,
İnsanın ömrünə hidayətimi.
Qınaya-qınaya uzun ömürü,
Gözlədik Allahdan gələn əmiri.

***

Mən də sözlər ilə qurdum əhdimi,
Təbin tellərinə vurdum əhdimi.
Tutub misraları bəndlərə saldım,
Duyğulu anlarla baş-başa qaldım.
Allah verən ömrə etdim şükürü,
Olmasın heç kəsin canda məkiri.
Ucalsın könüldən həyata sevda,
Ömür son olanda deyək əlvida...

27.07.2019

DEDİKLƏRİM

Kimi pulun çoxluğundan başını itirib,
kimi yoxluğundan.

22.12.2016

Kiminin özü başına bəladı, kiminin sözü.

27.12. 2016

Zülm insanlara qəddarlıq dərsi keçir...

04.01.2017

Fiziki korluq insanın özünə, mənəvi korluq
ətrafdakılara əzab verir...

***

Bəzi başlar boş qazana bənzəyir, döyəcləsən
səs gələr, amma içində heç nə olmaz...

25.01.2017

Əli əyri olanın qəlbi də əyriliklərlə dolu olur.
Harama qurşamağın kökündə də əliəyrilik durur...

***

Sənə layiq olduğun dəyəri vermirlərsə, o demək deyil ki,
sən dəyərsizsən, sadəcə sənə dəyər verəcək adamlar
sənin səviyyəndə deyillər...

***

Yaltaqlıqla zirvəyə yüksələ bilərsən,
ancaq o zirvə kənardan təpələr kimi görünər...

***

Həddindən artıq yaxşılıq kimlərinsə
sənə borclu olması deməkdir, borclu olanlar
sonradan düşməninə çevrilə bilər.

***

Elm savadlı olmağın açarıdır, insanlığın yox.

26.01.2017

Ümidi qırmaq insanı öldürməyə bərabərdir.

29.01.2017

Bədən ağrılarına bir təhər dözmək olar,
ağlın ağrısına dözmək olmur...

***

Vicdan hissi olmayanı vicdanlı olmağa
səsləmək boş qazanda xörək axtarmağa bənzəyir...

03.02.2017

Nifrətin min üzü var,
Həqiqətin bir üzü...

03.02.2017

Vətən sevgisi içdən gəlməlidir, suçdan yox...

***

Haqqın tapdandığı yerdə haqqa ümid bağlamaq,
özünü haqqın gününə salmaq deməkdir!

04.02.2017

Mənəvi zənginliyi olmayan adamın, maddi
zənginliklə qürurlanması kənardan iyrənc görünür...

04.02.2017

Özünü tənhalığa düçar etmə,
çünki təklik əzabı çəkilməzdir.

***

Başqasının arxasınca danışma,
çünki sənin də arxasınca danışırlar...

***

Zibili qurdaladıqca içindən zibil çıxır...

06.02.2017

Həyat çətin imtahandı, çox vaxt adamın 2 aldığı vaxtlar olur.
2 alanda həvəsdən düşmək lazım deyil,
növbəti həyat dərsinə yaxşı hazırlaşmaq lazımdı...

07.02.2017

Dərdə əyildikcə, dərd adamı əyir...

09.02.2017

Vicdan ağrısı bədən ağrılarından
daha çox əzabvericidi...

***

Həmişəlik gedənə qapı açmazlar...

***

Qanmaza vicdandan dəm vurmazlar...

***

Qanmazı qandırmaq gücünü yandırmaq

10.02.2017

Şair sözündən, sevən gözündən bəlli...

***

Sevginin günü olmur, sevgi ya insan
qəlbində var, ya da yoxdur...

13.02.2017

Mənəviyyat adamlarının üzü işıqlı olur.
Şükür, bu işıq sayəsində dünya zülmətdə deyil....

***

Ailə sirri çölə daşınan – ev abad olmaz...

15.02.2017

Od tutub yanan dükan, bazar,
Məzlumları soyanları tutsun azar...

17.02.2017

Artan qiymətlər, evlərdən qaçaq düşən nemətlər...

19.02.2017

Düşmənlə silahla danışarlar, sən Allahla yox!!!.

***

Düşmənə havadar olan, düşməndən
daha qorxuludur...

***

Düşmənin içi də, çölü də düşməndir,
bunun başqa isbatı yoxdur...

***

Düşmənə dərd çəkən olma, dərd çəkdirən ol...

***

Məğlubiyyətlə köləlik doğma qardaşdırlar...

27.02.2017

Düşünən beyinin ağrısı ürəkdə əks-səda verir...

***

Ən böyük qüvvə özünsən, özünə sığın...

***

İradə uğurun açarıdır...

***

Oğurluqla doğruluq arasındakı məsafə çox yaxındır...

***

Heç vaxt ölümə can atma, o onsuz da sənə qoyulmuş
vaxtda özü gələcək...

***

Millət kefiyyəti ilə önəmlidi, kəmiyyəti ilə yox...

***

Millət dinindən yox, özünə ağladığı günündən bəlli...

03.04.2017

Sən niyə qadir olduğunu düzgün təyin etsən, yollar
səni özü çağıracaq.

***

Cəmiyyəti yaralayan olma, sağaldan ol.

***

Özün-özünə həkim də ol, hakim də.

***

İnsan özü yetişdirdiyi ömür meyvəsini yeyir.

***

Acizlik ümidsizliyin açarıdır.

***

Müasir gənclərlə aramızdakı fərq odur ki,
biz çəkingən idik, onlar səbirsiz.

***

Səadət axtarışına çıxma, sən onu özün əldə etməlisən.

***

Mütilikdən uzaq dur, o sənə yaxşı heç nə vəd etmir.

04.04.2017

Başqasının cibinə göz dikənin cibi boş qalar.

06.04.2017

Güzgü adamın üzünü göstərir, vicdan özünü...

13.04.2017

Ömrün havasına baxda...gah isti, gah soyuq...
gah xəzri, gah gilavar...

21.11.2017

Adamın dostu da, düşməni də özüdü,
əgər ömür yoluna diqqət etsək görərik
bu həqiqətən belədir...

***

Ürək yalnız yaşam üçün cihaz deyil,
həm də hislərin tüğyan etdiyi məkandır...

25.11.2017

***

Tanrı bizə hər şey bəxş etdi, amma biz həm özümüzü,
həm də Tanrının bəxşişlərini məhv etmək üzərəyik...

26.11.2017

Bir nəfər hamı üçün yaxşı ola bilməz, hamı da bir nəfər üçün...

29.11.2017

Mənəviyyatı kasıb olanı, maddiyat ört-basdır edə bilmir...

02.12.2017

Nə edirsənsə yaxşılıq, ya pislik adamın özünə qayıdır,
hər bir kəs həyat yoluna diqqətlə fikir versə görər ki,
bu həqiqətdən əsla sapmaq mümkün deyil...Dövlətlər də belədir..

***

Haqsızlığa susan dünya, susqunluğun qulaqlarımı batırır...
19.12.2017

Hər kəs öz ağlının cəfasını və səfasını dadır...
05.01.2018

Yaxşılıq edə bilmirsənsə, pislik də etmə...
nə olar...ey insan...
06.02.2018

Elə söz de, desinlər qəlb oxşayan incidir,
deməsinlər qəlbi yaman incidir...
18.01.2018

Evdə hər şey səhərdən deyilən sözdən asılı,
acı söz insanı çökdürür, xoş söz həyat eşqini artır...

***

Ürəkdə hissiyyat güclüdü, ona görə yükləndikcə çökür...
21.01.2018

Hər şey dəyişir, dəyişməyən bizim vicdanımızdı,
baxır kimdə necədi?!...
08.02.2018

Insanın kiçik səhvlərini bir təhər yola vermək olur,
amma İnsanın böyük səhvlər bağışlanılmaz olur...
10.02.2018

Adam var ağlına gələni danışır,
adam da var ağzına gələni...
12.01.2018

Oyuncaq olmaqdansa. oyuncağı oynadan ol...
11.04.2018

Işıq gələn yerə qapı açarlar, onu bağlamazlar...
13.04.2018

Xeyirxahlıq naminə etdiklərinin acısını çəkmək dəhşətdir...
20.04.2018

Nankorun nə kasıbı, nə varlısı,
nankor elə nankordur...

22.04.2018

Ürək yanmağından, adam qanmağından bəlli...

***

Ümidlər qırılanda canımızın ətəyindən yapışıb
üz tuturuq göylərə, bəlkə Yaradan bizə imdad edə...

24.04.2018

Günün sevinci – çıxarar dinci...

27.04.2018

Gözləmə, etdiyin yaxşılıqların əvəzi qayıtsın,
əvəzini istəyirsənsə - yaxşılıq etmə...

28.04.2018

Hər şey bizim düşündüyümüz kimi olmur,
həyat səhvlərimizi dəlicəsinə üzümüzə vurur...

***

Ağrı canı incidir, həm də
insanın sağ olduğuna incidir...

***

İnsanın özündən qorxulu düşməni yoxdu...

30.04.2018

Ümid etdiklərin səni sındırarsa,
ağrısı keçməz...

11.05.2018

Gecə səhərin üz qarasıdır...

03.06.2018

Adam həm özünün dostu, həm də düşmənidir,
kimdə hansı tərəf çoxdur çox tərəfə əyilir...

09.06.2018

Bəzən ölənlərə həsəd aparıram...

10.06.2018

Səhvsiz insan yoxdu, insan səhvləri edə-edə təkmilləşir...

11.06.2018

Başqalarına yana-yana mənə cəhənnəm əzabı çəkdirən ürəyim...

14.06.2018

Beyin düşünən, ürək ağrı çəkən, ömür də həm bizi, həm də ağrımızı daşıyan...

16.06.2018

Həyatın çaldığı ağrı rəqsinə oynayıram...

25.06.2018

Fələyin hiddəti - ağrının şiddəti....

26.06.2018

İnsan öz səhvlərinin qurbanına çevrilir...

27.06.2018

Hər kəsdə idrak var, amma hər kəs idrakın qapısını açа bilməz....

09.07.2018

Hər kəs öz bağının bülbülüdür, istədiyi kimi cəh-cəh vurur...

11.07.2018

İnamı öldürmək adamı öldürməyə bərabərdir...

18.07.2018

Öz dəyərini özün verməlisən, əks təqdirdə heç kəs sənə dəyər verməz...

20.07.2018

Həqiqəti harda gizlətsən də o gec-tez üzə çıxır...

21.07.2018

Həyat həmişə adamın üzünə gülmür ki, onun ağrı dolu günləri var...

22.07.2018

Qanmazı qaldırmağa çalışma, zəhmətin boşa gedəcək...
27.07.2018

Səni anlamayanlara anlamq dərsi keçmə...
31.07.2018

Ay cırcırama, bəsdi cırıladın...
səndən onsuz da bir həyan yox...
05.08.2018

Hamı eyni havaya oynayır...bəs havanı dəyişmək
məqamı nə vaxt çatacaq?...
06.08.2018

İnandıqların inanmadıqlarından
daha çox adama zərbə vurur...
08.08.2018

Hər bir insanın içində həm zülmət var,
həm işıq...işığa tərəf yürümək lazım...
09.08.2018

Zəhmətsiz yeyilən qida bədəndən xəstəliklə çıxar...
17.08.2018

İnsanların iç üzünü aşkar edənə qədər ömür də başa çatır...
18.08.2018

Bədən ağrıyır, əzabı can çəkir...
19.08.2018

Öncə şimşəklər çaxnaşdı, sonra buludlar
qaynayıb daşdı, indi də yağış günəşin
şəfəqlərinə bulaşdı...
15.08.2018

Zalımın zülmü məzlumun başında çatlar...
14.08.2018

Ürəklər istəməsə gözlər aramaz...

13.08.2018

Vətən məndə doğulmayıb, mən Vətəndə doğulmuşam...

***

Zalımlıq zülmü doğur, odur ki, göydən od-atəş yağır...

01.08.2018

Zəhmətin sütunu halallıqdı...

03.08.2018

Gözlər gördüyündən keçməz, ürək sevdiyindən...

26.08.2018

Ürək yandırar, ağıl qandırar...

27.08.2018

Həyat dərslərini öyrəndikcə insanların kimliyi üzə çıxır...

07.09.2018

Xöşbəxtlik anlarla, kədər illərlə, bu insan ömrünün düsturudur...

22.09.2018

Ürək əllə yox, dillə sınar...

23.10.2018

Zəhmətsiz qazanılan para, gec-tez sinəyə vurar yara...

24.10.2018

Ömrün günləri nar dənələrinə bənzər,
istərsən dənələ, istərsən əz...

11.11.2018

Kim olursansa ol, amma öncə insan ol!...

12.11.2018

Elə ye ki, bir ömür boyu yeyə biləsən...yoxsa partlayarsan. ..

13.11.2018

Düşmən bəlli, Tanrım, bizi dost xəyanətindən qoru...
29.11.2018

Səni anlamayana anlamaq dərsi keçmə...ömrünü yeyər...
01.12.2018

Əgər sənə dəyər verməyənlər dəyər verənlərdən çoxdursa,
bil ki, həyatda nəyə isə nail olmusan...
02.12.2018

Ömür hər kəsə ibrət dərsidir,
sadəcə onun dərkinə varanlar azdır...
13.12.2018

Adama səcdə etməkdənsə, ağlına səcdə et...
14.12.2018

İlanın zəhərinə çarə var, adamın dilinin zəhərinə yox...
15.12.2018

Kasıbın zənbili boş, varlının ürəyi ...
21.12.2018

Yaltaqlar gəvələyir, sözdən söz əvələyir...
21.12.2018

İşlədilməyən baş küncə atılmış boş qab kimidir...
11.01.2019

Başı işlətməkdənsə, dili işlədirlər...
12.01.2019

Həyatın ibrət dərslərini dərk etməyənlər
uduzmağa məhkumdurlar...
13.01.2019

İnsan etdiyi səhvlərin cəzasını sağ ikən çəkir...
24.01.2019

Gün başladı, kimini daşladı, kiminin gözün yaşladı,
kimi daşbaşdadı, kim isə başdadı...

01.02.2019

Yaltaqlıq vərdişə çevriləndə ziyankar olur...

***

Elə adamlar var ki, öləndə bir damcı göz yaşına dəymir....

29.01.2019

Olacaqdan yox, olmuşlardan nəticə çıxarmaq lazım...

05.02.2019

Ağıllı özünə dərd verir, ağılsız aləmə...

11.02.2019

Insan kimi yetişdirən – vicdandır, o da hər kəsə nəsib olmur...

***

Ən böyük hakim zamandır, o hər şeyi ədalətlə yoluna qoyur...

13.02.2019

İmansıza imandan bəhs etmək, İmana həqarətdir...

14.02.2019

Saat irəli gedir, biz geri...

19.02.2019

Yaltaqlığa əyilən bel düzəlmir...

***

Zəhmətin verdiyi xeyri heç kəsdən görə bilməzsən...

***

İşıq qapanan yerdə zülmət toy-büsat qurar...

***

Dəyər verdiyinin kimliyi sənin səviyyəndən xəbər verir...

***

Özündən razılıq – uçuruma, özünü tənqid – zirvəyə aparır...

***

İşıq düşən yerə can atarlar...

***

Zalım zülmüylə, alim elmiylə tanınar...

09.03.2019

Ömür bir içim sudur, kiminə zəhər, kiminə bal dadır...

***

Ümidlər yananda tüstüsü ürəkdən çıxır...

***

Elə et ki, sevdiklərinə xərclədiyin ömürdən sənə də qalsın...

***

Ürəyini işlətdiyin dəyərlər, bəzən canının zərərirlə tamlanır...

***

Yaxşılığın ölçüsünü bil ki, səni dəli zənn etməsinlər...

***

Hər gün ömür qazancıdır, ömür qazancını boşuna sərf etməyək...

10.03.2019

Nəfsinin qulu olma, nəfəsinin qulu ol...

***

Düşmənin qabağından qaçmaq yox,
qabağına qatıb qovmaq lazım...

***

Çox zaman istəklər imkanları üstələyir və adamı çarəsiz edir...

***

İnsanlıq məğlub olanda, şeytanlar meydan sulayır...

11.03.2019

İnsanın daxili kefiyyəti onun kimliyini formalaşdırır...

***

Hökmü verən zaman, hakimlik edən biz...

13.03.2019

Qanmazı qandırmaq, canını yandırmaq deməkdir...

***

Gördüklərim gözümdən, çəkdiklərim özümdən keçir...

***

Oturub dizinə baxır, durub özünə...

***

Ağlın getmədiyi yerə ürək birinci çatır...
26.03.2019

Elmsizlik avamliğa rəvac verir, nə qədər çox olsa, cəhalət də çoxalacaq...
28.03.2019

Kimdə nə çatmırsa daha çox ondan bəhs edir...
29.03.2019

Mənəviyyatı yoxsul. olanı maddi zənginlik xilas edə bilməz.
30.03.2019

Aprelin biri, açıldı yalanın sirri...
01.04.2019

O yerdə ki, sözünə dəyər verilmir, sözü bas qəlbinə, qəlbinin qapısını bağla...
02.04.2019

Əyilməyə öyrənən baş düzəlməz...
03.04.2019

İşıq nurundan, adam gözündən bəlli...
07.04.2019

Dostu düşməndən ayra bilməyənlər, elə düşmənə taydı...
07.04.2019

Düşmənin dilini sevənlər, elini də sevər...

***

Unutqanlıq, növbəti milli faciələrə rəvac verir...

***

Özünə dəyər verməyən başqalarının da dəyərini bilməz...
08.04.2019

Ömür, qulluq tələb edən ağaca bənzər, dəyərini bilməsən solub gedər...
08.04.2019

Ümidi ağlına bağla...

***

Ürək və ağlına tapın, çünki onlar sənə xoşbəxtlik qapılarını açar**...**

06.05.2019

Hamı hamıya nəsihət verir, öz-özünə nəsihət verən yoxdur...

10.05.2019

Ağıl sərvət deyil qazanasan...

18.05.2019

Dik durmağı bacar, ürək, səni yıxmağa çalışırlar...

25.05.2019

Gününü kəpənək təki uçurma...

***

Az danışıb çox iş görənlər həmişə öndədir...

***

Özünü hamıdan ağıllı saymaq yüksək ağıldan xəbər vermir...

***

Özünə inam – xöşbəxtliyin açarıdır...

***

Öz səhvlərini görə bilməyən, başqalarını səhv içində görər...

02.06.2019

Bəxtinə deyinməkdənsə, ağlına deyin...

03.06.2019

İnsana zərbə ən doğru və yaxın bildiklərindən gəlir bəzən...

***

Elm ağıldandı, mövhümat nağıldan...

05.06.2019

Boş danışıq içi boş olan qaba bənzər...danqıldadarsan hay-küy salar...

10.06.2019

Ürək yandırar, ağıl qandırar...

20.06.2019

Bəzən adam dəlilərə həsəd aparır...

22.06.2019

Həm həyat yükünü çəkirik, həm də başqalarından çəkirik...

23.06.2019

Bəzi adamlar üçün yaltaqlıq peşəyə çevrilir...

25.06.2019

Səni başa düşməyənlərə sərf etdiyin vaxtı özünə sərf et...

***

Başına papaq qoyub, özü də bığsız...
papağa bığ yaraşır, bığa papaq.

***

Dili uzun, ağlı qısa, batırıb aləmi yasa...

01.07.2019

Ürəyi ağılın getdiyi yerə aparın....hislərin yox...

08.07.2019

Salam qələm, sözüm dolanıb boynuma boğur məni....

22.07.2019

Adamı tanımaq bir ömrə sığmır...

25.07.2019

İsti isti-isti gəlir üstümüzə...

31.07.2019

Hər kəsin etdiyinin əvəzi özünə qayıdır...

02.08.2019

Mümkün olmayan bir şeydən
xəyal qurmaq axmaqlıqdır.

***

Özünə güvənci itirməyincə uğur sənin olacaq...

***

İstəmirsənsə canın iztirab çəksin,
başqasının canına iztirab verməkdən çəkin...

03.08.2019

İçdən gəlməyən istək dillə uçar...

04.08.2019

Hər insan kilidlənmiş sandıqdı, açarı özünə məxsusdu...

***

Ağıl getməyən yerə, ürəyi aparma...

***

Yaltaqlıq insanda min sifət doğurar,
yaltaqlıq etdikləri onu xəmir təki yoğurar..

06.08.2019

Söz qılıncdan itidir, iti qılıncımız kütləşməsin...

07.08.2019

Gecənin zülməti qorxulu deyil, vay o günə ki,
insanın ağlına zülmət çöksün...

08.08.2019

Əzab çəkən ürəyə heç bir dəva-dərman əlac etməz...

10.08.2019

İnandıqlarının zərbəsi atomdan da güclüdür.

***

Səadət elə bir nemətdir ki, hər kəsin nəsibi olmur...

10.08.2019

Ürəyin sızıltısı canın harayıdı...

12.08.2019

Boşa sərf olunan vaxtım üçün ürəyim ağrıyır....

13.08.2019

Ağıla güvənib dili işlət, dilə güvənib ağılı işlətmə...

16.08.2019

Uğur özünə güvəncin – şah damarıdır,
bu damarı tapmağa çalışın...

***

Ağlının təpəri olsa büdrəməzsən...

***

Özünə dəyər – vaxta dəyərdən keçir...

17.08.2019

Ömür adamın nazıyla oynamır,
adam ömrün nazıyla oynamalıdır...

18.08.2019

Fiziki yox, mənəvi əlil olmaq bədbəxtlikdir...

19.08.2019

İnamı öldürmək adamı öldürməkdən pisdir...

20.08.2019

İnsanın halı evdə baş verən gerçəkliklərlə bağlıdır,
gerçəkliklər nədir, insan da odur!

07.09.2019

Yazıq dünya, sənin bir üzün var, insanın min üzü...

16.09.2019

Ümid gerçək olanda yaşamaq eşqi artır.

22.09.2019

Ətrafda əzab verənlər çoxaldıqca,
həyata maraq azalır...

30.09.2019

İşğalçıyla görüş yox, üstünə yürüş lazımdır.

***

Vay o günə ki, yıxılasan,
Yıxıldın- sürüdəcəklər.

23.09.2019

Mənəviyyatı puç olanlar, başqalarının
həyatını heçliyə yuvarlayarlar.

***

Hansı mərtəbəyə qalxmağın önəmli deyil,
əsas insanlığına diqqət et...

26.09.2019

Tənbəl xoşlayar nağlı, zirək işlədər ağlı...

***

Bu günü dünənə yox, sabaha cala...

***

Ətrafda paxılların sayı çoxdursa,
deməli nəyəsə nail olmusan...

27.09.2019

Dünənlə yaşayan, dünəndə qalar...

***

Günümüzü reallığı: Qəpiklərin qədrini bil ki,
manata çatasan...

28.09.2019

Xaini özündən başqa heç kim sevməz...

***

Sən Vətəni sev ki, səni də dünya sevsin...

***

Məğlubu heç kim eşitməz, fəryadı heç zaman bitməz...

***

Yaltaqlar hərəkətdə, cibləri bərəkətdə...

29.09.2019

Biz bizik, kiminə əyri, kiminə düzük...

***

Beynini hansı yola işlətsən, o yola gedəcək...

01.10.2019

Acizlik-istər insan olsun, istər dövlət, məhvə aparır...

12.10.2019

Yer üzündə zəiflər məhv olacaq, güclülər qalacaq,
istər insan olsun, istər dövlət!...

13.10.2019

Ümidin çiçəklədiyi ürəkdə həyat çağlar...

14.10.2019

Beyinin hərəkəti ayaqları aparmalıdır,
ayaqların hərəkəti beyini yox...

18.10.2019

Hər kəsin əməli öz qarşısına çıxır,
istər yaxşı, istər pis...

19.10.2019

Nifrəti yaradan səbəbə əlac etmək lazım.

21.10.2019

Çirkaba batanın təmizlikdən dəm vurması faciədir.

22.10.2019

Həyatda itirmək təhlükəsi,
qazanmaq təhlükəsindən çoxdur...

26.10.2019

Dəyərini bil ki, dəyərini bilsinlər...

***

Ağlını dilindən asılı etmə, dilini ağlından asılı et...

31.10.2019

Bizim bilmədiyimiz çox mətləbləri gizlədir kainat,
bizlər isə kinimizi göylərə püskürürük...

***

Başında heçnə olmayandan ağıl ummaq,
boş qazandan xörək axtarmaq təki bir şeydir...

03.11.2019

Ümid insanın həyat ağacıdır,
o solanda diləklər də solur...

05.11.2019

Ağlın çatmadığı yerə ayağı aparma.

06.11.2019

İçi çölündən betər, çölü içindən betər.

08.11.2019

Hamı millətə ağıl verir,
heç öz ağlına baxan yox.

11.11.2019

İnsanın insana verdiyi dəyər
heç nəylə əvəz olunmur.

12.11.2019

Lovğalıq həm cana, həm cibə ziyandır...

15.11.2019

Elə elə ki, bataqlığa düşməyəsən,
düşdün çıxa bilməyəcəksən.

***

Əməlli davran, olma qəlb vuran.

16.11.2019

Düşmən ölmüş halda təhlükəsizdir.

09.12.2019

Sevgini ürək bəsləməlidir,
dildə gəzən sevgi havaya uçar...

***

Zalım zülmünə, məzlum ölümünə sevinər...

***

Sevgini ürək bəsləməlidir, dildə gəzən sevgi havaya uçar...

***

Zalım zülmünə, məzlum ölümünə sevinər...

13.12.2019

Öz səhvlərinə kor olanlar, başqalarının üstünə getməyi yaxşı bacarırlar...

***

Dünya dəryaya bənzər, üzməyi bacarmayan batır...

***

Öz səhvlərinə kor olanlar başqalarının
üstünə getməyi yaxşı bacarırlar...

15.12.2019

Sözlə şəfa verə və ya öldürə bilərsiniz...

17.12.2019

Bəzən gözlər gördüyünə, ürək sevdiyinə,
qulaq eşitdiyinə yorulur...

21.12.2019

Dəyərlər itəndə əməllər quduzlaşır...

25.12.2019

Ədalət olan yerdə rəzalət yox olar...

11.01.2020

Nəticə yoxdursa, tərif heç nəyi həll etmir...

17.02. 2020

Qorxu uğura gedən yola çəpərdir...

18.02.2020

ƏDƏBİ DÜŞÜNCƏLƏR

SÖZƏ GƏLİN

BİR YARPAQ SÖZÜM

Nəzirməmməd Zöhrablının "Hər yarpaq bir sözümüz" kitabı haqqında düşüncələrim

Nəziməmməd Zöhrablını Əli Rza Xələflinin baş redaktor olduğu " Kredo" qəzetinin redaksiyasından tanıyıram. Qəzetin çapdan çıxan vaxtlarında redaksiyada çox maraqlı adamlarla qarşılaşmaq mümkün idi. Onlardan biri də Nəzirməmməd Zöhrablı oldu. Məni əsas duyğulandıran o oldu ki, o, məndən xəbərsiz yaradıclığımla maraqlandı, sonra isə haqqımda "Üçrəngli bayrağa bürünmüş şairə" kitabını yazdı. Bu insanın qələmi ilə tanış olandan sonra onun peşəkar jurnalist-publisist, vicdanlı qələm sahibi, qeyrətli vətəndaş olduğunu duydum və Nəzirməmməd bəylə şəxsən tanışlığıma çox sevindim. Tanışlığımızdan ötən illər ərzində internet portallarında onun yaradıcılığını mütəmadi izləməyə başladım. İzləməyimin əsas səbəbi isə onun maraqlı, oxucunu özünə cəlb edən yazıları olub.

Nəzirməmməd Zöhrablının "Hər yarpaq bir sözümüz" kitabı haqqında düşüncələrimi dəyərli oxuculara çatdırmamışdan öncə, bizim özümüzün bir qələm adamı, bir oxucu olaraq, bir millət olaraq özümüzə, öz yazar insanlarımıza soyuqqanlı münasibət, xarici yazarlara pərəstiş etmək xəstəliyimizi irad kimi bildirmək istəyirəm. Xarici ədəbiyyatı oxumaq çox önəmli, məlumatlanmaq ondan da önəmli, amma öz dəyərli söz adamlarımıza öncə diqqət ayırmaq, onların kitablarını oxumaq lazımdır. Əgər biz özümüzə həsəd, kobud şəkildə dilə gətirməli olsaq, paxıllıq hissini içimizdə cilovlaya bilsək, onda görərik ki, bizim ədəbiyyatımızda da, jurnalistikamızda da, publisistikamızda da SÖZ-ün dəyərini bilən, onu havayı yerə xərcləməyən istedadlı qələm sahibləri az deyil. Sadəcə onlara dəstək olmaq, heç olmasa satışa çıxarılan kitablarını almaq lazımdır.

1992-ci ildən kompüterlə tanışlığımdan, kompüteri özümə həmdəm seçəndən bəri bilirəm ki, kompüter, internet kitabın yerini verə bilməz, nə qədər virtual kitabxanalarda var-gəl etsə də adam, bir fincan çay, və ya kofe ilə, sakit guşəyə çəkilib bir kitabı götürüb mütaliə etmək, ondan mənəvi zövq almaq heç nə ilə əvəz oluna bilməz… Elə isə, fikrimcə yuxarıda qeyd etdiyim nüansları gözdən qaçırmamaq gərək.

İndi qayıdaq dəyərli qələm adamı Nəzirməmməd Zöhrablının "Hər yarpaq bir sözümüz" kitabına… Açığı, yaradıcılıqla bağlı işlərim çox olduğu

üçün kitabı bir az geç oxumağa başladım, inanın, kitab o qədər maraqlı qələmə alınıb ki, kitabı nə vaxt oxudum qurtardım özüm də bilmədim, bir də gördüm kitabın axırıncı vərəqinə çatmışam. Necə deyərlər kitabdan mənəvi ləzzət aldım və qərar aldım ki, bu kitab haqqında ürək sözlərimi yazım…

Öncə onu demək istəyirəm ki, "Hər yarpaq bir sözümüz" kitabı 2013-cü ildə "Qanun" nəşriyyatında çap olunub… Sözə, ətrafımızda baş verən ictimai-siyasi, mədəni, sosial amillərə xəyanət etməyən yaxşı kitab heç zaman dəyərini itirmir, yemək deyil ki, boyatlaşsın…

Ona görə də diqqətli oxucularla yol yoldaşlığına çıxaraq onları müəllifin yazdığı publisistik kitabın içindəkilərlə tanış etmək istəyirəm. Öncə toplu müəllifin öz oxucularına ünvanladığı ön sözlə başlayır. Mətbuatımızın yaradıcısı Həsən bəy Zərdabidən tutmuş bu günə qədər həm mətbuatımızın özü, həm oxucuları azad, vicdanlı sözə həmişə diqqətli olub və onu hava kimi ciyərlərinə çəkib. Çünki vicdanlı söz müllətin, ölkənin, ən nəhayət dövlətin varlığının qoruyucusudur!

Haqqında söz açdığım müəllif də yuxarda qeyd etdiyim vicdanlı qələm sahiblərindəndir. Bəzi publisistik kitabları əlinə götürəndə bir-iki səhifədən sonra sitatlar başlayır, müəllif iki kəlmə özü yazır, on kəlmə başqasının sözlərini sitat gətirir. Oxucu yorulur, oxuyacağı kitaba marağı sönür, kitabı 10-15 səhifədən sonra bir kənara atır. Amma Nəzirməmməd bəyin istər publisistik yazıları, istərsə də kitabda yer alan hekayələri çox maraqlı, yüyrək bir dillə, dilimizin şirinliyi və incəliyi ilə qələmə alınıb. Müəllif ana dilimizə sadiq qalıb, məqalələrində və hekayələrində demək olar ki, alınma sözlərdən istifadə etməyib. Yeri gəlmişkən, alınma sözlər deyəndə əsasən rus dilindən dilimizə ötürülmüş sözləri nəzərinizə çatdırmaq istəyirəm.

Müəllif ön sözdə kitabın içindəkilər haqqında oxucularına məlumat verir. Sonra kitab ünlü şairimiz, görkəmli söz adamı "Musa Yaqub dünyasına səyahət"lə başlayır. Bu bölmədə şairin yaradıcılığına geniş yer verilir. Demək olar ki, Musa Yaqub yaradıcılığını oxucunun gözü önündə canlandırır, sanki, oxucunu istedadlı şairin yaradıcılığına müraciət etməyə həvəsləndirir. Ümumiyyətlə, kitabın bu bölməsi ilə tanış olanda Musa Yaqub şeiriyyətinin, eləcə də irihəcmli poemalarının gücü ilə tanış olur adam…onun şeirlərində göstərilən nümunələri göz önünə gətirir. Toplunun bu bölməsində oxucu şair haqqında ard-arda düzülmüş məqalələrlə tanış olur. Şair haqqında yazılmış bu məqalələr oxucunu bir jurnalist-publisistin onun əsərləri barədə maraqlı çizgiləri ilə qarşılaşdırır. Müəllifin şeirlərini ardıcıllıqla çözməsi məqalələrin axıcılığını artırır, kitabı mütaliə edəni şairin söz səyahətinə

çıxarır. Nəzirməmməd Zöhrablı sakitcə kənd həyatına çəkilib təmizlik, paklıq aynasından dünyaya boylanan, xalqının acılı-şirinli bütün yaşantılarını öz əsərlərində əks etdirən şairin sənət aləmindən qaynaqlanan sətirlərini oxucuya söz-söz ərməğan edir, onların gerçək mahiyyətini anladır. Musa Yaqub sənətinin ölməməzliyi müəllifin qələmə aldığı məqalələrdə rəssam dəqiqliyi ilə sözün ecazkar rənginə boyanır. Onun şair barədə yazdığı "Azərbaycanın gerçək tarixi. Təbiətlə vətənpərvərliyin vəhdəti", "İki qəlb, iki dünya"," De, işlət bu dəyirmanı", "Mis kasalar cingildədi rəfimizdə", "Köhnə dəyirmana sözüm", "Torpaqda şər olarmı?", "Nağıla dönmüş yaşantılar", "Laçının ölümü", "Musa Yaqub poeziyası. Etibarlı yol yoldaşı" adlı publisistik məqalələrdə ünlü şairimizin söz və həyat dünyasının yaşantılarını birər-birər ruhumuza, qanımıza, canımıza hopdurur. O, oxucunu şairin sənət dünyasının qapısını açıb ora qonaq olmağa səsləyir.

Müəllifin "Hər yarpaq bir sözümüz" kitabında "Çuğul", "Duyğusal terrorçu", "Müdir" hekayələri də yer alıb. O, "Çuğul" hekayəsində iş yerində bir yaltaq adamın obrazını yaradır, bu çuğul adam işçilərin haqqını tapdalayır, vicdan hissini unudub hər cür yollarla vəzifə kürsüsündə oturana yarınır. Ondan asılı olanların gününü necə deyərlər, elin təbirincə desək, "göy əsgiyə bükmək" amalını özünə həyat yolu seçmiş bu mənəviyyatsız ətrafındakılara çox zərərlidir. O ailəsi üçün hər şey qazanıb, yüksək yaşayış, pul-para, amma özü öz içində cəhənnəm əzabı çəkir, bir neçə günlüyə ailəsi ilə istirahətə gedir, müdirindən uzaq qalmaq əzabı onu üzür, bu neçə gündə müdirinin onu aramaması və yerinin başqa adam tərəfindən tutulmaq qorxusu ürəyini partladır və qəfil ölümünə səbəb olur. Müəllif ustalıqla qələmə aldığı hekayədə cəmiyyətimizin inkaredilməz bəlalarını sözün ittihamına çəkir…

Nəzirməmməd Zöhrablının "Duyğusal terrorçu" hekayəsi bugünki günümüzlə səsləşən ağrılı bir mövzudur. Siyasətlə heç bir əlaqəsi olmayan günahsız insanlar evindən çıxıb iş dalınca yola çıxır, amma geri qayıtmaq ümidi get-gedə sıfıra yaxınlaşır. Hər gün dünyanın müxtəlif yerlərində suçsuz insanların terrorun qurbanı olması xəbərini eşidirik. Məhz müəllif də belə bir mövzunu hekayəsinin sujet xətti edib. Hekayədə əsərin əsas qəhrəmanı Mahmud, hansısa avtobusu partladıb insanları qırmaq arzusu ilə evindən çıxıb. O bunun üçün mənsub olduğu terror şəbəkəsindən tapşırıq alıb. Beyni yuyulmuş belə insanlar həm özlərini, həm də başqalarını məhv edirlər. Bu yola düşənlərin bəziləri pul əldə edib ailələrinə xoşbəxt həyat qurmaq naminə cinayət edir, bəziləri isə hansısa dini qurumların, təriqətlərin qurbanı olur. Mahmud isə ailəsini dolandırmaq üçün bu yola düşüb. Müəllif burda incə bir məqama toxunur. Çox ağrılı bir məqamdır ki, belə

terrorçular daha çox bizim müsəlman dünyası ölkələrinin vətəndaşlarından maddiyyata şirnikləndirilərək cəlb edilib hazırlanılır. Lakin unutmamalıyıq ki, hər bir ölkə vətəndaşlarının həyat şəraitini yüksəltmək onların həyatına görə bilavasitə məsul olanların mütləqi borcudur! Bu borcu unudanlarsa… ölkə vətəndaşlarının həyatını ağır duruma salır. Hekayənin sonunda bir neçə avtobusu buraxan Mahmud sonuncu avtobusda gözəl bir qızla qarşılaşdığından bir daha duyğulanır və bu avtobusu da partlatmağa əli gəlmir. Avtobus növbəti dayanacağa çatanda isə…o avtobusu tərk edərək əlindəki trotillərlə özünü partladır.

Müəllifin "Müdir" hekayəsi də kürsü düşgünü olan Səlimin həyatından bəhs edir. İnsanlara pislik etməyi həyat yolu seçmiş bu adamın Sovet dövrünün qanlı-qadalı illərində kəndlərində Şəkəralı adında yerlisi camaata o qədər zülm edib ki, öləndən sonra onun meyidini qəbirdən çıxarıb təhqir ediblər. Səlim tez-tez bu hadisəni yadına salıb özünü Şəkəralının yerinə qoyur və içdə adamlara nə qədər nifrət etsə də onun halına düşmək qorxusu onu bir an belə rahat buraxmır. Hekayədən belə nəticə çıxarmaq olur ki, edilən nə yaxşılıq, nə pislik əvəzsiz qalmır. Ona görə hər bir kəs düzgünlüyü, xeyirxahlığı özünə həyat amalı seçməlidir…Bu həm özünə, həm də başqalarına rahat həyat bəxş edər.

Nəzirməmməd Zöhrablının kitabda yer almış digər publisistik məqalələri də müxtəlif peşə adamlarının, jurnalist dostlarının həyat yoluna işıq tutur. Səhnəmizin estrada ulduzu Flora Kərimovanın ürəkləri oxşayan mahnıları haqqında " Ecazkar səsin FLORASI" məqaləsində bizi Flora xanımın səs dünyası ilə baş-başa qoyur.

Onun "Yanmış Qarabağ", " Şərqlə qərb arasında", "Tarixi Azərbaycan dövlətlərinə erməni qısqanclığı", "Bildin nə deyirəm?!" "Çağdaş ədəbiyyat cəfakeşi", "Məmməd Nazimoğlunun 50 yaşına", "Zakirsizlik" və sair məqalələri bir-birindən oxunaqlı, bir-birindən maraqlıdı. Mən isə kitab haqqında yazdığım məqalənin sonunda dəyərli oxuculara Nəzirməmməd Zöhrablının "Hər yarpaq bir sözümüz" kitabını əldə edib oxumağı tövsiyyə edirəm.

Çünki mütaliə yuxuya dalmış beynimizin hüceyrələrini hərəkətə gətirir, bədii təfəkkürümüzü cilalayır, nitqimizi gözəlləşdirir. Mütaliə edən insanın üzü nurlu olur, dilindən sözlər bal kimi axır tökülür, dünyagörüşü genişlənir.

Sonda müəllifə yaradıcılıq uğurları diləyi ilə "Hər yarpaq bir sözümüz" kitabına həsr etdiyim məqaləmi sona yetirirəm.

Dəyərli həmkarıma arzu edirəm ki, bu kitab axırıncı olmasın, qələminin dadı-duzu azalmasın, ürəyindən sözlər sozalmasın, sözün işığı könül dünyasını daim nurlu etsin. Amin…

29.01.2017

HÖRMƏTLİ ƏKBƏR CAVADOVA MƏKTUB

Bu ölkədə özünü yazıçı-şair, filosof, tarixçi, publisist, jurnalist sayan hər bir kəs özünü siyasətdən kənarda saya bilməz. Çünki bu kəsim insanlar birbaşa siyasətin içindədir. Mən ölkədə rüşvətxorluğun, əliəyriliyin, xalqın cibini soyanların əleyhinəyəm, amma, dövlətçiliyimizə qarşı çıxıb ölkədə çaxnaşma salmaq, bizi də Suriyanın, İraqın, Liviyanın, Yəmənin gününə salmaq üçün mırığda durub xarici və daxili düşmənlərlə pıçpıçda olanlar da az deyil. Onlardan özümüzü, başıbəlalı Azərbaycanımızı qorumalıyıq. Yaxın zamanda Qarabağ məsələsi həll olunmalıdı, əgər həll olunmasa bizi gələcəkdə çox dəhşətli günlər gözləyir…Ölkədə çox partiyalılıq ləğv olunmalıdır, müxalifət yaxşı olar ki, bir partiyada birləşsin, ölkədə iki partiya olmalıdır, iqtidar, müxalifət. Əgər inkişaf etmiş ölkələrə diqqət etsək görərik ki, onlarda yuxarda qeyd etdiyim kimidir. Müxalifətin başında gənc nəsil durmalıdı, çünki indiki müxalifət başçıları xalq tərəfindən tanınır və onlar da illərdi başçı kimi fəaliyyətdədirlər. İqtidar bizim Qarabağ məsələmizi tez bir zamanda həll etməlidir, bunun yeganə çıxış yolu, müharibə yoludur, ildırım sürətli müharibə yolu… çünki biz uduzan tərəfik. Başqa çıxış yolu yoxdur… Qaldı iqtidarın uzun illər hakimiyyətdə qalmasına o da xalqın özündən asılı məsələdir. Bozqurd məsələsinə gələndə isə bizim insanların hər birinin içində BOZQURD sevgisi var və olmalıdır. Bozqurd düsturu belədir. Bozqurd xilasedicidi, Türk baxışına görə Tanrı hər yerdədir, bütün aləmlər Tanrının evidir. Türkün çətin anlarında Bozqurdu Tanrı Türkü xilas üçün göndərir. Hər bir kəs – kifayət qədər savadlı, bilikli insan bəşəri duyğularla cilalanıb. Bu duyğular torpağımıza, varlığımıza ögey münasibət üstündə qurulmamalıdır. Dinə gəldikdə isə mənim inamım Uca Yaradanadı…heç bir şey əbədi deyil, heç yer kürəsi də, o da zaman gələcək öz ömrünü başa vurcaq. Ona qədər alimlər başqa planetdə yer tapıb ağıllı başları ora köçürəcəklər. Yəqin yer kürəsinə də hansı planetdənsə adəm övladı gəlib… Mən insanları parçalayan, ayıran, kölə vəziyyətdə saxlayan bütün inanclara, hakimiyyətlərə qarşıyam… Bizə çox savadlı, ağıllı başlar lazımdır, iqtidarı təmsil edənlər oz kürsülərini cavanlara verməlidir. Onsuz da kifayət qədər varlanıblar… “Artıq tamah baş yarar” Atalar məsəlini unutmasınlar. Azərbaycanın xilası ağıllı başların əli ilə olacaqdır. Biz ermənilərlə vuruşmuruq, bunu hamımız bilirik. Bizim qarşımızda Rus İmperiyası durur. Hələ də hegemonluq prinsiplərindən əl çəkməyən, xalqları köləlik düsturu ilə əzən Rusiya…İnanıram ki, yaxın on illikdə bu ölkə içdən dağılacaq…Amma

biz heç vəchlə oturub onun dağılmasını gözləməməliyik. Müharibə qaçılmazdır…Biz buna getməliyik, ayrı çıxış yolumuz yoxdur. Təhsilimizə diqqət edilməlidir, bilik orta məktəbdən başlayır, bünövrə düzgun olmadıqda istər ev olsun, istər insan məhv olacaq….xüsusən qızların orta təhsildən yayınma hallarına yol verilməməlidir, bu işə ciddi yanaşılmalıdır. Çünki övlad ana tərbiyəsi alır. Bizə təhsilli analar lazımdır… Biz islam inanclı ölkəyik, amma, dinimizi mövhümat, təriqətlər buruğlanında boğub məzhəb ayrı-seçkikliyi ilə insanların beyini zəhərləmək millətimizin kürəyini bıçaq saplamaq anlamını verir. Mərkəzdən qaçma baş verməmək üçün təhsil öndə olmalıdır… Bu ölkə etnik kökənindən və dinindən aslı olmayaraq bu yurda nəsilbənəsil yaşamış bütün insanların VƏTƏNİDİR. Aztəminatlı ailələrin həyat şəraiti yüksəlməlidir… az maaşla yaşamaq mümkün deyil. Ölkədə oğurluğun, soyğunçuluğun artmasının başlıca səbəblərindən biri də kasıbçılıq, yoxsulluq səviyyəsində olan ailələrin sayının artmasıdır. Hər şeydən əli üzülən insanlara dövlət kömək etməlidir. Hər bir şeyin əlacı var, yetər ki, insan ağılla yaşasın. Təkcə bir ölümə əlac yoxdur. O da təbii prosesdir. Biz də inkişaf etmiş ölkələrdə yaşayan insanların səviyyəsinə çata bilərik, yetər ki, birliyimiz olsun, içdən və çöldən şər qüvvələrə qarşı mübarizə aparmağı bacaraq… Yaradıcılığıma gələndə isə yaradıcılığımla tanış olan kəslər bilir ki, daima yaltaqlığı, rüşvətxorluğu, harınlığı öz əsərlərimdə qamçılamışam, qələmim haqqa və ədalətə xidmət edir, mən bu dünyanı tərk edənə qədər də belə olacaq. Sizin ürək yanğısıyla yazdığınız müraciəti oxudum və adımın orda keçməsindən dolayı ətraflı cavab yazmağı özümə borc bildim. Hər birimizin qapısını xoş günlər döysün…Azərbaycanımızı işğaldan azad və firavan görmək ümidiylə xoşca qalın…

05.11.2017

MƏNƏVİYYATSIZLIĞIN ACI NƏTİCƏLƏRİ...

Bizim gəncliyimiz o illərə düşdü, o qanlı-qadalı, ağrılı illərə... keçən əsrin 1990-cı illərini deyirəm. Bir çox insanlarımız ailə qura bilmədi, müharibə səngərlərində canını fəda etdi, Vətəni qorumaq uğrunda ona ən ümidə hüququ olan şirin canından keçdi... Biz bu müharibəni başlamadıq, bizə müharibə elan etmədən insanlarımızı el-obalarından didərgin saldılar, ev-eşikləri, şəhər və qəsəbələri viran qoydular, işğal etdilər.. Biz işğala məruz qalan ölkəyik, minlərlə soydaşımız əsir götürülüb, öldürülüb, yerindən, yurdundan didərgin düşüb. Heysiyyatımız tapdalanıb, şərəfimizə toxunulub, ürəyimiz yaralanıb. Yüzlərlə insanlarımızın qələbə həsrəti, öz yurd-yuvalarına qayıtmaq arzusu ürəyində qalıb, vaxtsız budünyanı tərkediblər. Ən inkişaf etmiş ölkələrdi belə öz torpağının bir ovucunu bir kimsəyə verməyən millətlər boy atıb öz siyasəti ilə, demokratiyası ilə, amma, o ölkələr vətənin bir qarışını heç kimə verməzlər. Bu gün Avropa eşqi ilə yanıb yaxılan gənclik yetişib, deyirlər orda haqq-ədalət var, orda şəxsiyyətə, fərdə dəyər var, orda demokratiya var. Bəs demokratiya ilə nəfəs alan Qərb niyə işğalçını və onun arxasında dayanan ikibaşlı cəlladları öz yerində oturtmur?! Deməli demokratiya, insan haqları, ancaq onların öz ölkə daxili vətəndaşlarına köklənib. Neçə ildi sülh adı altında gəlib gedirlər...heç nə edə bilmirlər...Ya da sərf etmir onlara...Bu da bizim alışıb yandığımız qərb demokratiyasının iç üzü...Öz dinindən olan erməni cəlladlarını və onların əlaltılarını dəstəkləyirlər. Bizim ölkə müharibə şəraitində olan ölkəyə oxşamır, Azərbaycan televiziya kanallarında şou proqramları adı altında mənəviyyatsızlıq, insanların aşağılanması, mənəvi dəyərlərmizin çökməsi baş alıb gedir. Problemli ailə faciələrinin televizya kanallarında kök salması, insanları yüngül və məsuliyyətsiz həyata səsləyən teleserialların at oynatması artıq öz işini görməyə başlayıb. Çox saylı boşanmalar ölkəni bürüyüb. Televiziyalarda vətənpərvərlik mövzuları yox dərəcəsindədir. Sanki bilərəkdən və ya bilməyərəkdən insanların içində mənəvi boşluq yaradırlar. Gəncləri millimənəvi dəyərlərdən uzaqlaşdırırlar. Azərbaycan televiziya kanallarında

yarıçılpaq qadınların abrını, həyasını itirmiş kişilərin reklamı gedir. Onlar nə müğənni kimi müğənni, bəstəkar , nə bilim nədirlər, kimdirlər...bir onu bilirəm ki, insanları,xüsusən gəncliyi yüngül həyata səsləyən ünsürlərdir. Bütün bu baş verənlər yetişən gəncliyin içində aşınmalara gətirib çıxartdı. İndi bu gənc insanların arasında elələri peyda olub ki, hardan gəlib hara getdiyini, kimliyini belə unudub, vətən hissi, yurd təəssübü yox olub...Müharibə qanunlarından başı çıxarmayan biri özünü gumbultu ilə gündəmə salmaq üçün Vətən bərabərində şəhidimizin ünvanına nalayiq sözlər işlədir, Şəhidlər xiyabanında «Əbədi məşəl" abidəsində akrobatik hərəkətlər edən gənc peyda olur. Hər bir müharibənin sonu barışıqla bitir, baxır necə barışıqdı? Bu barışıq torpaqlarımızın işğalçıya güzəşt edilməsi ilə, və yaxud işğalçını öz yerini göstərməklə bitəcək. Biz işğal edən tərəf deyilik, biz işğala məruz qalanıq. Belə olan halda təslimçilik hisləri gənc insanların içində hardan qaynaqlanır...? Kimdir günahkar? Günahı gəlin kənarda axtarmayaq, insanın kimliyi və insan kimi yetişməsi doğulduğu ailədən və düşdüyü mühitdən aslıdır. Biz hər birimiz kimliyimizdən asılı olmayaraq var olduğumuz ailənin kobud şəkildə desək məhsuluyuq... Ailə nəyi cəmiyyətə təqdim edibsə biz oyuq...Əgər bu dünyada var olmaq istəyiriksə, gəlin kimliyimizi unutmayaq...unutqanlıq manqurtluğa aparır, manqurt sözünün mənası isə şüursuz kölə deməkdir...Biz hansısa millətlərin ayağı altında tapdalanmaq istəmiriksə, onda Vətənmizi, dilimizi, dövlətçiliyimizi, özgürliyimizi, bayrağımızı, himnimizi göz bəbəyimiz kimi qorumalıyıq. Uşaqlara, gənclərə vətənpərvərlik mövzuları aşılamalıyıq... Ölkənin vətənsevər ziyalı kəsimini önə çıxartmaq, onlara televiziya kanallarında şərait yaratmaq, milli-mədəni dəyərlərimizi önə çəkmək lazımdır...Bu vətən bizimdir, işğal olunmuş torpaqları heç bir dövlət alıb bizə verməyəcək, İşğalçını öz yerində oturtmaq üçün, insanlarımızın yaşam səviyyəsini qaldırmaq, gəncliyə həyatını qurmaq üçün qapı açmaq lazım... Ümidsiz , bir qarın çörəyə həsrət qalan adamda vətənə sevgi yox, nifrət hissi yaranır, narazı insanları dinləmək onlara adi yaşam imkanları yaratmaq lazımdır...Xoş həyat eşqiylə qərb ölkələrinə getmək arzusu ilə hər cür rəzalətə əl atan və ondan çəkinməyən insanlar var...Bütün bunlar baş verməmək üçün vətəndaşların həyat şəraitin yüksəltmək vacibdir...zibil qutularından yemək axtaran adamların faciəsinə biganə qalmaq olmaz... Bu ölkədə kimlərsə milyonların üstündə oturub kef edir, kimlərsə bir qarın

çörəyə həsrətdi. Bizim ən ümidə poblemimiz işğal altında qalan torpaqlarımızın azad olunması məsələsidir...Bu ağrıdan qurtulmaq üçün, yetişən gəncliyi bu yola yönəltmək üçün onlara dəstək olmaq, vətənə ali vətəndaş yetişdirmək lazım...Hansısa gəncin törətdiyi xəta istər dil, istər əl xətası olsun, təkcə həmin gəncin yox, onu yetişdirən cəmiyyətin günahıdır. Gəlin günahlarımızı yumağa çalışaq... hələ ki, gec deyil...

18.12.2018

GƏNC YAZARIN DÜŞÜNCƏLƏRİ

Müasir ədəbiyyatımızda öz sözü, düşüncə tərzi, həyata baxışı olan gənclik yetişir. Onların arasında dəli-dolu, heç kəslə hesablaşmayan, hamıya, hər kəsə üsyan elan edənlər də , ömrünün atəşli gənclik çağını sakitcə hücrəsinə çəkilib yaradıclığa həsr edənlər də var. Qələmə alacağım gənci mən sosial şəbəkədən tanıyıram, o facebookda çox saylı dostlarımdan biridir. Dostuluğuma gələn gündən bu gəncin,vətənpərvər düşüncəsinin, kimliyinə, soy-kokunə eşqinin, sayğısının şahidi oldum.

Haqqında söz açacağım gənc yazar Elşən İsmayıldı. Onun Turan eşqiylə aşıb daşan ruhuna, əcdadlarımızın bizə miras qoyduğu türk soyuna, sevgisinə heyrətlənmiyə bilmirsən. O, qələmini, istedadını ədəbiyyatın hər sahəsində sınayır. “Yazar.in” saytında gənc yazarın yaradıcılığı ilə azacıq da olsa tanış oldum. Onun dünyanın ağrı-acısına köklənmiş hekayələri, vətənsevərlik duyğuları ilə qayğılanmış şeirləri, sevgi diləkləri ilə çuğlanmış məhəbbət təranələri gənc şairin könül dəryasında olan tələtümləri aləmə bəyan edir. Gənc yazarın poeziyasından bəhs edərkən “Xocalıya ağlamıram” şeirini həyəcansız oxumaq olmur. Elşən İsmayıl bu şeirdə, sanki bütün cavanların dilindən hayqırtı qoparır :

Könül gözüm açılıbdır,
Bir də heç vaxt bağlamaram.
Daha göz yaşım quruyub,
Xocalıya ağlamaram...
Bəsdir daha 25 il,
Ağlamaqdan olduq zəlil.
Ürək deyir, gözünü sil,
Mən daha yas saxlamaram,
Xocalıya ağlamaram...
Qoy, ağlasın hay anası,
Hər gün ölsün hay balası,
Gülləmizin hayqırtısı
Parçalasın param-param,
Xocalıya ağlamaram...

Gənc yazarın hiss-həyəcan dolu şeiri tükənmiş, usanmış səbirləri riqqətə gətirir. Adam yaşından aslı olmayaraq əlinə silah götürüb düşmənlə

üz-üzə gəlmək əzmində olur! Onun dünya görüşünə, vətənpərvərliyinə, məntiqli düşüncə tərzinə qürurlanmamaq olmur.

Yazarın "Dicle" qan qoxan gözəllik, "İntiqam və ehtiras", "Qarda qan izi (psixoloji mistik)" və sair hekayələri yazçı təxəyyülünün məhsuludur. Elşən İsmayılın "Diclə" hekayəsi ilə tanış olandan görürsən ki, onu təkcə yaşadığı ölkənin problemləri yox dünya çərçivəsində baş verən qarşısıalınmaz facilər narahat edir. Hekayədə müəllif gözəl bir kürd qızından bəhs edir, qız gənc həyatını kürd separatçılarına qurban veirir, o bakirəliyini dağlarda kürd yaraqılarının başçılarından biri olan PKK terror təşkilatının bölgə rəhbəri Bahoz Barudiyə qurban verir… Müəllif Diclənin dəhşət dolu həyatının bütün çizgilərini qələmə alır. İnsanlara azadlıq və demokratiya adıyla faciə gətirən dünya qaniçənlərinə, sanki ağır sillədi bu hekayə… Qardaş Türkiyəni parçalamq cəhdi ilə yaradılan PKK terror təşkilatı həm kürdlərin, həm türklərin neçə illərdi qanın axıdır.

Real həyatımız belədir ki, heç kəs heç nədən sığortalanmayıb, insanların beynini yuyanlar, din adı altında insanları fəlakətə sürükləyənlərin cəzası nə Allah nöqteyi-nəzərindən, nə insanlıq baxımından bağışlanılmazdır. Bu günahların ən böyü və inkar olunmazdır. Gənc yazar, Elşən İsmayıl, milli dəyərlərimizi, İlahi ölçüsünü beyininizə həkk edib qələminizi haqq və ədalət uğrunda mübarizəyə kökləməyiniz yazdıqlarınızdan bəlli, beləcə də davam edin, bu yolda sizə yaradıcılıq uğurları diləyirəm.

14.04.2019

SÖZÜM SİZLƏRƏDİR

Əziz tələbələr, gələcək sizlərindir, sizlər bizlərin görən gözləri, düşünən beyini, vuran ürəyisiz! Vətənsiz millət zibilliyə atılmış lazımsız əşya kimidir, Vətənmizi və kimliyimizi unutmayaq! Əli insanlarımızın qanına batmış birinə esse yazmamışdan öncə tarixi oxuyun! Başımıza gələn müsibətlərin ən dəhşətlisi yaxın zamanlarda olub, 20 Yanvar faciəsində heysiyyatimiz tapdalanıb, kimliyimiz ayaqlar altına atılıb, o günlərin şahidləri olan bizlər hələ ölməmişik, sağıq! Bəs deyilmi itirə-itirə gedirik? Yevgeni Primakov kimdir? Yevgeni Primakov 1990-cı il «20 Yanvar» faciəsinə görə bilavasitə məsuliyyət daşıyan şəxslərdən biri olub. 1990-cı ilin 20 yanvar tarixində Bakıya sovet qoşunlarının çağırılmasının əsas təşəbbüskarlarından olan Yevgeni Primakov Azərbaycandakı siyasi böhran zamanı sovet hakimiyyətinin işini tənzmləmək üçün Qorbaçov tərəfindən Bakıya göndərilib. Mixail Sergeyeviç Qorbaçov (doğum 2 mart 1931) — Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin sonuncu Baş Katibi (1985-1991), SSRİ-nin ilk və son prezidenti (1991), Nobel sülh mükafatı laureatı (1990), Sosial-iqtisadi və siyasi tədqiqatlar fondunun (Rusiya) prezidenti. Azərbaycanda 1990-cı il 20 Yanvar faciəsinin əsas təşkilatçısıdır. Yevgeni Primakov Azərbaycanın kommunist rəhbərliyinə sovet ordusunun şəhərə girməyəcəyini rəsmi şəkildə bəyan etsə də, sonradan onun yalan danışdığı üzə çıxıb. Mixail Qorbaçova yazdığı hesabatda o «Bakıya təcili ordu hissələrinin yeridilməsinin vacibliyi»ni yazıb. 20 yanvarla bağlı qaldırılmış cinayət işində Y. Primakovun adı əsas günahkarlar sırasında qeyd olunurdu. Bu adamın əli birbaşa insanlarımızın qanına batıb...Bakıda keçmiş SSRİ və Rusiyanın ən nüfuzlu dövlət xadimlərindən olan Yevgeni Primakova həsr olunan tədbirlər təşkil olunub. Tədbirlərdən biri Rusiya İnformasiya - Mədəniyyət Mərkəzində Yevgeni Primakova həsr olunan «Yevgeni Primakov: İnsan və siyasətçi» adlı sərgi olub. Digər tədbir Bakı Slavyan Universitetinin (BSU) bir qrup tələbəsi arasında keçirilən esse müsabiqəsidir.Şəkillərdə gördüyünüz bu adamlar Azərbaycanda yaşayan insanlarımızın mənliyini, ləyaqətini tapdalayan, əli günahsız insanlarımızın qanına batan cəlladlardır, onların faşistlərdən fərqi yox! Onlara esse yox, həcv yazmaq lazım! Sizləri bütöv Azərbaycan uğrunda mübariz olmağa səslə.

01.11.2019

İNTİHAR FİKRİNƏ DÜŞƏNLƏRƏ

Mən yazacağım fikirlərlə heç kimə öyüd-nəsihət vermək istəmirəm, sadəcə öz fikirlərimi intihara cəhd etmək fikirinə düşənlərlə bölüşmək istəyirəm. İki dəfə ağır xəstəlik keçirmişəm, 1-ci dəfə 40 günlüyümdə, ikinci dəfə 14 yaşında, 14 yaşında, 1 ay 20 gün komada qalmışam, yaşam həyatım özümə qayıdandan sonra dirçəlmişəm, orta məktəbi, universiteti bitirdim, sadə ailənin övladı idim, amma həyatla mübarizə apardım, o vaxtı da adama iş yerini xonçada vermirdilər, dayısı, arxası, pulu olanlar yaxşı yerlər də olurdu. Mən rəhmətlik atamın işlədiyi yerə Neft Daşlarına getdim, atam razı deyildi, çətinliklə onu yola gətirib, geofizikada 22 il işləyə-işləyə yaradıcılıqla məşğul olmuşam, 23 ildi həyat yoldaşımla bir yerdəyik, yaratdığımız indiki güzaranımız üçün çox acılar çəkdik...uşağımız yoxdu, bunu da faciə etmədim, yoxdu, deməli yoxduya tabe olmalıyam...uşaqsızlığımı da, keçirdiyim ağır xəstəliyin vurduğu zərbəni dönə-dönə başıma qaxınc etdilər, mənsə belə adamlara yuxardan aşağı baxdım, amma heç zaman intihar barədə düşünmədim...

18 kitab müəllifiyəm, əgər bu kitabları az səhvə ilə çap etsəydim, onda bu kitabların sayı, 70 kitab civarında olmalıydı...İntiharın mahiyyəti budur ki, adam ölür canını qurtarır, amma geriyə, sağ qalan doğmalarına ömürlük dərd, hüzn buraxır... Həyat insana nə qədər çətin olsa da, o tək deyil axı, yaxınlarına can yandırmalıdı, onları acılar içində buraxıb getməməlidir.

Bəli bizim cəmiyyətdə ağır durumdu, amma biz cəmiyyətin oğru-quldur toplaşmış hissəi ilə özümüzü eyni səviyyəyə qoymamalıyıq, çünki, biz onlardan hər cəhətdən üstünük... Vicdanımız təmiz, ruhumuz rahatdır, evimizdə qorxa-qorxa yatmırıq...Neçə dəfələrlə unudub, küçə qapısın açıq qoyub yatmışam, heç kim evə daxil olmayıb, bilirsiz niyə, ona görə ki, qonum-qonşuda bilirlər evə daxil olsalar kitablardan başqa heçnə tapmayacaqlar...Bax budur, mənim həyatda qazandığım təmiz mənəviyyat, halal yaşayış...

Onsuz da gec-tez bir gün bu dünyanı tərk edəsiyik, bu həyatın qanunudu, həyat qanununu pozmaq, intiharla can qurtarıb doğmaları pis duruma salmaq bağışlanılmaz günahdı!

Gəlinbu günahı çiynimizə yükləyib bu yolu çıxış yolu sanıb həyatımzı yarıda qırmayaq...

14.04.2019

İLYAS TAPDIĞI ANARKƏN

1991-ci ilin yanvar ayı idi. Mənim ilk kitabım «Ürək niyə ağrıyırsan» şeirlər toplusu çapa hazırlanırdı, heç cürə kitabın nəşrinə razılıq verilmirdi, əlqərəz, deyirdilər ki, bu kitab çıxsa bizim atamıza od vurarlar. İlyas Tapdıq rəhmətlik, Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışırdı, kitabın içindəkilərlə tanış olandan sonra dedi ki, qızım, kitabın redaktoru mən olacam, cavabdehliyi də mən daşıyacam, bu kitab çap olunmalıdır. Elə də oldu və kitab 1991-ci ildə çap olundu. Dostlar, bu məlumatı yazmaqda məqsədim odur ki, kiçik bir epizodu sizə xatırlatdım, biləsiz ki, bu insan əsil şair idi, ürəyi təmiz, xeyirxah, gənclərə öz kömək əlini uzadan ziyalı idi, bəziləri var idi ki, oturduqları kabinetlərinin yanından keçəndə küləkləri adamı yıxırdı...Unudulmaz, İlyas Tapdıq, sən həqiqətən öz yaşıdlarına örnək ola biləcək USTAD idin...Məkanın cənnət olsun...Böyük sənətkar...Sən bizim qəlbimizdə həmişə yaşayacaqsan...

14.04.2019

GÜNÜN GERÇƏKLİYİ

İki gün bundan oncə həyat yoldaşımla taksi ilə gedirdik, taksidə biz də savayı bir cavan, saqqalı, görkəmli bir gənc də oturmuşdu, başladı yol boyu taksidə oturanlara dindən, danış- maq, mən buna din yox mövhümat deyirəm, öyüd-nəsihət verməyə...dedik, bala, Quranı oxumusan, dedi yox, mən filan-uzun saqqallıların kitabların oxumuşam, quranı Vasif Məmmədəliyev və rəhmətlik Ziya Bunyadov düzgün tərcümə etməyib.

Belə getsə bizim gələcəyimiz yoxdu, çünki dünyaya havayı yeyənlər lazım deyil, heç kəsə göydən maddiyat göndərilmir, elmsiz insanlar məhvə məhkum olacaqlar...yaşadığımız dövür bizə bunu diqtə edir...saqqalı və çadralı cavan nəsillə biz hara qədər gedə bilərik...?! Cavan nəsili bu duruma salanlar, oturub dərindən fikirləşməlidirlər...sonra gec olacaq...

Qızlara üzümü tutub demək istəyirəm ki, din adı altında sizə sırınan çarşablara alüdə olub həyatınızı heç-puç etməyin, oxuyun, ali təhsil alın, ali təhsil olmasa da hansısa bir peşə sahibi olun, qadının təhsili olmalıdır, təhsilli ana doğulduğu torpağın, yurdun, ən nəhayət Vətənin gələcəyinə elm çırağı yandırmış olur...çunki dünyaya gətirdikləri də təhsilə, savada can atırlar...Biz də təhsil alan zamanlar acılar çox çəkmişik, bizlərə də asan deyildi...

14.04.2019

101 İL ÖNCƏ

101 il bundan öncə sentyabrın 15-də Bakı erməni bolşevik işğalından azad edilib. 1918-ci ildə Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhərdə olan erməni-bolşevik işğalına son qoyub. Bundan 2 gün sonra isə ölkənin paytaxtı Gəncədən Bakıya keçirilib. Bakının erməni bolşevik işğalından azad edilməsi həm də Azərbaycanın müstəqilliyə qovuşması demək idi.

Osmanlı qoşunları Azərbaycanda həyata keçirdikləri hərbi əməliyyatlarda 1130 şəhid verib. Azərbaycan müstəqilliyini bərpa etdkdən sonra Bakıda, Şamaxıda, Göyçayda və digər rayonlarda Şəhid olan türk əsgərlərin xatirəsi əbədiləşdirilib.

Bakının Türk ordusu tərəfindən bolşevik-daşnaklardan azad edilməsi şəhərdə əsl bayram kimi qeyd olunub. Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə indiki Dövlət Filarmoniyasının binasında təntənəli ziyafət təşkil edib. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini tanıyan ilk dövlət də Türkiyə olub. Vətənin istiqlalı uğrunda şəhid olmuş soydaşlarımızı, Azərbaycanı Vətən sayan və onun uğrunda mücadilə edib şəhid olan vətəndaşlarımızı, Türk ordusunun komandanı Nuru Paşanı və onun qəhrəman sərkərdələrini minnətdarlıq hiss ilə yad edirik! Ruhları şad olsun!

15.09.2019

DÜŞMƏNƏ YAS TUTANLARA İPUCU

İranlı genral Qasım Süleymanin «Neft Daşları”na zərbə endirməklə bizi təhdid etdiyini unutmamışıq. O vaxtı mən də orda Geofizika idarəsində mühəndis işləyirdim. Yeni il böyük bir hadisə ilə başladı - ABŞ Hərbi Hava Qüvvələrinin Bağdadda endirdiyi hava zərbəsi nəticəsində İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) «Qüds” qanadının komandanı generalı Qasım Süleymani öldürüldü. Bu xəbər bütün dünyanı silkələdi və əlbəttə, cəmiyyətimizdən də bu yan keçmədi. Ancaq nəinki Cənubi, həm də Şimali Azərbaycan xüsusi agent Süleymaninin təsirlərini dəfələrlə hiss edib. 2000-ci illərin əvvəllərindən başlayaraq, neft yataqlarının işlənməsi hesabına Xəzərin su sahəsi ilə əlaqədar Azərbaycanla İran arasındakı fikir ayrılıqları nəticəsində, bizi «Neft Daşları”na zərbə endirməklə təhdid etdiyi zaman yaddaşımıza həkk olub. Ondan başqa heç kim bu sözlərin nəticələrini yaxşı anlamırdı və onun sözlərinin Azərbaycan üçün hansı məna kəsb edəcəyini özünə bir hesabat olaraq verdi. Türk qırıcılarının Xəzər dənizi üzərində etdiyi hava nümayişlərindən sonra heç bir yeni açıqlama verilmədi və üstəlik İran rəhbərliyi tərəfindən heç bir tədbir də görülmədi. Lakin Süleymaninin bu hərəkəti uzun müddət yaddaşlarda qaldı. Din amilinin milli ideya və milli kimlikdən üstün olduğunu görürük. A millət, gəlin varlığımıza diqqətli olaq...yoxsa bizi göyə sovurarlar....Gəlin öz dərdimizi çəkək, varlığımız və yurdumuz təhlükə içindədir... Özümüzə, kimliyimizə, min bir yerə parçalanmış Vətənimizə diqqətli olaq...Axı Azərbaycan İslam dinindən də çox-çox qabaq başqa adlar altında var idi... Ayılın, ey din-məzhəb təəssübkeşləri...Namus-şərəfimiz Vətəndir! Öncə VƏTƏN...

06.01.2020

QANLI YANVAR

Qara Yanvar, bəzən Qanlı Yanvar və ya 20 Yanvar faciəsi kimi yaddaşımıza həkk olub. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23.30-da Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələri tərəfindən fövqəladə vəziyyət elan edilmədən yeridilmiş və dinc əhaliyə divan tutulmuş, nəticəsində yüzlərlə insan qətlə yetirildiyi, yaralandığı və itkin düşdüyü qırğın. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda — yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir.

Sovet qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur; hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milislər olmuşdur. Qara Yanvar faciəsi nəticəsində SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası kobudcasına pozulmuş, Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmışdır. Qabaqcadan hazırlanan bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşımışdır. Eyni zamanda bu gecədə evlərə girib uşaqları girov götürür, bəzilərini isə öldürürdülər. Allah Şəhidlərimizə rəhmət eləsin, məkanları cənnət olsun! O gecə milyonlarla insanın tökülən qanları sayəsində yaradılmış SSRİ adında Rus imperiyası çökdü, biz şəhid düşmüşlərimizin qanı bahasına müstəqillik qazandıq, amma bu müstəqillik də paralı, yaralı haldadı! İşğal altda qalan yurdlarımız Rus imperiyasının Rusiya adlı dövlətinin dəstəyi və birbaşa köməyi sayəsində yandırılıb, dağıdılıb, öz yurddaşlarının həsrətlə yolunu gözləyir! 30 ildi ağrı içindəyik, Əldən getmiş yurdlarımızı qaytara bilsək, şəhid ruhları da yəqin ki, o zaman təskinlik tapar. O gün qismətimiz olsun, itirilmiş yurd ağrısı ilə alışıb yanan soydaşlarımız! Allah səbrimizi əlimizdən alsın...Yanvarın 19-u o günü yaşayanlar hamı tələtüm içində idi...o ağrılı-acılı günlər bir daha təkrar olunmasın...

Müstəqilliyimiz əbədi olsun...O gün gəlsin ki, müstəqillik yanğısıyla alışıb yanan güneyli soydaşlarımız da özgürlüklərinə qovuşsunlar...20 YANVAR HƏM DƏ BİZİM QÜRUR GÜNÜMÜZ VƏ VARLIĞIMIZIN İSBATIDIR!!!

19.01.2020

23 YAŞLI DAHİ...

Asəf Zeynallı 4 aprel 1909-cu ildə Dərbənddə doğulmuşdur. 1923-1926-cı illərdə Bakı musiqi texnikumunda, 1931-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində, Üzeyir Hacıbəyovun sinfini bitirmişdi. 1929-1931 illərdə türk (Azərbaycan) fəhlə teatrında musiqi bölməsinin müdiri və Azərbaycan proletar musiqiçiləri birliyinin sədri işləmişdir. Tofiq Quliyev və Qara Qarayev bir müddət onun tələbələri olmuşlar. Azərbaycan musiqi tarixində ilk romanslar Asəf Zeynallının adı ilə bağlıdır. 23 ilömür sürməsinə baxmayaraq milli musiqi sənətində silinməz iz qoymuşdur. Milli romans, piano və simfonik musiqinin banisidir. Onun "Ölkəm", "Sərhədçi", "Çadra", "Sual", "Seyran" romansları milli vokal musiqimizin inciləridir. Piano üçün "Uşaq süitası" silsiləsi, "Çahargah" pyesi, violino və piano üçün "Muğamsayağı", 2 fuqa, simfonik orkestr üçün "Fraqmentlər", teatr tamaşalarına musiqi, xalq mahnıları işləmələrinin müəllifidir. Azərbaycan musiqi folklorunun toplanıb nota köçürülməsi və işlənməsi sahəsində böyük iş aparmışdır. "İbtidai not savadı" adlı dərslik tərtib etmişdir.

06.04.2020

İKİNCİ QARABAĞ MÜHARİBƏSİ VAXTI YAZILMIŞ ŞEİRLƏR

AZƏRBAYCAN ƏSGƏRİ

Nə xəbərdir bu səhər qulaqlarım eşitdi?
İçimdəki niskilim alıb başını getdi,
Hönkürən diləklərim bu gün mərama yetdi,
Can deyir sənə ürək, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Eşitdim ki, yağının üstə şirtək gedirsən,
İşğal altdan yurdları bir-bir azad edirsən,
Qurd ürəkli əcdadın ruhunu yad edirsən,
Köməyin olsun fələk, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Pak amalın zirvələr aşacaqdır, bilirəm,
Düşmənlərə nifrətin daşacaqdır, bilirəm,
İçindəki qəzəbin coşacaqdır, bilirəm,
Yağı qurub şər-kələk, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Qəlbində od sönməsin, şir ürəyin döyünsün,
Qüvvətin tükənməsin, yurd-yuvamız öyünsün,
Hiyləgər yağıların çatdığı ocaq sönsün,
Qalib gününə gələk, Azərbaycan əsgəri!
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Nəriltindən titrədi yerin, göyün ac bağrı,
Yox oldu sinəmizdən bu düşgünlük, bu ağrı,
Getdiyin yol – Haqq yolu, dilində sözün doğru,
Ağrını udsun külək, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Üçrəngli bayrağımın özünsən şərəf andı,
Məğrurluğun önündə zaman durdu, dayandı,
Könlümdə qələbəyə ümid çırağı yandı,
Biz də sevinib gülək, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Aş irəli düşmənin əzilsin ayaq altda,
Əcdadının məzarı gizlənir neçə qatda,
Vətəndir şərəfimiz, namusumuz həyatda!
Ruhun doğurub Babək, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Şəhidlərin qanına suvaşıb torpağımız,
Qalib ol, sinəmizdən getsin məğlub dağımız,
Bilirəm arxalıdır, amansızdır yağımız,
Haqsız haqqı etməz dərk, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

Şadimanın ruhunu titrətdin sən bu səhər,
Tutdu gözümü yaşlar, boğdu boğazı qəhər,
Xilas et, Qarabağı, düşmənin udsun zəhər,
Qaliblikdən yapış bərk, Azərbaycan əsgəri,
Haqq savaşın mübarək, Azərbaycan əsgəri!

27.09.2020/ Qusar

VƏTƏNİN XİLAS SAVAŞI

Açılsın bağlı yolumuz,
Qoltuqdan çıxsın qolumuz,
Məğlub olmayıb ulumuz,
Azad edəcək dağ-daşı,
Vətənin xilas savaşı!

Qarabağ qana bulanıb,
İçinə atəş qalanıb,
Ocağına su calanıb,
Məlhəm olmayır göz yaşı,
Vətənin xilas savaşı!

Çıxardaq candan ağrını,
Sevməyib yalan doğrunu,
Qovaq yurdlardan oğrunu,
Əydi sinəyə dərd başı,
Vətənin xilas savaşı!

El-obaya qan ələndi,
Şəhid məzara bələndi,
Gözdən gurşadlar selləndi,
Xain bağra sal tələşı,
Vətənin xilas savaşı!

Haylar yurdlara gəlmədi,
Gələndən haqqı bilmədi,
Dərdimiz ilmə-ilmədi,
Bilirəm ki, zəfər qarşı,
Vətənin xilas savaşı!

03.10.2020/ Qusar

BU GÜN ZƏFƏR VAXTIDIR

Üçrəngli bayrağımız dolaşsın Qarabağda,
Düşmən qanı sel təki qoy aşsın Qarabağda,
Əsgər marşı dağ-daşla yollaşsın Qarabağda,
Nərəsi yeri-göyü qopardan ər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

Ayağının altından, şanlı Əsgər, od çıxsın,
Qat qabağına hayı, qoy torpaqdan yad çıxsın,
Yetər ki, qəlbimizi ağrıdan fəryad çıxsın,
Otuz il elsiz qalan yurda səfər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

Bəsdir yalan dillərin qanunları işlədi,
Nahaqq dövran suladı, haqq dilini dişlədi,
Etdikləri zülümlər qəlbimizə işlədi,
Qalx ayağa məmləkət, qəlbə təpər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

Müzəffər Ordumuzun nərəsi dağlar aşır,
Qələbə sorağları Qarabağda dolaşır,
Yalanı şir edənlər bugün bizlə dalaşır,
Yaşa şərəfli xalqım, savaşa tər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

Ali Baş Komandanın ətrafında birləşək,
Çalaq şərə qələbə, dünyada sehirləşək,
Hamı bir nəfər kimi Qarabağda yerləşək,
Düşməni qabağına indi çəpər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

Şadiman, qalib olaq, son qoyaq xain qəsdə,
Şəhid ruhlar narahat gəzir məzarlar üstə,
Düşmən əliqanlıdır, ağlı-zəkası xəstə,
Tuşlayaq silahları haya, sipər vaxtıdır,
Bu gün zəfər vaxtıdır!

03.10.2020/ Qusar

ALİ BAŞ KOMANDANIM

İradən qarşısında mənfur düşmən əzilir,
İşğal etdiyi yurddan daha əli üzülür,
Qarabağın düyünü savaş ilə çözülür,
Doğma yurd –yuvamıza yağı leşi düzülür,
Müjdələrin çox olsun,
Vur yağını, yox olsun.
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

Dikəltdin sinələrdən otuz il enən başı,
Qovdun ürəyimizdə yuva salan tələşı,
Qurtulsun xainlərdən Vətən torpağı, daşı,
Sevinc yaşına dönsün gözümüzün qəm yaşı,
Səsin düşüb dünyaya,
Yağını saldın vaya,
Gün doğub günə, aya,
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

Yeni tarix yazırsan Vətənin şərəfinə,
Necə də bənzərin var sənin öz sələfinə,
Qalib şöhrət gətirdin, sən əziz-xələfinə,
Məmləkətin ürəyi Qarabağ bir dəfinə,
Zəfər çalır Ordumuz,
Qisas alır Ordumuz,
Azad olur yurdumuz,
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

Əmrinə müntəzirdi qolu qüvvətli əsgər,
Nərəsənidən titrəyən dünya heyrətli əsgər,
Anasının südünə, yurda qeyrətli əsgər,
Vətənin yarasına şəfa, şəfqətli əsgər,

Əlimiz ehramdadı,
Dilimiz duadadı,
Allah yurda yar olsun,

Xainlərə ar olsun,
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

Televizyanın önündə hər gün səni gözlərik,
Zəfər xəbərlərini biz fərəhlə izlərik,
Ordunun yürüşünü ürəkdə əzizlərik,
Ocaq çatıb sinədə qalib eşqlə közlərik!
Şəhidlərin ruhu şad,
Gedib qəlblərdən fəryad,
Rədd olsun yurdlardan yad,
Olsun Qarabağ abad!
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

Bir yumruqtək birləşib indi Vətən adamı,
Yağının ürəyində qaldı hiyləgər kamı,
Allah, yüz il yaşasın Yurdumuzun İlhamı,
Azad olsun Qarabağ, yansın ocağı, şamı!
Sənə zəfər yaraşır,
Sevincimiz dağ aşır,
Adın dildə dolaşır,
Gülsün Azərbaycanım,
Ali Baş Komandanım.

21.10.2020/Qusar

ALLAHA İNANANA MƏZHƏB LAZIM OLMAYIR

Ey məzhəbi ürəkdə ocaq edib yandıran,
Onu-bunu özünün istəyiylə qandıran,
Başını kütləşdirib, hisləri oyandıran,
Baş elə bir mücrüdür, içi boşsa, dolmayır,
Allaha inanana məzhəb lazım olmayır.

Bəndəni Tanrı sayıb ona səcdə edənlər,
İlahini unudub pir üstünə gedənlər,
Guya ki, haqq evinə nəzir müjdə edənlər,
Pak olan haqq gözündə heç kənarda solmayır,
Allaha inanana məzhəb lazım olmayır.

Yaradanı sevməkçin vicdanı təmizləyin,
Haqq könüldən başlayır ömrü boyu izləyin,
Etdiyiniz nədirsə bədəlini gözləyin,
Rəbbim hər bəndə içrə ayrı-seçkik salmayır,
Allaha inanana məzhəb lazım olmayır.

Din Allaha inamsa, bəs məzhəb niyə gərək?
Hamı qalxsın yuxarı, küy salsın göyə gərək,
Dinləri parçalayan öz başın döyə gərək,
Dünyaya gələn gedir, heç bir kimsə qalmayır,
Allaha inanana məzhəb lazım olmayır.

Əvvəl-axır hamının əməli üzə çıxır,
Kimi haqqı tapdayır, kimi də sözə çıxır,
Ürək nə sərgiləsə, o saat gözə çıxır,
Yaradan bizim təki boş xəyala dalmayır,
Allaha inanana məzhəb lazım olmayır.

Şadiman ürəyini şam eylədi Allaha,
Dərdini sözə tökdü, ümid etdi sabaha,
Dinlərə don geydirib canı atdıq günaha,
Rəbb bəndətək düşünüb kimsədən beh almayır,
Allaha inanana məzhəb lazım olmayır.

23.10.2020/Qusar

BİR RİCAM SƏNDƏN PAYIZ

Bir ricam var səndən payız,
Gecik, gəlmə yurdumuza.
Pay gətirmə çəndən payız,
Soyuq olar Ordumuza.

Əsgərimiz savaşdadı,
Yağıları qovur yurddan.
Düşüb ərzə qalıb adı,
Güllələri doğur oddan!

Yağışını götür apar,
Torpaq üstə zığ eləmə.
Düşmən yurdda tufan qopar,
Yağıya heç can diləmə.

Gecik, gəlmə məmləkətə,
Düşmənə qan uddururuq!
Gəlib düşmə fəlakətə,
Yağını başdan vururuq.

Bir ricam var səndən payız,
Gəlirsənsə günəş gətir,
Apar qışı gendən payız,
Müjdəmizi yaza yetir.

23.10.2020/Qusar

ALLAHA ƏMANƏT OLASAN, VƏTƏN

Dərdin ürəyimdən baş alıb gedir,
Canım hər gün sənə min səcdə edir,
Tanrım göy içindən xoş müjdə edir,
Bu dünya durduqca qalasan, Vətən.
Allaha əmanət olasan, Vətən.

Çıxart əyinindən qəm libasını,
Qurub oğulların yağı yasını,
Alır vəhşilərdən yurd qisasını,
Haqqın qələbəsin çalasan, Vətən,
Allaha əmanət olasan, Vətən.

Qıvrılsın çayların dərədən, dağdan,
Ordumuz qurtarır səni fərağdan,
Ürək fərəhlənir bu xoş növrağdan,
Düşmənə alınmaz qalasan, Vətən,
Allaha əmanət olasan, Vətən.

Haylar çörəyini yeyib qudurdu,
Üzə gülmüsədi, arxadan vurdu,
Oğluna, qızına min tələ qurdu,
İstədi payıztək solasan, Vətən...
Allaha əmanət olasan, Vətən.

Qələbə sevinci gəzir dağ-daşda,
Oynayır vüsalın ürəkdə, başda,
Yerin qəlbimizdə yuxarı başda,
Özün ruhumuza balasan, Vətən,
Allaha əmanət olasan, Vətən.

Şadiman meşənə, dağına vurğun,
Gəzir ürəyimdə vüsalın oğrun,
Canı tərk etməyən eşqin qoruğun,
Oraya güzarı salasan, Vətən,
Allaha əmanət olasan, Vətən.

23.10.2020/Qusar

XÜDAFƏRİN KÖRPÜLƏRİ

Tariximin qan yaddaşı,
Şahid ona yurd yerləri,
Min bir dastan hər bir daşı,
Xüdafərin körpüləri.

Düşmənlərin üzün gördü,
Kül içində közün gördü,
Səhər-axşam özün gördü,
Xüdafərin körpüləri.

Ər-ərənə qucaq açdı,
Yolun verdi, ocaq açdı,
Çadırına bucaq açdı,
Xüdafərin körpüləri.

Əsrlərin məhək daşı,
O tay-bu tay qan yaddaşı,
Birləşdirdi vətəndaşı,
Xüdafərin körpüləri.

Ayırdılar, ayrılmadı,
Gəzdi tarix içrə adı,
Min fərəhi, min fəryadı,
Xüdafərin körpüləri.

Bitdi daha hay işğalı,
Etdi Ordu vay işğalı,
O tay, bu tay söylər halı,
Xüdafərin körpüləri.

Şah Xətai, qov atını,
Qur burda ruh həyatını,
Desin ötən büsatını,
Xüdafərin körpüləri.

Şahid oldu yağılara,
Fəryad dolu ağılara,

Məlhəm oldu sarğılara,
Xüdafərin körpüləri.

Qurban olum mən ağrına,
Öp bayrağı sal bağrına,
Ordumuzu al bağrına,
Xüdafərin körpüləri.

Qalib adın qutla onun,
Bitiribdi yağı sonun,
Dağlar ruhun, Araz donun,
Xüdafərin körpüləri.

Şadimanı etdin çıraq,
Ruhu səndən verir soraq,
Gəl birləşək, ocaq quraq...
Xüdafərin körpüləri.

23.10.2020/Qusar

YÜRÜ ƏSGƏR, YAĞI ÜSTƏ

Titrəsin dağ-daş nərəndən,
Töksün bulud yaş nərəndən,
Qalmasın yad baş nərəndən,
Düşmən ruhu, könlü xəstə,
Yürü əsgər, yağı üstə!

Çox talandı yurd-yuvalar,
Yağıları ər qovalar,
Keçir hələ xoş havalar,
Şər qoymayıb daş daş üstə,
Yürü əsgər, yağı üstə!

Taladılar Qarabağı,
Arxalıymış azğın yağı,
Çəkib elə sinə dağı,
Otuz ildi durub qəsdə,
Yürü əsgər, yağı üstə!

“Cəngi” çalın, yalnız “Cəngi”,
Pozulmasın el ahəngi,
Savaş üçün çalın zəngi,
Zilə çıxın, nədir bəstə,
Yürü əsgər, yağı üstə!

Al düşməndən qisasını,
Zil et “Cəngi” havasını,
Dil tutmasın duasını,
Bədən içrə can ahəstə,
Yürü əsgər, yağı üstə!

Çək nərəni, qoy hallansın,
Yağı başı dumanlansın,
Aç atəşi, odda yansın,
Can deyir dil sənə pəstə,
Yürü əskər, yağı üstə!

Hünər göstər dastan olsun,
Sənə qurban bu can olsun,
Aramızda hicran olsun,
Qeyrət qanı var hər kəsdə,
Yürü əsgər, yağı üstə!

Çalsın hamı zəfər marşı,
Düşmənlərlə dolu qarşı,
Sinəmizdən qaldır başı,
Qələbəni gücdən istə,
Yürü əsgər, yağı üstə!

23.10.2020/Qusar

TORPAĞA GÖMÜLÜB

Torpağa gömülüb şəhid qanları,
Çöküb ruhumuza əziz canları.

Vicdanlar içindən boylanır baxır,
Vaxtsız ölümləri yandırıb yaxır.

Qəhrəman doğulub anadan onlar,
Vətənə sevdalı igid cavanlar.

Gedirlər xilasa yurdu, yuvanı,
Qururlar yağıya qisas divanı!

Vətənin seçilmiş balalarıdı,
Başı uca edən qalalarıdı.

Şərəf tarixini yazırlar onlar,
Düşmənin məzarın qazırlar onlar.

Ya qazi olurlar, yada ki, şəhid,
Ana bətinində alırlar öyüd!

Onlar hamı kimi olmayır heç vaxt,
Qalır yaddaşlarda, solmayır heç vaxt.

Neçə il yaşasaq sonu ölümdü,
Həyatın görünməz donu ölümdü.

Torpaq qan içəndə Vətənə dönür,
Girir sinəmizə qəlbdə döyünür.

Şəhidi məzarda uydurur torpaq,
Yurdun varlığını duydurur torpaq,

Şəhidlər, qazilər Vətənin özü,
Odur ki, qəlblərə basılır közü.

Onlar unudulmur yurd-yuva kimi,
Çökür nəfəslərə bir hava kimi.

Bu dünya durduqca yaşayır onlar,
Vətənin şərəfin daşayır onlar.

24.10.2020/Qusar

BOYLANAN BULUD

Vətən göylərində boylanan bulud,
Çəkil səmalardan doğsun al günəş.
Bağrımız içində vaylanan bulud,
Sənin varlığını boğsun al günəş.

Yurdumuz, yuvamız qurtulsun ahdan,
Qələbə zəfərin qazansın Ordu.
Qovuşaq dincliyə elə sabahdan,
Qaliblik sevinci bürüsün yurdu.

Əsgərimiz qırsın quldur dəstəsin,
Dostumuz sevinsin, düşmən çatlasın.
Haqdan yan keçənlər kaş haqqa gəlsin,
Qoy şərin dizini xeyir qatlasın.

İlahi, qalib et sən Ordumuzu,
Yağı tapdağında qalmasın Vətən!
Tarixə qalibtək sal adımızı,
Heç məğlub durumda olmasın Vətən!

Şuşaya sancılsın üçrəngli bayraq,
Qovaq Xankəndindən mənfur düşməni.
Qələbə xəbərin dünyaya yayaq,
Zəfər müjdələri sarsın ölkəni...

30.10.2020/Qusar

DÖYÜŞƏN VƏTƏN

Haqsız dünya ilə döyüşən Vətən.
Haqqına çatdırsın Allahım səni.
Olsun körpələrin daha şən, Vətən,
Müjdəyə yetirsin sabahım səni.

Donmasın dodaqda körpə gülüşü,
Qulağın dəlməsin güllə səsləri.
Dodaqlar sevinclə öpə gülüşü,
Gül-çiçək qoxusun qoy nəfəsləri.

Yazsın şanlı Ordu zəfər tarixin.
O məğlub illərin üstdən xətt çəkək.
Bağrına iz qoysun səfər tarixin,
Düşmənin önünə min bir sədd çəkək.

30.10.2020/Qusar

HAYSAN HAY

Sən hiylə atını çapdın sağ-sola,
Bir gün hiylələrin çatlar başında.
Mənfur azğınlıqla çıxdın şər yola,
Görərsən zülümün özün qarşında.

Adını erməni qoydun, haysan hay,
Nə qədər qanlara batıbdı əlin.
Sənin nəfəsindən doğulubdu vay,
Şərdən yoğrulubdu, çünki təməlin.

Qafqaza ayağın dəyəndən bəri,
Batdı yurd-yuvamız qana, qırğına.
Qapdı qılıncını yurd igid, əri,
Min dəfə xəncərin soxdu bağrına.

Xain əməlindən dönmədin heç vaxt,
Fürsət düşən kimi arxadan vurdun.
Tələ qurmaq üçün aradın bir vaxt,
Əlin çatan yerdə min hiylə qurdun.

Qaraçı soyundan ayrılmısan sən,
Ey yurdu olmayan torpaq oğrusu.
Fitnəylə, fəsadla doyrulmusan sən,
Etdiyin zülümün getmir ağrısı!

Öncə ac-yalavac daşındın yurda,
Artıb – çoxalanda, mənimdi dedin.
Sənin bənzərin var soxulcan qurda,
Yurdları uçurdub neçə baş yedin.

Savaş meydanında siçovul oldun,
Qaçıb gizlənməkçin yuva axtardın.
Ananın bətnindən namərd doğuldun,
Dünyanı hiylənin toruna sardın.

Kişi savaşına cürətin çatmır,
Qadına, körpəyə raket atırsan.
Çirkin əməlini vicdan oyatmır,
Hara ayaq qoydun aləm qatırsan.

Saldın Qarabağa qırğın, qiyamət,
Uçurtdun, dağıtdın yurd-yuvaları.
Səndə insanlıqdan yoxdur əlamət,
Unudub kök-soyun köç havaları...

Sənə yuva verdi yurd insanları,
Duz-çörək kəsdilər, süfrə açdılar.
Hiyləylə bəlaya saldın onları,
Öz yurd-yuvasını qoyub qaçdılar.

Üzə pərdə çəkdin İsa dinini,
Amma iblislərlə peyman bağladın.
Öldürdün körpəni içdin qanını,
Dildə bayraq etdin Tanrının adın.

Bütün Avropanı hiylən dolaşdı,
Əl açıb diləndin hara getdinsə.
Vərəqlər, qələmlər şərə bulaşdı,
Şərə yoldaş oldun nəyi etdinsə.

Alban tarixini keçirtdin ələ,
Ulu məbədlərə hiylə işlətdin.
Etdiyin yamanlıq vay saldı elə,
Qaraçı köçündən düşən millətdin.

Sən arsak deyərək haray salırsan,
Arsak ərsaklardı, türkün soyudu.
Alçalıb ağana yardım alırsan,
Sənin düşəcəyin dərin quyudu.

Qarabağ yurdudu əcdadımızın,
Onun sərvətini taladın, bəsdir!
Nərəsi şir gücü övladımızın,
Qurduğun hiylələr daha əbəsdir.

Əsgər çəkməsinin ayağı altda,
Əzilib itirsən xəbərin varmı?!
Nə əl-qol atırsan bu batabatda,
Kişilik adına təpərin varmı?!

Sənə qənim olsun erməni adın,
Ərlər belə olmur bunu biləsən.
Ey səni dünyaya gətirən qadın,
Mənfur doğduğunla birgə öləsən!

31.10.2020/Qusar

AZAD OLUR YURD-YUVALAR

Əsirlikdən azad olur yurd-yuvalar,
Ellər gəlir görüşünə can Qarabağ.
Dodaqlarda cilvələnir haqq dualar,
Zəfər donun geyinibdi an Qarabağ.

Açsın qoynun Cıdır düzü Ordumuza,
Pənahəli xanın ruhu qoy şadlansın!
Qalibiyyət şərəf verir yurdumuza,
Saf qəlbimiz yurd eşqiylə qidalansın!

Əsgərimiz addımlasın sıralarda,
Ayağının alttan çıxan od parlasın.
Vətən dərdi köz bağlamış yaralarda,
Ürəyimiz savaşlarla alovlansın.

Mənfur düşmən məkirlidir, hamı bilir,
İşğal etdi yurd-yuvanı arxasıyla.
Əsgərimiz məğlub adın üstdən silir,
Düşmən üstə gedir "Cəngi" havasıyla.

Ey Vətənin oğlu-qızı ayıq olun,
Dayağınız el-obanın birliyidir.
Qurtuluşun çarəsidir savaş yolun,
Yağı altda qalan Vətən dirliyidir.

Şəhid qanı axır Vətən bağırında,
Savaşlardan qalib çıxmaq kişi işi.
Şuşamızın harayı var, ağırında,
Otuz ildi dodağmızi kəsir dişi!

Hay üzünü pərdələyib hiyləsiylə,
Tökdüyü qan könlümüzü yaralayıb.
İçimizdən yurd bağırır gur səsiylə,
Bu bağırtı yerin bağrın aralayıb.

İşğal bitir, Qarabağa gün doğacaq,
Talan olmuş imarətlər tikiləcək.
İşğalçını yürütdüyü kin boğacaq,
Gün gələcək dərddən beli büküləcək.

Ordu hərbin tarixinə dastan yazır,
Əsgərinin ayaq səsi yer titrədir.
Duyğulanan ürəyimə hikmət sızır,
Yerin bağrın hünəriylə ər titrədir.

Ey Şadiman, zəfər marşın alır qulaq,
Qələbəmiz yaxındadır, duyuram mən.
Təmizlənər Qarabağdan tezcə alaq...
Bu eşqiylə günlərimi sayıram mən.

05.11.2020/Qusar

XOŞ OLSUN

Günlərimiz bir-birindən xoş olsun,
Gözümüzdə səadətdən yaş olsun,
Qalibiyyət hər xəbərdən baş olsun,
Sevincimiz dərə keçib dağ aşır,
Vətən, sənə qalib olmaq yaraşır.

İşğal altdan qurtulduqca yurdumuz,
Zəfər andın hər gün içir Ordumuz,
Savaşlardan şirtək keçir Ordumuz,
Məğlub düşmən izi azır, yol çaşır,
Vətən, sənə qalib olmaq yaraşır.

Nufuzunu qaldırmısan şərəflə,
Hərb kitaba saldırmısan şərəflə,
Zəfər marşın çaldırmısan şərəflə,
Könlümüzə fərəh yağır, çay daşır,
Vətən, sənə qalib olmaq yaraşır.

Çin-çin olur ürəyimdə sözlərim,
Dikilibdi yollarına gözlərim,
Ürəyimdə atəş saçır közlərim,
Qarabağın düzlərində dolaşır,
Vətən, sənə qalib olmaq yaraşır.

Şadimanın üzü gülmür nə vaxtdı,
Mənfur düşmən qayçıladı bu baxtı,
Könlümüzə ahu-nalə buraxdı,
Qalib adın misralarla yollaşır,
Vətən, sənə qalib olmaq yaraşır.

05.11.2020/Qusar

OYANAN VƏTƏN

"Cəngi" havasına oyanan Vətən,
İgidlər savaşa şir kimi gedir.
Əsir yurdlarına boylanan Vətən,
Oğullar döyüşə ər kimi gedir!

Qoy qalib günün sayı çox olsun,
Şərəf tarixinə adını yazdır.
Ordumuz savaşda haqqını bulsun,
Şəninə deyilən nə varsa azdır!

Çökdür dizi üstə mənfur düşməni,
Sən dünyaya göstər öz qüdrətini.
Töz təki yurdlardan üfür düşməni,
Qaldır ayaqlardan ləyaqətini.

Itirə-itirə getdin yüz illər...
Yeni tarixinin yaz kitabını.
Vətən, alqış desin sənə nəsillər,
Vermə yad əllərə haqq-hesabını.

05.11.2020/Qusar

ALPAN ALBAN OLDU

Alpan alban oldu, haylar erməni,
Gətirdi ölümü qanı Qafqaza.
Tarixin fəryadı ağrıdır məni,
Dərdlər dastan oldu inləyən saza.

Alpan türk soyunun qolundan biri,
Qubanın Alpanı adını saxlar.
Gizlədir əcdadı hər məzar sirri,
Sancılıb köksünə çıxmayır oxlar.

Qıpçaq dədələrin İsa inancı,
Ayırdı kökündən, soyundan onu.
Vətənin bağrına doldu bu sancı,
Bitmədi savaşın, qırğının sonu.

Çəkdi yad ellilər xaç təəssübü,
Alpan kilsələrin taladı, uddu.
Xaçpərəst ağanın tac təəssübü,
Hayların kimliyin tamam unutdu.

Rus çarı dağıtdı tariximizi,
Ərmağan eylədi mənfur haylara!
Qovdu oba-oba Vətəndən bizi,
Məmləkət tuş oldu ahu-vaylara!

Tarixə qovuşdu İrəvan xanı,
Haya ermənistan etdilər onu,
Bəs ədalət varsa, dünyada hanı?
O gündən bitməyir bu zülmün sonu...

Qarabağ bulaşdı qana, qırğına,
Hayların hiyləsi bitmədi heç vaxt.
Düşdü zülmkarın haqq ayağına,
Hönkürdü, ağladı min bir tale, baxt.

İndi zəfər marşı çalır Ordumuz,
Üç yüz illik qisas alınır Haydan.
İşğaldan qurtular bütün yurdumuz,
Qurtarar nalədən, qırğından, vaydan.

05.11.2020/Qusar

YENİ TARİX YAZIRIQ

Ey üzü dönmüş fələk,
Çevir bizə üzünü.
Yağıya vermə kələk,
Al ürəkdən közünü,
Haqq savaşa hazırıq,
Yeni tarix yazırıq.

Ayır bizə vaxtından,
Al qəlbdən ahımızı.
Sal şəri öz taxtından,
Nur et sabahımızı.
Demə yoldan azırıq,
Yeni tarix yazırıq.

Ey üzü dönmüş fələk,
Ordumuzu şanlı et.
Bu eşqlə vursun ürək,
Eli Vətəncanlı et,
Şərə quyu qazırıq,
Yeni tarix yazırıq.

Haqq qapısın aç bizə,
Dünya bizi anlasın.
Göylərdən nur saç bizə,
Quraq düşmənin yasın.
Alaq Vətən qisasın!
Olmayaq qəlbi qırıaq,
Yeni tarix yazırıq.

05.11.2020/ Qusar

AÇ QOYNUNU

İşğal altda qalan yurdlar,
Ordumuza aç qoynunu.
Düşməndən dərd alan yurdlar,
Həsrət qoydu ac qoynunu.

Düşdüz yağı talanına,
Tuş olduz şər yalanına,
Şərəf qatır ər anına,
Eylə ona tac qoynunu.

Azğın düşmən çox qan tökdü,
Ellərinin bağrın sökdü,
Ocaqlara duman çökdü,
Vermə şərə bac qoynunu.

Demə yağsın payızına,
Əsgər gəlir pişvazına,
Ocağı çat ər qızına,
Eylə ona sac qoynunu.

Uyma düşmən qəfəsinə,
Ordumuzun nəfəsinə,
Dağ titrədən nərəsinə,
Günəş təki saç qoynunu!

05.11.2020/Qusar

VƏTƏN, SƏNƏ CANIM FƏDA

Nə doğmadır dağın, daşın,
Müqəddəsdir hər qarışın,
Min illərdən soraq yaşın,
Varlığıma salır səda.
Vətən, sənə canım fəda.

Yağıların səni üzdü,
Yurd-yuvana kədər düzdü,
Düşmənində neçə üzdü?!
Saldı yurda çox qan-qada,
Vətən, sənə canım fəda.

Əsgərlərin sıralanıb,
Şəhid olub, yaralanıb,
Yağından can aralanıb,
Ürəyinə düşüb qada,
Vətən, sənə canım fəda.

Ordun edir haqq savaşı,
Sinəsindən qalxıb başı,
Qarabağın pak dağ-daşı,
Qoy qalmasın azğın yada,
Vətən, sənə canım fəda.

Xarıbülbül çiçəkləsin,
Ətəkləri ləçəkləsin,
Alsın ərzi o haqq səsin,
Qalib sayıl bu dünyada,
Vətən, sənə canım fəda.

05.11.2020/Qusar

BİZİ NECƏ AĞRITMISAN

Bizi necə ağrıtmısan,
Elə də sən ağrı, düşmən.
Özünü şər doğrutmusan,
Üzsün fitnən bağrı, düşmən.

Pislik gəldi çox əlindən,
Fələk vursun düz dilindən,
Çıxmadı heç söz dilindən,
Heç bir zaman doğru, düşmən.

Yazdın yalan tarixini,
Qanlar salan tarixini,
Elə talan tarixini,
Yurd-yuvama oğru düşmən.

Ordu gəlir qaçsan hara,
Salar səni ahu-zara,
Əsgərimiz vurar yara,
Qoysan da min sarğı, düşmən.

Anan doğub min üz səni,
Xilas etməz bu üz səni,
Edəcəkdir gec-tez səni,
Dünya bir gün sorğu, düşmən.

06.11.2020/Qusar

ALLAHIN EVİNDƏ

İşğaldan azad olmuş Qubadlı rayonun Məmər kəndində ermənilər məsciddə donuz saxlayıblar.

Allahın evində donuz saxlayan,
Sən özün donuzsan, heyvanda suç yox.
Şərəfsiz kimliyi kökdən laxlayan,
Dünyaya çayırsan, imanda suç yox!

Hansı qəbilədən artıb çoxaldın?
Əmələn terrordu, addımın hiylə.
Hara ayaq basdın, ora qan saldın,
Tanrının üzünə çıxırsan neylə?!

Guya imanını xaça bağladın,
Bəslədin İsaya yalandan sevgi.
Başına bəladı sənin hay adın,
Tanrıya olmalı hər candan sevgi.

Məscid müsəlmanın müqəddəs yeri,
İbadət yerini təhqir edirsən.
Allahın evini etdin qəsd yeri,
Çirkin dərrakənlə hara gedirsən?!

Çoxdan xain çıxdın duz-çörəyə sən,
Duz-çörək itirən – haqqı tanımaz.
Yalandan xaç çəkmə o fələyə sən,
Çünki doğulmusan anadan qanmaz.

İsanı əlində bayraq eyləyib,
Hər bir din-imana həqarət etdin.
Xaçı ürəyinə çıraq eyləyib,
Alpan kilsələrin çox qarət etdin.

Biz bütün dinlərə hörmət edirik,
Hər din İlahiyə sevgi çeşməsi.
Hamımız ölürük, Rəbbə gedirik,
Hərənin bir cürdür, amma qibləsi...

Hansı qəbilənin törəməsisən?
İçdə yaşadırsan vəhşi xisləti.
Özün öz başına bəla ikən sən,
Kimliyin adına doğdun illəti.

Məzarlar yağısı, inanc düşməni,
Donuz səndən təmiz bunu biləsən.
Əqidən düzəldə bilməyib səni,
Çətin ki, imana, dinə gələsən.

06.11.2020/Qusar

YƏHUDİ XALQI

Fələyin verdiyi ömrə tapındı,
Boşa gün sürmədi yəhudi xalqı.
Beyni diqtə edən əmrə tapındı,
Nələri görmədi yəhudi xalqı.

Çoxları sevmədi onun kimliyin,
Məntiqli beyini dünyaya gücdü.
Zəkayla göstərdi öz hakimliyin,
Dağın əzəməti qayaya gücdü!

Ağlı, düşüncəsi mizan tərəzi,
Həsr etdi elmə, savada özün.
Yoxdu bu dünyada onun əvəzi,
Boş yerə xərcləməz öz odun, közün.

Min illər iç-içə yaşadı bizlə,
Amma yurdumuza göz dikmədi o.
Vətənin ağrısın daşıdı bizlə,
Özünü kənara heç çəkmədi o.

Faşist dəhşətindən keçdi taleyi,
Əzildi, qırıldı, hənuz çökmədi.
Soyqırım zəhərin içdi taleyi,
Ağlayıb, hönkürüb belin bükmədi!

Zəhmətlə cah-cəlal qurdu özünə,
Dünyanı ağlının oduna saldı.
Aləmi bürüdü ürək közünə,
Qurub-yaratmağı adına qaldı.

Qorudu əzabla Rəbb inancını,
Heç kəs unutdura bilmədi ona.
Nə qədər vursa da fələk qamçını,
Ümidsiz ağrısı dolmadı cana.

Dolaşdı dünyanı səsi, sədası,
Cahanı yük etdi özünə hər vaxt.
Bağrına sancıldı haqqın nidası,
Güvəndi gücünə, sözünə hər vaxt.

Ayağın basdısa hansı ölkəyə,
Ora zəkasından sərmayə axdı.
Xöşbəxtlik gətirdi şansı ölkəyə,
Qibtə edənləri yandırıb yaxdı.

Bu gün müharibə Vətənimizdə,
Bizimlə veribdi kürək-kürəyə.
Doğmadan doğmadır o evimizdə,
Ülfəti işləyir, sanki ürəyə.

Bizimlə birliyi dağdı düşmənə,
Bizə vəfasından yanıb tökülür.
Azərbaycan eşqi olub ənənə,
O üzdən yağının beli bükülür.

Dünyanın taxtında oturub şəstlə,
Yaradır, yaşayır yəhudi xalqı.
Hər bir çətinliyi böyük vüsətlə,
Çiynində daşıyır yəhudi xalqı.

06.11.2020/Qusar

DAYAĞIMIZ OLMUSAN

Çətin gündə daima dayağımız olmusan,
Könlümüzdə solmayan çırağımız olmusan,
Düşmən aşa bilməyən şiş dağımız olmusan,
Bu dünyada arxamız, pənahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Ey sultanlar ölkəsi, məmləkətin var olsun,
Açsın xeyir qapını, hər gün sənə yar olsun,
Dilbər səltənətində həmişə bahar olsun,
Yurda müjdə gətirsin sabahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Qarabağ azad olur yanır-yaxılır düşmən,
Əsgərin ayağına ölüb yıxılır düşmən,
Basılıb künc-bucağa yaytək sıxılır düşmən,
Mənəvi dəstəyinlə yox ahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

İşğal altda qalmışdı yurd-yuvamız otuz il,
Boğuldu içimizdə haqq duamız otuz il,
Yaşamaqçın yetmədi saf havamız otuz il,
Məğlubluq oldu bizə günahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Osmanlı dövlətinin şərəfin daşıyırsan,
Min illər dövlət qurub, qürurla yaşayırsan,
Hamıya qucaq açdın dedin: Xoş yaşa insan!
Soyuna sahib çıxan ürcahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Parçalanmış Vətənin ümidi sənə bağlı,
İşlətdi haqq işlərə oğlun zəkanı, ağlı,
Yurdlarımız yağıya tikə oldu çox yağlı,
Düşmənə dostluq oldu silahımız, Türkiyə...
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Sən qardaşsan ölkəmə amalın qutlu olsun,
Soy-kökünə sahibim, Vətənin mutlu olsun,
Bir-birinə sarılan yurdlar umudlu olsun,
Yağıya yem olmasın gicgahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Al rəngli bayrağını qoyaram gözüm üstə,
Baş əyirəm önündə bu qədər dözüm üstə,
Torpağına diz çöküb qoyaram üzüm üstə,
Ocağı ərşə bülənd yurdgahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

Şadiman fərəh dolu bu günlərlə öyünür,
Bəxtimizdən açılan düyünlərlə öyünür,
Ürəyimiz əzəldən varlığınla döyünür,
Şərə meydan oxuyan gücgahımız, Türkiyə,
Səni şərdən qorusun Allahımız,Türkiyə.

07.11.2020/Qusar

ÜZ ÜZƏYİK BİZ

Mənfur düşmənlərlə üz-üzəyik biz,
İlahi, qalib et sən Ordumuzu.
Min bir haqsızlıqla göz-gözəyik biz,
Qoru azğınlardan bu yurdumuzu.

Zəfər yürüşümüz ərzə səs salsın,
Dünyanın gözündə ucalaq biz də.
Adımız tarixdə şərəflə qalsın,
Elimiz, obamız qalmasın düzdə.

Əsgər nərələri aşsın dağları,
Olmasın bir qarış yurd işğal altda!
Yansın obaların gur çıraqları,
Biz də başı uca olaq həyatda.

07.11.2020/Qusar.

ODUNA SIĞINDIĞIM VƏTƏN

Oduna sığındığım Vətən,
Birər-birər yurdların işğaldan azad olur.
Azğın düşmən rədd olur torpağımızdan.
Yaman vahiməyə düşüb hərb sorağımızdan.
Xaraba qoyduğu kənd, şəhər qoymadı,
Daha kim qaldı qəlbini oymadı.
İçində kin-küdurəti bitməyir bizə qarşı,
Hələ bilmir nə diqtə edəcək ona qarşı...
Ordumuzun uğurları,
Partladır nifrət dolu bağırları..
Yağı əlində uçulub sökülmüş,
İçinə yurddaş qanı tökülmüş
Xaraba kəndlər, şəhərlər könlə qəhər bürüyür,
Amma igid əsgərimiz yağı üstə yürüyür.
Yürüyən ayaqlarınız yorulmasın balalar,
Sizi gözləyir uçulub dağılmış qalalar,
təhqir olunmuş ibadət yerlərimiz.
Dağ-daşa lərzə salan,
Düşmənin canın alan ərlərimiz,
Sənin xilasına gəlir Vətən,
Yağının yasına gəlir Vətən.
Şir ürəkli igidlərə yollarını aç,
Onlarladı yalnız əlac!
Əlac bildiklərini bağrına bas,
Qoy qiyamətə qalmasın qisas!
Namusu tapdalanmış qız-gəlinlərin
ruhu dolaşır oralarda,
Bir göynərti var köz bağlamış yaralarda...
Qarabağında qisas savaşı gedir,
Ordumuz düşmənin darmadağın edir!
Qazilərinin gözləri aydın,
Heç zaman unutma şəhidlərinin adın!
Ordumuz haqq savaşına atıldı!
Düşmənin ürəyinə güllə çatıldı.
Pirlərin, məzarların, məscidlərin, kilsələrin
özünə qayıdır, Vətən!
Füzulin, Cəbrayılın, Zəngilanın, Qubadlın

işğaldan qurtuldu,
Əsir olmuş Xudafərin Üçrəngli bayrağı
bağrına basdı,
Bax bu əsli xilasdı Vətən,
Güneyinin də üzü güldü,
İçinə sevinc töküldü.
Bəzz qalasından boylandı Babəkin nigaran ruhu,
Göylərin buludunun yox oldu ahı...
Nur etdi səhərimizi,
Qaliblik üzür boğazdan qəhərimizi.
Şuşaya taxılacaq bayraq gününə bizi daşı, Vətən,
Əsrlərin yaşı, Vətən.
Gözlərin qələbə dolu sabahlara açılsın,
İçinə nur saçılsın!
Atəşinə yandığım,
Oduna sığındığım,
Vətən....
Vətən...

07.11.2020/Qusar

GÖZÜN AYDIN OLSUN, ŞUŞA

Əsgərimiz səf bağlayıb düzülübdü sıralara,
Məlhəm çəkir otuz illik köz bağlamış yaralara,
Saf qaliblik sədamızın səsi gedir haralara...
Ordumuzun nərəsindən haray düşüb boz dağ-daşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

İndi daha başımız da sinəmizdən qalxacaqdır,
Durna gözlü bulaqların durulaşıb axacaqdır,
Nər oğullar yağıların axırına çıxacaqdır,
Açsın qoynun "Cıdır düzü" soy bildiyi hər yurddaşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Bilirsənmi içimizdə nə müddətdir həsrət gəzir?!
Sən işğala düşən gündən məmləkəti kədər əzir,
Bu gününə canımızı eyləmişik sənə nəzir,
Mənfur düşmən divan tutub, zülüm edib vətəndaşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Bölgə-bölgə yurdlarımız bu xəbəri bayram edir,
Sanki Vətən özü durub soydaşlarla bir kam edir,
Batıb qəlbdə qaranlıqlar, ürəklərlə can şam edir,
Bu payızda qurtuluşun, çıx get deyir qarlı qışa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

"Qarabağın şikəstəsi" zilə qalxsın gur səs ilən,
Xanəndələr cuşa gəlsin ruhu oxşar nəfəs ilən,
Talan olmuş Qarabağın vidalaşır qəfəs ilən,
Tərk eləsin hicran yurdu, yoxdu daha yer tələşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Azğınlaşmış mənfur düşmən günbəgündən yolun azdı,
Özün ali saydı yağı, zənn elədi el dayazdı,
Qoy var olsun Baş Komandan, yurda yeni tarix yazdı...
Əsgərimiz azğınların ümidlərin çırpdı daşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Cıdırında yallı gedən düşmənlərin talan oldu,
O basılmaz ordu mifi Ordumuzla yalan oldu,
Yurd yağıdan təmizlənir sənə sarı gələn yoldu...
Bundan sonra min illərlə şiş dağlarda məğrur yaşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Qov dumanı başın üstdən, dumanların keçər olsun,
Əyilib buz bulağından qız-gəlinin içər olsun,
İnnən belə dost-düşməni bir-birindən seçər olsun!
Üzeyirlə, Natəvanla qoy çəkilsin adın qoşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Bilirsən ki, içimizdə möhnət yükü ağır olub,
Abır-həya güdən bəzən yad gözündə fağır olub,
Haqqımızı istəyəndə çox vaxt çığır-bağır olub,
Pənahəli xanın ruhu yurdum deyir hər qarışa,
Azadlığın mübarəkdir, gözün aydın olsun Şuşa!

Bilirsən ki, səni necə azad etdi şanlı əsgər,
Qanın tökdü, şəhid oldu qəlbi vətən canlı əsgər,
Düşmənlərə qan uddurdu, yurda isti qanlı əsgər,
Qalxdı azğın yağılarla qəhrəmanlar haqq savaşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

Şadimanın müjdə dolu sözü düşüb kağızlara,
Qurtuluşu misra edən gözü düşüb kağızlara,
Bu zəfəri ərzə yayan salam olsun ağızlara,
Şad xəbərin özəlliyi gətiribdi eli cuşa,
Azadlığın mübarəkdir, gözün aydın olsun, Şuşa!

08.11.2020/Qusar.

XAN KƏNDİNƏ QAYIDIR

Dağa, daşa düşüb səs,
Dağıdılır şər qəfəs,
Gəlib Şuşaya nəfəs,
Payız zəfər ayıdır,
Xan kəndinə qayıdır.

Könlümüz cilvələnir,
Yurda sevinc ələnir,
Qəlbimizə bələnir,
Xainlərin vayıdır,
Xan kəndinə qayıdır.

O şərəfsiz Stepan,
Tökdü yurdda xeyli qan,
Qan gölü oldu hər yan,
Tarix bizi ayıldır,
Xan kəndinə qayıdır.

Yumruq təki birləşdik,
Binadan yeniləşdik,
Haqqın evinə düşdük,
Bu İlahi payıdır,
Xan kəndinə qayıdır.

Qarabağ məskənimiz,
Mənliyimiz, mənimiz,
Getdi duman, çənimiz,
Vətənin bal ayıdır,
Xan kəndinə qayıdır.

09.11.2020/Qusar

QƏLƏBƏ XƏBƏRİ ALDIM

Bu səhər qələbə xəbərin aldım,
Qələbən mübarək olsun, Ordumuz.
Fəxarət hisiylə qalxıb ucaldım,
Həmişə zirvədə qalsın Ordumuz.

Xilasa yollandı qurd oğlu qurdlar,
Yağı sinəsinə zərbə vurdular,
Düşmən tapdağından qurtuldu yurdlar,
Daima zəfərlər çalsın Ordumuz.

Tarix unutmayır mərd igidləri,
Xalqın iftixarı igid ərləri,
Töküldü döyüşdə alın tərləri-
Adın yüksəklərə salsın Ordumuz.

Qurtardı işğaldan yurd-Qarabağı,
Getdi sinələrin niskili, dağı,
Bəxş etdi millətə qələbə çağı,
Daim ucalığı bulsun Ordumuz.

Rəhmətlə anırıq Şəhidlərmizi,
Qazilər göylərə ucaltdı bizi,
Allahım qorusun Əsgərlərmizi,
Vətən keşiyində dursun Ordumuz!

10.11.2020/Qusar

XALQIN RUHUNU

Azərbaycan prezidenti
cənab İlham Heydər oğluna

Qaytardın özünə xalqın ruhunu,
Sildin ürəklərdən təslim ahını,
Doldurdun şəfəqlə yurd sabahını,
İşlətdin zəkanı, ağılı, İlham,
Vətənin fədakar, mərd oğlu, İlham.

Yurdun başı üstə gəzdi qan-qada,
Tuş oldu ürəklər ahu-fəryada,
Cəngavər ruhunla yetdin imdada,
Yox oldu düşmənin nağılı, İlham,
Vətənin fədakar, mərd oğlu, İlham.

Ikiyüz il qovulduq, qaçdıq yurdlardan,
Bir vəfa görmədik biz heç yadlardan,
Qurtardın milləti məğlub adlardan,
Xalqına sevdalı, qayğılı, İlham,
Vətənin fədakar, mərd oğlu, İlham.

Haylar yağmaladı məskənimizi,
Yurdu işğal etdi, alçatdı bizi,
Min yol ayaqladı o mənimizi,
Mənliyə diqqətli, sayğılı, İlham,
Vətənin fədakar mərd oğlu, İlham.

Otuz il çox çəkdik mənfur düşməndən,
Təsəlli verənlər dolandı gendən,
Qarabağın bəxti aslıdır səndən,
Qoymadın yolları bağılı, İlham,
Vətənin fədakar, mərd oğlu, İlham.

İradən önündə şər dünya susur,
Diz çöküb yağılar tasa qan qusur,
Tapmaq istəyirlər hər işdə qüsur,

Qəlbi məmləkətə saf bağlı, İlham,
Vətənin fədakar mərd oğlu İlham.

Bu gün azad olur əsir yurdumuz,
Düşmənin taqətin kəsir yurdumuz,
Yeni tarix yazır milli Ordumuz...
Qalmadı sinələr heç dağlı, İlham,
Vətənin fədakar, mərd oğlu İlham.

10.11.2020/Qusar

GETDİN SAVAŞA, ORXAN

Qusar rayonun Həsənqala kəndinin şəhidi Orxan Qədim oğlu İsmayılova ithaf

Ölkənin başı üstün qara buludlar aldı,
Düşmən tapdağı altda yurdlar çarəsiz qaldı,
Vətən yağıya haram, yurdaşına halaldı,
Dözmədin içimizdə daim dərd daşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Könlümüzdən ahımız dikəlmişdi Allaha,
Ümidimiz yox idi hər açılan sabaha,
İlahi dərgahında batmamaqçın günaha,
Cəhd elədin qürurun dəyməsin daşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ey Vətən fədaisi, can etdin yurda fəda,
Dilimizdə olubdu şəhid adı mübtəda,
Tükətdi könlümüzü otuz ildi qan-qada,
Qəlbi əsir etmədin heç vaxt təlaşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ey şəhidim, şəhidlik taleyində var imiş,
Dinimiz şəhidliyi ən uca məqam demiş,
İlahi dərgahına yetmək üçün kam demiş,
Kamın yetişdi yəqin mübarək başa Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Körpənin məsum üzün cəmi bir gecə gördün,
O südəmər oğlunu yuxunda necə gördün?!
Şəri əl-qolu bağlı basılmış küncə gördün,
Qəhrəmanlıq biçilib, fəqət gənc yaşa Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ananın gözü yaşlı məzarına can deyir,
Yarın qəbir daşına qəm dolu hicran deyir,
Yanır itginə Vətən, aləm həyəcan deyir,

Dikələ can ahımız şərə sarmaşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ruhuna ərz edirəm qanın yerdə qalmadı,
İşğal bitdi, Şəhidim, yurd namərdə qalmadı,
Zəfər marşı çalınır, millət dərdə qalmadı,
Yetdin şəhadətinə, dedin: El yaşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ey ana qucağından yurda düşən oğullar,
Vətən sevən qadınlar mərd igidlər doğurlar,
Qəhrəmanlar hər zaman şərin köksün boğurlar,
Sən bütün bacılarçın döndün qardaşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Ey şəhidim, gülüzlü ruhuna salam olsun,
Yaralı candan qopan ahına salam olsun,
Dilimizdə yurd eşqi müqəddəs kəlam olsun!
Zəfərmizin sədası düşüb dağ-daşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Səsimiz batmayacaq, boğulmayacaq daha,
Ah-naləmiz aləmə dağılmayacaq daha,
Bilirəm bir də səndən doğulmayacaq daha,
Övladının adında daima yaşa Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

Şadiman nəzmə çəkir adını qürur ilə,
Qəbri nurlu şəhidim, adın yaraşır dilə,
Boş yerə doğulmadın ocağına, nəsilə,
Həkk olub şəhidliyin dilsiz başdaşa, Orxan,
Silahına sarılıb getdin savaşa, Orxan.

30.12.2020

ZƏFƏRMİZƏ ŞÜBHƏ ETMƏ

Zəfərmizə şübhə etmə,
İçdə, çöldə olan düşmən.
Dilindəki sözlər boşdur,
Nə deyirsən yalan düşmən.

Ordumuz haqq davasında,
Əyilməzlik havasında,
Gəzmə özgə yuvasında,
Gəzdin oldun talan düşmən.

Bu torpağa sən gəlmə-yad,
Çıxarmısan yalançı ad,
Yurdlarımız olub azad,
Yolun üstə dalan düşmən.

Heç vaxt olmub yurdun-yuvan,
Başdan getmir hiylə havan,
Əsgərimiz tutdu divan,
Ayaq altda qalan düşmən.

Qazi-Şəhid uğurudu,
Haqqın yolu doğurudu,
Sənin adın oğurudu,
Olacaqsan nalan düşmən.

Zəfərimiz səs dünyaya,
Qalib olduq düşdün vaya,
Hər işğalçı qəsd dünyaya,
Leş-leş oldu balan düşmən.

06.12.2020

MÜƏLLİF HAQQINDA

Şirinxanım Ağabala qızı Kərimbəyli (ədəbi təxəllüsü ŞADİMAN) 2 sentyabr 1955-ci ildə Siyazən (keçmiş Dəvəçi, indiki Şabran) bölgəsinin Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra Siyəzən şəhər 2 saylı orta məktəbi bitirib. 1973-75-ci illərdə Yenikənd üzümçülük sovxozunda fəhlə,1975-76-ci illərdə Volodarski adına tikiş fabrikında tikişçi işləyib.1977-ci il-də ADU-nun (indiki BDU) hazırlıq şöbəsində dinləyiçi, 1978-83-cu illərdə Kitabxanaçılıq (indiki İnformatika fakultəsinin əyani şöbəsini bitirib. 1992-ci ildə Azərbaycan jurnalist Sənətkarlığı İnstitutun məzunu olub. 1984-cu ildə Dəvəçi rayonun (indiki Şabran), hal-hazırda Siyəzən rayonun inzibatı ərazisi sayılan Gilgilçay qəsəbəsində kitabxana müdiri vəzifəsində çalışıb. 1985-2007-ci illərdə ADNŞ-nın Mədəngeofizik idarəsinin «Neft Daşları» geofizik ekspedisiyasında cizgiçi, texnik, mühəndis peşələrində çalışıb.

2007-ci ildən həmin idarədən əmək təqaüdünə çıxıb. Əmək fəaliyyəti ilə bərabər bədii yaradıcılığını davam etdirib. Dövrü mətbuatın mətbu orqanları olan «Neft Daşları», «Ədalət», «Çənlibel», «Azərbaycan müəllimi», «Bütöv Azərbaycan», «Kredo», «Mütərcim», «Məhsəti» və sair qəzet-jurnallarda çap olunub. «Məcməüs-şüəra»(Şairlər məclisi), «Füzuli» ədəbi məclislərin üzvü olub. AYB-nın və CASCFEN(Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi)nin üzvüdür. Hal-hazırda ədəbi fəaliyyətlə məşğuldur. «Modern.az», «Yalquzaq.com», «Davam.az» «Lit.parad», «Dayaq.az» və sair internet portallarla yaradıcılıq əlaqələri saxlayır. «Azpressin» və «Kredo» qəzetinin əməkdaşıdır. Şəxsi saytı aktiv faliyyətdədir.

Müəllifin çapdan çıxmış kitabları:

1. «Ürək niyə ağrıyırsan?», (Şeirlər), Bakı-1991, «Azərnəşr», 56 səhifə, sayı 3000.
2. «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2000, AEK «Marfa press» nəşr., 400 səhifə, sayı 1000.
3. «Kiminə acı dünya, kiminin tacı dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2002, «Nurlan», nəşr., 566 səhifə, sayı 500.
4. «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» (Şeirlər, poema), Bakı -2007, «Nurlan» nəşr., 742 səhifə, sayı 500.
5. «Seçmələr» (1 cild), Bakı-2008, «Nurlan» nəşr., 292 səhifə, sayı 1200.
6. «Məni illərdən soruşun» (Publisist düşüncə), Bakı-2008, «MBM» 95 səhifə, sayı 300.
7. «Dünya mənə tanış gəlir» adı ilə «Ürək niyə ağrıyırsan?» və «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya» kitablarının birlikdə təkrar nəşri, Bakı-2009, «Nurlan» nəşr., 522 səhifə, sayı1000.
8. «Tağayım», poema, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 56, sayı 500.
9. «Ay adamlar, mən burdayam», «Adiloğlu» nəş. Bakı-2012 səhifə 454, sayı 500.
10. «Seçmələr», 2-ci cild, Bakı-2012, «Adiloğlu» nəş., səhifə 326, sayı 1200.
11. «Ötənlərdən gələn səslər», « Qanun» nəş. Bakı 2013, səhifə 632, sayı 500.
12. «Ötənlərdən gələn səslər», 2-ciild, «Qanun» nəşriyatı., Baki 2014, səhifə 480, sayı 500.
13. . «Seçmələr», 3-ci cild, Bakı-2015, «Qanun» nəşriyatı, səhifə 438, sayı 750.
14. «Seçmələr», 4-ci cild, Bakı-2015, «Qanun» nəşriyatı,Səhifə 360, sayı 750.
15. «Söz könlümü qələm etdi» /publisistik düşüncələr/ Bakı-2016 «Qanun» nəşriyatı, səhifə 288, sayı 500.
16. «Tək Yaradana gümanım» Bakı-2017, (Şeirlər, poemalar) «Qanun» nəşriyatı, səhifə 480, sayı 500.
17. «Seçmələr», 5-ci cild, «Qanun» nəşriyatı, Bakı-2017. Səhifə 464, sayı 500
18. “Yol gedirik”, «Qanun» nəşriyatı, , Bakı-2018 Səhifə 596, sayı 500

Müəllif və əsərləri haqqında çap olunmuş kitablar:

1. «Adı Şadiman olanın», Əli Rza Xələfli, Bakı-2009, «Təknur» nəş., səhifə 256, sayı 1000.
2. «Axtala əfsanəsi», Əli Rza Xələfli, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 144, sayı 500.
3. «Üç rəngli bayrağa bürünmüş şairə» Nəzirməmməd Zöhrablı, Bakı-2010, «Adiloğlu» nəşr., 148 səhifə, sayı 500.
4. «Qırmızı həqiqətlər», Əli Rza Xələfli, Bakı-2011, «Adiloğlu» nəşr., səhifə 130, sayı 500.

MÜNDƏRİCAT

Ömrün qanadları /ön söz əvəzi/ 3

KÖNLÜMƏ DÜŞƏN TANRI

Bağlı qapıları açan İlahi 5
Haqqa səcdə edirəm 6
Endirə bilməm 7
Göylərə apar 7
Yaranmışıq biz 8
Yeni il duası 10
Sənə ürəyimlə səcdə edirəm 11
İlahi, mənə bir yol aç 12
Özümdən qoparan 13
Yerim yox daha 14
Məni çağırır göyə 15
Mənə bir təsəlli ver 16
Burax məni 17
Nə baş verir 18
Nəsib olmayir 19
İncitdim ruhum 19
İlahi ruhumu çağır göylərə 20
Çəkilmək istəyir 21
Yoruldum, Allah 22
Həqiqətdir haqq açarı 23
İnsan enerjisi 24
Göylər çagırır məni 25
Azan səsi 26
Bilrsən ki 27
İlahinin mahiyyti sevgidir 28
Kimsəyə yaşatma 29
Gedirəm göyə 30
Kainatın zərrələriyik 31
Bilmirəm, Allah 32

DÜNYANI BELƏ GÖRDÜM

Kimə deyək dərdi biz 34
Dünyanı belə gördüm 35
Niyə gəlib, niyə gedir 36
Ömür yükümdür 37
Terror 38
Öz sözü var 39
O dünyaya 39
Heç bilmirəm 40
Dünyanın tərs silləsi 41
Düşüb vəlvələ 41
A yazıq dünya 42
Çıxım gedim 43
Qul olmaq dünyada ən agır cəza 44
Göylərə uçdu 46
Gəzir hiylələr 47
Dünyanın nizamını pozanlar 48
Sənin ağrını 50
Nəyin çatmır, ey adəm 50
Xilasa aparın bizi 51
Dəyişə insanın ağlı 53

CAN, VƏTƏN

Səhərin müjdəylə açılsın 54
Şirvanşahlar sarayı 55
Qaldırın qiyməti 56
Dinmə, danışma, bala 56
Bir ovuc haram yeyən 57
Fəlakətə çəkənlər 58
Çökmə gedir ölkədə 59
Türküm mənim 60
Can qurban eylədi 61
Ay dəmir alan 62
Ayılır torpaq 63
Od tutub yanır 64
Vətən dedilər 65
Cəngi havası 65

Pulu pulla tutan kişi 66
Şəhid Zəhra 66
Gəlir sorağın 68
Vətən tərəfə 69
Yurdumun cəsur qızı 70
Şəhidlər 71
“Deyirlərə” deyirlər 72
Yurdu yada satanlara 74
Yol bağlı Şuşaya 75
Durun gedek Qarabağa 76
Bu il də köçüb gedir 78
Candan sevənlər 79
Yorulduq oynamaqdan 80
Bu dərdi deməyə dilim gəlməyir 81
Şəhid sorağı 83
Deyən olmadı 84
Əsgərə məktub 86
Ruhumu oynatdın 88
Görüşünə gəldim 89
Bir iqid tapşırdı vətən məzara 90
Məzar daşı 91
Biz niyə təslimçi olduq 92
Yuxuma gəlmişdi Vətən 94
Ürək tutmayır 95
İşğal altda yurdumuz 96
Lazım gəlib çıxmayır 98
Qalx ayağa 99
Gözümüz yolunda “Barış pinarı” 100
Bütövləş Azərbaycan 102
Yoxluğuna ürəyimiz yanacaq 104
Tükənməz eşqi var 105
Dərdln çəkilməzdir 106
Sənsən vətən 107
Vətənə qurban olsun 108
Gül ey şeyda gülüstanım 108
Yalan ayaq tutub 110

Şıdırğı yağışlar yağır 111
Yeni il 112
Haqqı yazan 112
İşığımız sozalmasın 112
Uşub gedən gəncliyim 113
Fcebook 114
Arasında qalmışam 114
Yoxdu hamar həyat 115
Bir ömürdür 116
Gəl işəri doğum günüm 116
Nə qanırsan 118
Hər günüm 118
Nisyə dəftəri 119
Dosta məktub 120
İlin uzun gecəsi 122
Bu gün sənin doğum günün 123
Ay əzazil qaynana 124
Telefondan yapışan gəlin 126
Atam evi 128
Həyata gülməsəyin 129
Yorma məni, ey həyat 130
Zaman hər şeyi həll edir 130
Gəlbimi bulaşdırmısan 132
Həyat gülür 133
Sehiri var 133
Qamış evim 134
Bu küçənin qadınları 136
Hicran oduna 138
Olum buludun göz yaşı 139
Ömrə qısılıb qalmışam 140
Varlığına sığındığım 140
Sənin haran anadı 141
Əgər dərdə əyilsən 142
Dildən düşmür 143
Ömür, məni götür qaçır 144
Kimə inandımsa 145
Boylanan mənim 146
Günəşi batır 147

Gizlicə....148
Üzünün donu....149
Buraxma əldən....150
Tablaşıram sənin üçün....150
Edam axtarır....151
Yaş tökülür ürəyə....152
Baş aşmaq olmur....153
Çox çalışdım....154
Yaxşılığı asdılar....155
Bir ömür yaşadım....156
Nəyi pis eylədim....157
Üzülüb qalıb....157
İdrakı ver yuxuya....158
Özündən deyən adamlar....158
Gəldiyim kimi....160
Yükləmə qəmi ürəyə....161
Daşıyıram içimdə....162
İçimdə hönkürən....163
Gəzib aradım....163
Günə düşdüm....164
Boş olanda....165
Aparır məni boşluğa....166
Yandırır məni....166
Ürəyimə buraxmışam....167
Xoş olmalı ovqatım....168
Düşməyə insan....168
Canlı heykəllər....169
Burax məni çıxım-gedim....170
Tərəzi əyildi....171
Atalı,analı günlərim....172
Ağrıyan başım....174
Üşüyürəm soyuqdan....174
Xətrimə dəyməyin....175
Puç olanda....176
Xəbər gəlmədi mənə....177
Həqiqət öz yerin tapınca....178
Unudulmuş kimiyəm....179
Yadıma düşdü....180
Gedir məhvə....180

Baxan təbim....182
İncə-incə....182
Bir dərin quyuyam....183
İlham vəcdə gələndə....184
Ağla şeir....185
Ağrıların tellərindən....185
Ümid Buludları....186
İçimdə yaz küləyi....186
Eşq adamı yaşadır....187
Şairi qınaq etməyin....187
Sükuta nəğmə m....188
Sənə qurban olum....189
Yaman inciyirsən....190
Bulud gəlibsə....190
Sözə qaçma....191
Dəli yel kimi....192
Mən könül vermişdim....193
Soruşma halımı....193
Zamanımla qoyub üz-üzə....194
Bu adam....195
Nə var ki....195
Zaman oturub çiynimə....196
Var olandan....196
Dik durmağı bacar ürək....197
Nə gəzirsən şair olan....198
Enənlərdən....199
Baş işləyir, əl yazır....200
Qəlbim oyana....201
Dərdimi sözə deyirəm....202
Boşa uçurtdum....203
Yuva qurmuşam....203
Sözlər axır könlümə....204
Tələsmə ürək....205
Çəkilib dərdim içimə....206
Aparır məni uzağa....207
Qubar tutub....208
Sözün yolu....208
Alıb üstümü....209

Qurma ürəyimdə....210
Sözün rəsmini....211
Uzun yolun yolçusuyam....212
Bük məni sözə....213
Sözüm səni üzə çəkdim....214
Çarpışırıq həyatla....215
Ömür yükü....216
Ağrılarıma dözənim....216
Daha gətirmə....217
Yeri var....218
Ömür-günü ağlatdılar....219

MƏHƏBBƏT RUHUN ÇIRAĞI

Məni görmək üçün....220
Peyman bağlamışıq....220
Ömür sürürsən....220
Doğurum səni....221
Sənsiz döyünmədi....221
Qırıldı nəsə....222
Yaman tələsdim....223
Gəl unudaq....224
Özün yanacaqsan....224
Mehriban baxış....225
Ruhumu oğurlamısan....226
Nə edim....227
Sən orda yan, mən burda....228
Candan əziz yarımsan....228
Deyirsən ki, başlayaq....229
Gəlirsənsə....230
Gəl gedək....231
Yuxum qaçıb....232
Kimdi sənin ürəyində....233
Sevda yerini....233
Ya mən gəlim,ya sən gəl....234
Səni duymaq üçün....234
Qonaq etmişəm....235
Tökərəm yaşı....235
Ürəyimi biləsən kaş....236
Qəlbin gəzir məni....237

Gələsən üz-üzə 238
Gələn kişi....238
Könül xoşluğum....239
Məni yandırır....240
Unudaq bir-birimizi....240
Boy göstərə diləklər....241
Qurban olum....242
Getmək istədin....242
Qərib gecə....243
Can deyək....244
Oxu eşqimi....244
Sənin adını deyir....245
Sənsiz günüm qara....246
Mənə lalə yollayan....246
Gəl könlümə....247
Bir-birin....248
Sən deyən tərəfə....248
Axı necə birik biz....248
Niyə sevdin sən məni....249
Ürəyimə dedim ki....250
Özün yaz indi....250
Gələm sabah görüşə....251
Kabustək izləyir məni....251
Gəl görüşək....252
Bu gecə səndən yazacam....253
Ağrı vurub getdin....254
Ağrına qurban olum....254
Otaqda nəfəsin qalıb....255
Xəyalında yaşayacam mən....255
Yandırsın səni....256
Ürəyimə köçürtdüm daha....256
Ağladıram dözymü....257
Külək kimi....258
Vüsaldan ucadı....259
Niyə sevdin....260
İşığına sığınmışam....261
Adsız məktub....262
Küsüb-gedib ürəyim....264
Gəl sil özün....265
Qonaq gəlib xəyalın....266

Boylanım Xəzərə sarı 267
Deyirsən darıxmırsan 268
Gör nələr edirsən....269
Bir işıqam mən sənə....270
Sən məni niyə sevdin 270
Bu eşqə inandırma 271
Şəkilnə baxıram....272
Apar məni buralardan....272
Kül üfürmə 273
Nə vaxtsa ayrılarıq biz....274
Sən də ürəyimə çəkirsən dağı....275
“Mənim evim sənsən” demişdin....276
Ürəyimə salmışam səni 276
Günün necə keçir 277
İnanmışdım....278
Əlimdən düşüb qələmim....278
Yollara çox baxdım 279
Bilsən necə sənsizəm....279
Sevgi yükünü....280
Od vursan mənə....281
Həsrət dolu günlərim 282
Eh bilmirsən....282
Görə bilmirəm....284
Kam etmişəm eşqini 285
Eşq dolu ürək vermişəm....286
Sənə dikilmiş yollar....286
Nə uzaq düşmüsən....287
Hələ ki, birləşə bilməyirik biz 288
Çağırma məni görüşə....288
Könül səndən qaça bilməz 289
Bu sevgimi....290
Bəs neyləyim 291
Məndən incimisən....291
Bir yük olub....292
Saxla məmi....293
Ürəklər bir olarsa 294
Yaman darıxmışam....295
Bilsən necə sənsizəm....296
Alışıram oduna....297
Ürəyimə düşmüsən....298

Zəng elə....298
Bu necə eşqidir....299
Ömrümə sığındığım....300
Gözümə görünür əksin....301
Məni elə sevərsən....302
Məni eşqə qulun etdin....302
Sevginin ətri....303
Məhəbbət deyil....303
Eşqini qucaqlayıram....304
Sən mənim neyimə aşiq olmusan....304
Dərdimi böyütdün mənə....305
Bir yuxusan....306
Bəlkə yarın mənəm....306
Ürəyimə köçürmüşəm mən....307
Məni sevirsən....308
Ürəyimin oğrusu....308
Qaldır özünü gözümdə....309
Necə olacaq....310
Yuxumdan çıxmayırsan....310
Köçürmüşəm mən....311
Gözümdən yaş damır....312
Gələsən gərək....312
Ayrı saymıram....313
Səssiz sevəcəyəm....314
O günlər harda qaldı....314
Yandır ürəyimi....315
Ayrılıq bir tikandır....316
Ləzət etmir....316
Təsəllisən ürəyimə....317
Biz niyə sevirik....318
Dolanırsan qarşımda....319
Doldur nəfəsimə....320
Bu sevgi hardan gədi....320
Qəlbimə girmişdin mənim....321
Duman bürüyüb....322
Şəkillərdən baxacam sənə....323
Baş açа bilmirəm....323
Düşürsən yadıma....324
Nə müddətdi....324
Yüklə ürəyimə....325

Getdin ürəyimdən 325
Başım qarışıb 326
Gəlirsən yuxuma....326
Bu nağılı bitirməyək....327
Günü qəlbdə keçənin....328
Qısqanırsan sən məni 328
Kilidlədim ürəyimi....329
Niyə qısqanırsan....330
Kül etdin məni....331
Sən nə bilirsən....331
Ürəyimin sahibi sənsən 332
Gəldim üzünü görməyə 333
Sirr etmişəm mən 333
Sevirsən axı....334
Ürəyim səni istəyir 335
Yaman yerdə haxladı....336
Demək səni sevirəm....337
Ucalt mənimçün....338
Çox yaraşır 339
Çiçəkləri könlümün 339
Minnətdaram....340
Yollarında qalmışam 340
Mənim ürəyimdə....341
Seviriksə....342
Şimal küləyitək soyuqsan 343
Məftunun olmuşam....344
Zalım həsrət....344
Nə gəzirsən ürəyimdə....345
Tapınmışam mən....346
Bükmə ürəyimi....346
Al könlünə....347
Çək məni öz könlünə....347
Can evinə gəlmişəm....348
Pıçılda gəlbini 349
Gəl olaq nəfəs 350
Bildiyin kimi....351
Ürəyimin sahibi....351
Qısqanıram mən....352
Qoxla könlümü....353
Ürəyimi bəzəmirsən....353

Könlümün qapısı açıq....354
Sevirəm səni....355
Sükut səsinə....355

YADA DÜŞƏR XATİRƏİƏR

Asta-asta döyür....356
Xuraman....357
Tələbə yoldaşlarım....358
Niyə düzəlmir....360
Əskik olmayır....361
Zülüm oldu Nərminə....362
Bağa sığınan ömür....364

TƏBİƏT SEHRİNƏ GƏL

Payız axşamı....367
Təbiət sehrinə gəl....368
Albalı ağacı....369
Dilə gətirdin....370
Rəqs edən yağış....370
Yaşıl köynəyini geyinib....371
Ürəyim qan oldu, lalə....372
Ən uzun gecə....372
Ruhumu silkələyən payız....373
Həsənqala yağışı....374
Bu yerin buludları....375
Yayın isti günləri....375
Könlümə yağma yağış....376
Qap-bacadan boylanır....377
Payızın son anları....378
Yenə də göylərdən boylanır....379
Ürəyimə qar düşür....380
Böyük çillə....381
Kiçik çillə....382
Güllü bahar gəlib bizə....383
Çərşənbə....384
Su çərşənbəsi....385
Od çərşənbəsi....386

Yel çərşənbəsi 387
Torpaq çərşənbəsi 388
Yandırırsan 389
Qara yaz 389
Qar içində üşüyürsən 391
Güllərim 392
Yalan nə söyləyim 392
Aprel qarı 394
Sehrinə düşmüşəm 395
Mart çiçəyi 396
Açılıb güllü bağçalar 397
Yağış duası 397
Çaxdı keçdi 398
Alıb könlü 398
Göyün yağışı 399
Bu payız axşamı 400
Xəzrisi avazlı qar 400
A qızıl gül 401
Gəldi payiz, düşdü xəzan 402
Ələn yağış 403
Gecə yenə bürünmüsən 404
Nədən fikirlisən 404
Bahar gəlsin 405
Əsir xəzri küləyi 406
Yaz havası 408
Qışla yazın savaşı 410
Ey bahar 411
Bürüyüdü bağçanı 413

RUHDAN, CANDAN DOĞAN QƏZƏL

Ruhuna pərvaz kimiyəm 414
Bu kəndin səhəri 414
Ey adam 415
Gecə yarı 416
Səndən ötəri ahımı uddum 416
İlahi, eylə mənə eşqüvü izhar 417
Qurbanın olum 418
Ey ürək 418
Bu cahanda 419

Yükün ağırdı, ey Xuda 419
Qıydım hər bir ağrını 420
Mən eşqinə yar etmişəm 421
Qaldım ay aman 421
Bircə kərə yan vətənə 422
Etmə könlüm evini ağrıya pünhan 422
Bunu aləm bilir 423
Nə sən çıxdın qəlb evindən 424
Əgər yoxdur qəlbində 424
BAYATILAR 425
DÖRDLÜKLƏR 433
İKİLİKLƏR 466

NƏZM HEKAYƏLƏR

SAHİBSİZ EV 478
ACI HƏQİQƏT 496
QARSIZ GƏLDİ YENİ İL 506
RUHUMA MƏKTUB 510
ÖMRÜN RƏBAYƏTİ 513
DEDİKLƏRİM 524

ƏDƏBİ DÜŞÜNCƏLƏR

BİR YARPAQ SÖZÜM 546
HÖRMƏTLİ ƏKBƏR CABADOVA MƏKTUB 550
MƏNƏVİYATSIZLIĞIN ACI NƏTİCƏLƏRİ 552
GƏNC YAZARIN DÜŞÜNCƏLƏRİ 555
SÖZÜM SİZLƏRƏDİR 557
İNTİHAR FİKRİNƏ DÜŞƏNLƏRƏ 558
İLYAS TAPTIĞI ANARKƏN 559
GÜNÜN GERŞƏKLİYİ 559
101 İL ÖNCƏ 560
DÜŞMƏNƏ YAS TUTANLARA İPUCU 561
QANLI YANVAR 562
23 YAŞLI DAHİ 563

İKİNCİM QARABAĞ MÜHARİBƏSİ VAXTI YAZILMIŞ ŞEİRLƏR

AZƏRBAYCAN ƏSGƏRİ 564
VƏTƏNİN XİLAS SAVAŞI 566

BU GÜN ZƏFƏR BAXTIDIR....567
ALİ BAŞ KOMANDANIM....568
ALLAHA İNANANA NƏZHƏB LAZIM OLMAYIR....570
BİR RİCAM VAR SƏNDƏN PAYIZ....571
ALLAHA ƏMANƏT OLASAN VƏTƏN....572
XUDAFƏRİN KÖRPÜLƏRİ....573
YÜRÜ ƏSGƏR, YAĞI ÜSTƏ....574
TORPAĞA GÖMÜLÜB....576
BOYLANAN BULUD....577
DÖYÜŞƏN VƏTƏN....578
HAYSAN HAY....578
AZAD OLUR YURD – YUVALAR....581
XOŞ OLSUN....582
OYANAN VƏTƏN....583
ALPAN ALBAN OLDU....584
YENİ TARİX YAZIRIQ....585
AÇ QOYNUNU....586
VƏTƏN, SƏNƏ CANIM FƏDA....587
BİZİ NECƏ AĞRITMISAN....588
ALLAHIN EVİNDƏ....589
YAHUDİ XALQI....590
DAYAĞIMIZ OLMUSAN....592
ÜZ-ÜZƏYİK BİZ....593
ODUNA SIĞINDIĞIM VƏTƏN....594
GÖZÜN AYDIN OLSUN, ŞUŞA....596
XAN KƏNDİNƏ QAYIDIR....598
QƏLƏBƏ XƏBƏRİ ALDIM....599
XALQIN RUHUNU....600
GETDİN SAVAŞA, ORXAN....602
ZƏFƏRMİZƏ ŞÜBHƏ ETMƏ....604

MÜƏLLİF HAQQINDA....605

Müəllifin çapdan çıxmış kitabları....606
Müəllif və əsərləri haqqında çap olunmuş kitablar....607
MÜNDƏRİCAT....608

Şirin Xanım
Kərimbəyli Şadiman

ÖMÜR YÜKÜ
(Şeirlər, Nəzm hekayələr, Publisistik məqalələr)

Dizayner: Rafael Qasımov

Çapa imzalanmışdır: 01.02.2021
Kağız formatı 60 x 84 1/16

Həcmi: 39 ç.v. Sayı: 300

Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9
Tel:(+994 12) 431-16-62, 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublshing